ISSN 2409-0859

AZƏRBAYCAN RESPUBLİKASI
TƏHSİL NAZİRLİYİ

BAKI DÖVLƏT UNİVERSİTETİ

SOSİAL VƏ HUMANİTAR ELMLƏRİN MÜASİR PROBLEMLƏRİ

ELMİ ƏSƏRLƏR TOPLUSU

BURAXILIŞ № 29
(I HİSSƏ)

BAKI – 2022

ISSN 2409-0859

Azərbaycan Respublikası Ədliyyə Nazirliyi, mətbu nəşrlərin reyestrinə
daxil edilmə nömrəsi: **3885, 25.05.2014-cü il.**

Ünvan: 1148, Azərbaycan, Bakı, Z.Xəlilov, 23, Bakı Dövlət Universiteti, 2 korpus, otaq 812, tel. 012 438 14 47, sayt http://sociology.bsu.edu.az/
E-mail: q.abbasova@mail.ru

Sosial və humanitar elmlərin müasir problemləri. Ali məktəblərarası elmi əsərlər toplusu. Buraxılış № 29 (I hissə). Bakı: 2022, 279 s.

Redaksiya heyəti

Rövşən Əli oğlu Cavadov, fəlsəfə üzrə fəlsəfə doktoru, dosent, BDU
Rəbiyyət Nurullah qızı Aslanova, fəlsəfə elmləri doktoru, professor, BDU
Əziz Bəşir oğlu Məmmədov, fəlsəfə elmləri doktoru, professor, BDU
İzzət Əşrəf oğlu Rüstəmov, fəlsəfə elmləri doktoru, professor, BDU
Rəna Fuad qızı İbrahimbəyova, psixologiya üzrə fəlsəfə doktoru, professor, BDU
Zeynəddin Camal oğlu Hacıyev, fəlsəfə elmləri doktoru, professor, BDU
Bəxtiyar Həmzə oğlu Əliyev, AMEA-nın müxbir üzvü, psixologiya elmləri doktoru, professor, BDU
Kamilə Ramiz qızı Əliyeva, psixologiya elmləri doktoru, professor, BDU
Tatyana İvanovna Bilenko, fəlsəfə elmləri doktoru, professor, Droqobıç dövlət pedaqoji universiteti (Ukrayna)
Sergey Nikolayeviç Volkov, fəlsəfə elmləri doktoru, professor, Penza texnoloji akademiyası (Rusiya)
Ləzifə Nağı qızı Qasımova, pedaqogika elmləri doktoru, professor, BDU
Hikmət Əbdul oğlu Əlizadə, pedaqogika elmləri doktoru, professor, BDU
Qəmər Cəfər qızı Mürşüdlü, fəlsəfə üzrə fəlsəfə doktoru, dosent, BDU
Kəmalə Həsən qızı Pənahova, fəlsəfə üzrə fəlsəfə doktoru, dosent, BDU
Qızılgül Yasin qızı Abbasova, fəlsəfə elmləri doktoru, professor,baş redaktor, BDU
Daxil Cahangir oğlu Vəliyev, fəlsəfə üzrə fəlsəfə doktoru, redaktor müavini, BDU
Vüsalə Kərəm qızı Musayeva, buraxılışa məsul redaktor, BDU

Topluda müasir dövrün aktual problemlərindən bəhs olunur. Məqalələrdə müəlliflər tərəfindən qaldırılan məsələlərin geniş çeşidi dünyamızın tarix, fəlsəfə, politologiya, sosiologiya, pedaqogika, psixologiya, iqtisadiyyat, mədəniyyətşünasliq, sənətşünaslıq və digər sosial-humanitar sahələrdə baş verən proseslərə bir çox yeni aspektlərdən nəzər salmağa imkan verir. Toplunun materiallarından elmi işçilər, ali və orta ixtisas məktəblərinin humanitar fənləri tədris edən müəllimlər, tələbələr və aspirantlar faydalana bilərlər. Məqalələr müəlliflərin redaktəsi ilə çapa verilmişdir.

FƏLSƏFƏ

CÜBRAN XƏLİL CÜBRANIN DÜNYAGÖRÜŞÜNÜN ƏSAS MAHİYYƏTİ

Agabəyova Ülviyyə Rizvan qızı,
BDU-nun Fəlsəfə və mədəniyyətşünaslıq kafedrasının dosenti
ulviya.agabeyli@mail.ru

Açar sözlər: Cübran Xəlil Cübran, Şərq ruhu, sentimentalizm, gözəllik, ədalət, cəmiyyət, Allah, təbiət.
Ключевые слова: Джубран Халил Джубран, дух Востока, сентиментализм, красота, справедливость, общество, Бог, природа.
Keywords: Jubran Khalil Jubran, the spirit of the East, sentimentalism, beauty, justice, society, God, nature.

XIX əsrin sonlarında ərəb ölkələrində meydana gəlmiş fəlsəfi cərəyanlar, ideoloji təlimlər, konsepsiyalar öz inkişafını sonrakı əsrdə də davam etdirmiş, hakim din olan İslamla, eyni zamanda Misirdə, Suriyada, Livanda və bir sıra ərəb ölkələrində kifayət qədər yayılmış xristian dini ilə sıx bağlı olmuşdur.

İyirminci əsrin 20 - 30-cu illərində ekzistensializm, kartezianlıq yayılmaşa başlayır. İkinci dünya müharibəsinin bitməsi, milli-azadlıq hərəkatının inkişafı Müsəlman Şərqində fəlsəfi fikrin inkişafı üçün dönüş nöqtəsi idi.

Şərq aləmində, eləcə də ərəb dünyasında iyirminci əsrin əvvəllərində xalqların "oyanış" mərhələsinə qədəm qoyması milli azadlıq hərəkatlarının geniş vüsət alması və ərəb dövlətlərinin müstəqillik əldə etməsi ilə xarakterikdir. Ərəb ölkələrində baş vermiş ictimai - siyasi hadisələr öz təsirini fəlsəfəyə də göstərmişdi. Həmin dövrün böyük simaları olan Əmin ər-Reyhani, Rəşid Rida, Cübran Xəlil Cübran, Mixail Nüaymə, Mahmud Əmin əl-Əlim ərəb fəlsəfi fikrinin inkişafında və formalaşmasında mühüm rol oynamışlar. Amerika Birləşmiş Ştatlarına köç etmiş ərəb ziyalıları arasında vətəninə sadiq, dilinə, mədəniyyətinə sahib çıxan söz ustadları Əmin ər-Reyhani, Cübran Xəlil Cübran, Mixail Nüaymə

Şərq - ərəb ruhunu qoruyub saxlamağa və tərənnüm etməyə müvəffəq olmuşlar.

ABŞ-da "Qələmlər birliyi" cəmiyyətini yaratmış Cübran Xəlil Cübran ətrafında çoxsaylı ərəb mütəfəkkirlərini toplamış və ərəb poeziyasını, ərəb fəlsəfi baxışlarını təbliğ etmişdir.

XIX əsrin sonu, XX əsrin əvvəllərində Livanda Osmanlı imperiyasının sərt rejimi zamanında baş verən dini qarşıdurmalar və eyni zamanda milli-azadlıq hərəkatının geniş vüsət aldığı bir dövrdə yaşamış Cübran Xəlil Cübran xristian ailəsində dünyaya göz açmış, kiçik yaşlarında ailəsi ilə birlikdə ABŞ-a köç etmişdir. Livan və Amerika filosofu, rəssam, yazıçı və şair kimi şöhrət qazanan, uzun ömür sürməyən Cübran 1883-cü ildə Livanın şimalında yerləşən Bşarra kəndində doğulmuş, 1931-ci ildə Nyu-Yorkda dünyasını dəyişmişdir.

Yazıçı və şair kimi şöhrət qazanan Cübran rəssamlıq sənətinə də rəğbət bəsləmiş, kiçik yaşlarından rəsim çəkməklə məşğul olmuşdur. ABŞ-a köç etdikdən sonra Bostonda məktəbdə təhsil almış, oranın mədəniyyəti ilə tanış olmuşdur.

"Suriya-Amerika məktəbi"nin nümayəndəsi olan Cübran həm ərəb, həm də qərb mədəni dəyərlərini inkişaf etdirmiş və onların sintezinə çalışmışdır. "Musiqi", "Çəmənlər gəlinləri", "Qırılmış qanadlar", "Göz yaşı və təbəssüm", "Tufanlar", "Qəribələr və ecazkarlar", "Divanə", "Sələf", "Peyğəmbər", "İsa insan oğludur", "Peyğəmbər bağı" və s. əsərlər Cübranın qələminin məhsuludur.

"Çəmənlər gəlinləri", "Üsyankar ruhlar" əsərlərində yazıçı Livan xalqının acınacaqlı həyatından, cəmiyyətin qüsurlarından, ədalətsizlikdən, qadın

hüquqsuzluğundan, eyni zamanda da ilahi gözəllikdən bəhs etmişdir.

Cübran Xəlil Cübran yaradıcılığının ilk çağlarında sentimentalizmə meyl etmişdir. Bunun əsas səbəbi uşaqlıq illərinin agır və acınacaqlı keçməsi, zaman-zaman ömrünün müəyyən mərhələlərində həyatın amansız şiddətləri ilə üzləşməsi olmuşdur.

"Qırılmış qanadlar" povestində mütəfəkkir öz şəxsi həyatı haqqında məlumat verir. Mənsur şeirlərindən ibarət olan "Göz yaşları və təbəssüm" kitabında isə sevinc və kədər, sevgi və hicran, göz yaşı və təbəssüm kimi bir-birinə

zidd keyfiyyətlərdən danışır [5, s.14, 21].

Sonradan ərəb dilinə tərcümə edilmiş "Peyğəmbər", "İsa insan oğludur", "Divanə", "Yer allahları" əsərləri ingilis dilində yazılmışdır. Böyük ərəb mütəfəkkiri Əmin ər-Reyhani deyirdi ki, "Peyğəmbər" əsəri Cübrana şöhrət qazandırdı və "Qərb oxucusunu Şərq koloriti ilə məftun etdi". Kitabda özünü dərketmə, azadlıq, qanun, təhsil, din, nitq və gözəllik haqqında problemlər öz əksini tapmışdır. Cübran əsərdə insanları ədalətli, insanpərvər, xeyirxah olmağa səsləyir. "Peyğəmbər" əsəri Nitşenin əsərlərinin təsiri altında yazılmışdır. Zərdüşt Nitşenin özü olduğu kimi, "Peyğəmbər" əsərində əsas obraz olan Mustafa da Cübranın özüdür [5, s.29-31].

Cübran Xəlil Cübran Şərq ruhunu, Şərq mənəviyyatını, onun ecazkar mədəniyyətini ABŞ-da onların öz dilində yüksək səviyyədə təqdim etməyə nail olmuşdur. Amerikada yaşamasına baxmayaraq, Şərq ruhunu, ərəb mədəniyyətini cəsarətlə təbliğ etmişdir.

Mütəfəkkirin dünyagörüşünə Qərb mütəfəkkirlərinin, əsasən də U.Bleykin, F.Nitşenin, U.Uitmenin böyük təsiri olsa da, onun yaradıcılığının əsasında Şərq mənəviyyatı dayanır. Cübran Nitşedən fərqli olaraq öz yaradıcılığında asan şəkildə Qərb təfəkkürü ilə Şərq ruhunu birləşdirməyə nail ola bilmişdir. Çünki Cübranın təkcə düşüncəsi deyil, ruhu da, canı da bütöv Şərq idi.

Cübran əsərlərində fəlsəfi problemlərə toxunmuş, Allah və onun mahiyyəti, insan və onun cəmiyyətdəki yeri, insan və təbiət, insan varlığının mahiyyəti, gözəllik və sevgi haqqında fikirləri əks etdirmişdir.

"Qırılmış qanadlar" romanını şair öz həyatına həsr edərək, sonu faciə ilə bitən sevgidən, qadın hüquqsuzluğundan bəhs etmişdir.

Yazıçı "Gözəllik mahnısı" əsərində estetik görüşləri irəli sürür və göstərir ki, gözəllik təkcə zənginlərə aid deyil. Gözəllik bütün insanların müqəddəs mülküdür [6, s.86, 97].

Cübran "Göz yaşı və təbəssüm" kitabında da gözəllik haqqında məsələlərə

toxunmuşdur. Cübrana görə, gözəllik yaradılışın kamilliyində təzahür edir.

Gözəllik idrakın işıq saçmasıdır. O, hesab edirdi ki, Gözəlliyə inanan kəsin həyatı səadət dolu eşq mənbəyinə çevriləcək. Gözəllikdə şübhəni aradan qaldıran həqiqət və sizi yalan zülmətindən çıxaracaq nur vardır. Yazın gəlişini, səhərin dogmasını seyr edənlər Gözəlliyi görənlərdir. Quşların cəh-cəhəsinə, yarpaqların xışıltısına, bulaqların zümzüməsinə qulaq asanlar Gözəlliyi eşidənlərdir. Körpənin məsumluğuna, gəncin zərifliyinə, yetkinin gücünə, qocanın müdrikliyinə fikir verənlər Gözəlliyə diqqət edənlərdir. Qamətin sərvliyinə, saçların zülmətinə nəğmə qoşanlar Gözəlliyi öyənlərdir. Bədəni gözəllik məbədinə, ürəyi eşq qurbangahına çevirənlər Gözəlliyin səxavətini görənlərdir [1, s. 86].

Xəlil Cübran gözəlliyə dəyər verir və qeyd edir ki, əgər sən gözəllik haqqında nəğmə oxusan, quru səhralıqda tam tənhalıqda olsan belə, səni eşidəcəklər. Biz ancaq onun üçün yaşayırıq ki, gözəlliyi kəşf edək [1, s. 215-216].

Mütəfəkkir üçün gözəllik hər şeydən üstündür, hətta elmdən də, dindən də. Cübran deyir: "Gözəlliyin hüdudlarından kənarda nə din var, nə də elm var" [1, s. 220].

"Ermiş" ("Peyğəmbər") əsərində Xəlil Cübran yenə də Əl-Mustafanın dili ilə Gözəlin keyfiyyətlərini, əsas xüsusiyyətlərini açıqlayır: "Gözəl qarşınıza çıxmazsa, onu harada axtaracaqsınız? Sözlərinizi toxuyan Gözəl olmasa, onun haqqında necə danışa bilərsiniz? Kədərli və incimiş Gözəl mərhəmətli və qoruyucudur. Eyni zamanda, Gözəllik qüdrət və qorxu verəndir. Gözəllik altımızdakı yer üzünü, üstümüzdəki göy üzünü silkələyər. Yorgun Gözəl isə yumşaq bir fısıltı kimi ruhumuzun içində danışar" [2, s.65].

Cübran Xəlil Cübran fəlsəfi görüşlərində Allah, aləm, ruh haqqında problemlərə toxunmuşdur. Mütəfəkkirin fikrincə, Allah mütləq reallıqdır, aləm əksliklərin vəhdətidir. İnsanın allaha qovuşması üçün şəxsi azadlığından imtina etməli, müstəqilliyini itirməli, özünü Ona həsr etməlidir. Ruh haqqında fikirlərində isə Cübran qeyd edirdi ki, ruh bədənə nisbətdə ilkindir. Mütəfəkkir göstərirdi ki, elm düşüncədən hasil olur. Gözəllik ağılla duyğunun vəhdətidir. Eşq, gözəllik,

xeyir birlikdə mövcuddur.

Cübran yaradıcılığında insan problemi mühüm yer tutur. O, göstərirdi ki, insan "yaradılışın nəhəng daşıdır". İnsanlar üç növdür: birincilər həyata lənət oxuyur, çünki onlar talesizdirlər. İkincilər mülayim olduqları üçün şükür edənlərdir. Üçüncülər isə seyredənlərdir, ona görə ki, biliklidirlər [6, s.103].

Mütəfəkkir fəlsəfi görüşlərində təbiət məsələlərinə diqqət yetirmiş, təbiətlə İlahi, təbiətlə insan qarşılığından söhbət açmışdır.

Cübran yaradıcılığının səciyyəvi xüsusiyyəti ondan ibarətdir ki, o, əsərlərində insan azadlığı, köləliyə nifrət, sevgi və inanc, xeyirxahlıq və insanpərvərlik, cəhalətə, ictimai ədalətsizliyə qarşı mübarizəni tərənnüm etmişdir [6, s.136-137, 142].

Cübran eşq haqqında düşüncələrində göstərir ki, "eşqin yolları dik və ya sərt olsa da, sizə bələdçilik etdikdə onun ardınca gedin. Eşq insanı özündə toplar, insanı yumşaltmaq üçün yoğurar, sonra öz müqəddəs atəşinə atar, Tanrının süfrəsinə yaraşan müqəddəs çörək kimi atəşində bişirər, qəlbinin sirlərini öyrənər. Eşq özündən başqa bir şey verməz, özündən başqa bir şey almaz. Eşqin malı-mülkü yoxdur. Eşqə tutulduqda, "Tanrı qəlbimin içindədir – deməyin. Mən Tanrının qəlbinin içindəyəm – söyləyin" [7, s.19]. Mütəfəkkir eşqin çox güclü və təsirli hiss olduğundan danışır və göstərir ki, eşq insanı Tanrının sevdiyi varlığa çevirir.

Cübran Xəlil Cübran yaradıcılığında qadın problemindən də yan keçməmişdir. O, "Banlı Marta", "Hanili varda", "Qırılmış qanadlar" adlı əsərlərdə Şərq qadını və onun azadlığı məsələsinə toxunmuşdur. Cübrana görə qadının hüquqları təmin edilməli və ailə daxilində azad fərd kimi dəyərləndirilməlidir.

Eyni zamanda, Xəlil Cübran göstərir ki, qadınların kiçik qüsurlarını bağışlamayan kişilər heç vaxt onların böyük məziyyətlərindən zövq ala bilməzlər [1, s.217].

Xəlil Cübran suriyalı yazıçı Məryəm Ziyadəyə yazdığı məktubunda qadının onun həyatında oynadığı əhəmiyyətli rolun nədən ibarət olduğundan danışır və göstərir ki, "əgər mənim bu gün nə isə bir dəyərim varsa, buna görə mən qadına borcluyam. Qadın mənim gözlərimin və qəlbimin qapılarını açmışdır. Əgər həyatımda qadın – ana, qadın – bacı, qadın – dost olmasaydı, mən elə bundan sonra da yatmış olardım". Əsərlərində müraciət etdiyi əsas məsələ tərk edilmiş qadının iztirabları, ağır xəstəlik, agır, keşməkeşli həyat, sevmədiyi kişiyə zorla ərə verilməsi və digər məsələlərdən ibarətdir [1, s.15].

Mütəfəkkirin ən böyük arzusu azad ərəb ölkəsində ədalətli cəmiyyətin bərqərar olmasından ibarət idi. O, hesab edirdi ki, işıqlı gələcək üçün mübarizə aparmadan azadlıq əldə etmək mümkünsüzdür. İnsan bu günki həyatıyla kifayətlənməməli, ən yaxşı gələcəyə can atmalıdır: yubanmaq – qorxaqlıq, keçmişə boylanmaq – cəhalətdir [1, s.14].

Cübran Xəlil Cübran ərəb ədəbiyyatının mövcud dövrə uyğun şəkildə inkişafı üçün misilsiz xidmətlər göstərmiş mütəfəkkir-filosofdur.

Xəlil Cübran Yaxın, Orta və Uzaq Şərq mədəniyyətini, qədim dövrdə meydana gəlmiş ənənəvi təlimləri Qərb düşüncəsi ilə birləşdirməyə çalışmışdır. Əsərlərində Şərq fikrini Qərbin dili ilə ifadə etmiş və beləliklə də, Şərq mənəvi dəyərlərini tanıtmağa nail olmuşdur. Cübranın şeirlərində cəmiyyət və insan vəhdətdə təqdim edilir.

Cübran Xəlil Cübran 48 yaşında yoxsulluq içində və üst-üstə gələn xəstəliklər üzündən dünyasını dəyişmişdir. Şair bütün həyatını kədər içərisində yaşamış, sevdiyi qızla yoxsulluq üzündən evlənə bilməmiş, sevgisi məktublar üzərində qalmışdır. Bu üzdən o, romantizmə meyl etmiş, mistisizmə qapılmışdır. Sevgi, məhəbbət Cübran Xəlil Cübran yaradıcılığında mühüm yer tutur. Onun sevgisinin əsasında "bütün insanları və təbiəti sevmək" ideyası dayanır. Cübranın əsərləri oxucular tərəfindən Peyğəmbərlərin kitablarına bənzər şəkildə qəbul edilirdi. Mütəfəkkirin görüşlərinin əsasında Təbiət, Cəmiyyət və Bəşəriyyət problemi dayanır. Bu üçlü ideya onun əsərlərində vəhdət təşkil edir. Cübran Xəlil Cübran Təbiət, Cəmiyyət və Bəşəriyyət - üçlü ideyasını bir-birindən təcrid olunmuş şəkildə deyil, əksinə vəhdətdə, bir-biri ilə qarşılıqlı əlaqədə, münasubətdə təhlil edir.

İnsanlara zülm edən, onları istismar edən və aldadanları qətiyyətlə pisləyir.

Lakin o, istismar olunanlara acımırdı və göstərirdi ki, əgər başınıza müsibət gəlibsə, buna siz özünüz cavabdehsiniz. Uca Yaradan, Allahu-Təala sizin alnınıza belə tale yazmayıb. Bütün bunları siz özünüz-özünüzə yazırsız. O, iddia edir ki, insanlar öz insanlıqlarını bərpa etmək istəyirlərsə, diktatorlara qarşı üsyan etməlidirlər [2, s.7-8].

Cübran Xəlilə görə insan mükəmməl böyük yaradılışdır. İnsan duyğularıyla, düşüncəsi ilə, ağlı ilə, davranışları ilə Təbiətin bəxş etdiyi bütün nemətlərin ən yaxşısına layiq varlıqdır. Təbiət onda olanları ədalətli şəkildə bəşəriyyətə bərabər paylayır. Belə ki, hər bir insan bu paylardan bərabər şəkildə faydalanmalıdır. Öz mənfəəti üçün başqalarına zərər verərək ticarət işi ilə məşğul olanlar, bir-birinin malına göz tikənlər, işləmədən, əziyyət çəkmədən qazanc əldə edənlər cəmiyyətin üzqarasıdırlar. Təbiətdə İlahi ədalət hökm sürür. Tanrının bir parçası olan insanda və onun yer aldığı Cəmiyyətdə eyni ədalət olmalıdır [2, s.8].

Cübran Xəlil, demək olar ki, əsərlərinin hamısında təbiətdən danışır, insana aid olan keyfiyyətləti təbiətə şamil edir. Təbiət insan kimi eşidir, duyur, görür,

idrak edir.

Ümumiyyətlə, Cübran Xəlil Cübran dövrünün açıq fikirli ziyalısı kimi Allah-insan, Təbiət – insan, Cəmiyyət –insan əlaqəsindən danışmış və bu kimi mühüm məsələləri əhatə edən fəlsəfi-bədii dünyagörüşü formalaşdıra bilmişdir.

ƏDƏBİYYAT

1.Cübran Xəlil Cübran. Sükutun poeziyası. Bakı, "Şərq-Qərb", 2009, 244 s.
2. Ermiş. Halil Cibran. (The prophet). Havass, 1982, 80 s.
3. İmanquliyeva A.N. Yeni ərəb ədəbiyyatı korifeyləti. (XX əsrin əvvəllərində Şərq və Qərb ədəbiyyatlarının qaşılıqlı əlaqəsi probleminə dair). B., "Elm", 2003, 400 s.
4. İmanquliyeva Aida. "Qələmlər birliyi və Mixail Nüaymə". B., "Elm", 2002,
180 s.
5. İmanquliyeva A. Cübran Xəlil Cübran. B., "Elm nəşriyyatı", 2002, 120 s.
6. Prof.Dr. Aida İmanquliyeva. Modern arap edebiyatının usta kalemleri (Cibran Halil Cibran, Emin er-Reyhani, Mihail Nuayme). İstanbul, "Kültür sanat yayılcılıq", 2007, 380 s.
7. Sevgi dünyası. Halil Cibran. Ahlak ve özgürlük ilişkisi. Aralık, 2011.

8. Философия и религия на Зарубежном Востоке XX век /ред. М.Т.Степанянц /, Москва, “Наука”, 1985, 272 с.
9.Фролова Е. А. Арабская философия: Прошлое и настоящее. М., “Языки славянских культур”, 2010, 464 с.
10. Фролова Е. А. История арабо-мусульманской философии. Средние века и современность: Учебное пособие. М., 2006, 199 с.

CÜBRAN XƏLİL CÜBRANIN DÜNYAGÖRÜŞÜNÜN ƏSAS MAHİYYƏTİ

Ülviyyə Ağabəyova

XÜLASƏ

Həm ərəb, həm də qərb mədəni dəyərlərini inkişaf etdirən XX əsr böyük ərəb yazıçısı, şairi Cübran Xəlil Cübran yaradıcılığını rəngli çalarlarla zənginləşdirmişdir. Əsərlərində sevinci, sevgini, təbəssümü tərənnüm etdirən mütəfəkkir, eyni zamanda sentimentalizmə köklənərək kədərdən, göz yaşından, hicrandan söz açır. Estetik görüşlərində gözəlliyə dəyər verən Cübran onu elmdən və dindən üstün tutur. Allah və onun mahiyyəti, insan və onun cəmiyyətdəki yeri, insanla təbiət arasındakı vəhdət Cübran dünyagörüşündə mühüm yer tutur. Cübran insanı mükəmməl böyük yaradılış kimi dəyərləndirir, onu Təbiətin bəxş etdiyi bütün nemətlərin ən yaxşısına layiq görür. İnsanı Tanrının bir parçası kimi qiymətləndirir.

ОСНОВНАЯ СУТЬ МИРОВОЗЗРЕНИЯ ДЖУБРАН ХАЛИЛ ДЖУБРАНА.

Агабекова Ульвия

АННОТАЦИЯ

Арабский писатель и поэт двадцатого века Джубран Халил Джубран, развивавший как арабские, так и западные культурные ценности, обогатил свое творчество красочными оттенками. Мыслитель, прославляющий в своих произведениях радость, любовь и улыбку, исходя из сентиментальности, также говорит о печали, слезах и разлуке.

Джубран, оценящий красоту в своих эстетических воззрениях, предпочитает ее выше науки и религии. Бог и его сущность, человек и его место в обществе, целостность между человеком и природой играют важную роль в мировоззрении Джубрана. Джубран ценит человека как совершенное великое творение и считает его достойным лучшего из всех благ природы. Он считаль человека как часть Бога.

THE MAIN ESSENCE OF THE WORLDVIEW OF GIBRAN KHALIL GIBRAN

Aghabayova Ulviyya

SUMMARY

The Arab writer and poet of the twentieth century, Gibran Khalil Gibran, who contributed to both Arab and Western cultural values, enriched his work with colorful shades.

The thinker, who glorifies joy, love and smile in his works, also has sentimental aspect to his work touching upon sorrow, tears and parting. Gibran, who values beauty in his aesthetic views, prefers it to science and religion. God and his essence, human and their place in society, the unity between human and nature play an important role in Gibran’s worldview. Gibran considers human as a perfect andgreat creation, and considers him worthy of the best of all the blessings of nature. He values man as a part of God.

MİNOR ƏDƏBİYYAT NƏDİR?

Əhmədov Əhməd
BDU-nun II kurs magistrantı
ehmedehmed98@gmail.com

Açar sözlər: minor, major, oluş, fəlsəfə, ədəbiyyat, psixanaliz, heyvan-oluş, yersiz-yurdsuzlaşma, siyasi.
Ключевые слова: минор, мажор, становление, философия, литература, психоанализ, анималистическое становление, детерриторизация, политическое.
Key words: minor, major, becoming, philosophy, literature, psychoanalysis, animal becoming, deterritorialization, political.

Fransız poststruktualist Jil Delöz öz fəlsəfi yaradıcılığında ədəbiyyata və incəsənətə böyük rol vermiş və onlardan yetərincə bəhrələnmişdir. Buna misal olaraq bir neçə yazıçı və rəssamın adını çəkə bilərik. Və Delözün yaradıcılığının spesifik tərəfi olan digər sahələrdən instrument kimi istifadəsi bu mövzuda da özünü göstərir. Delöz əsasən seçdiyi x-lərdan istifadə edərək özünə xas anlayışları yaratmağa cəhd göstərirdi. Bu məqalədə isə Jil Delözün Feliks Quattari ilə yazdığı birlikdə yazdığı "Kafka:minor ədəbbiyyat" adlı əsərində ortaya atılan minor ədəbiyyat anlayışını təhlil etməyə çalışacağıq.

Ədəbiyyatdan söhbət getdikdə nevrozlardan və psixozlardan danışmağı əsas vəzifəsi edən, semiotik komponentlərdən qaçan hər cür axımı bir diktator işarələyənə(fallus) bağlayıb arzunun canlı bir qaçış xətti, bir çıxış axtardığı bütün kartoqrafiyanı Atanın üst-kodladığı bir xəritəyə çevirəm psixanalitik oxuma cəhdlərinə öyrəşmişik. Delözün "Diyaloqlar"daki ifadəsi ilə desək "yazmaq oluşdur, yazıçı olmaq deyil". Ədəbiyyatın oluşla əlaqəsini vurğuladığımızda əslində onun nə nevrozla, nə də psixozla əlaqəli olmadığını şizofrenik bir period olduğunu vurğulamaqdayıq. İnsan "sayıqlama"larıyla(delire) yazar ancaq bu sayıqlama bir ana-ata-mən üçbucağında deyil, tarixi, irqi, ictimai problemlərin mərkəzində gerçəkləşən bir sayıqlamadır [1].

"Sığınacaq yer axtaran bir it, yuva quran bir siçan kimi yazmaq" [3].

Onların Kafkanı seçməsi əlbəttə ki, təsadüfi bir şey deyildir. Delöz və Quattarinin də dediyi kimi Kafkanın Pragada yəhudi əsilli bir ailədə doğulması onun Praga yəhudiləri tərəfindən istifadə olunan yiddish dili və çex dilləri ilə qarışmış bir alman dilinə sahib olmasına gətirib çıxarmışdı ki, bu da Kafkanın minor ədəbiyyat üçün örnəkləndirmədə çox ideal bir yazıçı edir.

Məsələn Günter Anders Kafka haqqında tədqiqatında belə deyir: "Kafka bir yəhudi olaraq tam Xristian dünyasının insanı deyildi. Yəhudiliyini vecinə almayan- ki həqiqətən vecinə almırdı- bir yəhudi olaraq tam yəhudi sayılmazdı. Almanca danışan biri olaraq tam mənasıyla Bir Çex insanı deyildi. Almanca danışan bir Yəhudi olması səbəbi ilə tam olaraq Bohemiyalı bir alman olduğu da iddia edilə bilməzdi. Bohemiyalı olması tam olaraq Avstriyalı olmasının qarşısını alırdı" [2].

Kafkanın yaşadığı dövrün sosial mühitində Almanca danışan yəhudilər azlıq içində azlıq təşkil edirdilər. Almanlar tərəfindən yəhudiliklərinə görə, çexlər tərəfindən isə almanlıqlarına görə xoş qarşılanmayan bu insanlar Praganın mədəni həyatının əksikliyi düşünülməyəcək parçası idilər və bu hal bu vəziyyətdə olan insanlara ədəbiyyatla məşğul olmaq problemi yaradırdı ki, Kafka ona və onun kimi digər Praga yəhudilərinə yazı aktını tıxayan bu qarışıq vəziyyəti Broda yazdığı məktubunda belə ifadə edir: Yazmamaq imkansızlığı, Almanca yazmaq imkansızlığı, başqa cür yazmaq imkansızlığı.

Bu məsələ isə əlbəttə ki, bir çox Kafka tədqiqatçılarının diqqətini çəkmişdir. Wagenbach bir dilin bütün yoxsulluq simptomlarının Kafka'da olduğunu amma yaradıcı bir istifadəyə soxulduqlarını və yeni bir ifadə zənginliyinin, yeni bir çevikliyin hizmətində olduqlarını qeyd edir. Bu nöqtədə isə Delöz və Quattari Kafkanın yeni bir dil istifadəsi kəşf etdiyini iddia edir: "məna tərk ediləcək və ondan geriyə yalnızca kağızdan bir skelet ya da siluet qalacaqdır" [3]. Kafka dilin bütün yoxsulluğu içində Praga Almancasından istifadə edir və söz bazası quruduğuna görə onu yoğunluğu içində titrəşdirir. "Hər cür simvolik hətta mənalandırıcı ya da yalnızca göstərən dil istifadəsinə qarşı tamamilə yoğun bir dil istifadəsini qoymaq" [3]. Mənadan geriyə yalnızca qaçış xəttlərini yönləndirəcək qədər bir şey qalır. Artıq nə gerçək mənaya görə bir şeyin adlandırılması, nə də məcazi mənaya görə metaforların təyin ediciliyindən danışmaq olar. Yəni Delöz və Quattarinin deməyə çalışdığı şey Kafkanın şüurlu şəkildə hər cür simvolikanı, metaforu öldürdüyüdür. "Metamarfoz (çevrilmə) metaforun ziddidir" [3]. Robert Grillet də eyni iddianı səsləndirir. Bəs əgər metafor yoxdursa kafkanın heyvan personajlarını necə oxumaq lazımdır?

Bu nöqtədə isə Delöz və Quattarinin "oluş" anlayışı ortaya çıxır. Ədəbiyyatı düşüncə üçün fərqli edən şey fərdin özündən çıxıb bir başqa şeyə çevrilmə arzusudur. Oluş isə fərdin bir vəziyyətdən başqa bir şeylə və ya virtual bir düşüncə ilə qarşılaşmasının obyektidir.

"Yazı oluşdan ayrıla bilməz: Yazarkən qadın-olunur, heyvan və ya bitki- olunur,qavranılmaz olana kimi molekul-olunur" [4].

Ədəbiyyat Delöz üçün yazma aktı ilə varoluş tərzləri yaratma işidir və buna görə də, hər bir əsər bir həyat tərzi, bir "oluş" tərzi verir. "Üslub böyük yazıçılarda hər zaman bir həyat üslubudur. Əsla fərdi bir şey olmayıb bir yaşamaq imkanı, bir varoluş şəkli icad etməkdir" [5]. Delöz və Quattariyə görə yazıçı bir mənada köçəridir və möhtəşəm bir oluş və başqa şeylərə çevrilmə gücü vardır. Səyahətlərinin məqsədi insanın ola bilmədiyi şey ola bilmə imkanına yönəlməkdir yəni ontoloji sərhədlərini qırmaqdır. Və daha çox Quattarinin yaratdığı bir anlayış olan "qaçış xətti" xarakteri daşıyır. Qaçış xəttləri olduğun yerdə çoxalmağı ifadə edir. Yəni fiziki olaraq qaçış deyildir. Bir "yersiz-yurdsuzlaşmadır".

Delöz və Quattari oluş anlayışını açıqlamağa çalışaq. Məsələn heyvan-oluş bir heyvana çevrilməyi deyil heyvan olmadan heyvan ola bilmə potensialı ilə əlaqəli bir təcrübədir. Amma oluş bir təqlid deyildir. Çünki oluş periodunda fərd "oluşduğu" zaman "oluşduğu" şey də özü qədər dəyişməkdədir. Yəni oluş olduğu şeyin içinə tamamilə qarışmaq demək deyildir. Çünki oluş sərhədləri bəlli bir şey halına gəlməyə , sabit bir vəziyyətə gəlməyə yox, dinamizmə gətirir. "Oluş"a misal olaraq Kafkadan başqa Melvili(balina-oluş), Van Qoqu (günəbaxan-oluş) göstərmək olar. Heyvan-oluş major olandan minor olana, çoxluqdan azlığa doğru bir hərəkətdir.

"Çevrilmə" də, atasının Kafkanı bir böcək kimi gördüyü yerdən etibarən bir çıxış yolu tapmaq cəhdidir. Problem azadlıq deyil. Problem çıxış problemidir. Yalnız böcək-oluş sayəsində ailə üçbucağından çıxma cəhdini reallaşdıra bilmişdir. "Qreqor böcək olur, yalnızca atasından qaçmaq üçün deyil, daha çox atasının çıxış tapa bilmədiyi yerdən bir çıxış tapmaq üçün, müdürdən, ticarətdən və bürokratlardan qaçmaq üçün, səsin uğuldamaqdan başqa bir şey etmədiyi bu bölgəyə çatmaq üçün".[3] Yeni yaşayış sahələri tapmaq üçündür bu qaçış. Lakin əsərin sonlarına doğru böcək olaraq edipallaşmış ailə üçbucağından qaçış uğursuzluqla nəticələnir. Yəni "Qreqorun qaçış xəttinin qarşısı alınır, bacısı onu tərk edir və yaxşı Edipal oğul olaraq qalan Qreqor ailəsi üçün ölür" [6]. Yəni "Çevrilmə" daha çox yenidən Edipallaşdırmadın nümunəvi hekayəsidir. Kafka bu mövzunu bir meymunun tutulmasını və insan olmağa qərar verişini danışdığı "Bir Akademiyaya rapor"da ən açıq bir şəkildə dilləndirir. "İstədiyim azadlıq deyildi. Yalnızca bir çıxış yolu idi: sağa ya da sola ya da hərhansı bir yönə; başqa heç bir tələbim olmadı" [7].

Delöz və Quattari Kafkanın yaradıcılığını təməl alaraq yeni bir ədəbi üslubu olaraq xarakterize edir: "Minor ədəbiyyat minor bir dilin ədəbiyyatı deyil, daha çox azlığın major bir dildəki ədəbiyyatıdır" [3]. Minor olan azlığın azlıq olmaq halından yox, azlıq olmaq halının dildəki təsirlərindən gəlir. Kafka major bir dili alır və onu yersiz-yurdsuzlaşdıraraq başqa bir şey olmağa məcbur edir. Bu mövzu ilə əlaqəli olaraq Devid Martin-Consun sözlərini xatırlamalıyıq: "Deleuze və Guattari major bir dili minor bir şəkildə danışdırmağın onun kəkələməsinə və hətta inləməsinə yol açmaq olduğunu deyirdi. Minor olmaq major bir dili alaraq seçdiyimiz kimliyi ifadə edə biləcək tərzdə danışdırmaqdır. Bununla birlikdə isə cəmiyyətin major səsinin sabitliyini pozmaq imkanlarına sahibdir.Xüsusilə sənət və ədəbiyyat ilə. Bu səbəbdən minor olmaq müxalif olmaq yox, o sistemin içində yer alaraq onu içəridən dəyişdirməkdir" [8].

Kafkanın demək olar ki, bütün əsərlərində fərdi problemlər mikroskop altında böyüdülmüş şəkildə təsvir olunur və damdar bir məkan hissi oyandırır. Nəticə olaraq da, bu problemin ekonomik, hüquqi, bürokratik səbəblərlə əlaqəli olduğu hiss olunur. Yəni hər fərdi problem bilavasitə siyasətə bağlanır. Burada artıq fərdi olan hər şey siyasidir, siyasi olan hərşey fərdidir. Nəticə olaraq minor ədəbiyyat siyasidir. Delöz və Quattari isə major(böyük) ədəbiyyatlarda bunun tərsinə olduğunu iddia edirlər. Onlara görə bu ədəbiyyatlarda fərdi problem fərdi olmayan digər problemlərlə daha az birləşməyə meyillidir. Yəni sosial mühitin bir növ arxa plan kimi istifadə olunduğunu deyirlər.

"Böyük ədəbiyyatlar da ancaq bir anlıq söhbətə səbəb olan şey, kiçik ədəbiyyatlarda hər kəsin ölüm-itimiylə əlaqəli bir qərar vacibiyyətinə malik olur" [3].

Bundan başqa Kafkanın ədəbiyyatında istedadlı insanlara çox az rast gəlirik. Bu da minor ədəbiyyətin bir digər xüsusiyyətidir. Çünki bu ədəbiyyatda hər şey kollektiv bir dəyər daşıyır.Subyekt yoxdur. "K hərfi artıq nə bir rəvayətçini , nə də bir adamı göstərir; bir fərdin təkliyi, yalqızlığı üçün özlərinə bağlı olması dərəcəsində maşınsı(mexaniki) bir tənzimləməni və kollektiv bir günahkarı göstərir" [3].

"Kafkanın analizinde minor ədəbiyyat etnik bir qrupun ortaq yaşamının fokus mərkəzi olaraq xidmət verir və ictimai problemləri həll etmədən içində ziddiyyətlərin dilləndirilə biləcəyi bir sahə yaradır" [6]. Əlbəttə ki, bu etnik qrupa məsələsinə yalnız Praqa yəhudilərini aid etmirlər. Özlərini fərqli bir mədəniyyətin içində ifadə etməyə məcbur qalan bütün etnik qruplara və marjinal qruplara aid olduğunu düçünürlər. Etnik qrup olaraq misal çəkməli olsaq fransızca danışan afrikalı qaradərililəri və ya Cəzairliləri, Amerikalı qaradərililəri və ya Amerikalı yerliləri, ingiliscə danışan İrlandiyalıları, Türkçə danışan Kürdləri və s. qeyd etmək olar.

Ümumiləşdirərək minor ədəbiyyat anlayışının xarakterik xüsusiyyətlərini və komponentlərini sistemləşdirə bilərik.

1. Dilin "yersiz-yursuzlaşması"
2. Hərşeyin siyasi olması
3. Hər şeyin kollektiv bir dəyər daşıması

Türkiyəli tədqiqatçı Hakan Yüceferin iddiasına görə minor ədəbiyyat anlayışı özü iki qütblü və daxili gərginliyi olan bir anlayışdır. Onun iddia edir ki, bu anlayış Delöz və Quattari tərəfindən həm ədəbiyyatçıları və ədəbiyyatı sinifləndirmək üçün, həm də ədəbiyatın yaranması üçün lazım olan şərtləri xarakterizə edən bir anlayışdır. Çünki minor ədəbiyyat anlayışı Delöz və Quattariyə görə hər ədəbiyyatın inqilabçı tərəfini ortaya qoymaq üçün xarakterikdir. Yəni onlar iddia edirlər ki, hər bir ədəbiyyatın daxilində minor və major xətlər vardır. Lakin ədəbi yaradıcılığı, ədəbiyyatı ədəbiyyat edən şey bir başa olaraq minor xəttdir. Buna görə də, minor ədəbiyyat termini daha böyük diapazona malik olur. Delöz və Quattaridən heç gözlənilməyəcək tərzdə minor ədəbiyyat kimi "obyektiv" bir anlayışdan istifadə etmədən ədəbi yaradıcılığı anlamağın mümkün olmayacağını qeyd edirlər.

Ümumilikdə isə Ulus Bakerin də dediyi kimi yazıçı artıq heç bir anadilə sahib deyildir və ana dilinə qarşı da, tədbirlər almış kimidir. Muasir ədəbiyyat isə bu tədbirlərin cəmindən başqa bir şey deyil kimi görünür. Bu sadəcə Kafkaya aid deyildir. Məsələn Delöz Samuel Bekket, Virginya Vulf, Selin kimi yazıçıları da misal olaraq istifadə edir.

ƏDƏBİYYAT

1. Çağrı Uluğer- Bir devrimci makine olarak minör edebiyat, Mesele Dergisi 2015, Sayı:108
2. Ernest Fischer- Franz Kafka, BFS Yayınları, 1985
3. Deleuze and Guattari- Kafka:minör edebiyat için, YKY, 1993
4. *Gilles Deleuze-Kritik ve Klinik*, Norgunk, 2013
5. Gilles Deleuze- Müzakereller, Norgunk, 2013
6. Ronald Bogue- Deleuze ve Guattari, Otonom, 2013
7. The Penal Colony: Stories and short pieces, New york: Schocken, 1948.
8. Damian Sutton ve David Martin-Jones- Deleuze, Kolektif kitap, 2014

MİNOR ƏDƏBİYYAT NƏDİR?

Əhmədov Əhməd

XÜLASƏ

Müxtəlif filosoflar incəsənətlə bağlı daim fikir bildirmişdirlər lakin əsasən ədəbi mövzular son zamanlar daha çox yalnız eksiztensial və psixanalitik analizlərlə tədqiq olunur. Delöz və Quattari isə daha fərqli bir anlayış ortaya atır. Onlar minor ədəbiyyat anlayışını həm ədəbiyyataru sinifləndirmək üçün, həm də ədəbiyyatı ədəbiyyat edən xüsusi kompenentləri xarakterize etmək üçün istifadə edirlər. Bu anlayış eyni zamanda klassik(psixanalitik) Kafka təhlillərinə müxalif duruşu ilə həm fəlsəfi, həm də ədəbi sahələrdə axan bir anlayışdır və Ulus Bakerə görə Delöz və Quattarinin ən vacib anlayışlarından biridir.

Major ədəbiyyatlardan fərqli olaraq bu ədəbi üslub və xətt dili "kəkələdərək" titrəşdirir və daha çox qaçış xəttləri, oluş kimi digər Delöz və Quattari anlayışları ilə sıx bağlıdır.

ЧТО ТАКОЕ МАЛАЯ ЛИТЕРАТУРА?

Ахмедов Ахмед

АННОТАЦИЯ

Различные философы всегда комментировали искусство, но в основном литературные темы в последнее время изучались только с помощью экзистенциального и психоаналитического анализа. У Делёза и Гваттари другая концепция. Они используют понятие малой литературы как для классификации литературы, так и для характеристики конкретных компонентов, составляющих литературу. Это также понятие, которое используется как в философской, так и в литературной областях, в отличие от классического (психоаналитического) анализа Кафки, и, по словам Улуса Бейкера, является одним из наиболее важных понятий для Делёза и Гваттари.

В отличие от основной литературы, этот литературный стиль и каллиграфия вибрируют из-за «заикания» и более тесно связаны с другими концепциями происхождения, такими как бегущие строки и формирование.

WHAT IS MINOR LITERATURE?

Ahmadov Ahmad

SUMMARY

Various philosophers have always commented on art, but mainly literary topics have recently been studied only by existential and psychoanalytic analysis. Deleuze and Guattari have a different concept. They use the concept of minor literature both to classify literature and to characterize the specific components that make literature literature. It is also a concept that flows in both philosophical and literary fields, in opposition to classical (psychoanalytic) Kafka analysis, and is one of the most important concepts for Deleuze and Guattari, according to Ulus Baker.

Unlike major literature, this literary style and calligraphy vibrates by "stuttering" and is more closely related to other lineage concepts such as run lines and formation.

MODELLƏŞDİRMƏ METODUNUN TƏŞƏKKÜLÜ VƏ İDRAK PROSESİNDƏ ROLU

Hüseynova Sevinc Əli qızı
Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin müəllimi
sevinc101578@gmail.com

Açar sözlər: metod, idrak, elmi, model, elm.
Key words: method, cognition, science, model, science.
Ключевые слова: метод, познание, наука, модель,наука.

Modelləşdirmənin inkişaf tarixinə nəzər yetirərkən bu metodun bəşər mədəniyyətinin ən qədim dövrlərində mövcud oldugunu aydın görmək olur. Model termininin elmi ədəbiyyata gətirilməsi qədim yunan alimi Vetruvinin adı ilə baglıdır. Latın dilində (modus)ölcü ,surət mənasını ifadə edir.Qeyd etdiyimiz kimi model elmi təfəkkürün ən ibtidai formalarnda mövcud idi . Məhz modelləşdirmənin mövcudluğu şəraitində gerçəklikdə tədqiq olunması mümkün olmayan obyektlərin belə tədqiqi hayata keçirilir. Belə ki, gerçəklikdə tədqiqi çətin olan, həm fiziki həm də bir sıra maddi imkanların çətinliyinə görə baha başa gələn maddi və fikri obyektlərin reallığa uyğun modellərinin yaradılmasında digər elmi idrak metodları kimi elmi idrakın inkişafında, araşdırılan obyektin va ya prosesin öyrənilməsi üçün əvəzedilməz rola malikdir. Model-obyektin, sistemin və ya ideyanın tanınan özündən bir qədər fərqlənən formada təsvir edilməsidir.

Hər hansı tədqiqatın aparılması zamanı modelləşdirmə metodunun tətbiqi qarşıya çıxan bir sıra problemləri həll etməklə yanaşı vaxt itkisinin yaranmağının baş verməsinin qarşısını alır. Modelləşdirmə metodunun tətbiqi təkcə araşdırmaların aparılması zamanı deyil ,həmdə araşdırma nəticəsində əldə edilən məlumatların gerçəkliyə tətbiq olunması zamanı çox böyük rol oynayır. Hər hansı bir idrak prosesinin gedişatı zamanı əldə edilən biliklərin reallığa tətbiq olunması öz növbəsində başlı başına çatin prosesdir.

Tarix elminin tarixi hadisələri, bəşər cəmiyyatinin inkişaf tarixini, sivilizasiyaların inkişaf dinamikasını ətraflı şəkildə tədqiq etməsinə baxmayaraq düşüncə tərzinin inkişafı tarixi nisbətən daha az diqqət yetirilməkdədir. Lakin, bəşəriyyətin elm və düşüncə tarixi başəriyyətin özü qədər qədimdir. Belə ki, insan formalaşdığı vaxtdan etibarən ətraf aləmə qarşı aktiv münasibat bəsləmişdir. Yəni insan mövcud olduğu ilk gündən ətraf aləmi anlamağa çalışmış, təbiət üzərində hegemon olmaq həvəsində olmuş və qarşılaşdığı problemləri həll etmək istiqamətində müəyyan işlər görməyə cəhd etmişdir. Ibtidai dövrdən başlayaraq insan öz fəaliyyətini düşünülmüş, planlı və müəyyən məqsəd əsasında formalaşdırmışdır.

Belə ki, ibtidai insan özünün gündəlik tələbatlarını ödəmək, daha samərəli olmaq fəaliyyati ilə məşğul olmaq, təbiət qüvvələrindən və düşmən qəbilələrdən özlərini müdafiə etmak məqsədi ilə bugünki bir çox elm sahasinin başlanğıcı olan bir sıra nailiyyətlər əldə etmişlər. Bu dövrlərdə insanlar hər bir fəliyyət sahəsində bərabər çalışmış və iş bölgüsü ilə bağlı mədəniyyət formalaşmamışdı. Lakin artıq sinifli cəmiyyətlərin formalaşdığı bir dövürdə iş bölgüsü formalaşmış, dolayısı ilə elmlə məşgul olan bir qurup insan sinifi meydana. gəlmişdir. Bütün bu sadalananlar tarixdə mövcud olan ilk sivilizasiyalarda ayrı- ayrılıqda və bəzən bir-biri ilə əlaqəli şəkildə inkişaf etmişdir. Həmin dövrdə bəşəriyyətə məlum olan materiklər okeanlarla əhatə olunduğundan quru sahəsinin okeanların başladığı yerdə başa çatdığı və okeanların isə üfüq xəttində başa çatdığı, dünyanın yer və göy, onların arasındakı okeandan ibarət olduğuna inanırdılar. Müasir dövrdə istifadə etdiyimiz təqvimi misirlilər qədim zamanda yaratmışdılar. Rəqəmləri heroqliflərlə ifadə etmişlər və “aha hesabı” deyilən və Mesapotamiyada da istifadə

olunan metodla primipiv cəbr problemlərini həll etmişdilər. Bəşəriyyətin yüksək səviyyədə inkişafına baxmayaraq hal-hazırda Misir mədəniyyəti üçün bir çox mövzu sirrini qorumaqdadır

Sonrakı dövrdə Pifaqor teormi kimi tanınan nəzəriyyənin primitiv həllinə Qədim Hindistanın tarixi mətnlərində rast gəlinmişdir. Hind sivilizasiyasında geosentrik kainat modelini istifadə edərək Günəş, Yer, Ay və digər göy cisimlərinin mövqe və hərəkətini şərh etməyə çalışmışlar. Trigonometriyada ilk dəfə sinus və kosinus funksiyalarını istifadə etmələri bu hesabların aparılmasına kömək etmişdir. Hind fəlsəfəsinə görə, canlılar kainatın kiçik bir modelidir və torpaq, su, hava, atəşdn meydana gəlişirlər. Bu elementlər tarazılıq halındadır. "Bir insanda bunların nisbətləri pozularsa sağlamlıq da pozular" düşüncəsinə əsaslanaraq bəzi primitiv müalicə modaliteleri inkişaf etmişdilər

Çin sivilizasiyasında elmi fəaliyyət e.ə 2500-cü illərdə başladığı təxmin edilməkdədir. Çinlilər on iki heyvanlı təqvimdən istifadə edirlər. Riyaziyyatda onluq say sistemindən istifadə etmişlər, ilk dəfə abak və vurma cədvəli modellərini istifadə edərək sadə riyaziyyat əməliyyatlarını yerinə yetirmişlər . Çinli mütəfəkkirlər kaintadakı hadisəlri İn-Yan modeli ilə açıqlamağa çalışmışlar. Kainatın davamlı bir nəhəngin içində olduğuna inanmışlar.Universal sistemin bir parçası olan insanın da, dilemma göstərən İn və Yan (yaşxşılıq və pislik, xəstəlik və sağlamlıq kimi) qanununun təsiri altında olduğuna inanmışlar.

Elmi problem həll etmənin tarixi inkişafını dəyişdirmək üçün yunan mədəniyyətətini yaxından araşdıramq lazımdır:

Yunanlılarda fəlsəfənin ilk mərkəzi Siciliyadır. Siciliyanın fəlsəfədə hakim olduğu dövr Helen dövrü olaraq adlandırılır (M.Ö. 800 - M.Ö. 300). Yunan mədəniyyətində ilk əsrlər, Homer və Hesiod tərəfindən qələmə alınmış dastanlardır. Antik Yunan düşüncə tərzində "nizam" anlayışı çox önamli yerə malikdir. Bu anlayış həyatın və düşüncənin hər bir sahəsinə tətbiq edildiyindən Yunan mədəniyyətinin təməlini təşkil edən prinsiplər həmin anlayışın izini daşımaqdadır. Buna görə kainata cosmos (müntazəm, gözəl quruluş) adını vermişlər. Yenə eyni dövrdə, Pifaqorun riyazi hesablamalar aparmaq üçün qum üzərinə çəkilən nöqtələr və asanlıqla qruplanabilən daşlardan istifadə etdiyini bilirik.

O dövrdə, yunanların ədədləri ifadə etmək üçün istifadə etdikləri rəqəmlər, əslində Yunan əlifbasının hərflərindən ibarətdir. Pifaqor bu hərflərlə riyazi əməliyyatların aparılmasında üzləşdikləri çətinlikləri aradan qaldırmaq üçün bu modelləri formalaşdırmışdır. Alt-alta düzülən 1-3-7 kimi daş qruplarının üçbucaq şakillər meydana gətirdiyini görmüş və bunları üçbucaq ədədlar olaraq adlandırmışdır. Buna bənzər say qruplarını araşdırmış, həndəsi şəkillərin adədlərlə bağlı olduğunu irəli sürmüşdür. Bu dövrdə dünyanın bir nimça kimi düz olduğu və kainatın dünya ətrafında döndüyü fikrini müdafiə edən "Aristotelin kainat modeli" qatı bir şəkildə müdafiə edilmişdir.

Orta əsrlərin sonlarına doğru Rocer Bekon bu cür fikirlor irəli sürmüşdür: "Etibarlı məlumata ancaq ağıl və təcrübə yolu ilə çatıla bilər. Ağıl təsdiqedici, təcrübə isə məlumatyığıcıdır və hər ikisindən də faydalanmaq lazımdır. Təkcə ağıl yolu ilə sübut yetərli deyil, doğruluğun həm də təcrübədə yoxlanılması lazımdır"

Qalileydən sonra Nyuton təcrüba ilə riyaziyyat-məntiq metodlarını, düşüncə və faktı daha möhkəm birləşdirdi. Bu dövrdə müşahidə va təcrübə yolu ilə bir sıra qanunlar ortaya qoyulmuşdur. Pozitivizm hər şeydən əvvəl bir elm fəlsəfasi olub, empirik (experimenter) ənənənin içində yer alar. Pozitivizmdə metafizik fərziyyə rədd edilir onun yerini sistematik təcrübə və müşahidəyə söykənən müsbət məlumat alır. İnduksiya, təcrübə və riyaziyyat üsullarını istifadə edən elm, 18-19 cu əsrlərdə böyük uğurlar əldə etmişdir.

Elm fəlsəfasindaki bu inkişaflar və təcrübi yanaşma, elmi məlumat təcrübəsinin sürətli şəkildə artmasını təmin etmişdir. Qalileyin hərəkəti açıqlamaq üçün istifadə etdiyi silahdan atılan "güllə

modeli" Aristotelin hərəkət fikrinin etibarsızlığını isbat etmişdir. Nyuton optika ilə əlaqədar bir işində qaranlıq bir otaqdakı prizmaya ağ işıq göndərərək işığı ayırır, sonra incə kənarlı bir lupanın köməyi ilə təkrar ağ işıq əldə edər. Bu model, işığın təbiətini anlamada bir çox sual üçün çox açıqlayıcı olmuşdur.

Modelləşdirmədən bir cox təbiət elmlərində (fizika, kimya, biologiya, təbabət, astronomiya və s.), humanitar elmlərdə (sosiologiya, dilçilik, psixologiya, politologiya və s.), tətbiqi və ya praktiki xarakterli fənlərdə (pedaqogika, kriminalisitika, rəsmxətt) istifadə olunur. Modelləşdirmə probleminin xüsusi aspekti modelin özünün xüsusi bir reallıq modusu olaraq varlığı məsələsidir: bu baxımdan, bir tərəfdən bu problemin model və virtual reallıq kimi aspektini (onun aktuallığı dəqiq riyazi aparatın tətbiqi əsasında kifayət qədər mürəkkəb proseslərin virtual modellərini yaratmağa imkan verən kompüterlərin ixtirasının modelləşdirilmənin inkişafına verdiyi güclü təkanla bağlıdır), digər tərəfdən - bədii modelin təbiəti məsələsini qeyd etmək olar. Bədii model, başqa bir şəkildə eksplikasiya edilə bilməyən və elmi model üçün əlavə olan hadisələri araşdırır. Bunun nəticəsidir ki, bu gün modelləşdirmə çox vaxt təbii, texniki və humanitar elmlərin bir-birinə qarşılıqlı nüfuz etməsini nəzərdə tutan universal elmi tədqiqat üsuluna çevrilmişdir. O, fənlərarası tədqiqatın əsas idraki metodlarından biridir.B.A.ŞTOFF modellərin idrakda rolundan belə yazır;" Hissi təsvirə təsvirə müyəssər olmayan proseslərin əyani təsvirini verən modellər nəzəri tədqiqatlarda fikrin daşıdığı rolu oynayıb bir sıra riyazi tənlikləri izah etmiyə ,onların arasındakı reallıgı görməyə ,bir sözlə ,nəzəriyyədən obyektiv reallığa körpü salmağa imkan yaradır (1,s,83).

Lakin qeyd etmək lazımdır ki, modelləşdirmə təkcə zamanımızın müstəsna xüsusiyyəti deyil. Arxeoloqlar tökmə modellərindən istifadə etməklə hazırlanan bürünc məmulatlar tapırlar. Antik dünyada modellərdən bina və digər qurğuların inşasında istifadə olunurdu. İlk nəzəri (eyni zamanda əyani) modellərdən biri Levkipp və Demokritin atomları hesab edilməlidir. Bədii modellər qaya şəkilləri, abların üzərindəki naxışlar kimi göz önünə gəlir, biz qədim freskləri, tanrıların və qəhrəmanların heykəltəraşlıq şəkillərini görürük, xalqların mif və əfsanələri ilə tanış oluruq. Maddi və ideal konstruksiyalar yaradan İntibah elminin nümayəndələrinin də modellər yaratmağa ciddi ehtiyacı vardı. Modelləşdirmə əsasında Yeni dövrün təbiət elmləri yarandı.

Bu qısa icmal modelləşdirmə probleminin müasir ontologiya və qnoseologiya üçün əhəmiyyətini anlamaq üçün yetərlidir. Modellərin öyrənilməsinə əhəmiyyətli təsir göstərən müəlliflərdən klassik fəlsəfi fikrin nümayəndələrini də qeyd etmək lazımdır. Onlara ilk növbədə Aristotel, I.Kant, Q.V.F. Hegel və M. Haydeggeri aid etmək olar.

Elmi modelin mahiyyətindən bəhs edilərkən "model" anlayışının özünün üç fərqli (lakin bir-biri ilə əlaqəli) mənada başa düşülə biləcəyi qeyd olunmalıdır . Birincisi, modeli elmi araşdırma obyekti olan hər hansı prosesin, obyektin və ya fenomenin əyani obrazı kimi səciyyələndirmək olar; ikincisi, bu və ya digər elmin öyrəndiyi mücərrəd (məsələn, riyazi) modellərdən danışa bilərik; nəhayət, "model" anlayışının elm fəlsəfəsində daha bir spesifik tətbiqi var, yəni söhbət hərfi tərcümədə müəyyən dövrdə elmi idrakda hakim olan "elmi paradiqma"dan (elmi modeldən) gedir.

.Elmi modellər in hamısına xas olan xüsusiyyət ondadır ki, onlar modelin məzmununu ona uyğun olan empirik və ya nəzəri obyektin məzmunundan daha "yoxsul" hala gətirən müəyyən reduksiyaya əsaslanır. Əyani modeldən bəhs etsək belə, istənilən elmi modeldə mücərrədləşmə məqamı mövcuddur.

Buradan belə nəticə çıxır ki, model əlaqəsi "ikili" deyil, "üçlü" dür. O, iki deyil, üç element - model, onun proobrazı və birinci ilə ikinci arasında reprezentativ əlaqə quran subyekt arasında təşəkkül tapır. Modeli elmi idrak vasitəsi kimi təhlilində onun üç əsas xüsusiyyətini qeyd edək . Bu xüsusiyyətlərdən birincisi ondan ibarətdir ki, model həmişə orijinalın nümunəsi kimi çıxış

edir. O, hadisə ilə onun modelin relevant xüsusiyyətlərini müəyyən edən subyekt tərəfindən dərki, şərhi arasında bir növ körpüdür. Modelin ikinci xüsusiyyəti ondadır ki, model orijinalın xüsusiyyətlərinin hamısını deyil, yalnız tədqiqatın məqsədləri üçün əhəmiyyətli olanları əhatə edir.

Modeldə ümumi mücərrəd, sadələşdirilmiş şəkildə əks olunur, yəni bu obyektdə mühüm olan (tədqiqat baxımından) element və münasibətləri özündə cəmləşdirən mücərrəd bir obyekt göz önünə gəlir. Mühüm olmayan, təsadüfi olan, qeyri-relevant olan hər şey diqqətdən kınarda qalır. Modelin üçüncü xüsusiyyəti onun orijinala bənzərliyindədir. Model ilə orijinalın elementləri və strukturu oxşar olmalıdır. Onlar bir-biri ilə oxşarlıq əlaqəsinə girməlidirlər.

Elmi modelin yaradılması prosesində idrakın subyekti bir neçə mərhələdən keçir. Birinci mərhələdə qoyulmuş problemin həlli üçün məlumatlar toplanılır. Əhəmiyyətli məlumatlar və əsas eksperimentlər seçilir. Modelin dili yaradılır, yəni modelin yaradılacağı əsas elementlər seçilir. Bu elementlər təsvir edilir və işarələnir, daha sonra isə qeyd edilən elementlər arasında əlaqə və asılılıq müəyyən olunur. İkinci mərhələdə modelin mahiyyəti haqqında ideya yaranır, modelin qurulması qaydaları yaradılır və bu qurulmanın özü baş verir. Bu model qoyulmuş vəzifə və onun mümkün modifikasiyasını daxilində təkamül etmə ehtimalını nəzərdə tutur. Üçüncü mərhələ qurulmuş modelin eksperimental yoxlanılması mərhələsidir. Model praktiki istifadəyə uyğunlaşdırılır və onun köməyi ilə əldə edilən həllər təhlil edilir. Dördüncü mərhələdə model dəqiqləşdirilir və korreksiya edilir. Model adekvat olarsa, qoyulmuş vəzifə həll edilərsə, geniş istifadə olunmağa başlayacaq. Əks təqdirdə modelin dili genişləndirilir və yeni, genişləndirilmiş modelin qurulmasına keçid edilir. Onda proses yenidən eyni dörd mərhələdən keçir.

Modelin yaradılmasında və inkişafında dördüncü mərhələ onunla şərtlənir ki, real prosesin modelini yaradarkən istər-istəməz onu sadələşdirir və yalnız təxmini sxemini öyrənirik. Lakin model real gerçəkliyin təxmini inikası olduğundan, elə bir an gələ bilər ki, bəzi faktlar model dilinin təsəvvürləri çərçivəsində izaholunmaz olacaq. Bu halda ilkin şərtlərə yenidən baxılmalı, modelin işlənməsi zamanı bünövrə kimi çıxış edən əsas müddəalar dəyişdirilməlidir.

Elmi modelin yaradılması prosesini təhlil edərkən belə nəticəyə gəlinir ki, elmi idrak vasitələri kimi modellər öz növbəsində bilavasitə təcrübədə formalaşan modelləri (təbii dilin əvvəlcə sadə, daha sonra isə getdikcə daha mürəkkəb anlayışları ifadə edən ilk sözlərinin yaradılmasından başlayaraq) nəzərdə tutur. onların yaranma prosesini də elmi modelin yaradılması mərhələlərinə bənzəyən dörd mərhələyə ayırır.

Deməli, elmi idrak müəyyən mənada həmişə yarandığı və inkişaf etdiyi mədəniyyətlə şərtlənir. İstənilən elmi model abstraksiyadır, çünki modelləşdirilən şeydən və ya prosesdən (orijinaldan) daha az zəngin məzmuna malik olduğunu nəzərdə tutur. Model təkcə referensial və ya reprezentativ olaraq əsli ilə bağlı olmayıb həm də ona yalnız bu tədqiqat kontekstində relevant olan mənanı verən tədqiqatçının intensional obyekti kimi çıxış edir. Bunun sayəsində model öz koqnitiv və evristik imkanlarını əldə edir.

Modelləşdirmə prosesi müxtəlif tarixi dövrlərdə yekcins olmamış, elmi biliklərin özünün inkişafı ilə birlikdə dəyişmiş və inkişaf etmişdir. Buna görə də bu metod tarixi yolla, elmin özünün inkişaf mərhələləri ilə əlaqədə öyrənilməlidir. Elmin inkişafında iki əsas mərhələ fərqləndirlir: klassik elm mərhələsi və qeyri-klassik elm mərhələsi.

Klassik elmin inkişafı iki dövrə bölünür. Birinci dövr XVII-XVIII əsrləri əhatə edir. Bu, mexanistik təbiətşünaslığın sürətli inkişafının baş verdiyi vaxtdır. İkinci dövr (XIX əsr) ilk təkamül konsepsiyalarının yarandığı, termodinamikanın qanunları və elektromaqnit sahəsinin kəşf edildiyi dövrdür. Qeyri-klassik elmin inkişafı da iki dövrə bölünür. Birinci dövr (XX əsrin birinci yarısı) kvant mexaniki nəzəriyyəsinin və nisbilik nəzəriyyəsinin yaranması ilə əlamətdar

oldu. İkinci dövr (XX əsrin son üçdə biri-XXI əsrin əvvəlləri) postqeyri-klassik elm mərhələsi adlandırılır və elmə və texnikaya kompüter texnologiyalarının nüfuz etməsi, sinergetika ideyalarının yayılması ilə əlaqədardır.

Erkən Yeni dövrdə (XVII - XVIII əsrlər) elmi və texniki tədqiqat modelləri açıq şəkildə mexanistik xarakter daşıyırdı. Onlar İ.Nyutonun qanunları əsasında yaradılırdı. Başlanğıcda əsas rolu müəyyən bir qüvvə ilə bir-birinə çəkilən (və ya bir-birindən itələnən) nöqtəli hissəciklərdən ibarət olan modellər oynayır. XVII əsrdə. fizika yaranarkən əsas diqqət "təbiətin qanunlarını" tapmağa yönəldildi. Q. Qalileo və I. Nyuton üçün tədqiqatda əsas şey hərəkət qanunlarını riyazi model şəklində kəşf etmək idi.İ.Nyutonun modelləşdirmənin nəzəri inkişafında mühüm rolu vardır. Alim "natural fəlsəfənin riyazi əsasları "əsərində iki sistemlər arasında oxşarlıq əlamətinin.şərhini vermişdir ."Modelləşdirmənin inkişafında Nyutonun xidmətlərindən biri də onun texniki –eksperimental və nəzəri modellərin qurulmasının təbii – elmi əsaslarının inkişafına güclü təsir göstərməsi olmuşdur (2, s.52).

Nəticə etibarilə coxlu sayda təbiət qanunlarinin kəşf edilməsi baş verdi .. Bunu ingilis təbiətşünası R. Hukun əsərləri sübut edir. İstedadlı elm adamı və eksperimentator, İ.Nyutonun daha yaşlı çağdaşı R. Huk qırx il London Kral Cəmiyyətinin kuratoru vəzifəsində çalışmışdır. Bu müddət ərzində təkcə özü tərəfindən 500 qanun kəşf edilmişdi. İ.Nyuton və Q. Leybnits tərəfindən differensial və inteqral hesablamaların yaradılması yalnız cisimlərin davamlı halı üçün deyil, həm də cari proseslər üçün riyazi modelləri qurmağa imkan verdi. Elmi və texniki tədqiqatlar və onu müşayiət edən model quruculuğu zamanın aktual maraqları və tələblərindən irəli gəlirdi.

Buxar mühərriki əsasında fabrik-maşın istehsalı təşəkkül tapırdı. Və İntibah dövründən əvvəl texnika kor-təbii inkişaf edirdisə, kəşflər və ixtiralar təsadüfdən təsadüfə baş verirdisə, Yeni dövrdə ixtiralar məqsədyönlü fəaliyyətin nəticəsi olmuşdur. Elektrik nəzəriyyəsinin inkişafı ilə bu yeni nəzəriyyənin dilində təsvir edilən bir çox model ortaya çıxdı. Elektrik enerjisi sənayedə istifadə olunmağa başladı ki, bu da xüsusi elektrik cihazlarının, elektrik mühərriklərinin, transformatorların, paylayıcıların və ötürücü xətlərin istehsalını tələb etdi. Bu istehsaldan əvvəl müvafiq modelləşdirmə həyata keçirilirdi. Getdikcə daha da mürəkkəbləşən maşınların istehsalı artıq elmi araşdırmalar olmadan həyata keçirilə bilməzdi.

Modelləşdirmə vasitəsi ilə elm texnologiyada praktiki olaraq tətbiq edildi. Həmin vaxtdan bəri texniki obyektlərin modellərinin inkişafında aşağıdakı dəyişiklikləri görmək mümkündür: insanların elmi, istehsalat və digər tələbatlarının həyata keçirilməsi üçün nəzərdə tutulan müxtəlif növ texnoloji modellərin keyfiyyət və kəmiyyətcə genişlənməsi; alət texnologiyası modellərindən maşın texnologiyası modellərinə keçidin baş verməsi; modelın strukturun mürəkkəbləşməsi və elementlərinin sayının artması. XX əsrdə modelləşdirmənin ən mühüm növü riyazi modelləşdirmə olmuşdur. Bu, riyazi aparatın cəlb edilməsini tələb edən elmi biliyin təbii inkişaf prosesindən qaynaqlanır. Riyaziyyatın yeni sahələrinin, eləcə də kibernetikanın, hesablama texnikasının meydana gəlməsi riyazi modelləşdirmənin imkanlarını əhəmiyyətli dərəcədə artırdı.

Modelləri iki böyük qrupa ayırırlar. 1) maddi modellər 2) ideal modellər

Modelləşdirmədən bir cox elm sahələrində o cümlədən tibb va bioloji elmlərdə istifadə olunur . Bugünkü dövrda səhiyyə sahəsində bir çox nailiyyət düzgün modellərdən istifadə zamanı əldə edilmişdir. Etyopatogenez bütövlükda qeyri-müayyan olan, insan sağlamlığı ila bağlı bütün hallarda bir model qurmaq va onun üzarində diaqnoz va müalica ila bağlı proseslerin nazardan keçirilmasi va ya patogenetik mexanizmlari qavramağa çalışmaq cahdlari müayyan modellar üzarinda işlamayi zaruri edir. Yaşlanma modelleri, xarçang, ateroskleroz kimi modellar bu

mövzunun tipik nümunalaridir. Müasir tibb va biologiya elmində aparılan tədqiqatlar zamanı aşağıdaki modellardən geniş istifadə olunur:

-Könüllü insanlar.

-Təcrübə heyvanları.

-Embrionlar, orqanlar, hüceyralar, toxumalar.

-Bakteriyalar, göbələkər, viruslar, protozoonlar.

İnsan biologiyası sahəsində müayyan tədqiqatlar apararkən və sağlamlıqla əlaqədar bir çox kritik problemi hall etmayə çalışarkan bəzi təcrübələrin aparılması zəruridir. Bu təcrübalarin aparılması zamanı modellardən istifadə etmenin zəruriliyi qaçılmazdır a) Çox vaxt bu təcrübələri insan üzərində aparılması etik baxımdan qeyrimümkündür.

Bu işlərdə istifadə ediləcək innovatİv üsullar ancaq bir modellə tətbiq oluna bilar.

b)Üzərində təcrübə aparılan amilleri tək-tək va ya kombinasiyalar halında qiymatləndirmək ancaq modellar vasitəsi ilə mümkündür.

d) Dərmanların istifadədən əvvəl yoxlanılmasında ancaq modellerin tətbiqi ilə müəyyən proqnozların irəli sürülməsi mümkündür.

e)Müalicə texnikalarının təsir mexanizmləri də çox vaxt modellər üzər ərində araşdırmalar edilərək aydın ola bilər.

Bütün elmi idrak metodları kimi modelləşdirmə metodunun da tətbiqinda əsas məqsəd tədqiq olunan obyekt və ya hadisənin öyrənilməsində səmərəli nəticələrin əldə edilməsidir.” Model abstraksiyanın xüsusi növüdür.Belə ki ,model orijinalın bütün xassələrini deyil,yalnız müəyyən xassələrini əks etdirməklə onun bütün digər xassələrindən abstraksiya etmiş olur (5, s.87). İnsanın reallıqla, onun modelinin köməyi ilə qarşılıqlı əlaqəsi zamanı imkanlarının artması təəccüblü görünə bilər. Bu həqiqətən belədir, belə ki, tədqiqat obyektinin real mühiti müstəsna dərəcədə mürəkkəbdir və konkret problemə aid olan dəyişənlarin faktiki sayı, har bir amilin və cəhətin çətinliyi tədqiqatçının imkanlarını xeyli dərəcədə üstələyir. Onu modelləşdirmənin köməyi ilə sadələşdirməklə başa düşmək olar.

Modelləşdirmə üsulu bir tədqiqat aləti kimi insanın təbiat və cəmiyyətin inkişaf qanuna uyğunluqlarını dərk etməsi prosesinde, ətraf aləmin praktiki dəyişdirilməsi yollarının axtarılmasında mühüm yer tutur. Son illər kompüter texnologiyasının sürətli inkişafi nəticasində bu üsula təkcə fiziklərin, mexaniklərin deyil, iqtisadçıların, sosioloqların, demoqratların digər elmlərin nümayəndələrinin marağı daha da artmışdır Yeni elmi biliklər alınması üsullarının, o cümlədəm modelləşdirmənin tətbiqi istənilən elmi istiqamətin inkişafı üçün zəruri şərtlərdəndir.

ƏDƏBİYYAT

1. Штофф В.А Роль моделей в познании. М.: 1963
2. Abışov Vaqif . Modelləşdirmə və elmi idrak. B.: 2000
3. Ильин В.П. Математическое моделирование. М.: 2017
4. Гаврилов О.А Математические методы и модели в социально правовом исследовании. М.: 1980
5. Məmmədov Ə.B.Elmi idrakın metodları. B.: 1997
6. Новик И.Б.О моделировании сложных систем. М.: 1965
7. Гудков Л.Д. Абортивная модернизация. М.: 2011

MODELLƏŞDİRMƏ METODUNUN TƏŞƏKKÜLÜ VƏ İDRAK PROSESİNDƏ ROLU

Hüseynova Sevinc

XÜLASƏ

Elmi idrakda modelləşdirmə metodunun öyrənilməsi müasir dövrdə yeni texnologiyalardan istifadəni şərtləndirir. Bu metodun tətbiqi nəticəsində yeni elmi nailiyyətlər, yeni kəşflər va problemlərin həlli daha effektiv nəticə verir. Elmi idrakda modelləşdirmə yerinə yetirdiyi funksiya baxımından digər elmi idrak metodlarından fərqlənir. Məhz modelləşdirmənin mövcudluğu şəraitində gerçəklikdə tədqiq olunması mümkün olmayan obyektlərin belə tədqiqi hayata keçirilir.

РАЗВИТИЕ МЕТОДА МОДЕЛИРОВАНИЯ И ЕГО РОЛЬ В ПОЗНАВАТЕЛЬНОМ ПРОЦЕССЕ

Гусейнова Севиндж

АННОТАЦИЯ

Изучение методов моделирования в научном познании приводит к использованию новых технологий в современности. В результате применения этого метода новые научные достижения, новые открытия и решения проблем дают более эффективные результаты. Моделирование в научном познании отличается от других методов научного познания своей функцией. Именно при наличии моделирования осуществляется такое изучение объектов, которые невозможно изучить в реальности.

DEVELOPMENT OF THE MODELING METHOD AND ITS ROLE IN THE COGNITIVE PROCESS

Huseynova Sevinj

SUMMARY

The study of modeling methods in scientific cognition leads to the use of new technologies in modern times. As a result of the application of this method, new scientific achievements, new discoveries and solutions to problems give more effective results. Modeling in scientific cognition differs from other methods of scientific cognition in terms of its function. It is in the presence of modeling that such a study of objects that cannot be studied in reality is carried out.

HÜQUQİ DÖVLƏTİN FORMALAŞMASININ BAŞLICA İSTİQAMƏTLƏRİ

İbadov Orxanpaşa Haqverdi oğlu
BDU-nun II kurs magistrantı
ibadovorxan6@gmail.com

Açar sözlər: Hüquqi dövlət, polis dövləti, qanunun aliliyi, hakimiyyət bölgüsü
Ключевые слова: верховенство права, полицейский государство, верховенство закона, разделение властей.
Keywords: rule of law, police state, rule of law, separation of powers

Hüquq insan hüquq və azadlıqlarını qoruyan və inkişaf etdirən prinsiplər toplusudur. Hüququn məqsədi ədalətə çatmaq və ictimai münasibətləri ədalət anlayışı ətrafında formalaşdırmaq, fərdlərin və cəmiyyətin əksəriyyətinin vicdanını idarə etməkdir.

Hüquqi dövlət öz institusional quruluşu və qaydaları ilə hüququn bu məqsədinə çatmaq üçün ən təsirli ifadə vasitəsidir. Hüquqi dövləti qanunun aliliyinə inanan, fərdin hüquq və azadlıqlarını qoruyan, ədalətli hüquqi bazaya və müstəqil məhkəmə sisteminə malik, qanunları ümumbəşəri hüquq normalarına uyğun gələn dövlət kimi müəyyən edə bilərik.

"Hüquqi dövlət" – söz birləşməsində, göründüyü kimi, birinci yerdə hüquq, ikinci yerdə dövlət durur. Deməli, bu dövlətdə hüquq dövlətdən əsasdır, dövlət hüquqa tabedir (1; 101).

Başqa sözlə desək, hüquq dövləti fərdi hüquq və azadlıqların təmin olunduğu bir sistem, ictimai həyatın müasir sivilizasiyanın çatdığı və yaratdığı mürəkkəb nizamdır. Əsas hüquq və azadlıqların təmin olunmadığı, ümumbəşəri hüquq normalarına riayət olunmadığı, ədalətli nizam-intizamın həyata keçirilmədiyi bir mühitdə hüquqi dövlətdən danışmaq mümkün deyil.

Bu konsepsiyanın hüquqi dövlətin formalaşması və fəaliyyəti baxımından müəyyənləşdirdiyi – qanunun aliliyi, qanun və məhkəmə qarşısında hamının bərabərliyi, hakimiyyət bölgüsü, vətəndaş və dövlətin qarşılıqlı məsuliyyəti, fərd-cəmiyyət-dövlət münasibətlərinin tənzimlənməsinə başda konstitusiya olmaqla hüquqi sistemin nəzarəti, vətəndaşların hüquq və azadlıqlarının müdafiəsi kimi – bir neçə əsas prinsipi var (2; 166).

Bu prinsiplər şərti olaraq iki istiqamətə bölünə bilər. Birinci istiqamət, yəni hakimiyyət orqanlarının hüquqa bağlılığı, hakimiyyət bölgüsü, müstəqil məhkəmə hakimiyyətinin mövcudluğu mahiyyət etibarilə ikinci istiqamətin vətəndaşın hüquq və azadlıqlarının müdafiəsinin təminatı əsasında qurulur. Çünki istənilən halda, istənilən dövlətçilikdə güclü olan hakimiyyətdir, vətəndaşların hüquqları isə kövrək xarakter daşıyır.

Təsadüfi deyil ki, Aristotel yazırdı ki, dövlət sadəcə olaraq insanların yaşaması üçün yox, məhz xoşbəxt yaşaması üçün yaradılır.

İbtidai anlayışda hüquq idarə edənlərə deyil, yalnız idarə olunanlara aid olan qaydalar topuna bənzəyirdi. Dövlətin öz yaratdığı qanunlara riayət etməsi prosesi polis dövləti → hüquqi dövlət formasında inkişaf etmişdir.

"Hüquqi dövlət" "polis dövləti"nin əksi mənasında işlənir. "Polis dövləti" XVII-XVIII əsrlərdə Kontinental Avropa ölkələrindəki mütləqiyyət rejimlərini izah etmək üçün istifadə edilən və ilk dəfə Almaniyada meydana çıxan anlayışdır. "Polis dövləti" cəmiyyətin rifahı və təhlükəsizliyi üçün hər cür tədbirləri görə bilən, bu məqsədlə şəxslərin hüquq və azadlıqlarına maksimum dərəcədə müdaxilə edə bilən, onların üzərinə mükəlləfiyyətlər qoyan, lakin idarəetməsi qanunla bağlı olmayan dövlətdir. Polis dövləti anlayışında dövlət qanunla bağlı olmadığından, dövlətin hərəkət və əməliyyatlarına məhkəmə nəzarətindən söhbət gedə bilməzdi. "Polis dövləti" ifadəsindəki "polis" sözü təkcə "hüquq-mühafizə" mənasında deyil, daha geniş

mənada, ictimaiyyətin rifahının və təhlükəsizliyinin təmin edilməsinə yönəlmiş bütün dövlət fəaliyyəti mənasında işlənmişdir. Bu fəaliyyətləri həyata keçirmək üçün dövlətin qeyri-məhdud və nəzarətsiz səlahiyyəti "polis hakimiyyəti" adlanırdı. Qısacası, "polis" termini heç bir sərhəd və nəzarəti bilməyən dövlət hakimiyyətini nəzərdə tuturdu (7; 1).

Demokratik hüquqi dövlətdə isə qanunverici hakimiyyət icraedici hakimiyyətdən fərqli olaraq bütün hallarda ümumxalq səsverməsi əsasında formalaşır və nəticələr konstitusiya məhkəməsi tərəfindən yoxlanılır və təsdiq olunur. Qanunverici hakimiyyət birbaşa xalqı, konstitusiya isə xalqın dəyər və normalarını təmsil etdiyindən hüquqi dövlətdə həm qanunverici hakimiyyət, həm də konstitusiya məhkəməsi ali rola malik olmalıdır. Bu qurumların və onların təmsilçilərinin icraedici hakimiyyətin təsirinə məruz qalmaması vacib şərtdir. İcraedici və məhkəmə hakimiyyətləri bərabər və tarazlı şəkildə qanuna riayət etmələri ilə yanaşı bir-birinin fəaliyyətinə qarışmamağa da məcburdur (5; 70).

Hər şeydən əvvəl dövlətdən hüquqi dövlət kimi danışa bilmək üçün o dövlətin praktikada yuxarıdakı prinsiplərə nə dərəcədə əməl etdiyinə baxmaq lazımdır. Yəni dövlətin qanunlarında bu prinsiplərin təsbit edilməsi kifayət deyil, qanunun aliliyini həyata keçirməyə yönəlmiş hərəkətlər boş və əsassız olmamalıdır; cəmiyyətə birbaşa və müsbət təsir edəcək əməli hərəkətlər olmalıdır.

Əvvəla hüquqi dövlətdə hakimiyyətin bütün orqanları bölgü prinsipinin gətirdiyi üfüqi və şaquli münasibətlər sisteminin formalaşmasına xidmət edən səlahiyyətlərə malik olmalıdır və bu səlahiyyətlər konstitusiya və digər qanunvericilik aktları ilə qoyulan tələb və sərhədləri aşmamalıdır.

Hakimiyyətin hüquqa bağlılığı, yəni qanunun aliliyi prinsipi konstitusiyadan başlayaraq bütün hüquqi sistemdə son dərəcə ciddi və həssas məqamdır. Bu səbəbdən qanunvericilik həm konstitusiyaya bağlı vasitəli şəkildə, həm də birbaşa həmin prinsipə uyğun işini qurduğu halda onun hüquqi dövlət formalaşdırmaq istiqamətində yaratdığı əsaslı imkandan danışmaq olar.

Qanunun aliliyinin hüquqi dövlətdə əhəmiyyəti nəzər alınaraq bəzi mənbələrdə hüquqi dövlətə - qanunlara riayət etməkdə idarə edənlə idarə olunanlar arasında fərq qoymayan dövlət kimi anlayış da verilir (8; 1).

Qanunun aliliyi, idarə edənlərin və idarə olunanların qanunlara riayət etməsi təklikdə "hüquqi dövlət"in mövcudluğu üçün kifayət deyil. Hüquqi dövlətdə qoyulan qaydalara, qəbul edilmiş qanunlara riayət etmək zəruridir, lakin kafi deyil. Qanunların ədalətli olub-olmadığını qiymətləndirəcək bir məhkəmə araşdırması, bu məhkəmə baxışında istifadə ediləcək bir konstitusiya və bu konstitusiyanın üstündə olan ümumi hüquq prinsiplərinin mövcudluğu şərtdir. Qanun ədalətli deyilsə, bu qanunun tənqid olunması və dəyişdirilməsi imkanı olmalıdır ki, qanun daha yaxşıya, daha ədalətliyə doğru inkişaf etsin.

Məlum olduğu kimi hüquqi pozitivizm konsepsiyalarının əsas məğzini dövlət hakimiyyətinin pozitiv hüquqla məhdudlaşması ideyası təşkil edir. Hüquqi pozitivizmin nümayəndələri hüquqla qanun arasında fərq qoymurlar. Onlar hüququn nə olduğunu yalnız dövlət tərəfindən müəyyənləşən və müdafiə olunan normalarla məhdudlaşdırırdılar (4; 79).

Bu konsepsiyanın prizmasından yanaşılsa, hüquqi dövlətdə dövləti məhdudlaşdıran hüquq elə onun özü tərəfindən müəyyənləşən qaydalardır.

Hüquqi pozitivizmin əksinə təbii hüquq nəzəriyyəsinin nümayəndələri isə dövlət hakimiyyətini məhdudlaşdıran, onun iradəsini özünə tabe edən əbədi və dəyişilməz təbii hüquqların mövcudluğunu iddia edirlər.

Hesab edirik ki, pozitivistlərin mövqeyi hüquqi dövlətin qanunlar dövləti ilə əvəz olunmasına gətirib çıxarır. Bu halda isə qanunların obyektivliyini, ədalətliliyini müəyyənləşdirən kriteriya mövcud olmur.

Bütün bu qeydlər göstərir ki, hüquqi dövlət davamlı demokratik, hüquqi, siyasi, mədəni ənənələrə malik cəmiyyətlərdə yaranır. Nümunə olaraq qeyd edə bilərik ki, Qərb feodalizmi ilkin mərhələdə qeyri-mütəmadi çağırılan qurultaylardan feodal parlamentləri yaratmışdır. İngiltərə və Fransanın məhkəmə sistemləri feodal institutdan formalaşmışdır.

Hüquqi dövlətin idoloqu İ.Kant deyirdi ki, insanın yalnız bir əsas hüququ var – azadlıq hüququ, bütün digərləri isə məhz azadlıqdan qaynaqlanır. Hüquqi dövlət ideyasının maddiləşməsi cəmiyyətin və ayrıca şəxsiyyətin dünyagörüşünü dəyişən insan ruhunun üzücü zəhməti hesabına başa gəlir. Əgər mədəniyyət, hüquq, demokratiya fərdi dəyərlər kimi mövcud olmayacaqsa, heç bir hüquq dövlət barədə düşünməyə dəyməz (6; 228).

Hüquqi dövlətin formalaşması üçün yüksək ümumi, eləcə də hüquqi mədəniyyət tələb olunur. Mədəniyyət bəşəriyyətin mənəvi və maddi dəyərlərinin məcmusu kimi siyasi institutlara birbaşa təsir gücünə malikdir. Yüksək mədəniyyətli cəmiyyət totalitar dövlətlə bir sıraya qoyula bilməz, çünki o, bir qayda olaraq xarizmatik başçı ilə fərdiləşir. Həqiqi azadlığı, ehkamlardan və stereotiplərdən azadlığı təkcə bilik və mədəniyyət verə bilər. Ona yüksək hüquq dərketmə səviyyəsi xasdır, çünki hüquq cəmiyyətin fərdlərinin sosial əlaqələrinin vasitəçisi kimi başa düşülür.

Onu da qeyd etmək istəyərdim ki, hüquqi dövlət quruculuğu qədim hüquqi nihilizm ənənələrinin mövcud olduğu yerdə mümkün deyil. Bəzi hallarda belə düşüncələrə rast gəlirik ki, ictimai inkişafın qüsurları başlıca olaraq pis qanunların nəticəsidir. Bununla qismən razılaşmaq olar, çünki əgər cəmiyyətdəki fərdlər öz hərəkətlərini hüquqla ölçmək vərdişinə malik deyillərsə, hətta təkmil qanun belə nəyisə dəyişməyə qabil deyil. Cəmiyyətin elə keyfiyyətinə can atmaq lazımdır ki, qanuna meyilli davranış davamlı və kütləvi olsun (4; 228).

Hüquqi dövlətin formalaşmasının ilkin şərtlərindən biri ədalətli olaraq vətəndaş cəmiyyətinin varlığı hesab olunur. Hələ qədim dövrdə Aristotel dövləti "vətəndaşların məcmusu, vətəndaş cəmiyyəti" kimi qiymətləndirirdi. Vətəndaş cəmiyyətinin strukturuna ailə, hüquq, korporasiya, din, təhsil və s. aid etmək olar.

Hüquqi dövlətin formalaşması vətəndaş cəmiyyətinin inkişafı ilə bağlıdır. Vətəndaş cəmiyyəti dedikdə azad sahibkarlıq, təşəbbüskarlıq mühiti başa düşülür. Vətəndaş cəmiyyətində dövlət strukturlarından fərqli olaraq vertikal əlaqələr yox, horizontal əlaqələr üstünlük təşkil edir. Vətəndaş cəmiyyəti o insanların demokratik cəmiyyətidir ki, orada insanlar nəyəsə malik olurlar, məsələn, istehsal vasitələrinə, pul vəsaitlərinə, işçi qüvvəsinə və s. Çünki vətəndaş cəmiyyətinin ən başlıca elementi olan mülkiyyət şəxsiyyətin və bütün cəmiyyətin azadlığının ilkin şərtidir. Mülkiyyətə hörmət olmayan cəmiyyətdə şəxsiyyətə də hörmət olmur.

Ümumiyyətlə hüquqi dövlətin formalaşması vətəndaş cəmiyyətinin inkişafı ilə bağlıdır. Onun özəyi iqtisadi sərbəstlikdir və sərbəstlik demokratiyanı yaradan şərtlərdən biridir. Odur ki, vətəndaş cəmiyyəti həm də demokratik rejimin mövcudluğunun təminatçısı da hesab oluna bilər.

Vətəndaş cəmiyyətinin əsasını cəmiyyətdəki qeyri-siyasi və iqtisadi münasibətlər təşkil edir. Yəni vətəndaş cəmiyyəti heç də siyasi cəmiyyət demək deyil. Buradakı vətəndaşların da siyasi fəallığı siyasi sosiallaşma prosesidir ki, bu da onların yaratmış olduqları müxtəlif biliklər vasitəsi ilə (partiya, klub, dini qurum, hərəkatlar, kooperativ-işgüzar assosiasiyalar) vətəndaş ilə dövlət arasında əlaqə yaradır. (1; 108) Demokratiya vətəndaş cəmiyyətinin plüralizminə əsaslanır.

Düzdür qeyri-demokratik şəraitdə də cəmiyyət mövcuddur. Lakin bu cəmiyyət hakimiyyət strukturlarının nəzarəti altında olur və onlara hesabat verir.

Hüquqi dövlətə uzanan yol maneələr və aldanmalar ilə zəngin olan bir yoldur.

Hüquqi dövlət siyasi hakimiyyətin legitimliyini onun siyasi və inzibati ixtiyarını məhdudlaşdırmaqla hüquqi şərtə bağlayan siyasi-hüquqi sahədir. Hüquqi dövlət quruculuğu isə ciddi düşünülmüş strategiya və taktikaya dayaqlanmalıdır. Hüquqi dövlətin formalaşması

tarazlaşdırılmış səylər tələb edir. Hüquqi islahatı siyasi islahatdan ayrı aparmaq olmaz. Çünki hüquqi dövlətin məzmun elementləri hüquqi amillərlə məhdudlaşmır. Cəmiyyətdə ümumi siyasi-hüquqi mədəniyyətin mövcudluğu, yaxud olmaması və bu mədəniyyətlə hüquq nizamı arasındakı əlaqə yazılı qanunlarda hüquqi dövlətin müxtəlif elementlərinin nə dərəcədə ifadə edilməli olduğunu müəyyən edir.

Hüquqi dövlət yalnız cəmiyyətdə bu konsepsiyanın tətbiqi üçün məsuliyyət hissinin olduğu və bu konsepsiyanı öz hüquqi, siyasi və sosial mədəniyyətinin tərkib hissəsinə çevirdiyi halda formalaşa bilər.

ƏDƏBİYYAT

1. H.Məmmədov. Hüquqi dövlətin yaranmasında hüquqi qnoseologiya, təcrübə və adət-ənənələr. Bakı Universitetinin xəbərləri. Sosial-siyasi elmlər seriyası. №2. 2013
2. H.Şirəliyev. Ə.Əhmədov. Politologiya. Apostroff. Bakı. 2014. 391 səh.
3. R.Hüseynov. Hüquqi dövlət və vətəndaş cəmiyyəti. Elm və təhsil. Bakı 2017. 135 səh.
4. V.Lazarev. Ümumi hüquq və dövlət nəzəriyyəsi. Qanun. Bakı. 2007. 491 səh.
5. Y.Nəsibov. Hüquqi dövlətin fəlsəfi əsasları. Bakı. 2014. 129 səh.
6. Г.Гегелъ. Философия права. Издательство Мысль. Москва. 1990

İnternet resursları

7. B.Kuzu. Hukuk Devleti Ve Hukuk Zihniyeti
https://baskanlikreferandumu.siyasaliletisim.org/wpcontent/uploads/2009/05/hukukdevletivehukukzihniyeti.pdf
8. M.Baskan. Hukuk devletinde kişisel güvenlik
http://www.umut.org.tr/userfiles/files/Document/document_MESUT%20BASKAN.pdf

HÜQUQİ DÖVLƏTİN FORMALAŞMASININ BAŞLICA İSTİQAMƏTLƏRİ

İbadov Orxanpaşa

XÜLASƏ

Hüquqi dövlət konsepsiyası şəxsiyyətin muxtariyyətini təsdiqləməyə yönəlmişdir. Hüquqi dövlətin yaradılması və formalaşdırılması insan hüquq və azadlıqlarının maksimal təminatı, dövlətin vətəndaş qarşısında və vətəndaşın dövlət qarşısında məsuliyyəti, qanunun nüfuzunun yüksəldilməsi, bütün dövlət orqanlarının, ictimai təşkilatla, kollektivlər və vətəndaşların ona dönmədən riayət etməsi ilə əlaqələndirilir.

Bu məqalədə hüquqi dövlətin konseptual təhlili aparılıb və sözügedən anlayışın məzmununu təşkil edən komponentlər hüquq dövlətinin müxtəlif idealları baxımından açıqlanmağa çalışılıb. Bundan əlavə, hüquqi dövlətin əsasını təşkil edən prinsip və qaydaların mahiyyəti müzakirə edilərək formal (prosessual) və maddi hüquqi dövlət arasındakı fərqlər araşdırılmışdır

ОСНОВНЫЕ НАПРАВЛЕНИЯ ФОРМИРОВАНИЯ ПРАВОВОГО ГОСУДАРСТВА

Ибадов Орханпаша

АННОТАЦИЯ

Концепция верховенства права направлена на утверждение автономии личности. Установление и формирование правового государства связано с максимальной гарантией прав и свобод человека, ответственности государства перед гражданином и гражданина перед государством, повышением авторитета закона, неукоснительным соблюдением всех государственных органов, общественные организации, коллективы и граждане.

В данной статье проводится концептуальный анализ верховенства права и делается попытка объяснить компоненты концепции с точки зрения различных идеалов верховенства права. Кроме того, обсуждалась сущность принципов и норм, составляющих основу правопорядка, и исследовались различия между формальным (процессуальным) и материальным правопорядком.

MAIN DIRECTIONS OF FORMATION OF THE LEGAL STATE

Ibadov Orkhanpasha

SUMMARY

The concept of the rule of law is aimed at affirming the autonomy of the individual. The establishment and formation of the rule of law is associated with the maximum guarantee of human rights and freedoms, the responsibility of the state to the citizen and the citizen to the state, increasing the authority of the law, the unwavering observance of all state bodies, public organizations, collectives and citizens.

This article provides a conceptual analysis of the rule of law and seeks to explain the components of the concept in terms of the various ideals of the rule of law. In addition, the essence of the principles and rules that form the basis of the rule of law was discussed, and the differences between formal (procedural) and substantive rule of law were investigated.

İNSAN VƏ TƏBİƏT MÜNASİBƏTLƏRİNİN TƏNZİMLƏNMƏSİ

Əliyev Rəvan Əyyub oğlu
BDU-nun II kurs magistrantı
ravanaliyev.97@gmail.com

Açar sözlər: insan, təbiət, insan və təbiət münasibətləri, ekoloji şüur, ekoloji hüquq və siyasət.
Ключевые слова: человек, природа, отношения человека и природы, экологическое сознание, экологическое право и политика.
Keywords: human, nature, human and nature relationships, ecological consciousness, environmental law and policy.

İnsan və təbiət münasibətlərinin mövcud olduğu bütün dövrlər ərzində bu münasibətlərin tənzimlənməsi və yaxşılaşdırılması bir çox elm sahələrinin əsas diqqət mərkəzində olmuşdur. Münasibətlərin tənzimlənməsi və normallaşdırılması məsələsi öz növbəsində qlobal ekoloji problemlərin həllinin əsasında durur. Bu məsələni isə əsasən aşağıdakı istiqamətlərdə təhlil etmək bu sahədə daha aydın təsəvvür formalaşdırır:

1. Ekoloji şüurun, maarifləndirmə və ekoloji tərbiyənin, ekoloji mədəniyyətin formalaşdırılması əsasında insan və təbiət münasibətlərinin tənzimlənməsi və yaxşılaşdırılması.
2. Hüquqi və qlobal ekoloji siyasət prizmasından insan və təbiət münasibətlərinin tənzimlənməsi.

İlk növbədə qeyd etmək lazımdır ki, təbiət, cəmiyyət və insan qarşılıqlı təsiri sahəsində hüquqi tənzimetmə sisteminin yaranması və sonradan inkişafı dörd mərhələdə mövcud olmuşdur [5, s. 41]

1. Mülki hüquq mərhələsi.
2. Torpaq hüququ mərhələsi.
3. Təbii ehtiyatlar hüququ mərhələsi.
4. Ekologiya hüququ mərhələsi.

Qeyd edilən hər bir mərhələ insan və təbiət münasibətlərinin tənzimlənməsində öz növbəsində aşağıdakı bir sıra qayda, normaları formalaşdırır və onlar da müxtəlif növlərə bölünür [5, s. 50-51];

1. Xəbərdaredici normalar - bu normalar insan və təbiət münasibətlərinin tənzimlənməsinin hüquqi aspektinin ən mühüm istiqamətini təşkil edir. Bu norma qanunazidd hərəkətlərin baş verməsi fonunda yaranan mənfi nəticələrin qarşısını almağa yönələn fəaliyyəti özündə ehtiva edir. Məsələn, ekoloji nəzarət sahəsində olan bütün normalar bura daxildir.
2. Qadağanedici normalar ətraf mühitə zərər verəcək hərəkətlərə yol verilməməsinə istiqamətlənmişdir. Bu birbaşa təbiəti mühafizəyə aid normativ aktlarla reallaşdırılır.
3. Cəzalandırıcı normalar isə əsasən ekoloji cinayətlərə və xətalara yol verildiyi halda müvafiq cəza tədbirlərini nəzərdə tutur.

Sözügedən bu normalar Yerin bütün təbəqələri ilə bağlı olan insan və təbiət münasibətlərinin tənzimlənməsini reallaşdırılır. Bu əsasla beynəlxalq səviyyədə ekoloji siyasətin işlənməsi və qəbul edilməsi özündə həm də sözügedən normalar sistemini birləşdirir. Nəticədə qəbul edilən qlobal ekoloji siyasət sahəsində qərarlar və normalar əsasında aşağıdakı sahələr üzrə insan və təbiət münasibətlərinin tənzimlənməsini ümumiləşdirə bilərik;

1. Hidrosferlə bağlı olan insan və təbiət münasibətlərinin beynəlxalq ekoloji hüquq və siyasətlə tənzimlənməsi.

2. Atmosferlə bağlı olan insan və təbiət münasibətlərinin ekoloji hüquqi və beynəlxalq ekoloji siyasətlə tənzimlənməsi.
3. Yerin təki, torpaqdan istifadə sahəsi ilə bağlı olan münasibətlərin ekoloji hüquqi və qlobal ekoloji siyasətlə tənzimlənməsi.
4. Biosferlə, yerin biotasının, canlılar aləmi ilə bağlı olan səviyyədə insan və təbiət münasibətlərinin qlobal hüquqi və ekoloji siyasətlə tənzimlənməsi.

İlk istiqamət hidrosferlə bağlı olan insan və təbiət münasibətlərinin beynəlxalq ekoloji hüquq və siyasətlə tənzimlənməsidir. Əslində bu eyni zamanda regional və yerli dövlət səviyyələrində tənzimlənmə hesab edilir. Çünki qəbul edilmiş beynəlxalq ekoloji siyasəti və hüquqi normaları ratifikasiya edən ölkələr bunu yerli səviyyədə reallaşdırırlar.

Hidrosfer qatının qorunması, dəniz, su mühitində çirkləndirmələrin qarşısının alınması bu sahədə problemin artıq ölçüyəgəlməz dərəcədə böyüməsi fonunda daha da aktuallaşmışdır. Kiçik bir statistika mövcud problemin aktuallığını sübut edir. Belə ki, inkişaf etməkdə olan ölkələrdə hər üç nəfərdən biri içməli suyun çatışmazlığından əziyyət çəkir və eyni zamanda xəstəliklərin 80%-i ilə yanaşı ölüm hadisələrinin 1/3-i içməli sudan istifadə sahəsində reallaşır [3]. Eyni zamanda statistik məlumatlarda qeyd edilir ki, dünyada yaşanan iqlim dəyişikliyi nəticəsində 2050-ci ildə 2 milyard insan sudan tamamilə məhrum olma ilə üz üzədir və 30 il sonra 3 milyarddan çox insan istifadə edilməyə lazımlı olan su mənbələrini itirəcəkdir [9].

Bu gün beynəlxalq ekoloji siyasətdə, işlənən hüquqi normalarda əsas diqqət də məhz sudan istifadə, eyni zamanda hidrosfer qatının çirkləndirilməsində rol alan insan və onun fəaliyyətinin nizamlanması son nəticədə həm də insan-təbiət münasibətlərinin yaxşılaşdırılmasına yönəlmişdir. Məhz bu istiqamətdə isə aşağıdakı bir neçə əsas hüquqi sənədləri nümunə göstərmək olar:

1. "Beynəlxalq Dəniz Təşkilatı Konvensiyası" 1948-ci ildə təsis olunmuşdur. Konvensiyanın əsas məqsədlərindən biri də məhz dənizin gəmilər tərəfindən çirklənməsinin qarşısını almaqdır [12].
2. "Gəmilərdən Neftlə Çirklənmənin Qarşısının alınması üzrə Beynəlxalq Konvensiyası" istehsal sferasında bütün tullantıların dənizə atılmasının qarşısının alınması sahəsində mühüm normaları özündə ehtiva edir [12].
3. "Dəniz hüquqi sahəsində BMT Konvensiyası" 1982-ci ildə qəbul edilib və dövlətlərin dəniz mühitini qoruyub saxlaması sahəsində fəaliyyətini normativləşdirir.
4. "Dənizin tullantılarla və digər materiallarla çirklənməsinin qarşısının alınması Konvensiyası" 1972-ci ildə qəbul edilmişdir. Bu su-dəniz mühitin çirkləndirilməsinə qarşı bir sıra normalar və qaydalar sistemini özün ehtiva edir [14].

Hidrosferin çirklənməsi öz növbəsində digər bir istiqamət olan atmosfer sahəsində də müəyyən qlobal ekoloji böhranları yaradır. Atmoferlə bağlı olan insan və təbiət münasibətlərinin ekoloji hüquqi və ekoloji siyasətlə tənzimlənməsi məsələsi də dövrün ən çox diqqətdə saxlanılan məsələdir. Bu gün atmosferdə mövcud olan qlobal ekoloji problemlər birbaşa olaraq insan və təbiət münasibətlərinin düzgün tənzimlənməməsi sayəsində mövcuddur. Bu sahədə beynəlxalq ekoloji siyasətin işlənməsində rolu olan qurumların sayı həddən artıq çoxdur. Ancaq onların yekdilliklə qərar qəbul etmə sahəsində həmrəylik nümayiş etdirməməsi və eyni zamanda üzərlərinə öhdəlik götürməməsi hələ də uğurlu nəticələrin olmamasını reallaşdırıb. Məsələn, Qlazqo COP-26 İqlim sammitində qəbul olunmuş qətnaməyə əsasən 40-dan çox ölkə kömür enerjisindən istifadə etməyəcəkləri barədə razılıq vermişlər. Kömürdən istifadə sahəsində əsas ölkələr olan Kanada, Polşa, Ukrayna, Vyetnam və Çili tədricən bundan imtina etməklərinə baxmayaraq Avstraliya, ABŞ, Çin və Hindistan kimi ölkələr saziş şərtlərini qəbul etməmişlər [4].

Qeyd etmək lazımdır ki, qlobal səviyyədə təbiət və cəmiyyət münasibətlərinin tənzimlənməsi əsasən vətəndaşlarını beynəlxalq aləmdə təmsil edən dövlətlərlə müvafiq müqavilələr, konvensiyalar formasında reallaşdırılır və bu da ilk növbədə insan və təbiət münasibətlərinin tənzimlənməsi kimi təhlil edilə bilər. Bu gün atmosferlə bağlı olan bütün sahələrdə insan və təbiət münasibətlərinin ekoloji hüquqi tənzimlənməsi sahəsində bütün dünyada aşağıdakı bir neçə əsas normativ sənəd qəbul edilmişdir [12]:

1. "Böyük məsafələrdə havanın transsərhəd çirkləndirilməsi haqqında Konvensiya" .
2. "BMT–nin İqlim dəyişmələri üzrə Çərçivə Konvensiyası".
3. "Ozon qatının qorunması üzrə Konvensiya".
4. "Böyük məsafələrdə havanın transsərhəd çirkləndirilməsi haqqında Konvensiya".

Yuxarıdakı sferalarla bağlı olan digər bir istiqamət yerin təki, torpaqdan istifadə sahəsində münasibətlərin tənzimlənməsidir. Müasir dövrdə torpaqların şoranlaşması, səhralaşması və eyni zamanda torpaqların çirklənməsi problemləri dövrün aktual qlobal ekoloji problemləridir. Bu sahədə beynəlxalq hüquqi və ekoloji siyasət əsasında münasibətlərin tənzimlənməsi mühüm əhəmiyyət kəsb edir. Torpaq və mühit qarşılıqlı əlaqəsini tətqiq edən "torpaq ekologiyası" təliminə görə torpaq örtüyü mühit amilləri olan iqlim, relyef, zaman və nəhayət insan amilinin təsiri altında formalaşır. Burada xüsusilə qeyd edilən antopogen amilin yəni insan təsirinin güclənməsi torpaq örtüyündə, litosfer qatında müəyyən dəyişikliklərə səbəb olur [1]. Yuxarıda qeyd edilən təsir nəticəsində torpağın şoranlaşması və zəncirvari olaraq səhralaşması problemi getikcə artmağa davam edir. Statistika və araşdırmalar göstərir ki, müasir dövrümüzdə Yer kürəsinin 3,6 milyard ha sahəsi səhralaşmışdır. Səhralaşma problemi dünyanın 110 ölkəsini əhatə edir və sivilizasiyanın bütün tarixi ərzində 1 milyard hektardan artıq istifadəyə yararlı məhsuldar torpaq sahəsi səhraya çevrilmişdir [8].

Bu gün səhralaşma, şoranlaşma və bu kimi problemlərin insan və təbiət münasibətləri, insan amili nəticəsində yarandığını əsas götürməklə bu sahədə beynəlxalq hüquqi və ekoloji siyasətlə tənzimlənmə məqsədilə bir çox normalar, qaydalar və beynəlxalq sənədlər qəbul edilmişdir. Bu sahədə qəbul edilən ən mühüm normalar və qaydalar sisteminə, konvensiya və sazişlərə aşağıdakıları nümunə göstərmək olar:

1. "Ciddi quraqlıq və/və yaxud səhralaşma baş verən ölkələrdə, xüsusilə də Afrikada səhralaşma ilə mübarizə üzrə Birləşmiş Millətlər Təşkilatının Konvensiyası-1994-cü ildə qəbul edilmişdir" [11].
2. "Neftlə çirkləndirmə hallarına hazırlığın təmin edilməsi, bunlara qarşı mübarizə və əməkdaşlıq haqqında" 1990-cı ildə qəbul edilmiş Konvensiya".
3. **"**Ətraf mühitə təsir vasitələrindən hərbi və ya başqa bir düşmən istifadəsinin qadağan edilməsi haqqında Konvensiya".

Yuxarıda qeyd edilən problemlərlə sıx bağlı olan əsas istiqamətlərdən biri də biosferlə bağlı olan insan fəaliyyəti nəticəsində yaranan qlobal ekoloji problemlərin həllində uğurlu nəticələr əldə edilməsi üçün insan və təbiət münasibətlərinin tənzimlənməsinin vacibliyidir. Əslində biosfer digər bütün sferaların məcmusunu özündə ehtiva edir. Burada əsasən yerin canlı təbəqəsinin məhv olması, flora və faunanın məhvi, yerin biotasının yoxsullaşması və ümumilikdə canlı təbəqənin məhvi məsələlərinə diqqət edilir. Buna görə bu istiqamətdə insan və təbiət münasibətlərinin təhlili ayrıca geniş bir istiqaməti əhatə edir və qeyd edilən digər sferalarla daha sıx bağlıdır. Məsələn torpaqdan istifadə, antropogen təsir yerin torpaq qatında baş verən səhralaşma və şoranlaşma, çirklənmə problemi eyni zamanda həm də yerin biotasının yoxsullaşması, meşə örtüyünün məhvi kimi problemlər olan yeni qlobal problemlərin əsasında durur. Meşələrin məhvi isə öz növbəsində atmosferdə yeni qlobal ekoloji probem kimi xarakterizə oluna biləcək oksigen çatışmazlığı problemini aktuallaşdırır. Göründüyü kimi bütün

sahələr dolayı və birbaşa yolla bir biri ilə əlaqəlidir. Statistikada dünyanın 10 ölkəsinin meşə örtüyündən tamam məhrum olduğu qeyd edilir və 54 ölkədə meşələr ölkə ərazisinin 10%-dən azını əhatə edir. İnsan təsiri nəticəsində isə son 5 min illik tarix ərzində 1.8 milyard ha meşə sahə məhv edilmişdir. Problemin aktual olmasını səciyyələndirən digər bir statistik məlumatda isə hər il quru səthinin 360 min hektarının meşəsizləşməyə məruz qalmasıdır [2].

Meşə ekosisteminin floranı təşkil etməklə yanaşı heyvanlar, quşlar və böcəklər üçün yaşayış yeri ilə təmin etdiyini nəzərə alaraq qeyd etmək lazımdır ki, canlı sistemin, bioloji müxtəlifliyin qorunması üçün insan və təbiət münasibətlərinin tənzimlənməsi məqsədilə hüquqi və ekoloji siyasət sahəsində bir çox normalar və qaydaların işlənib hazırlanması vacibdir. Bu sahədə əsas normativ hüquqi aktlar, beynəlxalq hüquqi və ekoloji siyasət tənzimlənmələrə aşağıdakıları nümunə göstərmək olar [10]:

1. "Ümumdünya mədəni və təbii irsin qorunması haqqında Konvensiya".
2. "Kökünün kəsilməsi təhlükəsi olan vəhşi fauna və yabanı flora növlərinin beynəlxalq ticarəti haqqında Konvensiyası yaxud CITES Konvensiyası".
3. "Avropanın canlı təbiətinin və təbii mühitinin qorunması haqqında Avropa Konvensiyası yaxud Bern Konvensiyası".
4. "BMT tərəfindən qəbul edilmiş Bioloji müxtəliflik haqqında Konvensiyası".

İnsan və təbiət münasibətlərinin tənzimlənməsi yuxarıda qeyd edildiyi kimi yalnız hüquqi və ekoloji siyasətin rolu ilə yekunlaşmır. Hüquqi və ekoloji normalar və qaydalar sisteminin dərki isə ilk növbədə ekoloji, hüquqi şüurun formalaşmasından başlayır. Eyni zamanda ekoloji mədəniyyətin, ekoloji tərbiyyənin insan və təbiət münasibətlərinin tənzimlənməsi sahəsində rolu əsasdır. Burada isə insan və təbiət münasibətlərinin tənzimlənməsində aşağıdakı istiqamətlər üzrə təhlillər aparmaq mümkündür:

1. Ekoloji şüurun yaxşılaşdırılması.
2. Ekoloji maarifləndirmə və ekoloji tərbiyyənin həyata keçirilməsi.
3. Ümumi ekoloji mədəniyyətin formalaşması.

Ekoloji şüur təbiətin insanın həyat tərzi ilə yanaşı məişətinin bir istiqaməti kimi əks olunması ilə bağlı olan fərdi və eyni zamanda ictimai şüur deməkdir [13].

Ekoloji şüur mahiyyətcə ekoloji qanunlarla yanaşı "təbiət-cəmiyyət" münasibətlərindəki bərpa olunmayan ziddiyyətlərin dərk edilməsi və qlobal ekoloji böhranlar, problemlər barədə dərindən düşünmək sahəsində strategiyanın hazırlanmasıdır.

Ekoloji şüurun daşıyıcıları əsasən 4 tipə bölünür [7, s. 320];

1. Birinci tip mövcud ekoloji vəziyyəti qlobal surətdə dərk edərək gələcək vəziyyət barədə narahatlıq keçirməsi və bu sahədə mövcud fəsadların aradan qaldırılması sahəsində hətta maliyyə dəstəyi belə göstərməyə hazır olması ilə səciyyələnir.
2. İkinci tipin nümayəndələrinin birinci tiplə bir sıra oxşarlıq xüsusiyyətləri olsa da əsas fərqi maliyyə dəstəyi göstərmək iqtidarında olmamasıdır.
3. Üçüncü tip ekoloji vəziyyəti yaxşılaşdırmağın əsas tərəfdarıdır və bunun dövlət hesabına reallaşdırılmasını əsas tutur.
4. Dördüncü tip ətraf mühitə münasibətdə narahatlıq keçirmir və biganə yanaşır.

Alimlərdən Deryabo və Yasvin ekoloji şüurun antroposentrik və ekosentrik tiplərini ayırd etmişlər ki, bunlar da bir-birinin əksidir. Bu 2 tipi ayırd etməklə insanın təbiətlə qarşılıqlı təsirinin məqsədinin aydınlaşdırılması irəli sürülür [13].

Ekoloji şüurun əsas tiplərindən olan antroposentrik və ekosentrik ekoloji şüur istiqamətlərinin bir sıra xüsusiyyətləri ilə yanaşı strukturunu aydınlaşdırmaqla insan və təbiət münasibətlərinin tənzimlənməsində, ekoloji tərbiyə və maarifləndirmə sahəsində ekoloji şüurun rolunu aydın təsəvvür etmək olar. Son nəticədə hansı tip ekoloji şüurun müasir tələblərlə

uzlaşması, insan və təbiət münasibətlərinin tənzimlənməsi sahəsində rolu aydınlaşdırılmış olacaqdır. Məhz bu məqsədlə aşağıda qeyd edilən müqayisəli yanaşma mövcud fərqləri dolğunluqla göstərir;

Antroposentrik ekoloji şüur	**Ekosentrik ekoloji şüur**
Ən ali dəyər insandır.	Ən ali dəyər insan və təbiətin harmonik inkişafıdır.
Dünyanın ieararxik mənzərəsini qəbul edir.	Dünyanın ierarxik mənzərəsindən imtina edir.
Bu və ya digər hər hansı praqmatik tələbatların ödənilməsi təbiətlə qarşılıqlı təsirin məqsədidir.	Həm insanın həm də bütün təbiət birliklərinin tələbatının ödənilməsi təbiətlə qarşılıqlı təsirin əsas məqsədidir
"İnsana fayda verən hər şey düzgündür" ideyası əsasdır.	Təbiətdə yalnız ekoloji tarazlığı pozmayan şey əsasdır, düzgündür.
Təbiət insan fəaliyyətinin əsas obyekti kimi dərk olunur.	Təbiət insanla qarşılıqlı təsirdə olan və eyni zamanda bərabərhüquqlu subyekt kimi dərk edilir.
Etik normalar və eyni zamanda qaydalar təbiətlə qarşılıqlı təsirdə yaranır.	Etik normalar və eyni zamanda qaydalar həm insanlar həm də insanların təbiətlə qarşılıqlı təsirində bərabər sürətdə formalaşır.
Təbiət mühitinin qorunub saxlanması ondan gələcək nəsillərin istifadəsi üçün zəruridir.	Təbiətin mühafizəsi həm təbiətin özü, həm də insanların naminə qorunub saxlanması vacibdir.

Müqayisədə antroposentrik ekoloji şüurun mahiyyətcə antiekoloji olduğu aydın görünür və müasir dövr üçün mövcud tələblərlə uzlaşmır. Deməli digər tip ekoloji şüurun xüsusiyyətləri və bundan irəli gələn tələblər ekoloji mədəniyyətin, tərbiyyənin formalaşmasında tətbiq edilə bilər.

Ekoloji şüurun formalaşdırılması isə öz növbəsində ekoloji maarifləndirmə və ekoloji tərbiyyə sayəsinə mümkündür. Ekoloji tərbiyyə və maarifləndirmə isə əsasən kiçik yaşdan etibarən formalaşdırılır. Bu sahədə aşağıda qeyd olunan bir sıra dünya ölkələri və onların təcrübəsi xüsusilə diqqətəlayiqdir [6];

1. "Liwa İnternational School" Birləşmiş Ərəb Əmirliklərində yerləşir və əmirlikdə ilk ekoloji təhsil mərkəzidir. Məktəb müxtəlif layihələr keçirir. Bu layihələrdən biri çox məhsuldar nəticələrə malikdir. Hər gün 4 ton istifadəyə yararsız olan su təmizlənmə prosesindən keçir və son nəticədə məktəbə məxsus olan əkin sahələrinin suvarılmasında istifadə olunur.
2. "Trivandrum" məktəbi Hindistanda yerləşir və ekoloji təhsil məqsədli kampusdur. Məktəbdə tərbiyə işlərində əsas diqqət ətraf mühit çirklənməsinə qarşı mübarizə və təbii resurslardan səmərəli, qənaətlə istifadə sahələrinə yönəlmişdir. Ekoloji təhsil kampusunda fəaliyyət göstərən orqanik ferma elə məktəbin özünü ərzaq məhsulları ilə təmin edir. Kampusda istehlak olunan suyun 50%-i yağışdan əldə olunur. Fəaliyyətdə olan orqanik ferma məktəbi kənd təsərrüfatı məhsulları ilə təmin edir. Naharda konservantsız məhsullardan istifadə olunur və tullantılardan bioqaz qurğusunda yararlanırlar. Mövcud proseslər hamısı uşaqlara tədris olunan ekoloji dərslərin tərkib hissəsidir. Məktəbdə plastik qutular əvəzinə uşaqların özlərinin hazırladığı kağız paketlərdən istifadə edilir. Ekoloji mədəniyyətin formalaşmasına digər bir töhvə isə həmin məktəbi bitirən hər bir məzunun məktəbə məxsus yerdə iki ədəd ağac əkməsidir.

Kanada və ABŞ ölkələrininin ekoloji marrifləndirmə və tərbiyyə sahəsində təcrübələri də böyük töhvələrə malikdir. Məsələn;

1. "Dunbarton" məktəbi Kanadada yerləşir və "yaşıl" təhsil ocağı adına layiq görülüb. "Dunbarton"da uşaqlar ekoloji proseslərin iştirakçısı olmaqla yanaşı həm də ekolayihələrin

rəhbərləri kimi çıxış edirlər. Məktəb 1960-cı ildə tikilib və məktəbdə orqanik tullantılar yenidən emal olunmaqla yanaşı binanın pəncərə və divarlarında günəş işığından enerji almaq məqsədilə panellər quraşdırılıb.

2. "Watkinson" məktəbi ABŞ-da yerləşir. Binanın təmizlik ləvazimatlarının çoxu ekoloji cəhətdən təhlükəsizdir. Eyni zamanda kampus ərazisində tullantıların toplanması və sortlaşdırılması mərkəzi var ki, burada məktəbin qəzeti təkrar emal olunmuş kağızdan çap edilir. Məktəbin özünəməxsus bostanı var və orada yerli tullantılardan hazırlanmış biogübrələrdən istifadə edilməklə məhsul yetişdirilir.

Ümumiləşdirərək qeyd etmək lazımdır ki, insan və təbiət münasibətlərinin tənzimlənməsi və yaxşılaşdırılması sahəsində həm ekoloji şüurun, ekoloji tərbiyyə və maarifləndirmənin həyata keçirilməsi ilə yanaşı hüquqi qayda və normaların işlənməsi, beynəlxalq ekoloji siyasətin reallaşdırılması, qərarların tətbiqi də mühüm əhəmiyyətə malikdir. Bu sahədə beynəlxalq təcrübənin öyrənilməsi mövcud qlobal ekoloji problemlərin həllində mühüm rol oynayır.

ƏDƏBİYYAT

1. Abbasova G.F. Torpaqların ekoloji qiymətləndirilməsinin elmi-nəzəri əsasları və mərhələləri // ADAU-nun Elmi əsərləri. - 2019.-№2.-S.34-37 .
2. Azərbaycan - meşələr ölkəsi: Meşələr eroziyaya qarşı ən effektli mübarizə vasitəsidir // Paralel.- 2020.-26 noyabr.-№165-166.-S.14.
3. Bayramova, Z.B. Davamlı ekoloji tarazlığın təmin edilməsinin iqtisadi zəruriliyi // ADAU-nun Elmi Əsərləri. -2021.-№2.-S.68-71
4. Cəfərov, Rizvan. İqlim təhdidi: Qlobal bəlaya qarşı dünya hələ də birləşmir // Azərbaycan. - 2021.- 5 noyabr. - № 240. - S. 15..
5. Əsədov A.Ə., Axundzadə L.T., Quliyeva Z.N. Ekologiya hüququ: Dərslik. Bakı: "Adiloğlu"nəşriyyatı, 2007, 512 səh
6. Qaraxanlı, Rüstəm. Ekoloji təhsil və tərbiyə: Yeni nəsildə vətəndaş şüurunun formalaşdırılmasının əsas istiqamətlərindən biri kimi // Azərbaycan müəllimi. - 2019.- 11 oktyabr. - № 38. - S. 1,9.
7. Məmmədov. Q., Məmmədova S., Hüseynli E., Həşimov.A. Sosial ekologiya(sosioekologiya), Bakı, "Radius" nəşriyyatı, 2015, 671 səh
8. Nəsirli, Akif. Səhralaşma - əsrimizin sosiallaşmış bəlası!: Pozulmuş torpaqlar bəşəriyyəti fəlakətə sürükləyir // Paralel.-2016.-24 iyun-№ 111.-S.12.
9. Sevinc. Su çatışmazlığı problemi dərinləşə bilər: Muxtar Babayev: "Son onilliklərdə su ehtiyatları 15 faizə qədər azalıb" // Həftə içi. – 2019. - 5-6 dekabr. - № 181. – S. 6
10. http://eco.gov.az/index.php?pg=311
11. http://e-qanun.az/framework/3529
12. https://socar.az/socar/assets/documents/az/environmental_policy/ekolojisiyaset.pdf
13. https://tibb-dunyasi.com/ekoloji-suur/
14. https://www.pa.edu.az/library/3/21/152_movzu_19._beynelxalq_ekologiya_huququ.pdf

İNSAN VƏ TƏBİƏT MÜNASİBƏTLƏRİNİN TƏNZİMLƏNMƏSİ

Əliyev Rəvan

XÜLASƏ

İnsan və təbiət münasibətlərinin tənzimlənməsi müasir dünyada qlobal ekoloji problemlərin həllində mühüm əhəmiyyətə malikdir. Təqdim olunan bu məqalədə insan və təbiət münasibətlərinin ekoloji hüquqi və ekoloji siyasət vasitəsilə tənzimlənməsi müxtəlif istiqamətlər üzrə təhlil edilmiş, eyni zamanda ekoloji şüurun, ekoloji tərbiyyə, maarifləndirmə və ekoloji mədəniyyətin formalaşdırılmasının insan-təbiət münasibətlərinin tənzimlənməsi ilə yanaşı bu münasibətlərinin yaxşılaşdırılmasında rolu qeyd olunmuşdur.

РЕГУЛИРОВАНИЕ ОТНОШЕНИЙ ЧЕЛОВЕКА И ПРИРОДЫ

Алиев Раван

АННОТАЦИЯ

Регулирование отношений человека и природы имеет важное значение в решении глобальных экологических проблем в современном мире. В представленной статье анализировалось регулирование отношений человека и природы по разным направлениям посредством эколого-правовой и экологической политики, при этом отмечалась роль экологического сознания, экологического воспитания, просвещения и формирования экологической культуры в улучшении этих отношений наряду с регулированием отношений человека и природы.

REGULATİON OF HUMAN AND NATURE RELATİONS

Aliyev Ravan

SUMMARY

The regulation of human and nature relations has a great importance in the solution of global ecological problems in the modern world. In this submitted article the regulation of human and nature relations via ecological legal and ecological policy was analysed on the different directions, as well as the role of the formation of ecological consciousness, ecological awareness, ecological nurture and ecological culture in the regulation of human-nature relations, as well as in the improvement of these relations was noted.

SOKRAT VƏ PLATONUN MƏNƏVİ-ƏXLAQİ BAXIŞLARI

Qasımova Lamiyə
BDU-nun II kurs magistrantı
qlamiye142@gmail.com

Açar sözlər: əxlaq, cəmiyyət, fəzilət, ədalət, sevgi
Ключевые слова: мораль, общество, добродетель, справедливость, любовь
Key words: morality, society, virtue, justice, love

Antik dövr mənəvi-əxlaqi nəzəriyyələrin, əxlaq fəlsəfəsinin, etikanın inkişafında və fəsəfi cəhətdən dərindən mənalandırılmasında vacib yer tutur. Dünyanın mövcudluğu, mahiyyəti barədə düşünən filosoflar artıq ənənəvi fəlsəfi problemlərlə yanaşı insanın cəmiyyətdəki mövqeyi, onun xeyirxah, fəzilətli şəxsiyyət kimi yetişməsi, cəmiyyətin ədalətli əsaslarla qurulması haqqında da düşünür, bu haqda bir çox əsərlər yazırdılar. Bu filosofların sırasında Sokrat və Platonun əsərləri, baxışları vacib yer tutur.

Dahi filosof Sokratın əxlaqi görüşlərinə diqqət yetirək. Sokratın yaradıcılığında mənəvi-əxlaqi paradiqma vacib yer tutur. Fəlsəfəsinin əsasını xeyir və şər, fəzilət, ədalət, vicdan, mənəvi borc və s. kimi əxlaqi kateqoriyalar təşkil edir. Sokrata görə əxlaq şəxsiyyətin və cəmiyyətin formlaşmasına birbaşa nüfuz edir. Mənəvi-əxlaqi prinipləri insanlar bütün fəaliyyətlərində, davranışlarında əldə rəhbər tutmalıdırlar. Burada əsas məqsəd şəxsiyyətin əxlaqi kamilləşməsinə nail olmaqdır. Sokrata görə yaxşılıq və xoşbəxtlik məfhumları bir-birilərilə sıx əlaqəlidirlər. Hər bir kəs həzzə, sevincə, fayda qazanmağa doğru istiqamətlənir. Ağrı və əziyyətdən, əzabdan isə qaçır. İnsanlar həmişə doğru qərarlar ala bilmirlər. Buna görə də onlar düşünülmüş, şüurlu hərəkət etməlidirlər, bu prosesə məsuliyyət ilə yanaşmalıdırlar.

Reallıq və əxlaqi normalar arasında böyük fərq vardır. Dildə əxlaqı qəbul edib işdə ona əməl edən azdır. Ümumi əxlaqi dəyərlər biliyin üzərində qurulur. Deməli, əxlaq dərketmə nəticəsində formalaşıb ümumi sosial əhəmiyyət kəsb etməyə başlayır. [2; səh 12].

Sokratın əxlaqi görüşlərində şəxsiyyətin kamilləşməsində bilik böyük rol oynayır. Xeyir bilikdən, şər isə biliksizlikdən, cəhalətdən əmələ gəlir. İnsanları şərə doğru aparan cəhalətdir.

Sokratın fikrincə əxlaqsız hərəkət həqiqəti bilməməyin məhsuludur. Əgər insan nəyin məhz yaxşı demək olduğunu bilirsə, o, heç vaxt axmaq hərəkət etməz. Axmaq hərəkətlər səhvin, yanlışlığın nəticəsidir. Sokrata görə bir halda ki, əxlaqi cəhətdən şər işlər biliksizlikdən irəli gəlir, deməli, bilik mənəvi təkmilləşmənin mənbəyidir [3; səh 41].

Deməli Sokrat fəlsəfəsində bir insanın fəzilətli və xoşbəxt olması üçün yüksək biliklərə yiyələnməsi gərəkdir. Nəticədə isə xeyirxah və kamil şəxsiyyət yetişər, ədalətli cəmiyyət yaranar. Əxlaqın əsas məqsədi xoşbəxtlikdir, xoşbəxtliyin yolu isə fəzilətdən keçir. Fəzilətli olmaq xeyir və sevinc gətirir. Fəzilət insanın özünü tanımasıyla meydana gəlir. Buna görə də Sokratın fəlsəfəsindəki "özünü tanı" sözləri vacib yer tutur. İnsan əgər özünü tanımasa nəyin yaxşı və ya pis olduğunu dərk edə bilməz.

Dünyada müxtəlif xalqlar, cəmiyyətlər mövcuddur.Hər bir xalqın önə çıxan spesifik üstün cəhətləri vardır. Müəyyən bir xalq ordusuyla, mərdliyi ilə qürurlanır, başqa bir xalq ilahiyə sonsuz bağlılığı ilə, digər bir xalq isə fəzilətinə və yüksək əxlaqi əqidəsinə görə seçilir [8; səh 65].

Qeyd etdiyimiz kimi Sokrata görə əsas olan bir xalqın bilikli və fəzilətli olmasıdır. Bilik və əxlaq , yüksək mənəviyyat digər bütün tərəflərə güclü təsir göstərir. Şəxsiyyətin və cəmiyyətin həqiqi inkişafı məhz buradan başlanır. Yalnız bilik və mənəvi-əxlaqi dəyərlərlə yoğrulmuş

cəmiyyətdə xeyir öz hökmünü sürə bilər. Bir xalq ola bilsin ki, çox zəngindir lakin eyni zamanda cahil və biliksizdir. Bu cahillik xalqın mənəvi-əxlaqi dəyərlərini heçə endirir. Cəmiyyət qeyri-əxlaqi hərəkətlərlə, şər qüvvələrlə, yalan və ədalətsizliklə əhatə olunur. Belə bir cəmiyyət nə qədər çox zəngin olsa da, burada xoşbəxtlik mövcud ola bilməz.

Cəmiyyətdə cahilliyin aradan qaldırılması üçün insan özünü, öz mənini tanımalıdır. Bu istiqamətdə o, eqoistlikdən və cahillikdən azad olmalı, öz varlığının dərin mənasını anlamalıdır. Sokrat qeyd edirdi ki, həyatın mənasını və məqsədini, ruh üçün ən yüksək xeyiri tapmalıyıq, çünki ən faydalı bilik xeyirdir. Əxlaqdan kənar bir fəlsəfə mövcud deyildir.

Sokrata görə insanın varlığı ruh və bədəndən təşkil olunur. Bədən ruh ilə müqayisədə ikinci plandadır, sadəcə ruha lazım olan bir alətdir, vasitədir. İnsanın əsli ruhundadır [8; səh 66].

İnsan qeyri-əxlaqi dəyərlərdən, acgözlülükdən, şərdən azad olduğu zaman cahilliyin dərin qaranlığından qurtular və əxlaqın, fəzilətin göz qamaşdıran işığına qovuşar. Həmin an insan ruhunu görər və xoşbəxt bir həyata sahib olar. Sokrat insanın öz ruhunun dərinliyini gördükcə onun ilahiləşdiyini və şəxsiyyətinin kamillik dərəcəsinə yüksəldiyini düşünürdü.

Hər cür ehtirasın, tamahın, yaltaqlığın olduğu, maraqların toqquşduğu, cahillərin hakimiyyətə yüksəldiyi, fəzilətsizlərin alqışlandığı bir cəmiyyətdə xoşbəxtlik axtarışı əbəs bir cəhtdən başqa bir şey deyildir [8; səh 67].

Sokratın davamçısı, dahi filosof Platonun əsərlərində mənəvi-əxlaqi sahə başlıca yer tutmuşdur. O, həqiqi biliyin əxlaqi davranışın ən vacib şərti olduğunu qeyd etmişdir. Platonun fikrincə ədalətli cəmiyyətin təməlini əxlaq təşkil edir və yalnız belə bir cəmiyyətdə insanlar xoşbəxt yaşaya bilərlər. Onun etik nəzəriyyələrində insanın mahiyyətinə və düzgün cəmiyyətin, dövlət quruluşunun izahına geniş yer verilir. O insanı ruh və bədənə ayıraraq, ruhun ideya kimi bölünməz və əbədi olduğunu, bədənin isə müvəqqəti və bölünən xarakter daşıdığını qeyd etmişdir.

Ruhun mahiyyəti təkcə onun vəhdəti və bölünməzliyində deyil, həm də öz-özünə hərəkət etməsindədir. Platona görə öz-özünə hərəkət edən hər şey ölməz xarakter daşıyır. Kənardan qüvvə vasitəsilə hərəkətə gətirilən bütün obyektlər isə sonludur və ölümə məhkumdur. Ruhun bədən üçün rolunu izah edərkən Platon onu iki hissəyə ayırırdı: birincisi, yüksək zəkalı hissədir ki, bunun vasitəsilə insan əbədi xarakterli ideyalar aləmini seyr edir. Bu tərəf xeyirxahlığa səy göstərir. İkinci tərəf isə aşağı, hissi tərəfdir [7; səh 42].

Platona görə ruh bədəndə məhbusdur , ruh öləndən sonra bədəndən ayrılır və müəyyən zaman keçdikdən sonra insanın xeyirxah əməllərinin dərəcəsinə görə başqa bir insanın və ya heyvanın bədəninə yenidən daxil olur. Filosofun fikrincə ruh bədəndən azad olmalıdır, buna görə də o, öz hisslərini və ehtiraslarını tənzimləyərək, xeyirxah əməllərə istiqamətlənməlidir.

Cəmiyyətdə insanların həzz almaq , sərvət qazanmaq, siyasi status əldə etmək və s. kimi bir çox arzuları mövcuddur. Lakin bəzən arzular,istəklər digər bənzər arzu və məqsədlər ilə toqquşurlar. Son nəticədə isə xoşbəxtlik əldə olunmur və bütün arzular məhvə doğru gedir.

Sokrat bu vəziyyətdən maarifləndirmə yolu ilə çıxmağı təklif edir: insanlar ona görə belə hərəkətlər edirlər ki, onların bilikləri bu sahədə əksikdir. Deməli, əxlaqi anlayışlar birbaşa real həyatda özlərinə analoq tapmır. Platon belə analoqları müstəqil yaşaya biləcək ideal mahiyyətlər sığınacağında görürdü [3; səh 14].

Platonun mənəvi-əxlaqi sahədə yazdığı "Euthyphron" əsərinin təhlili böyük maraq doğurur. Burada Sokratın həmsöhbəti Euthyphron, düzgün davranan və nə etmək istədiyini yaxşı bilən biri olaraq ortaya çıxır. Euthyphron sahib olduğu biliklərin həmişə ona yol göstərdiyinə inanır. Hətta bu biliklər öz atasını qatil olaraq mühakimə etməyə qadirdir. Bu zaman Sokrat bu bilikləri sorğulamağa başlayır. Dialoqun gedişatında aydın olur ki , Euthyphronun biliklərinin doğruluğunu təməlinin nədən ibarət olduğunu izah edə bilmir. Lakin bu zaman ərzində Sokrat

suallara cavab tapır. Əsas təməl əxlaq üzərində qurulmalıdır. İnsanlar niyə başqa cür deyil, məhz bu cür hərəkət etdiklərinin cavabını bilməlidirlər. Elə bir təməl olmalıdır ki, o bütün situasiyalardakı mühakimələri düzgün istiqamətləndirsin və insanların ehtiraslarını, önyargılarını, instinklərini tənzimləsin.

Platonun fikrincə, ideyalar dünyası bu dünyanın məqsədli təyinatıdır. Həmin dünyada fəzilət hökm sürür. Onu dərk etmək üçün insan gərək cismani tələbatları özündə məhdudlaşdırsın. İnsan bədəni ruhun həbsxanası, qandalıdır [3; səh 15].

Əgər hər insan öz subyektiv arzularını və istəklərini, ehritaslarını tənzimləyə bilsə cəmiyyət xoşbəxt olar, ideal dünya yaranar. Buna nail olmaq üçün yeganə vasitə ağıllı ruhdur. Ruhun yaddaşında bir sıra əsas mənəvi-əxlaqi ideyalar, dəyərlər silinməz olaraq qalır. Bunların sırasında ədalət, fəzilət, xeyirxahlıq, gözəllik, ləyaqət və s. qeyd oluna bilər. Platonun fikrincə bu ideyaları insan xatırladıqca onun ruhu təmizlənir və əxlaqi dəyərləri yenidən yaranır. İdrak və əxlaq bir-birinə qovuşduqca fəzilət meydana gəlir. Çünki öyrənmək, biliklərə yiyələnmək və onları dərk etmək xeyirxahlığa, yaxşılığa doğru aparan ən əsas yoldur.

Platonun mənəvi-əxlaqi sahəyə yanaşması sosial xarakter daşıyırdı. Bunu daha çox dövlətə dair nəzəriyyələrində görə bilərik. Platon xüsusi olaraq bir fərdin şəxsiyyətinin kamilləşməsinə, onun inkişafına istiqamətlənməmişdi. O əsasən ideal, qüsursuz, ədalətli cəmiyyət yaratmağa diqqət yetirmişdir.

Platona görə xeyirhaqlıq və ya yaxşılıq iki yerə ayrılır: gündəlik xeyirhaqlıq və bəşəri, ilahi xeyirhaqlıq. Filosof "Simpozium" əsərində gözəlliyə və xeyirə olan sevgini qeyd etmişdir. Sevgi ən qədim tanrılardan biridir. Sevgi tanrısı Erot bütün təbiətdə, cəmiyyətdə və hətta insanın özündə yaşayır. Erot cismani və mənəvi, əxlaqi sevgini birləşdirir.

İnsanın gənc yaşlarından etibarən fəzilətli, əxlaqlı bir aşiqə sahib olması, həmçinin özünündə belə xüsusiyyətlərə malik olması çox vacibdir. Bir insanı yaşadığı müddətdə qohumluq, şöhrət, zənginlik və s. deyil, məhz sevgi istiqamətləndirir. Bu duyğu sayəsində insan çirkinliklərdən, pislikdən çəkinir, gözəl və əxlaqi fəaliyyətə istiqamətlənir [7; səh 51].

Belə bir nəticə çıxara bilərik ki, sevgi insanların yaranışından bəri mövcud olan bir duyğudur və insanlara, cəmiyyətə böyük təsir göstərir. İlk öncə gözəl xarici görünüşə vurulan insan sonra sevdiyinin ruhunda xeyirxaqlığı, mənəvi gözəlliyi, əxlaqi dəyərləri axtarır. Həmçinin insan özü də sevdiyi insan üçün xeyirli, gözəl, yüksək əqidəli, mənəvi-əxlaqi dəyərlərə sahib olan biri olmaq üçün çabalayır. Beləliklə sevgi insanı kamilləşməyə, yüksək dəyərlərə malik olmağa, şəxsiyyətini formalaşdırmağa sövq edir.

Əsərdə qeyd olunur ki, sevgi insanlara müsbət təsir göstərir, onlara cəsarət verir, fəzilətli olmağa istiqamətləndirir. Əsgərlər sevgi duyğusuna görə müharibədən qorxub qaçmırlar, mərdliklə ölməyi seçirlər. Lakin Platonun yazdıqlarından da məlumdur ki, bu məsələ bir istiqamətli deyildir. Burada kəskin surətdə yaxşı və pis, doğru və yanlış yoxdur. Gerçəklik ruhun özülündə, mənəvi dərinliyində gizlidir. Ruhun xeyirdən və ya şərdən ibarət olması insanın hərəkətlərində özünü göstərir. Platon ən ali sevgi və ideya kimi tanrını nəzərdə tutmuşdur.

Dialoqda qeyd olunur, içki içmək , nəğmə oxumaq ya da söhbət etmək özlüyündə gözəl və ya çirkin şeylər deyildir. Lakin istifadə olunduqları sahəyə görə gözəl və ya çirkin ola bilərlər. Çünki edilən hərəkət xeyirxahlıq və doğruluq adınadırsa yaxşı nəticə , əks halda şər adınadırsa mənfi nəticə əldə olunacaqdır [7; səh 54].

Platonun fikrincə, dövlət ideal aləmin gözəlliyi və ədalətliliyinin təkrarıdır. İnsanların əxlaqi həyatını sosial idarəetmə səviyyəsində tənzimləmək lazımdır. İnsan təbiəti zərif olduğu üçün burada ona dövlət dəstək verməli, himayəçilik etməlidir. Qanunlar işləməsə, insanlar vəhşi hala düşəcəklər. Ağıl, qanun və nizamdan irəlidə gedir.

Platon insanları, onlarda ruhun hansı hissəsinin üstünlük təşkil etməsindən asılı olaraq üç tipə ayırırdı: zəkalı, affektiv (emosional) və itaət edən (hissi). Ruhunda zəkalı tərəfin üstün olduğu insanlar gözəlliyi və ideyanın müəyyən etdiyi qaydaları müşahidə etməyə və beləliklə də yüksək xeyirxahlığa can atırlar. Onlar həqiqətə və ədalətə meyl edirlər. Platon bunları aqillər və ya filosoflar adlandırır və göstərir ki, ideal dövlətdə onlar başçı olmalıdır [3; səh 42].

Hər iki dahi filosofun əsərləri və baxışları özlərindən sonra gələn digər mütəfəkkirlərin görüşlərinə də böyük təsir göstərmişdir. Mənəvi-əxlaqi konteksin formalaşmasında Sokrat və Platonunun fəaliyyəti vacib yer tutur.

ƏDƏBİYYAT

1. Əlizadə A.A. Antik fəlsəfə tarixi. Ali məktəblərin tələbələri üçün dərs vəsaiti. Bakı-2016, 288 s.
2. Q.Y.Abbasova. Etika: tarix, nəzəriyyə və təcrübə. Ali məktəblər üçün dərs vəsaiti. Bakı, 2016. – 290 s.
3. Z. C .Hacıyev. Fəlsəfə. Ali məktəblər üçün dərslik. Bakı, Turan evi, 2012, 488 səh
4. Ahmet Çağlayan. Ahlak pusulası: Ahlak ve değerler eğitimi. Ensar Neşriyat, İstanbul, 2013, 159 s.
5. Ahmet Cevizci. Etik-Ahlak Felsefesi. Say Yayınları, İstanbul 2014, 515 sayfa
6. Doğan Özlem, Etik: Ahlak Felsefesi, İstanbul 2013, s.175.
7. Platon. Symposium. Eski Yunancadan çeviren Furkan Akderin. Say Yayınları, Ankara 2015, 117 sayfa
8. Yaşar Şahin Anıl. Sokrates davası. Ara Yayıncılık, Ankara 1990, 126 sayfa

SOKRAT VƏ PLATONUN MƏNƏVİ-ƏXLAQİ BAXIŞLARI

Qasımova Lamiyə

XÜLASƏ

Bu məqalə antik dövrün görkəmli mütəfəkkirləri olan Sokrat və Platonun mənəvi-əxlaqi baxışları haqqındadır. Hər iki filosofa görə əxlaqın əsasında bilik durur. Əxlaq sayəsində xoşbəxtlik və xeyir əldə olunur. Əxlaqın əldə olunmasının yolları və xoşbəxt cəmiyyətin mahiyyəti müəyyənləşdirilmişdir.

ВЗГЛЯД СОКРАТА И ПЛАТОНА О ДУХОВНО-НРАВСТВЕННЫХ ЦЕННОСТЯХ

Гасымова Ламия

АННОТАЦИЯ

Эта статья говорит о духовно-нравственных ценностях и взглядах античных времен философов Сократа и Платона. По мнению обоих философов нравственность основана на знании. Из нравственности исходит счастье и добро. Были опрелелены путь к обретению нравственности и сущность счастливого общества.

SPIRITUAL AND MORAL VIEWS OF SOCRATES AND PLATO

Gasimova Lamiya

SUMMARY

This article is about the moral views of the great thinkers of antiquity, Socrates and Plato. According to both philosophers, the basis of morality is knowledge. Happiness and goodness come from morality. The ways of gaining morality and the essence of a happy society have been determined.

SOSİAL İŞ

SOSİAL SİYASƏTİN BEYNƏLXALQ İŞTİRAKÇISI KİMİ BEYNƏLXALQ ƏMƏK TƏŞKİLATI VƏ QLOBALLAŞMA

Məmmədli Elvin Xətai
BDU-nun II kurs magistrantı
lvn077@bk.ru

Açar sözlər: sosial siyasət, Beynəlxalq Əmək Təşkilatı, BƏT, qloballaşma.
Ключевые слова: социальная политика, Международная организация труда, МОТ, глобализация.
Keywords: social policy, The International Labor Organization, ILO, globalization.

Sənaye inqilabı sadə sənət və sənətkarlıq istehsalının yeni maşınlarla təchiz edilmiş fabriklərin istehsalı ilə əvəzlənməsi, başqa sözlə desək, təbii gücün və işçi gücünün yeni güc kimi maşınlarla əvəzlənməsidir. XVIII əsrin ikinci yarısında İngiltərədə başlayan sənaye inqilabı bir tərəfdən sənaye texnikasının sürətli inkişafına, dəyişikliyin yaratdığı böyük və köklü sosial dəyişikliklərə səbəb oldu (Talas, 1990: 8). Bu dəyişikliklər; sürətlə inkişaf edən və böyüyən şəhərlər, yəni urbanizasiya prosesi, kəndlərdən və ayrılmış gildiyalardan gələnlər tərəfindən formalaşan fəhlə sinfi və proletarlaşma prosesi, istehsalat vasitələrinə sahib olan və istehsal olunan əlavə məhsulu mənimsəyən kapital sinfinin inkişafı, əməyin istismarı və bir-birindən kəskin şəkildə fərqlənən siniflərin formalaşması ilə sinfi qarşıdurmalarının başlanması kimi sıralamaq olar. Nəticədə, bu yeni quruluşda iki şey artdı: "işçi sinfinin sayı və əziyyəti və kapitalist sinfinin sərvəti" (Talas, 1990:8). Sosial siyasət sənaye inqilabından sonra yaranmış kapitalist cəmiyyəti strukturunda sosial sülhü pozan sosial problemləri həll etmək üçün təyin olunan siyasətdir. Sosial siyasət əsasən işçi problemlemlərinə yönəlmişdir. 1945-ci ildən sonra sosial siyasət öz perspektivini genişləndirərək cəmiyyətin sosial siyasətinə çevrildi.

Sosial siyasət milli və beynəlxalq resurslara malikdir. Milli resursların başında dövlətin qanuni tənzimləmələri, institusional islahatlar, vergi siyasətindən gəlir siyasətinə qədər bir çox siyasət paketi kimi ictimai müdaxilələrlə dövlət yer alarkən, həmkarlar ittifaqları, kooperativlər, qeyri-hökumət təşkilatları sosial siyasətin digər milli resurslarını təşkil edirlər. Dövlət sosial siyasətin əsas tərəfi olduğu halda, Beynəlxalq Əmək Təşkilatı (BƏT) social siyasətin beynəlxalq resurslarında ön plana çıxır. Beynəlxalq sosial siyasətin dolayısı ilə Beynəlxalq Əmək Təşkilatının (BƏT) əsas məqsədi beynəlxalq əmək qanunvericiliyi yaratmaqdır və eyni zamanda beynəlxalq sosial siyasət ideyasını təcəssüm etdirən bir struktur olmuşdur. Beynəlxalq sosial siyasət ideyasının yaranmasındakı motivasiya, sosial siyasətin motivasiyasından fərqli olaraq kapitalist sinfi və dövlətlərindən gəlmişdir. Ölkələr arasında milli sosial siyasət tənzimləmələri ilə yarana biləcək rəqabətdə bərabərsizliyinin qarşısını almaq üçün sosial siyasət tənzimləmələrinin yalnız milli qaydalarla məhdudlaşdırılmaması məntiqi əsasında hazırlanmışdır. Daha çox sosial ədalət və dünya sülhü arasındakı əlaqəyə əsaslanaraq formalaşmışdır.

BƏT 1919-cu ildə Birinci Dünya Müharibəsi kimi dağıdıcı müharibədən sonra ümumbəşəri və davamlı sülhün yalnız sosial ədalət üzərində qurulacağına dair təsəvvürü yaratmaq üçün qurulmuşdur.

Fəhlə sinfi göstərdikləri səylərinin nəticəsini müharibə zamanı əldə etdi, Birinci Dünya Müharibəsini bitirəcək sülh müqaviləsinə Əmək və ya İş adlı bölmənin daxil edilməsi məqsədinə

nail olundu və 1919-cu ildə imzalanmış Versal Müqaviləsində nəzərdə tutulan Millətlər Cəmiyyəti və BƏT meydana çıxdı.

Versal müqaviləsindəki Konstitusiya ilk dəfə olaraq sülh və sosial ədalət arasında əlaqə yaratmış və məqsədini "ümumbəşəri və davamlı sülh yalnız sosial ədalətə əsaslandığı təqdirdə bərqərar ola bilər" ifadəsi ilə bildirmişdir. İkinci Dünya Müharibəsi Millətlər Cəmiyyətinin fəaliyyətini ləğv edərkən, təbbi olaraq onunla əlaqəsi olan BƏT-in statusunun dəyişdirilməsi gündəmə gəlmişdir. Hər şeyə baxmayaraq, təşkilat həmin zamanlarda fəaliyyətini davam etdirməyə çalışmışdır.Təşkilatın müharibə dövründə keçirdiyi ən mühüm toplantı 1944-cü ildə 41 ölkənin iştirakı ilə keçirilən Filadelfiya Konfransı olmuşdur. Konfransda təşkilati struktur yenidən planlandı (Alper, Kaya, 1995:23); İkinci Dünya Müharibəsindən sonra Filadelfiya Bəyannaməsi ilə BƏT-in əsas məqsəd və prinsipləri sürətli şəkildə yenidən formalaşma və inkişaf etmə mərhələsinə başlamışdır. Bəyannamə müharibədən sonrakı dövrdə milli müstəqillik ilə inkişafı nəzərdə tuturdu və inkişaf etmiş dünya ilə genişmiqyaslı texniki əməkdaşlığın başlanmasından xəbər verirdi. BƏT 1946-cı ildə yeni yaradılmış Birləşmiş Millətlər Təşkilatının ilk ixtisaslaşmış qurumu oldu. 1969-cu ildə BƏT 50 illik yubileyində Nobel Sülh Mükafatını da almışdır.

Dövlət iqtisadi və sosial həyatı, əmək məcəlləsini tənzimləyən qanun və siyasətləri ilə sosial siyasətin əsas tərəfini təşkil edir. 1980-ci illərdən başlayaraq qloballaşma və neoliberal siyasət sosial siyasətin formalaşmasında dövlətin roluna diqqət yetirmişdir. Bu dövrdə sosial dövləti xərcləri artıran və dinamikliyi məhdudlaşdıran aktor kimi qəbul edilirdi. Buna görə də, rəqabətə əngəl kimi görünən dövlətin bu rolunu məhdudlaşdırmaq üçün təzyiqlər artdı. Təzyiqlər həm də dövlətin sözügedən rolunun azalması ilə nəticələndi. Bu inkişaflar bir tərəfdən baş verərkən, digər tərəfdən bərabərlik və ədalət problemlərinin aradan qalxmadığı, əksinə daha da dərinləşdiyi qlobal bir dünya ortaya çıxmışdır. Bu məqalədə, 1919-cu ildən bəri insanlar arasında daimi sülhün təmin edilməsi üçün sosial ədalətin bərqərar olmasına səylər göstərən BƏT-in bu yeni dünya nizamındakı inkişaflara necə münasibət göstərdiyi araşdırılacaq.

Beynəlxalq Əmək Təşkilatı və təşkilatın qaydalar təyin edərkən konstitusiya əsasları

BƏT 1939-ci ilə qədər Millətlər Cəmiyyətinə bağlı olaraq lakin geniş şəkildə idarəçilik və iqtisadi müstəqillik içində çalışmalarını davam etdirmişdir. 1946-cı ildə Birleşmiş Milletlerin (BMT) imzaladığı bir anlaşma ilə ixtisaslaşdırılmış təşkilat statusunu qazanmışdır (Talas,1990:106). BƏT BMT'in mütəxəssisləşmiş təşkilatı olaraq 187 üzv ölkə ilə bugün də fəaliyyətinə davam etməkdədir. Üçlü idarəetmə quruluşu ilə digər beynəlxalq təşkilatlardan fərqlənir. Üçlü idarəetmə quruluş 187 üzv ölkənin işçisi, işveren və hökumətin təmsilçileriyle BƏT'də təmsil edildiyini ifadə edir. BƏT'in üç idarəedici orqanından ikisində üçlü idarəetmə quruluş vardır. BƏT'in ən üst idarəedici orqanı olan Beynəlxalq Əmək Konfransında (ümumi konfrans) hər ölkə 2 hökumət, 1 işçi və 1 işəgötürən iştirakçısı ilə təmsil olunur. İştirakçılar nümayəndə adlanır və hər nümayəndənin 1 səs vermə haqqı vardır. Təşkilatın digər idarəedici orqanı olan İdarəetmə Şurası isə Beynəlxalq Əmək Konfransı tərəfindən seçilən 28 hökumət (10-u seçim etmədən, sənayeləşmiş dövlətlər tərəfindən təyin edilir), 14 işçi və 14 işəgötürən nümayəndədən ibarətdir. Beləliklə, BƏT qayda qəbuletmə prosesinə iş həyatının sosial tərəflərini də daxil edərək konfransda qlobal sosial dialoq mühiti yaratmaqdadır. Bunun uğurla həyata keçirilməsi isə milli səviyyədə müxtəlif təbəqələrdə üçtərəfli iştirakın həyata keçirilməsindən və təbii olaraq həmkarlar ittifaqı hüquq və azadlıqlarının mövcudluğundan asılıdır. Müqavilələr ümumi konfransda qəbul edilməktədir. Beynəlxalq Əmək *Konfransı təşkilatın qanunverici orqanı olarkən, İdarəetmə Şurası icra orqanıdır və üçüncü idaredici orqanı olan Beynəlxalq Əmək Bürosu isə onun katibliyidir. Büroda müxtəlif millətlərdən olan*

işçilər çalışır. Mərkəzi Cenevrədə yerləşir. Bundan əlavə, regional, yerli və rabitə büroları mövcuddur.

28.06.1919-cu ildə imzalanmış Versal Sülh Müqaviləsi ilə Birinci Dünya Müharibəsi başa çatmışdır. Müqavilənin birinci hissəsi Millətlər Cəmiyyəti paktı və XIII bölməni müqavilədən ayıraraq BƏT'in konstitusiyasını təşkil edəcək mətni əhatə edirdi (Gülmez, 2008:66-67). Bu hissələr tənzimlənmiş və BƏT'in konstitusiyasının preambulasına daxil edilmişdir. Bu gün BƏT Konstitusiyasının preambulasında "Qlobal və davamlı sülh ancaq sosial ədalətə əsaslandığına görə; çox sayda insan üçün ədalətsizlik, səfalət və yoxsulluqdan ibarət iş şəraitinin mövcudluğu dünya sülhü və nizamı üçün təhlükə yaradacaq narazılığa gətirib çıxaracağı və bu qaydaların ,məsələn, gündəlik və həftəlik maksimum iş saatlarının tənzimlənməsi, işçilərin işə götürülməsi, işsizliklə mübarizə, əmək haqqının təmin edilməsi, işçilərin ümumi və peşə xəstəliklərindən, iş zamanı baş verə biləcək bədbəxt hadisələrdən müdafiəsi, uşaqların, gənclərin və qadınların müdafiəsi, yaşlılıq və əlilliyə görə pensiyaların ödənilməsi, bərabər işə bərabər əmək haqqı prinsipinin tanınması, texniki və peşə təhsilinin tənzimlənməsi və digər bu kimi tədbirlər baxımından bu şərtlərin yaxşılaşdırılmasının təcili zəruriliyi" vurğulanmışdır.

BƏT-in Konstitusiyasını tanımaqla ölkə ədalət və insani hisslərindən yola çıxaraq, eləcə də davamlı dünya sülhünü qorumaq istəyinə və bu bəyan edilmiş məqsədlərə nail olmaq istəyinə əsaslanaraq hərəkət etmək məsuliyyətini qəbul edir.

Konstitusiyanın preambulasında yer alan, "Sağlam və təhlükəsiz iş şəraitini qəbul etməyən dövlətlər öz ölkələrində iş şəraitini yaxşılaşdırmaq istəyən digər dövlətlərə maneədir" bəyanatı qloballaşan iqtisadiyyatın bir-birindən asılı münasibətlərinə uyğun bir sıra beynəlxalq əmək standartlarının yaradılmasının zəruriliyini ortaya qoyur.

1919-cu ildə müəyyən edilmiş prinsiplər və məqsədlər həmin dövrün ehtiyaclarını, meyllərini və qabarıq sosial problemlərini əks etdirirdi. 1944-cü ildə qəbul edilən Filadelfiya Bəyannaməsində dəyişən dünya şəraiti ilə birlikdə təşkilatın işinə yeni baxışlar gətirəcək prinsiplər yer alırdı (Talas, 1990: 108-109). Bəyannamə təşkilatın fəaliyyət dairəsini ümumi mənada iş dünyası və iş şəraitindən kənara çıxararaq, insan hüquqları, iqtisadi və maliyyə sahələrini əhatə edəcək şəkildə genişləndirmişdir (Gülmez, 2008: 141).

Təşkilat, yaşanan siyasi, iqtisadi, sosial və texnoloji dəyişikliklərə uyğun olaraq siyasət və proqramlarını yenidən təşkil edərkən, təşkilatın konstitusiya məqsədlərinin qurulduğu gündən bəri heç bir dəyişikliyə məruz qalmadığı görülür (Sengenberger, 2005).

Beynəlxalq Əmək Təşkilatı və qloballaşma

Qloballaşma çoxşaxəli bir hadisədir və təsirləri baxımından faydaları və zərərləri ilə müzakirə olunur. İndiyə qədər qloballaşmanın ən mühüm təsirlərindən biri sosial standartların olmuşdur. Əslində qloballaşmanın gətirdiyi dünya ticarət sistemi sosial sahədə yaratdığı problemlərə görə tənqid edilmişdir. Xüsusilə müdafiəyə ehtiyacı olan insanların sosial təminatı, yoxsulluğun və işsizliyin qarşısının alınması, qadın və uşaqların əməyinin istismarının qarşısının alınması ən çox müzakirə olunan mövzulardan dır (Şenkal, 2003: 2). Nəticə etibarı ilə qloballaşma ilə sosial siyasətin əlaqəsində tez-tez istifadə edilən qloballaşmanın sosial dövlətə zərər vuraraq sosial siyasətlərə mənfi təsirləri olduğu tezisindən yola çıxaraq, qloballaşmanın sosial siyasətə mənfi təsirləri qarşısında BƏT-in necə mövqe tutması mühüm məsələdir.

1995-ci ildə baş tutan Dayanıqlı İnkişaf üzrə Ümumdünya Sammitində (WSSD) BƏT-in qloballaşma prosesində əhəmiyyətini və üzərinə götürəcəyi funksiyanı ortaya qoyan qərarlar qəbul edilmişdir. Təşkilat qloballaşmanı dinamikasına və yaratdığı problemlərə görə laqeyd yanaşa bilməyəcəyi bir dəyişiklik prosesi kimi qiymətləndirmişdir. Bu yanaşma çərçivəsində 1998-ci ildə Təşkilat tərəfindən "Əmək Sahəsində Əsas Prinsiplər və Hüquqlar Haqqında Bəyannaməsi" qəbul edilmiş, 1999-cu ildə isə dövrün baş direktoru Xuan Somaviyanın hesabatı

ilə "layiqli iş" (decent work) yanaşması elan edilmişdir. Təşkilat "layiqli iş" elementləri ilə əlaqəli stratejik büdcə planlaması və nəticələrə əsaslanan idarəetmə proqramları vasitəsilə önəmli daxili struktur islahatına başladı. Baş direktor bu prosesin təşkilatın təsir gücünü artırdığını bildirmişdir.

2005-ci ildə toplanan Ümumdünya Sammitinin nəticələri arasında "Ədalətli qloballaşmanı dəstəkləmək və hamı üçün layiqli iş, tam və məhsuldar məşğulluq məqsədlərinə nail olmaq qərarı" yer alarkən; yeni prosesdə tərəflər diqqəti hamı üçün ədalətli nəticələr verən qloballaşma prosesinin yaradılmasına yönəltməyə başladılar (Kapar, 2009:61-62). 2008-ci ilin iyun ayında Cenevrədə keçirilən və 182 üzv ölkənin təmsil olunduğu BƏT-in 97-ci Konfransında "Ədalətli Qloballaşma naminə Sosial Ədalət Bəyannaməsi" və bu istiqamətdə atılacaq addımları müəyyən edən qərarlar qəbul edilib. Bəyannamə ilə müvafiq iş gündəliyi BƏT-in institusional sisteminin mərkəzinə yerləşdirilmiştir. Günümüzdə isə təşkilatın əsas sənədləri arasında "Əmək Həyatında Əsas Hüquqlar və Prinsiplər Bəyannaməsi" və "Ədalətli Qloballaşma üçün Sosial Ədalət Bəyannaməsi" öz yerini tutub.

BƏT-in ən mühüm vəzifəsi beynəlxalq əmək standartlarının tənzimlənməsi, işlənib hazırlanması və monitorinqidir. Qaydalar yaratma fəaliyyəti üzv dövlətlərin sosial siyasətlərinə rəhbərlik etmək və dünyada sosial inkişafları sürətləndirmək məqsədinə xidmət edir (Erdut, 2002). Bu mövzuda təşkilat, iş şəraitini tənzimləyən, qlobal miqyasda tətbiq olunan və hüquqi cəhətdən məcburi olan 189 müqavilə və 205 məcburi olmayan təklif qəbul etmişdir. Beynəlxalq əmək standartlarının əsas mövzu sahələri əmək həyatının əsas hüquqlarını əhatə edir ki, bu da BƏT-in səkkiz əsas əmək standartı kimi ifadə edilir (Sengenberger, 2005:27,66). Məsələn, bu fundamental konvensiyaların həyata keçirilməsini təmin etmək üçün təşkilat 1998-ci ildə BƏT-in "Əmək Sahəsində Əsas Prinsiplər və Hüquqlar Haqqında Bəyannaməsini" qəbul etmişdir.

Yarandığı gündən BƏT-in müqavilələrin yaradılmasında və BƏT konvensiyalarının qəbul edilməsində böyük irəliləyişinə baxmayaraq, bir çox dövlətlər və bir çox işəgötürənlər hələ də BƏT-in normalarına və onlarla birgə mövcud olan siyasətlərinə riayət etməkdə çətinliklər yaradırlar. Müasir dünyada neoliberalizm təşkilata qarşı ən çox diqqət çəkən istiqamət kimi hesab edilir (Sengenberger,2005:27,66). Məsələn, qloballaşma neoliberalizmin təsiri ilə Ümumdünya Ticarət Təşkilatı, Dünya Bankı, Ümumdünya Səhiyyə Təşkilatı və BƏT kimi beynəlxalq təşkilatları sosial siyasətin formalaşmasında yeni iştirakçılar kimi qarşımıza çıxartmışdır: beləliklə, bu təşkilatlar ölkələrin sosial siyasətinin formalaşmasında daha çox iştirak etdilər və bu hadisələr arzu olunan milli sosial siyasət haqqında qlobal diskurs yaratmışdır.

Ölkələrin rifah siyasəti istənilən milli sosial siyasət üçün beynəlxalq təşkilatlar daxilində və öz aralarında ortaya qoyulan fikirlər müzakirəsi ilə qlobal miqyas almışdır. Dünya Bankı ilə BƏT arasında, post-kommunist ölkələrində pensiya siyasəti mübahisəsi bunun klassik nümunəsidir (Deacon,1997;Holzmann və diğerleri, 2003; akt.Deacon,2007:9). BƏT ilə yaxın olmayan, təşkilatın siyasətinə uyğun olmayan bu ictimai-siyasi mühit çox vaxt beynəlxalq standartların həyata keçirilməsinə ciddi maneələr yaradır (Sengenberger, 2005: 41).

Bir sözlə, qlobal aktorların milli sosial siyasətlərin formalaşmasında təsirli olduğu qlobal dünyada bu təşkilatlar var olmaq istədikləri sosial siyasət çərçivəsində öz daxillərində və bir-biri ilə fikir mübarizəsinə girmiş və nəticədə milli sosial siyasətlər üçün qlobal ölçü və diskurs ortaya çıxmışdır. BƏT də bu prosesdə mübarizə aparmaqdadır. BƏT-in qloballaşmaya qarşı mövqeyi qeyri-adekvat hesab olunur və bəzən də tənqidə məruz qalır.

BƏT yarandığı gündən dünyada baş verən köklü dəyişikliklərdən təsirlənmiş və bu dəyişikliklərə əsaslandığı əsas dəyərlər çərçivəsində tutarlı cavablar verməyə çalışdığı görülməkdədir. Qloballaşma prosesində digər beynəlxalq təşkilatlarla fikir mübarizəsi

aparmasına baxmayaraq, o, təşkilat olaraq nə edib, hansı strategiyanı izləyir? sualına diqqət yetirsək, təşkilatın qlobal iqtisadiyyatın faydalarını qəbul etməklə yanaşı, qloballaşmanın gətirdiyi problemlərin önə çəkdiyi və dəyişən şərtlər çərçivəsində problemlərə həll yollarının tapılması missiyasını üzərinə götürdüyü müşahidə olunmaqdadır. Davamlı və sürətli dəyişikliyin yaşandığı qloballaşma prosesində beynəlxalq əmək standartları vasitəsilə "layiqli iş" ilə məhsuldar və tam məşğulluğun təmin edilməsi məqsədlərinin iqtisadi və sosial siyasətin mərkəzinə yerləşdirilməsi nəzərdə tutulur (Kapar, 2009: 66). BƏT bu missiyasını "Ədalətli qloballaşma məqsədiylə sosial ədalət BƏT Bəyannaməsi" ilə göstərmişdir. Baş verənlər qloballaşmanın qeyri-bərabər nəticələrini və problemlərini həll etmək və dayanıqlı iqtisadi artım hədəfinə nail olmaq üçün beynəlxalq təşkilatların birgə fəaliyyət göstərməsi və qlobal sosial siyasət müəyyənləşdirməsi zərurətini ortaya çıxarsa da, neoliberalizmin təsiri bu görüşü müdafiə edən aktyorların səmimiyyətinə şübhə doğurmaqdadır.

Bununla belə, son illərdə iqtisadi qloballaşmanın sürətləndirilməsi prosesində beynəlxalq əmək standartlarının dəyəri və təsiri ilə bağlı mübahisələr daha da güclənmişdir. BƏT-in tarixi göstərir ki, sosial ədalət və insan ləyaqəti kimi əmək standartlarının beynəlxalq əsaslandırılması onun müxtəlif sosial istismar formaları üçün həmişə kifayət etməməkdədir. Belə ki, dünyada baş verən hadisələr bizə nümunələr verir ki, bir çox dövlətlər və bir çox işəgötürənlər hələ də BƏT-in normaları və bu normalarla yanaşı mövcud olan siyasətləri ilə hərəkət etmirlər (Sengenberger, 2005:66). BƏT öz standartlarını genişletmek və tam tətbiq etmək üçün yeni çalışmalar irəli sürməlidir. Bu kontekstdə, inkişaf etməkdə olan ölkələrdə iş normalarını inkişaf etdirmək və digər beynəlxalq təşkilatlar və razılaşmalar baxımından icbari olmaq üçün BƏT-in yeni səlahiyyətlərlə təchiz edilməsi tələb olunur (Çelebi, 2009, Tokol, 2017: 22).

İqtisadiyyatın qloballaşması BƏT-in rolunu keçmişdən daha zəruri edir (Koray, 2012:106). Neoliberal anlayış və bu anlayışı təmsil edən aktorlar təşkilatın qarşısında ən bariz maneələr olsa da, beynəlxalq iş qaydalarının həyata keçirilməsi və BƏT-in məqsədlərinə çatmasının həm siyasi və sosial təzyiqi tələb etməsi, həm də təşkilatın daha effektiv olması üçün onu sanksiya gücünü artıracaq yeni səlahiyyətlərlə vəzifələndirilməsinin vacib olduğu bildirilmişdir. Bu gün BƏT layiqli iş yerlərinin yaradılmasına ; işçiləri və işgüzar dairələri davamlı sülh, firavanlıq və inkişa yönəltəcək iqtisadi şərtlərlə iş şəraitini təmin edilməsinə kömək edir. BƏT-in insan hüquqlarının tanınmasına və iş şəraitinin yaxşılaşdırılmasına əsaslanan insani missiyanın dəstəklənməsinə xidmət etməkdə (Erdut:2002) olduğu unudulmamalı, sosial ədalət və dünya sülhü üçün təşkilata lazımi dəstək verilməlidir.

ƏDƏBİYYAT

1. Alper,Y. ve Kaya P.A. (1995), Uluslararası Çalışma Örgütü ve Uluslararası Çalışma Standartları, Ezgi Kitabevi,Bursa.
2. Deacon,B.(2007), Global Social Policy and Governance, Sage Publications.
3. Erdut,Z.(2002), Küreselleşme Bağlamında Uluslararası Sosyal Politika ve Türkiye, Dokuz Eylül Yayınları, İzmir
4. Gülmez, M.(2008), Uluslararası Sosyal Politika, Hatipoğlu Yayınları,Ankara.
5. Gülmez, M.(2011), Uluslararası Sosyal Politika, 3. Baskı için Güncelleme Notları, Hatipoğlu Yayınları,Genişletilmiş Baskı,Ankara.
6. Sengenberger,W.(2005),Globalization and Social Progress-The Role and İmpact of International Labour Standarts,Fredrich-Ebert-Stiftung Publisher, Germany
7. Talas, C.(1990), Toplumsal Politika, İmge Yayınları, Ankara.
8. Tokol, A.(2017), Uluslararası Sosyal Politika,Dora Yayınevi,Bursa.

9. Kapar,R.(2009). “Adil Bir Küreselleşme İçin Sosyal Adalet Uluslararası Çalışma Örgütü Bildirgesi”, Çalışma ve Toplum,9, ss.61-77
10. Koray, M.(2012), Sosyal Politika, İmge Kitapevi, 4.Baskı, Ankara.

SOSİAL SİYASƏTİN BEYNƏLXALQ İŞTİRAKÇISI KİMİ BEYNƏLXALQ ƏMƏK TƏŞKİLATI VƏ QLOBALLAŞMA

Məmmədli Elvin

XÜLASƏ

Sosial siyasət sənaye inqilabının məhsulu olan bir quruluşdur. Sənaye inqilabı ilə mexanikləşdirilmiş istehsal dövrü başlandı və maşınların fabriklərdə istifadə edilməsi ilə istehsalın miqyası genişləndi. Yeni istehsal vasitələri və yeni istehsal əlaqələri bir tərəfdən işçi və kapital cəmiyyətinin sosial quruluşu (Kapitalizmi) formalaşdırmış, digər tərəfdən isə iqtisadi artıma səbəb olmuşdur. Ancaq bu iqtisadi artım hər kəsə aid edilməmiş və nəticədə cəmiyyətdə ciddi təbəqələşmə ortaya çıxmışdır. Başqa sözlə, iqtisadiyyatın liberal anlayış əsasında idarə edilməsi sosial problemlər yaratmışdır. Nəhayət, sənaye inqilabından sonra ortaya çıxan və IXX əsrdə Qərb cəmiyyətlərində sinif mübarizələri səviyyəsinə çatan işçi problemlərini həll etmək üçün sosial siyasət ideyası inkişaf etməyə başlamışdır. Professor Kesslerin ifadə etdiyi kimi, "sosial siyasət, sosial siniflərin hərəkəti, ziddiyyəti və mübarizəsi qarşısında dövləti və hüquqi nizamı qorumağa və qorumağa yönəlmiş bir siyasətdir". 1945-ci ildən sonra sosial siyasət işçilərin problemlərinə yönəlmiş çərçivəli perspektivini genişləndirmiş və cəmiyyətin sosial siyasətinə çevrilmişdir. Sosial siyasətin sosial problemləri həll etmək və məqsədlərinə çatmaq üçün istifadə etdiyi milli və beynəlxalq vasitələr mövcuddur.

Beynəlxalq vasitələrdən biri Beynəlxalq Əmək Təşkilatı (BƏT) Birinci Dünya Müharibəsindən sonra 1919-cu ildə Versal Sülh Müqaviləsinə əsasən yaradılmışdır. Məqsədi iş şəraitinin dünya üzərində bir standarta uyğunlaşdırılması üçün müqavilələr hazırlamaqdır. Dünya sülhü üçün sosial ədalətin zəruriliyini nəzərə almaqla qurulan Beynəlxalq Əmək Təşkilatı (BƏT) yaradılması ilə birliktə tez zamanda bir sıra qanunlar toplusu hazırlamışdır. İlk illərdə əhatəli olmayan sosial siyasət yanaşması mövcud idi. 1944-cü ildə qəbul edilən Philadelphia Bəyannaməsi ilə təşkilat, məqsəd və vəzifələrini genişləndirərək yenidən adlandırıldı və 1945-dən sonra kollektiv əmək münasibətləri və sosial təminat kimi məsələlərə diqqət yetirərək qayda hazırlama prosesini davam etdirdi. 1980-ci ildən sonra liberal (neoliberal) ideyaların ön plana çıxdığı qloballaşan dünya və iqtisadiyyat yeni sosial problemlər yaratmış və bəzi mövcud olan problemləri dərinləşdirmişdir. BƏT -in daha ədalətli bir dünya üçün qaydalar hazırlamaq səyləri qloballaşma prosesində pozulmuş və XXI əsrdə dünyada yeni sosial siyasət problemləri ortaya çıxmışdır. Bu məqalədə BƏT-in qloballaşma prosesində sosial siyasətin vasitəsi olaraq necə siyasət apardığı sualına cavab axtaracağıq.

МЕЖДУНАРОДНАЯ ОРГАНИЗАЦИЯ ТРУДА КАК МЕЖДУНАРОДНЫЙ УЧАСТНИК СОЦИАЛЬНОЙ ПОЛИТИКИ И ГЛОБАЛИЗАЦИИ

Мамедли Эльвин Хатаи

АННОТАЦИЯ

Социальная политика - это дисциплина, которая является продуктом промышленной революции. С промышленной революцией наступила эпоха механизированного производства. Масштабы производства выросли с включением машины в производство. Новые средства производства и новые производственные отношения сформировали структуру общества рабочих и капитала (буржуазии) и привели к экономическому росту, однако это возросшее благосостояние не получило широкого распространения. В результате возникли классовые противоречия. Экономика, в которой преобладали либеральные взгляды, породила социальные проблемы. Для решения проблем рабочих, на которые западные общества в 19 веке повлияли и вызвали классовую борьбу, начала развиваться социальная политика. Профессор Кесслер определяет; «Социальная политика - это политика, направленная на сохранение и поддержание государственного и правового порядка против движений, противоречий и борьбы социальных классов». Социальная политика расширила ограниченный взгляд на проблемы рабочих после 1945 года и превратилась в социальную политику. Социальная политика имеет национальные и международные инструменты. МОТ, один из международных инструментов, была создана с подписанием Версальского мирного договора в 1919 году после первой мировой войны. Задача МОТ заключалась в разработке контрактов, направленных на стандартизацию условий труда во всем мире.

МОТ уделяет особое внимание организации возникающих индивидуальных рабочих отношений. В первые годы существует узкий подход к социальной политике. После 1945 года социальная политика расширила узкую точку зрения, которая сосредоточилась на проблемах рабочих, и стала политикой общества. МОТ расширила свою точку зрения на коллективные трудовые отношения и социальное обеспечение. После 1980 года господство новой либеральной (неолиберальной) мысли в глобализированном мире и экономике создало новые социальные проблемы, а также усугубило некоторые из них. нарушается в процессе глобализации. Более того, в 21 веке кажется, что возникли новые социальные проблемы. В этой работе мы будем искать ответы на вопрос о том, как МОТ разрабатывает политику в качестве инструмента социальной политики в процессе глобализации.

THE INTERNATIONAL LABOUR ORGANIZATION AS AN INTERNATIONAL PARTICIPANT OF SOCIAL POLICY AND GLOBALIZATION

Mammadli Elvin Khatai

SUMMARY

The study of social policy is a result of the industrial revolution. The mechanized manufacturing era began with the industrial revolution. With the addition of the machine to the production, the production size has increased. The organization of a society of workers and

capital (bourgeoisie) has been formed by new means of production and new production relations, which has resulted in economic expansion, but this greater prosperity has not been widely distributed. As a result, there have been class conflicts. The economy, which has been controlled by liberal ideas, has resulted in social issues. . Social policy thought has begun to develop in order to solve the problems of workers that have affected and generated class struggles in western cultures in the nineteenth century. According to Professor Kessler, "social policy is a policy to protect and maintain the state and legal order against social class movements, conflicts, and struggles." Social policy has widened the narrow-minded perspective that concentrates on the concerns of post-1945 workers and has evolved into a social policy. National and international tools are available for social policy. After the First World War, the ILO was founded as one of the international tools with the signing of the Versailles Peace Treaty in 1919.

The ILO's goals have been to create contracts that try to standardize working conditions around the world. The ILO has concentrated on coordinating newly formed individual working relationships. There is a narrow social policy approach in the early years. After 1945, social policy extended from a restricted focus on worker problems to become a societal policy. His perspective on collective labor relations and social security was enlarged by the ILO. The dominance of new liberal (neoliberal) ideas in the globalized world and economy after 1980 has created new societal problems and exacerbated some existing ones. The ILO's efforts to create a universal rule of social justice since its inception have been thwarted by globalization. Furthermore, it appears that new societal challenges have evolved in the twenty-first century. In this project, we will look for solutions to the question of how the International Labour Organization (ILO) develops policies as a weapon of social policy in the globalization process.

AİLƏ SOSİAL İNSTİTUT KİMİ

Ayişə Mirzəyeva
BDU-nun II kurs magistrantı
ayishamirzoeva@gmail.com

Açar sözlər: ailə, sosial institut, müasirləşmə, sosio-mədəni həyat, dəyərlər sistemi.
Ключевые слова: семья, социальный институт, модернизация, социокультурная жизнь, система ценностей.
Key words: family, social institution, modernization, socio-cultural life, system of values.

Cəmiyyətdə fərdlər bir – biri ilə sosial əlaqələr qurmadan və qarşılıqlı təsir göstərmədən mövcud ola bilməz. Bu cür əlaqə və qarşılıqlı təsir istər fərdin, istərsə də bütövlükdə cəmiyyətin önəmli tələbatlarını qarşılayır, o, institusionallaşdığı zaman möhkəm və davamlı səciyyəyə malik olur. Bu o anlama gəlir ki, fərdlərin cəmiyyətdəki həyatı sosial institutların köməyi ilə ifadəsini tapır və tənzimlənir. Sosial institutlar dedikdə, insanların tarixən təşəkkül tapmış qarşılıqlı fəaliyyət formaları olmaqla, cəmiyyətdə fərdlər arasında əlaqələrin tənzimlənməsi, onların arasında sabit və möhkəm əlaqələrin qurulması, onların hüquq və vəzifələrinin müəyyən edilməsi, qısası, cəmiyyətin yaşamaq qabiliyyətinin müəyyən edilməsi nəzərdə tutulur. Yerinə yetirdiyi funksiyalara əsasən sosial institutlar müxtəlif növlərə bölünür. Digər institutların əsası hesab olunan ailə institutu da onlardan birini təşkil edir [3,s.349].

Ailə sosial institut kimi insanlar arasında qohumluq münasibətlərini gücləndirən adət-ənənələri, qanunları və davranış qaydalarını əks etdirir.

Ailə sosial institut kimi aşağıdakıları özündə ehtiva edir:

- əsas funksiyalar – doğum səviyyəsinin tənzimlənməsi, uşaqların sosiallaşması və müdafiəsi;
- qruplar və təşkilatlar – qohumluq əlaqələri vasitəsilə birləşən bütün qohumlar, qruplar;
- valideynlik ehtiyacına, sevgiyə, ünsiyyətə, nisbi sabitlik və təhlükəsizlik hiss etmək bacarığına olan fizioloji ehtiyacları qarşılayan fərdin özünü təsdiq etməsi ilə bağlı olan dəyərlər;
- yerinə yetirilən rollar – həyat yoldaşı: ər, arvad; ana, ata, oğul, uşaq, nənə, baba və s.;
- normalar – nigah sədaqəti, uşaq tərbiyə etmək öhdəliyi, ailəyə maddi dəstək; qarşılıqlı yardım, əməkdaşlıq, ümumi məqsədlər və s.

Ailənin gücü və cazibəsi, mahiyyəti onun sosial birlik, kiçik sosial qrup və sosial institut kimi səciyyələnməsi ilə əlaqədardır. Ailənin bütövlüyü onu təşkil edən cinslərin qarşılıqlı anlaşma şəraitində "tək androgen" varlıq yaratması ilə şərtlənir. Ümumi yanaşdıqda, bu bütövlüyü dərk etmədən insanların birgə yaşaması, hərəkətlərinin ümumi maraq naminə həyata keçirilməsi mümkün deyil. Yəni, ailə insanın yalnız bir deyil, bir sıra vacib tələbatlarının kompleks şəkildə təmin edilməsi məqsədilə yaradılır.

Bu xüsusiyyətlərinə görə, ailə digər kiçik qruplardan, birlik və cəmiyyətlərdən fərqlənir və istehsal sahələrində xidmət göstərən mütəxəssisləri birləşdirən peşəkar maraqlar kimi, ailəni quran insanları da onların mövcudluqlarının bütövlüyü bir yerə cəmləyir.

Digər sosial birliklərin əksinə olaraq, ailə insanın özünüinkişaf və təşkiletmə xüsusiyyətlərini həyata keçirməyə imkan verən fiziki və psixi tələbatları akultivasiya edən çoxfunksiyalı keyfiyyətlərinə əsasən, şəxsi-kollektiv-ictimai maraqları birləşdirmək kimi təkraredilməz qabiliyyəti özündə ehtiva edir [4,s.10].

Sosial institut kimi ailənin əsas əlamətləri aşağıdakılardır:

1. Münasibətlər və davranış nümunələri – bağlılıq, hörmət, məsuliyyət.

2. Mədəni simvollar – nigah ritualı, nişan üzükləri.

3. Utilitar mədəni ştrixlər – ev, mənzil (otaq), mebel.

4. Şifahi və yazılı davranış kodeksləri – Azərbaycan Respublikasının Konstitusiyası, Azərbaycan Respublikasının Ailə Məcəlləsi.

5. İdeologiya – ailənin yaradılmasının əsasında sevgi, nigah münasibətlərinin uğuruna və sabitliyinə can atmaq, ailə yaratmaq, möhkəmləndirmək və onu qorumaq istəyi.

Ailə, sosial institut ardıcıllığı ailə dövrünə (yaxud ailənin həyat dövrünə) çevrilən bir sıra mərhələlərdən keçir. Sosial institut kimi ailə üçün əsas olanlar aşağıdakılardan ibarətdir [6,s.230]:

- nigaha girmək (ailənin formalaşması);
- uşaq doğurmanın başlanğıcı (birinci uşağın doğulması);
- uşaq doğurmanın sona çatması (axırıncı uşağın doğulması);
- "boş yuva" (nigaha girmək və sonuncu uşağın ailədən ayrılması);
- ailənin mövcudluğuna xitam verilməsi (ər-arvaddan birinin ölümü).

Ailə, yeniyetmə nəslin sosiallaşması üçün ən mühüm institutdur. Bu, uşaqların, yeniyetmələrin, gənclərin həyatı və inkişafı üçün şəxsi mühiti özündə təmsil edir ki, onun da keyfiyyəti konkret bir ailənin bir sıra parametrləri ilə müəyyən edilir:

- demoqrafik – ailə quruluşu (digər qohumlar da daxil olmaqla böyük; o cümlədən yalnız valideynlər və uşaqlar daxil olmaqla nuklear ailə; tam və ya natamam; bir uşaqlı, az və ya çoxuşaqlı).
- sosial-mədəni – valideynlərin təhsil səviyyəsi, onların cəmiyyət həyatında iştirakı.
- sosial-iqtisadi – əmlak xüsusiyyətləri və valideynlərin iş yerində məşğulluğu.
- texniki-gigiyenik – yaşayış şəraiti, yaşayış yerinin avadanlığı, həyat tərzi xüsusiyyətləri [6, s.232].

Ailə strukturu – sosial institut kimi ailənin birliyini və fəaliyyətini, onun tərkibini, habelə onun üzvlərinin münasibətlərinin məcmusunu təmin etmək üsuludur.

Psixoloji və sosioloji ədəbiyyatlara istinadən, ailə institutunun müxtəlif funksiyalarını aşağıdakı kimi təsnif etmək olar:

1. Cinsi funksiya: Sosial institut kimi ailənin əsas vəzifəsi cəmiyyətdə insanların cinsi tələbatlarının ödənilməsinin tənzimlənməsindən ibarətdir.

2. Reproduktiv funksiya: Ailənin nəsilartırma funksiyası kimi xarakterizə olunur. Övladlarının psixi və fiziki cəhətdən sağlam böyüməsi, təhsilə yiyələnməsi, sosiallaşması və gələcəkdə bir şəxsiyyət kimi formalaşması hər bir ailə üçün vacibdir. Reproduktiv funksiya cəmiyyətdə artma və ya azalma kimi demoqrafik göstəricilərin dəyişməsinə nəzarət edir. Məhz bu səbəbdən, ailədən, nigahdan kənar uşaqların doğulması cəmiyyətdə müsbət hal kimi qarşılanmır.

3. Sosiallaşma funksiyası: Fərdin yaşadığı sosial mühitə uyğunlaşması, bu cəmiyyətin normalarını, dəyərlərini və davranış modellərini mənimsəməsi sosiallaşma adlanır. Fərdin ilkin sosiallaşması və şəxsiyyət kimi formalaşmasının təməli məhz ailə vasitəsilə qoyulur. Ailə uşaq üçün ilkin qrupdur, zaman keçdikcə, onun digər qruplara daxil olmasına baxmayaraq, erkən uşaqlıqda mənimsədiyi vərdişləri və ilkin davranış formalarını qoruyub saxlayır. Ailədə sosiallaşma zamanı uşaq özündən yaş baxımından böyük ailə üzvlərinin – ata, ana, nənə, baba, qardaş, bacı və digərlərinin davranışlarını mənimsəyir və təkrar edir. Beləliklə, cəmiyyətin daha yüksək mədəniyyətə sahib olması, ilk öncə, ailədən yüksək mədəniyyətə sahib olmağı tələb edir.

4. Emosional məmnunluq funksiyası: Bir qrup psixiatr və psixoloqların yanaşmasına görə, cəmiyyətdə insanlar arasında emosional və cinayət hadisələri, hüquq pozuntuları kimi davranış pozuntularının, habelə psixosomatik xəstəliklərin əmələ gəlməsinin başlıca səbəbi məhz ailədə

sevgi çatışmazlığı, emosional tələbatların qarşılanmamasının nəticəsi olaraq yaranır. Elə buna görə də, bu ehtiyacların qarşılanması vacibdir.

5. Müdafiə funksiyası: Bütün cəmiyyətlərdə ailə üzvlərinin fiziki, iqtisadi və psixoloji müdafiəsi ailə institutu tərəfindən müxtəlif səviyyədə həyata keçirilir.

6. İqtisadi funksiya: Ailə institutunun iqtisadi funksiyası ailə üzvləri arasında sıx iqtisadi əlaqələrin – ümumi büdcənin olması, onların bir-birinə dəstək olması kimi əlaqələri tənzimləməkdən ibarətdir.

Beləliklə, ailə həm ənənəvi, həm də müasir cəmiyyətin özəyini təşkil edir və fərdlərin inkişafı və bir şəxsiyyət kimi formalaşmasında bir sosial institut kimi mühüm rol oynayır. Belə ki, ailə cəmiyyətin idarəedici qüvvəsi olan vətəndaşlar yetişdirir, milli – mənəvi dəyərlər sistemini formalaşdırır, sosial münasibətlərin tənzimləyici mexanizmi kimi çıxış edir.

Müasir dövrdə müstəqil Azərbaycan Respublikası da dünya birliyinə qoşulur və cəmiyyətdə baş verən yeniləşmə, ictimai-siyasi və mədəni hadisələrin təbii dövranı, insanların yaşayış və həyat tərzinin dəyişməsi, mürəkkəb hal alması, cəmiyyətin quruluşunda baş verən sosial dəyişikliklər onların dünyagörüşündə, hadisələrə və ailəyə münasibətində yeni çalarların ortaya çıxmasına səbəb olmuşdur. Bu cür yeniləşmə prosesi baxımından, milli – mənəvi və dini – mədəni dəyərlərin qorunub saxlanması, inkişaf etdirilməsi və yaşadılması məsələləri vacib əhəmiyyətə malikdir. Öz növbəsində, müasir azərbaycan ailəsi də qloballaşan dünyanın və müasir cəmiyyətin komponenti olduğu üçün bu sahədə mühüm rola malikdir [1, s.11].

Qloballaşma, müasirləşmə, demokratikləşmə şəraitində yaşayan Azərbaycan cəmiyyəti və müasir azərbaycan ailəsi də ailə institutunun dəyişilməsi və bu dəyişikliyin formalaşdırdığı bəzi müsbət cəhətlərlə bərabər, bir sıra problemlərlə qarşı-qarşıya qalan cəmiyyətlərdən biridir.

Ənənəvi ailə modelindəki transformasiya prosesi aşağıdakı kimi təzahür edir:

a) sosial rollarda dəyişiklik – müasir ailələrdə qadının daha çox aktivliyə malik olması və ya ailənin idarə edilməsində hakimiyyətin qadının xeyrinə dəyişməsi, əksər kişilərin atalıq məsuliyyətini öz boyunlarına götürməkdə çətinlik yaşaması;

b) elm və texnologiyanın inkişafının ailəyə, ailə üzvlərinin roluna göstərdiyi təsir;

c) dəyərlər sistemində baş verən dəyişikliklər – ailədə qarşılıqlı hörmət və nüfuzun aşağı düşməsi, ailədə baş verən konflikt zəminində cinayət faktlarının geniş vüsət alması, intihar halları;

d) nigahın uzunömürlülüyündə və ya davamlılığında baş verən dəyişikliklər – boşanmada yaş həddi və son zamanlar boşanma hallarının çoxalması və s.

Modernləşmə cəmiyyət həyatının bütün sferalarına təsir göstərir, onun mənimsədiyi normaları, qaydaları, dəyərləri və davranış modellərini dəyişdirir, bu da, öz növbəsində, həm müsbət, həm də mənfi nəticələrə gətirib çıxarır. Yuxarıda da vurğuladığımız kimi, bu təsirlər ailə institutunda və ailənin sosial və mədəni həyatında əks olunur.

ƏDƏBİYYAT

1. Əliyev B.H. Mədəniyyətlərarası münasibətlərə milli identikliyin təsirinin sosial – psixoloji xüsusiyyətləri. Psixologiya jurnalı. 2018. № 2. s.11.
2. Əzimova R.C. İnsanşünaslıq XII əsrin elmidir. Bakı. Təknur. 2012. 156 s.
3. Mehdiyev R.Ə. Fəlsəfə. Dərs vəsaiti. Bakı. "Şərq-Qərb". 2010. 360 s.
4. Ramil Vəlibəyov. "Yeni Azərbaycan". 2011. 23 aprel. s.10.
5. Vahidov F.Q., Ağayeva T.B. Sosiologiya. Bakı. Təknur. 2008. 334 s.
6. Бим-Бад Б.М., Гавров С.Н. Модернизация института семьи. Монография / Москва: 2010. 337 с.

AİLƏ SOSİAL İNSTİTUT KİMİ

Ayişə Mirzəyeva

XÜLASƏ

Məqalədə sosial institut kimi ailənin cəmiyyətdəki roluna diqqət yetirilmiş və daşıdığı əsas funksiyalar təsnif edilmişdir. Sosial institut kimi ailənin malik olduğu əsas xüsusiyyətlərə nəzər salınmış və açar komponentləri sadalanmışdır. Hazırki dövrdə ənənəvi ailə modelindəki transformasiya prosesi açıqlanmış və bu dəyişikliyin səbəb olduğu müsbət və mənfi təsirlərin ailə institutunda və ailənin sosial və mədəni həyatında əks olunması göstərilmişdir.

Göstərilmişdir ki, ailənin gücü və cazibəsi, mahiyyəti onun sosial birlik, kiçik sosial qrup və sosial institut kimi səciyyələnməsi ilə əlaqədardır.

СЕМЬЯ КАК СОЦИАЛЬНЫЙ ИНСТИТУТ

Айша Мирзоева

АННОТАЦИЯ

В статье подчеркнута роль семьи как социального института в обществе и классифицированы ее основные функции. Рассмотрены основные черты семьи как социального института и перечислены ключевые компоненты. В настоящее время процесс трансформации в традиционной модели семьи был описан, а также отмечено отражение положительных и отрицательных последствий этого изменения на семейный институт и социокультурную жизнь семьи.

Отмечено, что сила и привлекательность семьи, ее сущность связаны с ее характеристикой как социальной единицы, малой социальной группы и социального института.

FAMILY AS A SOCIAL INSTITUTE

Ayisha Mirzayeva

SUMMARY

The role of the family as a social institution in society was emphasized and its main functions were classified in the article. The main features of the family as a social institution were considered and the key components were listed. At present, the process of transformation in the traditional family model was described, and the reflection of the positive and negative effects of this change on the family institution and the social and cultural life of the family was noted.

It was noted that the strength and attractiveness of the family, its essence, is associated with its characterization as a social unit, a small social group and a social institution.

SOSİAL SİYASƏTDƏ İQTİSADİ GÖSTƏRİCİLƏRİN VACİBLİYİ HAQQINDA

Hacıyev Elxan Hacı oğlu
BDU-nun II kurs magistrantı
hacievelxan515@gmail.com

Açar sözlər: Sosial siyasət, iqtisadiyyat, inflyasiya, sosial müdafiə, rifah
Ключевые слова: Социальная политика, экономика, инфляция, социальная звщита, благосостояние
Keywords: Social policy, economy, inflation, social protection, welfare

Hal hazırda dünyada cərəyan edən siyasi, iqtisadi və müxtəlif təbii proseslər müəyyən yollarla insanların rifahına və gündəlik həyatlarına öz təsirini göstərir. Son illərdə hökm surən pandemiya şəraiti, silahlı münaqişələr, təbii və demoqrafik proseslər başda geridə qalmış və inkişaf etməkdə olan ölkələr olmaqla bütün dünya ölkələrindən olan insanların iqtisadi və sosial vəziyyətlərini çətinləşdirir. Xüsusilə vurğulamaq lazımdır ki, insanların rifahına silahlı münaqişələr və müharibələr daha çox mənfi təsir göstərir. Siyasi maraqlar uğrunda münaqişə ocaqları yaradılır, illərlə davam edən müharibələrə külli miqdarda vəsait xərclənir, həmin yerlərdə aclıq, insan alveri, narkotik ticarəti və bunun kimi daha bir çox başqa problemlər yaranır. Bütün bunların mənfi nəticələri isə təbii olaraq sadə xalqa öz təsirini göstərir. İnsanların rifahına mənfi təsir göstərən amillərdən biri isə ticarət müharibələridir.

Böyük geosiyasi və iqtisadi gücə malik ölkələrin bir birinə qarşı tətbiq etdiyi embarqolar, iqtisadi sanksiyaların nəticəsində həmin ölkələrdə və onlara yaxın olan ölkələrdə makro və mikro iqtisadi problemlər yaranır. Nəticədə isə xalqın rifah səviyyəsi aşağı düşür. Bütün bu və bunun kimi sadalanan problemlərlə qarşılaşan ölkələr isə mənfi təsirləri aradan qaldırmaq üçün müxtəlif addımlar atır və yaxud da atmağa çalışır. Yaranan çətinlikləri aradan qaldırmaq üçün dövlətin sosial yönümlü siyasət aparması vacib hal hesab olunur.

Sosial iqtisadi islahatların aparılması, risk qrupuna aid olan insanların müəyyən edilməsi, çətin həyat şəraitində olan əhalinin sosial müdafiəsi, işsizliyin və cinayətkarlığın faiz göstəricilərinin aşağı salınması, yüksək rifahın, insan inkişafının, sosial ədalətliliyin təmin edilməsi və bunun kimi bir çox tədbirlər sosial siyasətin əsasını təşkil edir. Dayanıqlı sosial siyasətin yeridilməsində isə dövlətin iqtisadi vəziyyətinin sabit olması çox vacib amillərdən biridir. Dövlətin iqtisadi göstəricilərinə, ümumdaxili məhsulun adam başına düşən payına, insan inkişaf indeksindəki sıralamasına nəzər yetirdikdə həmin ölkənin vətəndaşlarının rifah göstəriciləri barədə ilkin təsəvvürlər əldə etmək mümkündür. Qeyd etmək lazımdır ki, dövlətin sosial siyasəti ilə cəmiyyətin iqtisadi inkişafı arasında qarşılıqlı əlaqə mövcuddur. Sosial siyasətin həyata keçirilməsində, problemlərin və sosial məsələlərin həll olunmasında əsaslı rolu onun iqtisadi gücü və sabitliyi oynayır. Iqtisadi imkanlarından istifadə edərək dövlət əhalinin rifah göstəricisinin və sosial iqtisadi vəziyyətinin davamlı artımını, sabit sığorta sistemini, səhiyyə sistemini, təhsil sistemini təmin edir.

Bazar iqtisadiyyatı şəraitində əhalinin müxtəlif sosial qruplarının gəlirləri arasında bərabərsizliklər qacınılmaz haldır. Məhz düzgün formalaşdırılmış sosial siyasətin və rifah iqtisadiyyatının sayəsində bu problemin dərəcəsini azaltmaq mümkün görülür. “Sosial siyasətdə əsas yeri əhalinin sosial müdafiəsi mexanizmi tutur. Sosial müdafiə vətəndaşların ilk növbədə əhalinin ən ağır maddi vəziyyətdə olan təbəqələrinin inflyasiyadan, işsizlikdən müdafiəsinə yönəldilən dövlət siyasətidir” (1).

Bir çox ölkələrdə çətin iqtisadi vəziyyətdə olan əhalinin rifah halını yaxşılaşdırmaq üçün dövlət vergi sisteminin imkanlarından istifadə edir. Əhalinin gəliri daha yüksək olan təbəqəsindən daha çox gəlir vergisi tutulur və tutulan vergi hesabına sosial xərclər çətin iqtisadi vəziyyətdə olan əhaliyə təqaüd, sosial xidmətlər, sosial yardım və başqa yollarla geri qaytarılır. Bu addımlarla əhalinin gəliri aşağı olan təbəqəsinin rifahı müəyyən dərəcədə dövlət tərəfindən dəstəklənir. Əhalinin rifah göstəricilərinə təsir edən başqa bir amil isə istehlak məhsullarının dəyərinin artmasıdır. İnflyasiya dünyanın hər bir ölkəsində mövcuddur və dövlətlər bu amili nəzarət altında tutmağa çalışır. Lakin müəyyən iqtisadi və geosiyasi proseslər nəticəsində inflyasiya faizləri arta bilər. Misal üçün dünyanın ən sabit iqtisadiyyatına sahib olan Amerikada inflyasiya 2021-dekabr göstəricilərinə görə son 40 ilin ən yüksək rəqəmi olan 7% ə yüksəlib. Bu göstərici Türkiyədə 40% a kimi yüksəlib və 2002-ci ildən bəri ən yüksək göstərici hesab olunur. Ölkəmizdə bu göstəricilər 11.1% təşkil edir. Dövlət inflyasiyaya qarşı əhalinin rifahını təmin etmək üçün gəlirlərin indeksasiyasından istifadə edir. "Gəlirlərin dövlət indeksasiyası yaşayış dəyərinin artması nəticəsində əhali gəlirlərində itkinin qarşısını almaq məqsədi ilə həyata keçirilən kompensasiya tədbirləri sistemidir" (1).

İndeksasiya qiymətlərin qaldırılmasından əvvəl və ya sonra tətbiq edilə bilər. Lakin sosial xərclərin və əhalinin gəlirlərinin müntəzəm olaraq artırılması üçün dövlətin də gəlirlərinin artımı vacib haldır. Regionun istər iqtisadi, istər siyasi, istərsə də hərbi olaraq lider gücü olan ölkəmiz dayanıqlı iqtisadiyyata malikdir. Bunun səbəbləri isə ölkəmizin beynəlxalq arenada olan nüfuzu, strateji sərvətlərinin bolluğu, sabit siyasi vəziyyəti, malik olduğu investisiya potensiyalı və başqa bir çox üstünlükləridir. Dövlət statistika komitəsinin son 5 ildə təqdim etdiyi statistik məlumatlara nəzər yetirsək ölkəmizin Ümumdaxili məhsulu və onun adam başına düşən payının əhəmiyyətli dərəcədə artımına şahid ola bilərik. Belə ki, 2017-ci ildə ölkəmizin ümumdaxili məhsulu 70135.1 milyon manat, onun adam başına düşən payı isə 7205 manat təşkil etmişdir. 2021 ildə isə ümumdaxili məhsul 92857.7 milyon manat, onun adam başına düşən payı isə 9269.3 manat təşkil etmişdir. Verilən rəqəmlərdən aydın görünür ki, son 5 ildə ölkənin ümumdaxili məhsulu 23 milyard manata yaxın artmışdır.

Həmçinin Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsi haqqında Azərbaycan Respublikasının qanununda göstərilən məlumatlara əsasən son ildə dövlət büdcəsinin gəlirləri 25.427.000.0 manat, xərcləri isə 28.543.000.0 min manat təşkil etmişdir. Bu xərclərin isə 3.2 milyard manatı təhsil, 1.4 milyard manatı səhiyyə, 3.7 milyard manatı isə sosial müdafiə və sosial təminat sahəsinə ayrılmışdır. Qeyd etmək lazımdır ki, əhalinin gəlirlərini artırmaq və rifah halını yaxşılaşdırmaq məqsədi ilə ölkədə son 3 ildə minimum əmək haqqı bir neçə dəfə artırılaraq 300 manat səviyyəsinə qaldırılmışdır. Son artım isə 2021-ci il dekabr ayının 17-də Azərbaycan Respublikası prezidenti tərəfindən imzalanan sərəncamda öz əksini tapmışdır.

Bundan əlavə Azərbaycan prezidenti müəllimlərin elm mərkəzlərinin və müxtəlif dövlət mərkəzlərinin calışanlarının da maaşlarını 20% dən 40% dək qaldırılması barədə sərəncamlar imzalamışdır. Edilən artımlar isə ümumilikdə 800 min nəfərə şamil olunmuşdur. Əmək haqları ilə bərabər ölkəmizdə yaşa və əlilliyə görə alınan müavinatlar, tələbələrin təqaütləri və başqa bir çox sahə üzrə artımlar olmuşdur. Sosial xərclər üçün edilən maliyyə xərcləri isə əlavə 460 milyon manat təşkil etmişdir. Bütün bu sadalananları nəzərə aldıqda sosial siyasətin davamlı və möhkəm olması üçün iqtisadiyyatın böyük rol oynadığını deyə bilərik.

ƏDƏBİYYAT

1.Azərbaycan Respublikasının 2021-ci il üzrə dövlət büdcəsi haqqında Azərbaycan Respublikası qanunu // http://www.e-qanun.az/framework/11456

2.Minimum aylıq əməkhaqqının məbləğinin artırılması və "Minimum aylıq əməkhaqqının artırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 18 iyun tarixli 1265 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı // https://president.az/az/articles/view/54661
3.Sosial sferanın iqtisadiyyatı və onun idarə edilməsi/Sosial siyasət və onun təkmilləşdirilməsi istiqamətləri // https://az.m.wikibooks.org/wiki/Sosial_sferan%C4%B1n_iqtisadiyyat%C4%B1_v%C9%99_onun_idar%C9%99_edilm%C9%99si/Sosial_siyas%C9%99t_v%C9%99_onun_t%C9%99kmill%C9%99%C5%9Fdirilm%C9%99si_istiqam%C9%99tl%C9%99ri
4.Rifah vəziyyəti: nəzəriyyə və təcrübə. Rifah vəziyyəti: anlayış və əlamətlər, funksiyalar // https://shr32.ru/az/gum-disease/socialnoe-gosudarstvo-teoriya-i-praktika-socialnoe/
5.Dövlət Statistik Komitəsi // https://www.stat.gov.az/
6.Rifah iqtisadiyyatı https://az.m.wikipedia.org/wiki/Rifah_iqtisadiyyat%C4%B1
7.https://apa.az/az/maliyye/azerbaycanda-illik-inflyasiya-aciqlanib-qrafik-675334
8.Большая российская энциклопедия // https://bigenc.ru/law/text/3639287
9.THE WORLD BANK // https://data.worldbank.org/indicator/NY.GDP.MKTP.CD?locations=US&most_recent_year_desc=true
10. https://www.reuters.com/world/middle-east/turkey-inflation-surges-361-amid-lira-crisis-highest-since-2002-2022-01-03/
11.https://www.google.com/amp/s/www.amerikaninsesi.org/amp/az%25C9%2599rbaycanda-minimum-%25C9%2599m%25C9%2599k-haqq%25C4%25B1-v%25C9%2599-ayl%25C4%25B1q-maa%25C5%259Flar-art%25C4%25B1r%25C4%25B1l%25C4%25B1b-ekspert-r%25C9%2599yi-/6358812.html

SOSİAL SİYASƏTDƏ İQTİSADİ GÖSTƏRİCİLƏRİN VACİBLİYİ HAQQINDA

Hacıyev Elxan

XÜLASƏ

Məqalədə müasir dövrümüzdə cərəyan edən bəzi təbii, siyasi, iqtisadi hadisələrin insanların sosial rifahına göstərdiyi mənfi təsirlərdən, sosial siyasətin təşkilində iqtisadi göstəricilərin vacibliyindən və ölkəmizdə bununla bağlı vəziyyətdən söz açılmışdır.

О ВАЖНОСТИ ЭКОНОМИЧЕСКИХ ПОКАЗАТЕЛЕЙ В СОЦИАЛЬНОЙ ПОЛИТИКЕ

Гаджиев Эльхан

АННОТАЦИЯ

В статье рассматривается негативное влияние некоторых природных, политических и экономических явлений на общественное благосостояние людей, значение экономических показателей в организации социальной политики и ситуации в нашей стране.

ON THE IMPORTANCE OF ECONOMIC INDICATORS IN SOCIAL POLICY

Hajiyev Elkhan

SUMMARY

The article discusses the negative impact of some natural, political and economic events on the social welfare of people, the importance of economic indicators in the organization of social policy and the situation in our country.

SOSİAL İŞ TEXNOLOGİYALARININ ƏSAS MƏZMUNU

Həsənzadə Aytac Bahadır qızı
BDU-nun I kurs magistrantı
aytac.hasan21@gmail.com

Açar sözlər: sosial işin texnologiyaları, sosial reabilitasiya, sosial terapiya, sosial adaptasiya, sosial profilaktika
Ключевые слова: технологии социальной работы, социальная реабилитация, социальная терапия, социальная адаптация, социальная профилактика
Keywords: social work technologies, social rehabilitation, social therapy, social adaptation, social prevention

Sosial işin qarşısında duran əsas vəzifə obyektin sosial problemlərinin həlli üçün mütəxəssislərin istifadə etdiyi fəaliyyətin forma, metod və üsullarının mövcudluğunu və gələcək inkişafını təmin etmək, arzuolunmaz həyat şəraitini dəyişmək məqsədilə onların qüvvələrinin fəallaşmasını stimullaşdırmaqdır. Sosial işçilər müraciətçilərə sosial problemlərin öhdəsindən gəlməkdə və həll etməkdə kömək edir. Onlar müraciətçiləri icma resursları ilə əlaqələndirir və onlara yoxsulluq, ayrı-seçkilik və sosial ədalətsizlik kimi maneələri aradan qaldırmaq üçün yardım göstərir. Təlimlərdə onlar sosial işdə insan faktorunun həyat keyfiyyətini artıra biləcək üsulları öyrənirlər.

XX əsrin 90-cı illərinin əvvəllərindən və faktiki olaraq hazırki dövrdə sosial iş texnologiyaları ilə bağlı problemlərin intensiv elmi inkişafı gedir. Bu anlayışın məzmununu müəyyən edən və ya ortaya qoyan bir çox tədqiqatlar mövcuddur. Belə görünür ki, sosial işin texnologiyası ardıcıl, məqsəd qoyan, subyektlərarası münasibətləri tənzimləyən prosesdir, bu proses zamanı insanın qabiliyyətlərinin obyektivləşməsi baş verir və onun sosial fəaliyyətinin formalaşması üçün şərait yaradılır. Beləliklə, "sosial işin texnologiyası" anlayışı ümumi anlayışdır:

1) Sosial işin texnologiyası sosial iş nəzəriyyəsinin tətbiqi hissəsidir, onun qabiliyyətini və aktiv fəaliyyətə hazırlığını müəyyən edir, bir şəxslə qarşılıqlı əlaqə formasının, metodlarının və vasitələrinin metodoloji əsaslarını öyrənir və inkişaf etdirir.

2) Sosial iş texnologiyası hər hansı bir problemdə insanla işləmək üçün bütün şəxsi, instrumental, metodik vasitələrin işləməsini həyata keçirməyə yönəlmiş fəaliyyət ardıcıllığı (alqoritmi) kimi təqdim edilə bilər. 3) Sosial işin texnologiyası müəyyən bir sosial məkanda subyekt və obyekt arasında qarşılıqlı əlaqə prosesinin idarə edilməsidir. 4) Ümumi mənada isə sosial iş texnologiyasını məhsuldar vəziyyətdə olan insan biliyi kimi təyin etmək olar [8].

Sosial iş texnologiyası rasional və emosional, mənəvi və maddi, icraçı və yaradıcı komponentlərin üzvi şəkildə birləşdirildiyi fərqli texnologiya növüdür. O resurslarla zəngin bir texnologiyadır. Onun köməyi ilə həm obyekti, həm də qarşılıqlı təsir subyektini aktivləşdirmək, onların yaradıcı potensialından istifadəni intensivləşdirmək mümkündür. Məhz sosial işin texnologiyalarının tətbiqi prosesində insanın yaradılması, yəni problemdə yeni düşüncə tərzinin və insan fəaliyyətinin yetişdirilməsi baş verir.

Texnologiya emal etmək üçün texnika və üsullar toplusudur. Beləliklə, sosial iş sosial texnologiyadır, eyni zamanda özü də texnoloji fəaliyyətdir. Sosial işin bir proses olması müddəasına əsaslanaraq, onun sosial texnologiya kimi əsas xüsusiyyətlərini, yəni strukturluluq, konseptuallıq, ardıcıllıq, idarəolunanlıq, səmərəlilik və təkrar istehsal qabiliyyətini ayırmaq olar.

Sosial işin bir texnologiya kimi strukturluluğu maksimum dərəcədə peşəkar subyekt-obyekt qarşılıqlı əlaqəsinin forma və metodları ilə bağlıdır. Bu müddəanın konseptuallığı onunla müəyyən edilir ki, insanla sosial iş həmişə müəyyən elmi konsepsiyaya, o cümlədən qarşıya qoyulan məqsədlərə nail olmaq üçün fəlsəfi, psixoloji, sosial əsaslandırmaya malikdir. Sosial iş texnologiyalarının idarəolunması diaqnostik təhlilin aparılması, məqsəd qoyulması, planlaşdırma, layihələndirmə, insanla işləmək vasitələri və üsullarının dəyişdirilməsi imkanlarını nəzərdə tutur. Sosial işin bir texnologiya kimi effektivliyi onun optimal xərclərlə nəticə əldə etməyə, insanla işin zəmanətli standartlarını təmin etməyə yönəlməsi ilə müəyyən edilir. Sosial iş texnologiyasının əlaməti olaraq təkrar istehsal eyni tipli şəraitdə prosedurların təkrarlanma ehtimalı ilə müəyyən edilir. Eyni zamanda, sosial işin texnologiyası insanla işləmək bacarığıdır. Onunla qarşılıqlı əlaqə müxtəlif ifaçılar tərəfindən ya göstərişlərə uyğun olaraq, ya da yaradıcı şəkildə həyata keçirilə bilər.

Sosial işin mexanizmləri iyerarxik olaraq sıralanır və onun meqa, mezo və mikro səviyyələri ilə əlaqələndirilir. Sosial iş mexanizminin həyata keçirilməsi sosial iş vəziyyəti yarandıqda baş verir [4].

Mikro səviyyədə olunan müdaxilə fərdi, ailə və qrup ilə birbaşa sosial işdir. Dəyişiklik yaratmaq istənən və müdaxilə edilən şey mahiyyət etibarı ilə fərdin və ya fərdlər qrupunun münasibətləri ilə bağlıdır. Praktikada bir çox sosial işçilər mikro fokusda işləyirlər. Mikro səviyyədə hesab edilən fərdlərlə sosial işin qabaqcılı Meri Riçmond hesab olunur. Meri Riçmondun 1915-ci ildə nəşr olunan "Sosial Diaqnoz" kitabı fərdlərlə sosial işin əsaslarının qoyulduğu ilk kitab adı daşıyır. Bu kitabda Meri Riçmond uzun müddətdir sistemləşdirməyə çalışdığı sosial iş araşdırmalarını təsvir etmişdir.

Mezo səviyyədə olan müdaxilə fərdi-qurum, qurum-qurum, qurum-icma arasındakı əlaqələrə diqqət yetirir. Fərdi-qurum əsasda mezo müdaxilə fərdlər və qurumlar arasında əlaqələrin qurulmasıdır. Məsələn, fərdləri qurumlara yönləndirmək və qurumlardan şəxslərə resursları köçürmək fərdi-qurum əsasda olan mezo müdaxilədir. Qurumlararası müdaxilədə ayrı-ayrılıqda və ya mövzu əsasında qurumlar arasında əməkdaşlıq və koordinasiya təmin edilir. Qurum-icma əsasında mezo müdaxiləsi icmalar və institutlar arasında əlaqələrin qurulmasını əhatə edir.

Makro səviyyədə müdaxilə sosial siyasət yönümlü işdir. Buraya təzyiq altında olan icma və ya sosial problem haqqında ictimaiyyətin məlumatlılığının artırılması, sosial siyasətin işlənib hazırlanması, hüquqların müdafiəsi və sosial xidmət sisteminin yenidən təşkili ilə bağlı fəaliyyətlər daxildir.

Məsələn, məişət zorakılığı probleminin aradan qaldırılması istənilirsə, bizə müraciət edən məişət zorakılığı qurbanlarına mikro müdaxilələr zəruri olsa da, kifayət etmir. Bu baxımdan qurumların xidmətlərinin təsnifləşdirilməsi, xidmət imkanlarının artırılması və koordinasiyasının təmin edilməsi kimi müxtəlif mezo müdaxilələr tələb olunacaq. Eyni zamanda, cəmiyyətdə zorakılığa qarşı maarifləndirmənin yaradılması, zorakılığa qarşı sosial siyasətlərin hazırlanması lazımdır. Məqsədimiz məişət zorakılığını aradan qaldırmaqdırsa, problemin hər üç ölçüsündə təhlil və müdaxilə lazımdır.

Sosial iş texnologiyalarından istifadənin uğurlu nəticəsi sosial işçilərin fərdi texnika, peşə ustalığı və intuisiyasından asılıdır. Peşə ustalığı dedikdə sosial iş üzrə mütəxəssisin şəxsi və işçi keyfiyyətlərinin, onun bilik və təcrübəsinin üst üstə düşməsi başa düşülür. Fərdi texnika müraciətçinin onun çətin həyat şəraitinin qarşısının alınması məqsədi ilə istifadə etdiyi lazım olan bacarıq və vərdişlərin cəmidir[1]. Sosial iş texnologiyalarından istifadənin effektivliyi bir çox amillərdən asılıdır:

- subyektin sosial-iqtisadi, sosial-psixoloji mövqeyi və statusu;

- insanda inam yaradan və ona peşəkar xidmət, diqqət və yardım göstərə bilən geniş sosial institutlar və sosial xidmətlər sistemi;

-cəmiyyətdə mövcud olan sosial xidmət və qurumların fəaliyyətinin hüquqi tənzimlənməsini təmin edən hüquqi mexanizm.

Bu günə qədər ölkəmizdə fərd, ailə və risk qruplarının həyat şəraitinin yaxşılaşdırılması ilə bağlı sosial iş texnologiyaları inkişaf edir. Sosial işin texnologiyasının məzmununun təşkilati formaları fərdi və qrup formaları olmaqla 2 yerə bölünür.

Fərdi formalar: ilkin qəbul, məsləhətvermə. İlkin qəbul zamanı sosial iş üzrə mütəxəssis müraciət etmiş vətəndaşı çətin həyat şəraitinə gətirib çıxaran amillər haqqında məlumat toplayır. Bu amillərə müraciət edənin kateqoriyası, yaşı, yaşadığı və işlədiyi yer haqda, o cümlədən, 18 yaşa qədər uşaqların olması haqda məlumat aiddir.

Qrup formaları: məşğələ-praktikum, kollektiv yaradıcı işlər, sosial treninq və təlimlər [2].

Sosial işin məzmununu bir neçə cərəyanda təqdim etmək olar: 1) sosial- hüquqi cərəyan(çətin həyat şəraitinin həlli prosesində fərdin hüquqi statusunun istifadəsi), 2) sosial-məişət cərəyanı (ətraf-mühitlə adaptasiyada dəstək), 3)sosial-tibbi cərəyan, 4) psixoloji-pedaqoji cərəyan (fərdin qabiliyyətlərinin inkişafı, fəal həyat mövqeyinin, pozitiv özünühissetmənin formalaşdırılması, müştərinin sosial təcrübəni qavramasının təşkili), 5) sosial-psixoloji cərəyan (çətin həyat şəraitinin qarşısının alınması prosesində şəxsiyyətlərarası münasibətlərin tənzimlənməsi).

Sosial iş texnologiyaları müraciətçi problemlərinin həlli üçün istifadə olunan fəaliyyətlərin sayına görə digərlərindən fərqlənir. Bunlara aşağıdakılar daxildir: reabilitasiya, sosiallaşma, uyğunlaşma, adaptasiya, diaqnostika, profilaktika, terapiya, məsləhət və s. [6].

Sosial diaqnostika: Diaqnostika sözünə biz daha çox tibb elmində rast gəlirik. Pasiyent, yəni xəstə həkimə müraciət etdikdə həkim ilk öncə bəzi testlərlə təhlillər aparıb xəstənin xəstəliyini müəyyənləşdirib, müalicə planı hazırlayıb, tətbiq edir. Yəni diaqnoz qoyur. Sosial işdə də belədir. Diaqnostika müraciətçinin probleminin nədən ibarət olduğunu müəyyən edir.

Sosial profilaktika - bu söz də bizə tibb elmindən tanışdır. Xəstəliyin qarşısını alan və əhalinin əmək və məişəti üçün sağlam şərait yaradan tədbirlərin məcmusudur. Yəni profilaktika qabaqlayıcı tədbirlər deməkdir.

Sosial adaptasiya kliyentin mühitə uyğunlaşması, fəal şəkildə daxil olması prosesidir. Sosial adaptasiyanın iki (aktiv və passiv) forması var. Aktiv formada insan özü ətraf mühiti dəyişdirmək və ona təsir göstərməyə çalışır. Passiv formada isə subyekt özü mühiti dəyişməyə çalışmır və daxil olduğu sosial mühitə uyğunlaşır.

Sosial reabilitasiya insanın psixi və fiziki zədələnmələrindən sonra qarşılaşdığı çətinliklərin aradan qaldırılmasına yönəlmiş tədbirlərdir. Yəni reabilitasiya təbii yolla müalicə, sosial işdə də müraciətçinin sosial həyata yenidən sağlam şəkildə qayıtması deməkdir.

Sosial terapiya - kliyentin qabiliyyətinin inkişafına və kompensasiyasına dəstək olan texnikalar cəmidir.

Sosial işin texnologiyaları aşağıdakı prinsiplər əsasında realizə olunur:

1) profilaktik yönüm prinsipi, 2) sosial işin texnologiyasının realizə olunması sahəsində dövlət zəmanətlərinin təqdim olunması prinsipi, 3) sosial xidmətlərin alınmasında və onların kliyentlərin bütün kateqoriyaları üçün əlçatmazlığında bərabər imkanların təminatı prinsipi, 4) sosial işin bütün növlərinin ardıcıllığı prinsipi, 5) sosial işin texnologiyalarının bütün növlərinin varisliyi prinsipi, 6) sosial işin texnologiyalarının kliyentlərin fərdi tələbatlara yönümü prinsipi, 7) sosial işin texnologiyalarının istifadəsinin nəticəsinə görə dövlət hakimiyyəti orqanlarının və müəssisələrin məsuliyyəti prinsipi.

Sosial işin texnologiyaları onun praktiki aspektini əks edir, həmçinin sosial xidmətlərin və peşə kadrlarının fəaliyyətinin səmərəliliyini təyin edirlər.

ƏDƏBİYYAT

1. Əliyeva.H.İ, Zamanov.A.D, Sosial işin əsasları, Dərslik, Bakı, "Təhsil işçisi mətbəəsi", 2015, 452 səh.
2. Məmmədova.R.O.Sosial işə giriş, Ali məktəblər üçün dərs vəsaiti, Bakı, "Ecoprint", 2019, 208 səh.
3. Sosial işin əsasları, Müntəxabat, I hissə, "Bakı Universiteti nəşriyyatı", 2006, 359 səh
4. Abdulhakim B., Türkiye'de sosyal hizmet uygulamaları, Sosyal hizmetler önlisans programı
5. Sosial texnologiya: anlayışı, növləri: https://az.delachieve.com/sosial-texnologiya-anlayisi-noevl%C9%99ri-_intsrumentary/
6. Sosial texnologiyaların növlərinin təsnifatı https://pantort.ru/az/economy/vidy-socialnyh-tehnologii-tablica-klassifikaciya-osnovnyh/
7. Concepts and methods of social work: https://books.google.az/books?id=U_C0ZJl2GgQC&printsec=frontcover&hl=ru#v=onepage&q&f=false
8. Технология социальной работы: сущность и содержание: https://studme.org/14170120/sotsiologiya/tehnologiya_sotsialnoy_raboty_suschnost_soderzhanie

SOSİAL İŞ TEXNOLOGİYALARININ ƏSAS MƏZMUNU

Həsənzadə Aytac

XÜLASƏ

Bu məqalədə fərd, ailə və risk qruplarının həyat şəraitinin yaxşılaşdırılmasında sosial işin əsas məğzi, qarşısında duran əsas vəzifələr haqqında məlumat təqdim edilib. Sosial işin həyata keçirilməsində tətbiq edilməsi tələb olunan texnologiyaların məzmunu araşdırılıb. Məqalədə sosial işin texnologiyalarının tətbiqi prossesində problemlərin həllində yeni düşüncə tərzinin və düzgün insan fəaliyyətinin, davranışlarının yetişdirilməsi, sosial işin texnologiyalarından istifadənin effektivliyi mövzularından bəhs edilib, sosial işin prinsipləri nəzərdən keçirilib.

ОСНОВНОЕ СОДЕРЖАНИЕ ТЕХНОЛОГИЙ СОЦИАЛЬНОЙ РАБОТЫ

Гасанзаде Айтадж

АННОТАЦИЯ

В данной статье представлена информация о сущности социальной работы и основных задачах в улучшении жилищных условий отдельных лиц, семей и групп риска. Исследовано содержание технологий, которые необходимо применять при осуществлении социальной работы. В статье рассматривается развитие нового образа мышления и правильной деятельности человека, поведение при решении задач в применении технологий социальной работы, эффективность использования технологий и принципы социальной работы.

MAIN CONTENT OF SOCIAL WORK TECHNOLOGIES

Hasanzadeh Aitaj

SUMMARY

This article provides information on the essence of social work and the main tasks in improving the living conditions of individuals, families and risk groups. The content of the technologies required to be applied in the implementation of social work was investigated. The article discusses the development of a new way of thinking and correct human activity, behavior in solving problems in the application of social work technologies, the effectiveness of the use of social work technologies, the principles of social work.

SOSİAL İŞ SFERASINDA AİLƏ-MƏKTƏB ƏLAQƏLƏRİ

İsmayılova Ayşən İbrahim qızı,
ADMİU-nun II kurs magistrantı
ayshan-ismayilova@mail.ru

Açar sözlər: məktəb-valideyn münasibətləri, məktəb sosial işi, şagird, əməkdaşlıq.
Ключевые слова: школьно-родительские отношения, школьная социальная работа, ученик, сотрудничество.
Key words: school-parent relations, school social work, student, cooperation.

Məktəblər uşaqların sosiallaşması, inkişafında və qarşılaşdıqları problemlərin həllində onlara çatmaq üçün ən təsirli qurumlardan biridir [7, s. 74]. Bu səbədən də məktəblərdə şagirdlərə istiqamətlənən tədbirlərin həyata keçirilməsi olduqca əhəmiyyətlidir. Lakin qeyd etməliyik ki, şagirdlərlə iş zamanı təkcə onlara deyil çevrələrinə və ailələrinə də yönəlmək və problemin əsas mənbəyini tapmaq lazımdır. Məktəb sosial işçiləri bilməlidirlər ki, problemlərin mənbəyi təkcə uşaq deyil, uşağın ətrafındakı sistemlər də problemə təsir edə bilər və ya uşaqla ətrafı arasında qarşılıqlı münasibətlərdə uyğunsuzluq ola bilər. Problemə çoxölçülü yanaşmanı nəzərdə tutan " sistem yanaşması" və " ekoloji yanaşma" üsullarından istifadə etməklə uşaqların problemləri "mühiti içərində fərd" kontekstində təhlil edilməli və bu təhlillər çərçivəsində müdaxilə planı formalaşdırılmalıdır [6, s.236]. Bu plan fərdə yönəlik qurulmalı və fərdi əhatə edən bütün sistemləri ehtiva etməlidir. Qeyd etməliyik ki, eyni problemə malik şagirdlərə eyni planı tətbiq etmək heç bir səmərə verməyəcək. Ona görə ki, problem eyni ola bilər amma fərdlər və onların çevrəsi tamamilə bir-birindən fərqlidir. Bu sahədə bilinməlidir ki, məktəblərdə şagirdləri ailələrindən və cəmiyyətdən ayıracaq şəkildə heç bir xidmət göstərilə bilməz və təhsilin səmərəliyi və davamlılığı üçün cəmiyyət və ailə ilə koordinasiyalı şəkildə işləmək lazımdır. Bu səbəbdən də, bu məqalədə məktəb sosial işində ailə və məktəb əlaqələrində sosial işin rolundan bəhs edəcəyik.

Fərdin ilk sosiallaşma prosesi, ilk təhsili qeyri-formal olaraq ailədə başlayır və formal təhsil müəssisələrində davam edir. Bu baxımdan da ailədə və məktəbdə verilən təhsilin paralel getməsi uşağın fərdi sosial-psixoloji inkişafı üçün olduqca əhəmiyyətlidir [11, s.1545].

Məktəb və ailənin ayrı-ayrılıqda məsuliyyət daşıdığını və onlar arasında rəqabət və münaqişənin olduğunu vurğulayan ənənəvi məktəb modellərindən fərqli olaraq, müasir modellər məktəb və ailənin daha çox ortaq məsuliyyət daşıdığını, məktəb və ailənin bir-birini tamamladığını vurğulayır, ünsiyyət və əməkdaşlığı təşviq edir [10, s. 311]. Bu inkişaflara paralel olaraq ailə məktəb idarəçiliyində mühüm rol oynamağa başladı və ailənin bu prosesə daxil edilməsi məktəb effektivliyinin ən mühüm göstəricilərindən biri kimi qəbul olundu.

Ailə-məktəb tərəfdaşlığı məktəb işçilərini, valideynləri və məktəbdə təhsil alan şagirdlərin digər ailə üzvlərini əhatə edən əməkdaşlıq əlaqələri və fəaliyyətləridir. Effektiv əməkdaşlıq qarşılıqlı etimad və hörmətə, məktəbdə uşaq və gənclərin təhsili üçün ortaq məsuliyyətə əsaslanır. Ailələr övladlarının ilk tərbiyəçiləridir. Onlar məktəb illərində və məktbədən sonra da övladlarının öyrənməsinə və inkişafına təsir göstəməkdə davam edirlər. Məktəblər də gələcək nəsillərin yetişdirilməsində və öyrədilməsində kömək etməkdə mühüm məsuliyyət daşıyır və ailələr gələcək nəsillərinin təhsil əsaslarını təmin etməkdə və uşaqlarının uğurlu gələcəyinin qurulmasında məktəblərə etibar edirlər. Eyni zamanda məktəb işçiləri ailənin təhsildə əsas rolunu dərk etməlidirlər. Buna görə də ailələrin və məktəblərin birgə əməmkdaşlıq etməsi vacibdir [2]. Valideynlərin və ictimaiyyətin iştirakının yüksək təmin edildiyi məktəblərin

fəaliyyətində səmərəlilik özünü göstərir. Bu iştirak şagirdin kurikulumu öyrənməsi, dərsə davamiyyəti və davranışlarının inkişaf etdirilməsi ilə sıx bağlıdır. Ailə iştirakçılığı təkcə məktəb-valideyn birliyi və valideyn iclaslarında işitrak etmək, məktəbə ianə vermək, sinif fəaliyyətlərində işitak etmək demək deyil, bunlara yalnız ailə iştirakçılığının bir hissəsi kimi baxıla bilər [5]. Bu fikirə istinad edərək Azərbaycan ümumi təhsil müəssisələrinə nəzər salsaq məktəb-valideyn münasibətlərinin əsasən hansı fəaliyyətlərə əsaslandığını görə bilərik. Azərbaycan Respublikası "Ümumi təhsil haqqında" Qanununda qeyd olunur ki, ümumi təhsil müəsssiələrində demokratikliyi və şəffaflığı qorumaq məqsədilə digər özünüidarə orqanları – himayəçilər, qəyyumlar, valideynlər və s. şuralar yaradıla bilər [1, maddə 20.6]. Deməli burada əsas formal rolu valideyn şuralarının fəaliyyətləri, məktəb rəhbərliyi və müəllimlərin rəhbərlik etdiyi valideyn iclasları oynayır.

Uşaqların yaş və sinif səviyyələri də ailələrin məktəb faəliyyətlərinə maraq və iştirak səviyyəsi ilə bağlıdır. Bu baxımdan, xüsusilə məktəbəqədər və ibtidai təhsil pillələrində təhsil alan uşaqların ailələrinin iştirakı orta və ali məktəb səviyyələrində təhsil alanların ailələrinin iştirakından daha yüksək olduğu da müəyyən edilmişdir. Bildirilir ki, orta məktəb şagirdlərinin valideynləri övladlarının vacib məktəb qərarları və ya gələcək planları barədə az hallarda təlimat verirlər [3, s.128]. Eynilə, yuxarıda qeyd olunduğu kimi Azərbaycanda da məktəbəqədər təhsil və ibtidai təhsil pilləsində valideynlər uşaqlarının dərsləri ilə yaxından maraqlanır və ya maraqlanmaq fürsəti əldə edir. Belə ki, kiçik yaşlı şagirdlər əsasən valideynlərinin müşayəti ilə məktəbə gedir və məktəbdən qayıdır və bununla da, valideynlər uşaqlarının müəllimləri ilə daha tez-tez ünsiyyətdə olurlar. Bu isə valideynə uşağın məktəbdəki vəziyyəti, dərslərinə nə qədər hazır olması, həmyaşıdları və müəllimləri ilə münasibəti barədə mütəmadi olaraq məlumat almaq fürsəti verir. Lakin artıq 5-ci sinifdən etibarən bir çox şagirdlər, xüsuilə oğlan uşaqları məktəbə müstəqil gedir və bu da valideynin tədricən məktəbdən uzaqlaşmasına səbəb olur.

Daha böyük siniflərə keçdikcə bu əlaqələr daha da itir və valideynlər valideyn iclasları və ya digər vacib məsələlər olmadığı müddətdə məktəbə baş çəkmirlər. Bu isə şagirdlərin məktəbdən uzaqlaşmasına, dərslərinə məsuliyyətsiz yanaşmasına səbəb olur. Digər mühüm məsələ isə sosial problemlərin meydana gəlməsindədir. Əgər ibtidai sinifdə uşaqla həmyaşıları arasında hər hansı münaqişə baş verirdisə, uşaq aqressiv davranışa (bulling) məruz qalırdısa, yaxud müəllim-şagird arasında hər hansısa bir anlaşılmazlıq yaranırdısa valideyn bu barədə qısa müddətdə məlumat əldə edirdi. Lakin sinif pilləsi artıqca, yəni orta və tam orta təhsil müddətində uşaqların məktəbdəki münasibətlərindən valideyn məlumatsız olduğundan yaranmış problemlər böyüyür və daha ağır şəkildə nəticələnir. Bu səbəbdən də məktəblər ailə iştirakçılığının davamlı təmin olunmasında səy göstərməlidirlər. Məktəblərdə sosial işçilərin fəaliyyəti isə ailə-məktəb münasibətlərinin qorunub saxlanılmasında, bu sahədə mütəmadi tədbirlərin keçirilməsində müstəsna əhəmiyyətə malikdir.

Ailənin iştirakını müxtəlif yollarla dəstəkləyən çoxlu müxtəlif ailə iştirakı proqramları mövcuddur. Bunlar, "həm ailəyə, həm də uşağa göstərilən hərtəfəli xidmətləri özündə cəmləşdirən proqramlar", "ailələrə göstərilən xidmətlər vasitəsilə uşaqların və ailələrin savadlılıq nailiyyətlərini artırmaq məqsədi daşıyan proqramlar" və " yalnız şagirdin savadlılığının əldə edilməsinə yönəlmiş və ailəni dəyişim üçün bir vasitə olaraq ələ alan proqramlar" kimi qruplaşdırılmışdır [8, s. 22].

Uşağın özündən, məktəb mühitindən və ya uşaq-ailə-məktəb münasibətlərindən yaranan problemlərin həllində, ailədə və məktəb strukturunda uşaqların inkişafının monitorinqi və dəstəklənməsində uşaqlara sosial-psixoloji dəstək olmaq üçün sosial işçilərə ehtiyac var. Məktəb sosial işçiləri şagirdi sistem perspektivi ilə nəzərə alaraq məktəb, ailə və icma səviyyələrində müdaxilələr hazırlayır və işin idarə edilməsi, məsləhətçilik vəzifələrini öz üzərilərinə götürürlər.

Sosial işçilər üçün ailələri uşaqlarının təhsil proseslərinə cəlb etməyə təşviq etmək, risk qrupuna daxil olan şagirdlərə və onların ailələrinə dəstək olmaq, ev və məktəb arasında kommunikasiya şəbəkələrini açıq saxlamaq məqsədilə resursların müəyyən edilməsi və inkişaf etdirilməsi üçün cəmiyyətlə əməkdaşlıq məktəb sosial işi baxımından ən mühüm rollardandır [7, s. 400]. Sosial işçilərin bu rolu yerinə yetirmələri üçün şagirdlərin fərdi dinamikasını yaxşı bilmək və ailələr, sinif müəllimləri, məktəb rəhbərliyi və digər işçilərlə sistematik əməkdaşlıq etmələri lazımdır.

Ailə-məktəb əməkdaşlığının inkişaf etdirilməsi istiqamətində müəyyən edilmiş məqsədlərə çatmaq və davamlılığı təmin etmək baxımından sistemli və yaxşı təşkil olunmuş ailə iştirak proqramları çox vacibdir. Ailənin iştirakının effektiv olması üçün məktəblər hər bir akademik dövr və hər sinif üçün ardıcıl və sistemli yanaşma nümayiş etdirməlidirlər. Bu kontekstdə məktəblər ailələri uşaqların öyrənmə proseslərinə cəlb etməzdən əvvəl ailənin cəlb edilməsinin potensial qazanlarını və görünməyən riskləri, eləcə də onun təmin edə biləcəyi dəstək və resursları nəzərdən keçirmək üçün məktəb işçilərini hazırlamalıdırlar [6, s. 245].

Məktəblərdə çalışan sosial işçilər ailələri təhsildə iştirakını dəstəkləmək və məktəb kollektivinin ailələr haqqında müxtəlif aspektlərdən məlumatlı olmaları baxımından körpü rolunu oynayır. Ailələrin ehtiyaclarının dinlənilməsi, ailələr üçün lazımi resursların aşkarlanması, ailə iştirakını artıracaq tədbirlərin təşkilindən ibarət ev ziyarətləri ailələrin iştirakında maneələrin aradan qaldırılmasında və onların iştirakının artırılmasında mühüm əhəmiyyət kəsb edir. Məktəb sosial işçisinin evi ziyarət etməkdə məqsədləri aşağıdakılardır: [9]

1. Məktəbdə uzun müddət davam edən fasilələr və ya problemlərin səbəbini araşdırmaq, şagird uzun müddət dərsə gəlmədikdə evlərini ziyarət edib bunun səbəbini aydınlaşdırmaq və bu məlumatları məktəb rəhbərliyi ilə bölüşmək;
2. Sosial işçi məktəb rəsmiləri valideynlərlə əlaqə saxlaya bilmədikdə onların evlərinə gedib mövzu üzrə iş aparmaq;
3. Məktəbin şagirdlər üçün həyata keçirdiyi proqram və davranış idarəetmə planlarının güclənməsi üçün valideynlərin də iştirakını təmin etmək;
4. Bəzi hallarda valideynlərin uşaqlarında diqqət çatışmazlığı - hiperaktivlik pozuntuları və autizm kimi mövzularda maarifləndirilməsi və bu təlimlərlə ailələrin xüsusi qayğıya ehtiyacı olan övladlarına daha diqqətli yanaşmasına və onlara qayğı göstərməsinə şərait yaradılır.

Yardıma ehtiyacı olan ailələrə kömək etmək, ailə ilə uşaq arasında ünsiyyətin keyfiyyətini artırmaq, ailələrə pedaqoq rolunu vermək məqsədilə ev ziyarətləri ailənin dəyərlərini, onların uşaqlarına münasibət və davranışlarını, uşaq ilə bağlı gözləntilərini öyrənmək, ailənin yaşadığı şəraitlə tanış olmaq, şagird üçün təmin olunan fiziki, sosial və psixoloji mühitin yerində müəyyən olunması, ailənin daxil olduğu sosial mühit, ailə üzvlərinin sağlamlıq vəziyyəti ilə bağlı məlumatların əldə edilməsi və ailəni tanımaq baxımından bu sahədə istifadə olunan ən yaxşı üsullardan biridir. Məktəb sosial işçiləri məktəb əsaslı ailə məsləhətləri çərçivəsində bir tərəfdən uşaqların sağlam inkişafını təmin etməyə çalışaraq mənfi ailə və ətraf mühit şəraitinə müdaxilə edərkən, digər tərəfdən də ailələrin funksionallığına töhfə verirlər [6, s.249].

ƏDƏBİYYAT

1. “Ümumi təhsil haqqında” Azərbaycan Respublikası Qanunu, 1532 VQ
2. “Family-School Partnerships Framework”, A guide for schools and families, Australian Government, Department of Education, Employment and Workplace Relations file:///C:/Users/User/Desktop/Family-school_partnerships_framework.pdf
3. C. Çalık - “Okul-Çevre İlişkisinin Okul Geliştirmedeki Rölü: Kavramsal Bir Çözümlüme.” Gazi Eğitim Fakültesi Dergisi, Cild 27, s.123-129, 2016

4. D. R. Dupper - "School Social Work: Skills and Interventions for Effective Practice", John Wiley Press, New Jersey ,2003
5. Denise L. Onikama - "Family Involvement in Education: A Synthesis of Research for Pacific Educators", Pacific Resources for Education and Learning, 1998
6. Dr. Doğaç Niyazi Özüçelik və b. – "Okul Sosyal Hizmeti", İstanbul Üniversitesi Açık ve Uzaktan Eğitim Fakültesi, Sosyal Hizmet Lisans Tamamlama Proqramı
7. E. Kılıç, Y. Özkan - " Okul Temelli Aile Danışmanlığında Sosyal Hizmetin Rolü ve Önemi. TSA 19 (1), s.155-178, 400, 2015
8. G. Gül - "Okuryazarlık Sürecinde Aile Katılımının Rölü", Ankara Üniversitesi Eğitim Bilimleri Fakültesi Özel Eğitim Dergisi, 8(1), s.17-30, 2016
9. L. Openshaw - " Social Work in Schools, Principles and Practise", The Guildford Press, New York, 2008
10. M. Tschannen-Moran - "Collaboration and the Need for Trust", Journal of Educational Administration, 39(4), s.308-331 , 2016
11. Ş. Yapıcı - "Türk Toplumunda Aile ve Eğitim İlişkisi", Turkish Studies, Cild 5, s. 1544-1570, 2010

AİLƏ-MƏKTƏB ƏLAQƏLƏRİ: SOSİAL İŞ SFERASINDA

İsmayılova Ayşən

XÜLASƏ

Şagirdlərin təlim və tərbiyə prosesinin formal formalaşdığı və inkişaf etdiyi məktəbin şagirdin bütün həyatına təsir edən rola malik olması faktı məktəb sosial işinə diqqəti yönəldir. Məktəb sosial işi müxtəlif sferaları əhatə edir ki, bunlardan biri də ailə-məktəb əməkdaşlığıdır. Şagirdlərin savadlanması və sağlam inkişaf etməsi baxımından valideynlər ilə müəllimlər və ailələr ilə məktəb rəhbərlikləri arasındakı əməkdaşlıq xüsusi əhəmiyyət kəsb edir. Bunun sistem olaraq qurulması isə ilk növbədə hüquqi bazanın formalaşdırılmasına daha sonra isə məktəblərdə tətbiq olunmasına söykənir. Tətbiq olunmasında müəllimlər, məktəb rəhbərliyi, valideynlər və sosial işçilər birgə iştirak edir və bu prosesə nəzarəti sosial işçilər həyata keçirir.

FAMILY-SCHOOL RELATIONS: IN THE SPHERE OF SOCIAL WORK

Ismayilova Ayshan

SUMMARY

The fact that the school in which the process of training and education of students is formally formed and developed has a role that affects the whole life of student draws attention to the social work of the school. School social work covers various areas, one of them is family-school cooperation. In terms of student literacy and healthy development, collaboration between parents and teachers and families and school leaders is particularly important. Its establishment as a system is based primarily on the formation of the legal framework and then its application in schools. Teachers, school administrantors, parents and social workers are involved in the implementation and this process is supervised by social workers.

СЕМЕЙНО-ШКОЛЬНЫЕ ОТНОШЕНИЯ: В СФЕРЕ СОЦИАЛЬНОЙ РАБОТЫ

Исмайлова Айшан

АННОТАЦИЯ

Тот факт, что школа, в которой формально формируется и развивается процесс обучения и воспитания учащихся, имеет роль, влияющую на всю жизнь ученика, обращает внимание на социальную работу школы. Социальная работа в школе охватывает различные направления, одним из которых является сотрудничество школы и семьи. Сточки зрения грамотности учащихся и здорового развития особенно важно сотрудничество между родителями и учителями, семьями и школьными руководителями. Его становление как системы основано, прежде всево, на формировании нормативно-правовой базы, а затем ее применении в школах. В реализации уцаствуют учителя, школьная алминистрация, родители и социальные работники, и этот процесс контролируется социальными работниками.

SOSİAL TƏDQİQATLARDA NƏSİL KONSEPSİYASI

Məmmədova Lamiyə
ADMİU-nun II kurs magistrantı
Elmi rəhbər: sənətşünaslıq üzrə fəlsəfə doktoru Nigar Sultanlı
lamiya.mammadova.f@admiu.edu.az

Açar sözlər: nəsil, nəsil nəzəriyyəsi, nəsil konfliktləri, Səssiz nəsil, Çoxuşaqlı nəsil, X nəsli, Y nəsli, Z nəsli.
Ключевые слова: поколение, теория поколений, конфликты поколений, молчаливое поколение, поколение X, поколение Y, поколение Z.
Keywords: generation, generation theory, generational conflicts, Silent generation, generation X, generation Y, generation Z.

Giriş. Sosial-siyasi, iqtisadi və texnoloji dəyişikliklər cəmiyyətə təsir etməklə insanların dəyər, davranış, həyat tərzi və düşüncələrini dəyişir. Sosial varlıq olan insan doğulduğu cəmiyyətin qaydalarını, norma və dəyərlərini davranışında əks etdirir və həyatı boyunca bu normalara əməl etməyə çalışır. Erkən yaşlardan başlayaraq cəmiyyətin müəyyən etdiyi qaydalara əməl etmək insanlarda ortaq davranış xüsusiyyətlərinin yaranmasına səbəb olur. Məlumdur ki, dövrün tələbi ilə yaranan dinamik inkişaf, dəyişən xüsusiyyətlər müxtəlif yaş kateqoriyalarında olan şəxslər arasında fərqli baxış bucağı yaradır. Sözügedən fərqliliklər müxtəlif tədqiqatçılar tərəfindən "nəsil" anlayışı kimi xarakterizə edilir (4, s.68). "Nəsil" anlayışını özündə ehtiva edən tədqiqatlara əsaslanaraq deyə bilərik ki, "nəsil" müəyyən bir dövrdə böyüyən insanların yaş və xarakterik xüsusiyyətlərinin digər yaş qruplarından seçilməsi ilə əlaqədar meydana çıxan bir ifadədir. Müasir dövrdəki nəsil anlayışının formalaşmasına texnologiyanın inkişafı və həyat normalarının dəyişməsi təsir göstərməkdədir. Buna görə də, "nəsil" anlayışı müxtəlif zaman kəsiyində sosial tədqiqatların mövzularından biri olmuş və sosial aspektdən dəyərləndirilmişdir. Hər nəslin istək, tələb, gözlənti və arzularının bir-birindən fərqli olması onlar arasında ziddiyyət və konfliktlərin yaranmasına səbəb olur. Yaşlı nəsillərin yerini tutan hər gənc nəsil öz xarakterik xüsusiyyətləri ilə fərqli dəyər mühakimələri yaradır. Bu mühakimələr isə öz növbəsində bir nəslin digər nəsildən seçilməsi ilə nəticələnir.

Tədqiqatın birinci hissəsində nəsil nəzəriyyəsi anlayışı, onun yaranması və inkişaf etməsi müxtəlif tədqiqatlara əsaslanaraq təhlil edilmiş, ikinci hissədə isə nəsillərin xronoloji təsnifatı verilmişdir. Hər iki hissədə Azərbaycan cəmiyyətindəki nəsil anlayışı qərb tədqiqatları ilə müqayisəli şəkildə təhlil edilmişdir.

Nəsil nəzəriyyəsi. Nəsil anlayışı tarixi prosesdə məlum olsa da nəsillər haqqında ilk nəzəriyyə XIV əsrdə Tunisdə yaşamış, müasir iqtisadiyyatın qabaqcıllarından hesab edilən islam mütəfəkkiri İbn Haldunun "Nəsil sistemləri nəzəriyyəsi" adı altında qəbul edilmişdir (9, s.45). Nəzəriyyə bir-birini izləyən 4 fərqli 16 nəsil tipinin 80 və ya 100 ildən bir sosioloji nöqteyi-nəzərdən təkrarlanması üzərində qurulmuşdur. Nəsil nəzəriyyəsini dövlətin strukturu əsasında izah edən İbn Halduna görə, bu proses tarixi dəyişikliklərə əsaslanaraq meydana gəlir və fərdlərin iradəsindən asılı olmayaraq yaranır. Yəni hər nəsil özündən əvvəlki nəslin hazırladığı şəraitdə formalaşır və bu dövr tarix boyunca davam edir. Fikrimizcə, keçmişi mənimsəyərək gələcəyi təxmin etmək məqsədi güdən bu nəzəriyyə nəsilləri başa düşmək və konfliktlərin yaranmasına səbəb olan mövzuları aradan qaldırmaq baxımından olduqca əlverişlidir. İbn Haldun tərəfindən əsası qoyulan "Nəsil sistemləri nəzəriyyəsi" sonralar qərb dünyası tərəfindən modelləşdirilmişdir. Bu mövzuda ilk elmi tədqiqatın əsası 1830-1840-cı illər arasında müasir

sosiologiya elminin banisi Ogüst Kont tərəfindən qoyulmuşdur (10, s.64). O.Kont nəsillər arasında baş verən dəyişikliklərin tarixi prosesdə hərəkət edən qüvvələr olduğunu qeyd edərək, ictimai tərəqqini yalnız bir nəslin digər nəslə ötürə biləcəyi dəyərlər vasitəsilə əldə etmənin mümkün olduğunu bildirirdi. Kontun nəsillər haqqında qeyd etdiyi bu fikri müasir dövrdə müxtəlif nəsillər arasında baş verən dəyər toqquşmalarını izah edərkən istifadə edə bilərik. Müasir dövrdə istər ailələrə, istərsə də cəmiyyətə nəzər yetirdiyimiz zaman görə bilərik ki, dəyər anlayışına olan münasibətlərin ziddiyyəti konfliktlərin yaranmasına səbəb olur. O.Kontun fikrinə əsasən deyə bilərik ki, nəsillər arasında ortaq dəyər anlayışı yaratmaqla və ya ziddiyyətləri minimuma endirməklə ictimai tərəqqiyə, sağlam cəmiyyətə sahib ola bilərik.

Nəsil anlayışını ilk dəfə sosioloji cəhətdən alman sosioloq Karl Manheim "Nəsillərin problemi" adlı məqaləsində tədqiq etmişdir. Manheimə görə, cəmiyyətdə bir nəslin varlığından bəhs etmək üçün beş ünsür meydana gəlməlidir. Bura daxildir:

1. Mədəni prosesdə yeni iştirakçıların meydana çıxması;
2. Bu proses zamanı keçmiş iştirakçıların yerini digərlərinə təhvil verməsi;
3. Hər hansı bir nəslin nümayəndələrinin tarixi prosesin yalnız bir hissəsində iştirak etməsi;
4. Mədəni irsin ötrülməsi;
5. Nəsildən-nəslə keçidin davamlı proses olması (6, s.276).

Bölgüdən də aydın olur ki, nəsil anlayışı müxtəlif yaş kateqoriyalarına mənsub olan şəxslərin dövrün xüsusiyyətlərini özündə əks etdirməsidir. Hər nə qədər fərqliliklər özünü göstərsə də bir nəslin mədəni irsi, norma və dəyərləri digər nəslə təsir edir. Nəsil anlayışına verilən tərifl ərə əsaslanaraq, deyə bilərik ki, hər nəslin özünəməxsus xüsusiyyətləri, dəyərləri, perspektivləri, mühakimələri, güclü və zəif tərəfləri mövcuddur. Bu xüsusiyyətlər isə nəsillər arasında münaqişə və fikir ayrılıqlarının yaranmasına səbəb olur.

Nəsil nəzəriyyəsi həm bioloji, həm də sosioloji tədqiqatların obyekti olmuş, dövrün müxtəlif aspektlərinə görə tədqiq edilmişdir. Bioloji aspektə əsaslanan nəsil nəzəriyyəsinə görə, nəsil, valideyn və uşaq arasındakı yaş fərqinə əsaslanan ortalama vaxt intervalıdır (5, s.129). Burada nəsil dedikdə 20-25 ildən bir formalaşan icmalar nəzərdə tutulur. Keçmişdə bu aspektdən baxış sosioloqların tədqiqatlarına təkan vermişdir. Hal-hazırda isə nəsil nəzəriyyəsini sırf bioloji amilə, yəni yaş fərqinə əsaslanaraq təhlil etmək əvvəlki dövrlərdə olduğu kimi əsas prinsip olaraq qəbul edimir. Xüsusilə qadınların məşğulluğunun artması, karyera həyatının önəmi, gec evliliklər və gec uşaq dünyaya gətirmək kimi bir çox sosial-mədəni dəyişikliklər bioloji amilə əsaslanan tədqiqatlarla yanaşı sosioloji tədqiqatların da önəmini artırır. Dəyişən həyat şəraiti əvvəlki dövrlərlə müqayisədə uşaqlarla valideynlər arasında yaş fərqinin artmasına səbəb olur. Sosioloji aspektlərə əsaslanan nəsil nəzəriyyəsinə görə, nəsil müəyyən tarixlərdə doğulan, sosiallaşma prosesində siyasi, iqtisadi, mədəni və s. kimi hadisələrdən təsirlənən, ortaq dəyər, inanc, gözlənti və davranışlara sahib qruplar olaraq izah edilir. Bura Manheim, Louer, Özər və s. kimi tədqiqatçıların fikirləri daxildir.

Sosioloqlar nəsil nəzəriyyəsinin tədqiqində K.Manheimin qeyd etdiyi 3 təməl nəsil faktoruna əsaslanırlar. Bura "nəsil xüsusiyyəti", "reallığa görə nəsil" və "nəsil submədəniyyəti" daxildir (6, s.278). Nəsil xüsusiyyəti dedikdə həyat-ölüm anlayışını, müəyyən zaman kəsiyini özündə ehtiva edən, bioloji aspektlərə əsaslanan faktorlar nəzərdə tutulur. Manheimə görə, nəsil fərdlərin eyni sosial, tarixi platformada doğulması və inkişaf etməsidir. Bu zaman nəsillər oxşar həyat tərzlərini, təcrübələrini bir-biriylə bölüşürlər. Yuxarıda da qeyd etdiyimiz kimi, nəsilləri sadəcə yaş xüsusiyyətlərinə görə təsnif etmək kifayət etmədiyindən Manheimin ikinci təməl nəsil faktoru olan "reallığa görə nəsil"i təhlil edək. Reallığa görə nəsil anlayışı dedikdə sosial və tarixi amillərdən başqa digər təsir faktorları da nəzərdə tutulur. Təsir faktorlarına eyni aqibəti bölüşmək, ortaq xüsusiyyətlərə mənsub olmaq və s. daxildir. Daha əhatəli təhlil etmək üçün

nümunəyə əsaslanaq. Məsələn, eyni dövlətdə, cəmiyyətdə yaşamasına baxmayaraq baş verən hadisələrin eyni nəslə mənsub şəxslərə fərqli təsir göstərdiyini və ya heç bir təsir göstərmədiyini deyə bilərik. Şəhərdə yaşayan gənclərlə kənddə yaşayan gənclərə təsir göstərən faktorlar müxtəlif ola bilər. Buradan da belə nəticəyə gəlmək olar ki, şəhərli və kəndli gənclər eyni nəsil xüsusiyyətini, mövqeyini bölüşdüyü halda eyni nəsil daxilində fərqli reallıqları özlərində ehtiva edirlər. Bu mövqe əvvəlki dövrlərdə özünü daha qabarıq göstərirdi. Müasir dövrdə istər texnologiyanın, istər iqtisadiyyatın, istərsə də sosial amillərin inkişaf etməsi şəhərlə kənd arasındakı uçurumun aradan qalxmasına səbəb olmuşdur. Fikrimizcə, Manheimin bu münasibətini müasir dövrdə eyni cəmiyyətə məxsus nəsillərin müqayisəsində deyil, müxtəlif cəmiyyətlərdə yaşayan nəsillərin müqayisəsində istifadə etmək mümkündür.

Məsələn, Azərbaycanda yaşayan gənc nəsil ilə Amerikada yaşayan gənc nəsil eyni yaş dövrlərinə aid olsa da, sosial, mədəni, iqtisadi amillərə əsaslanan fərqliliklər, həyat tərzləri özünü göstərir. Belə nəticəyə gəlmək olar ki, bir nəslə aid edilən xarakterik xüsusiyyətlər müxtəlif cəmiyyətlərdə özünü fərqli şəkildə büruzə verir. Nəsil submədəniyyəti ümumi nəsil nəzəriyyəsinə qarşı duran alt qruplardır. Nümunə vasitəsilə bu kateqoriyanı təhlil edək. 19-cu əsrdə liberal-romantik və liberal-rasional gənclər eyni reallıqları əks etdirən nəsil kateqoriyasına daxil olmasına baxmayaraq eyni modern mentaliteti bölüşməmişlər. Hər iki qrup cəmiyyət tərəfindən tarixi təsirlərə cavab vermək məqsədilə yaradılan sosial reaksiyaların iki qütbünü təmsil edib. Nümunəyə əsaslanaraq üçüncü kateqoriyanı Azərbaycanda yaranan cərəyanlar kontekstində təhlil edək. XX əsrin əvvəllərində cəmiyyətdə baş verən neqativ hallara öz sözünü demək məqsədilə tənqidi realizm yarandı. Bu cərəyanla yanaşı eyni reallıqları özündə əks etdirən, lakin fərqli üslubla bunu cəmiyyətə çatdırmağa çalışan romantizm cərəyanı geniş vüsət aldı. Bu isə eyni nəslə mənsub şəxslərin fərqli alt mədəniyyətləri yaratdıqlarını və müdafiə etdiklərini göstərir.

Bizə ən yaxın tarixi dövrü əhatə edən və sistematik xarakter daşıyan nəsil nəzəriyyələri Uilyam Straus və Nil Hou tərəfindən tədqiq edilmişdir. Ancaq bunu da nəzər alaq ki, tədqiqatlar Amerika cəmiyyətini əsas alaraq aparılmışdır (11, s.19). Eyni dövrləri əhatə edən tədqiqatlar müxtəlif cəmiyyətlərin nəsil konsepsiyalarına uyğun olmaya da bilər. Straus və Hou tərəfindən yaradılmış nəsil nəzəriyyəsi 4 əsas tarixi dövrdən ibarətdir. Hər bir sosial mərhələ orta hesabla 15-20 illik dövrü əhatə edir. Bu 4 dövrün tamamlanması təqribi olaraq 80-90 illik zaman kəsiyini əhatə edir və mərhələlər tamamlandıqdan sonra özünü yeniləyir. Straus və Hounun 1997-ci ildə nəşr olunan "The Fourth Turning" kitabında nəsil nəzəriyyəsinin 4 tarixi dövrü qeyd edilmişdir. Bu kateqoriyaya "Yüksəliş dövrü", "Oyanış dövrü" (dirçəliş), "Həll dövrü" və "Böhran dövrü" aiddir. Tarixi dövrləri əhatə edən nəsillər isə xarakterik xüsusiyyətlərinə görə 4 tipə ayrılmışdır:

1. Sənətkar nəsli;
2. Peyğəmbər (kahin) nəsli;
3. Köçəri nəsil;
4. Qəhrəman nəsil (11, s.19).

Bir-birindən fərqli xarakterik xüsusiyyətlər malik olan bu 4 nəsil vaxtaşırı olaraq bir-birini izləyir və tarixi dövr əmələ gətirir. Bu xaraktetik tiplər daha sonra dövri olaraq 3 əhəmiyyətli nəsli təmsil etməkdədir. Nəsillər ardıcıl olaraq çoxuşaqlı nəsil, X nəsli, Y nəsli olaraq peyğəmbər, köçəri və qəhraman nəsilləri ilə eyniləşdirilir. Sənətkar nəsli isə Straus və Hounun nəsil nəzəriyyəsində natamam olaraq qeyd edildiyindən o dövr üçün nəsil adlandırılması aparılmamışdır. Fikrimizcə, sosial tədiqatlara və nəsillərin xarakterik xüsusiyyətlərinə əsaslanaraq bu nəslin Z nəsli ilə uyğunluq təşkil etdiyini görə bilərik.

Sənətkar nəsli 1920-1945-ci illər aralığında doğulan Səssiz nəsil ilə 2000-ci ildən sonra doğulan Z nəslinin xarakterik xüsusiyyətlərini təmsil etməkdədir (10, s.64). Valideynləri

tərəfindən güclü müdafiəyə məruz qalmış bu nəslin, emosionallığı və yaradıcı təfəkkürü inkişaf etmişdir. Bu nəsil digər nəsillərlə müqayisədə introvertliyi ilə seçilməkdədir. Müasir dövrümüzdə Z nəslinə nəzər yetirsək görərik ki, bu nəslin nümayəndələri tənqidə qapalı olmaqla yanaşı, valideynləriylə yaşadıqları kiçik mübahisədə belə ağlamağa başlayırlar.

Sənətkar nəslinin 1920-1945-ci illərindəki nümayəndələri müharibə dövründə yaşadıqlarına görə bu nəsli bəzi ədəbiyyatlarda "müharibə nəsli" olaraq da adlandırırlar (10, s.64). Bu dövr bütün dünyada sistemlərin çökdüyü, hegemonluğun əl dəyişdirdiyi müharibə dövrü olaraq bilinir. Müharibə Azərbaycana da öz təsirini göstərmiş, nəslin nümayəndələrinin mübarizəsi, əzmkarlığı fərdlərin xarakter xüsusiyyətlərində öz əksini tapmışdır. Sənətkar nəslinə xas xüsusiyyətləri ətraflı təhlil etmək üçün müasir dövr ilə 100 il əvvəlki dövrü müqayisə etməyimiz daha məqsədəuyğundur. Əgər 100 il əvvəlki nəsil müharibə dövrünə təsadüf etmişdirsə, indiki Z nəsli də informasiya müharibəsinin geniş vüsət aldığı bir dövrdə yaşayır. Bu baxış bucağımıza görə, sənətkar nəsli dövrü böyük ictimai dəyişikliklərin yaşandığı bir dövrə təsadüf etməkdədir. Səntkar nəslindən sonra 1946-1964-cü illəri əhatə edən Peyğəmbər və ya Kahin nəsli dövrünə daxil olunur. Bu dövrdə yaşayan fərdlər "Çoxuşaqlı nəsil" (Baby boomers) olaraq ədəbiyyatlara daxil olmuşdur (10, s.64). Dövrün səciyyəvi xüsusiyyətləri sırasına müxtəlif ideologiyaların önəm qazanması, fərqli siyasi fikirlərin inkişaf etməsi, demokratik meyllərin artması və s. daxildir. Hippi submədəniyyətinin yaranması da bu nəslə təsadüf edir.

Köçəri nəsil 1965-1979-cu illər arasında doğulan X nəsli nümayəndələri tərəfindən təmsil edilən nəsildir. Bu nəsil ilə güclü "mən konsepsiyası"na əsaslanan fərdi yanaşma dövrü başlamışdır. Sosializm və dəyərlərə meyillilik öz əhəmiyyətini itirərək yerini həyat mübarizəsinə və fərdi potensiala əsaslana güc axtarışına vermişdir (11, s.20). Dünyanın bu dövrə daxil olması fərdilik, müstəqillik, ikili münasibətlərdə konfliktlərin yaranması, ailə həyatının qurulmaması və ya gec evlənmə kimi anlayışların çoxalması ilə nəticələndi. Bu nəslin nümayəndələri üçün qazanmaq, daha çox nailiyyətlər əldə etmək olduqca vacibdir. Onlar işgüzarlıqları ilə seçilir.

Qəhrəman nəsil 1980-1999-cu illər arasında doğulmuş Y nəsli ilə təmsil olunur. Sivil cəmiyyət qurmaq üçün mübarizə aparan bu nəslin nümayəndələri BMT və NATO kimi strukturları yaratdılar (11, s.22). Bu dövr tarix boyu inqilab liderlərinin, qəhrəmanların, dahilərin meydana çıxdığı dövr olaraq qəbul edilir.

Tədqiqatların təhlili onu göstərir ki, nəsil nəzəriyyəsi müəyyən dövrdə doğulub böyüyən və eyni yaş kateqoriyasına daxil olan fərdlərin oxşar davranış xüsusiyyətlərini nümayiş etdirməsidir. Bu davranış xüsusiyyətləri isə hər nəsildə fərqli formada özünü büruzə verir. Fərdlər doğulduqları nəslin davranış xüsusiyyətləri nümayiş etdirərək, digər nəslin davranış xüsusiyyətlərinin əksinə gedirlər. Bu zaman isə nəsillər arasında konflikt yaranmış olur. Məsələn, bir nəsil digəri ilə müqayisədə daha çox rahatlığa meyilli, ekstrovert olduğu halda digər nəsil daha soyuqqanlı, introvert ola bilər.

Nəsillərin xronoloji təsnifatı. Nəsillərin tarixi bölgüsü zamanı onların dəqiq xronoloji təsnifatını vermək olduqca çətindir. Bunun əsas səbəbi nəsilləri sadəcə doğulduqları illərə görə təsnif etməyin kifayət etməməsidir. Nəsillərin xronoloji təsnifatını apararkən yaş faktoru ilə yanaşı nəsilləri təşkil edən cəmiyyətin sosial, siyasi, mədəni hadisələr qarşısındakı düşüncə və təcrübələrini müəyyən etmək lazımdır. İqtisadiyyat, mədəniyyət, siyasət, texnologiya, incəsənət kimi müxtəlif sahələrdə baş verən dəyişikliklər həyatın bütün sahələrinə öz təsirini göstərir. Bu təsirlər isə öz növbəsində fərdlərin baş verən hadisələrə münasibətində, gözləntilərində, prioritetlərində, həyata baxışlarında və davranışlarında əksini tapır. Fərqli dövrlərdə, müxtəlif şəraitlərdə doğulan fərdlər sələfləri ilə müqayisədə fərqli dəyərlərə və prioritetlərə sahibdirlər.

Arsenault 2004-cü ildə bir nəslin formalaşması üçün lazım olan amilləri aşağıdakı kimi təsnif etmişdir:

1. Siyasi amillərdən qaynaqlanan və cəmiyyətə dərindən təsir edən formalaşdırıcı amillər;
2. Cəmiyyətin resursları ilə əhalinin demoqrafik vəziyyətin arasındakı ziddiyyətlər;
3. Cəmiyyətə düşüncələri ilə təsir göstərən, onları istiqamətləndirən və rəhbərlik edən liderlərin davranışları;
4. Texnoloji yeniliklər (1, s.8).

Sadalanan bu amillər nəsillərin inanclarına, dəyər mühakimələrinə, davranışlarına, ailə və gender münasibətlərinə təsir göstərir. Bu faktorların təsiri ilə fərdlər yerinə yetirməli olduqları rolları müəyyən edir və nəsillərarası fərqliliklərin xarakterik xüsusiyyətləri formalaşır. Bu bölgüyə əlavə olaraq eyni hadisələrin müxtəlif ölkələrdə fərqli dövrlərdə meydana gəldiyini və hər cəmiyyətə fərqli formada təsir göstərdiyini qeyd edə bilərik. Standart xüsusiyyətlər bir cəmiyyətə uyğun gəlsə də digərinə uyğun gəlməyə bilər.

Yuxarıda da vurğuladığımız kimi, nəsillərin xronoloji təsnifatı zamanı müəyyən maneələr özünü göstərir. Müxtəlif tədqiqatları ümumiləşdirərək maneələri aşağıdakı kimi təsnif edə bilərik:

1. Nəsillər formalaşdıqları dövrün xüsusiyyətləri əks etdirdiyindən eyni dövrdə müxtəlif bölgələrdə baş verən tarixi hadisələrin fərdlərə fərqli formada təsiri;
2. Bir nəslin başlama və bitmə dövrlərinin təsadüf etdiyi tarixi hadisələr;
3. Texnologiyanın dünyanın hər yerində eyni inkişaf etməməsiylə müxtəlif ölkələrdə yaranan fərqliliklərin nəsillərə təsiri;
4. Xronoloji təsnifatdan əlavə nəsillərin adlandırılmasında yaranan fikir ayrılıqları və s.

Bu sadalanan problemlər arasında ən çox fikir ayrılığının bir nəslin hansı illəri əhatə etməsiylə bağlı olduğunu görürük. Bundan əlavə bəzi tədqiqatlarda xronoloji təsnifatla yanaşı nəsil sayındakı fərqlər də nəzərə çarpır. Bəzi tədqiqatçılar Y nəsli ilə Z nəsli arasına hər hansı bir keçid nəsli əlavə etmədiyi halda, bəziləri Y nəslindən sonra M nəslinin gəldiyini qeyd edir. 1995-2002-ci illər arasında doğulan M nəsli üçün "internet uşaqları", "internet nəsli", "milenyum nəsli" və s. kimi adlardan istifadə edilir (5, s.130). Fikrimizcə, bu qədər qısa tarixi dövrü əhatə edən keçid nəslinin xronoloji təsnifata əlavə edilməsinə ehtiyac yoxdur. Doğrudur ki, texnologiyanın həyatımıza daxil olması ilə dövri xüsusiyyətlər sürətlə dəyişir. Bu baxımda M nəslinin əlavə edilməsi fikri qeyd edilmişdir. Buna baxmayaraq, digər tədqiqatları da əsas götürərək, deyə bilərik ki, bir nəslin formalaşması 20-25 illik tarixi dövri əhatə etdiyindən M nəslinin Y və Z nəsli arasında keçid nəsli rolunu oynamasına ehtiyac yoxdur.

Ümumilikdə nəsil təsnifatını apararkən 5 nəslin varlığı qəbul edilir. Bura Səssiz nəsil və ya ənənəvi nəsil (1925-1945), Çoxuşaqlı nəsil (1945-1964), X nəsli(1965-1979), Y nəsli (1980-1999) və yeni-yeni iş həyatına addım atan Z nəsli (2000 və sonraki dövr) aid edilir. Bəzi tədqiqatlarda isə Z nəslindən sonraki, yəni 2010-cu ildən doğulanları "alfa nəsli" adlandırırlar və təsnifatı böyüdürlər (5, s.132). Hal-hazırda müasir tədqiqatlara istinadən bu xronoloji təsnifat əsas götürülsə də, fikrimizcə, hər cəmiyyətin xarakterik xüsusiyyətlərini, siyasi və sosio-mədəni vəziyyətini nəzərə almalıyıq. Mədəniyyət, yaş kateqoriyalarının qanuna əsasən təsnifi, gənc və yaşlı nəslə cəmiyyətin və dövlətin münasibəti nəsillərin təsnifatına və adlandırılmasına təsir göstərməkdədir. Məsələn, İsrail üçün müharibələr nəsillərin təsnifatı zamanı mühüm rol oynasa da, ABŞ üçün demoqrafik vəziyyət ilə sosial-siyasi amillər nəsillərin təsnifatı zamanı əhəmiyyət təşkil edir. Nümunəyə əsaslanaraq Azərbaycan cəmiyyətini İsrail cəmiyyətinin nəsil təsnifatı prinsipləri ilə eyniləşdirə bilərik. Müxtəlif zaman aralığında müharibə görmüş cəmiyyət olaraq nəsil təsnifatı zamanı bu amilin təsirini vurğulamağımız olduqca vacibdir.

Nəticə. Sosial, siyasi, mədəni dəyişikliklər fərdlərin düşüncəsinə təsir göstərməkdədir. Daha izahlı qeyd etsək, deyə bilərik ki, əldə edilən təcrübə əsasında fərdlərin duyğuları, düşüncələri, perspektivləri və davranış xüsusiyyətləri formalaşır. Tədqiqatımız zamanı məlum oldu ki,

sadalanan bu xüsusiyyətlər nəsillərin araşdırılmasına və onların xronoloji cəhətdən təsnif edilməsinə səbəb olmuşdur. Bunlar da öz növbəsində müxtəlif fikirləri özündə əks etdirən nəsil nəzəriyyələrinin yaranması ilə nəticələnmişdir.

Gəldiyimiz nəticəyə görə nəsil nəzəriyyəsi haqqında araşdırmalar və nəsillərin xronoloji təsnifatıyla bağlı tədqiqatlar qərb sosiologiyasında daha geniş tədqiq olunmuşdur. Qərb soiologiyasının təhlili nəsillərin təsnifatının tarixi dönüş nöqtələrinə əsaslandığını göstərmiş oldu. Beləliklə, bu aspektə əsaslanan xüsusiyyətləri hər cəmiyyətə aid etməyimiz doğru olmaz. Əgər əvvəlki dövrlərdə tarixi hadisələrin müəyyən mənada hər cəmiyyətə təsiri özünü göstərsə də müasir dövr üçün bunu deməyimiz doğru deyil. Xüsusilə də son dövrlərdə qərb sosioloqları fərdlərin karyera planlamasını, liderlik, ünsiyyət, vaxtın idarə edilməsi kimi bacarıqlarını, perspektivlərini, büdcənin idarə olunması və s. kimi bir çox sahələrdə olan münasibətlərini nəsillərin xarakterik xüsusiyyətləri sırasına daxil edirlər. Gəldiyimiz qənaətə görə, texnologiyanın sürətlə inkişaf etməsinə baxmayaraq, qərb cəmiyyətindəki nəsillər ilə Azərbaycan cəmiyyətindəki nəsillərin xüsusiyyətlərini eyniləşdirmək olmaz. Biz qərb tədqiqatlarına əsaslanaraq Azərbaycan cəmiyyətindəki nəsilləri təhlil edə bilmərik. Məsələn, Avropada yaşayan gəncin problemləri ilə Azərbaycanda yaşayan gəncin problemləri eyni deyil. Bu baxımdan, Azərbaycanda nəsillərin tədqiqatına xüsusi önəm verilməli və bu istiqamətdə araşdırmalar genişləndirilməlidir.

ƏDƏBİYYAT

1. Erden A. Kuşaklar arasındaki farklılıklar ve örgütsel yansımaları, Muğla Sıtkı Koçman Üniversitesi İktisadi ve İdari Bilimler Fakültesi Ekonomi ve Yönetim Araştırmaları Dergisi, 2013, 112 s
2. Gəncəli S. Nəsillər, Ailələr, Talelər. Ensiklopedik Toplu, Bakı, 2011, 86 s
3. İsbəndiyarova C. Ailə dəyərlərini simvollaşdıran kultlar, Bakı: "Elm və təhsil" nəşriyyatı, 2018, 64 s
4. Kağıtçıbaşı Ç. Yeni İnsan ve İnsanlar, Evrim Yayınevi, İstanbul, 2016, s 68
5. Keleş H. Y Kuşağı Çalışanlarının Motivasyon Profillerinin Belirlenmesine Yönelik Bir Araştırma, Organizasyon ve Yönetim Bilimleri Dergisi, 2011, s 129-139
6. Mannheim K. The Problem of Generation, London, 1952, s 276-320
7. Mehtiyev E. Azərbaycanda ailə dəyərləri, Bakı, 2018, 78 s
8. Məmmədov R. Azərbaycan ailəsi: Dünən və bu gün, Bakı, 2008, 208 s
9. Mustafa Y. İbn Haldunun Tarihselci Devlet Kuramı, Felsefe ve Sosyal Bilimler Dergisi, 2010, s 45
10. Toruntay H. Takım Rolleri Çalışması: X ve Y Kuşağı Üzerinde Karşılaştırmalı Bir Araştırma, İstanbul Üniversitesi Sosyal Bilimler Enstitüsü, 2011, s 64
11. Strauss W, Howe N. The Fourth Turning, Broadway Books, 1997, s 19
12. Yusifzadə A, Səfərova G, Aslan G, Əsədova N. Ailə üçün Dəyər, 85 s

SOSİAL TƏDQİQATLARDA NƏSİL KONSEPSİYASI

Məmmədova Lamiyə

XÜLASƏ

İctimai elmlərdə “nəsil” anlayışı eyni tarixi dövrdə yaşayan, oxşar xüsusiyyətlərə malik fərdlərin formalaşdırdığı qruplar olaraq qəbul edilir. Bu qrupların tədqiq edilməsi nəsil nəzəriyyələrinin formalaşmasına səbəb olmuşdur. Nəsil nəzəriyyələri isə öz növbəsində nəsillərin təsnifatının yaranması üçün zəmin rolunu oynamışdır. Müasir dövrdə nəsillər eyni təsnifata əsaslanaraq adlandırılmışdır. Tədqiqatımızda “Səssiz nəsil”, “Çoxuşaqlı nəsil”, “X nəsli”, “Y nəsli” və “Z nəsli”nin təsnif edilməsinə təkan verən nəsil nəzəriyyələrini araşdıraraq, cəmiyyətimiz kontekstində təhlil etmişik. Bir-birindən fərqli xüsusiyyətlərə sahib olan bu nəsillərin birlikdə yaşaması mədəni zənginliklə yanaşı başda ünsiyyət problemi olmaqla bir sıra münaqişələrin də yaranmasına səbəb olmuşdur. Tədqiqatımızın əsas məqsədi nəsil araşdırmalarını təhlil edərək milli zəmində sosioloji tədqiqatları genişləndirmək, nəsillərin təsnif edilməsinə səbəb olan hadisələri təhlil etməkdir.

КОНЦЕПЦИЯ ПОКОЛЕНИЯ В СОЦИАЛЬНЫХ ИССЛЕДОВАНИЯХ

Мамедова Ламия

АННОТАЦИЯ

В социальных науках термином «поколение» принято считать группы, образованные индивидами, проживающими в один и тот же исторический период, со сходными характеристиками. Изучение этих групп привело к формированию поколенческих теорий. Теории поколений, в свою очередь, сыграли роль в установлении поколений. В наше время поколения были названы на основе той же классификации. В нашем исследовании мы рассмотрели теории поколений, которые привели к классификации «молчаливого поколения», «бэби-бумеров», «поколения X», «поколения Y» и «поколения Z», и проанализировали их в контексте нашего общества. Сосуществование этих поколений, обладающих разными характеристиками, наряду с культурным богатством, привело к ряду конфликтов, прежде всего проблеме общения. Основной целью нашего исследования является расширение социологических исследований в национальном масштабе за счет анализа поколенческих исследований, анализа событий, приведших к классификации поколений.

GENERATIONAL CONCEPT IN SOCIAL RESEARCH

Mammadova Lamiya

SUMMARY

In the social sciences, the term “generation” is considered to be groups formed by individuals living in the same historical period with similar characteristics. The study of these groups led to the formation of generational theories. Generation theories, in turn, played a role in establishing of generations. In modern times, generations have been named based on the same classification. In our study, we examined the generational theories that led to the classification of “Silent generation”, “Baby-boomers”, “Generation X”, “Generation Y” and “Generation Z” and analyzed them in the context of our society. The coexistence of these generations, which have different characteristics, along with cultural richness, has led to a number of conflicts, especially the problem of communication. The main purpose of our research is to expand sociological research on a national basis by analyzing generational research, to analyze the events the led to the classification of generations.

AZTƏMİNATLI AİLƏLƏRLƏ APARILAN SOSİAL İŞ

Məsimov Nicat
ADMİU-nun "Gənclərlə iş ixtisası üzrə magistrantı
nicat.mesimov.1997@mail.ru

Açar sözlər: sosial siyasət, sosial təminat, həyat səviyyəsi, aztəminatlı əhali, pensiya.
Ключевые слова: социальная политика, социальное обеспечение, уровень жизни, малообеспеченное население, пенсия.
Keywords: social policy, social security, living standards, low-income population, pension.

Son altı ilin makroiqtisadi göstəriciləri ölkəmizin nəinki MDB ölkələri, hətta Avropa ölkələri ilə müqayisədə daha dinamik inkişaf etdiyini göstərir. Məqsədli və istiqamətlənmiş iqtisadi və sosial siyasət nəticəsində məhsul istehsalı artmış, xidmət sahəsi genişlənmiş, əhalinin həyat səviyyəsini səciyyələndirən gəlirlər və əməkhaqqı artmışdır. Aşağıdakı makroiqtisadi göstəricilər bizim fikrimizi dəstəkləyir:

Ölkənin inkişafını xarakterizə edən əsas makroiqtisadi göstərici son səkkiz ildə ümumi daxili məhsul istehsalı 8,2 dəfə artaraq 51157,2 milyon manat təşkil etmişdir. Bu dövrdə sənaye istehsalının ümumi həcmi 8,0 dəfə, pərakəndə əmtəə dövriyyəsi 6,2 dəfə, xarici ticarət dövriyyəsi 8,0, dövlət büdcəsinin gəlirləri 14,0, xərcləri 13,5 dəfə artmışdır [1].

Son illər əhalinin aztəminatlı qruplarına göstərilən yardımlar daha da

gücləndirilmişdir. Əhalinin aztəminatlı qruplarının sosial müdafiəsini gücləndirmək məqsədilə 2008-ci ildə ölkə Prezidenti bir sıra Fərman və Sərəncamlar imzalamışdır. Belə ki, bunun bariz nümunəsi Azərbaycan Respublikası Prezidentinin "Uşaqlara qulluğa görə qismən ödənişli sosial məzuniyyətdə olanlara müavinətlərin artırılması haqqında" 2 avqust 2008-ci il və "Sosial müavinətlərin artırılması haqqında" 27 avqust tarixli Sərəncamlarıdır.

Aspirantlara, ali, orta ixtisas, peşə liseylərinin və peşə məktəblərinin tələbələrinə verilən aylıq təqaüd orta hesabla 40 faiz, məcburi köçkünlərə verilən aylıq müavinətin məbləği 50 faiz artırılmışdır. Əhalinin aztəminatlı qrupları arasında mühüm yeri pensiyaçılar tutmaqdadır.

2018-ci ilin əvvəlinə olan statistikaya görə, respublikada 1 milyon 277 min 596 nəfər pensiyaçı olmuşdur. Bildiyiniz kimi, son illər pensiya təminatı sahəsində əsaslı islahatlar aparılmışdır. Bu məqsədlə 2001-ci il iyulun 17-də "Azərbaycan

Respublikasında pensiya islahatı Konsepsiyası" qəbul edilmişdir. Bu konsepsiyada nəzərdə tutulan məqsədlərə uyğun olaraq, ilk növbədə, ölkənin qanunvericilik bazası formalaşdırılmışdır. Belə ki, "Sosial müavinətlər haqqında" və "Əmək pensiyaları haqqında" qanunların (7 fevral 2006-cı il) qəbul edilməsindən sonra ölkəmizdə sosial sığorta və sosial yardım sistemləri ayrılmış və yeni sosial müavinətlərə əsaslanan "toplanan" pensiya sistemi yaradılmışdır.

Aztəminatlı ailələrin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində dövlətin sosial siyasəti pensiyaçılar üçün də nəzərdə tutulmuş, pensiyanın baza hissəsi ildən-ilə artırılmışdır. Belə ki, 2006-cı ildə əmək pensiyalarının baza hissəsi 35 manat müəyyən edilib. 2007-ci il fevralın 1-dən pensiya 50 manat olub, 2011-ci ildə əmək pensiyalarının baza hissəsi 2007-ci illə müqayisədə 70 faiz artaraq 85 manata çatmışdır. Nəticədə pensiyaların orta aylıq məbləği 145,1 manata yüksəlmişdir [2].

2021-ci ildə isə Milli Məclisin iclasında müzakirəyə çıxarılan "Əmək pensiyaları haqqında" qanuna dəyişiklik layihəsində göstərilmişdir ki, cari il minimum pensiya 240 manat olmuşdur. Bu, əvvəlki ildə mövcud olan 200 manatlıq minimum pensiya ilə müqayisədə 20 faizlik artımdır.

2022-ci il üçün yaşayış minimumu da 16 manat artırılaraq, 210 manat məbləğində proqnozlaşdırılır. Sözügedən artımlara uyğun olaraq, ehtiyac meyarının məbləği də 30 manat artırılaraq, 200 manata çatdırılıb. 2021- ci ildə bu məbləğ 170 manat təşkil etmişdir.

Azərbaycan MDB ölkələri üzrə pensiya yaşının yüksək olmasına görə ilk sırada qərarlaşmışdır. Baxmayaraq, ölkə əhalisinin cəmi 7 faizi 65 yaşdan yuxarı insanlardan ibarətdir. Avropa ölkələrində isə bu rəqəm 18-23 və daha çox təşkil etməkdədir [5, s. 38-47].

Göründüyü kimi, ölkənin dinamik inkişaf səviyyələrinin yüksəlməsi ilə pensiyaların baza hissəsi durmadan artır. Hazırda əmək pensiyalarının sığorta hissəsi və fərdi hesabın sığorta hissəsində toplanan pensiya kapitalı ildə bir dəfədən az olmayaraq, müvafiq icra hakimiyyəti orqanları tərəfindən müəyyən edilmiş istehlak qiymətləri indeksinə uyğun olaraq indeksləşdirilir. Müavinətlər əhalinin aztəminatlı qruplarının sosial müdafiəsinin yaxşılaşdırılmasında mühüm rol oynayır.

Dövlətin sosial siyasətinin əsas istiqamətlərindən birində - sosial müavinətlərin verilməsinin həyata keçirilməsi ədalətlilik, ünvanlılıq və bərabərlik prinsipləri əsasında həyata keçirilir. Respublikada sosial müavinət alanlar sırasına 18 yaşından yuxarı əlilliyi olan şəxslər, o cümlədən 18 yaşınadək əlilliyi olan uşaqlar, 62,6 yaşına çatmış qadınlar, 65 yaşına çatmış kişilər, 5 və daha çox uşaq doğub 8 yaşınadək tərbiyə etmiş qadınlar, sağlamlıq imkanları məhdud uşağı olan qadınlar daxildir.

Respublikada müavinətlərin verilməsi Dövlət Sosial Müdafiə Fondu (DSMF) və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi (ƏƏSMN) tərəfindən həyata keçirilir. Yuxarıda qeyd edildiyi kimi, 2006-cı ildə sosial sığorta və sosial yardım sistemləri ayrılmışdır. Ona görə də DSMF tərəfindən bir neçə növ müavinət yalnız iqtisadiyyatda çalışan şəxslərə uşağın doğulması, 3 yaşınadək uşağa qulluq edilməsi və dəfn üçün müavinətlə əlaqədar verilir.

Əhalinin aztəminatlı qruplarına müavinətlərin verilməsi əsasən ƏƏSMN tərəfindən həyata keçirilir. ƏƏSMN-nin məlumatına görə, 2018-ci ilin əvvəlinə ölkədə sosial müavinət alan 407 836 nəfər qeydiyyatda olmuşdur.

Aztəminatlı uşaqların sosial müdafiəsini gücləndirmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2 avqust 2008-ci il tarixdə "Uşaqlara qulluq etmək üçün qismən ödənişli sosial məzuniyyətdə olan şəxslərin aldığı müavinətin artırılması haqqında" növbəti Sərəncamı olmuşdur. Bu Fərman əsasında 2008-ci il sentyabrın 1-dən 3 yaşınadək uşağa qulluq etmək üçün qismən ödənişli sosial məzuniyyətdə olan şəxslərə verilən aylıq müavinət təyin edilmişdir. Bu müavinətin məbləği uşağın 1.5 yaşınadək 28, 1,5 yaşından 3 yaşınadək 44 manat müəyyən edilib.

Aztəminatlı əhalinin sosial müdafiəsini gücləndirmək məqsədilə 2008-ci il avqustun 27-də Azərbaycan Respublikasının Prezidenti "Sosial müavinətlərin artırılması haqqında" növbəti Fərman imzalamışdır. Bu Fərmana uyğun olaraq, bəzi kateqoriyalar üzrə sosial müavinətlər artırılmışdır. Daha çox ehtiyacı olanlara sosial müavinətlərin verilməsini təmin etmək məqsədilə 2006-cı il iyunun 1-dən respublikada sosial yardım mexanizmi tətbiq edilmişdir. Ünvanlı dövlət sosial yardımı dövlət tərəfindən aztəminatlı ailələrə verilən pul yardımıdır. 2008-ci il üçün ehtiyac səviyyəsi 55 manat, 2012-ci il yanvarın 1-dən 84 manat müəyyən edilmişdir.

Təsadüfi deyil ki, ev təsərrüfatlarının sorğusu ilə aparılan sorğunun nəticələri ünvanlı sosial yardım alanların 83,2 faizini ərzaq məhsullarına xərclədiyini göstərir. Sorğuda iştirak edən respondentlərin əksəriyyəti (71,3%) onlara göstərilən sosial yardımın ehtiyaclarını qismən ödədiyini, respondentlərin 13,2 faizi ölkədə qiymət artımının buna imkan vermədiyini, 11 faizi isə bunun yardım onların maddi vəziyyətinin yaxşılaşdırılmasında heç bir rol oynamır [4, s. 43].

Ünvanlı sosial yardım mexanizminin təkmilləşdirilməsi istiqamətində islahatlar davam etdirilir. Sosial yardım almaq üçün Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə müraciət etmiş ailələr barədə toplanmış məlumat bazasından istifadə etməklə, Nazirlik tərəfindən

aztəminatlı ailələrin yoxsulluğunun qismən aradan qaldırılması məqsədilə "Aztəminatlı ailələrin sosial reabilitasiyası Proqramı" hazırlanmışdır. Bu proqram ünvanlı dövlət sosial yardımı, məşğulluğun təmin edilməsi, peşə hazırlığı və iş yerlərinin yaradılması, ailə təsərrüfatının dəstəklənməsi, məktəbdən işə, kiçik sahibkarlığın dəstəklənməsi, sosial xidmətlərin göstərilməsi və məşğulluğun təmin edilməsi, tibbi-sosial reabilitasiya və məşğulluğun təmin edilməsi kimi 13 layihəni əhatə edir. Layiqli əmək, natura yardımı, şəhid ailələrinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması və nəqliyyat vasitələri ilə təminatı, ailə üzvlərinin sosial-demoqrafik qruplar tərəfindən dövlət təminatı, psixoloji və sosial yardımlar da proqrama daxildir. Bu proqramın əsas məqsədi ailələr haqqında toplanmış məlumat bankından istifadə etməklə, aktiv layihələr həyata keçirməklə, aztəminatlı ailələrin çətin vəziyyətdən nisbi çıxışı üçün müvafiq tədbirlərin müəyyən edilməsi mexanizmini hazırlamaqdır.

Göründüyü kimi, dövlət tərəfindən aztəminatlı ailələrə sosial yardımların göstərilməsi istiqamətində ciddi addımlar atılır. Lakin ehtiyacı olanlara sosial yardımın göstərilməsi təkcə dövlət tərəfindən deyil, bələdiyyələr, qeyri-dövlət xeyriyyə təşkilatları və s. tərəfindən həyata keçirilə bilər. Məlumat üçün qeyd edək ki, İsveç və İtaliyada ehtiyacı olanlara yardım göstərilir. 100% bələdiyyələr, Belçikada 50% dövlət və 50% xeyriyyə təşkilatları, Danimarkada 50% dövlət və 50% bələdiyyələr tərəfindən təmin edilir [2]. Fikrimizcə, aztəminatlı ailələrə yardımların göstərilməsi üçün qeyri-dövlət strukturlarını cəlb etmək lazımdır.

Sosial yardım sistemini təkmilləşdirməklə aztəminatlı ailələrin həyat səviyyəsinin yaxşılaşmasına, onların yoxsulluqdan çıxarılmasına müsbət təsir göstərə bilər. Belə ki, əhalinin aztəminatlı qruplarının sosial müdafiəsi sahəsində mövcud problemlər islahatların davam etdirilməsini zəruri edir.

Mövcud problemlərin aradan qaldırılması prosesində dövlətin sosial siyasətində aşağıdakı vəzifələr öz həllini tapmalıdır:

- sosial müdafiəyə büdcə xərclərinin sosial və iqtisadi səmərəliliyi imkanları müəyyən edilməlidir;
- bu istiqamətdə elmi tədqiqatlara geniş yer verilməlidir;
- məşğulluğun dövlət tənzimlənməsinə diqqəti artırmaq və yeni üsul və üsullardan istifadə edilməlidir;
- insan kapitalının və insan potensialının inkişafına xərclər artmalı, bu xərclərin sosial və iqtisadi səmərəliliyi yüksəldilməlidir;
- sosial təminat sahəsində qanunvericilik bazasının təkmilləşdirilməlidir; • əhalinin aztəminatlı qruplarına yardımın göstərilməsi üçün əsas göstərici yaşayış minimumu olmalıdır;
- ünvanlı sosial yardım hər bir ailə üzvü üçün aylıq gəlirlə yaşayış minimumu arasındakı fərq əsasında hesablanmalıdır;
- ünvanlı sosial yardımın mühüm elementi kimi əhalinin ehtiyacı olan qruplarının müəyyən edilməsi və onun həyata keçirilməsinə nəzarət mexanizminin təkmilləşdirilməlidir;
- sosial yardımın həyata keçirilməsində maliyyə resurslarından səmərəli istifadə edilməlidir;
- qeyri-dövlət strukturlarının əhaliyə sosial yardım göstərilməsi prosesinə cəlb edilməlidir;
- ehtiyac meyarının yaşayış minimumuna çatdırılmasının sürətləndirilməlidir.

Yuxarıda qeyd olunanların həyata keçirilməsi əhalinin, xüsusən də aztəminatlı ailələrin sosial müdafiəsinin gücləndirilməsinə müsbət təsir göstərə biləcəkdir.

ƏDƏBİYYAT

1. Azərbaycanın Statistik göstəriciləri, 2021.
2. Aging Population, Pension Funds and Financial Markets, Robert Holzmann, The World Bank, 2006;
3. DSMF Sosial sığorta/Məcburi dövlət sosial sığortası haqqında qanun
2006
4. Əlirzayev Ə.Q. "Sosial sferanin iqtisadiyyatı və idarəedilməsi" Bakı 2010.
5. Əşrəfova R. S. Azərbaycanda pensiya təminatı sisteminin formalaşması və təkmilləşdirilməsi Bakı 2007.
6. Growth, poverty, and inequality, Eastern Europe and the Former Soviet Union, The World Bank, 2005.
7. www.sspf.gov.az
8. http://www.azstat.gov.az/

AZTƏMİNATLI AİLƏLƏRLƏ APARILAN SOSİAL İŞ

Məsimov Nicat

XÜLASƏ

Son illər respublikamızın iqtisadi-sosial həyatında sürətlə inkişaf müşahidə olunur. Məqalədə son illərdə respublikada həyata keçirilən sosial siyasətin mövcud vəziyyəti təhlil edilmişdir. Eləcə də ölkəmizdə həyata keçirilən sosial siyasətin əhalinin, o cümlədən yoxsul təbəqənin və aztəminatlı ailələrin həyat səviyyəsinə təsirini qiymətləndirir. Məqalədə əhalinin həyat səviyyəsinin yüksəldilməsi yolları araşdırılır və yekun nəticədə təqdim edilir.

СОЦИАЛЬНАЯ РАБОТА С МАЛОСЕМЕЙНЫМИ СЕМЬЯМИ

Масимов Ниджат

АННОТАЦИЯ

В последние годы в экономической и социальной жизни нашей республики наблюдается бурное развитие. В статье анализируется современное состояние социальной политики, реализуемой в стране за последние годы. Также оценивается влияние реализуемой в нашей стране социальной политики на уровень жизни населения, в том числе малообеспеченных и малообеспеченных семей. В статье исследуются пути повышения уровня жизни населения и представлен конечный результат.

SOCIAL WORK WITH LOW-FAMILY FAMILIES

Masimov Nijat

SUMMARY

In recent years, rapid development has been observed in the economic and social life of our republic. The article analyses the current state of social policy implemented in the country in recent years. It also assesses the impact of social policy implemented in our country on the living standards of the population, including the poor and low-income families. The article explores ways to improve the living standards of the population and presents the result.

AİLƏ CƏMİYYƏTİN ƏSASIDIR

Əsgərzadə Mədinə
BDU-nun II kurs magistrantı
m.asqarzade@yandex.com

Açar sözlər: ailə, cəmiyyət, sosial institut, norma və dəyərlər
Ключевое слова: семья, общество, социальный институт,нормы и ценности
Keywords: family, society, social institute, norms and values.

Təcrübə göstərir ki, cəmiyyət sosial əlaqə və qarşılıqlı münasibətlər olmadan mövcud ola bilməz. Qarşılıqlı əlaqə və münasibətləri tənzimləyən, cəmiyyətdə mövcud olan fərd və qurumların vəhdət şəklində fəaliyyət göstərməsinə xidmət edən sosial institutların ən əhəmiyyətlisi ailədir. Sosiologiyada ailənin öyrənilməsi XIX əsrin ortalarından statistik-tədqiqatçılar Rivz və F.Le.Ple tərəfindən empirik tədqiqatların aparılması nəticəsində başlamışdır. Ailə fenomeni o dövrdən başlayaraq tədqiq edilmiş,hazırki dövrdə də aktuallığını saxlayan bir mövzuya çevrilmişdir. T.Parsons ailəni cəmiyyətin altsistemi kimi tədqiq edərək bildirmişdir ki, ailə cəmiyyətin digər altsistemləri və struktur ünsürləri ilə qarşılıqlı əlaqə nəticəsində sosiumun stabilliyini təmin edir.

Ailə adət-ənənələrin, keçmiş nəsillərin təcrübəsinin qoruyucusu və ötürücüsüdür. Ailə dedikdə, nikah, qan qohumluğu, ümumi maraq və büdcə ilə bağlı qarşılıqlı mənəvi məsuliyyət və öhdəliyin mövcud olduğu kiçik sosial qrup nəzərdə tutulur. Ailə sosial institut kimi fərdlərin inkişafı və bir şəxsiyyət kimi formalaşmasında vacib rol oynayan müasir cəmiyyətin özəyidir (6). Dövlət Statistika Komitəsinin verdiyi məlumata görə, 2021-ci il ərzində Azərbaycanda 41067 nikah rəsmiləşmiş, əhalinin hər 1000 nəfərinə 5,5 nikah düşmüşdür. Azərbaycanın müstəqilliyinin bərpa olunduğu 1991-ci ildə rəsmi nikahların sayı 74378 göstərilib. Son 20 ildə 1.790.301 nikah bağlanmışdır. Sosiloqlar müəyyənləşdirmişdir ki,kişi və qadınların 70%-dən çoxu sevərək ailə həyatı qurur. Evlilikdən 5-6 il keçəndən sonra, onların yalnız 46%-i həyat yoldaşlarını sevməkdə davam edir. Ümumilikdə, 5-6 il keçən evliliklərdə cütlükləri artıq sevgi hissi birləşdirmir ki, bu da boşanmaların sayının artmasına gətirib çıxarır. Belə ki, evlənəndən 5-9 il keçəndən sonra boşanan ər-arvadın sayı ümumi boşanan cütlüklərin içində xüsusi yer tutur.Statistikaya görə, ölkəmizdə ailə quranların orta yaş dövrü qadınlarda 23-24, kişilərdə 26-28-dir. Bununla belə, erkən nikaha girmək halları da qeyd olunur. Tədqiqatlara əsasən, nikah bağlayanların sayı artdıqca boşananların sayı da artmışdır (4).

Ailə insanlığı öyrədən bir "akademiya" olmaqla, cəmiyyətin əsas aparıcı qüvvəsi olan vətəndaşlar yetişdirir, milli – mənəvi dəyərlər sistemini formalaşdırır, sosial münasibətlərin tənzimləyicisi rolunda çıxış edir.

Mənəvi-emosional hisslərlə birləşən insanların ümumi maraqlarını ifadə edən ailə institutu sağlam cəmiyyətin və güclü dövlətin təməlini təşkil edir. Ailənin mahiyyətini,ailədə ər-arvadın,valideynlərin,uşaqların hüquq və vəzifələrini müəyyənləşdirən ailə hüququ beynəlxalq normalarla tənzimlənir. 1948-ci il BMT tərəfindən qəbul olunmuş "İnsan hüquqları bəyannaməsi"nin 16-cı maddəsinin 3-cü paraqrafında deyilir: "Ailə cəmiyyətin təbii və köklü bir ünsürüdür. Bu səbəblə də cəmiyyətin dövlət tərəfindən qorunma hüququ vardır". 7 iyul 1961-ci il tarixli Avropa Sosial Xartiyasının 16-cı maddəsində də ailənin cəmiyyətin nüvəsi olduğu qeyd olunmuşdur (3,9).

Azərbaycan Respublikası Konstitusiyasında da ailə və nikah məsələləri öz əksini tapmışdır. Belə ki, Konstitusiyanın 34-cü maddəsi "Nikah hüququ" adlanır, burada göstərilir ki, ailə və

nikah dövlətin himayəsindədir və hər kəsin qanunla nəzərdə tutulmuş yaş həddinə çatdıqda ailə qurmaq hüququ vardır. Nikah könüllü razılıq əsasında bağlanılır. Heç kəs zorla nikaha daxil edilə bilməz. Bununla yanaşı analıq, atalıq, uşaqlıq qanunla mühafizə edilir və dövlət çoxuşaqlı ailələrə yardım göstərir.

Maddədə dövlətin qanunla birbaşa ailəyə verdiyi sosial təminatlarla yanaşı, ailə-nikah münasibətləri valideyn-övlad, ər-arvad münasibətlərinə də toxunulmuş və onların hüquq və vəzifələri təsbit edilmişdir. Qanunda göstərilir ki, ərlə arvadın hüquqları bərabərdir. Uşaqlara qayğı göstərmək, onları tərbiyə etmək valideynlərin həm hüququdur, həm də borcudur. Eyni zamanda valideynlərin qayğısına qalmağın və onlara hörmət etməyin uşaqların borcu olduğu və on səkkiz yaşına çatmış əmək qabiliyyətli uşaqların əmək qabiliyyəti olmayan valideynlərini saxlamağa borclu olduğu öz əksini tapmışdır (1)

Konstitusiyada əks olunan hüquq münasibətləri baza alaraq yaradılan Ailə Məcəlləsi ailə-hüquq münasibətlərinin daha ətraflı tədqiq olunması və tənzimlənməsini həyata keçirir. Burada, Azərbaycan Respublikasında ailə dövlətin himayəsindədir. Ailə qanunvericiliyi ailələrin möhkəmləndirilməsi zəruriyyətindən, ailə münasibətlərinin qarşılıqlıməhəbbət və hörmət hissləri əsasında qurulmasından, ailənin işinə hər kəsin qarışmasının yolverilməzliyindən, ailə üzvlərinin ailə qarşısında qarşılıqlı yardım və məsuliyyətindən, onların hüquqlarının maneəsiz həyata keçirilməsinin təmin olunmasından və bu hüquqların məhkəmədə müdafiəsi imkanlarından irəli gəlir. Bu qanunda həmçinin qeyd olunur ki, Azərbaycan Respublikasının nikah və ailə münasibətlərinin hüquqi baxımdan tənzimlənməsi dövlət tərəfindən həyata keçirilir və bu zaman yalnız müvafiq icra hakimiyyəti orqanında bağlanmış nikah tanınır. Bu izahdan da göründüyü kimi, dövlət ailəni ideal olaraq qorumaq və sağlam bir şəkildə yaşatmaq üçün ailə hüququnda hər cür münasibətləri tənzimləməyə çalışır.(2)

Ailə hər bir cəmiyyətdə ictimai həyat qanunlarına əsasən yaradılan sosial təsisatlardan biridir. Qapalı kiçik sosial qrup olan ailənin ilk sosial tərbiyə institutu,cəmiyyətin ilkin özəyi kimi tədqiq edilməsi, gənclərin ailə həyatına sosial-psixoloji hazırlığı səviyyəsinin yüksəldilməsi müasir qloballaşan dünyada aktual məsələ kimi diqqəti cəlb edir (7). Ailə xalqımızın ali mənəvi dəyərlərinin qoruyucusu, genofondumuzun daşıyıcısıdır (6). Bizim cəmiyyətimizdə ailə institutu sosial təyinatını və milli-mənəvi missiyasını tam və dolğun şəkildə qoruyub saxlamaqdadır. Ailə, qadın, uşaq və gənclər siyasəti dövlətin sosial və

humanitar siyasətinin vacib istiqamətlərindəndir. Bu siyasətin məğzi dövlət və cəmiyyət həyatında ailənin, qadının, uşağın və gəncin rolu ilə bilavasitə bağlıdır (8). Sosial sahədə həyata keçirilən siyasətin əsas obyekti olan ailə institunun vacibliyini nəzərə alan ümumilli lider Heydər Əliyev ölkəmizdə ailə siyasətinin formalaşdırılması məsələlərinə böyük diqqət yetirmiş, həmin sahədə mövcud olan problemlərin həlli istiqamətində ardıcıl və məqsədyönlü addımlar atmışdır.Fəaliyyəti dövründə ümummilli liderimiz ailə siyasəti ilə bağlı məsələlərin normativ-hüquqi tənzimlənməsi və icra edilməsini prioritet vəzifələrdən biri kimi qarşıya qoymuşdur.

Ölkəmizdə həyata keçirilən ailə siyasəti milli-mənəvi dəyərlərdən qaynaqlanaraq bilavasitə onun təcəssümüdür. Bu da ölkəmizdə ailə institutuna verilən qiymətin bariz nümunəsidir. Heydər Əliyev məktəbinin layiqli davamçısı olan cənab İlham Əliyev demişdir: "Biz ümumbəşəri dəyərləri bölüşürük, ancaq bizim üçün əsas dəyərlər Azərbaycanın milli dəyərləridir. Bu baxımdan, əgər tarixə də nəzər salsaq görərik ki, xalqımızın yaşaması üçün, öz mənliyini, qürurunu qoruması üçün ailə dəyərləri, milli dəyərlər əvəzolunmaz rol oynamışdır. Ölkəmizin inkişafı, müstəqilliyimizin daha da möhkəmləndirilməsi üçün və milli dəyərlərin tam şəkildə bərqərar edilməsi üçün ailə dəyərləri daim yüksəklərdə olmalıdır"

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı,2012
2. Azərbaycan Respublikasının Ailə Məcəlləsi. Bakı,2012
3. Avropa sosial Xartiyası 7 iyul 1961, 16 m.
4. Dövlət Statistika Komitəsi
5. Əliyev B.H. Mədəniyyətlərarası münasibətlərə milli identikliyin təsirinin sosial-psixoloji xüsusiyyətləri. Psixologiya jurnalı, 2018 № 2, s.11.
6. Hüseynova H. "Ailə milli-mənəvi dəyərlərin daşıyıcısıdır" Azərbaycan,2009.15 may S.5
7. N.Çələbiyev "Təhsil" jurnalı "Ailə mənəviyyatımızın beşiyi və güvənc qaynağımızdır"
8. Rəcəbli H. "Azərbaycan Respublikasının sosial müdafiə sistemi" Bakı, 2012, 406 s
9. 1948-ci il İnsan hüquqları Bəyannaməsi. 16 m.

AİLƏ CƏMİYYƏTİN ƏSASIDIR

Əsgərzadə Mədinə

XÜLASƏ

Bu məqalə ailə institutu, ailə dəyərləri, ailənin cəmiyyətdəki yeri haqqındadır.Burada ailə cəmiyyətin ilkin özəyi kimi tədqiq edilmiş, ailənin sosial birlik, kiçik sosial qrup və sosial institut kimi xarakterizə edilmiş, ailə institu ilə bağlı həyata keçirilən siyasət mövzusuna toxunulmuşdur. Məqalədə ailə bağlı qanunvericilik bazasına yer verilmişdir. Həmçinin müstəqillik illərində ölkəmizdə qeydə alınan nikahların ümumi sayı, həmçinin nikaha girənlərin orta yaş dövrünün statistikası verilmişdir.

СЕМЬЯ – ОСНОВА ОБЩЕСТВА

Аскерзаде Медина

АННОТАЦИЯ

В данной статье речь идет об институте семьи, семейных ценностях, месте семьи в обществе. Здесь семья изучается как первичное ядро общества, семья характеризуется как социальная ячейка, малая социальная группа и социальный институт. коснулись политики, проводимой в связи с институтом семьи. Статья посвящена семейному законодательству. Также приводится общее количество браков, зарегистрированных в нашей стране за годы независимости, а также статистические данные о среднем возрасте вступающих в брак.

THE FAMILY IS THE BASIS OF SOCIETY

Askerzade Madina

SUMMARY

This article is about the family institution, family values, the place of the family in society. Here the family is studied as the primary core of society, the family is characterized as a social unit, a small social group and a social institution touched upon the policy pursued in connection with the family institution. The article covers the family legislation. Also, the total number of marriages registered in our country during the years of independence, as well as statistics on the average age of those who get married are given.

AİLƏDAXİLİ ZORAKILIĞA MƏRUZ QALMIŞ QADINLARIN ZORAKI ŞƏXSLƏ MÜNASİBƏTƏ DAVAM ETMƏ SƏBƏBLƏRİ

Qarayeva Pərvin Elçin qızı,
ADMİU-nun, "Gənclərlə İş" ixtisası, II kurs magistrantı
qarayevapervin@gmail.com

Açar sözlər: zorakılıq, qadın, kişi, cəmiyyət, qanunvericilik, problem
Ключевые слова: насилие, женщина, мужчина, общество, законодательство, проблема.
Key words: violence, woman, man, society, legislation, problem

Qadınlara qarşı zorakılıq bütün dünyada mövcud olan və fərqli irqlərdən, etnik mənşələrdən, coğrafi bölgələrdən, dinlərdən və sosial-iqtisadi səviyyələrdən asılı olmayaraq qadınlara qarşı yönələn mühüm sağlamlıq problemidir. Qadınlara qarşı zorakılıq bir sağlamlıq problemi olaraq yaralanmalar, psixoloji pozulmalar, travmalar və ölümlər kimi ciddi nəticələrə gətirib çıxarır. Bundan əlavə, bu problem həm də sosial problemdir və ailə üzvlərinə, xüsusən də uşaqlara təsir etmək baxımından əhəmiyyətlidir.

Qadınlara qarşı zorakılıq xüsusilə son illərdə artmış və dövlətlərin həll edilməli olan ən mühüm problemlərdən birinə çevrilmişdir. Problemin həlli üçün beynəlxalq səviyyədə araşdırmalar aparılmış, konvensiyalar, tövsiyələr, bəyannamələr qəbul edilmiş, konfranslar keçirilmiş, zorakılığın qarşısının alınması üçün layihələr təklif olunmuş və bu layihələrin maliyyələşdirilməsi qərara alınmışdır. Beynəlxalq hadisələrlə yanaşı, bir çox ölkələrdə qadınlara qarşı zorakılığın yayılması, səbəbləri və nəticələrini müəyyən etmək üçün araşdırmalar aparılmışdır. Lakin bunlardan heç biri zorakılığı kökündən tamamilə kəsməyə nail olmamışdır.

Ümumiyyətlə qadınlara qarşı zorakılıq problemi fərdi problem deyil, ilk növbədə sosial problem hesab olunur. Bunun səbəbi odur ki, fərdi problemlər fərdin yaxın ətrafı və digər insanlarla münasibətləri ilə bağlı yaşadığı çətinliklər kimi ifadə edilir, fərdin özünü və onun yaxın ətrafını narahat edir. Fərdi problemlərin həlli çox vaxt mümkündür. Lakin sosial problem cəmiyyətdə baş verən bir hadisəyə görə əhalinin əksəriyyətinə mənfi təsir göstərir. Həll mümkündür, lakin uzun illər tələb oluna bilir. Bu izahlarla qadına qarşı zorakılığın bir sosial problem olaraq tərif edilməsinə uyğun gəldiyini görmək mümkündür. Zorakılığın qarşısını almaq üçün uzun illər davam edən mübarizələrə baxmayaraq, yenə də öz təsirini intensiv şəkildə göstərir.

Göründüyü kimi qadınların tarixi, bərabərsizliklər üzərində qurulmuş bir tarixdir. Patriarxal quruluşu qorumaq üçün qadınlara bir çox gender rolları aid edilmişdir [1, s. 146]. Bu rolların çoxu ictimai sahəyə deyil, şəxsi sahəyə aiddir. Yemək bişirmək, uşaqlara baxmaq, ev işlərinə baxmaq, ərinə hər cür qayğı göstərmək kimi rollar qadınların evə qapanmasına səbəb olur. Bu anlayışa görə qadınlar çox uzun müddət akademik həyat, sosial sahə və iş həyatı kimi bir çox sahədən sıxışdırılmışdırlar. Şəxsi sahəyə itələnən qadınlar, ən etibarlı olduqları evlərində, ən çox güvəndikləri insanlar, yəni ataları, qardaşları və xüsusilə də həyatlarını paylaşdıqları həyat yoldaşları tərəfindən müxtəlif zorakılığa məruz qalırlar. Bu zorakılıq növlərində fiziki zorakılıq ağıla gəlsə də, emosional və iqtisadi zorakılığın tez-tez yaşandığı araşdırmalar nəticəsində ortaya çıxır. Kişilərin üstünlük təşkil etdiyi ailə quruluşunda iqtisadi dolanışığı və ya ev təsərrüfatını idarə edən şəxs güclü, daha zəif və güclüdən asılı olan şəxs isə zəif hesab edilir və məlumdur ki, şiddət güclüdən zəifə doğru baş verir. Bu nöqtədə patriarxal anlayışa görə qadınlar yəni asılı olan şəxs zəif varlıq kimi qəbul edilir və qadınlara qarşı zorakılığın "normal" və ya "təbii" hesab edildiyi vəziyyətlər yarana bilir [2, s. 79].

Zorakılıq ümumiyyətlə başqa bir şəxsə, özünə, qrupa və ya cəmiyyətə qarşı təhdidlər yolu ilə öz gücünün tətbiq edilməsi, xəsarət və ya itki ilə nəticələnmə ehtimalı yüksək olan vasitə kimi müəyyən edilir. Qadınlara qarşı zorakılıq isə yalnız cinsiyyətə əsaslanaraq, qadını incitmə və ya zərər vermə məqsədi daşıyan, fiziki, cinsi və ya psixoloji zərərlə nəticələnmə ehtimalı yüksək olan, qadının şəxsi həyatında və ya cəmiyyətdə qadına qarşı təzyiq yaradan, azadlıqlığını məhdudlaşdıran hər cür davranış kimi müəyyən edilir [2, s. 1]. Qadınlara qarşı zorakılıq əsas hüquq və azadlıqların pozulmasıdır. Qadın və kişi arasında qeyri-bərabər güc münasibətləri nəticəsində yaranan mühüm problemdir. Sosial dəyərlər sistemində ailə bütövlüyünün təhlükəsizliyinə və üstünlüyünə inam baxımından bu problemi obyektiv araşdırmaq çətindir. Qadınlara qarşı məişət zorakılığı özəl sferada baş verdiyi üçün çox vaxt gizli saxlanılır, beləliklə onun ölçüsünü müəyyən etmək, ümumiyyətlə zorakılığın baş verdiyini müəyyənləşdirmək olduqca çətinləşir. Burada zorakılığın məqsədi qadınların davranışlarına qorxudan istifadə edərək nəzarət etməkdir. Əslində bütün zorakılıq hallarında kişi və qadın arasında kişilərin xeyrinə güc balanssızlığı var. Qadının ailə mühitində qeyri-bərabərliyə əsaslanan mövqeyi, evdəki əməyinin əhəmiyyətsizliyi patriarxal cəmiyyətdə müəyyən edilən güc və hakimiyyət münasibətləri çərçivəsində özündən güclü olan əri tərəfindən zorakılığa məruz qalmasına səbəb olur. Qadınlara qarşı zorakılıq qısaca qadınlara fiziki, cinsi və ya psixoloji zərər və ya iztirab ilə nəticələnən və ya nəticələnmə ehtimalı olan davranışlardır. Qadınlara qarşı zorakılıq qadınların həyat, sağlamlıq və qidalanma, təhsil, inkişaf, sosial və iqtisadi həyatda iştirakı kimi əsas insan hüquq və azadlıqlarını pozan mühüm sosial problemdir. Qadına təzyiq etmək və qadınlar üzərində hökmranlıq qurmaq məqsədi daşıyan gender əsaslı zorakılıq kişilərin dominant olduğu ictimai quruluşun təsiri ilə formalaşır və həmin cəmiyyətlər tərəfindən dəstəklənməkdədir [3, s. 37].

Beləliklə qadınlar təhsil səviyyəsinin aşağı olması, iş təcrübəsinin olmaması, müntəzəm gəlirinin olmaması, uşaqlarına baxmaqda və işləməkdə çətinlik çəkməsi, iqtisadi azadlığın olmaması qadınları zorakılığı törədən kişilərdən asılı edən səbəblərdəndir. Qadının iqtisadi azadlığı və ya yaxşı gəlir əldə etməsi zorakılığı tam aradan qaldırmasa da, qoruyucu amil kimi göstərilə bilər.

Zorakı şəxslə yaşadığı dövr ərzində özünü yaxın çevrəsindən təcrid edən qadın, əlaqəni sonlandırmaq üçün dəstək verilməməsi və əlaqəni davam etdirmək üçün cəmiyyətin etdiyi təzyiqlər səbəbiylə əlaqəni davam etdirməkdə israr edə bilər. Digər səbəblər arasında uşaq sahibi olmaq, uşaqları ata dəstəyindən məhrum etməmək istəyi, tək qalmaq qorxusu, özünə hörmətin aşağı olması, qadının daxili münaqişələri, həyat yoldaşının onları sevdiyi üçün zorakılığa məruz qoyması və ya həyat yoldaşının dəyişəcəyinə inanması, cəmiyyətdə boşanmış damğasına məruz qalmamaq və s. kimi səbəbləri də aid etmək olar. Beləliklə zorakılığa məruz qalmış qadınlarda müəyyən davranışlarla əlaqədar nəzəriyyələr elmə daxil edilmişdir:

- Öyrənilmiş çarəsizlik nəzəriyyəsinə görə, reaksiyası nəticəsində heç bir dəyişiklik yarada bilməyən orqanizm nəticəni dəyişdirə bilməyəcəyinə inanır. Zorakılığa məruz qalan qadında bütün cəhdlərinə baxmayaraq sonda bir dəyişiklik yarada bilməyəcəyi inancı formalaşır və vəziyyəti qəbul etməyə başlayır və zorakılıqla mübarizə aparmaq istəyi yox olur. Göstərilən bütün reaksiyaların nəticədə heç bir fərq yaratmadığını görən qadın baş verənləri öz günahı, qeyri-kafiliyi və zəifliyi ilə əlaqələndirir. Dəyişmək gücü olmayan qadın bunu qəbul edərək həyatına daha asan davam edə biləcəyinə inanır.
- Psixoloji obsessiya nəzəriyyəsinə görə, evinə və uşaqlarına sərmayə qoyan, onlar üçün əziyyət çəkən qadın zorakılığa məruz qalsa belə, bütün əziyyətlərinin puç sayılmasının qarşısını almaq üçün geri qayıtmaqdan, zorakı şəxsdən uzaqlaşmaqdan imtina edir.

- Planlaşdırılmış fəaliyyət nəzəriyyəsinə görə, şüurlu davranış reaksiyaları əvvəlcədən düşünülmüş zehni hərəkətlərlə baş verir. Qadının nümayiş etdirmək istədiyi davranışa aid etdiyi məna və sosial mühitin bu davranışa aid edə biləcəyi məna, davranışı real şəkildə nümayiş etdirmək qərarına təsir edir. Münasibətinə son qoymağa qərar verən qadın, ayrılığı öz nəzarətində görə bilər və yaxın ətrafının ona dəstək olacağını bilsə, bu davranışını daha tez ortaya çıxarma ehtimalı artar [4, s. 18-20].

Zorakılığın zorakılığa məruz qalmış qadın cəhətdən nəticələri adətən aşağıdakı kimi sadalanır:

- Öyrənilmiş çarəsizlik, zorakılığın yenidən təkrarlanmaları;
- Güclü qorxu, narahatlıq, ətrafdakı insanlara qarşı etibar etməkdə çətinlik, ümidsizlik, utanc;
- Ağır zədələnmələr, fiziki qüsur;
- Ölüm, özünümüdafiə cinayəti, intihar cəhdi vəya düşüncəsi;
- Boşanma, alkoqol və ya zərərli vərdiş asılılığı, yemək və/və ya yuxu problemləri;
- Travma sonrası stress pozuqluğu, depressiya, psixoloji əsaslı fiziki şikayətlər;
- Uşaqlar da daxil olmaqla cəmiyyət üçün mənfi təsirlər [5].

Yaşadıqları zorakılığın bütün formalarına baxmayaraq, bir çox qadın sosial status, cəmiyyət və ailə tərəfindən gələn təzyiqlər, xüsusilə də iqtisadi narahatlıqlar, özünə inamsızlıq və cinsiyyət rollarının təsiri altında evliliklərini və münasibətlərini davam etdirir və bir gün zorakılığın azalacağına, içində olduqları vəziyyətin yaxşılaşacağına ümid edərək zorakılıq qarşısında səssiz qalmağı üstün tuturlar.

Dövlət zorakılığa məruz qalmış qadınların həyat təhlükəsizliyini təmin etmək və qorumaq üçün ən təcili tədbirlər görməlidir. Bu müddətdə xüsusilə dövlət qurumlarına, yerli rəhbərliklərə, hadisənin məhkəməyə əks olunmasının ardından qanun təminatçılarının üzərinə ciddi məsuliyyət düşür. Qorunmayan hüquqlar və çəkindirici olmayan cəzalar səbəbindən fərdlər bu məsələdən asanlıqla və özbaşına sui-istifadə edə biləcəkləri unudulmamalıdır. Bundan başqa, rəsmi orqanlar tərəfindən həyata keçiriləcək maarifləndirici təlim fəaliyyətləri, mediada yazılı və vizual nəşrlər sayəsində, həm kişilərin, həm də cəmiyyətin bu məsələyə daha həssas yanaşmasına töhfə verəcəkdir. Gələcəyimizin qarantiyası olan uşaqlarımız da məktəblərdə alacaqları təhsil və onlara veriləcək doğru məlumatla qadına qarşı zorakılığa qarşı həssas ola bilərlər. Bundan əlavə, qadın sığınacaqlarının sayının artırılması və onların daha faydalı istifadəsinin dəstəklənməsi, qadın məsləhət mərkəzlərinin sayının artırılması, psixososial dəstək tədbirlərinin daha da çoxaldılması və s. tətbiqlər bu mövzuda maarifləndirməni artıracaq addımlardan olacaqdır.

Qadınları iş həyatına cəlb etmək həm dövlətin, həm də işəgötürənlərin vəzifələrindən olmalıdır. Araşdırmalar göstərir ki, qadınlar aktiv işlədikləri zaman daha az zorakılığa məruz qalırlar. Bundan əlavə, ailə büdcəsinə iqtisadi cəhətdən töhfə verən qadınların çalışması kişinin işsiz olduğu dövrlərdə faydalı olacaq, qadını daha məhsuldar edəcək, psixologiyasına müsbət təsir göstərəcəkdir [6].

Ölkəmizdə gender bərabərliyinin təmin edilməsi, zorakılığa məruz qalmış qadınların problemlərini həll etmək üçün bir çox qanun layihələri hazırlanmış, qəbul edilmiş, müvafiq struktur orqanlar yaradılmışdır. “Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında” Azərbaycan Respublikasının qanununa görə Gender bərabərliyinin təmin edilməsi ilə bağlı dövlət siyasətinin əsas istiqamətləri aşağıdakılar olaraq qeyd edilmişdir:

- gender bərabərliyinin təmin edilməsi üçün normativ hüquqi bazanın formalaşdırılması, təkmilləşdirilməsi və inkişafı;
- normativ hüquqi aktların gender ekspertizasından keçirilməsi;
- gender bərabərliyinin təmin edilməsi üçün dövlət proqramlarının hazırlanması və həyata keçirilməsi;
- gender bərabərliyi mədəniyyətinin təbliği [7].

Həmçinin ölkəmiz tərəfindən qəbul edilmiş "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikasının qanununa görə zorakılığa məruz qalan qadınların hüquqlarının müdafiəsi, və zorakılığın qarşısının alınması üçün aşağıdakı hüquqi və sosial tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur:

- məişət zorakılığı ilə bağlı cinayət təqibinin həyata keçirilməsi və zorakılığı törətmiş şəxslərin məsuliyyətə cəlb edilməsi;
- zərər çəkmiş şəxslərin hüquqlarının, azadlıqlarının və qanuni mənafelərinin müdafiəsi, araşdırmanın aparıldığı müddət ərzində müraciət etmiş şəxsin təhlükəsizliyinin təmin edilməsi;
- zərər çəkmiş şəxslərin dövlət vəsaiti hesabına hüquqi yardımla təmin edilməsi;
- məişət zorakılığı ilə bağlı verilmiş xəbərdarlığın icrasına nəzarətin həyata keçirilməsi;
- qanunvericiliklə müəyyən edilmiş qaydada məişət zorakılığı ilə bağlı məlumatların konfidensiallığının təmin edilməsi;
- zərər çəkmiş şəxslərin sosial müdafiəsinin təşkili, onlara müvafiq sənədlərin və ya qanunvericiliklə müəyyən edilmiş sosial müavinətlərin alınmasında kömək göstərilməsi;
- zərər çəkmiş şəxslərə təhsilin davam etdirilməsində kömək göstərilməsi;
- zərər çəkmiş şəxslərin işlə təmin edilməsində, yeni peşələrə yiyələnməsində kömək göstərilməsi;
- zərər çəkmiş şəxslərə dövlət vəsaiti hesabına tibbi yardımın göstərilməsi;
- zərər çəkmiş şəxslər üçün psixoloji reabilitasiya *və psixoloji korreksiya* kurslarının təşkili;
- zərər çəkmiş şəxslər üçün yardım mərkəzlərinin yaradılması;
- zərər çəkmiş uşaqların sosial qayğı ilə təmin edilməsi üçün tədbirlərin görülməsi;
- zərər çəkmiş şəxslərin sosial müdafiəsi istiqamətində digər tədbirlərin həyata keçirilməsi [8].

Göründüyü kimi ölkəmizdə zorakılığın qarşısının alınması, zorakılığa məruz qalmış qadınlarla sosial iş sahəsində mühüm qanunlar qəbul edilsə də, mühüm işlər görülsə də hələ də bütün dünyada olduğu kimi zorakılıq problem olaraq qalır. Qeyd edilməli olan əsas məqam odur ki, bu məsələnin həlli yollarını işləyib hazırlayacaq və töhfə verəcək orqan, şübhəsiz ki, cəmiyyətdir. Çünki qadına qarşı zorakılıq məsələsini fərdi qaydada dəyərləndirmək böyük səhv olardı. Bu məsələ fərd üzərində qurulmuş kimi görünsə də, minlərlə araşdırmanın nəticələri araşdırıldığında cəmiyyəti, milləti, hətta bütün millətləri narahat edən və onlara mənfi təsir göstərən çox mühüm bir məsələdir. Belə mühüm məsələnin birtərəfli həlli mümkün deyil. Zorakılığa məruz qalan qadınlar cəmiyyətin, digər insanların onları qınayacaqları çəkincəsi səbəbilə zorakılığa səs çıxara bilmir və dəstək görə bilmədikləri səbəbindən zorakılığa məruz qalmağa davam edirlər. Dövlətlərin üzərinə düşən ən əsas vəzifə isə cəmiyyətin zorakılıq barədə maarifləndirilməsi, qadınların erkən yaşdan təhsildən uzaqlaşmasının qarşısının alınması, onların işlə təmin edilməsidir.

ƏDƏBİYYAT

1. Kifayət Ağayeva: Azərbaycanda Gender Məsələləri dərs vəsaiti, Bakı 2014

2. Mualla KÖSEOĞLU: Kadına Yönelik Şiddet Sorununun Sosyalleşme Süreci ve Toplumsal Cinsiyet Rolleri Çerçevesinde Değerlendirilmesi. Sosyal ve Beşeri Bilimler Araştırmaları Dergisi 2018. (s. 77-95)

3. Ayça MUTLU: KADINA ŞİDDET OLAYLARININ MEDYAYA YANSIMASI: MİLLİYET, ZAMAN VE YENİ AKİT GAZETELERİNİN İNCELENMESİ. YÜKSEK LİSANS TEZİ 2015. (s. 1-87)

4. İ. Akkaş, Z. Uyanık: KADINA YÖNELİK ŞİDDET. Hacı Bektaş Veli Üniversitesi SBE Dergisi 6 (1) 2016 (s.32-42)

5. ZEYNEP ŞAHİN: AİLE İÇİ ŞİDDET MAĞDURU OLAN KADINLARDA KENDİLİK ALGISI, PSİKOPATOLOJİ VE BİLİŞSEL DUYGU DÜZENLEME STRATEJİLERİ. YÜKSEK LİSANS TEZİ 2018.
6. https://www.insamer.com/tr/uploads/pdf/rapor-kadina-yonelik-siddet.pdf (01.03.2022)
7. "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" Azərbaycan Respublikasının qanunu
8. "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikasının qanunu

AİLƏDAXİLİ ZORAKILIĞA MƏRUZ QALMIŞ QADINLARIN ZORAKI ŞƏXSLƏ MÜNASİBƏTƏ DAVAM ETMƏ SƏBƏBLƏRİ

Qarayeva Pərvin

XÜLASƏ

Qadın və kişilər körpəlikdən başlayaraq, gənclik, yetkinlik və qocalıqda fərqli rollara və həyat prosesi boyu müxtəlif qeyri-təbii bərabərsizliklərə məruz qalırlar. Biz bu bərabərsizlikləri gender bərabərsizliyi kimi təyin edirik. Gender bərabərsizliyi qız və oğlan kimi doğulan iki cinsin ictimai prosesdə qadın və kişi rolları arasındakı güc münasibətlərinin balanssızlığı nəticəsində yaranan bərabərsizliklərdir. Bu güc münasibətlərinin qeyri-bərabərliyi qadınların siyasi, sosial və iqtisadi sahədə kişilərdən geri qalmasına və kişilərin hakim olduğu patriarxal nizamda ikinci dərəcəli mövqe tutmasına səbəb olur.

Patriarxal nizam dediyimiz patriarxal sistem, ən ümumi tərifi ilə ailənin başçısı olan kişilərin üstünlük təşkil etdiyi kişinin ailəni idarə etməsi deməkdir. Beləklə bu gücü əlində saxlayan kişi, qadını idarə etmək və nəzarətdə saxlamaq məqsədi ilə qadına müxtəlif formalarda zorakılıq tətbiq edir. Bu baxımdan məqalədə ailədaxilində zorakılığa məruz qalan qadınların onlara zorakılıq törədən şəxslə münasibətə davam etmə səbəblərinə yer verilmişdir.

ПРИЧИНЫ, ПО КОТОРЫМ ЖЕНЩИНЫ, СТАВШИЕ ЖЕРТВАМИ ДОМАШНЕГО НАСИЛИЯ, ПРОДОЛЖАЮТ ПОДДЕРЖИВАТЬ ОТНОШЕНИЯ С ОБИДЧИКОМ

Гараева Парвин

РЕЗЮМЕ

С младенчества женщины и мужчины подвергаются разным ролям в юности, юности и старости, а также различным противоестественным неравенствам на протяжении всего жизненного процесса. Мы определяем это неравенство как гендерное неравенство. Гендерное неравенство – это неравенство, возникающее в результате дисбаланса властных отношений между ролями женщин и мужчин в социальном процессе двух полов, рожденных девочками и мальчиками. Это неравенство сил заставляет женщин отставать от мужчин в политической, социальной и экономической сферах и занимать второстепенное положение в патриархальной системе, в которой доминируют мужчины.

Патриархальная система, которую мы называем патриархальным порядком, по ее самому общему определению означает, что человек, над которым господствуют мужчины, являющиеся главой семьи, правит семьей. Таким образом, мужчина, обладающий этой

властью, использует различные формы насилия по отношению к женщине, чтобы контролировать и контролировать ее. В связи с этим в статье рассматриваются причины, по которым женщины, подвергшиеся домашнему насилию, продолжают поддерживать отношения с обидчиком.

REASONS WHY WOMEN WHO HAVE BEEN VICTIMS OF DOMESTIC VIOLENCE CONTINUE TO HAVE RELATIONS WITH THE ABUSER

Garayeva Parvin

SUMMARY

From infancy, women and men are exposed to different roles in youth, adolescence and old age, and to various unnatural inequalities throughout the life process. We define these inequalities as gender inequalities. Gender inequality is the inequality that results from the imbalance of power relations between the roles of women and men in the social process of the two sexes born as girls and boys. This inequality of power causes women to lag behind men in the political, social, and economic spheres, and to take a secondary position in the male-dominated patriarchal system.

The patriarchal system, which we call patriarchal order, by its most general definition, means that a man who is dominated by men who are the head of the family rules the family. Thus, the man who holds this power uses various forms of violence against the woman in order to control and control her. In this regard, the article discusses the reasons why women who have been subjected to domestic violence continue to have relations with the perpetrator.

AİLƏ MAHİYYƏTİ VƏ STRUKTUR ELEMENTLƏRİ

Qasımov Babək
BDU-nun II kurs magistrantı
babek.qasimov99@mail.ru

Açar sözlər: Ailə, avtoritar, sosial qrup, mədəni sistem, emosional dəstək, sosial-iqtisadi şərait
Ключевые слова: Семья, авторитарная, социальная группа, культурная система, эмоциональная поддержка, социально-экономические условия
Key words: Family, authoritarian, social group, cultural system, emotional support, socio-economic conditions.

Ailənin bir neçə tərifi mövcuddur. Ailə bir yerdə yaşayan yaxın qohumlar qrupudur. Bu, nikah və ya qohumluq münasibətləri (nikah, valideynlik, qohumluq) ilə əlaqəli kiçik sosial qrupdur. Həyat icması (birgə yaşayış və ev işləri), emosional yaxınlıq, bir-birinə qarşı qarşılıqlı hüquq və öhdəliklər ailə üzvlərini bir-birinə bağlayan güclü bağlardır.

Ailə cəmiyyətdə baş verən bütün müsbət və mənfi dəyişikliklərə çox çevik və həssaslıqla reaksiya verir, cəmiyyətdə gedən proseslərin humanist və qeyri-insani mənasını üzə çıxarır, ailəni məhv edən və yaradan prosesləri dəyərləndirir. Cəmiyyətin bir hissəsi olaraq, ailə onunla birlikdə yaradılmış, dəyişdirilmiş və inkişaf etmişdir və öz növbəsində onun inkişafının gedişatına təsir göstərə bilər.

Ailənin ən mühüm funksiyalarına demoqrafik, iqtisadi, sosial, mədəni və s. aiddir.

Cəmiyyət və dövlət ailənin rifahında maraqlıdır, birgə fəaliyyət göstərir, bir-biri ilə bağlıdır və bir-birinə qarşılıqlı təsir göstərir. Ailə böyüklərdən və bir və ya daha çox böyüklərdən və uşaqlardan ibarət sosial-mədəni sistemdir və bir-birini emosional-fiziki cəhətdən dəstəkləmək öhdəliyi ilə bağlıdır.

Ailənin strukturu - ailənin ölçüsü, tərkibi - onun əsas elementlərinin vəhdətinin təşkili və təmin edilməsi üsulundan, ailədə cins və yaş rollarının bölüşdürülməsindən asılıdır [4, s. 67].

Ailə quruluşunun xarakterini ictimai-tarixi şəraitin xarakteri müəyyən edir: cəmiyyətdə qadının bərabərsizliyi onun ailədə bərabərsizliyinə gətirib çıxarır. Cəmiyyətdəki münasibətlər iyerarxiyası ailədə münasibətlərin iyerarxiyasına vəsilə olur.

Ailə hakimiyyəti müxtəlif iqtisadi və ya mənəvi səlahiyyətlərə əsaslana bilər: birbaşa zorakılıqdan mənəvi təsirə qədər (əmrlərdən nəzakətli dostluq məsləhətlərinə qədər) və quruluşa ənənəvi baxışda ailə münasibətlərinin 2 növünü ayırd etmək olar.

Birincisi, avtoritar (rəhbərlik), burada bütün ailə funksiyalarının rəhbərliyi və təşkili ailədə məcburedici hakimiyyəti həyata keçirən bir ailə üzvünün əlində cəmləşir.

Buna misal olaraq patriarxal ailəni göstərmək olar, burada ailə başçısı (baba, böyük qardaş) bütün əmlaka sərəncam verir, ev işlərinə nəzarət edir, vəzifələri bölüşdürür və ailədəki münaqişələri həll edirdi. Bu münasibət forması iyerarxik münasibəti nəzərdə tutur: ailənin başçısı kişidir, gənc nəsil isə öz növbəsində yaşlılara, qadın isə kişiyə tabe olur, Belə bir münasibət isə öz növbəsində yaxınlıq, sevgi doğurmur.

İkincisi, məsuliyyətlərin bərabər bölüşdürülməsini, bütün ailə problemlərinin həllində bərabər iştirakını nəzərdə tutan və daha mütərəqqi olan demokratik (tərəfdaşlıq).

Son illərdə ər-arvad arasında münasibətlərin bərabərliyi üstünlük təşkil edir. Ölkədə sosial-iqtisadi vəziyyətin mürəkkəbliyi ilə, xüsusən də azyaşlı uşaqlı ailələrdə ev təsərrüfatının idarə edilməsi (büdcənin idarə edilməsi, ailənin qalan üzvləri arasında vəzifələrin bölüşdürülməsi) getdikcə daha çox qadınların əlində cəmləşir və qadınların cəmiyyətdəki rolu, ailə idarəçiliyinin

rolu getdikcə daha çox qadınlaşır. Eyni zamanda, bu, bir çox ailələrdə ailə rollarının ənənəvi bölüşdürülməsi ilə birləşdirilir: ər (ata) - çörək verən və təmin edən; arvad (ana) evdar qadın və uşaqların tərbiyəçisidir. Atanın artan rolu ailədə kişilərin gücünü möhkəm şəkildə bərqərar edir ki, bu da gələcəkdə ailə rollarına övlad yönümünün gücləndirilməsində öz əksini tapmalıdır.

Əksər amerikalı alimlər ailə strukturunun P.Herbst (ABŞ) üzrə təsnifatını təsdiq edirlər [5].

Birinci növ avtonomdur. Ər və arvadın həyata münasibəti bərabər, dəyərləri fərqlidir. Ailə qərarları kollektiv şəkildə qəbul edilir və onlar kompromis xarakterlidir.

İkinci növ - dominant rolu kişi, onun xarakterinin şəxsi xüsusiyyətləri oynayır. Onun dünyagörüşü, həyata münasibəti bütün ailə üzvlərini müəyyənləşdirir. Qadın qadın vəzifələrini yerinə yetirir.

Üçüncü növ, qadının həlledici rol oynaması, lakin kişinin rolunun yüksək olması, hər bir həyat yoldaşının müstəqil qərar vermək hüququnun tanınması əsasında qərarların qəbul edilməsidir.

Cəmiyyətdəki müasir sosial-iqtisadi şərait ailənin sosial strukturunun dəyişməsinə, onun sosial heterojenliyinin yüksək dərəcəsinə gətirib çıxarmışdır ki, bu da ailə üzvlərinin müxtəlif sosial statusunda özünü göstərir. Valideynlərin kifayət qədər yüksək mədəni potensialı ilə onun gənc nəslə ötürülməsi həmişə təmin edilmir.

Nəsillərin dəyişməsi ilə ailənin mənəvi və mədəni dəyərləri çox vaxt itirilir.

Ailənin quruluşu onun həyat tərzi və tərzi, adət-ənənələri, digər ailələrlə və bütün cəmiyyətlə münasibətləri ilə əlaqələndirilir. Ailə quruluşunun pozulması onun funksiyalarının pozulmasına gətirib çıxarır.

Ailə quruluşu elementlərin və onlar arasındakı əlaqənin məcmusudur. S.Minuxin və Ç.Fişman ailənin müəyyən funksiyaları yerinə yetirməsinə imkan verən ailə rollarının differensiallaşdırılmış dəstləri olan bir sistem kimi ailənin struktur elementləri kimi nikah, valideyn, qardaş və fərdi altsistemləri fərqləndirirlər [6, s. 95].

Ailə sisteminin struktur elementləri arasındakı əlaqə aşağıdakı xüsusiyyətlərlə xarakterizə olunur: birlik, iyerarxiya, çeviklik. Uyğunluq ailə üzvləri arasında psixoloji məsafə kimi müəyyən edilə bilər. İyerarxiya ailədə hökmranlıq-tabeçilik münasibətlərini səciyyələndirir və ailə münasibətlərinin müxtəlif aspektlərinin xüsusiyyətlərini özündə ehtiva edir:

- səlahiyyət,
- hökmranlıq,
- bir ailə üzvünün başqalarına təsir dərəcəsi,
- qərar qəbul etmək səlahiyyəti.

Çeviklik ailə sisteminin xarici və daxili ailə vəziyyətindəki dəyişikliklərə uyğunlaşma qabiliyyəti deməkdir.

Ailənin strukturu, yerli ailə psixoterapevtlərinin fikrincə, aşağıdakı elementləri əhatə edir [3, s. 63]:

- Ailənin tərkibi,
- Ailə qaydaları,
- Ailə rolları,
- Ailə alt sistemləri,
- Ailə sərhədləri,
- Miflər və əfsanələr,

Varqa ailə sisteminin altı parametrini müəyyən edir ki, onlardan istənilən ailə sistemini təsvir etmək olar [7, s.36]:

- Qarşılıqlı əlaqənin stereotipləri,

- Ailə qaydaları,
- Ailə mifləri,
- Sərhədlər,
- Ailə tarixi.

Ailə sisteminin struktur elementlərini və parametrlərini daha ətraflı nəzərdən keçirək.

Ailənin tərkibi - fiziki və ya psixoloji olaraq bu ailə sistemində kimin mövcud olduğunu, məsələn, boşanmış ailələri, yenidən nikahları bildirir. Ailə ilə işləyərkən ailənin hər bir üzvünün onu kimin üzvü hesab etdiyini bilmək vacibdir. ailə üzvlərinin kimin bir hissəsi olması ilə bağlı fikir ayrılığı qeyri-adi deyil. Boşanmış və yenidən ailə quran ailələr üçün bu məsələnin həlli xüsusilə vacibdir.

Ailə qaydaları - ailə həyatının qurulduğu əsaslar və tələblər məcmusudur. Qayda və qaydaların olmaması ailə sistemində xaosa gətirib çıxarır. Qaydaların və normaların qeyri-müəyyənliyi ailə üzvləri arasında narahatlığın artmasına kömək edə bilər, həm bütün ailə sisteminin, həm də onun ayrı-ayrı üzvlərinin inkişafına mane ola bilər. Qaydalar, hər kəsin öz hüquq və vəzifələrini bilməsi ilə əlaqədar olaraq, ailə üzvlərinə reallıqda yönləndirməyə və bütövlükdə ailəyə sabitlik bəxş etməyə imkan verir. Aşağıdakı qaydalar fərqləndirilir:

- açıq - onlar ailədə açıqdırlar və açıq şəkildə elan olunurlar, məsələn: bağlı qapını döymək; heç vaxt səsinizi qaldırmayın; valideynlər kiçik uşaqların yatmağa ehtiyacı olan vaxtı təyin edirlər.
- gizli - ailə üzvlərinə məlumdur, lakin açıq şəkildə elan edilmir, məsələn: ananın alkoqolizm mövzusu qadağandır; bir şey haqqında danışma, bu ananı incidəcək; probleminiz varsa atanızla danışsanız yaxşı olar.

Ailə rolları dedikdə, ailə sistemində müəyyən yer tutan şəxsdən gözlənilən və ya ona aid edilən məqsədlər, inanclar, hisslər, dəyərlər, hərəkətlər başa düşülür.

Ailə rolları üçün aşağıdakı tələblər vurğulanır [2]:

1. Şəxsin ailədə yerinə yetirdiyi rolların məcmusu onun hörmət, tanınma və s. ehtiyaclarının ödənilməsini təmin etməlidir.
2. İcra olunan ailə rolu bu rolun daşıyıcısının imkanlarına uyğun olmalıdır.
3. Əgər rolun tələbləri dözülməzdirsə, rolun daşıyıcısında narahatlıq, nevropsik gərginlik yaranır.
4. Şəxsin ailədə yerinə yetirdiyi ailə rollarının məcmusu təkcə onun deyil, digər ailə üzvlərinin də ehtiyaclarının ödənilməsini təmin etməlidir.

Məsələn, bəzi ailə üzvlərinin qalan hissəsinin başqa bir üzvün həddindən artıq işi ilə təmin edildiyi rol oynayan quruluş travmatik ola bilər.

Müasir psixoterapiyanın ən maraqlı istiqamətlərindən biri ailədə patoloji rolu adlandırılan rolların müəyyən edilməsi və öyrənilməsi ilə bağlıdır. Patoloji ailə rolları öz strukturuna və məzmununa görə daşıyıcısına travmatik təsir göstərən şəxsiyyətlərarası rollardır [1].

Alt sistemlər ailə sisteminin struktur elementidir və onların dinamikası ailənin həyat dövrü ilə sıx bağlıdır.

Beləliklə Ailə, bir-birini emosional və fiziki cəhətdən dəstəkləmək öhdəliyi ilə bağlanmış, zaman, məkan və iqtisadi cəhətdən birləşmiş böyüklərdən və bir və ya daha çox böyüklərdən və ya uşaqlardan ibarət sosial-mədəni sistemdir.

Beləliklə, ailə mürəkkəb sosial, mürəkkəb, çoxfunksiyalı məfhumdur, mövcud sosial-iqtisadi və hüquqi normalarla şərtlənən insan həyatının formasıdır. Bu, bir sıra müxtəlif funksiyaları yerinə yetirən spesifik struktura malik sistem, gündəlik həyatda insanlar arasında sabit münasibətlər sistemidir. O, cəmiyyətlə, dövlətlə sıx bağlıdır və onunla eyni vaxtda inkişaf edir.

ƏDƏBİYYAT

1. Abbasov A.N Pedaqogika: Orta ixtisas məktəbləri üçün dərs vəsaiti. Bakı-2010, s.152
2. Bayramov Ə.S., Əli Ə.Ə. Psixologiya: Ali məktəblər üçün dərslik. Bakı – 2002, s.620
3. Əlizadə Ə., Əlizadə H. Pedaqoji psixologiya Bakı-2010, s.287
4. Гурко Т.А. Программа социальной работы с семьями. – М.: Центр общечеловеческих ценностей, 1992
5. Зимняя И.А Семья как объект социальной работы/ И.А. Зимняя // Социальная работа. - Выпуск №7. - 2007. - С. 71-81.
6. Кон И.С. Социологическая психология// И.С. Кон. – М.: Московский психолого-социальный институт; Воронеж: Изд-во НПО «МОДЭК», 2014. – 374
7. Овчарова Р.В. Справочная книга социального педагога/ Р.В. Овчарова. - М.: СК Сфера, 2009. – 342 с.

AİLƏ MAHİYYƏTİ VƏ STRUKTUR ELEMENTLƏRİ

Qasımov Babək

XÜLASƏ

Ailə qrupunun əsas xüsusiyyətləri onun quruluşu ilə xarakterizə olunur. Amerikalı psixoterapevt S.Minuxin qeyd edir ki, ailə üzvlərinin qarşılıqlı əlaqəsi müəyyən qanunauyğunluqlara tabedir. Bu nümunələr adətən açıq şəkildə ifadə edilmir və ya hətta həyata keçirilmir; lakin onlar bütöv bir şeyi, yəni ailənin strukturunu təşkil edirlər. Ailələrə struktur yanaşma, ailələrin onun üzvlərinin fərdi "biopsixodinamikasından" daha çox olması fikrinə əsaslanır. S. Minuxin belə nəticəyə gəlir ki, strukturun reallığı ayrı-ayrı ailə üzvlərinin reallığı ilə müqayisədə fərqli nizamlı reallıqdır. Beləliklə, ailənin strukturunun müəyyən edilməsi məsələsi həm nəzəri cəhətdən, həm də praktikada ailəyə psixoloji yardım göstərmək baxımından olduqca çətindir.

СЕМЕЙНАЯ СУЩНОСТЬ И СТРУКТУРНЫЕ ЭЛЕМЕНТЫ

Гасымов Бабек

АННОТАЦИЯ

Основные черты семейной группы характеризуются ее структурой. Американский психотерапевт С. Минуксин отмечает, что взаимодействие членов семьи подчиняется определенным правилам. Эти примеры обычно явно не указываются и даже не реализуются; но они составляют единое целое, то есть структуру семьи. Структурный подход к семьям основан на идее, что семьи - это нечто большее, чем индивидуальная «биопсиходинамика» ее членов. С. Минухин приходит к выводу, что реальность структуры - это иная упорядоченная реальность по сравнению с реальностью отдельных членов семьи. Таким образом, определение структуры семьи очень сложно как теоретически, так и на практике с точки зрения оказания психологической помощи семье.

FAMILY NATURE AND STRUCTURAL ELEMENTS

Gasimov Babak

SUMMARY

The main features of the family group are characterized by its structure. American psychotherapist S. Minuxin notes that the interaction of family members is subject to certain rules. These examples are usually not explicitly stated or even implemented; but they form a whole, that is, the structure of the family. The structural approach to families is based on the idea that families are more than the individual “biopsychodynamics” of its members. S. Minukhin concludes that the reality of the structure is a different orderly reality compared to the reality of individual family members. Thus, determining the structure of the family is very difficult, both theoretically and in practice, in terms of providing psychological assistance to the family.

ОРГАНИЗАЦИЯ СОЦИАЛЬНОЙ РАБОТЫ С МОЛОДЬЕЖЬЮ В АЗЕРБАЙДЖАНЕ

Велиева Дениз Фикрет кызы
Магистрант, II курса БГУ.
oruceva_deniz@mail.ru

Ключевые слова: Азербайджан, социальная работа, молодежь, правовое обеспечение, государственная социальная политика
Açar sözlər: Azərbaycan, sosial iş, gənc, hüquqi dəstək, dövlət sosial siyasəti
Keywords: Azerbaijan, social work, young, legal support, state social policy.

Введение. Современный этап глобализации и стремительное формирование информационного общества требует нового уровня работы по обеспечению более активного участия молодежи в социально-экономической, научно-культурной, образовательной и других сферах Азербайджанской Республики. Именно поэтому необходимо создать благоприятную среду для широкого использования инновационного потенциала молодежи для обеспечения интересов общества и повышения конкурентоспособности экономики страны. По результатам опросов, проведенных в нашей стране, в современное время информированность молодежи о социальной работе низкая. По этой причине особое внимание уделяется распространению научных, теоретических и практических знаний о практике социальной работы среди молодежи. Это повышает актуальность темы.

Молодежная политика Азербайджанского Государства.

«Государственная молодежная политика», это направление деятельности Азербайджанский Республики, представляющее собой систему мер нормативноправового, финансово-экономического, организационно-управленческого, информационно-аналитического, кадрового и научного характера, реализуемых на основе взаимодействия с институтами гражданского общества и гражданами, активного межведомственного взаимодействия, направленных на гражданско патриотическое и духовно-нравственное воспитание молодежи, расширение возможностей для эффективной самореализации молодежи и повышение уровня ее потенциала в целях достижения устойчивого социально-экономического развития, глобальной конкурентоспособности, национальной безопасности страны, а также упрочения ее лидерских позиций на мировой арене.

Становление государственной молодежной политики в нашей республике связано с именем общенационального лидера Гейдара Алиева. Закон Азербайджанской Республики «О молодежной политике» и другие нормативно-правовые акты в области молодежной политики, а также проведение форумов азербайджанской молодежи определили правовую основу и механизм реализации работы с молодежью.

Молодежь - это группа лиц от 14 до 30 лет. Она всегда являлась активной группой населения максимально подверженной влиянию разнообразных факторов внешней социальной среды. Как часть социума молодежь подвержена большинству социальных воздействий и испытывает те же трудности, что и взрослое население в самоопределении, профориентации, трудоустройстве, образовании, обеспечении жильем, социальными гарантиями, медицинском обслуживании и страховании (2, 34-37). «Инфраструктура молодежной политики» – это система государственных, муниципальных организаций и общественных объединений, а также иных организаций

всех форм собственности, обеспечивающих возможность для оказания услуг и проведения мероприятий, направленных на развитие молодежи (3, 716).

Во время руководства Азербайджаном общенациональный лидер Гейдар Алиев видел в молодежи ведущую силу в управлении государством.

Молодежная политика, определенная и реализуемая общенациональным лидером Азербайджана Гейдаром Алиевым, включала пять важных направлений:

- повышение роли молодежи в защите национально-нравственных ценностей, обеспечение воспитания подрастающего поколения в духе патриотизма, зиждущегося на исторических корнях;
- осуществление серьезных образовательных и культурных реформ для повышения научного и интеллектуального потенциала молодежи;
- обеспечение организованности молодежи, укрепление ее единства как ведущей силы для защиты государственной независимости;
- значительное повышение роли молодежи в государственном управлении и формирование у них чувства ответственности;
- создание прочной основы для того, чтобы молодежь максимально использовала возможности, предоставляемые интеграцией Азербайджанского государства в международное сообщество (1, 5).

Под руководством Президента Азербайджанской Республики Ильхама Алиева в целях всестороннего развития молодежи, составляющей более 31% населения страны, проводятся комплексные меры по осуществлению участия представителей молодого поколения в системе государственного управления, обеспечению их эффективной занятости, использованию потенциала молодежи на благо государства.

Комплексные меры в социальной деятельности молодежи.

Социальная деятельность молодежи проявляет себя в различных направлениях:

- осуществление взаимодействия и сотрудничества с объединениями и организациями, представляющими интересы молодежи;
- содействие занятости, трудоустройству, предпринимательству молодежи;
- содействие в развитии международного молодежного сотрудничества;
- участие в гражданско-патриотическом воспитании молодежи;
- содействие деятельности спортивно-оздоровительных организаций молодежи;
- организация управления и поддержки молодежных проектов и программ;
- поддержка актуальных и востребованных инициатив в молодежной среде.
- организация работы с молодыми людьми в молодежных сообществах по месту жительства, учебы, работы, отдыха, временного пребывания молодежи;
- организация помощи молодым людям, испытывающим трудности в процессе интеграции в жизни общества;
- организация информационного обеспечения молодежи и организация научных исследований проблем молодежи и молодежной политики, взаимодействие с молодежными СМИ;

В Азербайджане в этих направлениях проводится множество работ.

Образование социальной службы, ориентированной на молодежь, имеет особое значение в силу усложнения процесса социализации молодых граждан, значительного сокращения периода обучения, откровенно отрицательными симптомами состояния здоровья молодого поколения. Особенностью работы социальных учреждений для молодежи является то, что они ломают стереотипы, связанные с традиционным представлением о социальной помощи населению, ядром их работы является, прежде

всего, социальное образование молодежи, многосторонняя помощь и поддержка нуждающихся, открытость к постоянным изменениям социума.

Работа с творческой и талантливой молодежью ведется параллельно по нескольким направлениям.

В сфере выявления талантливой молодежи в области науки, образования, культуры и искусства, построения индивидуальной работы с ней и повышения ее профессионального уровня проводятся различные культурно-просветительские мероприятия - фестивали, выставки, конкурсы. В целях повышения адресности и эффективности государственной поддержки талантливой и творческой молодежи предпочтение отдается реализации таких мероприятий, как обмен творческими достижениями молодежи в области культуры и искусства, мастер-классы, особое внимание уделяется изучению проблем творческой молодежи и определению путей их решения. Организации, созданные в университетах и колледжах: Студенческое научное общество, Молодежная студенческая организация, Профсоюз студентов и др. подобные объединения играют большую роль в выявлении, развитии и оценке талантливых студентов.

Повышение интереса и участия молодежи в науке, раскрытие возможностей молодых ученых и стимулирование их научной деятельности – это вопросы, которые всегда находятся в центре внимания. С этой целью регулярно проводятся конференции, форумы, заседания республиканского и международного уровня.

С целью оценки труда талантливой молодежи и создания для нее новых стимулов учреждаются новые премии, ежегодно награждаются талантливые и творческие молодые люди, достигшие высоких достижений в различных творческих областях.

С целью налаживания культурных связей молодежи в республике регулярно проводятся международные мероприятия, охватывающие различные сферы, поддерживается международный обмен талантливой молодежью и молодыми учеными, обеспечивается участие в международных мероприятиях.

Одной из основных целей является стимулирование интеллектуального уровня, мировоззрения, умственного развития молодежи. В стране проводится ряд мероприятий по развитию интеллектуального движения и созданию условий для присоединения молодежи к международному интеллектуальному движению. С этой целью пропагандируются различные виды интеллектуальных игр среди молодежи, организуются чемпионаты республиканского и международного уровня по традиционным видам игр, соревнования, турниры, в различных регионах республики создаются интеллектуальные клубы.

Многое делается и в эффективной организации досуга молодежи. Мероприятия, направленные на стимулирование творческой деятельности и интеллектуального развития молодежи, играют также важную роль в эффективной организации их досуга. С целью заинтересовать молодежь в использовании своего досуга для личностного развития разрабатываются и транслируются на местных телеканалах различные телепроекты. В то же время в целях эффективной организации досуга организуются сезонные лагеря для подростков и молодежи, предусматривается участие молодежи в местных и международных лагерях.

Выполнение до настоящего времени «Государственной программы азербайджанской молодежи (2005-2009 годы)», «Государственной программы по обучению азербайджанской молодежи за рубежом (2007-2015 годы)» и «Государственной программы азербайджанской молодежи в 2011-2015 годах», непосредственно связанных с

молодежью, а также достигнутые результаты дают основание утверждать, что «Стратегия развития азербайджанской молодежи в 2015-2025 годах» также станет новой страницей в экономической, гуманитарной и социальной жизни азербайджанской молодежи.

ЛИТЕРАТУРА

1. Azərbaycanın ictimai həyatında gənclərin rolu / A. M. Cəfərovun, E. B. İmaməliyevin redaktəsi ilə. — SPb.; Bakı: MDB iştirakçısı olan dövlətlərin Parlamentlərarası Assambleyası Şurasının Katibliyi. 2012. — 100 s.
2. *Курбатов В.И. Социальная работа: учеб. пособие. – М.: изд-во Дашков и К. 2007 г.*
3. Организация работы с молодежью : учебное О64 пособие / под ред. Е. П. Агапова, Л. С. Деточенко. – М.-Берлин: Директ-Медиа, 2015. – 738 стр
4. Участие молодежи в общественной жизни Азербайджана / Под редакцией Э. Б. Имамалиева. — СПб.; Баку: Секретариат Совета Межпарламентской Ассамблеи государств — участников СНГ. 2012

ОРГАНИЗАЦИЯ СОЦИАЛЬНОЙ РАБОТЫ С МОЛОДЬЕЖЬЮ В АЗЕРБАЙДЖАНЕ

Велиева Дениз

АННОТАЦИЯ

Статья посвященаодной из важных проблем нашей действительности – социальной работы с молодьежью в Азербайджане. Автор перечисляет виды деятельности, которые подразумеваются под понятием «социальная работа с молодьежью». Отмечается, что пространство социальной работы расширяется, вследствие причин социально-экономического характера. В связи с этим социальной работой наряду с государственными занимаются и общественные организации, а также специалисты разных направлений.

Молодежная политика в Азербайджане является важной частью государственной политики. Азербайджанская молодежь отличается активным участием во всех сферах общественной жизни и играет важную роль в реализации политических, экономических, гуманитарных и социальных мероприятий.

AZƏRBAYCANDA GƏNCLƏR İLƏ SOSİAL İŞİN TƏŞKİLİ

Vəliyeva Dəniz

XÜLASƏ

Məqalə reallığımızın mühüm problemlərindən birinə - Azərbaycanda gənclərlə sosial iş probleminə həsr olunub. Müəllif “gənclərlə sosial iş” anlayışı ilə nəzərdə tutulan fəaliyyət növlərini sadalayır. Qeyd olunur ki, sosial işin məkanı sosial-iqtisadi səbəblərdən genişlənir. Bu baxımdan sosial işlə dövlətlə yanaşı, həm də ictimai təşkilatlar, o cümlədən müxtəlif sahələr üzrə mütəxəssislər məşğul olurlar.

Azərbaycanda gənclər siyasəti dövlət siyasətinin mühüm tərkib hissəsidir. Azərbaycan gəncliyi ictimai həyatın bütün sferalarında aktiv fəaliyyəti ilə seçilir və siyasi, iqtisadi, humanitar, sosial tədbirlərin həyata keçirilməsində mühüm rol oynayır.

ORGANIZATION OF SOCIAL WORK WITH YOUTH IN AZERBAIJAN

Valiyeva Deniz

SUMMARY

The article is devoted to one of the important problems of our reality - the social work of young people in Azerbaijan. The author lists the types of activities that are meant by the concept of "social work of youngs". It is noted that the space of social work is expanding due to socio-economic reasons. In this regard, social work, along with state ones, is also carried out by public organizations, as well as specialists in various fields.

Youth policy in Azerbaijan is an important part of state policy. Azerbaijani youth is distinguished by active participation in all spheres of public life and plays an important role in the implementation of political, economic, humanitarian and social measures.

SOSİOLOGİYA

KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İCTİMAİ ŞÜURUN FORMALAŞMASINDA ROLU

Rza Xaqan Fuad oğlu
BDU-nun II kurs magistrantı
xaqan.rza.2013@mail.ru

Açar sözlər: ictimai şüur, kütləvi informasiya vasitələri, siyasi təfəkkür, siyasi mədəniyyət.
Ключевые слова: общественное сознание, средства массовой информации, политическое мышление, политическая культура.
Keywords: public consciousness, mass media, political thinking, political culture.

İctimai şüur mürəkkəb sosial hadisədir. Onun formalaşması prosesi tarixi xarakter daşıyır və insan mədniyyətin təşəkkül tapmasında müstəsna rol oynayır. Insan şüuru insanın varlığını, yaşamağın mənasını təyin edir. Şüuru yaşadan nəinki onun bioloji əsaslarıdır, burada həm də dil və müxtəlif digər işarələr sistemidir.

Qeyd edək ki, son vaxtlar, xüsusilə son 30-40 ildə şüur problemləri sırasında dilin linqvistik baxımından təhlil olunması ilə yanaşı onun psixoloji və sosioloji aspektləri də alimləri cəlb etməyə başlamışdır. Dilin, elmin koqnitiv neyroelminin və mütaliə psixologiyası sahələrinin inkişafına da böyük diqqət yetirilir. Koqnitiv psixologiya və psixolinqvistika üzrə beynəlxalq konfranslar keçirilir. Qeyd edilən sahələrin inkişafı bir sıra görkəmli tədqiqatçılar, o cümlədən F. de Sossür, E.Sepir, M.Fuko, J.Derrida, Ş.Balli, R.Bart, L.S.Vıqotski və s. tərəfindən fundamental tədqiqatlarında əsaslanmışdır.

Müasir şüur və sosiolinqvistika problemlərinin tədqiqatı həm də bir sıra Rusiya alimlərin araşdırmalarından başlamışdır, bunların sırasında K.N.Derjavin, V.M.Jirmunski, N.M.Karinski, B.A.Larin, E.D.Polivanov, A.M.Selişşev, N.V.Sergiyevski, L.P.Yakubinski və digərlərin adlarını çəkmək olar. Dilin sosial differensiasiyası məsələsi tədqiq olunur. C.Fişer və B.Bernstaynın irəli sürdüyü müddəalarla (cəmiyyətdə dil və sosial strukturlar izomorfizm mütənasibiliyində deyildirlər, lakin dilin sosial differensiasiyası ilə cəmiyyətin sosial differensiasiyası strukturu arasında müəyyən əlaqə var) heç də bütün tədqiqatçılar birmənalı razı deyillər. Hesab olunur ki, situativ müxtəliflik seçimi öz ifadəsini dilin, sosial situasiyadan (şəraitdən) asılı olaraq differensiallaşmış istifadəsində tapır.

Hər bir insanın dil ehtiyatları əsasən müəyyən kommunikativ situasiyada assosiasiyalar üzərində qurulan müəyyən dil materiallarından ibarət olur. Burada KİV-in rolu xüsusi olaraq qeyd olunmalıdır.

Bu proses olduqca mürəkkəbdir və müasir dövrün bir çox alimlərin diqqət nəzərindədir. Virtual dil imkanları və real dil mühiti – bu iki amilin birləşməsi koqnitiv prosesləri həyata gətirir, həmin koqnitiv proseslərə həm də əsas milli dəyərlərin qavranılması daxildir. Burada daha bir problem meydana gəlir – sosial ustanovkaların dil refleksləri, o cümlədən metadil səviyyəsində.Dil mədəri mühitdən, irqdən kənarda mümkün deyil, lakin dillər və mədəniyyətlər parallel olaraq mütənasiblik təşkil etmirlər (E.Sepir).

Tədqiqatçılar həm də dil sistemləri və yarımsistemlərinə aid sosial ustanovkaları və dil kollektivlərin dəyərlər oriyentasiyasını, yəni müəyyən seçim normalarına doğru istiqamətlənmələri ilə əlaqəli olan sübyektiv tərəfi də qeyd edirlər. Bütün qeyd edilənlər mili mentallıq dəyərlərinə doğru istiqamətlənmələrinin qavranılmasına da təsir edir. Hesab olunur ki,

müəyyən dil situasiyalarında sosiolinqvistik dəyişənlər rolunu nəinki ayrı-ayrı dil vahidləri, həm də bütöv sistemlər (məsələn, iki və daha çox dil bilən adamların bilinqvizm sistemləri) ola bilər. Tədqiqatçılar (A.Şveytser) belə bir nəticəyə gəldilər ki, müasir cəmiyyətdə dilin sosial differensiasiyasının yeni strukturu əmələ gəlmişdir ki, burada artıq çoxdan istifadədə olan kategoriyalar yeni məzmun daşımağa başlayır. Bu struktura təsir edə biləcək proseslər bütövlükdə dil situasiyası komponentlərinin sosiallaşması (o cümlədən siyasi sosiallaşma) kimi xarakterizə oluna bilər.

Tədqiqi nəzərdə tutulan problemlə əlaqəli olan bilinqvizm və polilinqvizm probleminə də diqqət yetirilməlidir. Tədqiqatçılar sırasında E.Benvenistin dilin çoxölçülü özünəməxsusluğu haqqında fikrini, həmçinin linqvokulturoloqlar və etnopsixoloqların (məsələn, Rusiyada A.A.Şahmatov, A.A.Potebnya, A.N.Afanasyev, A.İ.Sobolesvkiy, V.N.Teliya, Y.S.Stepanov, A.D.Arutünov, V.Vorobyov, V. Şakleyin, V.A.Maslova, A.Ştutkert, Q.Q.Diqqens) bir sıra müddəalarını qeyd etmək olar: qeyd edilən alimlər öz tədqiqatlarında şüurun ən dərin qatlarında yaşayan xalq stereotipləri və dünya haqqında təsəvvürləri aşkar edərək bunları formalaşdıran dili ilə əlaqəni müəyyən etməyə çalışmışdırlar.

Fəal şəkildə qeyd edilən sahədə insanların dil adaptasiyası və burada dövlətin sosial siyasəti xüsusiyyətləri də təhlil olunur.

Müəlliflər belə bir qənaətə gəlmişlər ki, dilin yayılması dairəsinin genişlənməsi – ounu istifadəsini zəruri edən şərtlərin olmasıdır: onun xidmət etdiyi iqtisadi və siyasi əlaqələr, həmin dildə elmi, texniki, mədəni məlumatların ötürülməsi və s. Şəxsiyyətin dildə yaşaması, yəni dil mövcudluğu sosial-psixoloji, linqvistik, siyasi, fəlsəfi, sosioloji aspektlərdə təhlil olunur.

Beynəlxalq jurnallar nəşr olunur, o cümlədən «Language and Cognitive Processes» Impact Factor now 2.000 up from 1.603 in 2008 (2010 Thomson Reuters, 2009 JCR)

Ranked 8th out of 92 journals in Linguistics, Frequency: 10 issues per year. ISSN: 0169-0965, İnternet ISSN: 1464-0732. Bu jurnalda dilin istifadəsi ilə bağlı olan psixi hadisələr və proseslərin nəzəri və eksperimental tədqiqatların nəşri nəzərdə tutulmuşdur.

Azərbaycan elminin bu sahədə xidmətlərindən demək olar ki, azərbaycan dilinin ümumi problemləri kifayət qədər yaxşı öyrənilib tədqiq edilmişdir. Bununla belə sosiolinqvistika, dil psixologiyası, etnolinqvistika, koqnitiv psixologiya baxımından etnomədəni dəyərlərin qaranılması ilə bağlı koqnitiv proseslərlə bağlı dil strukturlarında baş verən dəyişikliklər demək olar ki, öyrənilməmişdir. Qismən bəzi cəhət və xüsusiyyətlərinə M.A.Həmzəyəvin, Ə.Bayramovun, Ə.Əlizadənin, İ.O.Məmmədovun, Ə.Əzizovun, N.Xəlilovun. A.Axundovun, V. Əhmədovun, G.Qurbanovanın, Ə.Rəcəblinin, C.Muradovun, F.Şiriyevin və s. tədqiqatlarında nəzər yetirilmişdir. Bəzi problemlərinə münasibət bildirən müəlliflərin əsərlərini qeyd edək:

Qeyd edək ki, dil prosesləri və onların azərbaycan xalqının mental inkişafına təsiri qeyd etdiyimiz müəlliflər tərəfindən ayrıca olaraq tədqiq edilməmişdir.

Ümumi qənaətimiz budur ki, öz aktuallığını təsdiqləyən və həllini gözləyən bir sıra məsələlər var ki, xalqımızın mənəvi-mədəni inkişafı baxımından xüsusi əhəmiyyət kəsb edir. Bunlar aşağıdakılardır:

-Danışanın dil şüurunun tədqiqi;

-Doğma dil strukturlarının özünəməxsusluğunun bərpası, doğma dilin tamhüqüqlu olmaq qabiliyyətini qoruyub saxlamaq zərurəti və bundan irəli gələn əsas vəzifələrin müəyyən edilməsi;

-Şəxsiyyətin dil tipologiyasında dil proseslərinin rolunun müəyyən edilməsi və digər, 4 saylı formada müəyyən etdiyimiz vəzifələrin yerinə yetirilməsi.

İnsanın ali mahiyyəti ilk növbədə ünsiyyət yaratmaq qabiliyyətində ifadə olunur. Məhz həmin qabiliyyətinə görə insan cəmiyyətinin çoxəsrli tarixi boyu müxtəlif, o cümlədən dil və dil ilə

bağlı olmayan işarələr sistemlərinin təkmilləşdirilməsi istiqamətində işlər aparılır ki, ünsiyyət imkanları daha da genişlənsin.

Dil ünsiyyət vasitəsi olaraq, ictimai inkişaf tarixində olduqca vacib rol oynamışdır. Müasir qloballaşma və ölkələr və dünya regionlarının qarşılıqlı asılılığın artması şəraitində dilin bu vəzifəsi müxtəlif istiqamətlərdə özünü ifadə edir.

Hər bir xalqın mədəniyyətində insanın və ümumiyyətlə varlığın mahiyyəti zənginliyi dil, poeziya, musiqi, həyat tərzi və üslubu ilə bağlı olan məişət adət-ənənələri müxtəlifliyində ifadə olunur. Müasir cəmiyyətdə bu işarələr sistemlərinin yaşaması birbaşa onların fəaliyyəti və digər regionlardan, digər xalqlardan gələn təsirlərlə «rəqabət» aparmaq və həmin rəqabətdən qalib çıxmaq bacarığı ilə bağlıdır. Bununla belə məlumdur ki, mədəniyyətin fəaliyyət göstərdiyi mühit xalqın mentallığının tələblərinə uyğun gəlməlidir. Müxtəlif dil məkanlarının və kommunikasiyalarının nisbətinin tarixi şəraiti çoxdilliliyinin (o cümlədən bilinqvizmin) qəribə çalarlarına gətirib çıxarır. Dövlət daxilində dillərdən istifadə zamanı yaranan bilinqvizm problemləri sırasında ən aktual olanı – dövlət dili və ondan istifadə edilməsi problemidir. Burada öz həllini çətinliklə tapan problemlərdən biri – dilin daşıyıcılarının sayının artırılması, dil vasitəsilə ötürülən informasiyanın həcminin çoxaldılması, istifadə edilməsi sahələrinin genişdəndirilməsidir. Məlumdur ki, etnik inkişaf ana dilinin bilməsini zəruri edir. Bununla belə bilinqvizm istər ana dilinin, istərsə də yad dilinin bilməsini nəzərdə tutur. Beynəlxalq dillər, ilk növbədə incilis dili «dünyaya pəncərə» rolunu oynadığı üçün həmin dillərin mükəmməl öyrənilməsi istəyi hər bir insan üçün təbiidir. Nəticədə tədris prosesində daha çox doğma yox, yad dilinə üstünlük verilir, yad dildə aparılan televiziya verilişlərinə daha çox baxılır və s.

Həm də ana dilinin istifadə edilməsində gərgin vəziyyət yaranır, bu da, öz növbəsində əsas mental dəyərlərinin formalaşması prosesinə təsir göstərir, burada getdikcə artan problemlər yaşanır, məsələn, işdə, evdə, bütövlükdə sosial mühitdə və s. Bir sıra dillərin qorunub saxlanılması problemi var, o cümlədən az daşıyıcıları olanların. Bilinqvizm tələbatı həmin dillərin daha tez sıradan çıxmasına gətirib çıxırır. Bir çox ölkələr müvafiq dil siyasətini həyata keçirməyə çalışsa da, mövcud vəziyyət hələ ki həmin siyasətin xeyrinə deyil. Bütün deyilənlər birbaşa ictimai şüur və KİV ilə bağlıdır. Buna görə də şüuru öyrənmək üçün burada cərəyan edən koqnitiv prosesləri dərindən öyrənmək lazımdır. Kütləvi informasiya vasitələri insan şüuruna məhz dil vasitəsilə təsir edir. Dilin zənginliyi isə KİV imkanlarını daha da genişləndirir və təsirli edir. Beləliklə, KİV sahəsinin insan psixikasına, ictimai rəyə təsiri olduqca zəngindir. Bunu daha geniş və əhatəli etmək üçün insan şüurunda formalaşan dəyərlər və normalar sisteminə əsaslanmaq lazımdır.

Bu isə öz növbəsində insan mentallığından, onun yaşadığı sosial mühitdən və şəraitdən asılıdır. Dil prosesləri birbaşa insan mentallığı ilə bağlı olduğu üçün yenə də şüurda formalaşan ideyalar, təsəvvürlər və məcazlarla bağlı prosesi bir də nəzərdən keçirək.

Ən mürəkkəb işarələr sistemindən biri olan dil tarixi şüurda və ümumiyyətlə insan tarixində «əlaqələndirici» rolunu indiyə qədər oynayıb və oynamaqdadır. Şifahi, yaxud yazılı formasından asılı olmayaraq dil, öz daşıyıcısından bəzən xəbərsiz onun özünə və dünyaya olan münasibətinə təsir göstərirdi və indii də göstərir. Poeziya, fəlsəfə dili olan azərbaycan dili bir çox dillərdən, şivələrdən və ləhcələrdən əmələ gələrək ahəngdarlıq və məlhəmlik ilə səciyyələnirdi, bu dilin fonetik strukturu və qrammatik quruluşu da onu öyrənmək üçün əlverişdi idi. Təsadüfi deyil ki, tez bir zamanda Cənubi Qafqazda bu dil əsrlər boyu xalqlararası ünsiyyət dilinə çevrilmişdir.

Sözlərin mənaları və mahiyyəti ilə bağlı olan obrazlar, assosiasiyalar uzun müddətə insan şüurunda, yaddaşında həkk olunur. Azərbaycanlıların yaşadıqları ərazilərdə dil proseslərin təkamülü həm də eyni zamanda tarixi şüurun təkamülüdür. Bu – çoxəsrli, uzun sürən bir prosesdir; buraya ən qədim tayfalarının dilindən tutmuş bu günə kimi bütün dillərdə baş verən

hadisələri və mərhələləri daxil etmək lazımdır. Əsas mərhələlər kimi burada türk, ərəb, fars, müasir dövrdə isə həm də rus dillərinin fəaliyyətdə olmasını göstərmək olar. Bunlardan hər biri insanların dünyaya olan münasibətə, ümumiyyətlə dünyanın qavranılmasına əhəmiyyətli dərəcədə təsir etmişdir.

Bununla belə məlumdur ki, hər bir dil daşıyıcısı mədəni özüngməxsusluğunun bir çox elementlərini itirmiş olur: o, dünyanı poetik baxımından qavraya bilmir, mili musiqiyə, tarixi keçmişinə, şifahi xalq ədəbiyyatına, məişətdəki adət-ənənələrinə biganədir, o, bədii ədəbiyyatın ideyalar və obrazlarını, ümumiyyətlə mili təfəkkürün özunəməxsusluğunu belə qavraya bilmir. Dilin məhvi – xalqın tarixi özündəşüurun məhvi deməkdir. Dillərin qarşılıqlı təsirinin istiqamətləndirilməsi, etnik birliyinin mili kontekstində onların qarşılıqlı şəkildə zənginləşdirilməsi – bu problemin həlli yollarından biridir. Beləliklə, Azərbaycan dilinin müasir daşıyıcısının koqnitiv imkanlarına təsir etməklə Azərbaycan identikliyinin formalaşması xüsusiyyətlərinin müəyyən etmək mümkün olur. Yəni insan şüuruna təsir etmək imkanı olduqca genişdir. Bu identikliyin istiqamətlərindən biri də siyasi sosiallaşma, siyasi mədəniyyətdir.

Kütləvi informasiya vasitələrində dilin istifadəsi böyük məharəti tələb edir. Jurnalistlər, yazıçılar, publisistlər və ümumiyyətlə mətbuatda, sosial şəbəkələrdə, teleekranlarda çıxış edən mütəxəssislər ilk növbədə öz dilinin ifadəliliyi ilə insanları özünə cəlb edir.

Doğma dil sahəsində mili prioritetlərin aşkar edilməsi, həmin dilin daşıyıcıları məhz dil vasitəsilə öz etnosunun mental dəyərlərini qavrayır; digər elmi ideya – dil bacarıqlarının inkişafı üzrə məqsədyönlü siyasətin həyata keçirilməsi yollarının müəyyən edilməsidir. Dilin qavranılmasının konkret yolları – məişət, ailə, təhsil sistemi, kütləvi kommunikasiya vasitələri, təsərrüfat fəaliyyəti formaları və s.-dir. Hal-hazırda yaşadığımız ictimai dövrün xüsusiyyətlərinə uyğun olaraq bu sahədə müəyyən irəliləyiş var. Məsələn, tədris sistemində yeni, interaktiv metodlarından istifadə olunur, bu da, öz növbəsində təbii dil vasitəsilə (ana dili və yaxud qeyri olsun) informasiyanın qavranılması və ötürülməsi işinin rahat yollarının axtarıb tapılması, bütün işarələr sistemlərinin müasir kommunikativ imkanlarının uzlaşdırılması ilə nəticələnir. Hər bir tələbə və şagirddə ritorik bacarıqlarının inkişafı zərurəti də qeyd olunmalıdır, çünki belə olanda, mental və emosional səviyyələrində informasiyanın qavranılması və ötürülməsi üçün yeni imkanlar yaranır. Sosial psixologiyanın ən yeni nailiyyətlərindən istifadə etməklə mili-mənəvi dəyərlərin qavranılması işində koqnitiv proseslərinin tədqiqi zərurəti var.

KİV-in ictimai şüura təsiretmə imkanlarını öyrənmək üçün xüsusi yolları var. Tədqiqat metodikası istər dil prosesləri sahəsində (ümumi və tətbiqi dilçilikdə işlənib hazırlanan tədqiqat metodları ilə), istərsə də ontologiyada, koqnitiv psixologiyada, ümumiyyətlə psixologiyada mövcud olan metodikalarla bağlıdır. İşin mərhələləri nəzəri materialların toplanılması, baza, yəni çöl tədqiqatları üçün əsas sahələrin müəyyən edilməsi, tətbiqi tədqiqatların keçirilməsi və toplanılmış materialların ümumiləşdirilməsindən ibarətdir. Bu istiqamətdə aparılan işlərin nəticəsində siyasi şüur sahəsində gedən prosesləri tədqiq etmək mümkün olacaqdır.

Bu car tədqiqatdan gözlənilən nəticələr – müəyyən etnik birliyin mentallığının formalaşması yollarının müəyyən edilməsi işində yeni metodların tətbiq edilməsidir; ilk növbədə söhbət Azərbaycan etnosundan gedir, burada müəyyən dil təsirləri vasitəsilə mentallığın formalaşmasının koqnitiv yollarının tədqiq olunması mümkün olur; toplanmış məlumatlar istər sosiologiya, istərsə də siyasi elm sahələri üçün də müəyyən yenilik təşkil edə bilər.

Indi isə kütləvi informasiya vasitələrinin şüura təsiri imkanlarının təhlilinə keçək. Cəmiyyətin sosial strukturuna və burada formalaşan sosial qruplarına uyğun olaraq kollektiv şüur formaları meydana gəlir, həm də şüura təsir vasitələrində seçim formalaşır. Yaşından və sosial vəziyyətindən asılı olaraq insanların maraq və mənafeləri meydana gəlir ki, bunlara təsir etmək imkanları da müxtəlif olur. KİV də öz növbəsində öz auditoriyasını formalaşdırır.

Sosial-mədəni və siyasi dəyərlərin və ənənələrin ötürülməsində və mənimsənilməsində informasiya ilə bağlı sistem əlaqələri aparıcı rol oynayır. Azərbaycanda həm texniki və informasiya ideyalarının və resurslarının, həm də siyasi nəzəriyyələrin və doktrinaların davamlı şəkildə formalaşmasını nəzərə alsaq, burada yaranan müxtəlif münasibətləri izləmək vacib və aktualdır. Deməli, media, dövlət qurumları, cəmiyyət və onun struktur qrupları, təbəqələr, fərdlər arasında formalaşan ünsiyyət imkanları və formaları geniş və mürəkkəbdir. Media dedikdə mətbuat, kitab nəşriyyatları, mətbuat agentlikləri, radio, televiziya, kino, İnternet, ümumiyyətlə, informasiyanın kütləvi şəkildə toplanması, işlənməsi və yayılmasını təmin edən bütün informasiya mənbələri başa düşülür.

Müxtəlif mediaların işləməsi və qavranılması ilk növbədə onların texniki xüsusiyyətləri ilə müəyyən edilir. Yəni çap yalnız məlumatın vizual qavranılması üçün nəzərdə tutulmuşdur; radio - eşitmə; televiziya - həm vizual, həm də eşitmə; və istifadəçilərin ən geniş spektrini birləşdirən dünya miqyasında Internet yeni, özünəməxsus virtual reallıq yaratmağa iddialıdır. Media, o cümlədən virtual mühit insanın dünya, cəmiyyət, mədəniyyət və özü haqqında təsəvvürlərini dəyişməyə başlayır. Bu mənada Internet özü ilə çoxsaylı mədəni və ideoloji problemlər gətirir ki, bu fenomenin konstruktiv və dağıdıcı tərəflərini vaxtında görmək üçün onların mahiyyəti yaxın gələcəkdə dərk edilməlidir. Unutmaq olmaz ki, kompüterin insanın köməyinə gəldiyi, vaxta qənaət etdiyi və onu adi işlərdən azad etdiyi hal ilə yanaşı eyni zamanda onun psixikasına və dünyagörüşünə dağıdıcı təsir göstərdiyi bir hadisədir [4].

Bizi maraqlandıran məsələlərdən biri KİV vasitəsilə hansı informasiya sahəsinin yarandığını, onun formalaşma tendensiyalarının və ictimai şüura təsirinin nədən ibarət olduğu problemidir. Bir tərəfdən, medianın təkamül prosesində bir çox müsbət şeylər ortaya çıxdı. Digər tərəfdən, onların həm texniki, həm də məzmunca köklü modernləşdirilməsi medianın məqsədinin keyfiyyətcə dəyişməsinə, onun kommersiyalaşmasına, siyasi və ideoloji baxışların köhnələrinin yerinə yenilərin əmələ gəlməsi və tətbiqi ilə inhisara alınmasına, yeni təbəqələrə xidmət göstərməsinə səbəb olmuşdur. Ilk növbədə media gərək qrup maraqlarına xidmət etməsinə, faktların təhrif edilməsinə və s. yol verməsin. Ümumi bir tendensiya aydın şəkildə ortaya çıxmışdır: media ictimai şüuru manipulyasiya edir, özü ilə yeni, indiyədək naməlum psixologiya və mədəniyyət gətirir, sosial-mədəni kommunikasiyaların mənasını, insanın özünüdərkini və onun ətrafındakı dünyaya münasibətini kökündən dəyişdirir.

Bütövlükdə, tədqiqatçıların hesab etdiyi kimi, kütləvi informasiya vasitələri dəyişir: cəmiyyətin informasiyalaşdırılması vasitəsindən ictimai şüurun formalaşmasında ən mühüm amilə çevrilir [8].

Xüsusilə fövqəladə hallar və hadisələr, seçki kampaniyaları, kəskin xarakter daşıyan siyasi və tarixi hadisələr zamanı medianın vətəndaşların kütləvi şüuruna təsiri olduqca böyük olmuşdur. Son əsrlərdə Azərbaycanda baş verən fövqəladə hallar və hadisələr ictimai şüurun formalaşmasında medianın aparıcı rolunu bir daha təsdiqləmişdir.

Burada kütləvi informasiya vasitələrinin fəaliyyətinin məzmununu təhlil etmək olduqca vacibdir: təkcə medianın fəaliyyətinin ümumi istiqaməti deyil, həm də onun mənəvi-əxlaqi əsasları, onların azadlıq və demokratiklik dərəcəsinin təhlili vacibdir.

Müasir dövrdə hökümət ilə medianın qarşılıqlı əlaqəsi proseslərinin xüsusiyyətlərini, formal olaraq müstəqil medianın auditoriyasına təsir üsullarını, mənəvi mədəniyyətin və kütləvi informasiya vasitələrinin inkişafındakı ümumi tendensiyaların öyrənilməsi olduqca vacib və aktualdır.

İctimai şüurun formalaşması amili kimi media fəaliyyəti problemi Azərbaycan cəmiyyətinin demokratikləşməsi ilə getdikcə aktuallaşır. Ölkəmizdə ictimai şüurun formalaşmasında ən mühüm amil kimi medianın rolu ilə bağlı tətbiqi tədqiqatların sayı getdikcə artır.

Müstəqilliyin və plüralizmin bütün tələblərinə cavab verən media sisteminin olması demokratiyanın və qanunun aliliyinin əsas meyarıdır. Mediaya gəlincə, istənilən demokratik cəmiyyətin əsaslandığı fundamental prinsiplər var. Bu, ilk növbədə, hakimiyyət bölgüsü, insan hüquqlarına və əsas azadlıqlara hörmətdir.

Fikrimizcə, media sistemi sahəsində vahid model yoxdur. Ölkəmizin özünəməxsusluğu ondan ibarətdir ki, burada gedən proseslər olduqca mürəkkəb xarakter daşıyır.

Mütəxəssislərin qeyd etdiyi kimi, "XX əsrin sonu, XXI əsrin əvvəllərində Azərbaycanda müstəqillik, azadlıq, demokratiya dalğası ölkənin inkişafı və Qərb dəyərlərinə yanaşması ilə bərabər, KİV-in də çox sürətli tərəqqisi və cəmiyyətdə mövqelərinin möhkəmlənməsi ilə müşayiət olundu. Bu iqtisadi-siyasi, sosial–mədəni, intellektual tərəqqi isə, öz növbəsində, cəmiyyətin inkişafının yeni mərhələyə keçidi ilə nəticələndi. Ölkədə demokratiya, plüralizm, fikir və söz azadlığının əsas daşıyıcılarından biri olan media insanların cəmiyyətin idarə olunmasında iştirakını labüdləşdirdi, onları ölkənin taleyüklü məsələlərində daha məsuliyyətli və fəal olmağa səfərbər etdi. İnsanlarda ölkə, Vətən, xalq üçün, onun taleyi üçün bir sahiblik, bir məsuliyyət hissi yaranmağa başladı. Bu yeni dalğa ölkədə prinsip və keyfiyyətcə yeni bir prosesin – açıq cəmiyyət quruculuğunun ilk cücərtiləri, simptomları idi. Kütləvi informasiya vasitələri – qəzetlər, jurnallar, teleradio proqramları, sənədli kinofilmlər və kütləvi informasiyanın müntəzəm formada yayıldığı digər vasitələr – cəmiyyətin inkişafına ciddi təsir göstərən, onun vəziyyətini və mahiyyətini müəyyənləşdirən siyasi sistemin tərkib hissəsidir. Onların fəaliyyəti cəmiyyətdə baş verən reallıqlara münasibət formalaşdırır, ictimai-siyasi təsir göstərir. KİV təkcə informasiya ilə kifayətlənmir, o həm də yeniliklərə şərh verir, ayrı-ayrı ideyaları, təlimləri, siyasi proqramları təbliğ və təşviq edir" [23].

Nəticə olaraq qeyd etmək lazımdır ki, müasir dövrdə informasiya kütləsi günü-gündən artır və onun insan şüuruna təsir etməsi imkanı güclənir. Belə şəraitdə KİV, "dördüncü hakimiyyət" olaraq insan şüuruna təsir etmək imkanlarını daima genişləndirir.

ƏDƏBİYYAT

1. Гумбольдт В. фон. Избранные труды по языкознанию. - М. , 1984.
2. Э.Сепир. Избранные труды по языкознанию и культурологии.
3. Мышление и речь. Л. С. Выготский. Избранные психологические исследования, М., 1956
4. S.M.Ervin, Ch.E. Osgood. Second language learning and bilingualism // Ch.E. Osgood, T.A. Sebeok (edit). Psycholinguistics. A survey of Theory and Research Problems. Bloomington. Indiana University Press, 1965
5. Jay L. Lemke, "Text Production and Dynamic Text Semantics" - Functional and Systemic Linguistics, ed. Eija Ventola, Berlin & New York: Mouton de Gruyter, 1991
6. Manned Frank, dos Sagbare unddas Unsagbare. Sludien zur deutsch-franzosischen Hermeneutik und Texttheorie, Frankfurt am Main: Suhrkamp, 1989
7. Ш. Балли, Общая лингвистика и вопросы французского языка, М., 1957
8. Gumperz J. J. The social group as a primary unit of analysis in dialect study. - In: Social dialects and language learning. Champaign, 1965.
9. Cazden C. B. The situation: a neglected source of social class differences in language use. - In: Sociolinguistics. Harmondsworth. 1972.
10. Швейцер А. Д. К проблеме социальной дифференциации языка (Вопросы языкознания. - М., 1982, № 5. - С. 39-48)
11. Караулов Ю.Н. Русский язык и языковая личность. М: Наука, 1987.

12. Языковая политика и социально-правовые аспекты адаптации мигрантов: проблемы, реализация, перспективы. 3-я международная научно-практическая конференция. 7-8 июня 2010 года. Тюмень, 2010
13. А.И.Белкин. Тенденции становления символической идентичности на примере граффити – сб. Теоретические проблемы этнической и кросс-культурной психологии. // Материалы Второй Международной научной конференции 26-27 мая 2010 года. Т.1. Этнопсихология как междисциплинарная область знаний. Смоленск, 2010, С.24-27
14. Məmmədov İ.O. Ekran, efir və dilimiz. Bakı, "Elm", 1989.
15. Əzizov E. Söz xəzinəsi (Söz haqqında araşdırmalar). Bakı: 1995
16. Əzizov E. Azərbaycan dilinin tarixi dialektologiyası (Dialekt sisteminin təşəkkülü və inkişafı). Bakı: 1999
17. Xəlilov N. Xalq təfəkkürü, sənətkar qüdrəti. Bakı: 1996.
18. Axundov A. Azərbaycan dilinin fonemlər sistemi (fizioloji, akustik, statistik, fonoloji tədqiqat). Bakı: 1973
19. Əhmədov B. Azərbaycan dili şivələrində fonosemantik söz yaradıcılığı. Bakı: 1994
20. Rəcəbli Əbülfəz. *Sosiolinqvistika*. Bakı: "Nurlan", 2004
21. Muradov C. Psixolinqvistika. Bakı: 2004
22. Şiriyev F. Dil və tarixi yaddaş. Bakı: 2008
23. Yusifov Tofiq. Açıq cəmiyyət və mətbuat // https://525.az/news/561-aciq-cemiyyet-ve-metbuat

KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İCTİMAİ ŞÜURUN FORMALAŞMASINDA ROLU

Rza Xaqan

XÜLASƏ

Məqalənin əsas vəzifəsi - kütləvi informasiya vasitələrinin fəaliyyətində vətəndaşların ictimai şüurunu manipulyasiya etmək meyllərinin səbəblərini araşdırmaqdır. Burada qeyd etmək lazımdır ki, media kütləvi kommunikasiyanı əsas funksiyasından məhrum edir. Söhbət həqiqətin, dünyanın estetik və əxlaqi mahiyyətin dərk edilməsindən gedir. Müasir Azərbaycanda kütləvi kommunikasiya problemlərinin nəzəri təhlili ictimai şüurun formalaşmasında medianın rolunun artırılması ilə bağlı mövqe ortaya qoymağa əsas verir. Media ictimai inkişafın, siyasi və mənəvi proseslərin mühüm amilinə çevrilib.

РОЛЬ СМИ В ФОРМИРОВАНИИ ОБЩЕСТВЕННОГО СОЗНАНИЯ

Рза Хаган

АННОТАЦИЯ

Основной задачей статьи является исследование причин склонности СМИ к манипулированию общественным сознанием граждан. Следует отметить, что средства массовой информации лишают массовую коммуникацию ее основной функции. Это вопрос понимания истины, эстетической и нравственной природы мира. Теоретический анализ проблем массовой коммуникации в современном Азербайджане дает основание для положения о повышении роли СМИ в формировании общественного сознания. СМИ

стали важным фактором общественного развития, политических и нравственных процессов.

THE ROLE OF THE MEDIA IN SHAPING PUBLIC CONSCIOUSNESS

Rza Khagan

SUMMARY

The main objective of the article is to study the reasons for the propensity of the media to manipulate the public consciousness of citizens. It should be noted that the mass media deprive mass communication of its main function. It is a matter of understanding the truth, the aesthetic and moral nature of the world. Theoretical analysis of the problems of mass communication in modern Azerbaijan gives grounds for the proposition on increasing the role of the media in shaping public consciousness. The media have become an important factor in social development, political and moral processes.

MÜASİR ŞƏHƏR YAŞAYIŞ EVLƏRİNDƏ İNTERYER TƏRTİBATI: ƏNƏNƏVİLİK VƏ MÜASİRLİYİN VƏHDƏTİ

Abbaszadə Nərmin Arzu qızı
AMEA-nın Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutu
Mədəni antropologiya ixtisaslaşmasının II kurs magistrantı
nermin.ava97@mail.ru

Açar sözlər: yaşayış evləri, ənənəvilik və müasirlik, interyer, maddi və mənəvi mədəniyyət.
Ключевые слова: жилые дома, традиционализм и современность, интерьер, материальная и духовная культура.
Key words: residential houses, tradition and modernity, interior, material and spiritual culture

Azərbaycan xalqının maddi-mədəni irsinin tarixilik və müasirlik aspektindən araşdırılması antropologiya elminin, xüsusilə də onun bir sahəsi olan mədəni antropologiyanın qarşısında duran vacib problemlərdən biridir. Mənəvi mədəniyyət, təsərrüfat və ailə məişəti ilə yanaşı, maddi mədəniyyət də bu maddi-mənəvi dəyərlərin üzvi tərkib hissəsini təşkil edir. Hər bir xalqın maddi mədəniyyəti dedikdə, ilk növbədə onun minilliklər boyu ilkin ibtidai təxəyyül və zəngin empirik bilikləri, əməli vərdişləri hesabına yaradıb təkmilləşdirdiyi, inkişaf etdirərək nəsildən-nəslə ötürdüyü maddi sərvətlər başa düşülür. Bu maddi elementlər davamlı xarakter daşıyaraq özünün baza əsasını, müəyyən xüsusiyyətlərini qoruyub saxlayır, eyni zamanda, müxtəlif tarixi mərhələlərdə mövcud olur, yeni sosial-siyasi mühitə, ictimai-iqtisadi formasiyaya uyğun dəyişir.

XX əsrin əvvəllərindən başlayaraq elmi-texniki inqilablar nəticəsində Azərbaycan xalqının ənənəvi həyat və məişət tərzinin sürətlə dəyişikliyə uğraması ötən yüzilliklərin əksər empirik biliklərinin, əməli vərdişlərinin unudulmasına gətirib çıxarmışdır. Beləliklə, bir çox təsərrüfat və sənət fəaliyyəti sahələri ilə bağlı maddi mədəniyyət nümunələri də muzey eksponatlarına çevrilmişdir. Yəni elmin, texnikanın, sosial-iqtisadi həyat şəraitinin inkişafı nəticəsində məişət tərzi, mədəniyyət sahələri böyük dəyişikliklərə məruz qalmış və xalqın minillər boyu yaratdığı maddi-mədəni sərvətlər öz ilkinliyini itirərək daha çox müasirləşmişdir. Belə ki, sözügedən dəyişikliklər özünü müasir evlərin daxili interyer tərtibatında da əks etdirmişdir.

Qeyd etmək lazımdır ki, Azərbaycan mədəni antropologiya elmində bu vaxta qədər xalqımızın ərsəyə gətirdiyi müasir şəhər yaşayış evlərinin daxili sahmanında etnomədəni xüsusiyyətlər mövzusu, demək olar ki, elmi baxımdan araşdırılmamışdır. Doğrudur, Azərbaycan xalqının məişət və mədəniyyətini geniş tarixi-etnoqrafik tədqiqata cəlb edən bir çox etnoqraflar olmuşdur. Məsələn, onlardan A.Ə.Paşayev Ordubad şəhərini, N.H.Ciddi Şamaxı şəhərini, Ş.Ş.Nağıyeva Quba şəhərini, İ.G.Məmmədova Təbriz şəhərini tədqiqat obyekti kimi seçsələr belə araşdırmalarının zaman kəsiyini XX əsrin əvvəllərinə kimi məhdudlaşdırmış, müasir şəhərlərimizdə tikilən yaşayış evləri və onların daxili sahmanı haqqında təəssüf ki, heç bir elmi mülahizə söyləməmiş, antropoloji tədqiqatlar aparmamışlar. Hətta xalqımızın maddi mədəniyyətinə həsr olunmuş ümumiləşdirilmiş əsərlər işıq üzü görsə də həmin monoqrafiyalarda Azərbaycanın müasir şəhərlərində yaşayış evlərinin daxili sahmanının etnomədəni xüsusiyyətləri öz əksini tapmamışdır.

Xalqımızın maddi mədəniyyətinin mühüm tərkib hissələrindən biri olan yaşayış evləri fondu öz rəngarəngliyi və tiplərinin müxtəlifliyi ilə Qafqaz regionunda özünəməxsus yer tutur. Mütəxəssislərin qənaətincə, ev bəşər tarixinin bütün dövrlərində insanın zəruri həyati ehtiyaclarını (yemək, yatmaq, təhlükədən qorunmaq, istirahət etmək və s.) ödəməyə xidmət edən ən mühüm məişət vasitəsi olub. İnsanın əməli fəaliyyətinin ilk məhsullarından olan yaşayış

evləri və onların müxtəlif tipoloji növləri məhsuldar qüvvələrin inkişaf səviyyəsi, təbii-coğrafi şərait, ictimai münasibətlər, ailə formaları, təsərrüfat məişəti və ümumən, cəmiyyətin sosial quruluşu ilə üzvi surətdə bağlı olmuşdur.

Xalq yaşayış evi tiplərinin yaranmasında ərazinin təbii-coğrafi şəraiti, əhalinin təsərrüfat məşğuliyyəti, inşaat materialları, tikinti texnikası və ailə məişəti müəyyənedici rol oynamışdır. Məhz bu amillərin təsiri ilə xalq yaşayış evləri müxtəlif tipdə olmuş, təbii mağaralardan (zağa, kaha, daran, sığnaq, kühül) müasir yaşayış evlərinə kimi uzun bir tarixi təkamül prosesi keçmişdir. "Tarixi-etnoqrafik anlamda ev təbii və süni surətdə düzəldilmiş məişət sahəsi, sığınacaq yeri olub, məhsuldar qüvvələrin sonrakı inkişafı nəticəsində çox böyük və mürəkkəb təkamül yolu keçmişdir. Məhsuldar qüvvələrin inkişafı ilə sıx bağlı olan yaşayış evi cəmiyyətdə əmlak bərabərsizliyinin yaranması və sosial təbəqələşmənin dərinləşməsindən sonra həm də sosial göstəriciyə, özünün mükəmməl memarlıq görkəmi ilə nüfuz, şöhrət rəmzinə çevrilmişdir" [2, s.113-114].

Müxtəlif ev tiplərinin formalaşmasında mövcud ictimai quruluşun, onun dəyişməsi ilə həmahəng həyat tərzinin də mühüm rolu olmuşdur. XX əsrin əvvəllərinə qədər Azərbaycan əhalisinin iqtisadi vəziyyətinin ağırlığı, ictimai-iqtisadi inkişafın zəif sürəti, mövcud tarixi şərait yeni tipli müasir evlərin yaranmasını uzun müddət ləngitmiş, bir sıra arxaik ev tiplərinin son zamanlara qədər qalmasına rəvac vermişdir.

Ev tiplərinə tarixi olaraq nəzər yetirsək deyə bilərik ki, Azərbaycanda ən qədim məskənlər ibtidai insanların ilk yaşayış evləri olan təbii və süni mağaralar olmuşdur. Təbii mağaralar öz növbəsində məhsuldar qüvvələrin inkişafı və bununla bağlı olaraq inşaat texnikasının təkmilləşdirilməsi nəticəsində süni mağaralar və qazma tipli evlərlə əvəz olunmuşdur [5]. Süni mağaraların Azərbaycan ərazisində neolit dövründən başlayaraq istifadə olunduğunu qeyd edən İ.M.Cəfərzadənin fikrincə, möhkəmlənən və iqtisadi cəhətdən güclənən ibtidai qəbilələr öz yaşayış yerlərini genişləndirməkdən əlavə, özlərinə əvvəlkindən daha əlverişli və formaca fərqli yaşayış məskənləri salmağa başladılar. Beləliklə, məişətə yeni məskən tipi – süni mağara daxil oldu. Daş hörgünün yaranması isə qazma və yarımqazma tipli evlərin formalaşmasında əsaslı rol oynamışdır.

İctimai inkişafın sonrakı dövrlərində xalqın yaşayış evi fonduna qazma, qaradam, möhrə ev, kərpic evlər, ağac evlər, daş evlər daxil olmuş, eləcə də əhalinin məişətində daha mürəkkəb memarlıq-konstruksiya quruluşuna malik ev tipləri meydana gəlmişdir. Bu evlər xalq arasında "işıqlı ev", "tənəbi ev", "aynabəndli ev", "ağ otaq", "imarət", "malikanə", "mülk", "qəsr" və s. adlanaraq daha çox varlı ailələrə məxsus idi. Sözügedən evlər adətən, hündür daş hasarlarla çevrələnir, alaqapılarla təchiz olunurdu. Həm də xarici kompozisiyası və onun tərkib hissələri ilə seçilir, ağac şəbəkəli qapı və pəncərələri ilə diqqəti cəlb edir, interyerdə divar və tavanlar zəngin bədii tərtibatı ilə göz oxşayırdı. Azərbaycanın Quba, Şəki, Şuşa, Gəncə, Bakı, Şamaxı, Ordubad və s. şəhərlərində belə ev tiplərinə tez-tez rast gəlmək olardı.

Azərbaycanın xalq yaşayış evlərinin yeni inşaat ənənələri ilə zənginləşməsi memarların yaradıcılığı ilə sıx surətdə bağlıdır. Yerli inşaat materiallarının növ müxtəlifliyini, xalqın xarakterini, həyat və məişət tərzini dərindən anlayan memarlar qazandıqları empirik bilik və təcrübələrini nəsildən-nəslə çatdıraraq inşaat ənənələrinin zənginləşməsində mühüm rol oynamışlar. Belə ki, XIX–XX əsrin əvvəllərində inşa olunmuş yaşayış evlərinin bu günədək gəlib çatan nümunələrinin timsalında Azərbaycan xalq sənətkarlarının yüksək bədii memarlıq və zəngin inşaat ənənələrinə malik olduqları aydın görünür. Təbii-iqlim və sosial-iqtisadi şəraitin təsiri ilə yanaşı, xalq memarlarının fərdi yaradıcılıq xüsusiyyətlərinin də burada böyük rolu olmuşdur. Taxtadan oyma naxışlı dekorativ tağbəndlər, müxtəlif rəngli şüşələrlə örtülmüş vitraj,

zərif işlənmiş şəbəkələr, zəngin bəzəkli eyvanlar və bir sıra başqa memarlıq ünsürlərinin yaradılması və tətbiq edilməsi yaşayış binalarına təqdirəlayiq bir görkəm vermişdir.

XX əsrin 30-50-ci illərindən başlayaraq həyata keçirilən sosial-iqtisadi və mədəni inkişaf tədbirləri nəticəsində Azərbaycan xalqının inşaat mədəniyyətinin zənginləşməsi prosesi xeyli sürətlənmişdir. Tikinti işlərində yeni inşaat materialları (mişar daşı, mişarlı taxta, şifer, tənəkə-dəmir örtük, yağlı boya, dəmir-beton plitələr, şüşə, sement və s.) geniş yer tutmuş, məhz bu tikinti materiallarının sayəsində də Azərbaycan xalqının yaşayış evi fonduna çoxmərtəbəli, iki və daha artıq girişi olan, mürəkkəb memarlıq-konstruksiya quruluşuna malik evlər silsiləsi daxil olmuşdur. Şübhəsiz ki, belə evlərin interyerində də yeni inşaat elementləri özünü büruzə vermişdir. "Xalq memarları, yaşayış binalarının ardıcıl inkişaf etdirilməsi və təkmilləşdirilməsi əsasında Bakıda H.Z.Tağıyevin evini, İsmailiyyə binasını, Səadət sarayını və onlarla belə gözəgəlimli məşhur yaşayış evlərini, Şəkidə Xan sarayını, Şəkixanovların evini, Qarabağda Pənahəli xanın sarayını, Şuşada Zöhrabbəyovların imarətini, Mehmandarovların, Əsəd bəy və Natəvanın evlərini, Naxçıvanda Naxçıvan xanlarının evini, Lənkəranda Tuğra xanımın və İsa bəyin evlərini, habelə digər qiymətli abidələri yaratmışlar" [5, s. 67-68].

Evlərin interyer tərtibatında ənənəviliklə müasirliyin müqayisəsinə nəzər saldıqda görürük ki, keçmişdə yerüstü tikilən şəhər və kənd yaşayış evlərinin əksəriyyətində müxtəlif məqsədlər üçün düzəldilmiş divar açırımları (taxça, zeh və ya rəf - ləmə, divar rəfi, yük yeri (camaxatan), dolab - xarxara, buxarı və s.) kimi mühüm elementlər olmuşdur. Məhz mebel ləvazimatının hələ ev məişətinə daxil olmaması və ya əksər əhali kütləsi üçün bahalığına görə əlçatmaz olduğundan istər şəhər, istərsə də kənd əhalisi divarda düzəldilən açırımlara böyük üstünlük verməyə çalışmışdır. Etnoqraf-alim F.Vəliyevin fikrincə, Azərbaycan xalq yaşayış evlərinin daxili sahmanında mühüm məişət elementlərindən biri yük yerinin (camaxatanın) olması idi. Məlumdur ki, pəyə, qazma və qaradam tipli evlərdə yük yeri daş, kərpic və ya ağac dayaqlar üzərində qurulan yükaltılardan ibarət idi. Yerüstü evlərdə isə bunun üçün xüsusi hazırlanan divar açırımları istifadə olunurdu.

Yük yeri evin ölçüsündən asılı olaraq iki və ya üç ədəd olurdu. Daş və ya kərpic hörgülü evlərdə yük yerinin eni təxminən 1,3 m, hündürlüyü 1,45 m, divarın içinə doğru batığı isə 60-70 sm-ə çatırdı. Oraya əsasən yataq ləvazimatı: yorğan-döşək, paltar, ehtiyat saxlanılan gəbə, kilim, palaz, yataq dəsti və s. yığılırdı. Bəzən evdə iki və ya daha çox yük yeri olduqda, onlardan hətta ərzaq saxlamaq üçün də istifadə olunurdu. Yük yerlərinin qabağını adətən, ipək və pambıq parçalardan tikilmiş saya pərdələrlə, varlı evlərində isə tikmə naxışlarla bəzədilmiş "zərəndaz" adlanan pərdələrlə tuturdular. Müasir evlərin daxili interyerinə nəzər saldıqda görürük ki, yük yerləri formasını dəyişsə də (bu bəzən kiçik otaq formasında ola bilir) mahiyyət etibarı ilə qalmaqdadır. Hazırda yük yerlərini müxtəlif mebellər əvəz edir və onların dizaynına nəzər saldıqda müasir dövrün tələblərinə uyğunlaşma müşahidə edilir.

Evlərin daxili səhmanındakı məişət elementlərindən bir digəri olan taxça gündəlikdə işlədilməyən ev avadanlıqlarının, qiymətli şeylərin, qadın zinət əşyalarının, paltar boxçasının (Naxçıvanda ona "paltar çarşovu" deyirdilər) saxlanılması üçün nəzərdə tutulurdu. Hər bir evdə, adətən, taxça bir cüt olmaqla, 140x80x25-30 sm ölçüdə simmetrik şəkildə buxarı yerləşən divarın sağ və solunda düzəldilirdi. XIX əsrin ortalarına kimi taxçaların qabağı, üzəri müxtəlif naxışlarla bəzədilən pərdələrlə tutulurdu. Sonralar, xüsusilə də XIX əsrin sonlarında tikilən yaşayış evlərində taxçalara qapı qoyulur, "qarğaburnu" ("qarğadili", "qulax") adlanan cəftə ilə bağlanırdı.

Gündəlikdə işlədilən qab-qacağı, azuqəni, çay və xörək dəstlərini taxçanın bir növü olan dolabda (dulada) saxlayırdılar. Taxça ilə müqayisədə dolab kiçik olub, təxminən 100x70x20-25 sm ölçüdə qurulurdu. Adətən, təkotaqlı evlərdə bir cüt dolab olurdu. Bəzən evin eyvanında da

dolaba təsadüf edilirdi. Şəki-Zaqatala bölgəsində dolabın bir növü olan xarxaraya, adətən yastıq, balış, mütəkkə, xırda döşək dəstləri (nalça, nimdər) yığılırdı. Hazırda istər müasir şəhərlərdə, istərsə də kəndlərdə dolablar evlərin daxili sahmanında önəmli rol oynayır. Təbii ki, tarixi dövr və mədəni ünsürlərin inkişafı dolabların formasının və üslubunun dəyişməsinə səbəb olmuşdur. Həmçinin müasir dövrə nəzər salsaq görərik ki, evlərin daxili interyerində Şərq və Qərb üslubunun vəhdəti əks olunur. Şərq və Qərb üslublarının təkcə Azərbaycanda deyil, dünyanın müxtəlif ölkələrində müşahidə olunur. Bu da onu deməyə əsas verir ki, müasir dünyada daxili interyerdə qərb üslubuna meyil olduğu qədər şərq ornamentlərinə də önəm verilir, tərtibatda öz yerini alır. Sözügedən proses heç də təəccüblü deyil çünki, tarixən həyata keçirilən köçlər, işğallar, ticarət əlaqələri və dolayısı ilə sivilizasiyaların daim vəhdətdə olması müxtəlif mədəniyyətlərin bir digərinin elementlərini mənimsəməsinə şərait yaratmışdır (təcrid olunmuş mədəniyyətlərdə bunun əksini müşahidə etmək mümkündür).

İnteryerin digər elementi olan üzərinə müxtəlif mətbəx avadanlığı yığılmış rəfi (zeh, ləmə) bir qayda olaraq, evin yan divarları boyunca düzəldirdilər. Bəzən evin bütün divarları boyu düzələn zehə də təsadüf olunurdu. Yaşayış evlərində zehin iki forması (divarda yerləşdirilmiş batıq şəklində və divardan 20-25 sm irəli çıxmış qomqamış kəmər və ya taxta qurşaq şəklində) geniş yayılmışdı. Durma tipli yaşayış evlərində zehi xüsusi əndazə ilə qovaq ağacından yonub düzəldirdilər. 3-4 sm qalınlığında, 2,5-3 m uzunluğunda və 20-25 sm enində olan taxtanın hər iki başından açılmış qoşa deşiklərdən eşilmiş köşə keçirərək dam çardağının pərdilərinə bağlayırdılar. Divara söykənmiş vəziyyətdə olan zehin üzərinə məişətdə az işlədilən və tez sınan ev avadanlığı müəyyən ardıcıllıqla və xüsusi zövq ilə yığılırdı. Zeh bir növ ailənin iqtisadi vəziyyətinin barometri idi. Oraya düzülmüş qabların sırasına, sayına, dəyərinə və müxtəlifliyinə görə ailə sahibinin maddi vəziyyətini müəyyən etmək olardı. Zehin daha yaraşıqlı və formalı görünməsi üçün, adətən, yük yerinin üstü ilə zehin altında qalan aralıq hissəyə bütün divar boyu rəngbərəng parçalardan bucağının biri aşağıya doğru meylli olmaqla üçbucaq formasında "zehqabağı" adlanan xüsusi biçimli qabaqlıq tuturdular. [5, s. 74-75].

Müasir şəhər yaşayış evlərində bütün bu interyer tərtibatı elementləri, demək olar ki, büsbütün formasını dəyişmişdir. Hal-hazırda şəhər evlərinin panel və daş hörgülərində divar açırımlarının müasir formalarına rast gəlinir. Məsələn, keçmiş ənənəvi yaşayış evlərinin daxili sahmanında xüsusi yer tutan yük yerini (camaxatanı) indi ya interyerdə xüsusi düzəldilmiş qarşısı taxta qapı ilə örtülən "saxlanc yerləri" (əhali buna çox zaman "kladovka" deyir), yaxud da giriş qapısının üstündə yerləşdirilmiş və ya eyvanda quraşdırılmış dolablar əvəz edir. Qeyd edək ki, müasir evlərin interyer tərtibatında yük yerinin forması dəyişsə də, mahiyyəti olduğu kimi qalır: yenə də ondan (saxlanc yerindən) ailənin məişət tələbatı üçün istifadə edilir.

Hazırda ənənəvi xalq yaşayış elərinin daxili sahmanında qərarlaşan taxça, rəfləmə-zeh, dolab-xarxara kimi interyer tərtibatı elementlərinə isə müasir şəhər evərində rast gəlinmir. Onları, bir qayda olaraq, divarboyu mebellər, səliqə ilə ağacdan düzəldilmiş dolabçalar, mətbəx mebelləri və s. əvəz edir.

Məlum olduğu kimi, şəhər və ya kənd yaşayış evlərinin daxili sahmanında keçmişdə buxarı adlanan interyer elementinin mühüm rolu olmuşdur. Ondan kənd yaşayış evlərində xörək hazırlamaq və evləri qızdırmaq, şəhər evlərində isə sırf evi qızdırmaq məqsədilə istifadə olunurdu. Yaşayış evlərinin əksəriyyətində buxarı kəllə divarın ortasında yerləşdirilirdi. Bəzən otağın künclərinin birində ocaq oyuğundan və divariçi tüstü borusundan ibarət buxarılara da rast gəlmək olurdu. Atmosfer çöküntülərindən mühafizə edilməsi və tüstünü yaxşı çəkməsi üçün buxarının başı hörülərək dam örtüyündən 80-90 sm hündürə qaldırılır, künbəzli, qövsvarı və ya üçbucaq formalı başlıqla tamamlanırdı. Şirvanın bağdadı tipli evlərində bu funksiyanı

"səbətbaca" yerinə yetirirdi. Abşeronda isə buxarısı olan evlər "dublalı evlər", yaxud da "dublabacalı evlər" adlanırdı.

Keçmişdə ancaq evlərin qızdırılmasına xidmət edən, dekorativ işləmələri ilə kamil sənət əsəri təsiri bağışlayan və quruluşca müxtəlif olan buxarılar isə əsas etibarilə varlıların evlərində olurdu. Evin sahibi, özünün iqtisadi imkanının durumundan asılı olaraq əsasən qonaq otağında (zalda) buxarı quraşdırırdı. Belə buxarıların həm ocaq yerinin ətrafı, həm də üstü borusunu üzəri kaşı (kafel) materialı ilə üzlənir, dekorativ işlənilməsi baxımından göz oxşayır, ətrafına iki ədəd yelləncək-kreslolar qoyulurdu. Belə olduqda buxarı evin qızdırılmasından daha çox istirahət məkanı təsiri bağışlayırdı.

Fərdi yaşayış evlərində buxarılarda od qalamaq üçün odun parçalarından istifadə olunsa da, çoxmərtəbəli binalarda onun yanacağını təbii qaz təşkil edirdi. Belə buxarılar çox zaman simvolik qızdırma vasitəsi təsiri bağışlayır, əsil mənada evin interyer tərtibatında ənənəni qoruyub saxlamağa xidmət edərək interyerin bədii tərtibatına xüsusi bir zövq qatırdı. Qeyd edək ki, yaşayış evlərində buxarı quraşdırılması ənənəsinə müasir dövrdə fərdi yaşayış evlərində (mülk, villa) daha çox, çoxmərtəbəli və çoxmənzilli yaşayış evlərində isə qismən təsadüf edilməkdədir. Baxmayaraq ki, hazırda yaşayış evlərinin əksəriyyəti mərkəzi istilik sistemi və fərdi qaydada kombi sistemi ilə qızdırılır, hər halda buxarı (kamin) quraşdırmağa üstünlük verən mənzil sahibləri də kifayət qədərdir. Bu element öz təyinatını qoruyur və elə müəyyən mənada keçmişin izlərini daşımağa xidmət edir.

XX əsrin 30-50-ci illərinin şəhər yaşayış evlərində mənzillərin divarlarını xalçalarla bəzəmək ənənəsi uzun müddət davam etmişdir. Belə bir ənənəni biz Naxçıvan şəhərinin varlı evlərinin timsalında daha aydın izləyə bilirik. Xalq yaşayış evlərinin tədqiqatçıları qeyd edirlər ki, keçmişdə Naxçıvan bölgəsinin "varlı ev"lərində xüsusi sifarişlə Təbriz ustaları tərəfindən toxunmuş xalı-xalça dəstləri ilə evi döşəmək adət halını almışdı. Tavan istisna olmaqla bütün döşəmə və divar bütöv xalçaya tutulurdu. Sifariş verilərkən evin qapı və pəncərə açırımlarının ölçüləri nəzərə alınırdı. Xalı döşəməni tam bağlamayanda, ona "kənarə" deyilən ensiz, uzunsov xalçalar əlavə edilirdi. Giriş qapısının astanasına isə "payandaz" atılırdı.

Müasir şəhərlərdə hazırkı dövrdə yaşayış evlərinin divarlarına əlvan naxışlı divar kağızları (oboy) vurulduğundan, artıq divarlara xalça asmaq ənənəsi aradan çıxır. Doğrudur, ata-baba ənənəsinə sadiq qalan bəzi mənzil sahiblərinin evlərində divarlardan xalça asmaq ənənəsi bu gün də müşahidə edə bilərik. Lakin bu bir həqiqətdir ki, müasir dövrdə şəhər həyatında keçmişin izi olaraq daha qiymətli sayılan qədim xalılara interyerdə xüsusi yer verilsə də onların divardan asılması halına çox az rast gəlinir.

Evlərin daxili sahmanında keçmişlə müasirliyin vəhdətinin bir nümunəsini də döşəməyə salınmış xalça-palazın, xalça əvəzləyicilərin (kovrolit) üstündən açıq üsulla soyulmuş qoyun dərilərinin atılmasında görmək olar. Belə ki, keçmiş məişətin təəssübünü çəkən, onu yaşatmağa çalışan, kənd interyer dizaynından bəhrələnməni mədəni və sağlam yaşamağın rəhni hesab edən ailələrinin evlərində bu interyer ləvazimatına tez-tez rast gəlmək mümkündür. Onlar yaxşı aşılanmış, yağ-piy qatlarından təmizlənmiş, uzun saçaqlı qoyun-qoç dərilərini həm döşəmənin soyuğundan qoruyucu vasitə kimi, həm də dekorativ bəzək vasitəsi kimi istifadə etməyə üstünlük verirlər. Keçmişdə olduğu kimi, hazırda da ev sahibinin maddi imkanından asılı olaraq döşəməyə keçə (garbıt), palaz, cecim, həsir (tumu – püzətumu, lığ tumu), kilim, xalça, gəbə və s. salanlara, üzərinə aşılanmış qoyun dərisindən ayaqaltılar qoyub, mütəkkə, balış və döşəkçələr (nalça, nimdər) düzərək istrahəti, yemək öynəsini döşəmə üzərində icra edənlərə təsadüf etmək mümkündür.

İnteryerin mətbəx əşyaları ilə bağlı olan və kifayət qədər dəyişikliyə uğrayan elementləri xüsusilə diqqətəlayiqdir. Belə ki, keçmişdə bulaq, kəhriz və quyu suları təbii şəkildə, çay suyu

isə su daşından süzdürülərək istifadə olunurdu. Su daşı məsaməli və qumlu daşlardan konusvari şəkildə yonularaq düzəldilir, ölçülərindən asılı olaraq 15-20, hətta 30 litrə qədər su tuturdu. Su daşı xüsusi ağac altlığa yerləşdirilir, altına su yığılmaq üçün qab qoyulurdu. Azərbaycanın aran bölgələrində yerləşən kənd və şəhər evlərinin demək olar ki, hamısında su daşı zəruri məişət avadanlığı hesab olunurdu. Bu ənənəni qoruyub saxlamağa çalışan bəzi şəhər ailələrinin mənzilllərində müasir dövrdə də su daşı istifadə olunmaqdadır. Baxmayaraq ki, müxtəlif su təmizləmə qurğuları, su filterləri geniş şəkildə şəhər məişətinə daxil olmuşdur, ancaq yenə də ənənəni qoruyub saxlayanlar su daşına müraciət etməkdədir.

Günümüzdə şəhər əhalisinin yaşayış evlərinin daxili sahmanında çay hazırlama avadanlığı kimi od samovarı, daş ütü (bütöv ütü, od ütüsü), misdən, gildən və dəmirdən hazırlanmış dekorativ səciyyəli məişət qabları (vaza, güldan, dolça, gülabdan, səhəng, güyüm, qumquma, qurt-qurt, sürahı, parç, birəlli (tayqulp), yuyunmaq və dini ayinlərin icrası zamanı dəstəmaz almaq üçün aftafa-ləyən (fəşir), lüləyin, kuzə, bardaq, cürdək, qülə, piti dopusu, sərpic, sərnic, badya, qablama, tiyan, cınqır, qapaqlı, çıraq, lampa, manqal və s.) az və ya çox dərəcədə rast gəlinməkdədir. Onların bəziləri dekorativ bəzək elementi kimi məişətə daxil edilsə də, bəzilərindən həqiqi mənasında əməli şəkildə istifadə edilməkdədir.

Hazırda yaranan yeni dəyişikliklər söyləməyə imkan verir ki, müasir yaşayış evlərinin daxili sahmanında ənənəviliklə müasirliyin vəhdəti kifayət qədər saxlanılmış, xalqımız öz keçmiş maddi-mədəni dəyərlərini qorumaqla yanaşı, baş verən müasir yenilənmələri də dövrün tələbi kimi qəbul etməyi bacarmışdır. Beləliklə, göstərilən nümunələr müasir xalq yaşayış evlərinin interyer tərtibatında ənənəviliklə müasirliyin vəhdətinin bariz göstəriciləri olub, yaşayış evlərinin daxili sahmanında etnomədəni varisliyin qorunub saxlanmasında başlıca rol oynayır, xalqın minilliklər boyu qazandığı empirik bilikləri, tikinti təcrübəsini bu günün və gələcək nəsillərin mədəni irsi kimi davam etdirilməsinə hədəflənir.

Şübhəsiz ki, mədəni hesab olunan hər bir xalq özünün tarixi keçmişinin layiqli etnomədəni dəyərlərini qorumalı, yeri gəldikdə onlardan yaradıcı surətdə istifadə etməli, bu dəyərlərin qədir-qiymətini praktik əməllərində göstərməyə çalışmalıdır. Tikinti təcrübəsində də, yaşayış evlərinin interyer tərtibatında da bunları müasir dövrümüzdə gerçəkliyi ilə görmək mümkündür.

ƏDƏBİYYAT

1. Azərbaycan etnoqrafiyası. Üç cilddə, II cild. Bakı, «Şərq-Qərb», 2007, 449.
2. Mustafayev A.N. Azərbaycanın maddi mədəniyyət tarixi (etnoqrafik materiallar əsasında tipoloji tədqiqat). Bakı, «Bakı Universiteti» nəşriyyatı, 2009, 232.
3. Mustafayev A.N. Şirvanın maddi mədəniyyəti. Bakı, Elm, 1977, 158.
4. Şamaxı (tarixi-etnoqrafik tədqiqat). Bakı, Aspoliqraf, 2013
5. Vəliyev F.İ. XIX-XX əsrin əvvəllərində Azərbaycanın maddi mədəniyyəti (tarixi-. etnoqrafik tədqiqat) Bakı, Şərq-Qərb, 2010, 307.
6. Джафарзаде И.М. Древнейший период истории Азербайджана (по археологическим данным) // Очерки древней истории Азербайджана. Баку: Изд-во АН. Азерб. ССР. 1956.
7. Велиев Ф.И. Некоторые этнографические особенности поселений городского типа в Азербайджане в XIX в. // Археология, этнография, фольклористика Кавказа (Материалы конференции). Баку, Нурлар, 2005.
8. Мехтиев А.М. Народная жилища Азербайджана: с древнейших времен до начала XX века. Тебриз, 2001.
9. http://beyleqanli.az/az/chapter.html?id=64
10. https://az.wikipedia.org/wiki/Buxarı

MÜASİR ŞƏHƏR YAŞAYIŞ EVLƏRİNDƏ İNTERYER TƏRTİBATI: ƏNƏNƏVİLİK VƏ MÜASİRLİYİN VƏHDƏTİ

Abbaszadə Nərmin

XÜLASƏ

Məqalədə Azərbaycan xalq yaşayış evi fondunda qərarlaşan ev tiplərinin daxili tərtibatında ənənəvi Şərq arxitekturasına məxsus sadəlik göstərilir, onların forma, plan quruluşu və tiplərindən asılı olaraq interyerindəki müvafiq dəyişikliklər diqqətə çatdırılır. Məqsəd evlərin daxili sahmanında olan dəyişikliklərdə xalqın sosial-iqtisadi və mədəni səviyyəsi, ənənələri, təsərrüfat fəaliyyətinin istiqaməti, maddi-texniki imkanları və s. amillərin həlledici rolunu müəyyənləşdirmək, ənənəvi interyer tərtibatının müasir şəhər evlərində təzahürünün günümüzdəki reallıqlarını tədqiq etməkdən ibarətdir.

Müasir şəhərlərdə yaşayış evlərində interyer tərtibatı, daxili sahmanının etnomədəni xüsusiyyətləri aşkar edilərək, bu sahədə ənənəviliklə müasirliyin qarşılıqlı vəhdəti müəyyənləşdirilir. Yaranan yeni dəyişikliklər söyləməyə imkan verir ki, müasir yaşayış evlərinin daxili sahmanında ənənəviliklə müasirliyin vəhdəti kifayət qədər saxlanılmış, xalqımız öz keçmiş maddi-mədəni dəyərlərini qorumaqla yanaşı, baş verən müasir yenilənmələri də dövrün tələbi kimi qəbul etməyi bacarmışdır.

ВНУТРЕННИЙ ПОРЯДОК В СОВРЕМЕННЫХ ГОРОДСКИХ ЖИЛЫХ ДОМАХ: ЕДИНСТВО ТРАДИЦИИ И СОВРЕМЕННОСТИ

Аббасзаде Нармин

АННОТАЦИЯ

В статье показана простота традиционной восточной архитектуры во внутреннем оформлении типов домов, представленных в фонде азербайджанского народного дома, приводятся соответствующие изменения в их интерьере в зависимости от их формы, планировки и типов. Цель состоит в изменении внутреннего содержания домов в соответствии с социально-экономическим и культурным уровнем населения, традициями, направленностью хозяйственной деятельности, материально-техническими возможностями и.т.д. Определение решающей роли факторов заключается в изучении современных реалий проявления традиционной планировки интерьера в современных городских домах.

Оформление интерьеров в жилых домах в современных городах выявляет этнокультурные особенности их внутреннего содержания, определяя взаимное единство традиционализма и современности в этой сфере. Возникшие новые изменения позволяют говорить о том, что во внутреннем содержании современных жилых домов в достаточной мере сохранилось единство традиционализма и современности, наш народ сумел не только сохранить свои прежние материально-культурные ценности, но и принять происходящие современные обновления как требование времени.

INTERIOR DESIGN IN MODERN URBAN HOUSING: A COMBINATION OF TRADITION AND MODERNITY

Abbaszade Narmin

SUMMARY

The article notices the simplicity of the interior design of the types of houses located in the the background of the Azerbaijani people's house, typical of traditional Oriental architecture, and draws attention to the relevant changes in the interior, depending on their shape, layout and types. The purpose is to change the people's socio-economic and cultural level , their traditions, direction of economic activity, material and technical capabilities, etc. in the changes in the interior of the houses, to determine the decisive role of the factors, to study the current realities of the manifestation of traditional interior design in modern urban homes.

The interior design of residential houses in modern cities clarifies the ethno-cultural features of the interior, and the mutual unity of tradition and modernity in this area are determined. The new changes allow us to say that the unity of tradition and modernity in the interior of modern housing is quite preserved, our people, in addition to preserving their former material and cultural values, have been able to accept modern renovations as a demand of modern period.

QLOBAL PROBLEM KİMİ URBANİZASİYANIN AZƏRBAYCANDA TƏZAHÜRLƏRİ VƏ SOSİO-MƏDƏNİ ADAPTASİYAYA TƏSİRLƏRİ

Bayraməli Şaxanım İlqar qızı
AMEA Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutu
Mədəni antropologiya ixtisaslaşması üzrə II kurs magistrant
xanim.bml@mail.ru

Açar sözlər: Urbanizasiya, şəhər, sosiomədəni adaptasiya, miqrasiya, kəndli miqrantlar.
Ключевые слова: Урбанизация, город, социокультурная адаптация, миграция, крестьянские мигранты.
Keywords: Urbanization, urban, socio-cultural adaptation, migration, peasant migrants.

Müasir dövrdə urbanizasiya prosesinin sosial-mədəni aspektdən öyrənilməsi mədəni antropologiyanın, xüsusən də onun müstəqil sahəsi olan şəhər antropologiyasının (urban anthropology) ən aktual problemlərindən birinə çevrilmişdir. Bu problemin antropoloji mövqedən öyrənilməsi ubanizasiya prosesində baş verən sosial-mədəni dəyişikliklərin mahiyyətini daha dərindən anlamağa imkan verir. Bu sosial-mədəni aspektləri tədqiq edə bilmək üçün ilk növbədə urbanizasiya prosesinin özünün mahiyyətini aydınlaşdırmaq lazımdır.

XXI əsrdə daha intensiv işlədilən urbanizasiya termininin kökü latıncadan götürülmüş "Urbanus" sözündən gəlir ki, bu da şəhər və yaxud da şəhərləşmə mənasını verir. Bu gün, ən sadə izah olaraq urbanizasiya dedikdə şəhərlərdə əhali sıxlığının artması, şəhərlərin böyüməsi nəzərdə tutulur. Lakin, bu tərif onun sırf demoqrafik proses kimi qiymətləndirilməsindən irəli gəlir. Nəzərə almaq lazımdır ki, urbanizasiya prosesi nəticəsində baş verən dəyişikliklər sadəcə kəmiyyət xarakteri daşımır. Bu dəyişikliklər, eyni zamanda, şəhərə köçmüş hər bir fərdin ictimai, sosial-mədəni həyatında da özünü biruzə verir. Belə ki, öz ənənəvi mədəniyyəti ilə köç etmiş kəndli miqrantlar həm "köhnə" dəyərləri yaşatmaq istəyir, həm də yeni mədəni mühitdəki yaşayış tərzinə uyğunlaşmağa çalışır. Lakin istənilən halda, ənənəvi mədəniyyətin assimilasiyası qaçılmaz olur. Bu baxımdan urbanizasiya prosesinin tədqiqi zamanı urbanlaşma prosesində baş verən dəyişikliklərin iki aspekti qeyd olunur: Fiziki və funksional aspekt. Fiziki aspekt şəhərlərin öyrənilməsində demoqrafik, statistik yanaşma olduğu halda, funksional aspekt yeni mədəni mühitdə insanların davranışında, həyat tərzlərində baş verən dəyişiklikləri öyrənməyi nəzərdə tutur.

Urbanizasiya haqqında danışarkən onu şəhərlərin, şəhər həyat tərzinin insanların həyatında əsas rol oynaması, şəhər əhalisinin artımı kimi qiymətləndirdiyimizdən belə bir sual yarana bilər ki, şəhər özü nədir? Nəyə görə insanlar bu həyat tərzinə uyğunlaşmaq üçün özlərinin ənənəvi yaşayış məskənlərini tərk edərək burada məskunlaşır? Şəhər həyat tərzi dedikdə nə nəzərdə tutulur?

Bəşəriyyət tarixində mühüm hadisələrdən sayılan şəhərlərin meydana gəlməsindən günümüzə qədərki uzun tarixi təkamül yolunu nəzərdən keçirdiyimiz zaman şəhər anlayışının ilkin mənasının sərhədlərinin genişləndiyini müşahidə edə bilərik. Təxminən e.ə. IV minillikdə Mesopotamiya adlanan tarixi bölgədə yaranmış şəhərləri xarakterizə edən əsas amil kimi kənd təsərrüfatı istehsalının meydana gəlməsi, insanların ovçu və köçəri həyat tərzindən oturaq həyat tərzinə keçməsi, əkinçilik və maldarlığın inkişafı ilə izafi məhsulun yaranması əsas götürülür. Müasir dövrdə isə şəhərlər iqtisadi inkişafın əsas dayağı, mədəniyyət, innovasiya, təhsil və siyasi güc mərkəzləridir. Burada əsas iqtisadi təminat kənd təsərrüfatına deyil, sənayenin təmərküzləşməsinə, istehsalın böyük qisminin fabrik və zavodların payına düşməsinə əsaslanır.

Şəhərlərin xarakteristikası, bu anlayışın izahı, tipologiyası ilə bağlı fikirlər hər zaman birmənalı qarşılanmamışdır. Şəhər anlayışına demoqrafik, sosio-iqtisadi və mədəni aspektdən yanaşmadan asılı olaraq müxtəlif meyarlar əsasında izah vermək olar. Demoqrafik baxımdan şəhər müəyyən sayda əhali nüfuzuna sahib olan ərazidir. Lakin, bu tərif şəhərin əsas mahiyyətini açmaq üçün kifayət etmir. Şəhər anlayışına sosio-iqtisadi mövqedən yanaşan Karl Marksa görə şəhər istehsal vasitələrinin(fabriklərin, zavodların), ticarət mallarının daha çox olduğu, yüksək zövqlərin, lüks ehtiyacların təmsil edildiyi yerdir. Şəhərə mədəni aspektdən yanaşmaya əsasən şəhər çox az insanın kənd təsərrüfatı ilə məşğul olduğu, ailələrin əsasən nüklear xarakter daşıdığı, müxtəlif sahələrdə ixtisaslaşmış peşə qrupları, sosial siniflər, məzhəblər kimi fərqli qrupların birlikdə yaşadığı ərazidir[4,s.263]. Şəhər inzibati ərazi vahidinin bu əlamətlər əsasında müəyyənləşdirilməsi bir sıra qanunvericilik aktlarında, o cümlədən "Azərbaycan Respublikasının ərazi quruluşu və inzibati ərazi bölgüsü haqqında" qanununda da öz əksini tapmışdır. Bu qanunun 2-ci maddəsinin 8-ci bəndinə əsasən *"Şəhər- əhalisinin sayı 15.000 nəfərdən yuxarı və onun əksəriyyəti sənayedə, iqtisadi, sosial və ya qeyri-istehsalat sahələrində(dövlət və ya bələdiyyə qulluğunda, kommunal təsərrüfatda, ictimai iaşə, mədəni və ya tarixi obyektlərdə və s.) məşğul olan, ətrafındakı ərazi vahidlərinin inzibati, iqtisadi və ya mədəni mərkəzləri olan inzibati ərazi vahididir".*

Hansı aspektdən nəzərdən keçirilməsindən asılı olmayaraq şəhərlər müasir dövrdə sivilizasiyanın əsasıdır. Bu gün urbanizasiya mürəkkəb hal alaraq təkcə şəhər mühitində baş vermir [1, s.314]. Kənd yerlərində, eyni zamanda, rayonlarda əhalinin artımı, qeyri-kənd təsərrüfatı məhsullarına olan tələbatın artması, elmin, texnikanın inkişafı ilə yeni sahələrdə müxtəlif peşə qruplarına olan tələbatın yaranması, yol infrastrukturunun inkişafı ilə şəhərlər və kəndlər arasında gediş-gəlişin asanlaşması kəndi şəhərdən ayıran spesifik xüsusiyyətlərin də yavaş-yavaş aradan qalxmasına səbəb olur. Kəndlər inkişaf edərək şəhər tipli qəsəbələr səviyyəsinə çatır, bunlar da öz növbəsində şəhərlə kənd arasında keçid məntəqəsini təşkil edir [1]. Məsələn, 1959-cu ilə qədər kənd statusu daşıyan İsmayıllı şəhəri 1967-ci ilə qədər şəhər tipli qəsəbə olmuş, sonra şəhər statusunu almışdır.

Hazırda mahiyyətinə görə mürəkkəb xarakter alan müasir mənada urbanizasiyanın tarixi XVIII əsrə gedib çıxır. XVIII əsrdə Avropada Sənaye İnqilabının başlaması ilə elmdə, texnikanın inkişafında tərəqqi baş vermiş, buxar gücü ilə çalışan maşınların istehsalına başlanılmış və bu da öz növbəsində digər sahələrdə inkişaf üçün şərait yaratmışdı. İctimai, demoqrafik sahələrdə mühüm dəyişikliklər baş vermiş, buxarlı maşınların gücü ilə istehsalatda artım olmuş, nəticədə əvvəllər cəmiyyətin ən çox üzləşdiyi ərzaq probleminin azalmışdır. Baş verən dəyişikliklər də öz növbəsində əhalinin sayına təsir göstərmiş, elmi-texniki tərəqqi əhalinin böyük bir qisminin şəhərlərdə məskunlaşmasına səbəb olmuşdu. Beləliklə, Sənaye İnqilabı ilk olaraq Avropada urbanizasiyanın tempinin sürətlənməsinə gətirib çıxarmışdır.

Sonrakı dövrlərdə, 1900-cü ildə Böyük Britaniyada müasir anlamda ubanizasiyanın baş verməsi, XX əsrin 70-ci illərində dünya əhalisinin sürətlə artması və bu əhalinin kənd və şəhərlər üzrə qeyri-bərabər məskunlaşması, bunun nəticəsi olaraq şəhərlərdə yoxsulluğun artması bu sahənin öyrənilməsinə olan marağı əvvəlki dövrlərə nisbətən daha da artırmışdır. XX əsrin ikinci yarısından etibarən bu qeyri-bərabər bölgünü daha çox diqqətə çatdırmaq məqsədilə antropoloq və sosioloqlar birgə fəaliyyət göstərərək müxtəlif layihələr hazırlamış, məqalələr, kitablar nəşr etdirmişlər. Amma urbanizasiya prosesinin əhəmiyyətini diqqətə çatdıra bilmək üçün qlobal fəaliyyətin olması zəruri idi. Bu baxımdan BMT-nin fəaliyyətlərini xüsusilə vurğulamaq lazımdır. XX əsrin ikinci yarısından etibarən BMT dünyanın 90-dan çox ölkəsində qeyri-hökumət təşkilatları, yerli hakimiyət orqanları ilə birgə fəaliyyət göstərərək müxtəlif konfranslar, tədbirlər həyata keçirmişdir. Məsələnin həllinin müzakirəsi üçün BMT-nin

Məskunlaşma Proqramı, yəni "Un-Habitat" proqramı dünya şəhər sammiti adı altında iclaslar keçirmişdir. Fəaliyyətin əsas məqsədi müxtəlif ölkələrdə urbanizasiya prosesinin yaratdığı mənfi cəhətləri-yoxsulluğu, işsizliyi, əhali sıxlığını aradan qaldırmaqdır. Bu məqsədlə BMT Baş Assambleyası 2013-cü ildə qətnamə qəbul etmişdir və hər ilin oktyabr ayının 31-i "Ümumdünya Şəhərlər Günü" kimi qeyd olunur.

Urbanizasiyanın başlanma vaxtı, tempi müxtəlif ölkələrdə fərqli olsa da, urbanizasiya bütün ölkələr üçün, o cümlədən Azərbaycan üçün də xarakterikdir. Son statistik məlumatlara əsasən ölkə əhalisinin 52.8%-i şəhər sakinidir. XIX əsrin sonlarında keçirilmiş siyahıya alınmada şəhər sakinləri ümumölkə əhalisinin 16.9%-ni təşkil edirdi.

Azərbaycanda müasir anlamda urbanizasiya prosesi XIX əsrin 70-ci illərindən başlamışdır. Həmin dövrdən başlayaraq şəhərlərin və şəhər əhalisinin sayında kəskin artım müşahidə olunur. Bu 1870-ci ildə baş verən "neft bumu" ilə əlaqədar idi. Neft sənayesinin sürətli inkişafı cəmiyyətin həyatında istər demoqrafik, istərsə də ictimai-iqtisadi, mədəni baxımdan dəyişikliklərə səbəb olmuşdu. Əhalinin sayında da kəskin artım müşahidə olunmuş, şəhərlərdə məskunlaşma prosesi sürətlənmişdi.

Növbəti yüzillikdə Bakı və ətraf ərazilərdə əhalinin artımı, həmçinin xaricdən buraya gələn miqrantlar hesabına baş vermişdi. 1908-1910-cu illərdə Rusiyadan Bakıda neft sənayesində işləmək üçün minlərlə rus miqrant öz ailəsi ilə birlikdə buraya köçmüşdü. Sözügedən dövrdə, həmçinin Cənubi Azərbaycandan, bir sıra Avropa ölkələrindən on minlərlə insan neft sənayesində baş verən artımla əlaqədar iş tapa bilmək üçün Bakıya miqrasiya edirdi. Bütün bunların nəticəsi olaraq, 1930-cu illərdən başlayaraq Azərbaycanda yeni tipli şəhər məskənləri yaranmışdır [2].

Azərbaycanda şəhər əhalisinin sayının artmasında iqtisadi faktor ilə yanaşı, milli-etnik kimliyimizə qarşı aqressiv münasibətlərin də böyük rolu olmuşdur. Belə ki, Qərbi Azərbaycandan XX əsrin əvvəllərindən başlayaraq sonlarına kimi üç mərhələdə deportasiyaya məruz qalan yüz minlərlə azərbaycanlı respublikanın fərqli ərazilərində məskunlaşmağa məcbur olmuşdur. 1988-ci ildə sonuncu deportasiyada 220 mindən artıq azərbaycanlı erməni vəhşiliyinə tab gətirməyərək doğma yurd-yuvalarını tərk etmək məcburiyyətində qalmışlar [9].

Keçən əsrin sonlarında Qərbi Azərbaycandan deportasiya və 90-cı illərdə Qarabağ müharibəsi nəticəsində bir milyona yaxın dinc sakinimiz öz torpaqlarını məcburiyyət qarşısında qalaraq tərk etmiş və müxtəlif rayonlarda, daha çox Bakı, Sumqayıt kimi iri şəhərlərdə məskunlaşmışlar. Qısa zaman ərzində Bakı, Sumqayıt kimi iri şəhərlərdə əhalinin artımı ilə planlanmamış urbanizasiya prosesi müşahidə olunmuşdur. Həmin dövrdə iqtisadi vəziyyətin də pis olması urbanizasiya prosesinin nataraz inkişaf etməsində böyük rol oynamışdı.

Azərbaycanda urbanizasiyanın sürətlənməsinin növbəti dalğası müstəqillik illərinin ilkin dövrlərinə təsadüf edir. Müstəqillik illərinin ilk dövrlərindən kollektiv təsərrüfatın(kolxozların) dağılması, aqrar sahədə baş verən tənəzzül işsiz kənd əhalisinin Bakıya axınını gücləndirdi. Sözügedən dövrdə SSRİ-nin süqutundan sonra müstəqil dövlət olan Gürcüstan Respublikasında iqtisadiyyatın pisləşməsi, ticarətin liberallaşması nəticəsində Gürcüstanda yaşayan azərbaycanlıların iş tapmaq üçün Bakıya axın etməsinə səbəb oldu [2]. Bu da xüsusilə Bakı şəhərinin infrastrukturunda gərginliyə səbəb olmuşdu.

Müasir dövrdə də elmi-texniki tərəqqinin inkişafı ilə Azərbaycanda urbanizasiya daha çox mirasiyalar hesabına baş verir. Kənddə yaşayan işsiz əhali üçün yeni iş yeri ümidi olan paytaxt Bakıya hər il minlərlərlə insan köç edir. Bakıya köçün əsas səbəbləri yeni iş imkanı ilə yanaşı, kəndlərə nisbətən yüksək maaş, tibbi imkanların, təhsilin kəndlərlə müqayisədə yüksək səviyyədə olması, yəni, daha yaxşı həyat standartlarına sahib olma arzusudur. Eyni zamanda, müxtəlif əyləncə tədbirlərinin keçirilməsi, asudə vaxtların kəndlərə nisbətən şəhərdə daha

əyləncəli keçirilməsinə imkanın olması Bakını kəndli miqrantlar üçün daha cazibədar edir. Beləliklə, bu ümidlər onu daşıyan hər bir fərdin nəhayətində kəndlərdən Bakıya axın etməsinə səbəb olur.

Şəhərə kəndlərdən axının belə intensiv baş verməsi bir sıra problemlərin də yaranmasına səbəb ola bilir. Şəhərlərdə əhali sıxlığı nəqliyyat vasitələrinin də çoxluğuna, istehlak məhsullarına tələbatı ödəmək üçün yeni fabrik və zavodların tikilməsinə olan ehtiyacı artırır. Bu da ekoloji mühitin korlanmasına, insan sağlamlığının mənfi təsirlərə məruz qalmasına səbəb olur. Eyni zamanda, miqrasiyalar hesabına baş verən və planlanmamış urbanizasiya şəhərlərdə işsizlik halının da çoxalmasına və bir sıra psixoloji-mədəni problemlərin yaranmasına səbəb olur.Yəni urbanizasiya prosesinin subyekti olan insan, eyni zamanda, bu prosesin mənfi təsirlərinə məruz qalan tərəf kimi çıxış edir.

Ötən əsrin sonlarından etibarən dünya təcrübəsində urbanizasiya prosesində insan faktoruna daha çox diqqət yetirilməyə çalışılmışdır. Bu da öz növbəsində antropoloqların, psixoloqların, sosioloqların bu sahəyə yönəlməsindən sonra baş vermişdir. Şəhər ərazisində əhali çoxluğunun səbəb olduğu problemlərdən yaranan gərginliklər, depressiya, stress hallarının çox olması urbanizasiya ilə bağlı tədqiqatlarda insan faktorunu daha ön plana çıxarmışdır. Eyni zamanda, müxtəlif məqsədlərlə şəhərə gəlmiş və fərqli mədəni xüsusiyyətləri daşıyan insanların birgə fəaliyyəti zamanı daha qabarıq görünməyə başlayan bu fərqlər urbanizasiya prosesinin öyrənilməsində antropoloqların rolunu daha da artırmışdır. Xüsusilə, antropoloqlar şəhərlərdə kəndli miqrantların həyat səviyyəsi, yeni mədəni mühitdə sosio-mədəni adaptasiyanın xüsusiyyətlərinin öyrənilməsinə, yəni sosial mühitin, fərdin gündəlik həyatda ailə, iş, təhsil kimi sahələrində baş verən adəti problemlərin öyrənilməsinə daha çox diqqət yetirirlər. Azərbaycanda da urbanizasiyanın güclənməsi Bakı, Sumqayıt, Gəncə kimi urbaniləşmiş ərazilərdə belə tədqiqatların aparılmasını zəruri edir.

Kəndlərdən, rayonlardan Bakı şəhərinə köç etmiş insanların sosio-mədəni adaptasiyalarında diqqət yetirilməli olan əsas məsələlərdən biri bu uyğunlaşmanın tempinə təsir edən faktorlardır. Ailə, cins, yaş, təhsil səviyyəsi, miqrantların motivasiyası, məskunlaşma ərazisi, informasiya və kommunikasiya texnologiyalarını mənimsəmə dərəcəsi, kəndli miqrantların şəhərdə yaşayış müddəti kimi faktorlar bu prosesdə mühüm rol oynayır. Bir sıra hallarda bu faktorlar sosio-mədəni adaptasiyanın sürətlənməsinə səbəb olduğu halda, bəzi hallarda ləngiməsinə səbəb ola bilir.

Belə ki, ailə institutu ənənəvi mədəniyyətin qorunmasına daha ciddi yanaşdığından yeni mühitdə uyğunlaşma bir qədər ləng gedə bilər. Ailə qohumluq əlaqələrinin şəhərdə də davam etdirilməsinə, el adətlərinin, bayram və yas kimi mərasimlərin kəndlərdəki kimi keçirilməsinə xüsusi diqqət yetirir. Lakin burada yaş faktorunun əhəmiyyətini də vurğulamaq lazımdır. Belə ki, yaşlı nəslin nümayəndələri gənc nəslə nisbətən yeni mədəni mühitin dəyərlərini daha gec mənimsəyir. Eyni ailədə valideynlərin yeni mədəni mühitə adaptasiyası ləng getdiyi halda övladların adaptasiyası nisbətən daha tez baş verir.

Yeni mühitə adaptasiyada miqrantların məskunlaşmaq üçün seçdikləri ərazinin də böyük rolu vardır. Maddi səbəblərdən Bakıya köç etmiş insanlar adətən gecəqondu məhəllələrində yaşamağa üstünlük verirlər. Onların belə məhəllələrdə öz ənənəvi yaşayış tərzini davam etdirməsi həm də sosial statusu və mədəni inkişaf səviyyəsi yuxarı olan insan qrupları ilə aralarında baryer səciyyəsi daşıyır. Eyni zamanda, miqrantların böyük bir qisminin təhsil səviyyəsinin aşağı olması, iş tapmaqda yaranan çətinliklər, günəmuzd işlərdə çalışaraq günün böyük qismini işdə keçirməsi bu baryeri daha da möhkəmləndirir. Belə ki, Bakıya təhsil almaq üçün gələn gənc qadınlar istisna olmaqla, qadınların böyük bir qisminin təhsil səviyyəsi aşağıdır. Bu qadınların günün böyük bir qismini evdə keçirməsi, asudə vaxtın da daha çox evdə

dəyərləndirilməsi, kişilərin isə əsasən işə fokuslanması, asudə vaxtın aşağı səviyyəli əyləncə məkanlarında(çayxana tipli məkanlarda) keçirilməsi sosial-mədəni adaptasiyanın ləng getməsinə səbəb olan amil kimi qeyd oluna bilər.

Sosio-mədəni adaptasiyanın tempinə təsir edən bir digər mühüm faktor isə miqrantın köçüb gəldiyi kəndlə əlaqənin hansı səviyyədə olmasıdır. Kəndli miqrantlar kəndlə olan iqtisadi və sosial əlaqələrini minimuma endirə bildikdə yeni mühitə adaptasiya daha rahat olur. Burada bir məsələni nəzərə almaq lazımdır ki, kəndli miqrantların kəndlə sosial əlaqələrinin zəifləməsi iqtisadi asılılığın zəifləməsi qədər rəvan getmir. Məsələn, hər nə qədər kəndli miqrantlar Bakıda iş taparaq öz iqtisadi təminatlarını, ehiyaclarını ödəsələr də, yenə də kənddən müəyyən qədər asılıdırlar. Xüsusilə, ərzaq məhsullarının kəndlərdən təmin edilməsi, eyni zamanda mövsümi istirahətlər, toy, yas və bayram kimi xüsusi günlərdə kəndlərə üz tutulması kəndlə olan sosial əlaqələrin qorunub saxlanmasına kömək edir. Belə olan halda kəndli miqrantların şəhər mühitinə sosio-mədəni adaptasiyası ləng inkişaf edə bilər.

Adaptasiyanın tempindən asılı olmayaraq ənənəvi mədəniyyətin transformasiyası qaçılmazdır. Təbii ki, bu proses kəndli miqrantların həyatında dərhal baş vermir. Bu transformasiya ən az bir və ya ikinci nəslin həyatında baş verə bilər. Keçirilən sorğuya əsasən ənənəvi həyat tərzi, məşğuliyyətlər, toy və bayram kimi el şənliklərinin keçirilməsi, ailə münasibətləri, insanlar arasında kommunikasiyanın xüsusiyyətləri kəndli miqrantların şəhərdə qalaraq öz həyatını qurmuş övladlarında dəyişikliyə uğrayır. Onlar bu ənənlərin qorunmasına valideynləri qədər ciddi yanaşmırlar.

Lakin burada bir məsələni qeyd etmək lazımdır ki, biz hər nə qədər yeni mədəni mühitə adaptasiya desək də, kəndli miqrantların köçüb gəldikləri şəhər mühiti tamam yad mədəni mühit deyil. Şəhər mədəni mühiti ənənəvi mədəniyyətin üzərində inkişaf etmiş, onun daha müasirləşmiş versiyasıdır. Yəni kəndli miqrantlar onlar üçün mədəni şoka səbəb olacaq olduqca yad bir mədəni mühitə düşmürlər və onların sosio-mədəni adaptasiyalarında ciddi əngəl törədəcək maneələr yoxdur. Həmçinin onu da qeyd etmək lazımdır ki, müasir dövrdə elmin, texnologiyanın, kütləvi informasiya vasitələrinin inkişafı və internet şəbəkəsinin kənd və rayon ərazisini öz ağuşuna alması ənənəvi mədəniyyətin spesifikliyinin qismən aradan qalxmasına səbəb olur. Kənd mühiti artıq şəhər mühitinə uyğun inkişaf edir və şəhər həyat tərzi getdikcə kəndli əhalinin miqrasiya etmədən də əsas həyat tərzinə çevrilir. Kəndlərdə fərdiyyətçilik hisslərinin artması, bununla da ailə, evlilik, qohumluq kimi mikro-sosial institutlarda dəyişikliyin baş verməsi, qida rasionunda qeyri-kənd təsərrüfatı məhsullarının artması, evlərin istər interyer, istərsə də eksteryer dizaynının şəhərlərdəkinə uyğun olması kəndləri bir növ "şəhərlərin filialı"na [1, s.314] çevirir. Buna görə də kənd və şəhər cəmiyyətlərini fərqləndirən sosio-mədəni xüsusiyyətləri qeyd etmək günü-gündən çətinləşir.

Müasir dövrdə elmin, texnikanın inkişafı, mövcud olan iqtisadi, siyasi vəziyyətlə əlaqədar olaraq həyat şəraiti, yaşayış normaları daim dəyişir. Bu hal istər kənd mühitində, istərsə də şəhər mühitində baş verir. Dəyişən həyat şərtləri, insanların sosial-psixoloji vəziyyətlərinin bu dəyişimlərdən təsirlənməsi urbanizasiya prosesində yeni baxışların yaranmasını zəruri edir. Eyni zamanda, urbanizasiya prosesinin ildən-ilə Azərbaycanda sürətlənməsi bu məsələdə sosial-mədəni tədqiqatların əhəmiyyətini vurğulayır.

Ötən il ölkəmiz üçün əlamətdar hadisələr baş vermiş, 30 ilə yaxın işğal altında olan torpaqlarımızın 44 günlük müharibə ilə işğalına son verilmişdir. İşğaldan azad olmuş ərazilərdə daimi məskunlaşma üçün quruculuq-bərpa işlərinin aparılması, kənd təsərrüfatının canlandırılması üçün bir sıra tədbirlərin görülməsi prioritet məsələlərimizə çevrilmişdir. Bu məsələlərin tam nəzarətdə və planlı olması, postkonflikt zonalarda kənd təsərrüfatının canlandırılması üçün dünya təcrübəsindən yararlanılması, dayanıqlı məskunlaşmanı təmin etmək

üçün yeni iş imkanlarının yaranması və ən nəhayətində bu ərazilərdə quruculuq-bərpa işlərinin "Ağıllı kənd" və "Ağıllı şəhər" layihələri ilə həyata keçirilməsi əhalinin kəndlərdən Bakıya və ətraf şəhərlərə axınının tempinin ləngiməsinə böyük təsir edəcəyi proqnozlaşdırılır. Həmçinin xarici ölkələrin, o cümlədən Türkiyə, Böyük Britaniya, İtaliya, İsrail və Macarıstanın azad edilmiş ərazilərin bərpasına dəstək verməsi, müxtəlif sahələrə investisiyaların ayrılması yeni iş imkanlarının da yaranmasına səbəb olacaq. Kənddən şəhərə miqrasiyanın ən əsas səbəbi işsizlik, yeni iş imkanları olduğundan, Qarabağda yeni imkanların yaranması yeni urbanizasiya mərkəzinin də yaranmasına səbəb ola bilər.

"Böyük qayıdış"la urbanizasiyanın istiqamətinin fərqli olması, yeni ərazilərdə urbanizasiya prosesinin başlanğıcı bu ərazilərdə daimi məskunlaşma üçün kompleks tədqiqatların aparılmasını zəruri edir. Xüsusilə, öz ata-baba yurdlarından ayrı düşən və 30 il ərzində daha çox Bakı və ətraf şəhərlərdə yaşayan məcburi köçkünlərin yeni layihələr əsasında qurulmuş, mövcud kənd və şəhərlərdən fərqlənən "Ağıllı kənd" və "Ağıllı şəhər"lərdə məskunlaşdırılması, yəni, yeni mədəni mühitdə yaşayış əhalinin yeni mühitə sosio-mədəni adaptasiyasının xüsusiyyətlərini tədqiq etməyi, bu da öz növbəsində antropoloqların rolunu zəruri edir.

ƏDƏBIYYAT

1. Əfəndiyev Vüsət. Urbanizasiya və Azərbaycanın şəhər yaşayış məskənləri. Bakı, "Bakı Universiteti" nəşriyyatı, 2002, 397 s.
2. Əfəndiyev V.Ə., Qasımova F.E. Azərbaycanda urbanizasiyanın müasir vəziyyəti və onun inkişaf istiqamətləri. Bakı, "Bakı Universiteti", 2013, 8 s.
3. Muradov Ş., C.Baxış. Azərbaycan Respublikasında etno-demoqrafik proseslər: tarixi dəyişkənlik və reallıqlar. Bakı, "Avrora", 2013, 135 s.
4. Ehlinaz Torun. Kırsal kalkınmanın sağlana bilmesi için köy-kent arasındakı farklılıkların minimize edilmesi. 6s.
5. Gencay Serter. Şikago okulu kent kuramı: Kentsel ekolojik kuram. Ankara: Ankara Üniversitesi, 2013, 10 s.
6. Sinem Yeles Karaman. Sosyo-Kültürel adaptasyon sürecinde yabancı uyruklu üniversite öğrencilerinin kültürlerarası iletişim duyarlılığı. Konya, 2018. 145 s.
7. Yasemin Hayta. Kent kültürü ve değişen kent kavramı. Bitlis Eren Üniversitesi Sosyal Bilimler Enstitüsü Dergisi, 2016, ss 165-184
8. Amrit Kumar Bhandari. Urban anthropology: An overview of the discipline and scope. Himalayan Journal of Sociology & Anthropolog- Vol. IV. 2010, 14 s.
9. https://docplayer.biz.tr/62950793-Urbanizasiya-v@-onun-yaratdigi-ekoloji-probleml@r.html
10. https://xxi.com.tr/i/dunya-kentlesme-gunu-icin-gau-habitat-arastirma-merkezinden-aciklama
11. https://www.ncbi.nlm.nih.gov/pmc/articles/PMC6191118/

QLOBAL PROBLEM KİMİ URBANİZASİYANIN AZƏRBAYCANDA TƏZAHÜRLƏRİ VƏ SOSİO-MƏDƏNİ ADAPTASİYAYA TƏSİRLƏRİ

Bayraməli Şaxanım

XÜLASƏ

Məqalədə urbanlaşma prosesinin tarixi köklərindən, müasir dövrdə inkişaf tempindən, bu prosesin nəticələrindən, eyni zamanda qlobal problem kimi Azərbaycanda təzahüründən bəhs olunur. Aparılan tədqiqatlara əsasən dünya əhalisinin yarıdan çoxu, Azərbaycanda isə əhalinin 52%-i şəhər və şəhər tipli qəsəbələrdə yaşayır. Əhalinin şəhərlərdə belə artımı doğum halının yüksək olması ilə deyil, daha çox miqrasiyalarla bağlıdır. Belə olan halda əhalinin şəhərlərdə sünii artımı bir sıra problemlərin yaranmasına səbəb olur. Urbanizasiyanın inkişaf tempinin hər gün biraz daha intensivləşdiyi Azərbaycan da bu problemlərdən yan keçməyib.

Müasir dövrdə urbanizasiyanın qlobal problem kimi təzahür etməsi bu hadisəyə daha ətraflı; sosial-iqtisadi, demoqrafik və antropoloji tədqiqatları özündə ehtiva edərək kompleks yanaşmanı zəruri edir. Urbanizasiya aktual problem kimi tədqiq edilməyə başlanıldığı dövrdən XX əsrin sonlarınadək əsasən şəhərlərin inkişafının iqtisadi-coğrafi, ekoloji amillərinə, eyni zamanda urbanizasiyanın səbəb olduğu iqtisadi, demoqrafik problemlərə daha çox diqqət yetirilirdi. Bu qlobal hadisənin subyekti olan insan, onun yeni mədəni mühitə adaptasiyasına isə daha az diqqət ayrılır. Bu məqalədə urbanizasiya prosesinin əsası olan miqrasiya məsələsinə, kəndli miqrantların yeni mühitdə adaptasiyasına və buna təsir edən faktorlara nəzər yetirilmişdir.

ВЫЯВЛЕНИЕ УРБАНИЗАЦИИ В АЗЕРБАЙДЖАНЕ, В КОНТЕКСТЕ ГЛОБАЛЬНОЙ ПРОБЛЕМЫ: ОСОБЕННОСТИ И ПРОБЛЕМА СОЦИОКУЛЬТУРНОЙ АДАПТАЦИИ

Байрамали Шаханим

АННОТАЦИЯ

В данной статье рассказывается исторические корни процесса урбанизации, темпы развития в современное время, результаты этого процесса, а также его проявление в Азербайджане как глобальная проблема. В результате проведённых исследований было выявлено, что больше половины населенных пунктов, также 52% населений Азербайджана проживают в городских областях или за городом. Увеличение численности произошло неспроста, причиной этому является миграция. Параллельно с этим, указанная причина, повлекла за собой ряд некоторых проблем. К сожалению данный проблемы не прошли мимо и Азербайджана.

Возникновение урбанизации как глобальной проблемы современности требует комплексного подхода; включая экономические, демографические, социологические и антропологические исследования. С начала исследования урбанизации как актуальной проблемы и до конца XX века больше внимания уделялось экономико-географическим, экологическим факторам городского развития, а также экономическим и демографическим проблемам, вызванным урбанизацией. Как наиболее важный фактор урбанизации, меньше внимания уделяется людям и их адаптации к культурной среде. В данной статье основное внимание уделяется миграции, которая является основой

процесса урбанизации, адаптации сельских мигрантов к новой среде и факторам, которые на нее влияют.

THE MANIFESTATION OF THE GLOBAL URBANIZATION PROBLEM IN AZERBAIJAN: ITS FEATURES AND THE PROBLEM OF SOCIO-CULTURAL ADAPTATION

Bayramali Shakhanim

SUMMARY

This article discusses the historical roots of the urbanization process, the pace of development in modern times, the results of this process, as well as its manifestation in Azerbaijan as a global problem. According to several studies carried out, more than half of the world's population and 52% of the population in Azerbaijan live in cities and urban areas. Such population growth in the city is not natural, and it occurred due to migration. In this case, the artificial population growth in cities causes a number of problems. Azerbaijan, where the pace of urbanization is intensifying day by day, could not avoid these problems.

The emergence of urbanization as a global problem in modern times necessitates a comprehensive approach; including economic, demographic, sociological and anthropological research. From the beginning of the study of urbanization as an urgent problem until the end of the twentieth century, more attention was paid to the economic-geographical, environmental factors of urban development, as well as economic and demographic problems caused by urbanization. As a most important factor of urbanization, less attention is paid to humans and their adaptation to the cultural environment. This article focuses on migration, which is the basis of the urbanization process, the adaptation of rural migrants to the new environment and the factors that affect it.

SOSİAL DÖVLƏT NƏZƏRİYYƏLƏRİ

İsgəndərov Yadigar Xanlar oğlu
BDU-nun II kurs magistrantı
yadigarisgenderov99@gmail.com

Açar sözlər: sosial monarxiya nəzəriyyəsi, intervensionist sosial dövlətin radikal nəzəriyyəsi, güc resursları yanaşması, "post-sənaye" təzyiqi, sosial demokratiya və rifah kapitalizmi
Ключевые слова: теория социальной монархии, радикальная теория интервенционистского социального государства, подход "энергетические ресурсы", "постиндустриальное" давление, социал-демократия и капитализм благосостояния
Key words: theory of social monarchy, the radical theory of the interventionist social state, the "power resources" approach, "post industrial" pressures, social democracy and welfare capitalism

Alman filosofu, tarixçisi, iqtisadçısı Lorenz fon Şteynin (1815-1890) əsərləri ilk nəzəri sosial dövlət konsepsiyasının hazırlanmasında elmi prioritet məhz olmuşdur.

L.fon Şteyn belə bir müddəadan çıxış edirdi ki, istənilən monarxiya sosial islahatların monarxiyasına çevrilməyə mənəvi cəsarət tapmasa, bundan sonra boş kölgəyə çevriləcək, despotizmə çevriləcək və ya respublikada məhv olacaq. Beləliklə, Lorenz fon Şteyn sosial monarxiya nəzəriyyəsinin əsasını qoydu və sonralar sosial dövlət nəzəriyyəsinə çevrildi.

Lorenz fon Şteynin anlayışına görə dövlət sosial ədalətin yeganə təminatçısıdır və beləliklə, "bütün digər sosial institutlar və maraqlar üzərində yüksəlir". Bu əsasda XX əsrin filosofu Pyotr Kozlovski L.fon Şteyni dövlətin apoloqu və dövlətin cəmiyyətin gücündən tam müstəqilliyinin müdafiəçisi hesab edir.

Belə ümumiləşdirici şərhlə razılaşmaq çətindir, çünki L.fon Şteyn özünün sosial-fəlsəfi konsepsiyasını hazırlayarkən birmənalı olaraq dövlət iradəsinin formalaşmasında xalqın üzvi iştirakını təmin etməyə çalışırdı. Lakin onun üçün xalqın "iştirakı" "xalqın təmsilçiliyi deyil, dövlət siyasətinin işlənib hazırlanmasında və həyata keçirilməsində xalqın mənafeyinin, istəklərinin, ruhunun maksimum nəzərə alınması deməkdir. Yalnız xalqın belə iştirakı dövlət hakimiyyətinin müstəqilliyinə xələl gətirməyəcək".

Lorenz fon Şteynin tədqiqatları və bütün sonrakı tarixlər göstərir ki, sosial dövlət fenomeni öz təbiətinə görə açıq-aşkar siyasi xarakter daşıyır ki, bu da hakimiyyətin ictimai-siyasi sabitliyi qorumaq üçün öz üzərinə şüurlu şəkildə sosial öhdəliklər götürməsi deməkdir. Bu baxımdan, sosial dövlətin müasir nəzəriyyəçisi E.A.Lukaşeva L.fon Şteynin gəldiyi nəticələrin düzgünlüyünü təsdiq edərək deyir: dövlətin vətəndaş cəmiyyətinin işlərinə qarışmaması və hüquqi bərabərlik dərin faktiki bərabərsizliyə, iqtisadi böhranlara və sinfi mübarizəyə səbəb oldu. Bütün bunlar dövlətin yeni keyfiyyət vəziyyətinə keçməsini və yeni funksiyalar yerinə yetirməsini tələb edirdi" [7].

Sosial dövlət nəzəriyyəsinin mahiyyətindən irəli gələn yeni funksiyalar bunlardır:

- hakim siniflərə münasibətdə özünü göstərən və onun köməyi ilə inhisarçılığın məhdudlaşdırılması, əmək münasibətlərinin tənzimlənməsi, iqtisadiyyatın tənzimlənməsi, sosial proqramlar və ehtiyaclar üçün vəsaitlərin təmərküzləşməsi kimi vəzifələrin həll edildiyi məhdudlaşdırıcı funksiya;
- sosial sığorta, sosial təminat problemlərini həll edən, təhsil və tibbi xidmət imkanlarını təmin edən təminat funksiyası;

- zəmanət funksiyası. Zəmanətlər vermək və onları konstitusiya səviyyəsində insan və vətəndaş hüquqları sistemi şəklində təmin etməklə, dövlət, əslində, bir şəxsə borclu olur, ona təkcə dövlətdən yardım almaq deyil, həm də almaq hüququ verir. zəmanət verdi [8].

1879-cu ildə Adolf Vaqner (1835 - 1917) intervensionist sosial dövlətin radikal nəzəriyyəsinin əsasını qoymuşdur. O, ilk növbədə xüsusi mülkiyyətə və böyük ölçüdə xüsusi qərar qəbul etməyə əsaslanan sosial və iqtisadi nizamı qəbul etsə də, dövlətə sosial və iqtisadi məsələlərdə böyük, müsbət rol təyin etmişdi və bununla da fərdiyyətçiliyin mənəvi cəhətdən qənaətbəxş və sabit barışıq əldə edəcəyinə ümid edirdi. Onun fikrincə, dövlət təkcə mülkiyyət və müqavilə hüquq və öhdəliklərini yenidən müəyyən etməməli, həm də iqtisadiyyatın müəyyən sahələrinə (məsələn, dəmir yollarına) sahib olmalı və onları idarə etməlidir [9]. Bundan əlavə, o, iqtisadi proseslərə, məsələn, qoruyucu tariflər, mütərəqqi gəlir, miras vergiləri və sosial sığorta sxemləri vasitəsilə korrektəçi şəkildə müdaxilə etməlidir. Beləliklə, A.Vaqner Bismarkın və onun davamçılarının iqtisadi və sosial islahatlar siyasətinə, sosial ədalət və sosial sabitliyə dair qayğıların birləşdiyi və onlara tabe olan siyasətlər üçün yol açdı və ya ən azından dəstəklədi. Dini (yəni protestant), etik, güclü millətçi və antisemit arqumentlərdən istifadə edərək (sonuncusu ömrünün sonuna doğru bir qədər zəiflədi), A.Vaqner böyük torpaq sahibləri və dövlət bürokratiyası arasında ittifaq yaratmaq üçün əbəs cəhdi dəstəkləmişdi [10].

Fridrix Naumann (1860-1919) sosial dövlət nəzəriyyəsini bir qədər fərqli istiqamətdə inkişaf etdirmiş, həmkarlar ittifaqlarına və fəhlə hərəkatlarını dəstəkləmiş, aşağı təbəqələrin sosial rifahı ilə bağlı siyasət işləyib hazırlamışdı [11].

Naumanın gənclik dövrü həm də xristian sosializminin çiçəklənmə dövrü idi. Sosializm sözü bu birləşmədə ictimai-siyasi deyil, etik xarakter almışdır. F.Naumann düşünürdü ki, Rəbbin padşahlığında əxlaqi prinsiplər və motivlər var, amma qanunlar, proqramlar və paraqraflar yoxdur. Xristian praktiki proqramın nöqtələrini rədd edə və ya qəbul edə bilər. İlahi nizamın hazırda mövcud olduğu tezisindən çıxış edərək, gələcəyin sosial-demokratik idealını pisləmək də yanlışdır.

Naumann vurğulayırdı ki, müqəddəs yazılarda hansı idarəetmə formasının və ya hansı iqtisadi nizamın daha düzgün olduğuna dair heç bir xüsusi göstəriş yoxdur. Bununla belə, o yazırdı ki, burada sosial məsələnin həlli motivlərinin aydın göstəriciləri var. Bu motivlərə uyğun olaraq, Naumann mövcud cəmiyyətdə islahatların aparılmasını təklif edir [12].

1971-ci ildə Qaston Viktor Rimlinger "Avropa, Amerika və Rusiyada rifah siyasəti və sənayeləşmə" ilə bağlı araşdırmasında belə nəticəyə gəldi ki, gəlirlərin qorunmasının yüksək təşkil olunmuş formasına ehtiyac cəmiyyət sənayeləşdikcə və şəhərləşdikcə artır və bu ehtiyac sosial-iqtisadi nizamın təbiətindən asılı deyil. Sosial təhlükəsizliyin "kapitalizmdə olduğu kimi sosializmdə də vacib olduğunu" vurğulamaqla yanaşı Rimlingerin tədqiqatı müxtəlif rejimlərdə qəbul edilmiş tamamilə fərqli yanaşmaları da tanıdı və sosial dövlətlərin inkişafında bir sıra digər amillərin əhəmiyyətini vurğuladı. Bunlara "sosial müdafiənin inkişafında müəyyənedici amil kimi sinfi münasibətlərin vurğulanması", "siyasi sistemin xarakteri" və ideyaların rolu daxildir [3].

1980-ci ildə Valter Korpi "Kapitalist demokratiyalarda sosial siyasət və bölmə münaqişəsi" adlı kitabında sosial dövlətə "güc resursları" yanaşmasını tətbiq etmişdi. Korpiyə görə "güc resursları" yanaşmasının əsas prinsiplərini aşağıdakı kimi qeyd etmək olar:

- Enerji resurslarına nəzarət cəmiyyətdaxili bölgü proseslərinin fəaliyyətinə, bu proseslərin nəticələrinin nə olduğuna və bölgü münaqişəsinin necə formalaşmasına təsir edən əsas amildir. Ona görə də sosial dövlətin strukturunun müəyyən edilməsində güc resurslarına nəzarət böyük rol oynamışdır.

- Kapitalist demokratiyalarda güc resurslarının bölgüsü həm millətlərə görə, həm də zamanla dəyişə bilər.
- Kapitalist demokratiyalarda əsas güc resurslarının sinfi strukturlarla əlaqəli olduğu güman edilir. Mobilləşdirilə və istifadə oluna bilən enerji resurslarının növləri siniflə əlaqəli şəkildə fərqlənir. Bazarda kapital və iqtisadi resurslar hakimiyyətin əsasını təşkil edir. Bunun əksinə olaraq, siyasət sahəsində əsas güc resursları səsvermə hüququ və kollektiv fəaliyyət üçün təşkilatlanma hüququdur.
- Siyasi demokratiya maraqlar toqquşmalarının emalında mühüm rol oynayır [6].

Peter Flora və Yens Alber "Qərbi Avropada modernləşmə, demokratikləşmə və sosial dövlətlərin inkişafı" (1986) əsərinə əsasən, Qərbi Avropada müasir sosial dövlət yeni sənaye işçi sinfinin spesifik problemlərinə cavab olaraq yaranmışdır və müasir sosial dövlətin on doqquzuncu əsrin sonlarında Avropada yaranması faktı beləliklə, sadəcə olaraq dünyanın bu regionunda əldə edilən sənayeləşmə və demokratikləşmənin nisbətən yüksək səviyyələri ilə izah oluna bilər.

Bununla belə, Flora sosial dövlətin təkamülünü modernləşmənin universal aspekti kimi görsə də, Avropada mövcud olan sosial dövlətlərin müxtəlifliyini də tanıdı. Sosial dövlətlərin müxtəlifliyinə baxarkən, Flora institusional infrastrukturun ən azı iki əsas ölçüsünün müvafiq olduğunu müdafiə etdi:

- dövlətin rifah institutlarına, yəni dövlətin sosial dövlətə "nüfuz etmə" dərəcəsi;
- rifah institutlarının sosial fərqliliyi əks etdirmə dərəcəsi.

Flora fərqli sinfi strukturların müxtəlif növ sosial dövlətlərə səbəb olduğunu və məsələn, sənaye işçi sinfi nə qədər homogen olsa, vahid gəlir təminat sisteminin inkişaf etdirilməsi şanslarının bir o qədər çox olduğunu müdafiə etdi [5].

Sosial dövlətin təhlilinə daha bir struktur yanaşma ilk növbədə Paul Pierson tərəfindən hazırlanmışdır. 1996-cı ildə nəşr olunan "Sosial dövlətin yeni siyasəti" kitabında "yeni rifah siyasəti"ni irəli sürmüşdür. Piersonun fikrincə, sosial dövlətin inkişafını daha dəqiq təhlil etmək üçün ona ixtisar və qənaət kontekstində fərqli yanaşma lazımdır. O, sosial dövlətlərə olan təzyiqlərin əsasən struktur hesabını qəbul edir və bildirirdi ki, güc resursları yanaşması bu təzyiqləri izah etməyə o qədər də kömək etmir. Pierson sosial dövlətin dörd əsas "post-sənaye" təzyiqini müəyyən edir:

- *Məhsuldarlığın artımının yavaşlaması və iqtisadi inkişafın zəifləməsinin istehsaldan xidmət məşğulluğuna keçidlə əlaqələndirilməsi.* Pierson qeyd edir ki, zaman keçdikcə məhsuldarlığın yüksəldilməsi davamlı iqtisadi inkişafın açarıdır. Bununla belə, əksər qabaqcıl ölkələrdə istehsalatdan xidmət məşğulluğuna qədər baş verən kütləvi peşə dəyişikliyi bu məhsuldarlığın artımını pozmaq təhlükəsi yaradır. Müəllifə görə xidmətlərin istehsala xas məhsuldarlıq artımı ilə uyğunlaşa bilməsi ehtimalı çox azdır. O, istər-istəməz bunun zamanla iqtisadi artımın yavaşlamasına səbəb olacağını deyirdi. Bu da öz növbəsində "sosial dövlətlər üçün kəskin problemlər" yaradacaq.
- *Hökumət öhdəliklərinin tədricən genişlənməsi, yetkinləşməsi və böyüməsi.* Pierson ikinci təzyiq mənbəyini sosial dövlətlərin yetkinləşməsi kimi müəyyən edir. Əvvəlki onilliklərdə tətbiq edilən siyasət tədbirləri indi öz yetkin səviyyələrinə yüksəlmiş və nəticədə tələb olunan maliyyələşdirmə səviyyəsi yüksəlmişdir. Pierson bu prosesin ən mühüm komponentləri kimi səhiyyə və pensiyaları qeyd edir.
- *Yaşlı əhaliyə demoqrafik keçid.* Mütəfəkkir yazırdı ki, bütün inkişaf etmiş ölkələrdə əhalinin qocalmasına yaxşı müəyyən edilmiş meyl, məsələn, səhiyyə və pensiya xərclərinin artması hesabına sosial dövlətə əhəmiyyətli təzyiqlər yaradacaq. Əhalinin qocalması uzunömürlülüyün artması və doğum nisbətinin aşağı düşməsi nəticəsində yaranır, bu, həm yaşlı

insanların daha uzun ömür sürməsi (və buna görə də onların sayının daha çox olması), həm də gənc yaş mötərizələrində insanların daha az olması deməkdir.

- *Məişət strukturlarının transformasiyası.* Pierson tərəfindən müəyyən edilən son əsas təzyiq ev təsərrüfatlarının strukturlarında dəyişiklik və ev təsərrüfatları ilə iş arasında əlaqə olmuşdur. Buraya qadınların ödənişli işçi qüvvəsində iştirakının kütləvi şəkildə artması, doğum səviyyəsinin aşağı düşməsi, həm tək valideynliyin artması, həm də tək insanlar və yaşlı insanların yaşamaq meylinin artması nəticəsində yaranan ev təsərrüfatlarının strukturunda dəyişiklik kimi bir sıra bir-biri ilə əlaqəli məsələlər daxildir. Bu dəyişikliklər ilkin olaraq ənənəvi kişi çörək verən ailə strukturu əsasında hazırlanmış sosial dövlətləri üzərində təzyiq yaratmışdır. Pierson hesab edir ki, qadınların iştirakının artması təkcə sosial dövlətə əlavə gəlir gətirmir, həm də uşaq baxımı kimi yeni ictimai sosial xidmət növlərinə tələblər yaradır. Pierson eyni zamanda tək valideyn ailələrinin sayının artmasının dövlət dəstəyi olmadığı halda belə ev təsərrüfatlarının aşağı gəlirə malik olma ehtimalını sosial dövlətlər üzərində təzyiq yaratmaq kimi görür [4].

Aleksandr Hiks 1999-cı ildə "Sosial demokratiya və rifah kapitalizmi: gəlir təhlükəsizliyi siyasəti əsri" əsərində sosial dövlətin və rifah sistemlərinin inkişafında fəhlə sinfinin və ya sosial demokratiyanın rolunu bir daha vurğulamışdı. Hiksin təxminən 1880-ci ildən başlayaraq sosial dövlətlərin inkişafı ilə bağlı keyfiyyət və kəmiyyət araşdırması sübut etmişdir ki, siyasi təşkilatlar və işçilərin təşkilati siyasət gəlir təhlükəsizliyi siyasətini inkişaf etdirmək üçün fəaliyyət göstərən ən davamlı və güclü qüvvələrdir [1].

Evelin Huber və Con Stivens 2001-ci ildə çap olunan "Sosial dövlətin inkişafı və böhranı: qlobal bazarlarda tərəflər və siyasətlər" kitabında 1945-ci ildən etibarən dövrə diqqət yetirərək kəmiyyət və tarixi yanaşmaları birləşdirmiş, (a) sinfi güc, b) dövlətin quruluşu və dövlət-cəmiyyət münasibətləri və (c) beynəlxalq iqtisadiyyatda və dövlətlər sistemində mürəkkəb münasibətləri əhatə edən güc strukturları yanaşmasından istifadə etmişdilər. Onların əsas qənaətləri budur ki, sosial-demokratik hakimiyyət səxavətli hüquqlara malik, sosial xidmətlərin dövlət təminatına, əməyin səfərbərliyinə, vergi və transfer sistemi vasitəsilə yenidən bölüşdürülməsinə böyük diqqət yetirən böyük sosial dövlətlərin qurulmasına gətirib çıxardı [2].

ƏDƏBİYYAT

1. Alexander Hicks - Social Democracy and Welfare Capitalism: A Century of Income Security Politics (1999)
2. Evelyn Huber and John Stephens - Development and Crisis of the Welfare State: Parties and Policies in Global Markets (2001)
3. Gaston Victor Rimlinger - Welfare policy and industrialization in Europe, America, and Russia (1971)
4. Paul Pierson - The New Politics of the Welfare State (1996)
5. Peter Flora, Jens Alber - Modernization, Democratization, and the Development of Welfare States in Western Europe (1986)
6. Walter Korpi - Social policy and distributional conflict in the capitalist democracies (1980)
7. Осейчук В.И., Конституционно-правовые проблемы строительства в России демократического правового социального государства : автореф. дис. д-ра юрид. наук. – Тюмень, 2009. – С. 22 luka.eva
8. file:///C:/Users/Admin/Desktop/BDU/Dissertasiya/PDF/teoriya-sotsialnogo-gosudarstva-osnovnaya-ideya.pdf (estratov lorenz)
9. https://ru.wikipedia.org/wiki/%D0%

10. https://infopedia.su/17xb1d7.html
11. https://germanhistorydocs.ghi-dc.org/docpage.cfm?docpage_id=1159
12. http://www.dslib.net/vseobwaja-istoria/socialno-politicheskaja-koncepcija-fridriha-naumana.html

SOSİAL DÖVLƏT NƏZƏRİYYƏLƏRİ

İsgəndərov Yadigar

XÜLASƏ

Məqalədə müxtəlif dövlətlərdə yaranmış sosial dövlət nəzəriyyələri haqqında fikirlər yer almışdır. Məqaləyə nəzər salsaq görərik ki, sosial dövlət nəzəriyyəsi XIX əsrdə baş verən sənaye və aqrar inqilablar, eləcədə urbanizasiya prosesinin genişlənməsi və muzdlu işçi qüvvəsinin artması ilə əlaqədar formalaşmışdır. Həmin dövrdən etibarən Avropada əhalinin minimum rifahının təmin olunması üçün mütəfəkkirlər, dövlət xadimləri öz sosial dövlət nəzəriyyələrini irəli sürmüşlər. Onlar öz nəzəriyyələrini yaradarkən, sosial dövlət anlayışına müxtəlif mövqelərdən yanaşmışlar.

ТЕОРИИ СОЦИАЛЬНОГО ГОСУДАРСТВА

Искендеров Ядигар

АННОТАЦИЯ

Статья содержит мнения о теориях социального государства, возникших в разных странах. Если мы посмотрим на статью, то увидим, что теория социального государства формировалась в связи с происходившими в XIX веке промышленной и аграрной революциями, а также расширением урбанизации и ростом наемной рабочей силы. . С этого времени мыслители и государственные деятели выдвигали свои теории социального государства, чтобы обеспечить минимальное благосостояние населения Европы. Разрабатывая свои теории, они подходили к понятию социального государства с разных точек зрения.

SOCIAL STATE THEORIES

Isgandarov Yadigar

SUMMARY

The article contains opinions on the social state theories that have emerged in different countries. If we look at the article, we can see that the theory of the social state was formed in connection with the industrial and agrarian revolutions that took place in the XIX century, as well as the expansion of urbanization and the growth of the hired labor force. Since that time, thinkers and statesmen have put forward their social state theories to ensure the minimum welfare of the population in Europe. In developing their theories, they approached the concept of social state from different perspectives.

ГЛОБАЛЬНЫЕ РИСКИ СОВРЕМЕННОСТИ

Муталлимова Лейла
магистрант II курса БГУ
l.aqazade97@gmail.ru

Açar sözlər: globalizm, risk, Davos Dünya İqtisadi Forumu, risklərin idarəedilməsi
Ключевые слова: глобализация, риски, Всемирная Экономическая конференция в Давосе, управление рисками.
Key words: globalization, risks, The World Economic Forum, risk management

Современный мир, ввиду своей сложности и многогранности, характеризуется различными процессами (политические, экономические, социальные и т.д), среди которых основное место занимает процесс глобализации. Понятие «глобализация», основоположником которого принято считать американского ученого Т. Левита, представляет собой процесс интеграции человечества в единое целое. Глобализация предполагает вступление государств мира и общества в новую эпоху взаимодействия, характеризующейся безграничностью и универсальностью.

Происходящие в условиях глобальной современности процессы приносят в нашу общественность не только возможности без границ, но так же и риски. Английский социолог Энтони Гидденс (1938) сравнивает современный мир с системой, структурными элементами которой являются риски, создаваемые человечеством. Неотъемлемой чертой современного переходного общества становится его рискогенность. Особое внимание в своих работах Э. Гидденс обращает на то, что теперь не только действие, но и отказ от принятия решений может привести к возникновению рисков Если раньше риски имели более локальный характер и распространялись на те или иные сферы, то в мире, где стираются границы и все ведущие сферы переплетены между собой, они несут глобальный характер.

В современной социологии риск рассматривается как общенаучное понятие и объект междисциплинарных исследований (А.П. Альгин, Н. Луман). Н. Луман связывает риск с такими социологическими категориями, как выбор, решение, коммуникация. Э. Гидденс соотносит его с такими феноменами, как «институционализированная среда», «рефлексивная модернизация», доверие.

В целом, для социологии риск – это категория, которая включает в себя характеристику тех условий социальной жизни субъектов в состоянии перехода от состояния неопределенности к состоянию определенности и, во-вторых, саму деятельность в этих условиях, где появляется возможность обоснованного выбора с учетом оценки вероятности достижения предполагаемого результата или неудачи.

Учитывая данный фактор, ежегодно на разных форумах и конференциях обсуждаются вопросы о существующих и возможных глобальных рисках, их влиянии на современную экономику, политику и социальную жизнь мировых государств, и вероятных последствиях этих рисков [2].

Одна из наиболее авторитетных в мире экспертных площадок, на протяжении нескольких десятилетий оценивающая глобальные риски и тенденции современного мира, — ежегодный Всемирный экономический форум в Давосе. Давос—место, где встречаются мировые элиты. В его работе, как обычно, приняли участие эксперты, бизнесмены,

политики, главы государств, международных институтов, фондов, альянсов, блоков, транснациональных корпораций — всего около трех тысяч участников из 134 стран мира.

Следует отметить, что в связи с условиями пандемии форум 2021 года проводился онлайн, а форум 2022 года перенесен на май. Предполагается, что основными темами, которые будут обсуждаться являются темы восстановления после пандемии, борьбы с изменением климата, построения лучшего будущего и т.д.

Так же существуют различные агентства, организации и исследовательские центры, которые составили свои прогнозы и отчеты о глобальных рисках к 2022 году. Если классифицировать риски текущих дней на группы в соответствии с уже проведенными исследованиями, можно их подразделить на следующие группы: экономические, экологические, геополитические и т.д.

В частности, среди рисков аналитики агентства Bloomberg называл омикрон-штамм: в случае если новая версия коронавируса окажется более заразной и смертоносной, это негативно отразится прежде всего на экономическом росте. Ряд стран будут вынуждены ввести ограничения, что приведет к спаду роста мировой экономики до 4,2%. При таком сценарии, предполагали аналитики Bloomberg, продолжится кризис логистической инфраструктуры, что отразится на спросе и поставках. Данный прогноз оправдал себя и омикрон-штамм действительно расшатал мировую экономику.

Еще один сохраняющийся риск — высокая инфляция. В начале 2021 г. прогнозировалось, что к концу года в США будет инфляция 2%. Вместо этого она близка к 7%. Согласно консенсус-прогнозу, инфляция к концу 2022 г. снова приблизится к целевым уровням, но возможен и еще один «серьезный промах», пишет агентство. Причинами высокой инфляции может стать дальнейший негативный сценарий развития с омикрон-штаммом и рост заработной платы в США на фоне дефицита кадров.

Напряженность в отношениях между Россией и Украиной также может стать «триггером» замедления мирового экономического роста из-за риска повышения цен на газ, указывает агентство. Еще одним фактором для ухудшения экономического роста является изменение климата, которое вызывает погодные аномалии. На фоне этого цены на продукты продолжат расти, что ускорит общую инфляцию.

Еще один риск — повышение базовой ставки Федеральной резервной системой (ФРС) США. Это может негативно отразиться на развивающихся рынках, в том числе в Аргентине, ЮАР, Турции, Бразилии и Египте.

Китайская экономика также переживает не самые хорошие времена: в 2021 г. страна столкнулась с одним из самых низких темпов экономического роста. В годовом выражении экономика, по прогнозам, вырастет на 0,8%, в то время как в предыдущие годы ВВП страны рос на 6%. На это повлияли ограничения, связанные с пандемией, а также нехватка электроэнергии и спад на рынке недвижимости. Аналитики агентства прогнозируют, что в 2022 г. энергетический кризис в Китае должен ослабнуть и рост экономики составит порядка 5,7%.

Респонденты ВЭФ перечислили социальные и экологические риски в числе тех, которые будут вызывать наибольшие опасения в течение ближайшие пяти лет. Между тем в 10-летней перспективе основным поводом для беспокойства будут именно климатические угрозы, в том числе связанные с экстремальными погодными условиями, потерей биоразнообразия и недостаточными действиями в области борьбы с изменением климата [4].

Последняя угроза, по мнению опрошенных, является самым существенным долгосрочным риском для мировой экономики, который, вероятно, будет иметь самые суровые последствия в течение следующего десятилетия.

Вышеперечисленные и другие существующие и вероятные риски затрагивают все мировое сообщество и являются общей проблемой для всех нас. Именно поэтому исследования о рисках и их влиянии на современное глобальное общество, анализ и оценка данных рисков становится таким необходимым. Совместная деятельность ведущих государств мира для управления данными рисками могут изменит в лучшем направлении существующую на сегодняшний день картину в мире [1].

ЛИТЕРАТУРА

1. Иванов О.Б. Глобальные риски и тенденции современного мира // ЭТАП: Экономическая Теория, Анализ, Практика. 2017. № 1. С. 7–20
2. Гидденс Э. Судьба, риск и безопасность // Thesis. 1994. Вып. № 5.
3. https://www.vedomosti.ru/economics/news/2021/12/13/900459-bloomberg-nazval-glavnie-ekonomicheskie-riski-v-2022-godu
4. https://www.interfax.ru/world/814746
5. https://www.dw.com/ru/ugrozy-mirovoj-ekonomike-v-2022-godu-pri-chem-zdes-severnyj-potok-2/a-60120196

ГЛОБАЛЬНЫЕ РИСКИ СОВРЕМЕННОСТИ

Муталлимова Лейла

АННОТАЦИЯ

В данной статье раскрываются понятия «риска»в социологии, «глобализации» и «глобальных рисков». Так же обсуждаются глобальные риски, существующие в современном мире, приводится перечень главных рисков на сегодняшний день на основе отчетов и исследований различных исследовательских организаций. Анализируется влияние рисков на мировое сообщество и их возможные последствия.

MÜASİRLİYİN QLOBAL RİSKLƏRİ

Mütəllimova Leyla

XÜLASƏ

Bu məqalədə sosiologiyada “risk”, “qloballaşma” və “qlobal risklər” anlayışları açıqlanır. Müasir dünyada mövcud olan qlobal risklərdən də bəhs edilir, müxtəlif tədqiqat təşkilatlarının hesabatları və araşdırmaları əsasında bu günün əsas risklərin siyahısı verilir. Risklərin dünya ictimaiyyətinə təsiri və onların mümkün nəticələri təhlil edilir.

THE GLOBAL RISKS OF MODERNITY

Mutallimova Leyla

SUMMARY

This article reveals the concepts of "risk" in sociology, "globalization" and "global risks". The global risks that exist in the modern world are also discussed, a list of the main risks today is given based on reports and studies of various research organizations. The influence of risks on the world community and their possible consequences are analyzed.

MƏZHƏBÇİLİK PROBLEMİ DİNİ EKSTREMİZMİN TƏRKİB HİSSƏSİ KİMİ

Qunizadə Zabirə Nəcməddin qızı
BDU-nun II kurs magistrantı
zabiraqunizade@gmail.com

Açar sözlər: Məzhəb, din, radikalizm, fundamentalism, terrorizm, təriqət, islam, qloballaşma, münaqişə
Ключевые слова: секта, религия, радикализм, фундаментализм, терроризм ислам, глобализация, конфликт
***Key words*:** sect, religion, radicalism, terrorizm, islam, globalization, conflict

Giriş.

Müasir dünyada din mənəvi istinad nöqtəsi olmaqla yanaşı, mədəniyyətlərarası münasibətlər, qloballaşma və təhlükəsizlik baxımından da strateji əhəmiyyətə malikdir. Bir çox ölkələrdə ictimai-siyasi vəziyyətin gərginləşdirilməsi, sabitliyin pozulması, siyasi proseslərin müxtəlif məcralara yönləndirilməsi məqsədilə dindən ideoloji vasitə kimi istifadə edilməsi tendensiyası formalaşdı. Hazırda əksər ölkələrin milli təhlükəsizliyinin təmin olunmasına birbaşa təsir edən dini təhlükəsizlik məsələsi günümüzün ən aktual problemlərindən biridir. Dini radikalizm və ekstremizm meyilləri, məzhəbçilik, dinin siyasiləşdirilməsi, dünyəviliyə qarşı çağırışlar, ölkələrin konstitusion quruluşunun zorla dəyişdirilməsinə cəhdlər, ümumilikdə, ölkələrin milli təhlükəsizliyinin, həmçinin qlobal təhlükəsizliyin təminatına ciddi təhdidlər yaratmaqdadır.

Əsrlər boyu bəşəriyyət "həyatın mənasını" anlamağa və izah etməyə çalışıb. Bir çox filosoflar inanır ki, bu düşüncə və kainatdakı yerimizi anlamaq istəyi insanlığı digər növlərdən fərqləndirir. Din, bu və ya digər formada, insan cəmiyyətləri yaranandan bəri bütün insan cəmiyyətlərində rast gəlinir. Arxeoloji qazıntılar zamanı qədim ritual obyektləri, mərasim, dəfn yerləri və digər dini əşyalar aşkar edilmişdir. Çoxlu sosial münaqişələr və hətta müharibələr dini mübahisələrin nəticəsidir. Bir mədəniyyəti başa düşmək üçün sosioloqlar onun dinini öyrənməlidirlər.

Məzhəb ayrı-seçkiliyi və yaxud məzhəbçilik tarixən qanlı müharibələr, toqquşmalar meydana çıxaran, eləcə də insanlarda dini nifrət duyğularını alovlandıran təhlükəli tendensiyadır. Məzhəblər siyasi, ictimai, iqtisadi, tarixi, coğrafi və digər səbəblərlə əlaqədar olaraq dini anlayışların fərqli formalarda şərh edilməsi, müxtəlif din alimlərinin fərqli baxış bucaqlarını ortaya qoyması nəticəsində meydana gəlmişdir. Müəyyən müddət ərzində bu yanaşmalar sistemləşdirilərək, dini-sosial həyatın tərkib hissəsinə çevrilmiş, həmin dini baxış bucağını mənimsəyən kütlənin dinə münasibətini formalaşdırmışdır. Bəzən yanlış olaraq məzhəblərin sadəcə İslam dini ilə əlaqəli anlayış olduğu deyilsə də, əslində, məzhəblər bütün dinlərdə mövcuddur. Günümüzdə də İslam dini daxilində olduğu kimi, qeyri-islam dinlərində də məzhəblər sistemli formada fəaliyyət göstərməkdədir. Tarixə nəzər saldıqda görürük ki, Qərbdə məzhəbçilik zəminində çox böyük qanlı müharibələr və kütləvi insan tələfatı ilə nəticələnən qarşıdurmalar baş vermişdir. Bu gün isə etiraf etməliyik ki, daha çox İslam dini daxilindəki məzhəblərarası münasibətlər, o cümlədən məzhəb ayrı-seçkiliyi məsələsi dünyanın diqqət mərkəzindədir. İslam məzhəblərinin yaranması Məhəmməd Peyğəmbərin vəfatından sonrakı dövrdə baş verən proseslərlə əlaqəlidir. Peyğəmbərin həyatda olduğu dövrdə müsəlmanlar arasında istər dini, istərsə də ictimai-siyasi fikir ayrılıqları qabardılmır, bütün suallar onun cavablandırması ilə öz həllini tapırdı. İslam Peyğəmbərinin vəfatından sonra müsəlmanlar arasında həm ictimai-siyasi, həm də dini fikir ayrılıqları yaranmağa başladı. İlkin mərhələdə yaranmış bu fikir ayrılıqları siyasi xarakter daşıyırdı. Sonradan isə bu ziddiyyətlər dərinləşərək,

insanların təməl dini baxışlarında iz qoymağa başladı. Müasir dövrdə məzhəb ayrı-seçkiliyi dedikdə, daha çox İslam dininin iki əsas etiqad məzhəbi olan şiəlik və sünnilik arasında olan münasibətlər nəzərdə tutulur. Bu iki məzhəb öz daxilində bir sıra parçalanmalara məruz qalsa da, təməl dini baxışlar və siyasi yanaşmada eyni mövqedən çıxış edir. Təəssüf ki, şiəlik ilə sünnilik arasında olan fikir ayrılıqları tarix boyu sadəcə elmi-dini müstəvidə qalmamış, siyasi platformaya inteqrasiya edərək müharibə, münaqişə və digər xoşagəlməz hallarla müşayiət edilmişdir.

Bu gün məzhəb faktorunun din amilinin önünə keçməsini böyük təhlükə və təhdid hesab etmək olar. Kənar qüvvələrin əsas məqsədlərindən biri İslam dini daxilindəki birlik və həmrəylik mühitini sarsıtmaq, məzhəb ayrı-seçkiliyi zəminində qarşıdurma yaratmaq olmuşdur. İslamın dünyada sürətlə yayıldığını görən bu qüvvələr, xüsusilə islamafob mövqeyindən çıxış edərək hər vəchlə bu prosesə mane olmağa çalışırlar. Təbii ki, dini zəmində bölünmə və parçalanmanın əsas vasitəsi məzhəbçilik amillərini gücləndirmək, müsəlmanlar arasında fikirayrılığı yaradan məsələləri ön plana çıxarmaqdan ibarətdir. Məzhəbçilik bəlası radikalizm, fanatizm və ekstremizmin kökündə dayanan əsas istinad nöqtələrindən biridir. "Mənim məzhəbim haqq, digərləri batildir" yanaşması növbəti mərhələlərdə radikal fikirlərin, ekstremist çağırışların və nəhayət, silahlı toqquşmaların başlanğıc nöqtəsidir.

Təəssüf doğuran məqamlardan biri də odur ki, hazırkı dövrdə dünyada qlobal təhlükəsizlik üçün ən böyük təhdid olan terror təşkilatları məzhəbçilik amilindən məharətlə istifadə edirlər. Yaxın Şərqdə, xüsusilə Suriya, İraq və Yəməndə baş verən proseslərdə bu tendensiya açıq şəkildə özünü büruzə verir. Dini cəhətdən məlumatsız kütlənin belə silahlı birləşmələrə cəlb edilməsi məhz məzhəb ayrı-seçkiliyi müstəvisində həyata keçirilir.

Bu cür təsnifat vacibdir: dini qrup üzvləri son dərəcə müxtəlifdir və din (və ya hətta dini ekstremizm) çox müxtəlif yollarla ifadə olunur. Problemli məsələ də ondan ibarətdir ki, bu cür bəsit təsvirlər ekstremist qrupların qavrayışını müəyyən edən nəticədir. Məsələn, 11 sentyabr hadisəsindən sonra ABŞ-ın təhlükəsizlik siyasətinin demək olar ki, 70%-i ərəbləri və müsəlmanları hədəf aldı, çünki onların ekstremist hərəkatın tərəfdarları ilə əlaqəli olduğu görüldü. Belə görünür ki, dini ekstremizm termini ictimaiyyət və siyasətçilər arasında müəyyən dindar qruplara qarşı mənfi stereotiplər yaradır. Bu, tez-tez edilən xəbərdarlıqlara baxmayaraq baş verir ki, "ekstremizm" termininin məşhur (və ya jurnalist) istifadəsi, onu terrorizmlə əlaqələndirərək, müəyyən qrupların anlaşılmazlığına səbəb ola bilər.

Dini ekstremizmin yalnız bir xüsusi şəkildə təzahür etməsi ideyasına etiraz edirik və təklif edirik ki, dini ekstremizmin bir ölçüsü (məsələn, siyasətdə radikal gündəm) mütləq başqa ölçüdə (məsələn, müxtəlifliyə dözümsüzlük) ekstremizmlə müşayiət oluna bilməz. İnsanların zorakı siyasi hərəkətləri dəstəkləmək istəyini başa düşmək üçün biz dini ekstremizmi müxtəlif aspektlərdə araşdırmalı və dini ekstremizmin hər bir formasının zorakı yollarla məqsədlərə nail olmaq istəyi ilə əlaqəli olmadığı fikrinə açıq olmalıyıq.

Orta və İfrat Dindarlıq

Psixoloji tədqiqatlarda dinlə əlaqəni təsvir etmək üçün müxtəlif terminlərdən istifadə edilmişdir, məsələn, dindarlıq, dini fundamentalizm, radikalizm və ya ekstremizm. Bu terminlər bəzən bir-birini əvəz edir, bəzən də mübahisəlidir (məsələn, dini fundamentalizm bəzi alimlər tərəfindən çox vaxt müəyyən siyasi gündəmlə əlaqələndirilən dini ekstremizmdən fərqli olaraq, müqəddəs kitabların sərt təfsirinə istinad etmək üçün istifadə oluna bilər). Üstəlik, dindarlıq yüksək rifah və həyatdan məmnunluq kimi müsbət nəticələrlə əlaqələndirilsə də, dini fundamentalizm və ekstremizm daha çox mənfi nəticələrlə əlaqələndirilmişdir (qərəz, düşmənçilik və ya hətta silahlı münaqişə).

Dini kimliyin qrup əsaslı zorakılığa doğru trayektoriyasının kulminasiyası kimi dini ekstremizmin oxşar modeli Silber və Bhatt (2007) tərəfindən irəli sürülür. Faciə ilə qaynaqlanan ekstremal inancların və normaların qəbulu ifrat təşkilat tərəfindən idarə olunan təlqin prosesi ilə gücləndirilir. Yenə də dini ekstremizmin aktyorun zorakılıq ifadəsi ilə son həddə çatdığı görünür.

Ekstremizmə yuxarıda göstərilən konseptual yanaşmalar ekstremizmi qrup üzvü kimi törədilən zorakılıq ilə əlaqələndirir. Bəzi təhlillər həm fərdi, həm də qrup səviyyələrini əhatə etmişdir: məsələn, Schmid (2014) təklif edir ki, fərdlər (yəni, şəxsi inanclar) və ya qruplar üçün (yəni, əsas qrup normalarına daxil olan kimi) dini ekstremizmin 4 xəbərdaredici əlamətinə - 1. mütləq həqiqətə inam, 2. kor-koranə itaətin təsdiqi, 3. utopiya qurmaq axtarışı, 4. inanc daxildir.

Müxtəlifliyin inkişafına imkan vermək üçün biz ekstremizmin daha geniş tərifini qəbul edirik və ekstremizmi müvafiq davranış haqqında aydın normaların nə dərəcədə olması, müxtəlif norma və davranış nümunələrinin qəbul edilməsində çox az genişlik kimi müəyyən edirik. Beləliklə, diqqət daha çox davranışın özündə deyil, ondan kənara çıxmaq üçün az yer olan bir dini qrup daxilində xüsusi davranışların normativ olaraq nə dərəcədə nəzərdə tutulduğudur. Buna görə də, bir tarixi və ya mədəni kontekstdə ifrat kimi qəbul edilən şey digərində orta və ya əsas ola bilər.

Glock və Stark (1965) bütün dinlərdə beş fərqli komponentin olduğunu irəli sürdü: ideologiya (inamlar), intellektuallıq (bilik), ritual (açıq-aşkar dini davranış), təcrübələr (hisslər və ya emosiyalar) və nəticəli dünya (dindarlığın dinə təsiri)

Saroglou (2011) dinin və fərdi dindarlığın qismən fərqlənən dörd əsas ölçüsünü təklif etdi: inanma (yəni, dinin koqnitiv funksiyasını təmsil etmək), bağlanma (yəni, fərdləri dərk daxili mənliklə birləşdirən təcrübələr), davranış (normalar və əxlaqi arqumentlər) və aidiyyət (yəni, xüsusi ənənə, məzhəb və ya bir şəxsiyyətlə eyniləşdirmə) xüsusi dini qrup.

Dini ekstremizmi araşdırmaq üçün bu çərçivələrdən istifadə edilir. Bu əvvəlki modellərdən əldə edilən fikirləri birləşdirərək, biz dinə mötədil və ifrat dinin ifadə oluna biləcəyi yolları anlamağa kömək edə biləcək çoxölçülü struktur təklif edir. Qeyd olunan metodlar dinin çoxsaylı ölçülərlə ifadə olunduğu klassik nöqteyi-nəzərdən istifadə edərək çoxölçülü dini ekstremizmi bir-biri ilə dəyişə bilən ayrı-ayrı siyasi, teoloji, ritual və sosial ölçülər vasitəsilə araşdırmağı təklif edir.

ƏDƏBİYYAT

1. Авдеев Ю.И. Терроризм как социально-политическое явление. М.,2000
2. Браня Крозье: Поддержка, оказываемая Советским Союзом международному терраоризму. М., 1986 “Din və ideoloji təhlükəsizlik” Bakı 2020, səh 277
3. Elman Nəsirov “ABŞ və Beynəlxalq terrorizm” Bakı 2019, səh 300
4. Mahir Qəniyev, Şəhriyar İsmiyev “İslam humanizmi və lənətlənmiş terror” Bakı: “Şans Mətbəə LTD” MMC, 2017
5. Malcolm N. Shaw, International Law (5th Edition), Cambridge University Press,2003;" Appologie du terrorism"andincitement to terrorism".
6. Şəhriyar İsmiyev “XXI əsrin ən böyük bəlası İŞİD” Bakı: “Şans Mətbəə LTD” MMC, 2017.

MƏZHƏBÇİLİK PROBLEMİ DİNİ EKSTREMİZMİN TƏRKİB HİSSƏSİ KİMİ

Qunizadə Zabirə

XÜLASƏ

Çox təəssüf ki, İslam dünyasında ictimai-siyasi durum, dini siyasi alətə çevirmək cəhdləri, təriqətlər, cərəyanlar və məzhəblərarası savaşlar dini maarifsizlik səbəbindən qeyri-sabitdir. Aclıq, səfalət, xaosun hökm sürdüyü bu ölkələrdə eyni millətin nümayəndələri arasında ixtilaf salınmasında xarizmatik ruhani liderlər ətrafında birləşən lokal qruplar və dini cərəyanlardan istifadə edilməkdədir. Bu gün bəzi qüvvələr dinlərdən terrorizmə və radikalizmə təhrik vasitəsi kimi istifadə edirlər. Bu kimi halların qarşısının alınması üçün cəmiyyətin bütün təbəqələri, xüsusilə siyasətçilər, alimlər, dindarlar və din xadimləri bütün səylərini ortaya qoymalıdırlar. Ümumilikdə nəzər yetirdikdə dinin insan həyatı üçün bəlaya çevrilməsi savadsızlıq, yoxsulluq, cahillik, işsizlik kimi sosial problemlərin nəticəsidir ki, ilk növbədə dövlət və bəşəri təhlükəsizliyi təmin etmək üçün rifah halının yaxşılaşdırılması, əhalinin müxtəlif təbəqələrinin maariflənməsi səviyyəsinə xüsusi diqqət yetirilməsi vacibdir.

ПРОБЛЕМА СЕКТАНТСТВА В СОСТАВЕ РЕЛИГИОЗНОГО ЭКСТРЕМИЗМА

Гунизаде Забира

АННОТАЦИЯ

К сожалению, социально-политическая ситуация в исламском мире, попытки превратить религию в политический инструмент, секты, течения и межконфессиональные войны нестабильны из-за религиозного невежества. В этих странах, где царят голод, нищета и хаос, местные группы и религиозные движения, объединившиеся вокруг харизматичных духовных лидеров, используются для того, чтобы сеять рознь между представителями одной нации. Сегодня некоторые силы используют религию как инструмент для подстрекательства к терроризму и радикализму. Все слои общества, особенно политики, ученые, верующие и священнослужители, должны приложить все усилия для предотвращения подобных случаев. В целом то, что религия стала бичом человеческой жизни, является следствием таких социальных проблем, как неграмотность, нищета, невежество и безработица. Прежде всего, в целях обеспечения безопасности государства и человека важно повышать благосостояние и уделять особое внимание уровню образования различных слоев населения.

THE PROBLEM OF SECTION IN THE CONTENT OF RELIGIOUS EXTREMISM

Gunizade Zabira

SUMMARY

Unfortunately, the socio-political situation in the Islamic world, attempts to turn religion into a political tool, sects, currents and sectarian wars are unstable due to religious ignorance. In these countries, where hunger, poverty, and chaos reign, local groups and religious movements united around charismatic spiritual leaders are used to sow discord among members of the same nation. Today, some forces use religion as a tool to incite terrorism and radicalism. All sections of society, especially politicians, scientists, believers and clergy, must make every effort to prevent such cases. In general, the fact that religion has become a scourge for human life is the result of social problems such as illiteracy, poverty, ignorance and unemployment. First of all, in order to ensure state and human security, it is important to improve the welfare and pay special attention to the level of education of various segments of the population.

PEDAQOGİKA

TƏLİM MƏQSƏDLƏRİ VƏ ONLARIN TAKSONOMİYASI

prof. Məcid İsmixanov, dos.Nəzakət İmamverdiyeva, dos.Gülarə Kərimova
BDU-nun Pedaqogika kafedrası

Açar sözlər: taksonomiya, taksonomiya mərhələləri, məqsədlər sistemi, idrak səviyyələri
Ключевые слова: таксономия, этапы таксономии, система целей, уровни познания
Keywords: taxonomy, stages of taxonomy, goals system, cognitive levels.

Hər bir fəaliyyət, o cümlədən təlim fəaliyyəti məqsədyönlü xarakter daşıyır; məqsədsiz fəaliyyət yoxdur. Təlim qarşıya qoyulan məqsədlərin müəyyənləşdirilməsi və sistemli şəkildə həyata keçirilməsinə əsaslanır. Burada təhsil müəssisəsinin və onun pillələrinin ümumi təlim məqsədləri (yekunda şagirdlərin yiyələnəcəkləri bilik, bacarıq, qabiliyyət və səriştələr) fənlər və siniflər üzrə öz əksini tapır və son məqsədin əldə edilməsinə xidmət edir. Fənnin məzmun standartlarında şagirdlərin fəaliyyəti, idraki bacarıqları taksonomiyaların köməyi ilə sistemləşdirilir. «*Taksonomiya*» yunanca «taxus» (qayda ilə yerləşdirmə) və «nomos» (qanun) sözlərindən götürülmüş, sıralanma mənasını verir. Psixoloji ədəbiyyatda (Ə.Əlizadə və b.) [2, s.77] «taksonomiya» müəyyən məqsədlərin şəbəkəli (iyerarxik) və ya sistemli təsnifatı kimi səciyyələndirilir. Təlim məqsədlərinin taksonomiyası görkəmli amerikan psixoloqu Benjamin Blum tərəfindən 1956-cı ildə təklif olunmuşdur. Azərbaycanın tanınmış psixoloqu, prof. Əbdül Əlizadə taksonomiyaları tədqiq etməklə ilk dəfə üçtərkibli taksonomiyalar yaratmışdır. Hazırda taksonomiyalar *fəaliyyət növlərində olduğu kimi,* üç istiqamətdə qruplaşdırılır: idraki (koqnitiv), affektiv (emosional), psixomotor (hərəki) taksonomiyalar.

Taksonomiya qruplarının özlərinə məxsus müəyyən mərhələləri ayırd edilmişdir. Hər bir taksonomiya mərhələsi şagirdin inkişafının (idraki, emosional, hərəki inkişafının) səviyyəsini ifadə edir. Taksonomiyanın mərhələləri müvafiq fellərlə ifadə olunur. Fellərin köməyi ilə şagirdin bacarığının inkişaf səviyyəsini müəyyənləşdirmək mümkündür. Bu məsələni asanlaşdırmaq üçün psixoloqlar (N.Gronland, K.Mur və b.) taksonomiyaların mərhələlərini və hər mərhələdə şagird fəaliyyətinin xüsusiyyətlərini əks etdirən fellər sırasını cədvəl şəklində tərtib etməyə çalışmışlar. Belə cədvəl standartlarda verilən bacarığın xüsusiyyətini və inkişaf səviyyəsini müəyyənləşdirməkdə müəllimlərə, qiymətləndirmə mütəxəssislərinə və dərslik müəlliflərinə öz fəaliyyətlərini təşkil etməkdə kömək göstərə bilər. Qiymətləndirmə üçün verilən tapşırıqlar taksonomiyanın müvafiq mərhələsinin həddində, yəni şagirdin uyğun inkişaf səviyyəsində olmalıdır. Əks halda qiymətlərdirmənin obyektivliyi, şagird nailiyyətlərinin real dəyərdirilməsi mümkün olmaz. Deməli, taksonomiyalar həm standartların tərtibi və tətbiqində, həm də qiymətləndirmədə mühüm rol oynayır.

Taksonomiya növlərini ayrılıqda nəzərdən keçirək.

İdraki taksonomiya. İdraki taksonomiyalar şagirdin idrak (düşünmə) bacarıqlarının inkişaf səviyyələrini əks etdirir. Benyamin Blumun adı ilə bağlı olan idraki taksonomiyalarda şagirdin düşünmə (idrak) bacarıqları sadədən mürəkkəbə doğru mərhələlər üzrə təsnif edilir. Fənnin məzmun standartlarının fəaliyyət (bacarıq) komponentində idraki bacarıqlar da müəyyən sistemdə öz əksini tapmalıdır; yəni idraki taksonomiyaların aşağı mərhələlərindən tədricən yuxarı mərhələlərinə keçmək lazımdır. Tədriciliyi gözləmədən birdən-birə taksonomiyanın yuxarı mərhələlərinə - şagirddən daha yüksək idrak səviyyəsi tələb edən mərhələyə keçilsə, təlimdə uşaq çətinliklərlə qarşılaşar, onların öhdəsindən gələ bilmədikdə ruhdan düşər və onun

özünə inam hissi zəifləyə bilər. Buna görə də standartlarda tədriciliyi, sistemi gözləmək, taksonomiya mərhələlərinin sadədən mürəkkəbə doğru inkişafını təmin etmək mühüm şərtdir. Bunun üçün idrak taksonomiyasının mərhələlərini, hər mərhələnin səciyyəvi xüsusiyyətlərini (göstəricilərini) və onları əks etdirən felləri, hər mərhələyə uyğun şagirdin idraki inkişaf səviyyəsini bilmək və onları düzgün tətbiq etmək lazımdır. Bunu cədvəl şəklində nəzərdən keçirək [2].

İdrak taksonomiyası (B.Blum)

Taksonomiyanın mərhələləri	Şagirdin idraki inkişaf səviyyələri	Şagirdin idraki fəaliyyətinin xüsusiyyətləri (göstəriciləri)	Taksonomiya mərhələlərini əks etdirən fellər
Bilmə	I səviyyə	Şagird öyrəndiklərini yadda saxlayır və sözlə, əməllə ifadə edə bilir	Müəyyən edir, təsvir edir, sadalayır, seçir
Anlama	II səviyyə	Fakt və hadisələri anlayır, mahiyyətini izah edir, mənasını açıqlayır, qısa məzmununu danışır, nümunələr gətirir	İzah edir, açıqlayır, nümunələr gətirir, bir ifadə vasitəsindən digərinə keçirir
Tətbiqetmə	III səviyyə	Biliyini tətbiq edir, problemi həll edir	İstifadə edir, işlədir, nümayiş etdirir, hesablayır, dəyişir
Təhlil (analiz)	IV səviyyə	Bütövü hissələrə ayırır (bölür), onların arasındakı əlaqələri müəyyən edir, aydınlaşdırır	Ayırır, hissələrə bölür, əlaqələndirir, müəyyən edir, fərqləri əsaslandırır
Sintez (tərkib)	V səviyyə	Hissələri birləşdirib bütöv (tam) yaradır, cədvəl (sxem) tərtib edir. fikir (cümlə) düzəldib ifadə edir danışır və yazır	Yaradır, tərtib edir, yazır, ifadə edir (nitq söyləyir)
Dəyərlən-dirmə	VI səviyyə	Müəyyən məsələ haqda mühakimə yürüdür, onu qiymətləndirir, fikirləri qarşılaşdırır, müqayisə edir, qərarlar çıxarır	Mühakimə yürüdür, qarşılaşdırır, müqayisə edir

Cədvəldən göründüyü kimi, idrak taksonomiyasının mərhələlərini müəyyənləşdirmək üçün hər bir mərhələni əks etdirən fellərdən istifadə etmək lazım gəlir. Bunu bir nümunədə nəzərdən keçirək. Ana dilindən «Danışma» məzmun xətti üzrə 2.1. «Qarşılaşdığı yeni sözlərin mənasını başa düşdüyünü nümayiş etdirir» standartının alt standartlarında idrak taksonomiyasının müxtəlif mərhələləri əks etdirilir [5, s.110]:

2.1.1. Rast gəldiyi yeni əşya və hadisələri adlandırır.

2.1.2. Öyrəndiyi yeni sözlərin mənasını izah edir.

2.1.3.Yaxınmənalı və əksmənalı sözləri fərqləndirir.

2.1.4. Öyrəndiyi yeni sözləri cümlə içərisində işlədir.

Nümunələrdə verilən adlandırır feli idraki taksonomiyanın – *bilmə*, izah edir, fərqləndirir – *anlama*, cümlədə işlədir – *tətbiqetmə* mərhələlərini əks etdirir. Başqa sözlə, bu alt standartlar şagirdlərin idraki fəaliyyətinin I, II və III səviyyələrinin inkişafına yönəlmişdir. Kurikulum tərtibində şagirdlərin idrak səviyyəsinin inkişafı üçün müvafiq fellərdən istifadə edilir.

Bu hal digər taksonomiyalarda da (affektiv, psixomotor) özünü göstərir.

Affektiv (emosional) taksonomiya. Affektiv (emosional) taksonomiya şagirdlərin hiss, emosiya, münasibət və dəyərlərinin inkişafında mühüm əhəmiyyətə malikdir. Affektiv taksonomiyanın təsnifat sistemi 1964-cü ildə D.Krasvol tərəfindən yaradılmışdır. Bu taksonomiyanın 5 mərhələsi ayırd edilmişdir.

İdraki taksonomiyada olduğu kimi, affektiv (emosional) taksonomiyada da şagirdlərin emosional inkişaf səviyyələrini əks etdirən müvafiq taksonomiya mərhələləri və hər mərhələyə uyğun fellər müəyyənləşdirilimişdir.

Bunu cədvəl şəklində nəzərdən keçirək.

Affektiv taksonomiya

Taksonomiyanın mərhələləri	Şagirdin af-fektiv inkişaf səviyyələri	Şagirdin affektiv (emosional) fəaliyyətinin xüsusiyyətləri (göstəriciləri)	Affektiv taksonomiyanın mərhələlərini əks etdirən fellər
Məqbul-sayma	I səviyyə	Şagird hər hansı məsələni, hərəkəti məqbul sayır, soruşur, cavab verir, dəstəkləyir, ona riayət edir	Məqbul sayır, dəstəkləyir, soruşur, cavab verir, riayət edir
Reaksiyavermə	II səviyyə	Hadisələrə, müxtəlif formalarda reaksiya verir (kömək edir, nümayiş etdirir, təqdim edir, müzakirə edir, oxuyur, danışır)	Reaksiya verir, kömək edir, müzakirə edir, nümayiş etdirir, təqdim edir, oxuyur, danışır
Dəyərlən-dirmə	III səviyyə	Şagird hər hansı məsələni, hərəkəti dəyərləndirir, qiymətləndirir, münasibət bildirir, fikir mübadiləsi edir	Dəyərləndirir, qiymətləndirir, münasibət bildirir, fikir mübadiləsi edir
Təşkil etmə	IV səviyyə	Şagird hər hansı işi təşkil edir, hazırlayır, icra edir, müdafiə edir	Təşkil edir, icra edir, hazırlayır, dəyişir, müdafiə edir
Dəyər və ya dəyərlər sistemini xarakterində əks etdirmə	V səviyyə	Şagird öz dəyərlərini şəxsi ictimai və emosional davranışda həyata keçirir, nümayiş etdirir, təcrübədən keçirir, nəyisə həll edir, kiməsə təsir edir	Həyata keçirir, təcrübədən keçirir, nümayiş etdirir, həll edir, təsir edir

Affektiv (emosional) taksonomiya hiss və emosiyalarla əlaqədar olduğu üçün affektiv bacarıqları fellərlə birmənalı aydın təsvir etmək çətin olur, həm də bu bacarıqların bir çoxu özünü aşkar büruzə vermir; yalnız nəzərdə tutula bilər. Eyni zamanda, dəyərlər davranış əsasında müəyyən edildiyi üçün affektiv taksonomiyalar mərhələlər üzrə yüksəldikcə digər taksonomiyalarla (idraki, psixomotor) inteqrasiya edir. Bəzi nümunələri nəzərdən keçirək. Fiziki tərbiyə fənn kurikulumunda «Mənəvi-iradi keyfiyyətlər» məzmun xətti üzrə 4.1. «Hərəki fəaliyyət zamanı məqbul davranış nümayiş etdirir» standartındakı «*nümayiş etdirir*» feli alt standartlarda konkretləşdirilir [5, s.113].

4.1.1. Hərəki fəaliyyət zamanı müəyyən olunmuş gün rejimi və nizam-intizam qaydalarına *riayət etdiyini nümayiş etdirir.*

4.1.2. Komanda tərkibində fəaliyyətlə bağlı müvafiq *ilkin bacarıqları nümayiş etdirir.*

Nümunələrdə birinci alt standartda (4.1.1.) affektiv taksonomiyanın *məqbulsayma*, ikincidə (4.1.2) isə *reaksiyavermə* mərhələləri əhatə edilmişdir. İkinci standartın IV sinif üzrə 4.1.2. «Həlledici vəziyyətlərdə məsuliyyəti *öz üzərinə götürmək,* yoldaşlarına *dəstək olmaq* keyfiyyətləri nümayiş etdirir» alt standartında affektiv taksonomiyanın *təşkiletmə mərhələsi* əks olunmuşdur.

İdraki taksonomiyada olduğu kimi, affektiv taksonomiyada da affektiv bacarıqların getdikcə artan sistemi müəyyən edilmişdir. Bunun sayəsində standartlarda şagirdlərin affektiv bacarıqlarının sadədən mürəkkəbə doğru inkişafı təmin olunur. Bu cəhət psixomotor (hərəki) bacarıqların da formalaşmasında özünü göstərir.

Psixomotor (hərəki) taksonomiya. Psixomotor taksonomiya hərəki bacarıqların sistemini müəyyənləşdirməyə və həyata keçirməyə imkan verir. Bu taksonomiya amerikan psixoloqu Kennez Mur tərəfindən sistemləşdirilmişdir. O, psixomotor taksonomiyanın 3 mərhələsini fərqləndirmişdir: təqlid (imitasiya), idarə (manipulyasiya) və dəqiq icra.

Təqlid mərhələsində (I mərhələ) şagird göstərilən hərəkətləri təqlid edir; o, hərəki bacarığı hələ səhvsiz, koordinasiyalı şəkildə icra edə bilmir. Bu mərhələ şagirdin müəyyən hərəki bacarığı sərbəst nümayiş etdirməsinə ilkin cəhdi kimi dəyərləndirilir. Məsələn, şagird idman alətində hər hansı hərəkəti icra edərkən ilk vaxtlar göstərilən nümunələri qeyri-dəqiq icra edə bilər, müəyyən səhvlərə yol verə bilər.

İdarə mərhələsində (II mərhələ) şagird hər hansı hərəkəti müstəqil şəkildə – müəllimin

bilavasitə köməyi, yardımı olmadan nümayiş etdirməyə qabil olması nəzərdə tutulur, yəni öz hərəkətlərini müəyyən dərəcədə sərbəst idarə edə bilir. Lakin bu mərhələdə icranın qeyri-dəqiqliyi yol veriləndir.

Dəqiq icra mərhələsində (III mərhələ) hərəkətlər bacarıqla və dəqiq icra edilir. Şagird hər hansı bacarığı avtomatik olaraq düşünmədən nümayiş etdirir və bu zaman fəaliyyətin digər elementlərini də nəzarətdə saxlaya bilir. Bu, psixomotor taksonomiyanın yüksək mərhələsi hesab olunur.

Göstərilən mərhələlər eyni zamanda hərəki bacarıqların inkişaf səviyyəsini əks etdirir. Təqlid mərhələsində hərəki bacarığın I (aşağı) səviyyəsi, idarə mərhələsində II, dəqiq icra mərhələsində isə III (yüksək) səviyyəsi ifadə olunur. Bunu Fiziki tərbiyə fənn kurikulumu nümunəsində nəzərdən keçirək [5, s.115].

2.1. Şagird hərəki bacarıqları mənimsədiyini nümayiş etdirir.

Alt standartlar:

2.1.1. Təqdim olunan sıra hərəkətlərini müvafiq *komandalara uyğun yerinə yetirir.*

2.1.2. Sadə ümuminkişaf hərəkətlərini *yerinə yetirir.*

2.1.3. İdman növlərinə (atletika. gimnastika) aid sadə hərəkətləri *nümunələrə müvafiq təkrar edir.*

2.1.4. İdman növlərinə aid (atletika, gimnastika) alət və avadanlışlardan istifadə zamanı təhlükəsizlik qaydalarına *əməl edir.*

Nümunələrdə 2.1.1 və 2.1.2. kodlu alt standartları psixomotor taksonomiyanın *təqlid* mərhələsini əks etdirir, çünki şagird hərəkətləri müvafiq göstərişə əsasən yerinə yetirir, təkrar edir. 2.1.2. alt standartı taksonomiyanın II mərhələsinə aiddir; belə ki, burada şagird hərəkəti müstəqil yerinə yetirir. 2.1.4 alt standartında isə o, nəinki hərəkətləri müstəqil icra edir, hətta təhlükəsizlik qaydalarına da əməl edir, bu isə psixomotor taksonomiyanın yüksək (III) mərhələsinə aiddir. Bu mərhələlərə müvafiq olaraq şagirdin hərəki bacarıqlarının səviyyəsinin də yüksələn xətt üzrə inkişafı təmin olunur.

Taksonomiyanın nəzərdən keçirilən növləri kurikulumda vəhdət halında tətbiq olunmalıdır. Təlim prosesinin planlaşdırılmasından başlayaraq onun təşkili, nailiyyətlərin qiymətləndirilməsi və idarə olunmasına qədər bütün mərhələlərdə onlardan düzgün istifadə etmək vacib şərtdir. Təlimdə *taksonomiyaların böyük imkanları* vardır. Onlar aşağıdakılardan ibarətdir:

-təlim məqsədlərini düzgün müəyyənləşdirmək;

-problemləri düzgün müəyyənləşdirmək və şagirdlər üçün tapşırıqlar tərtib etmək;

-şagirdlərin bilik və bacarıqlarının inkişaf səviyyələrini sistemləşdirmək;

-qoyulmuş məqsədlərə uyğun qiymətləndirmə vasitələrini, yoxlama tapşırıqlarını seçmək;

-təlim nəticələrinə əsaslanaraq refleksiyanı düzgün keçirmək: bu və ya digər materialın öyrənilməsində şagirdlərin qarşılaşdıqları çətinlikləri müəyyn etmək.

Taksonomiyalar fənnin məzmun standartlarında həm biliyin, həm də bacarıqların düzgün tənzimlənməsi, müəyyən sistemdə tərtib olunması üçün də əlverişli şərait yaradır.

Standartlarda bilik və fəaliyyət hissələrinin düzgün əlaqələndirilməsi bilik və bacarıqları vəhdətdə formalaşdırmaq, mənimsəmənin keyfiyyətini yüksəltmək baxımından əhəmiyyətlidir. Azərbaycan dilindən iki alt standartı müqayisə edək:

2.1.4. Öyrəndiyi yeni sözləri cümlədə işlədir.

2.2.5. Mətnin əsas hissələrini seçib nəql edir.

Birinci nümunədə standartın bilik və fəaliyyət hissəsi düz, ikincidə isə səhv göstərilmişdir. İkinci alt standartda fəaliyyət (bacarıq) hissəsi öz əksini tapmamışdır.

Təlim məqsədlərinin taksonomiyası tədris prosesini elmi-metodik səviyyədə planlaşdırmağa və onun nəticəsini – təhsilalanların idrak-mənimsəmə səviyyəsini ölçməyə imkan verir.

ƏDƏBİYYAT

1. Abbasov A.N. Pedaqogika: Dərslik, Bakı, "Mütərcim", 2013
2. Əlizadə Ə.Ə., Əlizadə H.Ə. Əsrin meqameylləri: psixopedaqoji problemlər. Bakı, ADPU nəşr., 2008
3. Əlizadə Ə.Ə., Sultanova İ.N. Taksonomiya nəzəriyyəsi və təcrübəsi. Bakı. ADPU nəşr., 2008
4. İsmixanov M., Bayramov H., Vəliyeva S. Ali məktəb pedaqogikası. Bakı. ADPU nəşr., 2019
5. Kurikulum islahatı: tədqiqatlar, nəticələr (nəşrə haz.,: Ə.Abbasov, İ.Cavadov). Bakı. "Mütərcim", 2011
6. Qasımova L.N., Mahmudova R.M. Pedaqogika (Dərslik), Bakı, "Ekoprint", 2021
7. Mehrabov A., Abbasov Ə., Həsənov R. Pedaqoji texnologiyalar. Bakı. "Mütərcim", 2007

TƏLİM MƏQSƏDLƏRİ VƏ ONLARIN TAKSONOMİYASI

Məcid İsmixanov, Nəzakət İmamverdiyeva, Gülarə Kərimova

XÜLASƏ

Məqalədə təlim məqsədləri və onların problemi nəzərdən keçirilir. Təlimin səmərəsi və mənimsəmənin keyfiyyəti qarşıya qoyulan məqsədlərin düzgün müəyyənləşdirilməsi, ciddi sistemdə həyata keçirilməsi ilə sıx bağlıdır. Təlimdə təhsilalanların zehni keyfiyyəti, idraki bacarıqları taksonomiyaların köməyi ilə sistemləşdirilir: sadədən mürəkkəbə doğru dəyişən taksonomiya səviyyələrinə (mərhələlərinə) uyğun olaraq onların zehni inkişafı təmin olunur. Bu da inkişafetdirici təlim konsepsiyasının əsasını təşkil edir.

ЦЕЛИ ОБУЧЕНИЯ И ИХ ТАКСОНОМИЯ

Маджид Исмиханов, Назакат Имамвердиева, Гюлара Каримова

АННОТАЦИЯ

В статье рассматривается проблема цели обучения и их таксономия. Эффективность обучения, а также качество усвоения тесно связано с правильной постановкой целей обучения и их системой применения: в соответствии с уровнями, этапами таксономии обеспечивается познавательное развитие подрастающего поколения. Таксономия целей образования составляет основу педагогической концепции развивающего и воспитывающего обучения.

LEARNING OBJECTIVES AND THEIR TAXONOMY

Majid Ismikhanov, Nazakat Imamverdiyeva, Gulara Karimova

SUMMARY

The article deals with the problems of learning objectives and their taxonomies. The effectiveness of training, as well as the quality of assimilation, is closely related to the correct setting of learning goals and their system of application: in accordance with the levels, stages of taxonomy, the cognitive development of the younger generation is ensured. The taxonomy of the goals of education forms the basis of the pedagogical concept of developing and nurturing education.

XÜSUSİ TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ EŞİTMƏ POZULMASI OLAN UŞAQLAR ÜÇÜN ƏMƏK VƏ PEŞƏ TƏLİMİNİN MƏZMUNU

Abdullazadə Günel Tahar qızı
Azərbaycan Dövlət Pedaqoji Universiteti
gunelabdullazade1999@gmail.com

Açar sözlər: xüsusi təhsil məktəbləri, eşitmə pozulması olan məktəblilər, peşə hazırlığı, əmək təlimi, peşəyönümü
Ключевые слова: коррекционная школа, слабослышащие учащиеся, профессиональная подготовка, трудовое обучение, профориентация.
Keywords: special education schools, students with hearing impairment, vocational training, labor training, vocational guidance.

Azərbaycanda eşitmə pozulması olan uşaqlar üçün məktəblərdə peşə hazırlığı məsələlərinə həmişə böyük diqqət yetirilmişdir. Ümumillikdə, eşitmə pozulmaları olan uşaqlar peşə təlimi və təhsili, aşağıdakı vəzifələri həll etmək üçün nəzərdə tutulmuşdur:

• şagirdlərə politexniki bilik və peşə bacarıqları öyrətmək;
• əməyə məhəbbət və işləyən insanlara hörmət bəsləmək;
• texniki təfəkkür və yaradıcılığı inkişaf etdirmək;
• eşitmə pozulması olan şagirdin şəxsiyyətinin hərtərəfli inkişafına töhfə vermək;
• eşitmə qalığının geniş tətbiqi ilə nitq ünsiyyəti prinsipi əsasında ümumi nitq inkişaf səviyyəsinin yüksəldilməsi;
• peşəyönümü işini həyata keçirmək, şagirdləri xalq təsərrüfatının müxtəlif sahələrində peşə və əmək fəaliyyətinə hazırlamaq.

Eşitmə pozulması olan şagirdlərin xüsusi məktəbində peşə təlimi 3 mərhələdə həyata keçirilir:

- I mərhələ - hazırlıq, 1-4 siniflərdə fənn - praktiki təlim və bitki yetişdirilməsi.
- II mərhələ - oğlanlar və qızlar üçün differensial təlimlə 5-8-ci siniflərdə ümumi əmək hazırlığı: a) texniki iş - oğlanlar üçün; b) xidmət işi: - qızlar üçün. Bu təlim 8-11-ci siniflərdə sonrakı profil və peşə hazırlığı üçün əsasdır.
- III mərhələ - 8-11-ci siniflərdə ümumi əmək, ixtisas və peşə hazırlığı.

I mərhələnin vəzifələri şagirdlərin müxtəlif aspektlərdə inkişafıdır. Politexnik prinsipə əsaslanan dərslərində kar uşaqlar təkcə modelləşdirmə, dizayn, modelləşdirmə, tikiş, yapışdırma, fəaliyyətin təşkili və s. bacarıqlarına yiyələnir, ən sadə alətlərlə, ümumi materiallarla (kağız, karton, parça, ağac, plastilin, məftil), praktiki əhəmiyyət kəsb edən əşyalar düzəldir, həm də şifahi göstərişlərə uyğun olaraq əmək tapşırıqlarını yerinə yetirməyi və yerinə yetirilən işi şifahi nitqlə müşayiət etməyi öyrənir, intensiv şəkildə toplamaq, xüsusi texniki terminlərin lüğətini zənginləşdirmək, planlaşdırma vərdişlərinə yiyələnmək orta və yuxarı siniflərdə karların gələcək ümumi və əmək təhsili üçün politexnik baza yaradır.

II mərhələdə proqramlarda nəzəri materialın, texnologiyanın öyrənilməsi, rəsm və qrafik savadının inkişafı, texniki və texnoloji sənədlərin oxunması nəzərdə tutulur. Bu mərhələdə oğlanların texniki işlərə, qızların xidmət işinə ayrıca hazırlanması nəzərdə tutulur. Əmək təliminin bu mərhələsində ümumi vəzifələrlə yanaşı, xüsusi tapşırıqlar da həll edilir. Bunlara məktəblilərə materialların emalının elementar üsullarını öyrətmək, texnologiya elementlərini öyrənmək, əməyin təşkili elementləri və istehsalın əsasları ilə tanış olmaq daxildir. Oğlanlar üçün texniki iş proqramına maşınqayırma elementləri, qrafik savadlılıq, ağac və ağac materiallarının, metalların və ərintilərin emalı texnologiyası, elektrik işləri daxildir. Ən böyük

bölmə material emal texnologiyasıdır. Hər bir mövzunun öyrənilməsi zamanı şagirdlər müəyyən texniki məlumatlar alır və məzmununa hissələrin hazırlanması və ya onların müxtəlif üsullarla bütöv bir məhsulda birləşdirilməsini ehtiva edən praktiki işlər görürlər. Qızlar üçün xidmət əməyinə kulinariya və tekstil texnologiyası, eləcə də elektrik işləri daxildir. Praktiki fəaliyyət prosesində məktəbli qızlar rəsmlərdən, alətlərdən istifadə etməyi, rəsmləri oxumağı və tərtib etməyi, modellər hazırlamağı, məhsulun eskizini tərtib etməyi öyrənirlər. Materiallar haqqındab öyrənməklə şagirdlər müxtəlif növ liflər və parçalar haqqında məlumat əldə edirlər.

Həm I, həm də II mərhələdə əmək təliminin əsas təşkilati forması dərsdir. Əmək təlimi dərsləri əmək müəllimi tərəfindən aparılır. Yeni proqramların əsas məzmunu praktiki işə həsr olunub ki, bu da tədris vaxtının təxminən 50-75%-ni təşkil edir. Eşitmə qabiliyyəti olmayan şagirdlərin təhlükəsizlik və əmək mədəniyyəti ilə tanışlığına xüsusi diqqət yetirilir. Hər tədris ilinin sonunda şagirdlər sadə məmulatlar hazırlayaraq mürəkkəb işlər görürlər. Kompleks işin əsas vəzifəsi əvvəllər əldə edilmiş nəzəri (politexniki) bilikləri və praktiki bacarıqları möhkəmləndirməkdir. V -VII sinif şagirdlərinin əmək tərbiyəsi prosesində nitqin inkişafına böyük diqqət yetirilir. Proqramda hər bir mövzu üçün iş prosesində şagirdlər tərəfindən öyrənilməli olan lüğət və frazeologiya müəyyən edilir.

Əmək təliminin III mərhələsində - VIII – XI siniflərdə eşitmə pozulması olan məktəblilərin işlərinin planlaşdırılması, təşkili və özünə nəzarəti üçün bütün profillər üçün ümumi bilik, bilik və bacarıqlara yiyələnməsini təmin edən ümumi əmək hazırlığı aparılır. Bu mərhələdə təlim tədris-istehsalat zavodları, tədris emalatxanaları, Karlar Cəmiyyətinin sənaye müəssisələrinin saytları əsasında həyata keçirilir. Bütün mərhələlərdə karların əmək təliminin fasiləsizliyini təmin etmək çox vacibdir. O, ilkin mərhələdə xüsusi məktəblərin şagirdlərində, 1-4-cü siniflərdə formalaşan möhkəm əmək bazasının orta və yuxarı siniflərdə istifadəsini nəzərdə tutur.

Eşitmə qabiliyyəti olmayan orta məktəb şagirdləri üçün əmək tərbiyəsinin təşkili formaları müxtəlifdir. Bunlara müxtəlif növ dərslər, laboratoriya və praktik məşğələlər, təlim-istehsalat işləri, ekskursiyalar, istehsalat təcrübəsi daxildir. Onların hamısı bir-biri ilə sıx bağlıdır və təhsilin məzmunu, şagirdlərin əmək fəaliyyəti növlərinin ardıcıllığı, müəllimin məharəti ilə müəyyən edilir. Əmək təliminin hər bir dövrü məktəblilərin müstəqilliyinin və fəallığının, yaradıcılıq qabiliyyətlərinin inkişafı, idrak qabiliyyətlərinin aktivləşdirilməsi, nitq ünsiyyətinin inkişafı və ümumi təhsil biliklərinin praktik fəaliyyətdə tətbiqini təmin edir. Xüsusi məktəbdə peşə hazırlığının korreksiya - kompensator istiqamətini vurğulamaq lazımdır. O, sensor qabiliyyətlərin inkişafına kömək edir, şagirdlərin hiss təcrübəsini zənginləşdirir, fəaliyyət prosesində nitqin formalaşmasına şərait yaradır, lüğəti aktivləşdirir, nitqdə texniki və texnoloji terminologiyanın mənimsənilməsinə və fəal istifadəsinə kömək edir. Əmək təlimi məktəblilərin ictimai faydalı əməkdə fəal yaradıcı iştirakını təmin edir. Praktik iş zamanı kiçik şagirdlər biliklərini möhkəmləndirir, müxtəlif mate-rialların emalı üçün ilkin üsulları mənimsəyir; onlarda ümumi əmək vərdişləri (planlaşdırma, təşkilatlanma, əməyə nəzarət) inkişaf etdirilir, əmək mədəniyyəti tərbiyə olunur. Əmək təlimi dərslərində, ictimai faydalı əmək prosesində, texniki yaradıcılıq üzrə sinifdənkənar işlərdə əməyin mühafizəsi, şagirdlərin şəxsi gigiyenasının təmin edilməsi üçün tədbirlər nəzərdə tutulur. Bu məqsədlə praktiki işləri yerinə yetirməzdən, ictimai faydalı işə başlamazdan əvvəl şagirdlər üçün əlavə təlimatlar aparmaq lazımdır. Əmək təlimi zamanı şagirdlərə təhlükəsizlik tədbirləri (istehsalat əməliyyatlarının xüsusiyyətlərinə və müəssisələrdəki avadanlıqların növünə görə) öyrətmək lazımdır.

Kar və zəif eşidən şagirdlərin peşə hazırlığı sistemində peşəyönümü mühüm yer tutur. Düzgün təşkil olunmuş əmək təlimi özlüyündə peşə maraqlarının formalaş-masına fəal təsir göstərir, məqsədyönlü peşəyönümü isə məktəb məzunlarının ilk növbədə onların maraqlarına cavab verən və fərdi qabiliyyətlərin maksimum inkişafını təmin edən şüurlu peşə seçiminə

hazırlanmasını təmin edir. Şagirdlərin şüurlu şəkildə peşə seçiminə hazır olması müxtəlif amillərlə bağlıdır: ən çox yayılmış əmək növləri haqqında məlumatlı olması, əmək fəaliyyətinin subyektləri üçün konkret əmək növlərinə qoyulan tələbləri və konkret peşəyə yiyələnmə yollarını bilməsi; seçilmiş ixtisasa yiyələnmək üçün şəxsi keyfiyyətləri düzgün qiymətləndirmək bacarığı. Gələcək peşənin seçilməsində şagirdlərin maraq və meyllərini müəyyən etmək, qabiliyyət və potensiallarını qiymətləndirmək, testlər əsasında onların peşəkar diaqnostikasını həyata keçirən psixoloq - peşəkar məsləhətçinin işinin təşkilinə mühüm yer verilir. Mütəxəssisin vəzifələrinə fərdi və qrup konsultasiyalarının keçirilməsi, məktəbin təklif etdiyi ixtisasların, onlara tələbatın təhlili, məşğulluq dərslərinin təşkili, müsahibəyə hazırlayan treninqlərin və işgüzar oyunların keçirilməsi, işgüzar ünsiyyət və davranışda etikanın əsaslarının öyrədilməsi, köməklik daxildir. Həm məktəbə, həm də şagirdlərə səmərəli köməklik göstərmək məqsədilə məktəbin psixoloji xidməti yeni metodlardan istifadə edir. Belə ki, bir çox məktəblərdə şagirdləri yoxlayarkən karyera yönümlülük üçün "Maraqlar xəritəsi"ndən geniş istifadə olunur. Eşitmə pozulması olan şagirdlərin inkişafının xüsusiyyətləri və fərdi xüsusiyyətləri nəzərə alınmaqla tərtib edilmiş xüsusi sorğu vərəqi şəklində hazırlanmışdır. Xəritə şagirdlərin maraqlarını nəzərə alaraq peşə hazırlığı üçün tədris qruplarının formalaşmasına kömək edir və məktəblilərin peşəkar yönümlü maraqlarının erkən aşkarlanmasına kömək edir.

Eşitmə pozulması olan orta məktəb şagirdləri üçün əmək tərbiyəsinin tədris, peşə və politexniki, yaradıcılıq funksiyaları da əhəmiyyətli dərəcədə gücləndirilə bilər. Konsepsiyanın əsas müddəalarına uyğun olaraq, politexniki yanaşmaya əsaslanan əmək təlimi şagirdlərin istəkləri, onların tələbat və maraqlarını qabaqcadan nəzərə alaraq müəyyən qədər rəhbərliklə aparılmalıdır. Məktəblilər nə qədər yaşlı olsalar, yalnız fiziki güc tələb edən işdən bir o qədər az məmnun olurlar. Tədqiqat elementlərini onların əmək fəaliyyətinə daxil etmək, onları məhsuldar əmək obyektlərinin dizaynını, məhsulların istehsal texnologiyasını təkmilləşdirmək üçün yaradıcı axtarışlara cəlb etmək lazımdır. Dərslərin bu cür məzmunu uşaqlarda böyük şəxsiyyət formalaşdıran təsir göstərir, onların fiziki və əqli qabiliyyətlərini, əmək və peşə maraq və meyllərini inkişaf etdirir. Müasir cəmiyyət sağlamlıq imkanları məhdud olan insanlara, o cümlədən kar və eşitmə pozulması olan insanlara sosial dəstək göstərməyə, onların yaradıcılıq qabiliyyətlərini kəşf etməyə və şüurlu şəkildə həyat yolunu seçməyə kömək etməyə çağırılır.

ƏDƏBİYYAT

1. Гозова А.П. "Психология трудового обучения глухих". М., 1979.
2. Засенко В.Б. "Подготовка глухих учащихся к самостоятельной трудовой деятельности: Пособие для учителя". Киев, 1990.
3. Матвеев В.Ф. "Состояние профориентационной работы в школе для глухих детей" // Дефектология. 1982. № 4.

XÜSUSİ TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ EŞİTMƏ POZULMASI OLAN UŞAQLAR ÜÇÜN ƏMƏK VƏ PEŞƏ TƏLİMİNİN MƏZMUNU

Abdullazadə Günel

XÜLASƏ

Əmək təlimi eşitmə pozulması olan məktəblilərin müxtəlif əmək fəaliyyətlərinə cəlb edilməsini nəzərdə tutan mürəkkəb, çoxşaxəli prosesdir. Onun vəzifələri eşitmə pozulması olan

məktəblilərin əməyə ideoloji, mənəvi, psixoloji, praktiki hazırlanması və ilkin pozulma ilə bağlı nəticələrin aradan qaldırılmasıdır. Bu vəzifələr bir-biri ilə ayrılmaz şəkildə bağlıdır. Onların həlli eşitmə pozulmaları olan məktəblilərin hərtərəfli inkişafına, onların ictimai faydalı əməkdə fəal iştiraka hazırlanmasına və əməyə müsbət münasibətin formalaşmasına kömək edir.

СОДЕРЖАНИЕ ТРУДОВОЙ И ПРОФЕССИОНАЛЬНОЙ ПОДГОТОВКИ ДЕТЕЙ С НАРУШЕНИЕМ СЛУХА В СПЕЦИАЛЬНЫХ ОБРАЗОВАТЕЛЬНЫХ ШКОЛАХ

Абдуллазаде Гюнель

АННОТАЦИЯ

Трудовое обучение представляет собой сложный, многогранный процесс, вовлекающий учащихся с нарушениями слуха в разнообразную трудовую дея-тельность. Его задачи - идейно, морально, психологически, практически подго-товить учащихся с нарушением слуха к работе и ликвидировать последствия первоначального нарушения. Эти задачи неразрывно связаны. Их решение способствует всестороннему развитию учащихся с нарушением слуха, подготовке их к активному участию в общественной работе и формированию положительного отношения к труду.

CONTENT OF LABOR AND VOCATIONAL TRAINING FOR CHILDREN WITH HEARING DISORDERS IN SPECIAL EDUCATIONAL SCHOOLS

Abdullazada Gunel

SUMMARY

Labor training is a complex, multifaceted process involving students with hearing impairments in a variety of work activities. Its tasks are to ideologically, morally, psychologically, practically prepare students with hearing impairments for work and to eliminate the consequences of the initial impairment. These tasks are inextricably linked. Their solution contributes to the comprehensive development of students with hearing impairments, their preparation for active participation in community service and the formation of a positive attitude to work.

СОВРЕМЕННЫЕ ПОДХОДЫ К ОБУЧЕНИЮ И ВОСПИТАНИЮ В ШКОЛЕ

Санг Жике,
магистрант II курса БГУ
jikesang@gmail.com

Ключевые слова: личностно-ориентированный подход, системно-деятельностный подход, интерактивный подход, проблемный подход, коммуникативный подход в обучении, иновационной подход.
Açar sözlər: tələbə mərkəzli yanaşma, sistem-fəaliyyət yanaşması, interaktiv yanaşma, problemli yanaşma, tədrisdə kommunikativ yanaşma, innovativ yanaşma.
Key words: student-centered approach, system-activity approach, interactive approach, problem approach, communicative approach in teaching, innovative approach.

В толковом словаре Ожегова С.И. мы читаем: «Подход - совокупность приемов, способов (в воздействии на кого-что-нибудь, в изучении чего-нибудь, в ведении дела)».

А по Сластенину, «Обучение - самый важный и надежный способ получения систематического образования, отражающий все существенные свойства педагогического процесса.

Разные люди отвечают на этот вопрос по-разному. Некоторые говорят о прочных знаниях, другие - о воспитании, о развитии интеллектуальных и творческих возможностей детей, их умении учиться, формировании способности к саморазвитию... Но в итоге все и всегда сходятся к одному, что школа должна помочь каждому ребенку. Способность человека к реализации социально значимой деятельности является базовой для его личностного развития, все это сформировалось в культуре более сотни лет назад. По Дистервегу, главная цель воспитателя должна заключаться в развитии самодеятельности, благодаря которой человек может впоследствии стать распорядителем своей судьбы, продолжателем образования своей жизни.

Таким образом, современный подход к обучению имеет своей целью: становление индивидуальной личности, добросовестного гражданина, человека, и главное, способного самостоятельно и быстро решать возникшие проблемы.

В связи с этими требованиями педагогика вынуждена применять современные подходы для организации процесса обучения.

Один из этих подход личностно-ориентированный.

Личностно-ориентированный подход в преподавании – это внимание педагога на целостной личности человека, забота о развитии не только его интеллекта, но и как духовной личности с эмоциональными, эстетическими, творческими задатками и возможностями развития.

Цель личностно-ориентированного образования – создание условий для полноценного развития следующих функций индивидуума: способность человека к выбору; умение рефлексировать, оценивать свою жизнь; поиск смысла жизни, творчество; формирование образа “Я”; ответственность автономность личности.

Ученик в личностно-ориентированном образовании - главное действующее лицо всего образовательного процесса.

Педагог становится не только «источником информации», он является диагностом и помощником в развитии личности ученика. Организация такого учебного процесса,

формулу которого вполне можно взять у М. Монтессори – «помоги мне сделать это самому».

Системно-деятельностный подход, это организация учебного процесса.

Главное место отводится активной и разносторонней, степени самостоятельной познавательной деятельности. В связи с этим меняется позиция учителя и ученика. Позиция учителя: к классу не с ответом (готовые знания, умения, навыки), а с вопросом, а позиция ученика: за познание мира.

Структура уроков ведения нового знания имеет следующий вид: I. Мотивирование к учебной деятельности, данный этап процесса обучения предполагает осознанное вхождение учащегося учебную деятельность на уроке. С этой целью организуется его мотивирование к учебной деятельности . 1) Актуализация требований к нему со стороны учебной деятельности ("надо"); 2) создание условий для возникновения внутренней потребности включения в учебную деятельность ("хочу");

1) устанавливание тематических рамок ("могу"). В этом варианте происходят процессы адекватного самоопределения в учебной деятельности и самополагания в ней, предполагающие сопоставление учеником своего реального "Я" с образом "Я - идеальный ученик", осознанное подчинение себя системе нормативных требований учебной деятельности и выработку готовности к реализации

II. Актуализация и фиксирование индивидуального затруднения в пробном учебном действии, на этом этапе организуется подготовка и мотивация учащихся к надлежащему самостоятельному выполнению пробного учебного действия, его осуществление и фиксация индивидуального затруднения: 1) актуализацию изученных способов действий, достаточных для построения нового знания, их обобщение и знаковую фиксацию;

2) актуализацию соответствующих мыслительных операций и познавательных процессов;

3) мотивацию к пробному учебному действию ("надо"- "могу" - "хочу") и его самостоятельное осуществление;

4) фиксацию индивидуальных затруднений в выполнении пробного учебного действия или его обосновании. III. Выявление места и причины затруднения. На данном этапе учитель организует выявление учащимися места и причины затруднения. 1) восстановить выполненные операции и зафиксировать (вербально и знаково) место - шаг, операцию, где возникло затруднение; 2) соотнести свои действия с используемым способом действий и на этой основе выявить и зафиксировать во внешней речи причину затруднения - те конкретные знания, умения или способности, которых недостает для решения исходной задачи и задач такого класса или типа вообще. 3). Построение проекта выхода из затруднения, учащиеся в коммуникативной форме обдумывают проект будущих учебных действий: ставят цель, согласовывают тему урока, выбирают способ, строят план достижения цели и определяют средства- алгоритмы, модели и т.д. Реализация построенного проекта, осуществляется реализация построенного проекта: обсуждаются различные варианты, предложенные учащимися, и выбирается оптимальный вариант, который фиксируется в языке вербально и знаково.

Интерактивный подход — это тип деятельности учащихся, связанный с изучением учебного материала в ходе интерактивного урока.

Костяком интерактивных подходов являются интерактивные упражнения и задания, выполняемые учащимися. Основное отличие интерактивных упражнений и заданий от обычных в том, что они направлены не только на закрепление уже изученного материала, а на изучение нового. Современная педагогика богата целым арсеналом интерактивных

подходов: творческие задания; работа в малых группах; обучающие игры; использование общественных ресурсов; социальные проекты и другие внеаудиторные методы обучения; разминки; изучение и закрепление нового материала; обсуждение сложных и дискуссионных вопросов и проблем; разрешение проблем («Дерево решений», «Мозговой штурм», «Анализ казусов», «Переговоры и медиация», «Лестницы и змейки») .

Проблемный подход ориентирует на использование реальных возможностей образования в реализации социальных целей; но управлять формированием личностных качеств нельзя; нужно управлять деятельностью, способствующую развитию определенных личностных качеств.

Проблемный подход решает проблему источников современного общего образования. Ясно, что развить у обучаемых способность к самостоятельному решению проблем можно только на основе формирования опыта решения этих проблем. Но школьное обучение недостаточно для формирования такого опыта. Оно может дать опыт решения познавательных проблем, но и в таком случае какая-то часть проблем, значимых для учащихся, которая оказаться вне рамок школьного обучения.

Проблемный подход решает проблему согласования целей образования и мотивов образовательной деятельности учащихся.

Проблемный подход ориентирует на изучение проблем, которые принято считать вечными, и которые каждое молодое поколение решает для себя проблем, которые приобрели особую актуальность для учащихся в связи с изменениями, происходящими в обществе.

Коммуникативный подход в обучении.

И.А. Зимняя впервые предложила обоснование коммуникативного подхода. Потом этот подход затем получило свое развитие в работах И.Л. Бим, а практическая реализация этого подхода состоялась в рамках коммуникативного и ряда интенсивных методов. Суть этого подхода означает, что обучение носит деятельностный характер, потому что реальное общение на занятиях осуществляется с помощью речевой деятельности, где учащиеся стремятся решать реальные или воображаемые задачи.Коммуникативный подход в обучении означает, что в центре обучения находится обучающийся как субъект учебной деятельности. Система обучения предполагает максимальный учет индивидуально-психологических, возрастных особенностей личности обучаемого и его интересов.

Основой обучения данному подходу является речевая деятельность.

Названный подход реализует основные требования к современному учебному процессу: коммуникативное поведение преподавателя на уроке; использование заданий, воссоздающих ситуации общения реальной жизни и предполагающих выполнение учебных действий в рамках таких ситуаций; параллельное усвоение грамматической формы и ее функции в речи; учет индивидуальных особенностей учащихся.

Коммуникативный подход в современной методике рассматривается в качестве теоретической базы обучения языку».

«Компетентностный подход - это совокупность общих принципов определения целей образования, отбора содержания образования, организации образовательного процесса и оценки образовательных результатов. К числу таких принципов относятся следующие положения:

Смысл образования заключается в развитии у обучаемых способности самостоятельно решать проблемы в различных сферах и видах деятельности на основе использования социального опыта, элементом которого является и собственный опыт учащихся.

Содержание образования представляет собой дидактически адаптированный социальный опыт решения познавательных, мировоззренческих, нравственных, политических и иных проблем.

Смысл организации процесса обучения, заключается в создании условий для формирования у обучаемых опыта самостоятельного решения познавательных, коммуникативных, организационных, нравственных и иных проблем, составляющих содержание обучения.

Инновации-модернизации, модернизирующие учебный процесс, направленные на достижение гарантированных результатов в рамках его традиционной репродуктивной ориентации. Лежащий в их основе технологический подход к обучению направлен, на сообщение учащимся знаний и формирование способов действий по образцу, ориентирован на высокоэффективное репродуктивное обучение.

Инновации-трансформации, преобразующие традиционный учебный процесс, направленные на обеспечение его исследовательского характера, организацию поисковой учебно-познавательной деятельности.

Репродуктивная и проблемная ориентации образовательного процесса воплощаются в двух основных инновационных подходах к преобразованию обучения в современной педагогике, технологическом и поисковом.

Технологический подход модернизирует традиционное обучение на основе преобладающей репродуктивной деятельности учащихся, определяет разработку моделей обучения как организации достижения учащимися четко фиксированных эталонов усвоения.

Поисковый подход преобразует традиционное обучение на основе продуктивной деятельности учащихся, определяет разработку моделей обучения как инициируемого учащимися освоения нового опыта. В рамках этого подхода к обучению целью является развитие у учащихся возможностей самостоятельно осваивать новый опыт; ориентиром деятельности педагога и учащихся является порождение новых знаний, способов действий, личностных смыслов.

Выводы. Рассмотрев современные подходы к организации процесса обучения, мы можем сделать вывод: все эти подходы ориентированы на самостоятельность в добывании знаний, свободное развитие всех ученика как субъекта учения и как личности, способность самостоятельного решения поставленных проблем. Учитель, проводя занятие с большой группой детей, учитывает индивидуальные особенности каждого ребенка, что полностью соответствует требованиям современного общества к обучению.

ЛИТЕРАТУРА

1.Воспитательная работа: содержание, организация, методика. - М.: 2002.

2.Калюжный, А. Принципы, формы и методы обучения и воспитания подчиненных. //Ориентир. -№ 2. - 2007. [с.125]

3.Колеченко, А.К. Энциклопедия педагогических технологий: Пособие для преподавателей / А.К. Колеченко. – Спб.: КАРО,2006. – [с.368]

4.Остапенко, А.А. Моделирование многомерной педагогической реальности: теория и технология / А. А. Остапенко. – М.: Нар. образ., НИИ шк. техн., 2005. – 384 с.

5.Педагогические технологии: учеб. пособие / Под ред. В.С. Кукушина. – М.: ИКЦ «МарТ», 2004. – [с.336]

6.Подласый, М.П.Педагогика / М. П.Подласый. – М.:Высшее образ-е, 2007. – 540 с.

7.Радугин, А. А. Педагогика. Учеб. пособие для ВУЗов / А.А. Радугин. – М.: Центр, 2002. [с.272]

СОВРЕМЕННЫЕ ПОДХОДЫ К ОБУЧЕНИЮ И ВОСПИТАНИЮ В ШКОЛЕ

Санг Жике

АННОТАЦИЯ

В статье исследуется актуальность современного подхода в обучении и воспитании в школе, определяются перспективы его дальнейшего развития. Обосновывается необходимость применения современных педагогических подходов развития образования и воспитания в школе.

MƏKTƏBDƏ TƏLİM VƏ TƏHSİLƏ MÜASİR YANAŞMALAR

Jike Sang

XÜLASƏ

Məqalədə məktəbdə tədris və tərbiyəyə müasir yanaşmanın aktuallığı araşdırılır, onun gələcək inkişaf perspektivləri müəyyən edilir. Məktəbdə təhsilin və tərbiyənin inkişafına müasir pedaqoji yanaşmaların tətbiqinin zəruriliyi əsaslandırılır.

MODERN APPROACHES TO TRAINING AND EDUCATION IN SCHOOL

Sang Jike

SUMMARY

The article examines the relevance of the modern approach to teaching and upbringing at school, determines the prospects for its further development. The necessity of applying modern pedagogical approaches to the development of education and upbringing at school is substantiated.

XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ AZƏRBAYCANDA MİLLİ MAARİFÇİLİK HƏRƏKATINDA QADIN TƏHSİLİ

Rəşidli Aygül Əfət qız.
BDU-nun II kurs magistrantı
rashidliaygul@gmail.com

Açar sözlər: XX əsr, Azərbaycan maarifçiliyi, qadın, təhsil.
Keywords: XX century, Azerbaijani literature, women, education.
Ключевые слова: XX век, азербайджанская литература, женщины, образование.

Maarifçilik anlayışı bütün dünya xalqlarının dilində müxtəlif şəkildə tələffüz olunsa da, o hamısında eyni mənanı - "işıq", "ziya", "rifah" mənasında işlənir. Maarifçilik əhali arasında savad, bilik, mədəniyyəti yaymaq üçün mütəşəkkil surətdə həyata keçirilən tədbirlər sistemidir.

Maarifçilik hərəkatı Avropa ölkələrindən və Rusiyadan fərqli olaraq Azərbaycanda XIX əsrin sonunda təşəkkül tapmış, M. F. Axundovun simasında H. Zərdabi, N. Vəzirov, Ə. Haqverdiyev, Ü. Hacıbəyov, Məhəmməd Tağı Sidqi, Cəlil Məmmədquluzadə, Məhəmmədağa Şahtaxtlı, Eynəli bəy Sultanov, Məmməd Səid Ordubadi, Əliqulu Qəmküsar, C.Cabbarlı, Q. Şərifzadə, Hüseyn Cavid kimi görkəmli ədəbiyyatşünas, maarifçi nümayəndələrini yetirmişdir. XX əsrin əvvəllərində Azərbaycanın hər yerində əhali milli müstəqillik, azadlıq duyğuları ilə mübarizə edirdi. Demək olar ki, o dövrdə xalqımızın qabaqcıl şəxsiyyətləri, mütəfəkkir adamları, ziyalıları xalqımızda milli istiqlal, milli müstəqillik, milli şüur duyğularını gücləndirmiş, milli dirçəliş, milli oyanış əhval-ruhiyyəsini yaratmış, xüsusilə qadın azadlığı, qadın hüquqları, qadın təhsili xüsusi aktuallıqla mühüm bir problem olaraq qalırdı.

Ulu Öndər Heydər Əliyev o dövr maarifçilik hərəkatı üçün belə demişdir: *"XX əsrdə bizim qazandığımız uğurlar, o cümlədən, müstəqil dövlət qurmaq əzmimizin köklərini uzaq və yaxın tariximizdə, xüsusilə, XIX əsrdə formalaşmış və təşəkkül tapmış qaynaqlarda axtarıb tapmaq lazımdır. Bu qaynaqlar həm ayrı-ayrı görkəmli şəxsiyyətlərin - Abbasqulu Ağa Bakıxanov və Mirzə Kazım bəy kimi nadir insanların çox uğurlu yaradıcılıq fəaliyyətində öz əksini tapmış, həm də birbaşa milli maarifçilik ideyalarının gerçəkləşməsi ilə bağlı olmuşdur. Azərbaycanda məhz bu dövrdə demokratik mətbuat, anadilli məktəb, dünyəvi teatr yaranaraq, milli şüurun formalaşmasına güclü təkan vermişdir" (1, s. 176).*

Azərbaycanda maarifçilik hərəkatı öz başlanğıcını XVIII əsrin sonu və XIX əsrin əvvəllərində tapmağa başlamışdır. Qərb ölkələrinə və Rusiyaya nisbətən Azərbaycanda maarifçilik ideyalarının bir qədər gec meydana çıxması o zamankı Azərbaycanın konkret siyasi-iqtisadi, sosial-mədəni şəraiti ilə bağlı olmuşdur. Artıq XIX əsrdə, xüsusən də, onun ikinci yarısında Azərbaycanda burjua ictimai münasibətləri inkişaf edərək, feodal qaydalarını sıxışdırıb aradan qaldırmış, intellektual-maarifçilik mühitinin yaranması və yayılması üçün zəruri elmi biliklər də artıb çoxalmışdı. Bu dövrdə ölkədə mədəni-mənəvi yüksəliş diqqəti cəlb edirdi. Qeyd edək ki, Azərbaycan maarifçiliyi Azərbaycan ictimai mühitində yarandığından və təkcə Qərbin və Rusiyanın deyil, həm də Şərqin mütərəqqi ideya-fəlsəfi ənənələrindən istifadə etmiş, özünəməxsus spesifik xüsusiyyətlər kəsb etmiş və orijinal inkişaf yolu tuta bilmişdir. Məhz buna görə də, Azərbaycan maarifçilik ideyaları Azərbaycan xalqının milli intibahına, mədəni tərəqqisinə güclü təsir göstərmişdir.

Xalq dünyagörüşünü tam ifadə edən XX əsr Azərbaycan ədəbiyyatı və incəsənətində, maarif və mədəniyyətində dəyərli ənənələr yaranmağa başlandı. Bu ənənələrdə xalq varlığının

özünəməxsus fəlsəfi fikri, ədalətli cəmiyyət quruculuğu, milli - mənəvi, əxlaqi keyfiyyətlər, xüssuilə qadın təhsili problemlərinin həlli özünü göstətirdi.

Bu, maarifçilik ideyaları milli mədəniyyətin, milli özünüdərkin, milli dirçəliş və tərəqqinin, ana dilli məktəblərin yaranması, qadın təhsili, yeni əlfbaya keçid kimi məsələləri özündə birləşdirirdi.

Görkəmli ədəbiyaytşünas, ictimai xadim, pedaqoq A.Bakıxanovun azərbaycanşünaslıq, tarixşünaslıq sahəsində mühüm rol oynayan "Gülüstani-irəm" əsəri Azərbaycan tarixinin, ədəbiyaytının, maarif və mədəniyyətinin keçdiyi yola nəzər salmaqla tariximizi öyrənən, təbliğ edən ilk dəyərli əsərlərdəndir.

"M.F.Axundov və H.B.Zərdabi tərəfindən əsası qoyulmuş milli maarifçilik hərəkatı "Vətən, dil, millət" üçlük anlayışını əsas fəaliyyət istiqaməti kimi götürmüş və bu ideyanı təbliğ etmişlər" (2, s. 384).

Cəlil Məmmədquluzadənin "Molla Nəsrəddin"çilik ədəbi, mənəvi məktəbi –"türkçülük, islamçılıq, müasirlik" prinsipləri rəhbər tutaraq bu ideyanı yaymağa çalışmış və qadın təhsili problemlərinin həllində mühüm addımlar atmışdır.

Böyük maarifçi Əli Bəy Hüseynzadənin "Füyuzatçı"lıq hərəkatından irəli gələrək milli azadlıq düşüncəsi təşəkkül tapıb formalşamışdır.

Milli ideologiyalaşmanın, milli şüurun formalaşdırılması, qadın təhsilinin irəli sürülməsi, müstəqil dövlətin yaradılması H.B.Zərdabi ideyalarında özünü göstərirdi. Xalq demokratiyası prinsipləri əsasında Azərbaycanın azad siyasi, mədəni, maarif həyatının reallaşması M.F.Axundov ilə başalayan maarifçilik ideyalarında öz ifadəsini tapırdı.

Ədəbi maarifçilik hərəkatı əsasən 2 cərəyana bölünürdü: 1) klassik demokratik cərəyan. Bunun görkəmli nümayəndələri M.F.Axundov, H.B.Zərdabi, S.Ə.Şirvani, H.B.Vəzirov, Ə.Haqverdiyev, M.Şahtaxtlı, S.Mehmandarov və başqaları idilər; 2) inqilabi-demokratik cərəyan. Onun nümayəndələlri C.Məmmədquluzadə, F.B.Köçərli, E.Sultanov S.M.Qənizadə, R.Əfəndiyev, M.Hadi və başqaları idilər.

Ədəbi maarifçiliyin mənbələri əsasən orta əsrlərin zəngin mənəvi irsində və M.P.Vaqif, M.V. Vidadi, Q.B.Zakir, M.F.Axundiv realizmində axtarmaq lazım gəlir. Bu dövrün maarifçiliyinin çox mühüm xüsusiyyətlərindən biri onun xalqımızın milli idealı, milli hərəkatı ilə qırılmaz surətdə bağlı olması idi. Bu idealı müxtəlif cür həyata keçirməyə çalışdıqlarından, maarifçilikdə müxtəlif qollar və cərəyanlar yaranırdı.

Azərbaycan ədəbi maarifçilərinin irəli sürdükləri əsas ideyalar milli şüur, milli müstəqillik, milli dövlətçilik, ana dilli məktəblər, ana dilli mətbuat, dünyəvi təhsil, qadın azadlığı, qadın təhsili, milli və bəşəri mədəniyyətə yiyələnmək kimi mütərəqqi fikir və ideyalar idi.

Bu mütərəqqi ideyaların məntiqi nəticəsi olaraq 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin yaranması oldu. Bütün bunların nəticəsidir ki, müsəlman Şərqində ilk demokratik milli cümhuriyyət məhz Azərbaycan torpağında yarandı.Qadın azadlığı, qadın təhsili məhz bu dövrdən sürətlə inkişaf etməyə başladı.

Azərbaycan Xalq Cümhuriyyəti fəaliyyət göstərdiyi qısa müddət ərzində bir sıra mühüm tarixi qanunlar və qərarlar qəbul etmişdir. Bu qanun və qərarları aşağıdakı şəkildə qruplaşdırılmışdır: "1) Xalq məktəb tədris dairələrinin direktorun vəzififələri ləğv edilmiş, respublikada məktəb və maarif işinin idarə edilməsi Xalq Maarif Nazirliyinə və xalq məktəbləri müfəttişlərinin ixtiyarına verilməsi; 2) Qori şəhərində Qori Müəllimlər Seminariyasının Azərbaycan şöbəsinin Qazaxa köçürülməsi; 3) Azərbaycan dilinin dövlət dili elan olunması, məktəblərin milliləşdirilməsi, tədris müəssisələrində dövlət dili olan Azərbaycan dilinin məcburi tədris olunmas; 4)Türkiyədən müəllimlərin dəvət olunması və gətirilməsi; 5)xalq məktəbləri müfəttişliyinin təsis edilməsi; 6) pedaqoji kursların təşkil edilməsinə vəsaitin ayrılması; 7) ərəb əlifbasının islahatı üzrə

komissiyanın yaradılması; 8) Bakı şəhərində Universitet açılması; 9) xalq Maaarif Nazirliyinin dəftərxanasının ştatının tərtib edilməsi;10) dövlət və ictimai topoqrafiyaların Xalq Maarif Nazirliyinin sərəncamına verilməsi." (3, s. 378).

Azərbaycan Xalq Cümhuriyyəti yarandığı ilk gündən xalqın maarifləndirilməsinə birinci dərəcəli əhəmiyyət verirdi. Xalq Maarif Nazirliyi öz fəaliyyətinə Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasına qədərki dövrdə xalq maarifinin vəziyyətinin öyrənilməsi və bu sahədə həyata keçiriləcək vəzifələrin müəyyənləşdirilməsi ilə başladı. Nazirlik xalq təhsilini sürətlə inkişaf etdirmək məqsədilə islahatlar keçirmək üçün qısa müddət ərzində təkliflər hazırlayıb Hökumətə təqdim edir. Xalq məktəbləri və tədris dairələrinin direktoru vəzifələri ləğv olunaraq, məktəb və təhsil işinin idarəolunması xalq məktəbləri təlimatçılarının sərəncamına verildi.

Azərbaycan Xalq Cümhuriyyətinin təhsil sahəsində həyata keçirdiyi ilk tədbirlərdən biri də Hökumətin 1918-ci il 27 iyun tarixli qərarı ilə Azərbaycan (türk) dilinin dövlət dili elan edilməsi idi. Azərbaycan Hökuməti ilk günlərdən başlayaraq, milli kadrların hazırlanması, bu sahədə təhsilin tamamilə yenidən qurulmasına xüsusi əhəmiyyət verirdi. Nazirliyin təhsil sahəsində həyata keçirdiyi ilk və ən mühüm tədbirlərdən biri də məktəblərin milliləşdirilməsi oldu.

Azərbaycan Cümhuriyyəti Hökumətinin 1918-ci il 28 avqust tarixli qərarına əsasən, bütün ibtidai tədris müəssisələrində təhsil şagirdlərin ana dilində aparılmalı, dövlət dili olan Azərbaycan dilinin tədrisi isə məcburi surətdə həyata keçirilməli, ali, ibtidai və orta tədris müəssisələrində isə dərslər dövlət dilində aparılmalı idi. Azərbaycan dilini bilməyən şagirdlər üçün 3-cü və 4-cü siniflərdə Azərbaycan dili şöbələri açılmalı və burada Azərbaycan dili elə intensiv tədris olunmalı idi ki, iki ildən sonra həmin şagirdlər artıq bu dildə təhsillərini davam etdirə bilsinlər.

O dövrdə xalq təhsilini milli zəmin üzərində yenidən qurmaq üçün ixtisaslı müəllim kadrlarına və dərs vəsaitlərinə böyük ehtiyac var idi. Azərbaycanda mövcud müəllim kadrları və dərs vəsaiti heç də kifayət qədər deyildi. Vəziyyətdən çıxış yolu Türkiyədən müəllim kadrları dəvət etmək və dərs vəsaitləri gətirmək, habelə qısamüddətli kurslarda Azərbaycan dilini bilən savadlı şəxslərdən müəllim kadrları hazırlamaq idi.1919-cu il sentyabrın 18-də Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin qərarı ilə xalq məktəbləri üçün Türkiyədən dərs kitabları almaq məqsədilə Xalq Maarifi Nazirliyinə bir milyon manat vəsait ayrılmışdı.

Azərbaycan Cümhuriyyəti Hökumətinin və Xalq Maarifi Nazirliyinin təhsil sahəsində qarşısında duran ən ümdə vəzifələrdən biri də ölkədə ali təhsilin təşkili və ali təhsilli kadrların hazırlanması idi. Cümhuriyyət Hökumətinin fəaliyyət göstərdiyi qısa müddətdə Bakı Dövlət Universitetinin açılmasını reallaşdırmaq mümkün oldu. Azərbaycan Xalq Cümhuriyyəti Parlamenti 1919-cu il sentyabrın 1-də "Bakı Dövlət Universitetinin təsisi haqqında" qanun qəbul etdi. 1919-cu il noyabrın 15-də Bakı Dövlət Universitetinin auditoriyalarında ilk mühazirələr oxundu. Parlamentin 1919-cu il 1 sentyabr tarixli qərarı əsasında XMN-nin xətti ilə 100 nəfər azərbaycanlı gənc dövlət hesabına xarici ölkələrin ali məktəblərində təhsil almağa göndərildi.

Azərbaycan Cümhuriyyəti Xalq Maarifi Nazirliyi ölkədə maarifin inkişafi üçün geniş tədbirlər planı hazırlamış, həmin plan Azərbaycan Hökuməti tərəfindən bəyənilmiş və onun həyata keçirilməsinə razılıq verilmişdi. Lakin aprel işğalı (1920) bu planların gerçəkləşdirilməsini yarımçıq qoydu. Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin cəmi 23 aylıq fəaliyyəti dövründə təhsil sahəsində həyata keçirdiyi tədbirlər sonralar Azərbaycanda xalq maarifinin və maarifçiliyinin inkişafında müühm rol oynadı.

ƏDƏBİYYAT

1. Heydər Əliyev. Müstəqilliyimzi əbədidir. Bakı: Azərnəşr, 2005, 520 s.
2. Əhmədov H.M. Azərbaycan məktəb və pedaqoji fikir tarixi. Bakı: Elm və təhsil, 2014.
3. Hüseynzadə R.L. Azərbaycan məktəb və pedaqoji fikir tarixi. Bakı: ADPU, 2020, 528 s.

XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ AZƏRBAYCANDA MİLLİ MAARİFÇİLİK HƏRƏKATINDA QADIN TƏHSİLİ

Rəşidli Aygül

XÜLASƏ

Maarifçilik anlayışı bütün dünya xalqlarının dilində müxtəlif şəkildə tələffüz olunsa da, o hamısında eyni mənanı - “işıq”, “ziya”, “rifah” mənasında işlənir. Maarifçilik əhali arasında savad, bilik, mədəniyyəti yaymaq üçün mütəşəkkil surətdə həyata keçirilən tədbirlər sistemidir. Maarifçilik hərəkatı Avropa ölkələrindən və Rusiyadan fərqli olaraq Azərbaycanda XIX əsrin sonunda təşəkkül tapmış, M. F. Axundovun simasında H. Zərdabi, N. Vəzirov, Ə. Haqverdiyev, Ü. Hacıbəyov, Məhəmməd Tağı Sidqi, Cəlil Məmmədquluzadə, Məhəmmədağa Şahtaxtlı, Eynəli bəy Sultanov, Məmməd Səid Ordubadi, Əliqulu Qəmküsar, C.Cabbarlı, Q. Şərifzadə, Hüseyn Cavid kimi görkəmli ədəbiyyatşünas, maarifçi nümayəndələrini yetirmişdir.

ЖЕНСКОЕ ОБРАЗОВАНИЕ В НАЦИОНАЛЬНО-ОБРАЗОВАТЕЛЬНОМ ДВИЖЕНИИ В АЗЕРБАЙДЖАНЕ В НАЧАЛЕ XX ВЕКА

Рашидли Айгуль

АННОТАЦИЯ

Хотя понятие просвещения по-разному произносится в языках всех народов мира, все оно употребляется в одном и том же значении - «свет», «интеллигентность», «благополучие». Просвещение - это система мероприятий, проводимых организованно для распространения грамотности, знаний и культуры среди населения. Просветительское движение, в отличие от европейских стран и России, сформировалось в Азербайджане в конце 19 века. Хаквердиев, Ю. Гаджибеков, Мухаммад Таги Сидги, Джалил Мамедгулузаде, Магомадага Шахтахтлы, Эйнали бек Султанов, Мамед Саид Ордубади, Алигулу Гамкусар, Дж.Джаббарлы, Г.Шарифзаде, Гусейн Джавид.

WOMEN'S EDUCATION IN THE NATIONAL EDUCATIONAL MOVEMENT IN AZERBAIJAN AT THE BEGINNING OF THE XX CENTURY

Rashidli Aygul

SUMMARY

Although the concept of enlightenment is pronounced differently in the languages of all peoples of the world, it is all used in the same sense – “light”, “intelligence”, “prosperity”. Enlightenment is a system of measures taken in an organized manner to spread literacy, knowledge and culture among the population. The enlightenment movement, in contrast to European countries and Russia, was formed in Azerbaijan at the end of the 19th century. Haqverdiyev, Ü. Hajibeyov, Mahammad Taghi Sidgi, Jalil Mammadguluzade, Mahammadagha Shahtakhtli, Eynali bey Sultanov, Mammad Said Ordubadi, Aligulu Gamkusar, J. Jabbarli, G. Sharifzade, Huseyn Javid.

AZƏRBAYCANDA ZƏİF EŞİDƏN UŞAQLARIN İNKLÜZİV TƏHSİL PROBLEMİ

İmanova Sevil Cavanşir qızı
ADPU-nun II kurs magistrantı
sevil.manova@mail.ru

Açar sözlər: inklüziv təhsil, zəif eşidən uşaq, nitq.
Ключевые слова: инклюзивное образование, слабослышащий ребенок, речь.
***Keywords*:** inclusive education, hearing impaired child, speech.

İnklüziv təhsil – bu, xüsusi təşkil olunmuş təhsil prosesidir. İnklüziv təhsil - ümumitəhsil müəssisələrində xüsusi təhsil ehtiyacları olan uşaq və yeniyetmələri həmyaşıdları ilə standart proqramlar üzrə təhsil almanı təmin edən təhsil prosesidir. İnküzivlik həmçinin əlil uşaq, yeniyetmə və gənclərin hüquqlarını müdafiə edən ictimai təşkilat, birlik və hərəkatların fəaliyyətinin canlanmasına da öz təsirini göstərir.

Müasir təhsil sisteminin inklüziv təhsil ideyalarının tətbiqi təcrübəsi vardır. Avropa ölkələrinin demək olar ki, əksəriyyətinin qanunvericiliyin də mövcud inklüziv təhsil prinsipləri yalnız əlilliyi olan şəxsləri deyil, həm də çətin həyat şəraitində olan digər sosial kateqoriyaları (miqrant, qaçqın, çətin maddi vəziyyətdə olan insanlar) da əhatə edir.

İnklüziv təhsilin inkişafında Fransa, İtaliya, Norveç, Danimarka, Böyük Britaniya, İsveçrə, İspaniya kimi ölkələr ən böyük uğurlara nail olmuşlar.

Hazırda Azərbaycanda da əlilliyi olan insanlar üçün inklüziv təhsil konsepsiyası geniş populyarlıq qazanmağa başlamışdır. Buna səbəb son bir neçə ildə Azərbaycan cəmiyyətinin əlil insanların inklüziv təhsil probleminə münasibəti xarici ökələrin müsbət təcrübəsi sayəsində dəyişilmiş və inklüziya sahəsində müasir təcrübənin işləyib hazırladığı konsepsiyalara əsaslanan yeni təhsil paradiqmasının formalaşdırılmasına təkan verilmişdir.

Belə ki, Təhsil Nazirliyinin 3 fevral 2005-ci il tarixli qərarına əsasən "Azərbaycan Respublikasında xüsusi qayğıya ehtiyacı olan (sağlamlıq imkanları məhdud) uşaqların təhsilinin təşkili üzrə İnkişaf Proqramı (2005-2009-cu illər)" qəbul edilmiş və "İnklüziv təhsil layihəsi"nin icrasına start verilmişdir. Məhz inklüziv təhsillə bağlı bu,Nazirlər Kabinetinin 2005-ci ildən həyata keçirdiyi ən uğurlu layihələrdən biri olmuşdur. İnkişaf proqramı çərçivəsində inklüziv təhsilin təşkili ilə bağlı 3 pilot layihənin icrasına başlanılmışdır. Layihələrin icrası gedişində 15 ümumi təhsil, 13 məktəbəqədər təhsil müəssisəsində 268 nəfər əlilliyi olan uşaq inklüziv təhsilə cəlb olunmuşdur.

2015-ci ildə Azərbaycan Respublikasının Təhsil Nazirliyi BMT-nin Uşaq Fondu ilə (UNICEF) birgə əməkdaşlığı çərçivəsində əlilliyi olan şəxslərin təhsilinin beynəl xalq təcrübəsi, ölkəmizdə təşkili yeni mərhələyə keçidi, inklüziv təhsillə bağlı görülmüş işlər təhlil edilmiş və bu sahədə görülən işlər yüksək qiymətləndirilərək inklüziv təhsilin səmərə və keyfiyyətinin yüksəldilməsi istiqamətində həyata keçiriləcək tədbirlər müəyyən edilmişdir.

2015-2016-cı tədris ilindən əlilliyi olan uşaqların ümumi təhsil müəssisəsində digər uşaqlarla birgə təhsilə cəlb olunması məqsədilə Azərbaycan Respublikasında "İbtidai təhsil səviyyəsi üzrə inklüziv təhsilin tətbiqi" layihəsinin icrasına başlanmış və pilot inklüziv məktəblər. (Bakıdakı 138, 220, 202 və 252 nömrəli məktəblərin hər birində iki sinif olmaqla birinci sinfə sağlamlıq imkanları məhdud olan 4 uşaq qəbul edilmişdir) müəyyənləşdirilmişdir.

2017-ci il 14 dekabr tarixində ölkə başçısı İ. Əliyevin sərəncamı ilə "2018-2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı" sağlamlıq imkanları məhdud uşaqların təhsilin bütün pillələri üzrə digər

şəxslərlə bərabər səviyyədə almaq hüququnu təmin etdi və onlara maneəsiz təhsili mühitinin yaradılması üçün geniş imkanlar yaratdı.

Hal - hazırda Bakı şəhəri üzrə 4 ümumi təhsil müəssisəsində 86 sağlamlıq imkanları məhdud şagird inklüziv təhsilə cəlb edilmişdir. Son zamanlara qədər Azərbaycanda kar və zəif eşidən uşaqların ümumtəhsil müəssisələrində təlim - tərbiyə alması çox nadir hallarda rast gəlinirdi. Bu, müəyyən dərəcədə təsadüfi, məcburiyyətdən doğan, sosial-iqtisadi və mədəni şəraitlə bağlı bir hal (ölkənin ucqar bölgələri, diaqnostikanın aşağı səviyyəsi, lazımi xüsusi təhsil müəssisəsinin olmaması və s.), ya da müntəzəm korreksiya köməyi və valideyn dəstəyi alan çox istedadlı eşitmə qüsurlu uşaqların eşidən uşaqlar mühitinə daxil olması kimi qiymətləndirilirdi. Eşitmə pozulması olan uşaqların kütləvi məktəbin adi sinifində inteqrasiyalı təhsili Azərbaycan təhsil sistemi üçün nisbətən yeni bir hadisədir. Bu gün bu kateqoriyadan olan uşaqların kütləvi uşaq müəssisələrinə inteqrasiyası prosesi durmadan artır və ölkənin təhsil məkanında sabit tendensiya xarakteri alır.

Hazırda Azərbaycanda xüsusi təhsilə ehtiyacı olan uşaqların tədrisində eyni vaxtda üç yanaşma tətbiq olunur:

- nitq, eşitmə, görmə, dayaq-hərəkət, intellekt pozğunluğu olan, əqli geriliyi olan uşaqlar üçün xüsusi təhsil (korreksiya) müəssisələrində differensial təhsili;
- ümumtəhsil müəssisələrində xüsusi sinif və ya qruplarda uşaqların inteqrasiyalı təhsili;
- xüsusi təhsil ehtiyacı olan uşaqların normal həmyaşıları ilə bir sinifdə inklüziv təhsili.

Uzun illər ölkəmizdə sağlamlıq imkanları məhdud uşaqların təhsili sistemi senzvli, yəni məktəb təlimi vahid təhsil standart və təhsil prinsipi əsasında həyata keçirilirdi və eşitmə pozulmaları olan uşaqlar məktəbi bitirdikdə eşidən həmyaşıdları kimi bərabər təhsil səviyəsi alırdılar. Təhsilə belə yanaşmanın eyni cürlüyü neqativ halların meydana çıxmasına səbəb olurdu. Alınmış təhsil kar və zəif eşidən uşaqların psixi inkişafını, xüsusilə də onların idrak fəaliyyəti və nitq inkişafının özünəməxsusluğu və çətinliklərini, eşitməsini itirmiş uşaq şəxsiyyətinin xüsusiyyətlərini nəzərə almırdı. N.N Malofeeva belə təhsili "təhsil standartının törəməsi" kimi qiymətləndirirdi.[3] R.M. Boskisə görə, " eşitməsini qismən itirmiş, nitqə müstəqil, hətta ən aşağı səviyyədə yiyələnmiş uşaqlar heç bir halda zəif eşidən və kar uşaqlar üçün məktəbdə təhsil almamalıdırlar" [2]. Onların qənaətinə görə, təhsil prosesinə sadəcə olaraq, şagirdin səriştələrinin instrumental əsasını təşkil edən bilik, bacarıq və vərdişlər sisteminin mənimsənilməsi kimi deyil, həm də şəxsiyyət inkişaf, mənəvi-əxlaqi təcrübə və sosial səriştələr qazanmaq üçün şəraitin yaradılması prosesi kimi yanaşılmalıdır. Bu baxımdan, yeni inklüziv təhsil sistemi eşitmə qüsurlu uşağın daha çox həyat yönümlü, əsasən, eşidənlər mühitinə daxil olmasını nəzərdə tutur və onların daha dolğun sosial adaptasiyasına təkan verir.

Kütləvi məktəb şəraitində kar və zəif eşidən uşaqlara xüsusi nitq təlimi təşkil olunmalıdır. Zəif eşidən uşaqların təlimi nitqin inkişaf dərəcəsi və ətrafdakılarla ünsiyyət üçün imkanlarından asılı olaraq ilk növbədə aşağıdakı şəraitləri tələb edir:

1. nitqi qavramanın müxtəlif yolları,
2. nitqin formalaşması üçün müxtəlif şəraiti.

L.S.Volkovanın fikrinə görə eşitmə çatışmazlıqları olan şagirdlərdə nitqin formalaşması nitqin qavranılmasından çox asılıdır [2]. Erkən karlaşmış uşaqlar şifahi nitqi yalnız görmə ilə dodaq oxumaqla qavrayırlar. Kar uşaqlarda nitqin qavranmasında eşitmə qalıqlarının rolu çox azdır.

Zəif eşidən uşaqlarda vəziyyət daha fərqlidir. Onların eşitmə qalığının köməyi ilə adi ucalıqda olan danışıq nitqini qavramaq bacarığı dodaqdan oxu ilə eşitmə qavrayışının birləşməsi şəraitini yaradır. Lakin eşitmənin mühafizə dərəcəsi əgər onların şifahi nitqə normal yiyələnməsi üçün yetərli deyilsə, o zaman bunun üçün digər zədələnməmiş analizatorların, o cümlədən görmə analizatorundan istifadə tələb edilir. Nəzərə almaq lazımdır ki, kar və zəif eşidən uşaqların

görmə analizatordan istifadə xarakteri fərqli olmalıdır. Eşitmə pozulmaları olan uşaqlar üçün məktəblərdə eşitmə üzrə xüsusi məşğələlər təşkil olunur. Məktəbdə uşaqlarda eşitmə qavrayışını inkişaf etdirmək ən vacib vəzifələrdən biri hesab olunur. Eşitmə qavrayışının inkişafındakı ən kiçik uğur kar uşağın inkişafında əhəmiyyətli rol oynayır. Zəif eşitməsi olan uşaqlar üçün məktəbdə eşitmənin təkmilləşdirilməsi üzrə aparılan işlər nitqi qavmanın əhəmiyyətli dərəcədə yaxşılaşmasına səbəb olur. Bu zaman təkcə eşitmə itkisinin dərəcəsi deyil, həm də onlarda nitqin inkişaf səviyyəsi nəzərə alınır.

Zəif eşidən uşaqlar erkən və gec kar olmuş uşaqlardan fərqli olaraq, sözlü ünsiyyət vərdişlərinə, müəyyən və bir çox hallarda tam səviyyədə dildən istifadə bacarıqlarına malik olur, linqvistik təfəkkürün müəyyən inkişaf səviyyəsinə çata bilirlər.

Beləliklə, zəif eşitməsi olan uşaqların inkişafına çoxsaylı faktlar təsir edir və bu da öz növbəsində onları xarakterizə edən fərdi fərqliklərə gətirib çıxarır. Buna görə də zəif eşidən uşaqlar üçün məktəblərdə onların təlim-tərbiyə işinin təşkilində fərdi yanaşma çox vacibdir

Apardığımız müşahidələrə görə zəif eşidən uşaqların valideynləri aşağıda qeyd edilən səbəblərə görə eşitmə pozulması olan uşaqlar üçün məktəblərdə təhsil almalarına üstünlük verirlər:

- valideynlərin zəif eşidən uşaqlar üçün digər təhsil imkanları haqqında kifayət qədər məlumatının olmaması;
- zəif eşidən uşağın kütləvi məktəbdə təhsil almaqa hazırlığının olmaması;
- zəif eşidən uşağın kütləvi məktəbdə təhsil alma çətinliklərinin ola bilmə ehtimalları;
- valideynlərin sosial - maddi vəziyyəti.

Bütün bu sadalananlara konkret motivlərdən asılı olmayaraq, valideynlərin seçiminə anlayış və hörmətlə yanaşaraq, zəif eşidən uşağın kütləvi məktəbdə inklüziv təhsil problemə başqa tərəfdən baxsaq, görərik ki, təhsil və inkişaf baxımından o, daha effektiv və əhəmiyyətlidir. Tədris prosesinin gedişi zamanı zəif eşidən uşağın eşitmə qavrayışının inkişafı və şifahi nitqinin formalaşmasına xüsusi diqqət yetirilir.

İnklüziv təhsil şəraitində onlar aşağıdakı tədris işlərinə cəlb edilirlər:

- fənlər üzrə frontal ümumtəhsil dərslər;
- eşitmə qavrayışının inkişafı və tələffüzün formalaşması üzrə xüsusi fərdi korreksiya - inkişafetdirici məşğələ;
- musiqili - ritmik dərslər;
- məktəb psixoloqu ilə xüsusi fərdi və qrup dərsləri.

İnklüziv məktəbdə müəllimlər və psixoloq zəif eşidən uşaqlara sinif yoldaşları ilə təmas qurmağa, eşidənlər arasında özünü rahat hiss etmələrinə yaxından kömək edirlər. Məktəbdə erkən diaqnostika və vaxtında aparılan korreksiya məşğələləri sayəsində zəif eşidən uşaqlarda nitq və ümumi inkişaf səviyyəsi yaş normasına yaxınlaşdırır. Məktəbdə bu kateqoriyadan olan uşaqlar üçün xüsusi musiqili-ritmik məşğələlər,həmçinin bəzi musiqi alətlərində çalmaq bacarığı təlim edilir. Bu cür dərslər onların estetik inkişafına böyük təsir göstərir. Lakin sadalanan bütün bu müsbət cəhətlərə baxmayaraq, zəif eşidən uşaqların inklüziv təhsilində bir sıra problemlərin olması da müşahidə edilir:

a) səhiyyə və sosial müdafiə orqanları arasında kifayət qədər idarələrarası qarşılıqlı əlaqə və fəaliyyət demək olar ki, yoxdur;

b) inklüziv məktəbdə zəif eşidən uşaqların tədrisi üçün yaradılan şərait bir o qədər də qənaətbəxş deyildir;

c) məktəbin pedaqoji heyətinin bu kateqoriyadan olan uşaqların qəbulu üçün psixoloji və maddi hazırlığı yoxdur;

d) inklüziv məktəbdə maddi-texniki baza və resurslar, xüsusilə də ixtisaslaşdırılmış avadanlıqları, o cümlədən səsgücləndirici aparat və kollektiv eşitmə cihazları demək olar ki, yoxdur;

e) inklüziv məktəbdə müəllim və uşaqlara hərtərəfli psixoloji və pedaqoji dəstək göstərən mütəxəssislər üçün kifayət qədər ştat cədvəli yoxdur.

Beləliklə, fikrimizcə, zəif eşidən uşaqların ümumtəhsil müəssisəsi bazasında inklüziv təhsil modeli lazımı tələblərə hələ cavab vermir. Zəif eşidən uşaqların ümumtəhsil məktəbində müvəffəqiyyətlə inklüziv təhsil almaları üçün aşağıdakı şərtlər yerinə yetirilməlidir:

1. İnklüziv təhsil prosesinin bütün iştirakçılarının (müəllim, uşaq və valideynlərin) ilkin hazırlığı;
2. Məktəb müəllimləri və valideynlərin zəif eşidən uşaqların problemləri ilə bağlı vaxtında məsləhətləşmələrinin aparılması;
3. Zəif eşidən uşaqların xüsusi təhsil ehtiyaclarının uşaqların müəyyən edilməsi və həyata keçirilməsi üçün optimal təlim-tərbiyə şəraitinin yaradılması, birgə fəaliyyətlər təşkil etməklə normal inkişaf edən həmyaşıdlarından ibarət komandada zəif eşidən şagird statusunun yüksəldilməsi.

İnklüziv təhsil prosesində kifayət qədər yüksək nəticə yalnız zəif eşidən uşaqların öyrənilməsi və sosiallaşması prosesində iştirak edən bütün şəxslərin birgə məqsədəyönlü işində və inteqrasiya olunmuş təhsil məsələlərinin həllinə peşəkar və səriştəli yanaşmada əldə edilir.

ƏDƏBİYYAT

1. Боскис Р.М. Глухие и слабослышащие дети. – М.: Советский спорт, 2004. – 304 с.
2. Волкова Л.С, Граш Н.Е., Волков А.М. Некоторые проблемы интегрированного образования в российской дефектологии на современном этапе //Дефектология. - 2002.- № 3.- 3-8 с.
3. Малофеев Н.Н. От политики институционализации к политике интеграции: ситуация в России.\ Инклюзивное образование. Состояние, проблемы перспективы. Материалы Регионального семинара - Минск: Четыре четверти, 2007- с 26-33

AZƏRBAYCANDA ZƏİF EŞİDƏN UŞAQLARIN İNKLÜZİV TƏHSİL PROBLEMİ

İmanova Sevil

XÜLASƏ

Məqalədə inklüziv təhsil anlayışı, Azərbaycanda inklüziv təhsilin tətbiqi və İlham Əliyevin inklüziv təhsil siyasəti əks olunmuşdur. Həmçinin zəif eşidən uşaqların inklüziv təhsilinin xüsusiyyətləri, onların inklüziv təhsil sistemində qarşılaşdıqları çətinliklər öz əksini tapmışdır. Burada inklüziv təhsil şəraitində zəif eşidən uşaqların eşidən yoldaşları ilə münasibətləri fonunda şəxsiyyətlər arası münasibətin formalaşması və inkişafından bəhs edilir.

ПРОБЛЕМА ИНКЛЮЗИВНОГО ОБРАЗОВАНИЯ ДЛЯ СЛАБОСЛЫШАЩИХ ДЕТЕЙ В АЗЕРБАЙДЖАНЕ

Иманова Севиль

АННОТАЦИЯ

В статье отражена концепция инклюзивного образования, применение инклюзивного образования в Азербайджане и политика Ильхама Алиева в области инклюзивного образования. Также отражены особенности инклюзивного образования детей с нарушениями слуха и трудности, с которыми они сталкиваются в системе инклюзивного образования. В ней рассматривается формирование и развитие межличностных отношений в контексте взаимоотношений слабослышащих детей со слышащими сверстниками в условиях инклюзивного образования.

THE PROBLEM OF INCLUSIVE EDUCATION FOR HEARING-IMPAIRED CHILDREN IN AZERBAIJAN

Imanova Sevil

SUMMARY

The article reflects the concept of inclusive education, the application of inclusive education in Azerbaijan and Ilham Aliyev's inclusive education policy. The characteristics of inclusive education for children with hearing impairments and the difficulties they face in the inclusive education system are also reflected. It discusses the formation and development of interpersonal relationships in the context of the relationships of hearing-impaired children with their hearing peers in an inclusive education environment.

TƏLİM PROSESİNDƏ ŞAGİRDLƏRİN VƏTƏNPƏRVƏRLİK RUHUNDA TƏRBİYƏSİNİN İMKANLARI

Quluzadə Nigar Şair qızı
BDU-nun II kurs magistrantı
nigarquluzade5@mail.ru

Açar sözlər: təlim prosesi, vətənpərvərlik, tərbiyə, hərbi-vətənpərvərlik ruhu
Ключевые слова: тренировочный процесс, патриотизм, воспитание, военно-патриотический дух.
***Keywords*:** training process, patriotism, education, military-patriotic spirit

Milli mənəvi şüur və vətənpərvərliyin yeniyetmə və gənc nəslə təbliği və aşılanması məsələsinə pedaqogikada xüsusi diqqət yetirilməlidir [1, s.42]. Bu səbəbdən də pedaqoji prosesdə tədris olunan fənnin məqsədinə vətənpərvərlik də daxil edilməlidir. Vətənpərvərlik tərbiyəsi sosial xarakter daşımaqla şagirdlərin vətəndaş kimi formalaşmasında, eləcə də öz vətənini və onun ərazi bütövlüyünün qorunmasında müstəsna əhəmiyyətə malikdir. Vətənpərvərlik hissi Vətənin tarixi keçmişini öyrənməkdə, onun sərhədlərini qorumaqda, lazım gəldiyi təqdirdə dövlətin qurmuş olduğu qaydalara şüurlu şəkildə riayət etməkdə ifadə olunur.

Qeyd etmək lazımdır ki, vətənpərvərliyin mahiyyəti Vətən sevgisinə əsaslanan emosional bağlılıq və Vətən naminə öz şəxsi maraqlarını qurban verməkdir. Bu əlaqə həm də mənsub olduğu millətin etnik, mədəni, siyasi və tarixi xüsusiyyətlərinə əsaslanan milli hiss və ya milli qürur kimi qəbul edilir. Vətənpərvərlik keyfiyyətlərinə Vətənin xarakterinin və mədəni incilərinin qorunması və millətin digər üzvləri ilə birlikdə bu keyfiyyətlərin tanınması, Vətənin və xalqının mənafelərinin qorunması da daxildir [2, s.18]. Vətənpərvərliyin tarixi kökü, minilliklər boyu yaşadığı və möhkəmləndiyi, vətəni, dili və adət-ənənələri ilə əlaqəli olan dövlətçilikdir. Bir millətin və dövlətçiliyin formalaşması kontekstində vətənpərvərlik onun inkişafının milli aspektlərini əks etdirən ictimai rəyin ayrılmaz hissəsinə çevrilir.

Vətənpərvərlik anlayışı müxtəlif mənalarda inkişaf etmişdir. Vətənpərvərlik anlayışı 18-ci əsrin Amerika və Fransız burjua inqilabları zamanı inqilabi ideologiya əlaqələndirilərək "millət" anlayışı ilə eyniləşdirilirdi [2, s.24]. Daha sonra vətənpərvərlik yeni dövlətlərin meydana çıxması, milli azadlıq hərəkatları və müharibələr ərəfəsində daha da aktuallaşdı. Tarix boyu vətənpərvərlik mühüm rol oynamışdır.

Ulu öndər Heydər Əliyevin müdrik sözləri şagirdlərin vətənpərvərlik ruhunda tərbiyə edilməsində didaktik əhəmiyyətə malikdir: "Bizim ümumi vəzifəmiz xalqımızda vətənpərvərlik, Vətənə sədaqət, şəhidliyə hazırlıq hissini formalaşdırmaq, inkişaf etdirmək və təbliğ etməkdir" [3, s.223]. Vətənpərvərlik tərbiyəsi Vətənə məhəbbətin, eləcə də vətəndaş məsuliyyətinin, Vətənin, xalqın müdafiəsi naminə hər an ayağa qalxmağa hazırlığın formalaşması üçün xüsusilə böyük əhəmiyyətə malikdir. Dövlət gənclər siyasətinin əsas istiqamətlərindən hesab olunan gənc nəslin vətənpərvərlik tərbiyəsi xüsusilə diqqət mərkəzindədir. Bu baxımdan da əsas yük orta məktəblərin üzrətinə düşür. Belə ki, vətənpərvərlik hissinin təbliği, eləcə də şagirdlərə aşılanması orta məktəblərin əsas vəzifələrindəndir. Xüsusilə qeyd etməliyik ki, bu gün respublikamızın ümumtəhsil məktəblərində vətənpərvərlik ruhu şagirdlərə çox dərindən aşılanmaqdadır. Məhz bunun nəticəsidir ki, 44 günlük İkinci Qarabağ müharibəsində bu qədər gənc könüllü olaraq torpaqların alınmasında iştirak edərək, öz canlarından və qanların keçdilər.

Kütləvi tədbirlər, bu sahədə maarifləndirmə və təbliğat işləri birbaşa gənclərimizin mənəvi, fiziki və psixoloji hazırlığının təmin edilməsinə, vətənə sevgisinin artmasına, eləcə də qloballaşma dövründə milli-mənəvi dəyərlərin qorunub saxlanılmasına yönəlib.

Şagirdlərin vətənpərvərlik ruhunda tərbiyə olunmasında "Gənclərin cağırışaqədərki hazırlığı" fənni mühim əhəmiyyət kəsb edir. Belə ki, bu fənnin keçirilməsində əsas məqsəd şagirdlərin hərbi xidmətə hazırlıq səviyyəsinin artırılmasını təmin etmək, eyni zamanda da şagirdlərdə vətəni qorumaq hissini aşılamaqdır. Bu fənn öz məzmununa görə şagirdlərə Azərbaycan Silahlı Qüvvələri haqqında məlumatları, hərbi nizamnamə qaydalarını mənimsəməyi, hərbi həyatla yaxından tanış olmağı, hərbi xidmətə fiziki və psixoloji hazır olmağı, şagirdlərə Azərbaycan Silahlı Qüvvələrində xidmət etməyin müqəddəs vəzifə olması inamını aşılayır. 44 günluk zəfər döyüşü "Gənclərin cağırışaqədərki hazırlığı" fənninin şagirdlərin vətənpərvərlik ruhunda yetişməsində nə qədər mühim əhəmiyyətə malik olduğunu bir daha sübuta yetirmiş oldu.

Təsadüfi deyil ki, dövlət məktəblər qarşısında gənc nəslin hərbi vətənpərvərlik ruhunda tərbiyəsi sahəsində məsuliyyətli və təcili vəzifələr qoyur. Hərbi -vətənpərvərlik tərbiyəsi bir məqsədə xidmət etməlidir - gəncləri Vətənimizin fəal müdafiəsinə hazırlamaq [4, s.45]. Ona görə də Azərbaycan dövləti öz xalqını, gənc nəsli daim ayıq olmağa, ölkəmizin hərbi qüdrətini hər cəhətdən gücləndirməyə, müdafiə qabiliyyətini artırmağa çağırır. Orta məktəb təhsili sistemi çağırış yaşına çatmayan gənclərin ilkin hərbi hazırlıq keçməsini, fiziki qüvvənin təmin edilməsini və orduda xidmətə hazırlanmasını tələb edir. Bu kontekstdə hazırkı vəziyyətdə məktəbəqədər gənclərin hərbi-vətənpərvərlik tərbiyəsi böyük əhəmiyyət kəsb edir. Bu məqsədə çatmaq üçün məktəb və ailə uşaqlara vətən və insanlıq sevgisi aşılamalı, vətənə qarşı şərəf və vəzifə hisslərini gücləndirməlidir. Son vaxtlar aparıcı məktəblərimizdə şagirdlərin hərbi-vətənpərvərlik tərbiyəsinə maraq xeyli artmışdır. Hərbi-vətənpərvərlik tərbiyəsinin faktlar və zəngin əyani vəsaitlər əsasında aparılması təhsil sahəsində maraqlı forma və metodlar yaratmışdır. Bir çox məktəbdə "Müharibə Qələbəsi" muzeyləri və guşələri qurulur. Qarabağ müharibəsi qəhrəmanlarının xatirəsini yaşatmaq üçün məktəblərdə hərtərəfli tədqiqatlar aparılır. Bu hərbi-vətənpərvərlik tərbiyə üsullarından istifadə edərək pedaqoji kollektiv şagirdlərin vətən sevgisini gücləndirməyə, əsl vətənpərvərliyin məzmununu anlamağa, vətənini qorumağa, eləcə də öz şərəf və ləyaqətini qorumağa çalışır. Uşaqlara izah etmək lazımdır ki, Azərbaycan Silahlı Qüvvələri əslində xalqın özüdür, öz sıralarında minlərlə cəsur və cəsarətli gənc nümayəndələrini birləşdirən sarsılmaz bir qüvvədir. Buna görə də bütün xalq ordusu ilə fəxr edir, onu yüksək məhəbbət hissi ilə sevir. Xalqın qızğın sevgisi, hörməti və qayğısı əsgərlərin qəlbini təqlid edir və ruhlandırır. Qəhrəmanların həyatı və qəhrəmanlığından bəhs etmək şagirdlərdə vətənpərvərlik, əzmkarlıq, qəhrəmanlıq, möhkəm dostluq, sədaqət və digər nəcib keyfiyyətləri inkişaf etdirməyə kömək edir.

Eyni zamanda da bütün fənlərin tədrisinə, xüsusilə humanitar və ictimai elmlərin tədrisinə vətənpərvərlik tərbiyəsi aşılamaq üçün kifayət qədər imkanlar vardır. Vətən uğrunda döyüşlərdə qəhrəmanlıq göstərən insanların, bayrağımızı beynəlxalq yarışlarda qaldıran idmançıların, Azərbaycanı dünyaya tanıdan dövlət nümayəndə heyətlərinin, elm xadimlərinin, yazıçıların, eləcə də sənətçilərin şağirdlərə tanıdılması onlarda vətənə hörmət hissini də aşılamış olur [5, s.380].

Şagirdlərin vətənpərvərlik ruhunda tərbiyə olunması prosesinin düzgün təşkil olunması hər bir ümumtəhsil müəssisənin qarşısında duran başlıca vəzifələrdən biridir. Bu səbəbdən də tədris fənlərinin bir çoxunda şagirdlərin vətənpərvərlik ruhunda tərbiyə olunmasına xüsusi yer ayrılır. Belə ki, orta məktəblərdə şagirdlərə V sinifdən başlayaraq tarix fənninin tədris olunması, eləcə də VI siniflərdə "Azərbaycan tarixi" fənninin tədrisinə başlanılması birbaşa olaraq şagirdlərdə vətənpərvərlik ruhunun aşılanmasına xidmət edir. Belə ki, tarix dərsliklərində Azərbaycan

tarixinin müxtəlif dövrlərinə aid, eləcə də Azərbaycan tarixində müstəsna rol oynamış tarixi şəxsiyyətlərə dair irihəcmli məlumatlar yer almaqdadır. Təbii ki, vətənpərvərlik ruhunun aşılanmasında əsas vəzifə müəllimin üzərinə düşür. Belə ki. dərslikdə qeyd olunmayan, lakin Azərbaycanın gələcək inkişafında misilsiz rol oynamış bəzi şəxsiyyətlər haqqında da müəllim əlavə məlumatlar verməlidir. Eyni zamanda da müəllim şagirdlərə tarixi şəxsiyyətləri misal gətirərək onların necə vətənpərvər olduqlarını, bu səbəbdən də uzun illər boyu dillərdə dastan olduqlarını bildirməlidir.

Orta məktəb kursunun son pillələrinə çatan şagird tarixən Azərbaycan ərazisində hansı dövlətlərin formalaşdığını, həmin dövrlərdə baş verən prosesləri, Azərbaycan dövlətləri ilə müharibə aparan digər dövlətlərin maraqlarını, eləcə də Azərbaycanın həmin müharibələrdə nümayiş etdirdiyi qəhrəmanlıqları, Azərbaycan xanlıqlarının ruslara qarşı mübarizəsini və Azərbaycan xalqının vətənpərvərliyini nümayiş etdirin bu kimi yüzlərlə faktı bilməzsə, hazırki dövrdə baş verən hadisələrin də mahiyyətini anlaya, dərk edə bilməz.

ƏDƏBİYYAT

1. “Hərbi vətənpərvərlik tərbiyəsinin müasir şəraitdə öyrənilməsinin əhəmiyyəti”. / Türksoylu xalqların musiqi mədəniyyətinin tətbiqi problemləri. ADMİU XIII Beynəlxalq elmi-praktiki konfransın materialları. Bakı 2014, s.42-44.
2. Əliyev R.İ. Şagird şəxsiyyətinin formalaşmasında milli xüsusiyyətlərin nəzərə alınması. Bakı, Maarif nəşriyyatı, 2015,104 s.
3. S.M.Sadıqova. “Uşaqların hərbi-vətənpərvərlik tərbiyəsində abidələrin tərbiyəvi əhəmiyyəti”. Hümanitar elmlərin öyrənilməsinin aktual problemləri. 2007, №2. Ss. 222-226
4. T. Paşayev. Diyarşünaslıq materialları gənc nəslin vətənpərvərlik tərbiyəsinin mühüm vasitəsi kimi. Bakı: Mütərcim, 2010.
5. Vətənpərvərlik tərbiyəsinin mahiyyəti.//Gənc tədqiqatçıların ümumrespublika elmi konfransının materialları. Bakı, Qafqaz Universiteti, 2010, 06-07 may, s.380-381

TƏLİM PROSESİNDƏ ŞAGİRDLƏRİN VƏTƏNPƏRVƏRLİK RUHUNDA TƏRBİYƏSİNİN İMKANLARI

Quluzadə Nigar

XÜLASƏ

Gənc nəslin vətənə məhəbbət və sədaqət hissinin aşılanmasında vətənpərvərlik tərbiyəsi mühim rol oynayır. Vətənpərvərlik hərtərəfli inkişaf etmiş şəxsiyyətin ən mühim əxlaqi keyfiyyətlərindən biridir. Bu keyfiyyətin formalaşdırılması məktəbin ən mühim vəzifələrindən biri olmuş, bu gün də belə qalmaqdadır. Vətənin həqiqi vətənpərvəri xalqdır. Müstəqil Azərbaycan dövlətinin yaranması ilə keyfiyyətcə yeni vətənpərvərliyin-milli vətənpərvərliyin əsası qoyulmuş oldu. Ümummilli lider Heydər Əliyev ilk dəfə olaraq elmi uzaqgörənliklə milli tərbiyənin məzmununa gənc nəslin “milli vətənpərvərlik” anlayışının da daxil etdi və onun məzmununu müəyyənləşdirdi. Böyüyən nəslin milli ruhda, milli-mədəni dəyərlər əsasında tərbiyələnməsini əsas sayan Heydər Əliyev deyirdi: “Vətənpərvərlik böyük məfhumdur. Bu, sadəcə orduda xidmət etmək deyil. Vətənə sadiq olmaq, vətəni sevmək, torpağa bağlı olmaq-budur vətənpərvərlik. Vətənpərvər gənclərin yetişdirilməsi təkcə təhsil müəssisələrinin işi ilə bitmir.

ВОЗМОЖНОСТИ ВОСПИТЫВАТЬ СТУДЕНТОВ В ДУХЕ ПАТРИОТИЗМА В ПРОЦЕССЕ ОБУЧЕНИЯ

Гулузаде Нигяр

АННОТАЦИЯ

Патриотическое воспитание играет важную роль в воспитании у молодого поколения чувства любви и преданности Родине. Патриотизм - одно из важнейших моральных качеств развитой личности. Формирование этого качества было одной из важнейших задач школы и остается таковой по сей день. Истинные патриоты Родины - это люди. С созданием независимого Азербайджанского государства был заложен фундамент качественно нового патриотизма - национального патриотизма. Впервые общенациональный лидер Гейдар Алиев с научной дальновидностью включил понятие «национальный патриотизм» молодого поколения в содержание национального образования и определил его содержание. Гейдар Алиев, считавший воспитание подрастающего поколения в национальном духе, на основе национальных и культурных ценностей, сказал: «Патриотизм - великое понятие. Дело не только в военной службе. Верность Родине, любовь к Родине, привязанность к земле - это патриотизм. Воспитание патриотической молодежи не заканчивается работой учебных заведений.

OPPORTUNITIES TO EDUCATE STUDENTS IN THE SPIRIT OF PATRIOTISM IN THE LEARNING PROCESS

Guluzada Nigar

SUMMARY

Patriotic education plays an important role in instilling in the younger generation a sense of love and devotion to the Motherland. Patriotism is one of the most important moral qualities of a developed personality. The formation of this quality was one of the most important tasks of the school and remains so to this day. The true patriots of the Motherland are people. With the creation of the independent Azerbaijan state, the foundation was laid for a qualitatively new patriotism - national patriotism. For the first time, the national leader Heydar Aliyev, with scientific foresight, included the concept of "national patriotism" of the younger generation in the content of national education and defined its content. Heydar Aliyev, who considered the upbringing of the younger generation in the national spirit, on the basis of national and cultural values, said: “Patriotism is a great concept. It's not just about military service. Loyalty to the Motherland, love for the Motherland, attachment to the land - this is patriotism. The upbringing of patriotic youth does not end with the work of educational institutions.

İQTİSADİYYAT, İDARƏETMƏ VƏ POLİTOLOGİYA

HEYDƏR ƏLİYEVİN İCTİMAİ – SİYASİ GÖRÜŞLƏRİ (1923 – 2003)

İsmayıl Eyyubov,
BDU-nun Politologiya və Sosiologiya kafedrasının dosenti,
Azərbaycan Jurnalistlər birliyinin üzvü.

Ulu öndər Heydər Əliyevin anadan olmasının 100 illiyi ərəfəsində

***Açar sözlər*:** Heydər Əliyev, siyasi xadim, dövlətçiliyin inkişaf etdirilməsi, dövlətçiliyin qorunub saxlanması, Heydər Əliyevin Moskva fəaliyyəti, dilomatik əlaqələr.
Keywords: Haydar Aliyev, political figure, development of statehood, preservation of statehood, Heydar Aliyev's activity in Moscow, diplomatic relations.
Ключевые слова: Гейдар Алиев, политический деятель, развитие государственности, сохранение государственности, деятельность Гейдара Алиева в Москве, дипломатические отношения.

Heydər Əliyev bütün fəaliyyəti dövründə Azərbaycan gənclərini çox sevmiş, gənclərin hərtərəfli inkişaf etmələri üçün əlindən gələn köməkliyi bütün sahələrdə onlara göstərmişdir.

Mən də gəncliyim dövründə bir neçə dəfə Heydər Əliyevlə əl-ələ görüşmüşəm. Heydər Əliyevlə əl - ələ ilk görüşüm bir noyabr 1969-cu ildə indiki Şəhriyar adınl daşıyan klubda S.M.Kirov adına Azərbaycan DÖvlət Universitetinin 50 illik yubleyində onun müəllimlərlə görüşü zamanı olmuşdur.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komistəsinin birinci katibi Heydər Əliyev bu tədbirdə iştirak etmişdir. O bu yığıncaqda ilk dəfə olaraq ana dilində çıxış etmişdir. Sovet dövründə Azərbaycanda bu vaxta qədər hər bir rəhbər vəzifəli şəxs ana dilində yığıncaqlarda çıxış etməmişdir. Onun ana dilində yubleyindəki çıxışını yubiley iştirakçıları böyük sevinclə dinləmişdilər.

Ulu öndərimiz Heydər Əliyevlə ikinci dəfə əl-ələ görüşüm 26 dekabr 1970-ci ildə S.MşKirov adına Azərbaycan Dövlət Universitetində keçirilən IV Universitet Partiya Konfransında onun iştirakı zamanı olmuşdur. O, bu konfransda da ana dilində geniş, ahətəli bir nitq söyləmişdir.

Üçüncü dəfə Heydər Əliyevlə əl-ələ görüşüm 1972-ci ilin fevral ayının 20-də Bakı Ali Partiya Məktəbinin binasında, "Axşam Marksizm – Leninizm Universitetinin" fəlsəfə fakültəsində oxuduğum zaman olmuşdur.

Heydər Əliyev 1972-ci ildə Bakı Ali Partiya Məkrəbinin binasına gəlmişdi. Burada bir neçə müəllimlə görüşdü. Sonrakı dövrlərdə də mənim ulu öndərimiz Heydər Əliyevlə əl-ələ görüşlərim olmuşdur. Mən SSRİ Jurnaslistlər İttifaqının üzvü olduğum üçün o, mənimlə sevgilə görüşürdü.

Mən Heydər Əliyev haqqında dövrü mətbuatda onlarla məqalələr dərc etdirmişəm. BDU-nun Sosial elmlər və Psixologiya və Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültələrinin müəllimi olduğum vaxtlarda Heydər Əliyev və İlham Əliyevin fəaliyyətləri haqqında müxtəlif mövzularda bakalavr və magistr tələbələrinin yazdıqları diplom və buraxılış işlərinin elmi rəhbəri olmuşam.

İndi bütün gənclik dövründəki görüşləri xatırlayaraq ulu öndərimiz Heydər Əliyevin anadan olmasının 100 illiyi ərəfəsində onun geniş həyat tərzi və fəaliyyəti haqqında yeni bir əhatəli məqalə yazmağı qarşıma məqsəd kimi qoydum.

Azərbaycan siyasi fikir tarixində xidmətləri olan şəxsiyyətlərdən biri də dünya şöhrətli siyasətçi, görkəmli ictimai-siyasi xadim Heydər Əliyev olmuşdur.

Əliyev Heydər Əlirza oğlu 1923-cü ildə Naxçıvan şəhərində fəhlə ailəsində anadan olmuşdur. İlk təhsilini Naxçıvanda almış, Naxçıvan Pedoqoji Texnikumunu bitirmişdir. 1939-1941-ci illərdə Azərbaycan Sənaye İnstitutunu oxumuş, 1941-ci ildə Naxçıvan Muxtar Respublikasının Xalq Daxili İşlər Komissarlığında fəaliyyətə başlamışdır. O, 1969-cu ilə kimi Azərbaycan Dövlət Respublikasının Dövlət Təhlükəsizliyi orqanlarında yüksək vəzifələrdə işləmiş, General – mayor rütbəsinə kimi yüksəlmişdir. 1957-ci ildə BDU-nun Tarix fakültəsini bitirmişdir. Heydər Əliyev 1969-cu il 14 iyunda AKP MK-nın birinci katibi seçilmişdir.

Parlaq zəka sahibi olan Heydər Əliyev Azərbaycanın hərtərəfli inkişafında istedad və bacarığını təzahür etdirmiş, zəhmətkeşlərin ictimai – siyasi fəallığının yüksəlməsində böyük rol oynamışdır.

Onun Sovet Azərbaycanına rəhbərliyi dövründə respublikamızda sağlam mənəvi – siyasi mühit bərqərar olmuş, iqtisadiyyatın, elmin, mədəniyyətin inkişafında böyük nailiyyətlər əldə edilmişdir.

H.Ə.Əliyev respublikaya rəhbərlik etdiyi zaman cəmiyyətdə nəzərə çarpan bütün nöqsanlara qarşı barışmaz mövqe tutmuş, kütlələrlə daim əlaqə saxlamış, insanlara həssas, qayğıkeş münasibət bəsləmişdir. Rəhbərə xas olan yüksək keyfiyyətləri təşkilatçılıq qabiliyyətini və tükənməz enerjini özünüdə əks etdirən bu dövlət xadimi, işgüzarlığı və təşəbbüskarlığı sayəsində respublikamızın coşqun inkişafına təkan vermişdir. Eləcə də zəhmətkeşlərin sosial problemlərinin həllinə, mənəvi - əxlaqi cəhətdən təkmilləşməsinə mühüm diqqət yetirmişdir.

H.Əliyev respublikada işlədiyi zaman SSRİ Ali Sovetinin (8 – 10-cu çağrış) deputatı seçilmiş, 9-cu çağrış SSRİ Ali Soveti İttifaqının sədr müavini seçilmişdir.

Heydər Əliyev Azərbaycan Ali Sovetinin (7 – 10-cu çağrışı) deputatı olmuş, Ali Sovetin Rəyasət heyətinin üzvü seçilmişdir. Heydər Əliyev Sövet dövləti tərəfindən 4 dəfə Lenin Ordeni və müxtəlif medallarla təltif edilmişdir. Eyni zamanda 2 dəfə Sosialist Əməyi Qəhrəmanı adına layiq görülmüşdür.

Heydər Əliyev dövlət strukturlarında Azərbaycanlıların xüsusi çəkisinin artmasına təmin etmiş, yüksək idarəçilik keyfiyyətləri əxz etməsi üçün zəruri tədbirlər həyata keçirmişdir. O, Azərbaycanda gələcək kadrların olması üçün 1970-1982-ci illərdə keçmiş SSRİ-nin ali məktəblərinə, universitetlərinə 15 mindən mix gənci oxumağa götürmüşdür. Sonradan bu gənclərin əksəriyyəti yeni ixtisaslar aldıqdan sonra Azərbaycana qayıdaraq müxtəlif vəzifələrdə, idarələrdə, istehsalatda, dövlət işlərində yaxından iştirak etmişdir.

1970-ci ildən başlayaraq Heydər Əliyev elm və təhsilə qayğının artırılmasına diqqət yetirmiş, bu işə dövlət siyasətinin üstün istiqaməti kimi yanaşmışdır. Eyni zamanda ulu öndər Azərbaycanda yeni ali məktəblərin açılmasına diqqət yetirmiş, başqa elm sahələri üzrə texniki məktəblərin, laboratoriyaların, konstruktor bürolarının yaradılmasına öz töhfələrini vermişdir.

O, ilk gündən (1969-cu ildən) başlayaraq fəaliyyətində tarixə, ədəbiyyata, mədəniyyətə, bilavasitə humanitar elmlərə də böyük əhəmiyyət vermiş, xalqın milli – mənəvi həyatında onların müstəsna rolunu yüksək qiymətləndirmişdir.

Heydər Əliyev Respublikaya rəhbərliyi dövründə yazıçıların, şairlərin, mədəniyyət işçilərinin bütün yığıncaqlarında yaxından iştirak etmiş, onlarla qardaşlıq, yoldaşlıq ünsiyyəti yaratmışdır.

Ulu öndər 1978-ci ildə Azərbaycan SSRİ-nin Konstitutsiya layihəsi qəbul edilərkən Azərbaycan dilinin bu ali sənədə dövlət dili kimi təsbitlənməsi və qorunub saxlanması sahəsində irəli sürdüyü fikir Azərbaycan dövlətçiliyində böyük bir tarixi hadisə kimi səslənmişdir.

O, özü Azərbaycan SSRİ-nin yeni Konstitutsiyasının işlənib hazırlanmasında yaxından iştirak etmişdir. Parlaq zəka sahibi olan Azərbaycanın hərtərəfli inkişafında istedad və bacarığını təzahür etdirmiş, zəhmətkeşlərin ictimai-siyasi fəaliyyətinin yüksəlməsində böyük rol oynamışdır.

Heydər Əliyevin uzaqgörən siyasəti, müdrik və səriştəli rəhbərliyi sayəsində Azərbaycan o zaman bütün ittifaq məkanında ən qabaqcıl kənd təsərrüfatı respublikasına çevrilmişdir. Bunu o, böyük zəhmət bahasına əldə etmiş, bu sahədə də gecə-gündüz fikirləşmiş, istədiyinə nail olmağa çalışmışdır.

Heydər Əliyev hər il respublikamızın bütün rayonlarına gəzmiş, taxıl, pambıq sahələrində, üzüm çay plantasiyalarında, meyvəçilik rayonlarında olmuş, dəfələrlə kalxozçularla görüşmüş, onları əmək işlərinə istiqamətləndirmiş, hərtərəfli kalxozçuların işlərinə köməkliyini göstərmişdir. Əmək adamlarını həvəsləndirmiş, onların lazımi texniki avadanlıqlarla təmin olunmasına kömək göstərmişdir. Bütün bunlarda, hər il kalxozlarda, savxozlarda kənd təsərrüfatı məhsullarının artırılmasında öz bəhrəsini vermişdir.

Onun rəhbərliyi dövründə Azərbaycan kəndlisinin güzəranı da xeyli yaxşılaşmışdır. Azərbaycanın kəndlərində, qəsəbələrində, şəhərlərində yeni tikinti – abadlıq işləri genişlənmiş, yeni mədəni quruculuq sahələri yaranmışdır. Azərbaycanda bu dövrdə yüzlərlə fabrik və zavodlar inşa edilərək istifadəyə verilmişdir.

Heydər Əliyev bu dövrdə Azərbaycanda güclü neft sənayesinin yaradılmasına da diqqəti artırmışdır. Yeni neft buruqlarının qazılması, neftin çıxarılması, emalı sahəsində də diqqət yetirmişdir.

Bir çox istehsal sahələrinə görə Azərbaycan Sovet İttifaqında qabaqcıl respublikalardan birinə çevrilmişdir. Onun Sovet Azərbaycanına rəhbərliyi dövründə respublikamızda sağlam mənəvi-siyasi mühit bərqərar olmuş, iqtisadiyyatın, elmin, mədəniyyətin inkişafında böyük nailiyyətlər əldə edilmişdir.

Heydər Əliyev ilk vəzifə səlahiyyətlərini yerinə yetirdiyi ilk gündən respublikada böyük bir gələcək inkişafın başlanğıcı özünü göstərmişdir. Heydər Əliyev Azərbaycan Respublikasında Katib işlədiyi dövrdə qarşıya çıxan problemləri düzgün müəyyənləşdirməklə yanaşı, onların həlli üçün lazımi iradə, qətiyyət, prinsipiallıq göstərməklə həll etməyə çalışmışdır.

O, Sovet dövrünün imkanlarından istifadə edərək Azərbaycanda yeni müstəqil sənaye sahələrinin yaradılması istiqamətində mühüm tədbirlər həyata keçirmişdir.

Elmi – texniki tərəqqinin nailiyyətlərini, mütərəqqi texnologiyaların istehsalata tətbiqi nəticəsində Azərbaycanı bütün SSRİ-də qabaqcıl mövqelərə çıxmasına, sosial – iqtisadi həyata yüksəlişə qovuşmuşdur.

O, 1969 – 1982-ci illərdə Azərbaycana rəhbərlik etdiyi dövrdə Azərbaycanda ilk növbədə dövlətçilik ideyalarının həyata keçirilməsinə ciddi səylə yanaşmışdır. H.Əliyev Azərbaycanın suverənliyinin, dövlətçiliyinin, müstəqilliyinin demək olar ki, 13 ildə ilk təməlini yaratmışdır.

Heydər Əliyev Spvet hakimiyyəti dövründə Azərbaycanın iqtisadi və mənəvi həyatının inkişafına və yüksəlməsinə xüsusi diqqət yetirmişdir. Onun səyi nəticəsində Azərbaycan Respublikası SSRİ-nin 11 dəfə "Keliçi Qızıl Bayrağı"na sahib olmuşdur.

H.Əliyevin tələbkar və işgüzar fəaliyyəti sayəsində Azərbaycan 1982-ci ildə SSRİ-nin ən inkişaf etmiş respublikalarından biri kimi tanınmış, iqtisadi inkişaf göstəriciləri baxımından digər ittifaq respublikalarından xeyli fərqlənmişdir. H.Əliyev 1982-ci ilin dekabrında Sovet ittifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin Siyasi Bürosunun üzvü seçilmiş, SSRİ

Nazirlər Soveti Sədrinin birinci müavini vəzifəsinə təyin olunmuşdur. H.Əliyev Moskvada işlədiyi zaman üzərinə düşən vəzifələrin uğurla həyata keçirilməsinə böyük işgüzarlıq və bacarıqla yanaşmışdır.

1984-cü ilin 3 oktyabrında Sovet İttifaqı ilə Vyetnam Respublikası arasında "Uzunmüddətli iqtisadi və elmi-texniki əməkdaşlığın inkişafı" proqramı imzalanmışdır. Heydər Əliyev nümayəndə heytinin başçısı kimi Xorşimin şəhərinə getmişdir. O, Vyetnamda Xorşiminin adını daşıyan xatirə muzeyində olmuş, orada fəxri qonaqlar kitabına ürək sözlərini yazmışdır.

Heydər Əliyev eyni zamanda VKP ŞƏhər Komitəsində olmuş, Xorşimin Xalq Komitəsinin rəhbərləri ilə görüşmüş, sonra Vyetnamda bir neçə yığıncaqlarda iştirak etmişdir.

1985-ci ilin martında K.U.Çernenkonun vəfatından sonra onun yerinə M.Ş.Qorbaçovun Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin Baş katibi seçilməsi nəyin ki, siyasi büroda, eyni zamanda bütün keçmiş SSRİ-nin 15 Respublikasında təhlükələrin artmasına səbəb olmuşdur.

SSRİ-də tədricən L.İ.Brejnevin yaratdığı "Kommunizmin təməl prinsipləri" olan dinindən, dilindən asılı olmayaraq SSRİ-nin bütün vətəndaşlarının bərabərliyi və onların rifahını təmin edən ictimai, iqtisadi, siyasi və mədəni mühit tədricən qısa bir müddətdə dəyişməyə başlamışdı. Bu mühit birinci olaraq tədricən Heydər Əliyevə də öz təsirini göstərmişdir. Uzun illər xalql üçün ölkəsi üçün canından keçməyə hazır olan bu tarixi şəxsiyyətdə də "gediş" hadisələrinə inam dəyişdirdi.

Heydər Əliyev bu dövrdə respublikalarla, digər yaxın və uzaq ölkələrlə əlaqələri genişləndirməyə səy göstərsədə ətrafında cərəyan edən hadisələrə daxili aləmində dözə bilməmişdir. Bu dövrdə Heydər Əliyev 15-ə yaxın Nazirliyə və baş idarələrə ümumi rəhbərlik edirdi. Üzərinə düşən vəzifələrin öhdəsindən bacarıqla gəlməyə çalışsa da, bəzi mürəkkəb hadisələrlə üzləşirdi.

Bu dövrdə Heydər Əliyev xüsusi olaraq Baykal – Amur magistralının qaydata salınması, Qazaxstanda, Astanada, Koranda, Çuvasiya MR-də və digər bölgələrdə çatışmazlıqların aradan qaldırılmasına yardım etməyi öz üzərinə götürmüşdür. Heydər Əliyev harada işləməsindən asılı olmayaraq bütün dövrlərdə Azərbaycanlı gənclərin hərətərəfli inkişafı məsələsinə də diqqət yetirmişdir. Buz bunu onun aşağıdakı çıxışında bir daha aydın görürük.

Heydər Əliyev çıxışlarının birində demişdir ki, "Mən Moskvada işlərkən Baykal – Amur magistralına on günlük səfərə çıxmışdım. Xabarovski diyarının Komsomolsk – Amur şəhərində olarkən böyük bir mağaraya girmişdim. Oradan çıxanda mənimlə görüşmək üçün çoxlu adam toplaşmışdı. Mənə bir neçə azərbaycanlı gənc də yaxınlaşdı. Bu məndən ötrü gözəl hadisə oldu. Onları doğma övladlarım kimi qucaqlayıb öpdüm. Onlar da çox sevindilər və gördüm ki, mənimlə görüşməyi necə sevinclə gözləyirdilər. Soruşdum ki, burada nə edirsiniz? Haradan gəlib çıxmısınız? Dedilər ki, Siz göndərmisiniz, burada Politexnik institiutunda təhsil alırıq.

Bilirsiniz, bu mənim üçün böyük hadisə idi. Təsəvvür edin. Uzaq Şərq, Xarabvosk diyarı Komsomolsk – Amur şəhəri Azərbaycanın kənd yerlərindən getmiş gənclər orada təhsil alırlar. Mən buna çox sevindim. Bəlkə də onların Politexnik institutunun səviyyəsi elə bizim institutun səviyyəsindədir. Ancaq gedib başqa bir şəhərdə uzaq vilayətdə oxumaq, oranın mühiti, mədəniyyəti, adət-ənənələri ilə tanış olmaq məgər Azərbaycan gəncləri üçün zərərlidirmi? Yox." (H.Əliyevin müstəqilliyimiz ədəbidir. I kitab. Bakı, Azərnəşr, 1997, səh. 171.).

Heydər Əliyev Moskvada işlədiyi dövrdə tez-tez orada ali məktəblərdə təhsil alan tələbələrlə görüşlər də keçirmişdir. Bu görüşlərdə onu hər dəfə sevindirmişdir. Bu görüşlər haqqında o öz çıxışlarında çoxlu müsbət fikirlər söyləmişdir.

Heydər Əliyev Sibirdə olarkən zəhmət adamları ilə də görüşmüşdür. Onlarla sadə dildə danışmışdır. O, ruslar arasında olarkən öz səmimi münasibətlərini onlara göstərmişdir.

Heydər Əliyev BAM-da dəmir yolunun vaxtından əvvəl başa çatması, Sibrin və uzaq Şərqin məhsuldar qüvvələrinin inkişafını sürətləndirəcək daş kömür, meşə məmulatı və digər təbii ehtiyatların təsərrüfat mübadiləsinə qoşulmasına xidmət edəcəkdir, fikrini onlara söyləmişdir. Sonrada Heydər Əliyevin bu səfəri haqqında onunla işləmiş adamlar ona ən yüksək qiymət vermişdilər. Ümumiyyətlə Heydər Əliyev Moskvada işlədiyi zaman SSRİ-nin möhkəmləndirilməsi, dövlətçiliyin genişləndirilməsi sahəsində bir sıra yeniliklərin həyata keçirilməsi üçün təgliflər, layihələr işləyib hazırlamışdır. Bunların bəziləri haqqında qeyd etmək istərdim. Onun təşəbbüsü ilə bir sıra təkliflərə baxılmışdır. Çox hissəsi nəzərə alınmışdır.

1. "Ölkədə Beynəlxalq Gənclər gününün keçirilməsi";
2. "On ikinci beşlikdə və 2000-ci ilə qədər olan dövrdə əhalinin sağlamlığının əsas istiqamətləri";
3. "Ümumi təhsil və peşə təhsili islahatının əsas istiqamətlərinə yenidən baxılması";
4. "SSRİ-də təhsilin keyfiyyətini yüksəltmək tədris planı və proqramları, dərslikləri və dərs vəsaitlərini təkmilləşdirmək, şagirdlərin həddən artıq yüklənməsini aradan qaldırmaq";
5. "Kinofilmlərin ideya-bədii səviyyəsinin daha da yaxşılaşdırılması məsələləri" və s.

Bu kimi bir sıra diqqəti cəlb edən məsələləri irəli sürmüşdür. Heydər Əiiyev Moskvada işlədiyi zaman durmadan ölkənin müxtəlif sahələrində yeniliklərin həyata keçirilməsi üçün əlindən gələni etməyə səy göstərmişdir. Lakin, o, 1987-ci ildə Mixail Qarbaçovun irəli sürdüyü yenidən qurma siyasi xəttinə qarşı çıxmış və etiraz əlaməti olaraq tutduğu vəzifədən istefaya getmişdir. Heydər Əliyev Moskvada SSRİ-nin əsas rəhbərlərindən biri kimi yüksək vəzifədə işlədiyi dövrdə ermənilər Azərbaycana qarşı hər hansı bir tələb səsləndirməyə cəsarət etməmişdilər.

1987-ci ildə Heydər Əliyev tutduğu vəzifəsindən uzaqlaşdıqdan sonra ermənilər dərhal fəallaşmışdılar. Onlar M.Qarbaçovdan istifadə edərək, 1988-ci ildə öz məkirli siyasətlərini həyata keçirməyə başalmışdılar. H.Əliyev 1982-ci ildə Siyasi Büroya üzv seçildikdən və Moskvada fəaliyyətə başladıqdan sonra Azərbaycanda vəziyyət getdikcə, yava.-yavaş tənəzzülə uğramağa başlamışdı. Nəinki iqtisadi inkişaf sferasında, eləcə də digər ictimai proseslərdə mənfi meyllər təzahür etmiş və nəticədə Azərbaycan bəzi böyük çətinliklərlə üzləşmişdir.

1988-1993-cü illərdə yenidən ermənilər ərazi iddiaları edərək Ermənistanda və Dağlıq Qarabağda yaşayan azərbaycanlıları və qaçqın və məcburi köçkün halına salmışdılar. Bir milyondan çox azərbaycanlı didərgin halına düşmüşdür. Ermənilər rus ordusunun köməyi ilə 20 faiz Azərabycan torpaqlarını işğal etmişdir. M.Qarbaçovun göstərişi ilə Rus qoşunları 1990-cı ildə Bakıda 20 yanvar hadisələrini törətmişdir. Yüzlərlə azərbaycanlı qətlə yetirilmişdir.

Heydər Əliyev Azərbaycan xalqına qarşı ədalətsizliyə dözə bilməmiş, Sovet ordusunun törətdiyi 20 yanvar faciəsi ilə əlaqədar 1990-cı il yanvarın 21-də Azərbaycanın Moskvadakı nümayəndəliyinə gəlmiş, orada bəyanatla çıxış edərək xalqımıza qarşı törədilən cinayətin təşçkilatçılarının və iştirakçılarının cəzalandırılmasını tələb etmişdir. Əliyevin bu bəyanatı mətbuat orqanları tərəfindən bütün dünya ölkələrinə yayılmışdır.

H.Əliyev 1991-ci ildə SSRİ rəhbərliyinin ermənipərəst Dağlıq Qarabağ siyasətinə qarşı çıxaraq Sovet İttifaqı KP-nın sıralarını tərk etmişdir.

Bu illərdə Azərbaycanda bir neçə dəfə hakimiyyət dəyişikliyi də baş vermişdir. Bu dövrdə Azərbaycan iqtisadiyyatında da hərc-mərcilik başlanmışdır. Maddi ehtiyatlar qəddarcasına talan edilmişdir. Ölkənin malları xaricə daşınmışdır. Eyni zamanda Respublikada Azərbaycan dilinin dəyişdirilməsi məsələsi də ortaya çıxmışdır.

Ölkə daxilində hərbi qiyamlar, siyasi – iqtisadi, sosial böhranlar hakimiyyəti iflic vəziyyətə gətirib çıxarmışdır. Azərbaycanda daxili ictimai sabitlik pozulmuşdur. Müxtəlif qanunsuz silahlı dəstələr yaradılmışdır.

1992-ci ildə Xalq Cəbhəsi hakimiyyəti ələ almışdır. Bundan sonra, Azərbaycanda vəziyyət daha da gərginləşmişdir. Heydər Əliyev isə Azərbaycanda gedən bu proseslərə dözə bilmirdi. Onun böyük zəhmət bahasına yaratdığı dövlətçilik məhv olub gedirdi. 1991-ci ildə Azərbaycana qayıdan H.Əliyev 1991-1993-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Sovetinin Sədri – Azərbaycan Ali Sovetinin Sədr müavini seçilmişdir.

Ardı var...

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının Konstitutsiyası. Bakı, 1995.
2. Heydər Əliyev – Müstəqilliyimiz əbədidir. I kitab. Bakı, Azərnəşr, 1997.
3. Heydər Əliyev – Müstəqilliyimiz əbədidir. II kitab. Bakı, Azərnəşr, 1997.
4. Heydər Əliyev – Müstəqilliyimiz əbədidir. V kitab. Bakı, Azərnəşr, 2009.
5. Xəlilov S. – Lider, Dövlət, Cəmiyyət. Bakı, Azərnəşr, 2001.
6. Hüseynova İ. – Müstəqilliyimizin təminatçısı. Bakı, Təhsil nəşriyyatı, 2003.
7. Hüseynova İ. – Müstəqil Azərbaycan dövlətinin qurucusu. Bakı, Təhsil nəşriyyatı, 2004.
8. Qasımlı M.A. – Heydər Əliyev – İstiqlala gedən yol. 1969 – 1987-ci illər. Bakı, BDU-nun nəşriyyatı, 2006.
9. Həbibbəyli İ.Ə. – Heydər Əliyev dövlətçilik təlimi və müasir dövr. Naxçıvan, Əcəmi nəşriyyatı, 2013.
10. Abbasov V.M. – Liderlik fəlsəfəsi. Bakı, Təhsil nəşriyyatı, 2004.

HEYDƏR ƏLİYEVİN İCTİMAİ – SİYASİ GÖRÜŞLƏRİ (1923 – 2003) (I məqalə)

İsmayıl Eyyubov

XÜLASƏ

Uzun müddət Azərbaycan Respublikasının Dövlət Təhlükəsizlik orqanlarında yüksək vəzifələrdə işləyən Heydər Əliyev 1969-cu ilin 14 iyunda Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçilmişdir.

Azərbaycanın hərtərəfli inkişafı sahəsində böyük xidmət göstərənn bu dövlət xadimi Azərbaycanda sağlam, mənəvi-siyasi mühiti bərqərar etmiş, Azərbaycanın iqtisadiyyatını, elm və mədəniyyətini yüksəkliklərə qaldırmışdır. Ulu öndərimiz Heydər Əliyev 1969-1982-ci illər ərzində Azərbaycanı bütün sahələrdə SSRİ-nin ən qabaqcıl respublikalarından birinə çevrirmişdir.

H.Əliyev işlədiyi bu müddətdə Azərbaycan gənclərinin hərtərəfli inkişafı üçün də əlindən gələni etmişdir. Heydər Əliyev işlədiyi bu dövrdə Azərbaycan və SSRİ Ali Sovetinin dəfələrlə deputatı seçilmişdir.

Heydər Əliyev dövlətin bir sıra orden və medalları ilə təltif olunmuş, 2 dəfə Sosialist Əməyi Qəhrəmanı adına layiq görülmüşdür. Heydər Əliyev 1982-1987-ci illərdə SSRİ Nazirlər Sovetinin sədr müavini vəzifəsində işləmişdir. SSRİ-nin hərtərəfli inkişafına yaxından xidmət göstərmişdir. Heydər Əliyev bu vəzifədə işlədiyi dövrdə cəmiyyətdə nəzərə çarpan bütün nöqsanlara qarşı barışmaz mövqedə olmuşdur. H.Əliyev 1987-ci ildə M.Qorbaçovun irəli sürdüyü yenidən qurma siyasətinə qarşı çıxmış, etiraz əlaməti olaraq tutduğu vəzifədən istefaya getmişdir. H.Əliyev 1991-ci ildə Azərbaycana qayıtmışdır.

ОБЩЕСТВЕННО-ПОЛИТИЧЕСКИЕ ВЗГЛЯДЫ ГЕЙДАРА АЛИЕВА (1923 - 2003) (I статья)

Исмаил Эйюбов

АННОТАЦИЯ

14 июня 1969 года Гейдар Алиев, долгое время занимавший высокие посты в Службе государственной безопасности Азербайджанской Республики, был избран Первым секретарем ЦК Коммунистической партии Азербайджана. Сыграв большую роль во всестороннем развитии Азербайджана, этот государственный деятель создал здесь здоровую, нравственно-политическую атмосферу, поднял на высокий уровень экономику, науку и культуру страны. В 1969-1982 годах наш великий лидер Гейдар Алиев сделал Азербайджан одной из самых передовых республик СССР во всех областях.

За время своего пребывания в должности Гейдар Алиев сделал все возможное для всестороннего развития азербайджанской молодежи. За время своего пребывания в должности Гейдар Алиев неоднократно избирался депутатом Верховного Совета Азербайджана и СССР.

Гейдар Алиев награжден рядом государственных орденов и медалей, дважды удостоен звания Героя Социалистического Труда. В 1982-1987 годах Гейдар Алиев занимал должность заместителя Председателя Совета Министров СССР. Он внес большой вклад во всестороннее развитие СССР. Во время пребывания на этой должности Гейдар Алиев был бескомпромиссен в решении многих недостатков общества. В 1987 году Гейдар Алиев выступил против горбачевской политики перестройки и в знак протеста ушел в отставку. Г.Алиев вернулся в Азербайджан в 1991 году.

SOCIAL AND POLITICAL VIEWS OF HEYDAR ALIYEV (1923 - 2003) (I article)

Ismail Eyyubov

SUMMARY

On June 14, 1969, Heydar Aliyev, who for a long time held high positions in the State Security Service of the Republic of Azerbaijan, was elected First Secretary of the Central Committee of the Communist Party of Azerbaijan. Having played a big role in the all-round development of Azerbaijan, this statesman created a healthy, moral and political atmosphere here, raised the economy, science and culture of the country to a high level. In 1969-1982, our great leader Heydar Aliyev made Azerbaijan one of the most advanced republics of the USSR in all areas.

During his tenure, Heydar Aliyev did everything possible for the comprehensive development of the Azerbaijani youth. During his tenure, Heydar Aliyev was repeatedly elected as a deputy of the Supreme Soviet of Azerbaijan and the USSR.

Heydar Aliyev was awarded a number of state orders and medals, twice awarded the title of Hero of Socialist Labor. In 1982-1987, Heydar Aliyev served as Deputy Chairman of the Council of Ministers of the USSR. He made a great contribution to the all-round development of the USSR. During his tenure in this position, Heydar Aliyev was uncompromising in solving many of the shortcomings of society. In 1987, Heydar Aliyev spoke out against Gorbachev's policy of perestroika and resigned in protest. H. Aliyev returned to Azerbaijan in 1991.

DAVAMLI İNKİŞAF VƏ MAKROİQTİSADİ TARAZLIQ

Atakişiyeva Aytən Həsənəli qızı
BDU-nun II kurs magistrantı
ayten_babayeva1999@mail.ru

Açar sözlər: davamlı inkişaf, dinamik inkişaf , milli iqtisadiyyat, iqtisadi siyasət, tədiyyə balanssı, makroiqtisadi tarazlıq
Keywords: sustainable development, dynamic development, national economy, economic policy, balance of payments, macroeconomic balance
Ключевые слова: устойчивое развитие, динамичное развитие, национальная экономика, экономическая политика, платежный баланс, макроэкономический баланс.

Müasir dövrdə dünyada resurslara olan tələbatın durmadan artdığı, lakin onların kəskin məhdudluğu, eyni zamanda ekoloji problemlərin kəskinləşdiyi bir şəraitdə iqtisadi artımın hansı amillər və nə qədər resurs sərfi nəticəsində əldə olunması ölkəmizdə davamlı inkişafın təmin edilməsi baxımından prinsipial əhəmiyyətə malikdir. İndiki və gələcək nəsillərin maraq və mənafelərini nəzərə alaraq iqtisadi artımın keyfiyyətcə yeni tipinin formalaşdırılması milli iqtisadiyyatın davamlı inkişafa keçidin təmin edilməsinin başlıca istiqamətini təşkil edir.

Qlobal maliyyə böhranı birmənalı şəkildə göstərdi ki, iqtisadi artımın keyfiyyətini, milli iqtisadiyyatın davamlılığını, ölkənin tədiyə balansının tarazlığını, rəqabət qabiliyyətliliyini təmin etmədən bütövlükdə cəmiyyətin və iqtisadiyyatın davamlı inkişafına nail olmaq mümkün deyildir.

XX əsrdə dünya alimlərinin diqqətini cəlb edən məsələlərdən biri davamlı inkişaf problemini araşdırmaq və bu sahədə tədqiqatları genişləndirmək olmuşdur. Davamlı inkişaf cəmiyyətin davamlı, dayanıqlı, fasiləsiz, sabit, uzunmüddətli inkişafının təmin olunması kimi başa düşülür. Davamlı inkişaf bəşəriyyətin ən müasir, mütərəqqi, gələcək nəsillərin tələblərini ödəyən, onların imkanlarını məhdudlaşdırmayan, insan potensialı və kapitalı, yeni biliklərin səfərbər olmasını əsas şərt kimi qəbul edən, ətraf mühitin yaxşılaşdırılması və mühafizəsini nəzərdə tutan inkişaf yoludur.

Davamlı inkişaf milli iqtisadiyyatın elə bir artımını nəzərdə tutur ki, onun sayəsində cəmiyyətin müasir tələbatlarını ödəyərkən gələcək nəsillərin artan tələbatlarının daha yaxşı ödəmək qabiliyyətini məhdudlaşdırmasın. Bütün bunlar ölkəmizin resurslar balansı, onlardan istifadə dərəcəsi, elmi-texniki tərəqqinin mövcud imkanları daxilində yaxın gələcəkdə hərəkətə gətirə biləcək potensialı və mövcud reallıqları nəzərə alınmaqla milli iqtisadiyyatın dinamik, tarazlı və səmərəli inkişafının təmin edilməsinin obyektiv zərurəti davamlı inkişafa keçiddə tədiyə balansının tənzimlənməsinə öz təsirini göstərəcəkdir [1,s.126].

Qloballaşma şəraitində bəşəriyyəti resurslara olan tələbatlarının durmadan artması ilə yanaşı, onların istehsalının getdikcə baha başa gəlməsi, dünyada baş verən qloballaşma proseslərinin məntiqi nəticəsi olaraq ölkələrin qarşılıqlı asılılığının güclənməsi iqtisadi, sosial, demoqrafik və ekoloji problemlərin ümumbəşəri xarakter daşımasına səbəb olmuşdur. Belə bir şəraitdə ölkəmizdə səmərəli fəaliyyət göstərən milli iqtisadiyyatın formalaşdırılması və inkişafı həlledici dərəcədə onun davamlı inkişaf modelinə keçidlə şərtlənir.

İnkişaf etmiş ölkələrin tarixi təcrübəsi göstərir ki, milli iqtisadiyyatın davamlı inkişafa keçidini təmin etmək üçün hər şeydən əvvəl ölkənin resurs potensialı indiki və gələcək nəsillərin maraq və mənafeləri nəzərə alınmaqla səmərəli reallaşdırılmalı, tədricən resurslara, investisiyalara əsaslanan inkişaf modelindən innovasiyalı inkişaf modelinə keçid üçün tələb

olunan zəruri iqtisadi, sosial, ekoloji, texniki-texnoloji potensial formalaşdırmalıdır [2, s.87]. Bütün bunlar öz növbəsində davamlı inkişaf anlayışının mahiyyətinin, milli reallıqlar və dünya təcrübəsi prizmasından milli iqtisadiyyatın davamlı inkişaf modelinə keçidin imkan, prinsip və meyarlarının başlıca yollarının, onun səviyyəsini xarakterizə edən makroiqtisadi göstəricilərin nəzəri və əməli baxımdan dəyərləndirilməsi qanunauyğunluqları və xüsusiyyətlərinin sistemli tədqiqini tələb edir ki, bu da davamlı inkişafa keçiddə tədiyə balansının makroiqtisadi rolu ilə müəyyən olunur [3, s.136].

İqtisadiyyatın davamlı inkişafı konsepsiyasının və strategiyasının əməli cəhətdən reallaşdırılması son nəticədə perspektiv strateji, taktiki vəzifə və məqsədlər nəzərə alınaraq müxtəlif səviyyəli maraqların tarazlığının, o cümlədən tədiyə balansının tarazlığının təmin edilməsində xüsusilə əhəmiyyətlidir. Bu baxımdan ümumi halda ölkəmizdə davamlı inkişafın təmin edilməsinə yönəldilən perspektiv inkişaf modelini xarakterizə etməyə cəhd etsək reallaşdırılması nəzərdə tutulan aşağıdakı prioritet istiqamətlərinə əsas və tərəqqi amillərinin optimal nisbətlərinin göstərilməsinə; milli iqtisadiyyatın neft-qaz strategiyasının təmin edilməsinə, ölkənin tədiyə balansının tarazlığının qorunub saxlanmasına, iqtisadi artımın səmərəliliyinin qiymətləndirilməsinə təkrar istehsal baxımından yanaşılmasına və nəhayət, bir amildən səmərəli istifadənin digərindən istifadənin səviyyəsinə neqativ təsir göstərməməsinə xüsusi diqqət yetirmək lazımdır.

Ümumiyyətlə, davamlı inkişaf konsepsiyasının əsasını belə bir sivil yanaşma təşkil edir ki, sosial-iqtisadi sistemlərin və inkişaf modellərinin xarakterindən asılı olmayaraq milli iqtisadiyyatın elə bir inkişafın ı təmin etmək lazımdır ki, elmi-texniki tərəqqinin tətbiqi və inkişafı gücləndikcə bütün səviyyələrdə insanların davamlı yaşayış prinsipləri gözlənilsin və ətraf mühitin tarazlığı pozulmasın [4].

Beynəlxalq miqyasda ilk dəfə Stokholm Sammitində (1972-ci il) iqtisadi inkişafın tsiklik dalğası ilə yanaşı onun yeni bir istiqaməti-davamlı inkişafa keçid zərurəti müəyyənləşdirildi. Bu prosesləri nəzərə alaraq "Roma klubu"nun üzvlərinin, həmin konsepsiyanın tərəfdarları olan iqtisadçıların və siyasətçilərin "Artımın hədləri", "Dünyada artımın dinamikası", "İnsanlıq yol ayrıcında", "Beynəlxalq qaydaların yenidən qurulması", "Qlobal cəmiyyətlər üçün məqsədlər" adlı hazırladıqları məruzələrdə belə qənaətə gəlinir ki, iqtisadi artıma hər hansı bir hədd qoyulmayanadək iqtisadiyyatda, xüsusən də real sektorda resurslardan istifadə siyasəti o vaxta kimi qeyri-müəyyən olacaq və bu problemin həllində dövlətin müstəsna rolu əsaslandırılır.

Son illərdə davamlı inkişafla bağlı aparılan nəzəri və əməli xarakterli tədqiqatların məntiqi nəticəsi olaraq dünyada tədricən daha optimist inkişaf modelləri və məruzələri meydana gəlməyə başladı. Bu istiqamətdə Rio-de-Janeyroda (1992) və Yohannesburqda (2002) ətraf mühit və inkişafa dair BMT-nin beynəlxalq sammitinin keçirilməsi mühüm hadisə hesab edilməlidir. Qeyd olunanlar belə qənaətə gəlməyə əsas verir ki, davamlı inkişaf konsepsiyasında məntiqi olaraq planetin ehtiyatlarından səmərəli və qənaətlə istifadə, təbii mühitin qorunub-saxlanması, indiki və gələcək nəsillərin həyat şəraitinin yaxşılaşdırılması şərtilə insanların tələbatının optimal şəkildə ödənilməsi və bütün dünyada sülhün qorunmasına yönəlmiş sosial-iqtisadi və ekoloji inkişafı nəzərdə tutur, bir sözlə iqtisadi-sosial inkişafın problemləri ekosistemin təbii imkanları ilə ahəngdar uzlaşdırılaraq həll edilməsini tələb edir [5, s.97].

Davamlı və dinamik inkişaf məntiqinə əsaslanan Azərbaycan modelinin strateji istiqamətlərini aşağıdakı kimi səciyyələndirmək olar:

- sərbəst bazar münasibətlərinə əsaslanan və özünü inkişaf etdirmək
- qabiliyyətinə malik olan sosial yönümlü bütöv iqtisadi sistemin - müstəqil milli
- iqtisadiyyatın formalaşdırılması;
- ölkədə mövcud olan təbii-iqtisadi, texniki istehsal və elmi-texniki

- potensialın fəal surətdə təsərrüfat dövriyyəsinə cəlb olunması;
- milli iqtisadiyyatın dünya təsərrüfat sisteminə səmərəli inteqrasiyasının
- təmin olunması;

Bu model üzrə iqtisadi siyasətin həyata keçirilməsi taktikasının fərqləndirici xüsusiyyətlərini göstərən istiqamətlərin hər biri üzrə paralel şəkildə həyata keçirilən əlaqələndirilmiş proqramlara əsasən fəaliyyətin aparılması; qeyri-standart, lakin iqtisadi inkişafın obyektiv qanunauyğunluqlarını nəzərə alan, gələcəyə hesablanan cəsarətli qərarların qəbul olunması, sosial yönümlülüyünün gözlənilməsi; mili mentalitetin nəzərə alınması və mütərəqqi dünya təcrübəsinə arxalanması təşkil edir [6, s.532].

Ümumən bu prosesin hər hansı bir ölkənin konkret timsalında əməli cəhətdən reallaşdırılması məntiqi ardıcıllıqla 4 ünsürün tədqiqini: milli iqtisadiyyatın mövcud vəziyyətinin təhlilini, başlıca məqsədlərin müəyyənləşdirilməsini, mövcud iqtisadi münasibətlər sisteminin milli maraqlara nə dərəcədə cavab verməsini, nəhayət, onun tənzimlənməsinin forma, metod, miqyas, vasitələrinin müəyyənləşdirilməsini və dəyərləndirilməsini tələb edir. Son nəticədə davamlı inkişafın təmin edilməsi iqtisadi inkişafın strategiyasının optimallığı və səmərəliliyinin yüksəldilməsi ilə birbaşa bağlıdır.

Davamlı inkişaf baxımından tədiyə balansının araşdırılması da mühüm əhəmiyyət kəsb edir. Beynəlxalq statistikada tədiyə balansından statistik təhlilin mühüm vasitəsi kimi geniş istifadə olunduğu üçün onun məlumatları əsasında ölkənin istər daxili iqtisadiyyatının mövcud vəziyyəti və inkişaf meylləri, istərsə də xarici əlaqələr sferasının vəziyyəti haqqında fikir söyləmək mümkün olur. Başqa sözlə, tədiyə balansı makroiqtisadi model kimi ölkə iqtisadiyyatının dünya iqtisadiyyatına inteqrasiya səviyyəsini qiymətləndirməyə imkan verir.

Tədiyə balansı müəyyən dövr ərzində ölkə rezidentləri ilə digər ölkə, ölkə qrupları və beynəlxalq təşkilatlar arasında iqtisadi əlaqələrin yekun nəticələrini dəyər formasında əks etdirdiyinə görə beynəlxalq iqtisadiyyatın inkişafı, həmçinin əsas partnyor olan ölkələrin iqtisadi inkişafındakı başlıca dəyişikliklər tədiyə balansının vəziyyətinə təsir göstərən əsas amillər kimi çıxış edir. Odur ki, hər hansı bir ölkə tədiyə balansının tənzimlənməsi zamanı idxal və ixrac malları üzrə dünya qiymətlərinin indekslərini və beynəlxalq səviyyədə faiz dərəcələrinin dinamikası ilə bağlı dəyişiklikləri nəzərə almalıdır. Tədiyə balansının tənzimlənməsi zamanı ölkə iqtisadiyyatın m, xüsusilə də büdcənin vəziyyətinin və pul-kredit siyasətinin istiqamətlərinə əsasən müəyyənləşdirilən idxala tələbat və ixrac sahələrinin inkişaf perspektivlərinin nəzərə alınması mühüm əhəmiyyət daşıyır.

Ümumiyyətlə, tədiyə balansına təsir edən bir sıra amillər vardır ki, həmin amillər də ölkənin milli valyutasının məzənnəsinə və pul dövriyyəsinə də ciddi şəkildə mənfi təsir göstərir [7, s.62]. Bu amillərə aşağıdakılar aid olunur:

1. Ölkənin iqtisadi və siyasi inkişafının qeyri-bərabərliyi;
2. Ölkədaxili dövlət xərclərinin artması;
3. İqtisadiyyatın hərbiləşməsi və sürətlə silahlanma;
4. Dövri olaraq iqtisadiyyatın tərəddüdlü inkişafı və ya sürətinin artib-
5. azalması;
4. Kapitalın hərəkətinin miqyasının və əhəmiyyətinin artması;
5. Beynəlxalq ticarətdə baş verən dəyişikliklər;
6. Valyuta-maliyyə amilləri;
7. İnflyasiya.

Qeyd edək ki, müasir dövrdə tədiyə balansının kəsirli olması bir çox ölkələr qarşısında daha çox qabarıq dayanır. Adətən, belə hesab olunur ki, tədiyə balansında kəsirin meydana gəlməsinə bir sıra makroiqtisadi göstəricilər-milli məsrəflərdə özünü göstərən dövri dəyişikliklər, valyuta

məzənnəsinin enib-qalxması, həmçinin tələbdə və məhsuldarlıqda özünü göstərən dəyişikliklər ciddi təsir göstərir. Buna görə də dövlət yaranmış kəsirin örtülməsi üçün daxili və xarici iqtisadi amillərdən istifadə etməklə onun ən optimal variantının tapılmasını zəruri hesab edir. Bu zaman dövlətin həyata keçirə biləcəyi tədbirlərə aşağıdakıları aid etmək olar:

1. Tədiyə balansının kəsirinin maliyyələşdirilməsi;
2. Tədiyə balansının kəsirli olmasına yol açan sahələrin nəzarət altında saxlanılması;
3. Kəsiri əmələ gətirən səbəblərin aradan qaldırılması.

Tədiyə balansı kəsirli olduğu zaman dövlətin həyata keçirə biləcəyi ilkin tədbirlər onu maliyyələşdirilməsi ilə əlaqədar olur. Belə maliyyələşdirmə mənbələrinə dövlət mülkiyyəti, həmçinin dövlətin rəsmi qızıl-valyuta ehtiyatları və xarici borcların ölkənin ÜDM-nun 40-45% həcminə qədər cəlb edilməsi xidmət edir [8]. Qeyd etmək lazımdır ki, ölkənin tədiyə balansının kəsirinin maliyyələşdirmə mənbələrinə xidmət edən mal-material dəyərləri hüdudsuz deyildir. Belə ehtiyatlar nə qədər çox olsa da, hər zaman tükənə bilər. Eyni zamanda qeyd edək ki, ölkəyə cəlb edilən xarici borcların da müəyyən bir həddi vardır. Bu baxımdan, tədiyə balansı kəsirinin uzunmüddətli -dövr üçün maliyyələşdirilməsi məqsədəuyğun deyildir.

Tədiyə balansı kəsirinin aradan qaldırılması üçün həyata keçirilə biləcək ikinci qrup tədbirlər idxalın məhdudlaşdırılması və istehlakın aşağı səviyyəyə salınmasıdır. Belə tədbirlərə idxala kvotalar qoyulması, gömrük vergilərinin artırılması, ölkədən valyuta və sərmayə axınının qarşısının alınması, sosial məqsədlər üçün sərf olunan büdcə xərclərinin aşağı salınması, əmək haqqı və qiymətlərin dondurulması kimi tədbirləri aid etmək olar. Qeyd edək ki, belə tədbirlərlə dövlət tədiyə balansında kəsirin əmələ gəlmə səbəblərini yalnız müəyyən müddətdə nəzarət altında saxlayır. Reallıqda isə belə tədbirlər kəsirin əmələgəlmə səbəblərini aradan qaldırmır.

Tədiyə balansı kəsirinin aradan qaldırılması üçün həyata keçirilə biləcək üçüncü qrup tədbirlər isə kəsirin əmələgəlmə səbəblərinin aradan qaldırımlısıdır. Bu yol ən ağır, lakin ən etibarlı yoldur. Dövlət tədiyə balansı kəsirinin aradan qaldırılması üçün ölkəyə valyuta gətirə bilən bütün ixrac sahələrinin fəaliyyətini artırmalıdır. Bunun üçün də qısamüddətli və uzunmüddətli planda ölkə iqtisadiyyatını inkişaf etdirə biləcək kompleks tədbirlər sistemi hazırlanır. Tədiyə balansı makroiqtisadi tənzimlənmə proqramlarının başlıca məqsədi kimi çıxış etdiyi üçün həyata keçirə biləcək bütün tədbirlər əlaqələndirilməlidir.

ƏDƏBİYYAT

1. AM Maharramov, HH Aslanov, Regulation of foreign economic activity. Baku, 2008, 399 p .;
2. . GC Imanov, YH Hasanli, Models of socio-economic development of Azerbaijan. Baku: Elm, 2001, 247 p .;
3. IMF balance of payments methodology. 350 s .;
4. Indicators of the balance of payments of the Central Bank of the Republic of Azerbaijan for 2019-2020;
5. M. Rahimov Laws regulating the development of the Republic of Azerbaijan. Baku, 1995, 205 p .;
6. RM Mikayilzade, GS Jafarova "Problems of balance of payments and regulation of macroeconomic processes", materials of the scientific-practical conference on the threshold of Azerbaijan XXI century. Baku, 1998, p.532-537;
7. RT Hasanov Economic development and macroeconomics. Baku, 2000, 74 p .;
8. Statistical indicators of Azerbaijan. State Statistics Committee of the Republic of Azerbaijan: official publication, 2020;

DAVAMLI İNKİŞAF VƏ MAKROİQTİSADİ TARAZLIQ

Atakişiyeva Aytən

XÜLASƏ

Məqaalədə müasir dövrdə resurslara tələbatın artdığı , lakin onların kəskin məhdud olduğu bir şəraitdə iqtisadi artımın hansı amillər nəticəsində əldə olunması olunması məsələləri öyrənilmişdir. Bu istiqamətdə davamlı inkişafın təmin edilməsi zəruriliyi və yolları araşdırılmış, milli iqtisadiyyatın davamlı inkişafa keçidinin təmin edilməsində hər şeydən əvvəl ölkənin resurs potensialının indiki və gələcək nəsillərin maraq və mənafeləri nəzərə alınmaqla səmərəli reallaşdırılması, tədricən resurslara, investisiyalara əsaslanan inkişaf modelindən innovasiyalı inkişaf modelinə keçid üçün tələb olunan zəruri iqtisadi, sosial, ekoloji, texniki-texnoloji potensialın formalaşdırması nəzərdən keçirilmişdir.

Bütün bunlar öz növbəsində davamlı inkişaf anlayışının mahiyyətinin, milli reallıqlar və dünya təcrübəsi prizmasından milli iqtisadiyyatın davamlı inkişaf modelinə keçidin imkan, prinsip və meyarlarının başlıca yollarının, onun səviyyəsini xarakterizə edən makroiqtisadi göstəricilərin nəzəri və əməli baxımdan dəyərləndirilməsi qanunauyğunluqları və xüsusiyyətlərinin sistemli tədqiqini tələb edir ki, bu da davamlı inkişafa keçiddə tədiyə balansının makroiqtisadi rolu ilə müəyyən olunur. İşd bu və digər məsələlər ətraflı şəkildə təhlil edilmişdir.

УСТОЙЧИВОЕ РАЗВИТИЕ И МАКРОЭКОНОМИЧЕСКИЙ БАЛАНС

Атакишийева Айтен

АННОТАЦИЯ

В статье рассматриваются факторы, которые приводят к экономическому росту в ситуации, когда спрос на ресурсы в современное время растет, но резко ограничивается. Исследованы необходимость и пути обеспечения устойчивого развития в этом направлении, рассмотрено формирование необходимого экономического, социального, экологического, технико-технологического потенциала.

Все это, в свою очередь, требует систематического изучения сущности концепции устойчивого развития, основных путей перехода, принципов и критериев национальной экономики через призму национальных реалий и мирового опыта, закономерностей и особенностей теоретического и практическая оценка макроэкономических показателей определяется также макроэкономической ролью платежного баланса в условиях перехода к устойчивому развитию. Эти и другие вопросы были подробно проанализированы.

SUSTAINABLE DEVELOPMENT AND MACROECONOMIC BALANCE

Atakishiyeva Ayten

SUMMARY

The article considers the factors that lead to the economic growth of the situation, when the demand for resources grows in modern times, but is sharply limited. Necessity and ways of ensuring sustainable development in this direction have been studied, the formation of the necessary economic, social, ecological, technical and technological potential has been considered.

All this, in turn, requires a systematic study of the essence of the concept of sustainable development, the main ways of transition, the principles and criteria of the national economy through the prism of national realities and world experience, patterns and features of theoretical and practical assessment of macroeconomic indicators is also determined by the macroeconomic role of the balance of payments in the transition towards sustainable development. These and other questions have been analyzed in detail.

YERLİ ÖZÜNÜİDARƏETMƏLƏRİN İNKİŞAFI PROSESİNDƏ İNNOVASİYANIN YERİ VƏ ROLU

Mustafayeva Ayşən
BDU-nun "İctimai siyasət" ixtisaslaşması üzrə II kurs magistrantı
ayshan2.mustafayeva@gmail.com

Açar sözlər: dövlət idarəçiliyi, yerli özünüidarəetmə, səmərəli idarəçilik, innovasiya prosesləri.
Ключевые слова: государственное управление, местное амоуправление, эффективное управление, инновационные процессы.
Keywords: public administration, local self-government, effevtive governance, innovation processes.

"Səmərəli idarəçilik" anlayışının mahiyyətini dərk etmək üçün, ilk növbədə səmərəliliyin meyarları məsələsinə aydınlıq gətirmək labüd hal kimi qeyd olunur.Ümumilikdə, "Dövlət idarəçiliyinin səmərəliliyi" dedikdə, idarəetmə sisteminin səmərəliliyinin qiymətləndirildiyi əlamətlər kompleksi başa düşülür. Təbiiki, burada dövlət və yerli özünüidarəetmə orqanlarının qəbul etdiyi qərarların səmərəliliyi də nəzərdə tutulur". Qiymətləndirmə" kateqoriyası qeyd edilən anlayışın mərkəzi elementi hesab olunur. Dövlət və yerli özünüidarəetmə orqanlarının səmərəliliyinin qiymətləndirilməsi cəmiyyət üçün əhəmiyyətli hal kimi xarakterizə olunur. Dövlət idarəçiliyinin səmərəliliyinin qiymətləndirilməsi cəmiyyətə dövlət institutlarının fəaliyyətinin keyfiyyətinə nəzarət etmək imkanı verir.

Müasir səmərəlilik nəzəriyyəsinin əsas tendensiyalarından biri innovasiyalara və onların tətbiqi istiqamətlərinə yol tapmaqdır. Dövlətin həyata keçirdiyi innovasiya siyasətinin mahiyyətindən bəhs edərkən, dövlət strukturlarının iqtisadiyyata, ümumilikdə cəmiyyətə təsirini təmin etməyə qadir olan məqsədlər və onların reallaşmasını təmin edən metodlar kompleksi nəzərdən keçirilir. Dövlətin həyata keçirdiyi innovasiya siyasəti sistem xarakteri daşıyır və bu siyasətin müxtəlif imkan və vasitələrinin üzvi şəkildə birləşməsini təmin edir.

Müasir dünya dövlətlərinin siyasətlərinə nəzər yetirdikdə, onların dövlət idarəçiliyinin təkmilləşdirilməsi, dövlət idarəçiliyində səmərəliliyin artırılması istiqamətində çıxış yollarının fərqli olduğu aydınlaşır. Böyük Britaniya, Amerika Birləşmiş Ştatları,Avstraliya, Kanada, Almaniya, Çin, eləcə də Avropa İttifaqının mərkəzi qurumlarının xarici təcrübənin uzunmüddətli təhlili əsasında gəldiyi nəticəyə görə, dövlət və yerli hakimiyyət orqanlarının səmərəliliyinin əldə olunmasına yönələn 2 konsepsiya əsas götürülür:

- New Public Management
- Good Governance

Konsepsiyaların həyata keçirilməsinin əsas məqsədi dövlət hakimiyyəti orqanlarının və yerli hakimiyyət orqanlarının fəaliyyəti çərçivəsində səmərəliliyə nail olmaqdan ibarətdir.

"New Public Management" konsepsiyası 1990-cı illərin əvvəllərində Britaniya siyasi elminə qədəm qoymuşdur.Mütəxəssislər adı qeyd olunan konsepsiyanın 2 mühüm xarakterik xüsusiyyətini qeyd edirlər:

1. İcra, dövlət və bələdiyyə qulluğu sahəsində əsaslı siyasi təlimlər;
2. İnzibati islahatların gedişatında həyata keçirilmiş praktiki tədbirlərin kompleksi.

Beləliklə, nəticə etibarilə qeyd oluna bilər ki, "New Public Management" konsepsiyasının əsas məqsədi dövlət və yerli idarəçilik çərçivəsində bazar münasibətlərini modelləşdirməkdir [3, səh 3].

Dövlət və yerli idarəçiliyin təkmilləşdirilməsinə yönələn əsas konsepsiyalardan biri də "Good Governance" konsepsiyasıdırki, onun icrası əsasən sosial problemlərin həll edilməsinə yönəlmişdir. "Good Governance" anlayışı ilk dəfə 1992-ci ildə Ümumdünya Bankının iqtisadi inkişaf sahəsindəki illik konfransında müzakirə olunmuşdu. BMT hesab edir ki, "Good Governance" yoxsulluğun aradan qaldırılmasında və dövlətin inkişafı prosesində ən vacib amildir. Ancaq "Good Governance" özündən əvvəlki modelləri əvəz etmir, insan hüquqlarını əlavə etməklə onları tamamlayır. Modelin icrası dövlət və yerli idarəçilikdə rəqəmsal əməliyyatların keçidi və informasiya texnologiyaları proseslərinə böyük üstünlük verir [4].

Səmərəli innovativ dövlət ideyası Ümumdünya Bankının "Dünya İnkişafı -2017" adlı hesabatında da dəstəklənir.Beləliklə, davamlı inkişafın əsas prinsiplərini özündə əks etdirə bilən innovativ dövlət idarəçiliyi qloballaşma trendi kimi qəbul olunur [6].

Azərbaycan Respublikasından tətbiq olunan innovasiya modeli də öz effektivliyi ilə fərqlənir və hər gün ötən günə nisbətən daha da təkmilləşdirilir. Azərbaycanda tətbiq edilən və öz səmərəsini göstərən innovasiya modelinin əsas istiqamətləri aşağıdakılardır:

- innovativ fəaliyyətin normativ-hüquqi təminatının və onun stimullaşdırılması istiqamətində həyata keçirilən mexanizmlərin hazırlanması;
- ölkə iqtisadiyyatının innovativ inkişafına yönəlmiş dövlət strategiyasının hazırlanması;
- dövlət və yerli özünüidarəetmə orqanlarının iqtisadi və elmi qurumlarla təmas qarşılıqlı fəaliyyətinin təmin edilməsi;
- elm və texnologiya sahəsində əsas tədqiqatların inkişafına yönəlmiş fəaliyyəti stimullaşdırmaq.

İnnovativ inkişaf şəraitində mövcud olan idarəçiliyin təkmilləşdirilməsinin əsas istiqamətlərindən biri dövlət və bələdiyyə idarəçiliyi sahəsində müasir informasiya-kommunikasiya texnologiyalarının geniş tətbiqinə yer verilməsi məsələsidir. İnformasiya inqilabı şəraitində dövlət və yerli özünüidarəetmənin yeri və rolunun yenidən dərki gerçəkləşir. Bu, müasir cəmiyyətin müxtəlif istiqamətli proseslərinin koordinasiyası üzrə mürəkkəb vəzifələri həll etməyə imkan verməlidir. İnformasiya dövlət və yerli hakimiyyətinin mühüm resursuna çevrilməkdədir və dövlət və yerli özünüidarəetmə orqanlarının səmərəliliyi ona necə nəzarət olunmasından və informasiyanın necə yönləndirilməsindən asılıdır.

İlk dəfə 1993-cü ildən etibarən ABŞ-da elektron hökümətdən istifadə reallaşıb. Dövlət idarəçiliyində yaranan xaoslar, əlavə vaxt itkisi kimi halların baş verməsi elektron hökümətin bir pilot layihə olaraq deyil, struktur baxımından birbaşa olaraq formalaşdırılmasına zəmin yaratdı. Daha sonra qısa bir zamanda Böyük Britaniyada, Yaponiyada, Çində, Avstraliyada, Cənubi Koreyada və digər ölkələrdə yayılmağa başlayan elektron hökumət post-sovet ölkələrində bir qədər gec XXI əsrin ilk on illiyindən etibarən formalaşmağa başladı. 2018-cı ildə e-hökumətdən istifadə və elektron əməliyyatların indekslənmə statistikasına görə müvafiq olaraq Danimarkiya, Avstraliya, Cənubi Koreya, Birləşmiş Krallıq, İsveç, Finlandiya, Sinqapur, Yeni Zellandiya, Fransa və Yaponiya ilk onluqda yer almışdır [5].

Ölkəmizdə "Elektron Hökumət"in formalaşdırılması beynəlxalq təcrübəyə əsaslanır və Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2010-2012-ci illər üçün Dövlət Proqramının (Elektron Azərbaycan)" təsdiq edilməsi haqqında Sərəncamı, "Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında" 23 may 2011-ci il tarixli Fərmanı və digər normativ hüquqi aktlarla fəaliyyəti üçün hüquqi baza yaradılmışdır. Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 14 mart 2018-ci il tarixli 1885 nömrəli "Elektron hökumətin inkişafı və rəqəmsal hökumətə keçid ilə bağlı tədbirlər haqqında" fərmanına əsasən Azərbaycan Respublikası Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə

Dövlət Agentliyinin tabeliyində yaradılmış "Elektron Hökumətin İnkişafı Mərkəzi" publik hüquqi şəxsi bu sahədə görülən işlərin əlaqələndiricisi olaraq "Elektron Hökumət"in formalaşması üzrə digər dövlət orqanları ilə sıx fəaliyyət göstərir və müvafiq infrastrukturun yaradılması üzrə fəaliyyət həyata keçirir [1].

E-bələdiyyəçilik bütün gərəkli informasiyanı veb-sayt üzərindən yayımlayaraq, 7/24 saat aktiv olan, yerli əhaliyə açıq, şəffaf informasiya çatdırılmasına xidmət edən bir sistemdir.

Texnologiyanın daima inkişafı prosesində şəffaflığın, operativliyin, effektivliyin təmin olunması baxımından bütün idarəetmə prosesində elektronlaşmaya ehtiyac olduğu kimi, həmçinin yerli özünüidarəetmə orqanlarının fəaliyyətini daha da optimallaşdırmaq üçün elektronlaşmaya müraciət etmək labüddür. E-bələdiyyə məhfumu elektron hökümətin bir qolu kimi düşünülməlidir ki, bu məhfum texnoloji yeniliklərdən istifadə yolu ilə dəqiq informasiya bazasını yaradaraq, şəffaf şəkildə xalqa ötürülməsi kimi başa düşülməlidir. Bundan əlavə, bələdiyyələrin ön və arxa ofislərinin işinin təkmilləşməsi, səmərəliliyin artırılması və insan amilinini minimuma endirilməsi məhz elektronlaşma ilə mümkündür.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikası Prezidentinin "Elektron hökumətin inkişafı və rəqəmsal hökumətə keçid ilə bağlı tədbirlər haqqında" fərmanı//14.03.2018
2. Fəridə Əlirzayeva//Dövlət idarəçiliyində innovativ inkişaf mexanizmlərinin tətbiqi: Dünya təcrübəsinin politoloji təhlili
3. Good Governance in Practice. Approaches and Examples from Development Practice http:// www.bmz.de/en/publications/ topics/good-governance
4. https://maintenance.un.org/
5. https://belediyye.info/new/
6. Research and development policy, Innovation policy, and Industrial policy: An Interface

YERLİ ÖZÜNÜİDARƏETMƏLƏRİN İNKİŞAFI PROSESİNDƏ İNNOVASİYANIN YERİ VƏ ROLU

Mustafayeva Ayşən

XÜLASƏ

Məqalə demokratiyanın təməl qurumu sayılan yerli özünüidarəetmənin təkmilləşdirilməsi prosesində innovativ meyarların təhlilinə istiqamətlənmişdir.Səmərəli əsaslarla fəaliyyət göstərən idarəçilik mexanizminə nail olmağın əsas göstəricilərindən biri də fəaliyyət zəminində innovativ prosedurların tətbiq olunması, onların inkişaf etdirilməsidir. Məqalədə innovativ prosedurların son zamanlar öz aktuallığı ilə seçilən "Elektron Hökümət" və "Elektron Bələdiyyə" konsepsiyasına nəzər yetirilmiş, konsepsiyanın məqsədləri, həmçinin dünya ölkələrinin bu sahədə təcrübəsi kontekstində Azərbaycan Respublikasında istiqamət və vəzifələri ətraflı şəkildə təhlil və şərh olunmuşdur.

МЕСТО И РОЛЬ ИННОВАЦИЙ В РАЗВИТИИ МЕСТНОГО САМОУПРАВЛЕНИЯ

Мустафаева Айшен

АННОТАЦИЯ

Статья посвящена анализу инновационных критериев в процессе совершенствования местного самоуправления, являющегося краеугольным камнем демократии.Одним из основных показателей достижения эффективного механизма управления является применение и разработка инновационных процедур на основе деятельности. В статье рассматриваются недавно выделенные концепции инновационных проседур “Электронное правительство” и “Электронное самоуправление” и цели концепции, а также в контексте опыта других стран в этой сфере направления и задачи в Азербайджанской Республики были проанализированы и подробно прокомментированы.

THE PLACE AND ROLE OF İNNOVATİON İN THE DEVELOPMENT OF LOCAL SELF-GOVERNMENT

Mustafayeva Ayshan

SUMMARY

The article focuses on the analysis of innovative criteria in the process of improving local self-government, which is the cornerstone of democracy.One of the main indicators of achieving an effective management mechanism is the application and development of innovative procedures on the basis of activities. The article looks at the recently selected concepts of innovative procedures “e-Government” and “ e-Municipality” and the goals of the concept, as well as in the context of the experience of other countries in this field, the directions and tasks in the Republic of Azerbaijan were analyzed and commented in detail.

TƏKPARTİYALI SİYASİ SİSTEMLƏR VƏ MODELLƏRİ

Yusifli Cavad Kamran oğlu
BDU-nun II kurs magistrantı
cavadyusifli@gmail.com

Açar sözlər: siyasi partiya, təkpartiyalılıq, siyasi rejim, kommunist partiyaları, demokratiya
Ключевые слова: политическая партия, однопартийная система, политический режим, коммунистические партии, демократия
Keywords: political party, one-party system, political regime, communist parties, democracy

Siyasi partiyalar demokratiyanın əsas institutlarıdır. Seçkilərdə rəqabət edərək partiyalar vətəndaşlara idarəetmədə seçim təklif edir və müxalifətdə olarkən hökumətləri məsuliyyətə cəlb edə bilərlər. Vətəndaşlar siyasi partiyalara qoşulduqda, könüllü olaraq vaxtlarını sərf etdikdə, pul ianə etdikdə və liderlərinə səs verəndə onlar öz elementar demokratik hüquqlarından istifadə etmiş olurlar. Vətəndaşların siyasi partiyalarda iştirakı unikal üstünlüklər, o cümlədən siyasət seçimlərinə təsir etmək, siyasi liderləri seçmək və cəlb etmək və seçkilərdə iştirak etmək imkanları təklif edir. Müasir siyasi partiyaların tam formalaşması 17-19-cu əsrlərdə Qərbi Avropa(İngiltərə,Fransa) və ABŞ-da olmuşdur.İlk siyasi partiyaların yaranmasından danışarkən onu qeyd etmək lazımdır ki,ilk kütləvi siyasi partiya 1861-ci ildə İngiltərədə yaranmış "Seçkiləri qeydə almağın liberal yoldaşlığı" partiyası olmuşdur.Bundan sonra 1863-cü ildə Almaniyada "Ümumalman fəhlə ittifaqı" partiyası meydana gəlmişdir.Həmin dövrdən etibarən kütləvi siyasi partiyaların yaranması bir neçə amillə şərtləndirilir:Siyasətdə iştirak üçün ümumi səsvermə hüququnun yayılması;fəhlə sinifinin mütəşəkkil inkişafı.Bütün bunlar onu deməyə əsas verir ki,partiyalar ilk əvvəllər müəyyən sosial təbəqələrin mənafeyinin ifadəsi üçün yaradılmışdır.Məhz bu partiyaların yaranmasının kütləvi hal alması tədricən yeni seçici qruplarını cəlb etməyə başlamışdır.

Lakin bəzi ölkələrdə siyasi partiyalar vətəndaşların iştirak hüququna hörmət etmir və seçicilər qarşısında hesabat vermirlər.Bu tip partiyalar adətən təkpartiyalı sistemlərdə mövcud olur. Təkpartiyalı sistemin üç tarixi forması olmuşdur: kommunist, faşist və daha az inkişaf etmiş ölkələrdə rast gəlinən.

Kommunist modeli-20-ci əsrin kommunist ölkələrində partiya şəhər fəhlə sinfinin və onunla birləşmiş digər işçilərin (kəndlilərin, ziyalıların və s.) əsas silahı sayılırdı. Onun rolu proletariat diktaturası adlanan kapitalizmlə xalis sosializm arasında keçid mərhələsində sosialist rejiminin qurulmasına kömək etmək idi. Partiyanın dəqiq rolunun dərk edilməsi dövlətin təkamülü haqqında marksist konsepsiyanın qiymətləndirilməsini tələb edir. İstehsal vasitələri üzərində xüsusi mülkiyyətə əsaslanan ölkələrdə dövlətin gücü, marksist nöqteyi-nəzərdən, nəzarət edən kapitalistlərin maraqlarını təmin etmək üçün istifadə olunur. İnqilabın birinci mərhələsində dövlətin gücü qırılır. Bununla belə, əksinqilabın qarşısını almaq və kommunizmə keçidi asanlaşdırmaq üçün hələ də gücdən istifadə etmək lazımdır, bu mərhələdə artıq məcburiyyətə ehtiyac qalmayacaq. Beləliklə, partiya, əslində, proletariat diktaturası dövründə, daha doğrusu, proletariat adına partiya diktaturası dövründə dövlətin məcburedici funksiyalarını öz üzərinə götürür.

Bütün kommunist ölkələrində partiyanın strukturu əsasən onun möhkəm idarə olunması və eyni zamanda xalq kütlələri ilə əlaqə saxlaması zərurəti ilə müəyyən edilirdi. Partiya üzvləri ən fəal və siyasi şüurlu üzvləri olan geniş ictimaiyyətin bir hissəsi idi. Onlar hər yerdə mövcud olan partiya hüceyrələri şəbəkəsi vasitəsilə kütlələrlə əlaqə saxlayırdılar. Partiya liderləri beləliklə,

həmişə "kütləni dinləyirdilər" və kommunikasiya şəbəkəsi hər iki istiqamətdə işlədiyi müddətcə, kütlə həmişə partiya liderlərinin qərarlarından xəbərdar olurdu.

Partiya xalqla partiya liderləri arasında daimi əlaqə vasitəsi olmaqla yanaşı, həm də təbliğat vasitəsi idi. Siyasi təlqin kommunist partiyalarının sağ qalması üçün mühüm əhəmiyyət kəsb edirdi və ona çoxlu resurslar ayrılırdı. Təlqin təlim məktəblərində, "maarifləndirmə" kampaniyaları, senzura və mütəşəkkil dində ruhanilərin roluna bənzər rol oynayan yaraqlıların yorulmaz səyləri ilə həyata keçirildi. Beləliklə, partiya pravoslavlığın qoruyucusu idi və onu qınamaq və xaric etmək səlahiyyətinə sahib idi.

Ənənəvi kommunist modelində real gücə rəsmi dövlət iyerarxiyası deyil, partiya iyerarxiyası malikdir. Partiyanın birinci katibi rejimin ən mühüm fiqurudur və partiya rəhbərliyinin bir şəxsin və ya bir neçə şəxsin əlində olmasından asılı olmayaraq, partiya siyasi hakimiyyətin mərkəzi olaraq qalır. Çin bu modelə misaldır.

Lakin 20-ci əsrin sonlarına yaxın Avropada kommunist modeli güc mərkəzinin xalq tərəfindən seçilən dövlət iyerarxiyasına doğru dəyişməsi ilə dəyişməyə başladı. Kommunist liderlərin gənc nəsli, partiyanın hökumətin, xüsusən də iqtisadiyyatın səmərəsiz, reaksiyasız və hökmran idarəçiliyini açıq şəkildə tənqid edərək, Leninin ilkin demokratik mərkəzçilik və sosializm konsepsiyalarına qayıdış axtarırdılar. Bəzi ölkələrdə demokratik konsepsiyalar önə çəkildi və konstitusiya düzəlişləri partiyanın rəsmi nəzarətini ortadan qaldıraraq, çoxpartiyalı sistemə yol açdı. Qlasnost kimi siyasi islahatlara baxmayaraq, həqiqətən rəqabətə davamlı partiyalar keçmiş Sovet İttifaqında və Şərqi Avropada kommunizmin süqutundan sonra yarandı.

Faşist modeli-Təkpartiyalı dövlətdə faşist partiyaları heç vaxt analoji vəziyyətdə kommunist partiyaları qədər mühüm rol oynamayıb. İtaliyada Faşist Partiyası heç vaxt rejimin ən vacib elementi olmayıb və onun təsiri çox vaxt ikinci dərəcəli olub. İspaniyada Falanj heç vaxt həlledici rol oynamayıb və Portuqaliyada Milli Birlik hətta diktator Antonio Salazarın gücünün zirvəsində belə çox zəif təşkilat idi. Yalnız Almaniyada Milli Sosialist Partiyası dövlətə böyük təsir etdi. Amma sonda Adolf Hitlerin diktaturası onun şəxsi ordusundan, partiya daxilində ayrıca bir element təşkil edən və kənar təsirlərə qapalı olan SS (Şutzstaffel) və dövlət təşkilatı olan Gestapo-dan asılı idi. Təkpartiyalı dövlətdə faşist partiyası ideoloji funksiyadan çox polis və ya hərbi funksiyaya malikdir.

Həm Almaniyada, həm də İtaliyada faşist partiyaları hakimiyyətə gəldikdən sonra tədricən xalqla hökumət arasında əlaqə saxlamaq funksiyasını yerinə yetirməyi dayandırdılar, bu funksiyanı adətən birpartiyalı vəziyyətdə partiya yerinə yetirir. Partiyanın azğın üzvlərini sıxışdırmaqla yanaşı, özünə qapanma tendensiyası müşahidə etmək mümkün idi. Partiyanın yenilənməsi daha sonra gənclər təşkilatlarından işə götürülməklə təmin olundu, onlardan ən fanatik elementlər, çox erkən yaşlarda başlayan mərhələli seçim prosesinin məhsulu partiyaya daxil oldu. Partiya buna görə də qapalı nizam yaratmağa meyl etdi.

Az inkişaf etmiş ölkələrdəki tək partiya-Az inkişaf etmiş ölkələrdə hakimiyyətdə olan bəzi kommunist partiyaları sənayeləşmiş ölkələrdəki həmkarlarından ciddi şəkildə fərqlənmirdilər. Bu, şübhəsiz ki, Vyetnam Kommunist Partiyasına və Şimali Koreyanın İşçi Partiyasına aiddir. Bununla belə, həmişə elə ölkələr olub ki, orada hakimiyyətdə olan tək partiya ənənəvi Avropa həmkarı kimi səciyyələndirilə bilməz. Bu müşahidə, məsələn, Misirdəki keçmiş Ərəb Sosialist İttifaqına və Tunis siyasətində hökmranlıq etdiyi dövrdə (1956-2011) Demokratik Konstitusiya Mitinqi (keçmiş Neo-Destour Partiyası) üçün tətbiq edilmişdir.

Bu partiyaların əksəriyyəti kommunizmdən çox uzaqda və bəzi hallarda kommunizmin alovlu düşmənləri olmaqla az-çox sosialist və ya ən azı mütərəqqi olduğunu iddia edirdi. Camal Abdel Nasser Misirdə mötədil və millətçi sosializm qurmağa cəhd etdi. Tunisdə Demokratik Konstitusiya Mitinqi sosialistdən daha çox respublika xarakterli idi və Nasirlikdən daha çox

Mustafa Kamal Atatürk dövründə Türkiyədə həyata keçirilən islahatlar nümunəsindən ilhamlanmışdır. Sahara-altı Afrikada tək partiyalar tez-tez sosialist olduqlarını iddia edirlər, lakin bir neçə istisna olmaqla, praktikada nadir hallarda olurlar.Az inkişaf etmiş ölkələrdə tək partiyalar nadir hallarda kommunist partiyaları qədər yaxşı təşkil olunur. Türkiyədə Cümhuriyyət Xalq Partiyası kütləvi partiyadan daha çox kadr partiyası idi. Misirdə kütlələrin psevdopartiyası çərçivəsində peşəkar siyasətçilər özəyini təşkil etmək lazım idi. Sub-Sahara Afrikasında partiyalar çox vaxt həqiqətən kütləvi idi, lakin üzvlük ilk növbədə liderə şəxsi bağlılıq və ya qəbilə sadiqliyi ilə motivasiya olunur və təşkilat adətən çox güclü deyil. Məhz təşkilatlanmanın bu zəifliyi belə partiyaların hakimiyyətdə oynadığı ikinci dərəcəli rolu izah edirdi.

Bəzi rejimlər isə partiyanın rolunu maksimum dərəcədə inkişaf etdirməyə çalışıblar. Atatürkün Türkiyədəki siyasəti bu baxımdan maraqlı bir nümunə idi. Həmçinin Nasirin məqsədi Ərəb Sosialist İttifaqının təsirini artırmaq və bununla da onu rejimin dayağına çevirmək idi. Bu proses ordu tərəfindən dəstəklənən və ya qəbilə ənənələrinə və ya xarizmatik liderliyə əsaslanan ənənəvi diktaturadan bir siyasi partiya tərəfindən dəstəklənən müasir diktaturaya doğru hərəkət etmək cəhdini ifadə etməsi baxımından əhəmiyyətlidir. Təkpartiyalı sistemlər diktaturaları bir dominant fiqurun həyatında sağ qalmağa məcbur etməklə onları institutlaşdıra bilər.

ƏDƏBİYYAT

1. M.İsgəndərzadə-Politologiyanın əsasları, Bakı 2012
2. M.Dyuverje-Partiya sistemləri
3. Ali Öztekin-Siyaset Bilimine Giriş, Siyasal Kitabevi, Ankara 2014
4. http://anl.az/down/meqale/kaspi_az/2017/mart/533152.htm
5. https://sesqazeti.az/news/mia/470149.html

TƏKPARTİYALI SİYASİ SİSTEMLƏR VƏ MODELLƏRİ

Yusifli Cavad

XÜLASƏ

Məqalənin əsas mövzusu vahid partiyanın mövcud olduğu ölkələrdə təkpartiyalı siyasi sistemlər, onların özünə məxsus modelləri və onların xüsusiyyətləridir. Təkpartiyalı siyasi sistemlər məqalədə də qeyd edildiyi kimi, avtoritar və diktaturanın mövcud olduğu ölkələrə xasdır. Bu siyasi sistemlərdə adətən vahid partiya hakimiyyəti ələ alaraq ölkəni idarə edir və digər partiyaların fəaliyyəti ya qadağan olunur, ya da hakim partiyadan asılı vəziyyətdə olur. Keçən əsrdə daha geniş yayılan bu tip siyasi sistemlər İtaliya, Almaniya, İspaniya, keçmiş SSRİ-də mövcud olmuşdur. Hal-hazırda Şimali Koreyada da vahid partiya hakimiyyətə nəzarət edir. Təkpartiyalı siyasi sistemlər xalqın rifahından daha çox hakimiyyətdə qalmaq və ona nəzarət etməyə çalışır ki, bu da onların ən mənfi tərəflərindən biri hesab olunur.

ОДНОПАРТИЙНЫЕ ПОЛИТИЧЕСКИЕ СИСТЕМЫ И МОДЕЛИ

Юсифли Джавад

АННОТАЦИЯ

Основная тема статьи однопартийные политические системы в странах с однопартийностью, их собственные модели и их особенности. Однопартийные политические системы, как отмечается в статье, характерны для стран, где существуют авторитаризм и диктатура. В этих политических системах одна партия обычно управляет страной, захватывая власть, а другие партии либо запрещены, либо зависят от правящей партии. Этот тип политической системы, получивший большее распространение в прошлом веке, существовал в Италии, Германии, Испании и бывшем СССР. В Северной Корее правительство теперь контролируется одной партией. Однопартийные политические системы пытаются удержаться у власти и контролировать больше, чем благосостояние людей, что является одним из их негативных аспектов.

ONE-PARTY POLITICAL SYSTEMS AND MODELS

Yusifli Cavad

SUMMARY

The main topic of the article is one-party political systems in countries where there is a single party, their own models and their characteristics. One-party political systems, as noted in the article, are specific to countries where authoritarianism and dictatorship exist. In these political systems, a single party usually rules the country by seizing power, and other parties are either banned or dependent on the ruling party. This type of political system, which was more widespread in the last century, existed in Italy, Germany, Spain and the former USSR. In North Korea, a single party now controls the government. One-party political systems try to stay in power and control the welfare of the people, which is one of their disadvantages.

BEYNƏLXALQ TURİZMİN QİYMƏT ƏMƏLƏGƏLMƏ PROSESİNƏ TƏSİRİ

Lamiyə Müşfiq qızı Hüseynova
BDU-nun Politologiya və sosiologiya kafedrasının magistrantı
lamiyehva@bk.ru

Açar sözlər: beynəlxalq turizm, turist, gəlir, qiymət əmələgəlmə
Ключевые слова: международный туризм, турист, доход, ценообразование
Keywords: international tourism, tourist, income, price formation.

Turizm dünya təsərrüfat fəaliyyətinin mühüm sahəsi olmaqla yanaşı müxtəlif ölkələr arasında mədəni inkişafa və sülhün daha da möhkəmləndirilməsinə müsbət təsir göstərən ən vacib amillərdən biridir. Sülh və turizm bir-birinə sıx bağlı olan məfhumlar hesab edilir. Çünki, sülh olmazsa heç bir turizm hadisəsi baş verə bilməz. Lakin turizmə yalnız dövlətlər arasında olan mədəni əlaqələrin inkişafı kimi deyil, həmçinin iqtisadi əməkdaşlıq forması kimi baxılmalıdır. Bu baxımdan turizm sənayesi ölkənin yeyinti sənayesindən tutmuş tikinti sənayesinə qədər dolayı yolla müsbət mənada təsir göstərə bilir. Qeyd etmək lazımdr ki, dünya ixracat mallarının 5%-i turizm sənayesinin payına düşür [1, səh. 6].

Müasir dünyada bir çox ölkələr vardır ki, onlar yalnız turizm vasitəsilə əlaqələndirilir və turizm olmadan bu ölkələr arasında hər hansı bir əməkdaşlığın olması mümkünsüz hesab edilir.Beynəlxalq turizm sürətlə inkişaf edir və bu inkişaf özünü son illərdə turizmdən əldə edilən gəlirlərlə daha qabarıq şəkildə göstərir. Misal olaraq, 1950-ci ildə turizmdən əldə olunan gəlirlərlə 50 il sonranı müqayisə etsək çox böyük fərqin olduğunu müşahidə edə bilərik. 1950-ci dünya üzrə xarici turizmdən 2.1 milyard dollar, 2000-ci ildə isə 500 milyard dollar qazanc əldə edilmişdir. 50 il ərzində bu dərəcədə böyük bir fərqin yaranması turizmin həqiqətən çox güclü iqtisadiyyat sahəsi olduğunu göstərir. Bütün bunları nəzərə alaraq turizm sənayesinin dünyada neft və neft məhsulları və avtomobil sənayesindən sonra 3-cü yerdə olduğunu söyləyə bilərik. Müasir dünyada Avropanın və ümumilikdə dünyanın bir çox böyük şəhərlərini turistlərsiz təsəvvür etmək mümkün deyil. Bu turist axını ilin müəyyən vaxtlarında xüsusilə yay aylarında baş verir. Bir sıra şəhərlərdə isə yay aylarında turist çoxluğundan yerlilərə rast gəlmək müşkül məsələyə çevrilir.

Beynəlxalq turizmin bu cür sürətli inkişafına təsir edən bəzi amillər vardır ki, bunların ən mühümü isə dünyada insanların gəlirlərinin və məzuniyyət vaxtlarının artmasıdır. Həyat səviyyəsinin yüksəlməsi və daha çox asudə vaxtının yaranması insanların turizmə tələbatını artırır və daha çox mənfəət əldə olunmasına şərait yaradır. Beynəlxalq ölçüdə gəlirləri kənara qoysaq turizm ölkənin xırda təsərrüfat həyatına da müsbət təsir göstərir və yerlilərin gələn turistlərdən pul qazanmasına şərait yaradır. Əgər biz beynəlxalq turizmdən və beynəlxalq turizmin qiymətə təsirindən danışırıqsa, o halda, ölkələrin turizm nöqteyi-nəzərindən, təsnifatlaşdırılmasından bəhs etməliyik. Belə ki, beynəlxalq turizmin prinsiplərinə uyğun olaraq, ölkələr iki müxtəlif qrupa ayrılırlar. Turistləri qəbul edən və turistləri göndərən ölkələr. Turistləri göndərən ölkələrin özləri də turist qəbul edirlər. Amma qəbul edən ölkələrlə müqayisədə turist sayı az olduğundan bu kimi ölkələr turist qəbul edən ölkələr qrupuna aid edilmir.Turist göndərən ölkələr qrupuna Almaniya, Böyük Britaniya, ABŞ, Danimarka, Belçika, və s. kimi ölkələr daxildir. Amma tursit qəbul edən ölkələr siyahısına əsasən Qərbi Avropa ölkələri, Fransa, İspaniya, İtaliya, Yunanıstan kimi ölkələr, həmçinin Avropadan kənarda yerləşən Türkiyəni də əlavə etmək olar. Bu gün, yuxarıda da qeyd etdiyimiz kimi, yerli turizm sektorunun inkişafı beynəlxalq turizmə inteqrasiyanın nəticəsi kimi qiymətləndirilir.

İki qrup ölkələr arasındakı turist mübadiləsi, turizm sektorunun inkişafı ilə yanaşı, həmçinin qəbul edən ölkənin iqtisadiyyatının digər sahələrinə də təsirsiz ötüşmür. Bu da öz növbəsində istər daxili bazarda istərsə də beynəlxalq turizmdə qiymətlərə də öz təsirini göstərir. Göndərən ölkədə fəaliyyət göstərən yerli turizm orqanları, müəssisələri, ələxsus da turizm şirkətlərindən tutmuş,qəbul edən ölkədəki ən son turizm xidmətlərinə qədər, turistin qiymətlər və xərclər barədə məlumatı olur. Səyahət edəcəyi ölkələr arasında hansı ölkədəki xərclərinin büdcəsinə uyğun olduğunu gördükdən sonra turist rahat şəkildə seçimini edə bilir. Ona görə də, turistik ölkələrin çoxunda xidmətlərin qiymətləri arasında o qədər də böyük bir fərq olmur. Beynəlxalq turizmdə önəmli nüanslardan biri də, nəqliyyat xərcləridir. Ona görə də hava nəqliyyatına üstünlük verən turistlər daha çox, ucuz başa gələn hava yollarının xidmətlərinə üstünlük verirlər. Bəzən göndərən və qəbul edən ölkələr arasında qarşılıqlı anlaşmaya əsasən hava yollarının qiymətlərində güzəşt kompaniyalarına başlanılır. Qiymətdə kiçik bir düşmə, ölkəyə daha çox turistin axınına səbəb olur. Ümumiyyətlə son zamanlar, dünya turizm siyasətində çox yaxşı bir tendensiya formalaşıb. Turizm potensialı olan ölkələr ölkədaxili digər sektorların inkişafı ilə yanaşı paralel olaraq turizm sektorunun inkişafı üçün önəmli islahatlar həyata keçirir, investisiyalar ayırırlar. Nümunə olaraq, günü-gündən inkişaf edən Azərbaycan Respublikasını göstərə bilərik. Kifayət qədər, təbi resurslara malik olan ölkəmizdə həmçinin turizm potensialı da yüksək səviyyədədir.

Ölkə başçısı, İlham Əliyevin turizm sektorunun inkişafı ilə bağlı imzaladığı mühüm sərəncamları qeyd etmək yerinə düşərdi. Son zamanlara qədər neft ölkəsi kimi tanınan Azərbaycan, son zamanlar həyata keçirdiyi islahatlar sayəsində qeyri-neft sektorunun, xüsusilə turizm sektorunun inkişafı istiqamətində önəmli irəliləyişlər əldə etmişdir. Bu tendensiya bugün nəinki Azərbaycanda, o cümlədən müxtəlif dünya ölkələrində tətbiq olunmaqdadır. Heç təsadüfi deyil ki, Ümumdünya Turizm Təşkilatının 2016-cı ilə qədər göstərdiyi statistika hətta Afrikada belə, turizm sektorunun 3 dəfə inkişaf etdiyini göstərməkdədir. Bunun əsasında da, son illərdə turistlər tərəfindən təşkil olunan beynəlxalq səyahətlər və bunun nəticəsində əldə olunan gəlirlər, dünyanın bütün regionlarına müsbət mənada öz təsirini göstərməkdədir. Təbii ki, bunun əsasında aparılan islahatlar və beynəlxalq turizmdəki qiymət siyasəti dayanır.

Hal hazırda, səyahət etməyi planlaşdıran turistlərin planları onların mövcud maddi vəziyyətləri ilə birbaşa əlaqəlidir. Beynəlxalq turizmdə qiymət dəyişməsinə və ölkənin turizmdən gələn gəlirlərinin azalmasına, səbəb olacaq bir çox amillər mövcuddur. Bunlardan ən başlıcası bölgədə və ya regionda baş verən geosiyasi vəziyyətlə birbaşa bağlıdır. Məsələn, 2015-ci ildə Türkiyə və Rusiya arasında başlayan "təyyarə böhranı" Türkiyənin tuizmdən gələn gəlirlərinə ciddi şəkildə təsir etmiş, eyni zamanda Rusiyadan və Müstəqil Dövlətlər Birliyindən (MDB) gələn turistlərin sayında kəskin azalma müşahidə olunmuşdur. Həmin böhrana qədər, adını qeyd etdiyimiz ölkələrdən gələn turistlərin sayı 9 milyona nəfərə yaxın idi. Bu rəqəm Türkiyəyə gələn turist sayısının təxminən ¼-ni təşkil edirdi. Statistikaya görə, böhranın ilk 8 ayında bu ölkələrdən gələn turistlərin sayında 90 faiz azalma müşahidəedilmişdir [2].

Bu kifayət qədər ciddi bir rəqəmdir. Əlbəttə ki, bu hadisə Türkiyə turizminə təsirsiz ötüşmədi. Belə ki, Türkiyə və Rusiya arasındakı sərbəst viza rejimi aradan qaldırıldı, başda qida məhsulları olmaqla Türkiyədən gələn birçox məhsulların Rusiyaya daxil olması qadağan edildi. Bundan əlavə olaraq Türkiyəyə satılan bütün turlar dayandırıldı və çarter uçuşları ləğv edildi. Rusiyada fəaliyyət göstərən türk şirkətlərinin fəaliyyəti dayandırıldı və bunun kimi bir çox sanskiyalar tətbiq edildi. Bütün bunlar öz növbəsində Türkiyənin turizm sektoruna o cümlədən Türkiyə iqtisadiyyatına çox ciddi zərbə vurdu. İqtisadçı ekspertlərin proqnozlarına əsasən böhrandan bir il sonra yəni 2016-cı ildə, 6.5 milyon nəfər turist sayı azaldı, və eyni zamanda 7.5 milyard dollar məbləğində Türkiyə turizm sektoruna ziyan dəydi. Bundan əlavə Türkiyədə o zamanlar tez-tez

baş verən terror hadisələri də Türkiyənin turizm sektoruna çox böyük zərbə idi. Bu da öz növbəsində, mövcud turizm sektorundakı qiymətlərə təsir etdi.

Türkiyə hökuməti, böhran vəziyyətindən çıxmaq üçün yeni qiymət siyasəti aparmaq məcburiyyətində qaldı. Çünki, böhrandan əvvəl Türkiyəyə üz tutan turistlər, artıq istiqamətlərini dəyişərək başqa ölkələrə üz tuturdular. Yeni qiymət siyasəti, yenidən Türkiyəyə turist axının artırmalı idi. Çünki, turistlərin daha çox axın etdiyi ölkələrdə mövcud turizm xidmətlərindəki qiymətlər avtomatik olaraq bahalaşmağa başlayır, və nəticədə turist qəbul edən ölkələr daha çox qazanmağa başlayırlar. Rəqabətdə olan ölkələr, hansı ki, müəyyən səbəblərə görə mövcud turist potensialını itirmək üzrə olanda o zaman, qiymət siyasəti tətbiq edirlər və digər istiqamətə üz tutan turist kütləsini yeniden geri qaytarmaq üçün təklif etdikləri turizm xidmətlərinin qiymətlərində endirimlər tətbiq edirlər. Yuxarıda qeyd etdiyimiz nümunədə göründüyü kimi, bölgədə baş verən geosiyasi proseslər beynəlxalq turizm siyasətinə, turizmin qiymət siyasətinə kifayət qədər təsir edə bilir.

Beynəlxalq turizmin qiymətə və ümumiyyətlə dünyada ön plana keçməsi, o sahədən gəlirlərin də artmasına gətirib çıxarmışdır. "Statista" statistik portalının yayımladığı məlumatlara baxsaq, görərik ki, son zamanlar dünyada turizmin çəkisi xeyli artmışdır. Statistikaya əsasən 2016-cı ildə turizm sənayəsi 7.6 trilyard dollarla dünyanın ən önəmli sənayə sahələrindən birinə çevrilməyi bacarmışdır.Bugün dünya turizm bazarında nəhəng ölkələrin sayı kifayət qədər olmasına baxmayaraq, hal-hazırda turizmi ölkənin əsas sənaye sahələrindən birinə çevirməyə cəhd edən kifayət qədər sayda ölkələr mövcuddur. Demək olar ki, dünyada turizm sənayesi hər il daha da sürətlə böyüməkdədir. Təkcə 2005-2015-ci illər arasında dünyada turist sayı 528 milyon nəfərdən 1.19 milyard nəfərə qədər çatmışdır. Bu olduqca yüksək göstəricidir.Əlbəttə ki, bütün bu kimi amillər beynəlxalq turizmin qiymətlərə təsir etməsində, eyni zamanda qiymətlərin də beynəlxalq turizmə təsirində əhəmiyyətli rol oynayır. Hesablamalar onu göstərir ki, 2030-cu ilə qədər, dünyadakı turist sayı 1.8 milyard nəfəri keçəcək.

Avropa zonası dünyada ən çox turist qəbul edən, eyni zamanda ən çox turist göndərən zona hesab olunur.Belə ki, təkcə 2015-ci ildə 607 milyon nəfər turist qəbul etmişdir. Bu göstərcilərlə, Avropa, Asiya-Pasifik regionundan iki dəfə qabaqdadır. "STATİSTA"-nın statistik hesablamalarına görə, 2015-ci ildə, dünyadakı turizm xərcləri 1.26 trilyon dollardan ibarət olmuşdur. Hansı ki, bu rəqəm 2005-ci il ilə müqayisədə 2 dəfə çoxdur. Bu rəqəmlər, dünyada turizm sənayesinin son zamanlar nə dərəcədə sürətlə inkişaf etməsindən xəbər verir. 2015-ci ildə Çin dünyada turizm xərclərinə görə birinci yerdə olmuşdur, ardıcıl olaraq, ABŞ ikinci yer, Almaniya isə 3-cü yerləri bölüşdürüblər. Buradan da göründüyü kimi, dünyada sənaye ölkəsi kimi tanınan, Çin, ABŞ, və Almaniya kimi ölkələr, sənayenin yüksək səviyyədə inkişafına, güclü iqtisadiyyata sahib olmalarına baxmayaraq, ölkələrində turizm sektorunu da digər sektorlarla yanaşı şəkildə inkişafı üçün daima çalışırlar. Bütün bunlara baxmayaraq, 2016-cı ildə turistlərin ən çox pul xərclədiyi yer Dubay olmuşdur. Belə ki, 2016-cı ildə Dubaya təşrif buyuran xarici turistlər 31.3 milyard dollardan çox pul xərcləmişlər. Bu rəqəm, Dubayın turistlərdə nə qədər maraq oyatdığının göstəricisidir. Yuxarıda qeyd etdiyimiz statistik rəqəmlər əslində turizmin artıq qloballaşdığını, qlobal bir hadisəyə çevrildiyini sübut edir. Bu halda, beynəlxalq turizm mövcud qiymətlərə rahat şəkildə təsir edə bilir. Məsələn hər hansı bir turizm məhsulunun ABŞ-da dəyişməsi, istənilən halda az – çox digər ölkələrdə də qiymət dəyişiminə səbəb ola bilir [3, səh. 26].

Burda ən əsas məsələlərdən biri də, dünyanın əksər yerlərində turizm xidmətlərinin ABŞ dolları ilə göstərilməsindədir. Valyutada azacıq qalxma və ya enmə, digər ölkələrdə də bu kimi halların yaşanmasına gətirib çıxara bilər. Hətta bu kimi vəziyyətlərdə, milli valyutası olan ölkələrin demək olar ki hamısı əziyyət çəkə bilirlər. Ona görə də, bəzi halları nəzərə almaqla

deyə bilərik ki, turizm sənayesinin qloballaşması, yeni turizm bazarına daxil olan ölkələrdə heç də, yaxşı nəticələnməyə bilər.

ƏDƏBİYYAT

1. "Beynəlxalq turizmin coğrafiyası" – C.A. Məmmədov, H.B. Soltanova, S.H. Rəhimov, Bakı, 2002
2. http://www.hurriyet.com.tr/ucak-krizinin-yildonumunde-rus-turist-kaybi-yuz-40285807
3. "Стратегический менеджмент в туризме: современный опыт управления"– В.А.Квартальнов, Москва, 1997

BEYNƏLXALQ TURİZMİN QİYMƏT ƏMƏLƏGƏLMƏ PROSESİNƏ TƏSİRİ

Hüseynova Lamiyə

XÜLASƏ

Turizm dünya iqtisadi fəaliyyətinin mühüm sahəsi olmaqla yanaşı, mədəni inkişafa və müxtəlif ölkələr arasında sülhün daha da möhkəmlənməsinə müsbət təsir göstərən ən mühüm amillərdən biridir. Sülh və turizm bir-biri ilə sıx əlaqəli anlayışlar hesab olunur. Çünki sülh olmadan heç bir turizm tədbiri baş tuta bilməz. Bununla belə, turizmə təkcə dövlətlər arasında mədəni əlaqələrin inkişafı kimi deyil, həm də iqtisadi əməkdaşlıq forması kimi baxmaq lazımdır.

ВЛИЯНИЕ МЕЖДУНАРОДНОГО ТУРИЗМА НА ПРОЦЕСС ЦЕНООБРАЗОВАНИЯ

Гусейнова Ламия

АННОТАЦИЯ

Помимо того, что туризм является важной сферой мировой экономической деятельности, он является одним из важнейших факторов, оказывающих положительное влияние на культурное развитие и дальнейшее укрепление мира между разными странами. Мир и туризм считаются тесно связанными понятиями. Потому что без мира не может состояться ни одно туристическое мероприятие. Однако туризм следует рассматривать не только как развитие культурных связей между государствами, но и как форму экономического сотрудничества.

THE IMPACT OF INTERNATIONAL TOURISM ON THE PRICING PROCESS

Huseynova Lamiya

SUMMARY

In addition to being an important area of world economic activity, tourism is one of the most important factors that have a positive impact on cultural development and the further strengthening of peace between different countries. Peace and tourism are considered to be closely related concepts. Because without peace, no tourism event can take place. However, tourism should be considered not only as the development of cultural ties between states, but also as a form of economic cooperation.

ENERJİ TƏHLÜKƏSİZLİYİ ANLAYIŞI

Səbzəliyev Elsevər Mətləb oğlu
BDU-nun İctimai siyasət ixtisaslaşması üzrə II kurs magistrantı
els.sebz@gmail.com

Açar sözlər: təhlükəsizlik, enerji, ətraf mühit, enerji təhlükəsizliyi.
Ключевые слова: безопасность, энергетика, окружающая среда, энергетическая безопасность.
Key words: security, energy, environment, energy security.

Enerji təhlükəsizliyini müasir dünya dövlətlərinin qarşılarına məqsəd qoyduğu əsas məsələlərdən biri kimi xarakterizə etmək olar. Ancaq enerji təhlükəsizliyi anlayışına hələ tam nəzər salmamışdan əvvəl təhlükəsizlik, beynəlxalq təhlükəsizlik və milli təhlükəsizlik anlayışlarını qısa da olsa nəzərdən keçirək.

"Təhlükəsizlik" anlayışı 17-18-ci əsrlərdən etibarən dünyanın demək olar ki, bütün ölkələrində dövlətin siyasi və iqtisadi fəaliyyətində əsas məqsəd kimi qiymətləndirilmişdir. Vaxtı ilə Adam Smit və David Rikardo təhlükəsizliyin sosial-iqtisadi mahiyyətini təbii yaranışın təkamül xarakter daşıyan inkişafı kimi xarakterizə edirdilər. Karl Marks isə cəmiyyətin təhlükəsizliyi məsələsinə maddi istehsal və istehlak aspektlərindən yanaşmışdır.

XX əsrdə təhlükəsizlik problemini araşdıran ingilis iqtisadçı V.Pareto qeyd edir ki, bu dövrdə təhlükəsizlik qlobal xarakter daşıyır və özündə ən ümumi olaraq üç təhlükəsizlik elementini birləşdirir: siyasi sabitlik; iqtisadi inkişaf; ölkənin müdafiə qabiliyyəti. Bunların da siyasi, iqtisadi və hərbi təhlükəsizliyi formalaşdırdığını görmək olar (1, səh. 12).

"Beynəlxalq təhlükəsizlik" də məhz dövlətlər arası əlaqələrin genişlənməsi, qloballaşma proseslərinin durmadan sürətlənməsi nəticəsində meydana çıxmışdır. XX əsr boyu – xüsusən İkinci Dünya Müharibəsindən sonra yaranan beynəlxalq təşkilatlar, birliklər, ittifaqlar, bağlanan beynəlxalq müqavilələr, anlaşmalar və sazişlər, bunlar hər biri beynəlxalq təhlükəsizliyin təmin olunması istiqamətində vasitələr hesab oluna bilərlər. Belə ki, müasir dünyada bir dövlət digər dövlətlərlə qarşılıqlı əlaqə və asılılıqda fəaliyyət göstərdiyindən dünyanın hər hansı bir hissəsində yaranan problemlər mütləq ki, digər dünya dövlətlərinə, hətta regionlarına belə təsirdən yan keçmir.

"Milli təhlükəsizlik" anlayışı isə dövlətlərin fərdi olaraq öz təhlükəsizliklərini təmin etmək istiqamətində qurduğu planı, atdığı addımları və onun nəticəsini əks etdirir. Əslində beynəlxalq təhlükəsizliyin təmin olunmasının da elə birinci mərhələsi dünya dövlətlərinin öz milli təhlükəsizliklərini təmin etməsindən keçir. Ölkələrin əsas funksional fəaliyyət obyektini təşkil edən milli təhlükəsizlik termini ilk dəfə hərbi məzmunda ABŞ prezidenti Teodor Ruzvelt tərəfindən (1904) siyasi leksikona daxil edilmişdir (2, səh. 19).

Milli təhlükəsizlik anlayışına "Milli təhlükəsizlik haqqında" Azərbaycan Respublikası Qanununda bu cür şərh verilmişdir: "Azərbaycan Respublikasının milli təhlükəsizliyi dövlət müstəqilliyinin, suverenliyinin, ərazi bütövlüyünün, konstitusiya quruluşunun, xalqın və ölkənin milli maraqlarının, insanın, cəmiyyətin və dövlətin hüquq və mənafelərinin daxili və xarici təhdidlərdən qorunmasının təmin edilməsidir". Burada milli təhlükəsizliyin əsas obyektləri kimi insan, cəmiyyət və dövlət göstərilir (3, maddə 1,2).

Təhlükəsizliyin növlərindən biri də iqtisadi təhlükəsizliyin tərkib elementi hesab olunan enerji təhlükəsizliyidir. Enerji təhlükəsizliyinə müxtəlif ədəbiyyatlarda müxtəlif cür təriflər verilməkdədir. Ancaq ən ümumi mənada enerji təhlükəsizliyi ölkənin, onun ayrı-ayrılıqda

vətəndaşlarının, cəmiyyətin, iqtisadiyyatın yanacaq və enerji təchizatı vasitəsilə daxili və xarici təhdidlərdən müdafiə oluna bilməsi nəzərdə tutulur. Xarici təhdid dedikdə adətən bura müxtəlif siyasi və geosiyasi dəyişikliklər, xarici beynəlxalq iqtisadiyyatda meydana gələ biləcək makroiqtisadi problemlər, daxili təhdid dedikdə isə ölkənin milli enerji sektoru ilə bağlı yarana biləcək birbaşa problemlər nəzərdə tutulur.

Azərbaycan Respublikası Prezidentinin İctimai-Siyasi məsələlər üzrə köməkçisi olmuş, professor Ə. Həsənova görə enerji təhlükəsizliyinin təmin olunmasının əsas prinsipləri aşağıdakılardır:

- Dövlətin strateji və mühüm obyektlərinin enerji ilə etibarlı şəkildə təmin olunması;
- İstifadə olunmuş yanacaq ehtiyatlarının yerinin doldurulması;
- Yanacağın, həmçinin enerji növlərinin diversifikasiyası, yəni şaxələndirilməsi;
- Enerji istifadəsində ekoloji tələblərin nəzərə alınması;
- Enerji ehtiyatlarından kortəbii, səmərəsiz istifadənin qarşısının alınması;
- Daxili və xarici bazarlarda enerji ehtiyatlarının lazımi gəlir gətirməsi və səmərəli ixrac üçün azad iqtisadi şəraitin yaradılması və s. (4)

Sadaladığımız bu prinsiplər enerji təhlükəsizliyinin təmin olunmasını şərtləndirən əsas amillərdir, ancaq biz enerji təhlükəsizliyinin təmin olunması ilə hansı məqsədlərin həyata keçəcəyinə və qarşıda qoyulan vəzifələrə də nəzər salmalıyıq. Bu halda enerji təhlükəsizliyinin əsas mahiyətini dərk etmək, onun dövlət və cəmiyyət həyatı üçün nə qədər əhəmiyyətli olduğunu qiymətləndirmək mümkündür. Enerji təhlükəsizliyi siyasətinin əsas məqsədi onun xüsusiyyətlərinin keyfiyyətcə bu yeni səviyyələrə nail olmasıdır:

- Yanacaq-enerji kompleksinin yüksək keyfiyyətli enerji daşıyıcılarının daxili və xarici bazarlara çıxışının təmin edilməsi;
- İqtisadi fəaliyyət sahələrində enerji resurslarından səmərəli istifadə olunması;
- Enerji sektorunun xarici-iqtisadi, texnogen və təbii təhlükələrə davamlılığı (9, səh. 19).

Dünya dövlətləri arasında münasibətlər dəyişdikcə və başqa məcralara keçdikcə təhlükəsizlik anlayışı da öz ənənəvi çərçivələrindən çıxır və təhlükəsizliyin yeni konsepsiyası ilə əvəzlənir. Ənənəvi təhlükəsizlik konsepsiyasında hərbi və siyasi təhlükəsizlik ön mövqe tuturdusa, məhz həmin yeni təhlükəsizlik konsepsiyasında iqtisadi təhlükəsizlik, ələlxüsus da enerji təhlükəsizliyi ümdə yerdə qərarlaşır. Belə ki, siyasiləşmiş əmtəələr, enerji ehtiyatlarının ticarəti uğrunda durmadan artan münaqişələr bu sahədə daha dərin tədbirlərin görülməsini vacib qılır. Siyasiləşmiş əmtəə dedikdə, burada neft məhsulları nəzərdə tutulur (11, səh.29).

Beynəlxalq Enerji Agentliyi enerji təhlükəsizliyini kəsintisiz olaraq təmin oluna bilən enerji mənbələrinin varlığı olaraq qəbul etməkdədir. Ancaq politoloqlar və akademiklər tərəfindən baxıldığında enerji təhlükəsizliyi çoxölçülü və özündə çox böyük məna kəsb edən bir anlam olaraq qarşımıza çıxmaqdadır. Həmçinin, enerji təhlükəsizliyi müxtəlif dövlətlər üçün müxtəlif mənalar ifadə etməkdədir. Belə ki, hər bir ölkə özü üçün enerji təhlükəsizliyi planı cızır və bu zaman ölkənin enerji sahəsində qısa və uzun müddətli məqsədləri ön plana çıxır.

Məsələn hər hansı bir ölkə üçün bəlli bir müddətdə enerji təhlükəsizliyi əlində olan və istehsal edə biləcəyi doğru enerji ehtiyatlarının ətraf mühitin sağlamlığı nəzərə alınmaqla istifadəsi və ya uzunmüddətli enerji sazişlərinin imzalanması ilə xaricdən enerji ehtiyatlarının idxalını qaranti altına alması ikən, digər bir ölkə enerji ehtiyaclarını tamamən öz yerli potensialından istifadə hesabına qarşılaya biləcək bir şəkildə planlaşdıra bilər. Belə bir misal çəkmək olar ki, öz siyasətində ətraf mühitin təhlükəsizliyinə daha çox önəm verən ölkələrin enerji potensialında nüvə enerjisindən istifadəyə ayıracaqları yer böyük ehtimalla digər dövlətlərlə müqayisədə daha az olacaqdır (5).

Qısa bir müddət ərzində öz enerji təhlükəsizliyini təmin etməyə çalışan ölkələr isə qəfil baş verə biləcək dəyişikliklərə qarşı dözümlülüyü formalaşdırmaq üçün müxtəlif yollara baş vura bilirlər. Misalçün, təbii qaz idxalatı satın aldığı ölkə tərəfindən gözlənilməz bir şəkildə aşağı salınan bir ölkə diplomatik və iqtisadi əlaqələrini işə salaraq alternativ yollarla yeni tədarükçülər tapmağa cəhd edəcəkdir. Eyni vəziyyətdə başqa bir ölkə isə bu cür soyuqqanlı davranmaya, hərbi güc tətbiq etməyə çatacaq dərəcədə sərt üsullara əl ataraq ixracatçı ölkəni özünə qaz satmağa məcbur etməyə çalışa bilər (12, səh 1).

Enerji təhlükəsizliyi sahəsində yaşanan mövcud tendensiyalar onu göstərir ki, bu təkcə milli təhlükəsizliyin bir hissəsi olmaqla yekunlaşmır, həmçinin milli və dövlət səviyyəsini aşaraq beynəlxalq zəmində təhlükəsizliyin təmin olunmasını şərtləndirir. Bu da özlüyündə yalnız enerji mənbələrinin tükənməsi ehtimalı ilə təhlükənin yaranmasını birləşdirmir, həm də dövlətlərarası siyasi və diplomatik münasibətlərin lazımi məcrada inkişafını, müharibələrin və münaqişələrin olmamasını, ikitərəfli və çoxtərəfli siyasi əlaqələrin geniş müstəvidə qurulmasını və durmadan inkişafını etiva edir. Belə ki, dövlət bu münasibətləri nə dərəcədə yaxşı qurmuş olsa, onun gələcəkdəki potensial enerji partnyorlarının sayı da artmış olacaq.

ƏDƏBİYYAT

1. Ramin İsayev, "Azərbaycan yanacaq-enerji kompleksinin qlobal enerji təhlükəsizliyi sisteminə inteqrasiyası məsələlərinin tədqiqi" Bakı – 2012;
2. Əfsər Sadıqov, "Qlobal enerji təhlükəsizliyi və beynəlxalq hüquq" Bakı – 2008;
3. "Milli təhlükəsizlik haqqında" Azərbaycan Respublikasının Qanunu, Bakı şəhəri, 29 iyun, 2004-cü il;
4. Əli Həsənov, "Azərbaycanın enerji təminatı və təhlükəsizliyi siyasəti", Geostrategiya jurnalı, Bakı – 2014
5. Kemal İnat, Büşra Zeynep Özdemir Daşcıoğlu – "Dünya Enerji Trendleri: rezervler, kaynaklar ve politikalar". İstanbul – 2021;
6. Emre Hatipoğlu, "Enerji güvenliği" Kasım – 2019.

ENERJİ TƏHLÜKƏSİZLİYİ ANLAYIŞI

Səbzəliyev Elsevər

XÜLASƏ

Məqalənin əsas mövzusu adından da göründüyü kimi enerji təhlükəsizliyidir. Bu məqalədə enerji təhlükəsizliyinin mahiyyəti, ölkələrin bu amilə verdiyi dəyər və onun təmin olunması yolları araşdırılmışdır. Məlum olduğu kimi müasir dünyanı enerjisiz təsəvvür belə etmək mümkün deyil, çünki ətrafımızda olan az qala hər şey enerji ilə idarə olunur və ya ondan hər hansı yolla asılıdır. Bu baxımdan enerji təhlükəsizliyi həm milli, həm də iqtisadi təhlükəsizliyin ən vacib qollarından biri olaraq dəyərləndirilir. Bunu təmin etmək üçün dövlətlərin əlində müxtəlif imkanlar mövcuddur, lakin bunların bir hissəsi ətraf mühitə zərər verə biləcək vasitələrdir. Ümid edirik gələcəkdə alternativ enerji mənbələrinin istifadəsi artar və bu yolla həm ətraf mühit qorunar, həmçinin enerji təhlükəsizliyi təmin edilər.

КОНЦЕПЦИЯ ЭНЕРГЕТИЧЕСКОЙ БЕЗОПАСНОСТИ

Сабзалиев Эльсевар

АННОТАЦИЯ

Основной темой статьи, как следует из названия, является энергетическая безопасность. В данной статье рассматривается сущность энергетической безопасности, значение, которое страны придают этому фактору, и пути его обеспечения. Как известно, современный мир невозможно представить без энергетики, ведь почти все, что нас окружает, управляется энергией или зависит от нее каким-либо образом. В связи с этим энергетическая безопасность ценится как одна из важнейших отраслей как национальной, так и экономической безопасности. В руках государств имеются различные возможности для его обеспечения, но часть из них - это инструменты, которые могут нанести вред окружающей среде. Мы надеемся, что в будущем использование альтернативных источников энергетики увеличится, и таким образом будет защищена окружающая среда, а также будет обеспечена энергетическая безопасность.

THE CONCEPT OF ENERGY SECURITY

Sabzaliyev Elsevar

SUMMARY

The main topic of the article, as can be seen from its name, is energy security. This article examines the essence of energy security, the value that countries give to this factor and ways to ensure it. As is known, it is impossible to imagine the modern world without energy, because almost everything around us is controlled by energy or depends on it in any way. In this regard, energy security is regarded as one of the most important branches of both national and economic security. There are various opportunities at the hands of states to ensure this, but some of them are tools that can harm the environment. We hope that the use of alternative energy sources will increase in the future, and this way the environment will be protected and energy security will be ensured.

РОЛЬ ПРАВА В ТАМОЖЕННОМ РЕГУЛИРОВАНИИ НАЦИОНАЛЬНОЙ ЭКОНОМИЧЕСКОЙ БЕЗОПАСНОСТИ

Алиева Фарида Шакир кызы,
магистрант II курса БГУ
farida.alieva.19977@gmail.com

Ключевые слова: национальная безопасность, экономическая безопасность, таможенные пошлины, правовые основы.
Açar sözlər: milli təhlükəsizlik, iqtisadi təhlükəsizlik, gömrük rüsumları, qanunvericilik bazası.
Keywords: national security, economic security, customs duties, legal framework.

Институт права возникает исторически с зарождением цивилизаций не просто государств, а именно с высоким уровнем культуры и развития хозяйства. Таможенное право также зародилось в древности и было обусловлено тем, что товарообмен необходимо было регулировать с правовых позиций, что приобрело ещё больший размах с расширением географии ВЭД. Еще одним фактором, отличающим таможенное право от права других отраслей, является то, что, как мы знаем, таможенное дело возникло из практики, а, следовательно, и нормы права в нём были выработаны на основе реальных ситуаций; потому они и являются менее подверженными изменениям нежели другие нормы, возникающие, как правило, на законодательном (нормотворческом) уровне.

Таможенное право находится в сильной зависимости от политических процессов. Те же санкции и эмбарго, выставляемые странами в отношении друг друга на международном уровне, лишний раз подтверждают это. Избежать этих явлений или предотвратить их невозможно – в процессе осуществления внешнеэкономической политики доступен лишь единственный инструмент, позволяющий государству нивелировать негативный сценарий возможного возникновения подобных процессов - экономическая дипломатия. Азербайджан, как известно, располагается на пересечении Востока и Запада, осуществляет «мягкий» внешнеполитический курс, без «резких выпадов», что придаёт стране некую резистентность от подобных проявлений внешнеэкономической деятельности со стороны тех или иных участников внешнеторговых связей.

Следует также провести некоторые разграничения в связях базовых понятий. Ведь не таможенные органы существуют для внешней торговли, а внешняя торговля для таможенных органов. Без внешнеэкономической деятельности теряется смысл существования таможн. Для развития таможенных правоотношений важен разумный симбиоз во взаимодействии таможенных органов, участников внешнеэкономической деятельности, а также лиц, представляющих их в рамках единого процесса, который объединяет внешнюю торговлю и ограничительные, контролирующие государственно-правовые механизмы. Необходим комплексный подход к таможенным правоотношениям, как к взаимообусловленной таможенной деятельности [3, с.54].

Говоря о понятии правовых основ - в сфере таможенного регулирования, либо любой другой сфере, касающейся экономики, - обязательным элементом является защита прав и свобод всех участников экономического процесса; а что касается непосредственно национальной экономической безопасности, тут следует учитывать фактор национальных экономических интересов как первоначального звена, пронизывающего все аспекты

правового регулирования и обеспечивающего сбалансированность или взвешенность макроэкономической политики в целом.

Институт права находится в непосредственной связи и с другим, не менее важным экономическим институтом - институтом власти; либо, являющимся его воплощением, непосредственно государством. Поэтому государство, обладающее законотворческими полномочиями, концентрирует в себе все нормотворческие функции и как никакой другой экономический институт способно продуцировать законодательную основу экономики, которая бы всестороннее подходила к проблеме обеспечения национальной экономической безопасности страны. Такая фундаментальная составляющая права, как Конституция; а также принятые Кодексы (не только по таможенному регулированию, но и другим составляющим экономики) также являются ключевыми в нашем анализе.

Однако государство не может не учитывать нормы международного права, поэтому обязательным условием является интегрирование ключевых достижений международной нормотворческой деятельности в практике национальной экономической политики. Сюда отнесём международные договора, непосредственным участником которых является Азербайджан.

С точки зрения важности законодательной составляющей по отношению к таможенному регулированию мы не можем не отметить, что она является центральной среди всех прочих аспектов, вытекающих и из позитивной (как есть) стороны этого регулирования; нормативность (как должно быть) превалирует в вопросе определения тех или иных параметров функционирования таможенного дела не только в АР, но и во всём мире.

Отметим важность такого ключевого документа, как Таможенный Кодекс Азербайджанской Республики (закон АР об утверждении Таможенного кодекса Азербайджанской Республики №311ГГ был принят 10 июня 1997 г.). В данном документе нашло своё отражение положение, касающееся экономической безопасности государства, что отмечено в его преамбуле: т.е., ТК АР утверждает таможенное дело как способ достижения экономической безопасности Азербайджанской Республики и осуществления прямого регулирования ВЭД.

В Законе Азербайджанской Республики «О таможенном тарифе» (Кабинет Министров Азербайджанской Республики; 20 июня 1995г. с последующими изменениями и дополнениями) подчёркивается, что таможенный тариф является инструментом политики в области ВЭД; нам необходимо учитывать, что азербайджанский рынок находится в тесной взаимосвязи с мировым рынком, поэтому любые изменения в таможенном тарифе должны исходить из мировых трендов и ситуации, складывающейся на национальном рынке в результате этих процессов с тем, чтобы не было угроз экономической безопасности: будь это изменения цен на сырьевых рынках, или экономические кризисы.

Немаловажное место в системе правовых основ занимает указ 24 июня 1997 года № 609 «О дальнейшей либерализации внешней торговли АР» - документ, в который по статистике вносится наибольшее число поправок (последняя сделана в 2021 г.), что подчёркивает «включенность» Азербайджана в мирохозяйственные процессы и нахождение страны на самых передовых позициях по актуальности применяемых мер в торговой политике, обеспечивающих процветание экономике.

Отдельные правовые нормы, относящиеся к таможенному регулированию внешнеэкономической деятельности, затрагивающие так или иначе экономическую безопасность, содержатся и в других законодательных актах. Все виды нормативно-правовых документов представляют важность в нормотворческом процессе - будь то

указы, акты, или поправки. Они обладают подзаконностью, что означает, что они принимаются во исполнение и развитие законов и должны им соответствовать.

По вступлению в ВТО приоритет теперь будет отдаваться международно-правовым нормам, разработанным в рамках этой организации. Таким образом, система источников таможенного права расширится. [r45tw, c.26].

Непосредственным администрированием таможенного процесса с точки зрения соблюдения норм права занимаются таможенные органы. Именно таможенные органы на практике осуществляют защиту внутреннего рынка страны от несанкционированного ввоза тех или иных товаров; предотвращают ввоз незаконной продукции и пресекают попытки нарушить закон. Таможенный контроль является непосредственно той процедурой, по проведению которой выявляются правонарушения. Поэтому важность деятельности таможенных органов является безусловной и необходимость обеспечения условий для повышения эффективности их работы и минимизации таможенных рисков содержится в функциях Азербайджанского государства. Таможенные органы осуществляют регулирование товарооборота, способствуя его ускорению и «фильтруя» от нежелательных элементов.

Изменения в нормотворческой деятельности зависят и от результатов, полученных в результате проведения таможенных операций, таможенных процедур и в целом из практической деятельности лиц, осуществляющих таможенное регулирование, потому что сама таможенная деятельность возникла из практики - в этом заключена уникальность данного вида экономической деятельности. Также выделяют правовое регулирование до, во время и после выпуска товаров с таможенной территории, что подчёркивает масштаб нормотворчества в отношении таможенного дела. А в особенности, наличие контроля после выпуска товаров и постоянный контроль является главным условием сохранения экономической безопасности.

И, в конечном итоге, таможенные службы защищают государство от негативных факторов и нейтрализуют их действие, благоприятно воздействуя на экономическую безопасность государства. Однако не следует забывать, что таможенное регулирование - лишь один метод, и национальная экономическая безопасность должна использовать все доступные экономикой механизмы - между всеми элементами экономики и государственными органами управления - для реализации национальных экономических интересов. Нормотворческая деятельность выступает связующим звеном, выполняя с юридической позиции функции по регулированию и поддержанию национальной экономики на безопасно устойчивом уровне.

Статья 17 Таможенного Кодекса Азербайджанской Республики

Согласно пункту первому, «Таможенные органы являются органами дознания и дознания преступлений в сфере таможенного дела». Так почему же таможня должна считаться правоохранительным органом?

Во-первых, таможенные органы и sərəncamverici orqan icraedici как государственные органы (Президент Азербайджанской Республики, Милли Меджлис Азербайджанской Республики и Кабинет Министров Азербайджанской Республики). Для исполнения решений таможня имеет право давать в отношении к нормативным актам. Данные нормативные акты издаются в связи с пересечением таможенной границы товарами и транспортными средствами, а также гражданами, что также означает участие таможенных органов в административно-правовой деятельности.

Во-вторых, в связи с перемещением товаров возникают таможенные, административные, уголовные, государственные, международные, финансовые,

гражданско-правовые и гражданско-правовые споры между должностными лицами таможенных органов и участниками внешнеэкономической деятельности. защита правоотношений в сферах, регулируемых нормами, использование необходимых правоприменительных форм деятельности таможенных органов, таких как административно-процессуальная, уголовно-правовая и уголовно-процессуальная.

В сфере таможенного дела существуют сотни нормативных актов, регулирующих взаимоотношения участников ОМС и должностных лиц таможенных органов, которые также являются частью механизма государственного управления. Отношения между таможенными органами и участниками ОМС наряду с весьма сложным характером носят международный, государственный, административно-хозяйственный, гражданско-правовой, трудовой, финансово-уголовный, земельный, поземельный (земельный) характер. Это относится и к областям правового регулирования [4].

Таможенные органы, занимающиеся регулированием внешнеэкономической деятельности, прежде всего, осуществляют оптимальное перемещение товаров и услуг между Азербайджаном и другими странами, обеспечивая экономические, финансовые, политические, социальные и другие вопросы. При этом таможенные органы издают постановления, приказы и распоряжения в соответствии с Законом Азербайджанской Республики «О таможенных тарифах», другими законами и имеют силу закона в ГМ Азербайджанской Республики. К ним относятся организация, государственное управление, контроль над соблюдением правил, использование правовых норм, их реализация и применение, и другие функции, предусмотренные законом. Однако во всех случаях участники ОПО не всегда стремятся соблюдать правовые нормы. Определенные группы лиц вольно или невольно нарушают эти нормы, вынуждая государственные органы (прокуратуру, суд, МВД, МНБ, МНС, ГПС, таможенные органы) принимать необходимые меры и принимать необходимые меры по предотвращению [5].

Защита в сфере таможенного дела – это предупреждение опасных отношений для государства, общества и личности, их устранение, противоправных и противоправных актов неправомерных действий участников КИФ и должностных лиц таможенного органа. Это сфера деятельности таможенных органов, запреты на незаконные действия или бездействие, санкции за нарушение этих запретов, полномочия таможенного органа по наложению этих санкций. Таким образом, охранительная функция правовых норм реализуется различными способами, в том числе и государством, нарушающим нормы права.

Это делается с помощью определенных мер. Принудительными государственными мерами являются ограничение прав физических и юридических лиц вследствие нарушений, а также достижение обязательного исполнения определенных обязанностей.

ЛИТЕРАТУРА

1. Azərbaycanın xarici iqtisadi fəaliyyətinin gömrük tənzimlənməsinin bəzi məsələləri. İqtisad Elmləri: Nəzəriyyə və Praktika, № 1-2.Bакы, 2003. 1,85 ç.v.
2. Алиев А.А. Таможенное дело и развитие мировой экономики. М.: «Мысль», 2004. – 224 с.
3. Əliyev V.İ. Azərbaycan Reaspublikasının xarici iqtisadi fəaliyyətinin tənzimlənməsində gömrük tariflərinin tətbiqi problemləri. Bakı, “Şirvannəşr”, 2006, 172 s.
4. Şəkərəliyev A.Ş., Nuriyev C.Q., Əliyev A.Ə., Şəkərəliyeva Z.A. Gömrük işinin təşkili və idarə edilməsi. Dərslik. Bakı: “İqtisad Universiteti” Nəşriyyatı – 2018. -292 s.

5. Гейдаров К.Ф. На пути к институциональной модели успеха. Журнал «Возрождение - XXI век», апрель 1999, с.34-42.

РОЛЬ ПРАВА В ТАМОЖЕННОМ РЕГУЛИРОВАНИИ НАЦИОНАЛЬНОЙ ЭКОНОМИЧЕСКОЙ БЕЗОПАСНОСТИ

Алиева Фарида

АННОТАЦИЯ

В статье рассмотрены вопросы правового урегулирования таможенной работы по обеспечению экономической безопасности. Проблема является достаточно сложной, и правовая основа играет существенную роль в облегчении реализации необходимых задач в данном направлении. Проведен анализ правовых основ в таможенном деле, сформированных в Азербайджанской Республике. Отмечены особенности правовых документов, связанных с международными договорами по таможенной работе.

MİLLİ İQTİSADİ TƏHLÜKƏSİZLİYİN GÖMRÜK TƏNZİMİNDƏ HÜQUQUN ROLU

Əliyeva Fəridə

XÜLASƏ

Məqalədə iqtisadi təhlükəsizliyin təmin edilməsi üçün gömrük işinin hüquqi tənzimlənməsi məsələlərindən bəhs edilir. Problem kifayət qədər mürəkkəbdir və qanunvericilik bazası bu istiqamətdə zəruri vəzifələrin həyata keçirilməsinin asanlaşdırılmasında mühüm rol oynayır. Azərbaycan Respublikasında gömrük işində formalaşmış hüquqi bazanın təhlili aparılıb. Gömrük işinə dair beynəlxalq müqavilələrə aid hüquqi sənədlərin xüsusiyyətləri qeyd olunur.

THE ROLE OF LAW IN CUSTOMS REGULATION OF NATIONAL ECONOMIC SECURITY

Aliyeva Farida

SUMMARY

The article deals with the issues of legal regulation of customs work to ensure economic security. The problem is quite complex, and the legal framework plays a significant role in facilitating the implementation of the necessary tasks in this direction. An analysis of the legal framework in the customs business, formed in the Republic of Azerbaijan, was carried out. The features of legal documents related to international treaties on customs work are noted.

QLOBAL İİNTEQRASİYA PROSESİNİN İNKİŞAF DİNAMİKASINA DAİR BAXIŞLAR

Məmmədova Könül
elmi tədqiqqatcı, politoloq
etibar76_esedov@hotmail.com

***Acar sözlər*:** qloballaşma, tarix, inteqrasiya, bəşər sivilizasiyası, böyük corafi kəşflər, sənayeləşmə.
Ключевые слова: глобализация, история, интеграция, человеческая цивилизация, великие географические открытия, индустриализация.
Keywords: Keywords: globalization, history, integration, human civilization, great geographical discoveries, industrialization.

Qloballaşma prosesinin mahiyyəti ilə bağlı mövcud nəzəriyyələrin, yanaşmaların böyük əksəriyyəti bu prosesin meydana gəlmə və inişaf səbəblərini ortaya çıxarmaq üçün ümumbəşəri inteqrasiya proseslərinin tarixinin araşdırımasına üstünlük verirlər. Bu mənada qlobalistika elmində qloballaşmanın tarixi spektrdən təhlili ənənəyə çevrilmişdir. Bəşər tarixinin inkişaf mərhələlərində qloballaşma prosesinin izlərinin axtarışı təsadüfən ortaya çıxmamışdır. Belə ki, qloballaşma sırf sosiumların həyatın bütün sferalarında təmas və inteqrasiyası deməkdir. Bu prosesi yalnız iqtisadi inteqrasiya prosesi adlandıranlar belə onun sonradan siyasi, kulturoloji, texnoloji sferaya keçidiyini qəbul edirlər. Qloballaşma ilə bağlı tarixə müraciəti aktual və zəruri edən prosesin səbəblərini və dəqiq formulunu izah etməyindən irəli gəlir. Xüsusən qloballaşmanın bifurkasiya nöqtasinin axtarışı qloballaşma tarixi ilə bağlı saysız hesabsız elmi müzakirələrə yol açmışdır.

Ümumiyyətlə qloballaşma ilə bağlı tarixi baxışlar bu prosesi bəşər sivilizasiyasının inkişafının mxtəlif mərhələlərində baş verən inteqrasiya xarakterli iqtisadi, siyasi, mədəni kontekstli hadisələrlə bağlayır. Burada söhbət erkən orta əsrlərdə səlib yürüşlərindən, daha sonra böyük coğrafi kəşflərdən, Qərbi Avropa ölkələrinin müstəmləkə istilasından, XVIII-XIX əsrin sənaye inqilablarından gedir. Dünya miqyasında bütün xalqların və ölkələrin qarşılıqlı təmas prosesinin bəşəriyyətin inkişaf tarixi ilə üst-üstə düşməsi heç kimə sirr deyil. Bu prosesi Monteskye "Qanunların ruhu" əsərində belə ifadə edir: "İki xalqın təması zamanı biri satmağa, digəri isə almağa ehtiyac duyursa onların ittifaqı qarşılıqlı zərurətdən irəli gəlir." [7, s.129]

Bəzi yanaşmalara görə qloballaşmanın kökləri antik dövrlərə qədər gedib çıxır. Bu dövrün başlıca inteqrasiya prosesləri Yunan şəhər dövlətlərinin və Roma imperiyasının Asiya və Şimali Afrikada istila və müstəmləkəçilik siyasəti çərçivəsində nəzərdən keçirilir. Eyni zamanda belə bir müddəa da səsləndirilir ki, ilk regional inteqrasiya və etnoslararası əlaqələr eramızın III və IV əsrlərində Xalqların Böyük Köçü zamanında baş vermişdir. Belə ki, bu prosesin miqyası Avropa və Asiyanın faktiki olaraq bütün sivilizasiyalarının tarixində dərin iz buraxmış və qitələrarası regionların etnoslarını bir-biri ilə tanış etmişdir. [9, s.36]Qlobal inteqrasiya prosesləri tarixində böyük səlib yürüşləri də diqqət mərkəzində saxlanılır. Bu proses Yaxın Şərqin Avrpa ilə ideloji təması kimi qiymətləndirilir. [3, s.8]

Qloballaşmanın proses olaraq başlanğıcını XV-XVI əsrlərdə Böyük coğrafi kəşflər zamanına bağlayan nəzəriyyələr də bu disskussiyalarda mühim yer tutur. Hesab edilir ki, adı çəkilən kəşflərdən sonra planetin müxtəlif regionlarında yerləşən ən müxtəlif mədəniyyətlər, xalqlar və sivilizasiyalar arasında əlaqələrin qurulması prosesi başa çatır və bəşəriyyətə məlum olmayan sivilizasiya qalmır. Bu isə ümumbəşəri inteqrasiya proseslərini qlobal miqyasa gətirib çıxarır.

Başqa bir istiqamətə görə qloballaşma prosesləri Qərbi Avropada feodalizmin ictimai formasiya kimi sona yetməsi kapitalizmin bərqərar olması və bununla da beynəlxalq inteqrasiyanın intensifikasiyası nəticəsində ortaya çıxmışdır.

Şərti olaraq qloballaşmanın meydana gəlməsı haqqında baxışları bir neçə qrupda birlədirmək olar:

Qloballaşmanın inkişaf tarixini bəşər sivlizasiyasının inkişaf tarixi ilə paralelləşdirən nəzəriyyələr. Bu nəzəriyyələr sırasında Vallerstaynın "dünya-sistem" paradiqması əsas hesab olunur. Qeyd edilən nəzəriyyə qloballaşmanı sosiumların qarşıqlıqlı əlaqəsinin vəhdətindən təşkil olunmuş vahid sistemlə eyniləşdirir. XX əsrin 70-ci illərində meydana gələn "dünya-sistem" nəzəriyyəsinin mərkəzi tədqiqat mövzusunu sistemi təşkil edən sosiumların birgə inkişaf tarixi təşkil edir. Qloballaşmanın tədqiqi sahəsində elmə mühim tövhələr vermiş F. Brodel, A. Frank, İ. Vallerstayn, S. Amin, C. Arriqi, T.dus. Santus kimi sosioloqlar məhz bu nəzəriyyənin təmsilçiləridir.

Qloballaşmanı dünya-sistemi təqdim edən Vallerstaynın fikrincə bu proses başlanğıcını XVI əsrdən götürmüş və tədricən bütün planeti əhatə etmişdir. XVI əsrə qədər planetin müxtəlif regionlarında mövcud olan sivilizasiyaları siyasi baxımdan təkamül yaşayan iqtisadi sistemlər adlandıran Vallerstayn qeyd edir ki, siyasi inkişaf fazası başa çatan kimi bu iqtisadi sistemlər imperiyalara çevrilmişdir. Bu proses Avropa istisna olmaqla planetin bütün iqtisadi sistemlərinda analoji ssenari ilə getmişdir. Avropada iqtisadi inteqrasiya prosesləri bütün sistemdaxili sosiumlarda eyni inkişaf yolu keçsə də siyasi inkişaf xəttlərində fərqlə çox olmuşdur. Bu səbəbdən Avropa imperiyaya deyil, ümumdünya kapitalizminin mərkəzinə çevrilmişdir. [4, s.101]

Alman sosioloqu A. Qunder Frank. Vallerstayndan XVI əsrə qədər bir neçə iqtisadi sistemin olması fikrini qəbul etmir. Onun fikrincə bəşər sivilizasiyasının tarixi planetar miqyaslı bir dünya sistemin yaranması tarixidir. Bu vahid dünya sistemin yaşı 5000 ilə yaxındır. O tədricən özünün tərkib hissəsi olan kiçik iqtisadi sistemləri zaman-zaman ətrafında birləşdirmişdir. Bu dünya-sistemin sepsifik xüsusiyyəti onun vaxtaşırı yerini dəyişən mərkəzinin olmasıdır. XIX əsrdə bu mərkəz Avropaya, daha sonra isə Amerikaya köçmüşdür. Bu yerdəyişməyə qədər dünya – sistemin mərkəzi Çin olmuşdur. Bu baxımdan son bir neçə onillikdə Çinin inkişafının başlıca səbəbi dünya-sistemin mərkəzinin yenidən Çinə qayıtmasıdır. [10, 120]

İtaliyalı sosioloq C. Arriqi də Vallerstayn kimi müasir dünya sistemini tarixən Avropa kapitalizminin XVI əsrdən başlayaraq qloballaşmış forması adlandırır. Arriqinin fikrincə inkişafında tarixi kapitalizm dörd mühim mərhələdən keçmişdir. Hər mərhələdə yeni kapital mərkəzləri formalaşmışdır. Bu mərkəzlər kimi Arrteqi XVI əsrdə Genua respublikasını, XVII əsrdə Hollandiyanı, XVIII-XIX əsrlərdə Böyük Britaniyanı, XX əsrdə isə ABŞ-ı təqdim edir. [1, s.56] Bununla da mütəfəkkir hesab edir ki, qloballaşma məhz Aqvropada meydana gələn kapitalizm tədricən bütün dünyaya yayılmış və onu daha sıx birləşmiş vahid sistemə çevirmişdir. Bu proses boyunca bir neçə dəfə öz mərkəzini dəyişən kapital son nəticədə öz mədəni arealını tərk etməmişdir.[2, s.57]

Qloballaşmanın tarixi inkişaf xüsusiyyətlərinin tədqiqində dünya sistemi nəzəriyyəsinin tərəfdarlarının rolu əvəzəsizdir. Bu prosesin tarixi təkamülünün araşdırılmasında adı çəkilən nəzəriyyənin nümayəndələrinin br sıra müddəaları üst-üstə düşür. Prakiki olaraq bütün dünya sistemi nümayəndələrinə görə qloballaşma prosesi öz başlanğıcını XVI əsrdən götürür. Digər bir tərəfdən Brodeldən başlayaraq, Vallerstayn daxil bütün dünya sisem nəzəriyyəsinin tərəfdarları hesab edirlər ki, bütün dünya vahid sistem olaraq bir-biri ilə qarşılıqlı əlaqədə olan müxtəlif elementlərdən ibarətdir və bu qarşılıqlı təmas daim müxtəlif sosial strukturlar (dövlət, millət,

xalq) yaradır. Nəhayət bütün dünya sistemi nəzəriyyəsinin tərəfdarları vahid dünya sistemini qloballaşma prosesinin təzahüri kimi təqdim edir.

Qloballaşma prosesini arxaikləşdirən görkəmli qlobalistlərdən biri T. Fridman qloballaşma prosesinin təqribən XV əsrdən başlandığını qeyd edərək bütün bu prosesi ümumi 3 hissəyə bölür: qloballaşma 1 (1491-1800), qloballaşma 2 (1800-2000) və qloballaşma 3 (2000-müasir dönəm). [10, s.146] Fridmana görə qloballaşmanın birinci mərhələsində dünyanın 4 əsas kontinentinin bir-birini tanıması prosesi başa çatır. İkinci mərhələ kontinentlər arası təmas münasibətlərinin formatı müəyyən olunur. Burada "dominant" kontinent olaraq Avropa və Amerika irəliyə keçir və qlobal inteqrasiyanın təminatçısına çevrilir. Nəhayət 3-cü mərhələdə digər kontinentlərin Qərbə yaxınlaşması prosesi başlanır. ETT-nin və İKT-nin inkişafı dünya dövlətləri arasında zaman və məkan məhdudiyyətlərini aradan qaldırır

Qlobalist M. Vaters qloballaşmanın inkişaf tarixini fərqli dövlərlə əhatə edərək 3 hissəyə bölüür:

1. XI-XIV əsrlər. Şərq və Qərb arasında ilkin təmas dövrü. .
2. XV-XVIII əsrlər. Böyük coğrafi kəşflər, kontinentlərin tanınması, Qərbi Avropa ölkələrinin okeanlar üzərindən müstəmləkəçilik siyasətini uğurla nbaşa çatdırması
3. XIX əsrindən müasir dövrə qədər. Beynəlxalq inteqrasiyanın pik həddinə çatması, Sənayeləşmə, Kapitalizmin dünya hegemonluğu və qərb dəyərlərinin dünyaya yayılması. [12, s.83]

R. Robertsonun qloballaşmanın inkişaf tarixi ilə bağlı irəli sürdüyü yanaşma bu prosesi bütövlükdə 5 mühüm mərhələyə bölür və bu mərhələlər çərçivəsində bəşər sivilizasiyasının sıxlaşmasına səbəb olan prosesləri açıqlayır

1. Meydana gəlmə mərhələsi (Avropa 1400-1750)
   Xristianlıqlda parçalanma
   Fərd və cəmiyyət haqqında ictimai fikirlərin inkişafı
   Planetin ilk xəritələrinin çəkilişi
   Kayinatın günəş sistemi kimi təqdim olunması
   Planetin tədqiqi ilə bağlı dəniz səfərləri
   Müstəmləkəçilik
2. Başlanğıc mərhələ (Avropa 1750-1875)
   Milli dövlətlərin formalaşması
   İlk diplomatik münasibətlərin qurulması və sistem halına gəlməsi
   Vətəndaşlıq və passport sisteminin tətbiqi
   İlk rəsmi beynəlxalq müzakirələr
   ilk internasional və universal ideyaların formalaşması
3. Genişlənmə mərhələsi (1875-1925)

Dünyanın dörd əsas kateqoriyada konsepsiyalaşması: milli dövlət, milli mənlik, vahid beynəlxalq sistem, vahid bəşəriyyət

   Hegemonluq uğrunda mübarizə və ilk dünya müharibəsi
   İlk beynəlxalq miqrasiya prosesləri.
4. Hegemonluq uğrunda mübarizə (1925-1969)
   Millətlər cəmiyyəti və BMT
   İkinci dünya müharibəsi və soyuq müharibə
   Ümumdünya nüvə müharibəsi təhlükəsi
   Üçüncü dünyanın formalaşması
5. Qeyri-müəyyənlik mərhələsi (1969-1992)
   Kosmosun tədqiqi

Qeyri maddi dəyərlər və hüquqlar haqqında müzakirələr.

Mürəkkəb beynəlxalq münasibətlər sistermi və yeni aktorlar

Qlobal kütləvi informasiya vasitələrinin meydana gəlməsi

Transmilli koroporasiyaların formalaşması və hegemonluq uğurnda mübarizəsi [11, s.374]

Qloballaşmanın formalaşması tarixi ilə bağlı təkamülçü nəzəriyyələr də oxşar mülahizələrlə çıxış edir. Rusiyada qlobalistika elminin aparıcı alimlərindən olan A. Çumakov qloballaşmanın inkişaf mərhələlərini aşağıdakı kimi təsnifləndirir: [7]

Birinci qlobal inteqrasiya mərhələsi XIX əsrin ortalarından 1914-cü ilə qədər olan dövrü əhatə edir və Britaniya imperiyasının adı ilə bağlıdır. Qloballaşmanın birinci dalğası zamanı dünya iqtisadiyyatı vahid sistem forması almağa başlayır. Bu dövr yeni formalaşan transmilli korporasiyaların (OST HİND, STANDART OİL, SİMENS) və dövlətlərin yeni istehlak bazarları uğrunda mübarizəsi ilə xarakterizə olunur.

II dünya müharibəsi və onun nəticələri qloballaşmanın ikinci dalğasını sürətləndirir. Bu dalğa sırf siyasi sferada qlobal siyasi tendensiyaların güclənməsi ilə yadda qalır.Yeni qlobal institutlar (BMT) ortaya çıxır. 1945-ci ilin avqustunda ABŞ tərəfindən Yaponiyaya atılan atom bombası qloballaşmanın inkişafında bifurkasiya nöqtəsinə çevrilir və proses indiki mərhələsinə qədəm qoyur.

II dünya müharibəsindən sonra qloballaşma prosesi tərkibində dualizm ortaya çıxır. Belə ki, dünya birinin başında ABŞ, digərinin başında Sovetlər Birliyi olmaqla iki qütb ətrafında birləşir. Yalnız Sovetlər Birliyinin süqutundan sonra qloballaşmanın üçüncü fazası başlaylır. Bu fazanın başlamasını şərtləndirən amillər aşağıdakılardır:

1. Demoqrafik-ekoloji amil (artım həddi mövzusunu aktual edən demoqrafik partlayışlar)
2. Texnosferin qloballaşması (elmi texniki tərəqqi postsənaye dcəmiyyətinin formalaşması üçün əsas oldu).
3. İqtisadi qloballaşma
4. Geosiyasi qloballaşma
5. Sosial mədəni qloballaşma [8].

Bəzi mütəxəssislər qlobal proseslərin XX əsrin ikinci yarısında başladığını iddia edirlər. Bu zaman onların rəhbər tutduqları fikir bundan ibarətdir ki, İkinci Dünya müharibəsi bu və ya digər dərəcədə bütün qitələrin qoşulduğu ilk qlobal müharibə olmuşdur. Müharibədən dərhal sonra qlobal beynəlxalq təşkilat olan BMT yaradılmışdır. Elə bu illərdə də müstəmləkə sisteminin dağılmağa başlaması ilə inkişaf etməkdə olan müstəqil dövlətlərin sosial-iqtisadi problemləri kompleks şəkildə üzə çıxmışdı. Məhz həmin illərdə Elmi-Texniki İnqilab (ETİ), rabitə və informasiya prosesləri təşəkkül taparaq tədricən nüfuzlu siyasi və iqtisadi amilə çevrilmişdi.

İkinci mərhələni, yəni 1970-1990-cı illərin qlobal proseslərini dünya birliyi tərəfindən formal cəhətdən təsdiq olunmuş bir durum kimi səciyyələndirmək olar: bəşəriyyət kompleks qlobal problemlərlə üzləşmiş, onların təsnifatını vermiş və beynəlxalq iqtisadi və humanitar əməkdaşlıq, inkişaf etməkdə olan ölkələrə yardım kimi sahələrdə onların həllinə cəhd edilmişdir.

Qloballaşmanın üçüncü mərhələsi 90-cı illərin sonunda başlamışdır. Bu mərhələ özünəməxsusluğu ilə səciyyələnir. Bu fərqli xüsusiyyətlər aşağıdakılardır:

1) ETİ-nin informatika və rabitə sahələrindəki nailiyyətləri, beynəlxalq əlaqələrin, xüsusən də İnternetin durmadan inkişaf etməsi qlobal dünya birliyinin yaranmasına gətirib çıxarmış, milli sərhədlər şərti əhəmiyyət kəsb etməyə başlamışdır;

2) ABŞ-ın siyasi, iqtisadi, maliyyə, informasiya və texnologiya sahələrində nüfuzunun artması və bundan Birləşmiş Ştatların öz milli maraq və dəyərlərinə uyğun istifadə etmək cəhdləri bütün qlobal problemlərə spesifiklik gətirir. Bu ölkənin qlobal problemlərin həllində rolu bir sıra hallarda nəinki mühüm, hətta həlledici əhəmiyyət kəsb etməyə başlayır;

3) Bəzi ölkələrdə qloballaşma proseslərindən hakim elitanın narahat olduğu üzə çıxmış, bu proseslərə əks-təsir göstərmək məqsədilə sosial qruplar formalaşmışdır.

Ümumiyyətlə qloballaşmanın məhz XX əsrin 60-cı illərində ortaya çıxması ilə bağlı fikir irəli sürənlər çoxdur. Təkamülçü yanaşmadan başqa bir çoxları qloballaşmanın startaplarını baş verən hər hansı qlobal bir hadisə ilə bağlayırlar. Adətən prosesi XX əsrin 60-cı illərinə bağlayanlar qloballaşmanı postmodernizm kimi qələmə verməyə çalışırlardır. XX əsrin 60-cı illərində soyuq müharibənin kəskinləşməsi ötəsindən ABŞ və Sovetlər Birliyinin razılaşmasını, Kosmosun fəthini, Afrika qitəsində 32 dövlətin müstəqillik əldə etməsini, Nüvə silahının yayaılmaması haqqında müqavilələri, ilk hesablama maşınlarının oryata çıxmasını və iki kompyuter arasında ilk dəfə əlaqənin qurulmasını qloballaşmanın başlanğıcı kimi qələmə verənlər çoxdur.

Qeyd etmək lazımdır ki, qloballaşmanın meydana gəlməsini şərtləndirən şərait olmasaydı, o xüsusi bir fenomen kimi təşəkkül tapa bilməzdi.

Qloballaşmanın birinci ilkin şərti bir sıra ölkələrin sənaye cəmiyyətindən informasiya cəmiyyətinə keçməsi olmuşdur. Aydındır ki, informasiya cəmiyyətinin strukturları formalaşmasaydı, İnternet yaranmasaydı, kütləvi informasiya vasitələri olan televiziya, radio geniş yayılmasaydı qloballaşma mümkün ola bilməzdi.

Qloballaşmanın ikinci ilkin şərti müharibədən sonrakı dövrdə təşəkkül tapmış yeni qarşılıqlı iqtisadi münasibətlər sisteminin formalaşması olmuşdur. 1944-cü ilin Bretton-Vuds razılaşmalarından sonra dünya bazarında dolların əsas hesablaşma vasitəsi kimi təsdiq edilməsi, ticarət və tariflər haqqında bir sıra beynəlxalq müqavilələrin bağlanması bir qaydalı dünya iqtisadiyyatının meydana gəlməsinə səbəb olmuşdur.

Qloballaşmanın bir fenomen kimi meydana gəlməsinin üçüncü ilkin şərti müharibədən sonrakı yeni iqtisadi qaydaları qoruyub saxlamaq məqsədilə bir sıra beynəlxalq təşkilat və institutların yaradılması olmuşdur. Onların arasında ilk növbədə BVF, Dünya Bankı və Ümumdünya Ticarət Təşkilatını göstərmək olar. Beynəlxalq iqtisadi sistemdə özünəməxsus rol oynayan digər təşkilatları, regional bankları, BMT-nin İnkişaf Proqramını, Ticarət və İnkişaf üzrə Konfransını da buraya əlavə etmək olar. Məsələn, son 20 ildə BVF və DB-nin fəaliyyətində əsas iqtisadi problemlər, maliyyə böhranları, keçmiş kommunist ölkələrinin bazar iqtisadiyyatına keçməsi ilə bağlı mühüm qərarların qəbul edilməsi mərkəzi yeri tutmuş və bu gün də belə qalmaqdadır.

Qloballaşmanın dördüncü ilkin şərti nəhəng transmilli korporasiyaların (TMK) meydana gəlməsi olmuşdur. Bu gün onlar təkcə iqtisadi sahədə deyil, həm də siyasi səhnədə baş rolları ifa edir. Mobil, Maykrosoft, Britiş Petrolium, İtoçi, Fiat, Filipp Morris, Folksvagen, Soni, Şevron, Nestle kimi TMK-lar bu gün müxtəlif ölkələrdə iqtisadiyyatın bütün bölmələrini real nəzarət altında saxlayır. Ən müxtəlif iqtisadi və siyasi təzyiq vasitələrini istifadə etməklə onlar milli hökumətləri investisiya, vergilər, dövlət sifarişləri, özəlləşdirmə və s. ilə bağlı mühüm qərarları TMK-nın mənafelərinə uyğun qəbul etməyə məcbur edirlər. BMT ekspertlərinin hesablamalarına görə, bu gün dünya bazarında "oyun qaydalarını" müəyyən edən və beynəlxalq münasibətlərdə baş verən proseslərə çox güclü təsir göstərən 40 minə yaxın TMK var.

Qloballaşmanın iqtisadi və siyasi inkişafın aparıcı amilinə çevrilməsinin beşinci ilkin şərti SSRİ-nin dağılması və Şərqi Avropanın bir sıra dövlətlərinin kapitalist inkişaf yoluna keçməsi olmuşdur. Bir sıra keçmiş sovet respublikaları və sosialist birliyi ölkələrində hakimiyyətə neoliberalizm ehkamlarına inanan siyasi elita nümayəndələrinin gəlməsi qısa bir müddətdə Qərb istehsalçılarının məhsullarının bu ölkələrin daxili bazarlarını ələ keçirməsinə yol açdı.

Göründüyü kimi qlobal inteqrasiya prosesinin başlanğıc nöqtəsi haqqında mülahizələr çoxdur. Şərti olaraq bu mülahizələr və yanaşmaları nəzərdən keçirirək iki əsas qrupda birləşdirmək olar. Birincisi, qloballaşmanın yaşının sivilizasiyanın inkişaf tarixinə bərabər tutuanlar və ikinci qrup

qloballaşmanı sırf iqtisadi xarakterli inteqrasiya prosesi kimi izah edib, onun yaşını yeni və ən yeni dövrə bağlayanlar.

Sezilən odur ki, istənilən halda qloballaşmanın tarixi ilə bağlı istənilən tədqiqat sinergetik xarakterə malik olub, prosesin bifurkasiya nöqtəsinin axtarışına əsaslanır. Burada ortaya qoyulan başlıca məqsəd prosesin başlanmasına start verən hər hansı qlobal hadisənin ortaya çıxarılmasıdır.

Nəticə. Bizim fikrimizcə proses kimi qloballaşma yalnız iqtisadi prizmadan nəzərdən keçirilə bilməz. Qloballaşmanın mahiyyəti dünya sivilizasiyasının bütün yaşam sferalarında unifikasiyasını təmin etməkdən ibarətdir. Məsələyə məhz bu prizmadan baxaraq hesab edirik ki, qloballaşma prosesinin başlanğıc nöqtələrini insanlıq tarixinin istənilən nöqtəsində ümumbəşəri əhəmiyyət daşıyan və nəticələrinin bütün qlobal sosiumların həyatının ayrılmaz hissəinə çevrilən hadisələrin tarixində axtarmaq lazımdır. Belə hadisələr isə dünən, bu gün baş verməmişdir. Ona görə də prosesin tarixini sivlizasiyanın yaranma dövrlərində axtaranlar haqlıdır. Məsələyə belə baxış bucağı prosesin inkişaf mərhələlərinin axtarışını sual altına qoyur. Sivilizasiyalar yarandığı gündən onların inteqrasiyası ali qanuna çevrilmişdir. Odun ixtirası, yığıcılıq və ovçuluqdan əkinçilik və maldarlığa keçid, dəmirin kəşfi, dini ideologiyanın meydana gəlməsi kimi qlobal proseslər vardır ki, onlar qlobal səviyyədə bütün sivilizasiyaların həyatında eyni xarakterli transformasiyalara səbəb olmuşdur. Eyni zamanda əldə edilən bu qlobal nailiyyətlər insan həyatının yarılmaz hissəsinə çevrilmişdir. Zaman zaman insanların dünyəvi biliklərinin həcmi böyüdükcə belə yeni açılışların intensivliyi artmış və xarakteri dəyişmişdir. Hər bir yenilik özünün nəticələri ilə gəlmişdir. Başqa sözlə bəşəriyyətin tarixi sivil toplumların inteqrasiyasının, qloballaşmanın tarixidir. Qloballaşma bəşəriyyətin inkişaf məqsədlərindən biridir.

ƏDƏBİYAT

1. Mehdiyev R. Aəzrbaycan: Qlobbalaşma Dövrünün tələbləri. Bakı: 21 YNE 2005
2. Həsənov Ə. Müasir Beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. dərslik. Bakı: Azərnəşr 2005
3. Ələkbərova N. Siyasi elmin tarixi. Bakı: 2010
4. Məmmədov K. Milli dövlətlər Bakı: Azərnəşr, 2008
5. Tagıyev Ə. Müasir siyasi elm. Bakı: Azərnəşr, 2000
6. Rüstəmov Y. Siyasi-hüquqi təlimlər tarixi. Bakı: Azərnəşr, 1999
7. Babaoglu H. Politologoya. Ali məktəblər ücün dərslik. Bakı: Azərnəşr, 2012
8. Əfəndiyev M. Siyasi elmin problemləri. Bakı: 2011

QLOBAL İINTEQRASİYA PROSESİNİN İNKİŞAF DİNAMİKASINA DAİR BAXIŞLAR

Məmmədova Könül

XÜLASƏ

Məqalədə qloballaşmanın ümumbəşəri inteqrasiya prosesi kimi tarixi inkişaf mərhələləri ilə bağlı yanaşmalar təhlil olunur. əsas məqsəd bu prosesi tarixi rakursdan nəzərdən keçirmək və bu yolla prosesin obyektiv ofrmalaşma səbəblərini müəyyən etməkdir. Araşdırma zamanı qlobal inteqrasiya prosesinin formalaşma və inkişaf mərhələləri ilə ilə bağlı aparıcı yanaşmalar nəzərdən keçirilir və bu yanaşmalarda qloballaşmanın proses olaraq ortaya çıxmasına təkan vermiş qlobal miqyaslı proseslərin şərhi verilmişdir. Ümumiyyətlə qloballaşma ilə bağlı tarixi

baxışlar bu prosesi bəşər sivilizasiyasının inkişafının mxtəlif mərhələlərində baş verən inteqrasiya xarakterli iqtisadi, siyasi, mədəni hadisələr siyasi baxımdan təhlil edilmişdi Burada söhbət erkən orta əsrlərdə səlib yürüşlərindən, daha sonra böyük coğrafi kəşflərdən, Qərbi Avropa ölkələrinin müstəmləkə istilasından, XVIII-XIX əsrin sənaye inqilablarından dövüründə başverən dəyişliklər elmi cəhətdən şərh edilmişdir burada Dünya miqyasında bütün xalqların və ölkələrin qarşılıqlı təmas prosesinin bəşəriyyətin inkişaf tarixi ilə üst-üstə düşməsi mərhəllələr göstərilmişdir bununla yanaşı Bu prosesi Monteskye "Qanunların ruhu" əsərində "İki xalqın təması zamanı biri satmağa, digəri isə almağa ehtiyac duyursa onların ittifaqı qarşılıqlı zərurətdən irəli gəlir fikirləri elmi baxımdan əsaslandırılmışdır Bəzi yanaşmalara görə qloballaşmanın kökləri antik dövrlərə qədər gedib çıxsada məqalədə bu prosesi tarixi mərhəllərlə təhlilini vermişik.

ВЗГЛЯДЫ НА ДИНАМИКУ РАЗВИТИЯ ГЛОБАЛЬНОГО ИНТЕГРАЦИОННОГО ПРОЦЕССА

Мамедова Конуль

АННОТАЦИЯ

В статье анализируются подходы к этапам исторического развития как процесса глобальной интеграции глобализации. Основная цель состоит в том, чтобы посмотреть на этот процесс с исторической точки зрения и тем самым определить причины объективного формирования процесса. В исследовании рассматриваются ведущие подходы к этапам становления и развития глобального интеграционного процесса, дается обзор глобальных процессов, приведших к возникновению глобализации как процесса. В целом исторические взгляды на глобализацию анализировали с политической точки зрения интеграцию экономических, политических, культурных событий, происходивших на разных этапах развития человеческой цивилизации. получили научное объяснение.Согласно некоторым подходам, корни глобализации уходят в глубокую древность, но в статье этот процесс анализируется по историческим этапам.

VIEWS ON THE DYNAMICS OF DEVELOPMENT OF THE GLOBAL INTEGRATION PROCESS

Mammadova Konul

SUMMARY

The article analyzes the approaches to the stages of historical development as a process of global integration of globalization. The main purpose is to look at this process from a historical perspective and thus determine the reasons for the objective formation of the process. The study examines the leading approaches to the formation and development stages of the global integration process, and provides an overview of the global processes that led to the emergence of globalization as a process. In general, historical views on globalization analyzed the integration of economic, political, cultural events that took place at different stages of development of human civilization from a political point of view. The changes that have taken place during the industrial revolutions of the twentieth century have been scientifically explained. According to some approaches, the roots of globalization go back to antiquity, but the article analyzes this process in historical stages.

QARABAĞIN EKOLOJİ VƏZİYYƏTİ

Sevdimalıyeva Lalə İmyəddin qızı
BDU-nun I kurs magistrantı
sevdimaliyevalale@gmail.com

Açar sözlər: ətraf mühit, təhlükəsizlik, ekoloji problemlər, erməni vəhşiliyi, Qarabağın ekologiyası
Ключевые слова: окружающая обстановка, безопасность, экологические проблемы, армянская дикость, Экология Карабаха.
Key words: environment, security, environmental challenges, armenian savagery, Ecology of Karabakh

Öncələr təhlükəsizlik dedikdə, ağla ilk olaraq hərbi sahədə yarana biləcək problemlərin qarşısının alınması gəlirdi və ekoloji təhlükəsizliyə yetəri qədər diqqət göstərilmirdi. Lakin son zamanlarda cəmiyyətin təhlükəsizliyinə olan "dar" yanaşma, "geniş" yanaşma ilə əvəz olunmuşdur və digər sahələrdə təhlükəsizliyin təmin olunması istiqamətində bir sıra addımlar atılmışdır. Bunlardan biri də ekoloji sahədir. Ekoloji sahədə baş verən mənfi proseslər son dönəmlərdə gündəmin əsas probleminə çevrilməsinə səbəb olmuşdur. Ekoloji problemlərin beynəlxalq siyasətin önəmli məsələlərindən olmasını şərtləndirən əsas səbəblərin başında bu problemlərin sərhəd tanımaması, həlli yollarının qarışıq olması dayanır.

Ətraf mühitin mühafizəsi problemləri hazırda əsasən 3 başlıca səviyyədə həll olunur: Ölkə, regional və qlobal səviyyədə [1, s.11].

Dünyadakı digər ölkələr kimi Azərbaycan da yerli, regional, milli və beynəlxalq səviyyədə ekoloji problemlərlə üzləşir. Respublikamız bu problemlərin həlli istiqamətində müxtəlif təşəbbüslər göstərmiş, regional və beynəlxalq səviyyədə həlli yollarının axtarılmasında dinamik aktor kimi çıxış etmişdir.

Azərbaycandakı ekoloji problemlərin təməlində üç mərhələnin təsirini göstərmək olar.

Bunlar aşağıdakılardır:

1)Sovet İttifaqı dövründə istehsal prosesində ətraf mühitə qarşı həssaslığın olmaması, istifadə olunan istehsal texnologiyalarının yetəri qədər təkmilləşmiş olmaması və böyük sənaye müəssisələrinin qaz, maye və qatı tullantılarının ətraf mühitə axıdılması,

2)Sovet İttifaqının süqutundan sonra Ermənistanın Azərbaycanın Dağlıq Qarabağ ərazisində yaşayan ermənilər bəhanə edərək əl atdığı müharibə nəticəsində meşələr, əkinçilik üçün yararlı ərazilər və su ehtiyatlarının talan edilib, çirkləndirilməsi,

3)1991- ci ildə müstəqilliyimizin elan edilməsindən sonra, ölkədə baş verən siyasi xaos, sosialist sistemdən kapitalist sistemə keçid dövründə cərəyan edən hadisələr və idarəetmə sistemindəki zəifliklər nəticəsində ekoloji problemlərlə bağlı məsələlərə etinasız yanaşılmasıdır.

Ümumilli lider Heydər Əliyev Azərbaycanda rəhbər olduğu müddətdə bütün sahələrdə olduğu kimi ekoloji problemlərin həlli məsələlərini də daim diqqət mərkəzində saxlayıb və ekoloji vəziyyətin yaxşılaşdırılması, ətraf mühitin mühafizəsi, eləcə də təbii sərvətlərdən səmərəli istifadə məsələlərinə xüsusi qayğı ilə yanaşıbdır. Ulu öndərin hakimiyyəti illərində ölkəmizdə ətraf mühitin mühafizəsi sahəsində ekoloji siyasət geniş vüsət almış, artan ekoloji problemlərin qarşısının alınması və aradan qaldırılması yolunda bir sıra vacib addımlar atmışdır.

Lakin həmin zamanlarda Ermənistanın işğalı altında olan, Azərbaycanın ayrılmaz hissəsi Qarabağın flora və faunası erməni vandallarının şuurlu surətdə həyata keçirdiyi, insanlığa sığmayan davranışları nəticəsində zərər görmüşdür. Dağlıq Qarabağ və ətraf rayonlarına düşmən

münasibət göstərərək meşələri yandırılmış, əkinçiliyə yararlı ərazilər talan edilmiş, torpaqlar və təbii sərvətlərə ciddi ziyan dəymiş, çaylar ağır formada çirkləndirilmişdir. Biomüxtəlifliyə ciddi ziyan vurulub və bunun nəticəsində canlı aləmin yaşayışı üçün böyük təhlükə yaranmışdır, həmçinin uzun müddət bərpası şübhə altındadır.

Bu vəhşiliyin əsasını 1988-ci ildə Ermənistanın "Kanaker" alüminium zavodu öz işçilərinə pansionat tikmək üçün Azəraycanın müvafiq orqanları ilə razılaşmadan, özbaşına Qarabağın Topxana meşəsində qiymətli ağacların qırılması ilə qoyub. Təxmini məlumatlara görə, Topxana meşəsindən 2000 ədəddən çox palıd və digər qiymətli ağaclar kəsilərək Ermənistana daşınıb. Şuşanın Cıdır düzündə, "Ağzı yastı" kaha adlanan yerin qarşısında Topxana meşə qoruğu zonasında, meşənin lap hündür yerində geniş düzənlik açılıb, orada müxtəlif adda qiymətli ağaclar qırılaraq tikinti işlərində istifadə edilib. Hal - hazırda Topxana meşəsi demək olar dağıdılmış, bitki örtüyü, heyvanat aləmi məhv edilmişdir.

2007-ci ildə Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyası qəbul olunmuşdur və bu konsepsiyanın "Ekoloji problemlər" bölməsində işğal edilmiş ərazilərimizdə flora və faunanın kütləvi şəkildə məhv edilməsi, həmçinin burada genişmiqyaslı yanğınların törədilməsi nəticəsində 63 min 444 hektar ərazi və torpaqların istifadəyə yararlılığı heçə endirilmişdir.

Ermənistan tərəfindən törədilən bu işğalçı siyasət Azərbaycanın təbiətinə xas yüzillik ağacların, təbii mağaraların, mədəni park nümunələrinin məhv edilməsinə səbəb olmuşdur. Bununla yanaşı olaraq Zəngilan rayonunda yerləşən və 107 hektar əraziyə malik olan qoruqdan demək olar ki, əsər qalmayıb. Yüzillik çinar ağaclarının bir qismi 2000-ci ildə Tehran qubernatoruna satılıb, bir qismi isə köküknd̈ən çıxarılaraq Göyçə gölünün sahillərinə və İrəvan ətrafına köçürülüb.

Suyun çirklənməsi – bu arxlara, çaylara, göllərə, dənizlərə və okeanlara fiziki, kimyəvi və bioloji maddələrin düşməsi nəticəsində onun keyfiyyətinin aşağı düşməsidir. Suyun çirklənməsinin bir neçə səbəbi vardır [2, s.24].

Azərbaycanın şirin su ehtiyatlarının qorunması ekoloji təhlükəsizlik siyasətinin əsas istiqamətlərindəndir. Kür çayı ölkə ərazisinin əsas içməli su mənbəyidir. Kür çayı və Araz çayına çirkli suların axıdılması suyun keyfiyyətinə mənfi təsir göstərir, ən əsası isə insan sağlamlığına ciddi təhlükəli problem yaradır.

Ermənistan ordusu Dağlıq Qarabağ və ətraf rayonlarını işğalda saxladığı müddət ərzində mənbəyi bu ərazidən olan çaylarda su axınının qarşısını alırdı, bir çoxunu isə kimyəvi, bioloji, radioaktiv zəhərli maddələrlə çirkləndirirdilər. Çaylara axıdılan partlamamış mina və sursatlar nəticəsində bir çox insan zərər görmüşdür.

Radioaktiv çirklənmə ekoloji təhlükənin qorxulu formasıdır. Radioaktiv təhlükə suda, havada, torpaqda sürətlə yayılır. Azərbaycan Respublikası Milli Məclisinin qəbul etdiyi "Əhalinin radiasiya təhlükəsizliyi" qanunu (30 dekabr 1997) ilə ekoloji mühafizənin hüquqi əsasları müəyyən edilmişdir [3, s.144].

Transsərhəd çay olan Oxçuçay Ermənistan ərazisində daim çirklənməyə məruz qalmışdır. Belə ki, Qafan və Qacaran dağ – mədən sənayesinin tullantılarını Ermənistan məqsədli şəkildə Oxçuçaya axıtmışdır və çirklənmə səviyyəsi normadan yüksək olduğu üçün onun su ehtiyatlarının ölkə ərazisində istifadəsi yararsız hesab edilmişdir. Bunun nəticəsində Araz və Kür çaylarının da keyfiyyətində ciddi dəyişikliklər baş vermişdir. Bütün bunlar sadəcə çay faunasını və ekosistemini məhv etmir, bununla bərabər insan sağlamlığına da ciddi təsir göstərir. Çirklənmiş suyun istifadəsi zərərli nəticələrə gətirib çıxara bilər.

Oxçuçayın ekoloji deqradasiyası barədə və Ermənistanın çirkləndirmə siyasətinin qarşısının alınması, təcili tədbirlərin görülməsi ilə əlaqədar UNECE - nin Konvensiya katiblərinə müraciətlər edilmişdir, lakin istənilən nəticəni əldə etmək mümkün olmamışdır.

İşğal olunmuş ərazidə yerləşən Sərsəng su anbarından ermənilər bizə qarşı ekoloji təzyiq kimi istifadə etmişlər. Avropa Şurası Parlament Assambleyasının faktlaşdırıcı missiyasının 2015-ci ildə ölkəmizə səfəri baş tutub və Azərbaycanın sərhədyanı rayonlarının qəsdən sudan məhrum edilməsi ilə bağlı 26 yanvar 2016-cı il tarixində 2085 saylı qətnamə qəbul edilmişdir. Qətnamədə həmçinin vurğulanır ki, su anbarı bütün region üçün təhlükə törədir və bəndin qəzalı vəziyyəti böyük insan tələfatı ilə nəticələnən böyük fəlakətə və yeni humanitar böhrana gətirib çıxara bilər.

Ermənistanda nəşr olunan "Lrager" qəzetində Sərsəng su anbarında balıqların kütləvi şəkildə qırılması haqqında məlumat dərc edilmişdi. Buna səbəb isə mənfur düşmənin törətdiyi ekoloji terror olmuşdur.

"Ekoloji Qayğı İctimai Birliyi" Ermənistanın ekoloji terror siyasətini dünya ictimaiyyətinə çatdırmaq məqsədilə monitorinq keçirib və əldə olunan nəticələr barədə dünyanın bütün ekoloji təşkilatlarına " Ermənistan, ekoloji terroru dayandır!" başlıqlı müraciət göndərib.

XİN ilə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin hazırladığı birgə bəyanatda qeyd olunmuşdur ki, işğal olunmuş ərazilərdə su anbarlarından istifadə qeyri – mümkün olub və texniki xidmət göstərilmədiyindən ətraf ərazilərdə yaşayan əhali üçün potensial təhlükə mənbəyinə çevrilibdir. Həmçinin bəyanatda vurğulanmışdır ki, Ermənistanın BMT-nin "Sərhəddindən keçən su anbarının və beynəlxalq göllərin mühafizəsi və istifadəsi"nə dair konvensiyaya qoşulmaması sərhədlərarası su probleminin beynəlxalq normalar çərçivəsində həllini mümkünsüz edir.

Bədnam qonşumuzun törətdiyi ekoloji terror ilə bağlı məlumat almaq üçün elə düşmənin öz saytlarına diqqət etmək kifayətdir. Məsələn, "armyanskaya pravda.ru" saytında Arsen Ambarsumyan adlı müəllif yazır ki, Ermənistan mənbəyini bu ölkənin ərazisindən götürən çayların qarşısını kəsməklə Azərbaycanda su qıtlığına səbəb ola bilər, hətta o düşünürdü ki, ermənilərin bu üsula daha öncə əl atmaması təəccüblüdür.

Təəssüf ki, bir çox müraciətlərə baxmayaraq beynəlxalq təşkilatlar ermənilərin Azərbaycan təbiətinə vurduğu ziyanın qarşısını almaq üçün ciddi tədbirlər görmək əvəzinə susurdular.

Ekologiyaya ciddi ziyan vuran Metsamor Atom Elektrik stansiyasının tikintisinə 1969 - cu ildən başlanılmışdır və hal – hazırda ciddi təhlükə mənbəyi hesab edilir. Ermənistanda yerləşən "Metsamor" AES-in istismar müddətinin çoxdan başa çatması və hazırda işə yararsız olduğu səbəbindən onun bağlanması tələbi ilə Azərbaycanda və digər qonşu ölkələrdə müzakirələr genişlənir. Lakin ermənilər "Metsamor"un təmir olunaraq yenidən fəaliyyətinin davam etdirilməsinin mümkünlüyünü əsaslandırmağa çalışırlar. Metsamor AES-in fəaliyyəti İran, Türkiyə, Gürcüstan, Azərbaycanın bir hissəsi və bütövlükdə Ermənistan üçün təhdiddir. Təhlükəli vəziyyətdə olan stansiyada Çernobıl qəzasının təkrarlanması Cənubi Qafqazda Hiroşima-Naqasaki effekti yarada bilər

27 sentyabr 2020-ci ildə başlayan və 44 gün davam edən İkinci Qarabağ müharibəsi nəticəsində, Ali baş komandan və rəşadətli Azərbaycan ordusu sayəsində Qarabağ düşmən tapdağından azad edilmişdir və burada ermənilərin törətdiyi ekoloji böhranı yaxından nəzərdən keçirmək mümkün olmuşdur. Onu da qeyd edim ki, müharibə zamanı Kəlbəcər istiqamətindən Göygöl milli parkına endirilən yandırıcı və dağıdıcı raket zərbələri nəticəsində zəngin flora və faunaya ciddi ziyan dəymişdir, 20 hektardan artıq meşə massivi yanaraq külə çevrilmişdir.

İşğaldan sonra Azərbaycan torpaqlarında qeyri-qanuni məskunlaşan erməni qəsbkarlarına öz əmlaklarını toplayaraq tərk etmələri üçün vaxt verildi, ancaq yenə öz mənfur əməllərindən əl çəkməyən düşmən "Azərbaycanlılara heç nə qalmasın" şüarı ilə külli miqdarda oduncağı yük maşını ilə daşıdı, apara bilmədiklərini isə yandıraraq məhv etdi. Xüsusilə də Kəlbəcər və Laçın

ərazisində məskunlaşan erməni əhalisi buranı tərk edərkən ətraf əraziləri, meşələri, elektrik stansiyasını yandırmışlar və heyvanları isə güllələyərək öldürmüşdülər.

Görünür ki, mühitin toxunulmazlığı haqqında konvensiya da ermənilər üçün əhəmiyyət daşımır. Bu hərəkət BMT ətraf mühitin qorunması üzrə aktlarının da ayaqlar altına alınması deməkdir.

ƏDƏBİYYAT

1. T.A.Xəlilov, M.Ə.Zeynalova "Qlobal ekoloji problemləri" Bakı 2013
2. Abbasov M.S. "Əsrimizin qlobal ekoloji problemləri" Bakı 2006
3. T.D.Ağayev, Ş.Ə.Əhmədov, T.A. Xəlilov "Ekoloji təhlükəsizlik" Sumqayıt 2013
4. http://anl.az/down/meqale/paritet/2010/iyul/128020.htm
5. https://www.xalqcebhesi.az/news/project/35744.html
6.https://525.az/news/143098-ekoloji-tehlukesizlik-siyaseti-akif-rustemovun-yazisi
7. https://xalqqazeti.com/az/news/56404
8. https://xalqqazeti.com/mobile/az/news/65260
9. http://eco.gov.az/az/nazirlik/xeber?newsID=11608
10. http://eco.gov.az/az/nazirlik/xeber?newsID=11639
11.http://ikisahil.com/post/248747-ekoloji-terror-ermenistan-mehsher-ayagina-chekilecek
12. https://app.trdizin.gov.tr/publication/paper/detail/TVRBMU1UWXhNUT09
13. https://science.gov.az/en/news/open/16795
14.https://qafqazinfo.az/news/detail/oxcucayin-cirklenmesi-ile-bagli-veziyyet-aciqlandi-357333
15. https://bizim.media/az/siyaset/33093/
16. https://files.preslib.az/projects/azereco/az/eco_m5_3.pdf
17. https://story.karabakh.center/az/qarabagda-ekosid

QARABAĞIN EKOLOJİ VƏZİYYƏTİ

Sevdimalıyeva Lalə

XÜLASƏ

Qarabağ torpağı Azərbaycana sayısız nemətlər bəxş edən, həm florası, həm də faunasının zənginliyi ilə seçilən ayrılmaz bir parçamızdır. Lakin Ermənistan tərəfindən işğal edildikdən sonra sərvətlərimiz talan edilmiş və meşələrimiz qırılmışdır. Ermənistanın həyata keçirdiyi işğalçı siyasəti Azərbaycan təbiətinə, bioloji müxtəlifliyinə, bütövlükdə regionun ekoloji vəziyyətinə ciddi ziyan vurub, ətraf mühitin deqradasiyası ilə nəticələnən fəsadlara gətirib çıxarıbdır. Əsasən təbii sərvətlərə, xüsusi qorunan ərazilərdəki meşələrə və bitki örtüyünə amansız divan tutulub və Azərbaycan təbiəti üçün xarakterik olan landşaftlar, yüzillik ağaclar, şəlalələr, təbii mağaralar, mədəni park nümunələri, unikal geoloji çıxıntılar, paleontoloji laylar məhv edilib. Bütün bunlar həmin ərazilərdə ekoloji tarazlığın pozulmasına və Cənubi Qafqaz regionunda ekoloji qəzaların yaranmasına səbəb ola bilər.

ЭКОЛОГИЧЕСКАЯ СИТУАЦИЯ КАРАБАХА

Севдималиева Лала

АННОТАЦИЯ

Земля Карабаха является неотъемлемой частью нашей страны, которая приносит Азербайджану неисчислимые блага и отличается богатством своей флоры и фауны. Однако после оккупации Арменией наши богатства были разграблены, а наши леса вырублены. Агрессивная политика Армении нанесла серьезный ущерб природе Азербайджана, биоразнообразию и экологической ситуации в регионе в целом, привела к последствиям деградации окружающей среды. Безжалостно уничтожены в основном природные ресурсы, леса и растительность на особо охраняемых территориях, уничтожены ландшафты, вековые деревья, водопады, естественные пещеры, образцы культурных парков, уникальные геологические выступы, характерные для азербайджанской природы палеонтологические напластования. Все это может привести к экологическим дисбалансам в этих районах и экологическим катастрофам на Южном Кавказе.

ECOLOGICAL SITUATION OF KARABAKH

Sevdimaliyeva Lala

SUMMARY

The land of Karabakh is an integral part of our country, which brings innumerable blessings to Azerbaijan and is distinguished by the richness of its flora and fauna. However, after the occupation by Armenia, our wealth was looted and our forests were cut down. Armenia's aggressive policy has seriously damaged Azerbaijan's nature, biodiversity and the ecological situation in the region as a whole, and has led to the consequences of environmental degradation. Mainly natural resources, forests and vegetation in specially protected areas have been ruthlessly destroyed, and landscapes, centuries-old trees, waterfalls, natural caves, cultural park samples, unique geological projections, paleontological strata typical of Azerbaijani nature have been destroyed. All this can lead to ecological imbalances in these areas and environmental disasters in the South Caucasus.

TURİZMDƏ İSTİFADƏ EDİLƏN "AKTİV TURİZM" ANLAYIŞININ TƏHLİLİ

Ömərov Ömər Mehman oğlu
ATMU-nun II kurs magistrantı
omarov.omar.2001@atmu.edu.az
Elmi rəhbər: t.ü.f.t. dos., Bilalov Bahadur Ənvər oğlu

Açar sözlər: turizm, turizm sənayesi, turizmin inkişafı, aktiv turizm, aktiv turizm, aktiv turizmdə problemlər.
Ключевые слова: туризм, индустрия туризма, развитие туризма, активный туризм, активный туризм, проблемы активного туризма.
Key words: tourism, tourism industry, tourism development, active tourism, active tourism, problems in active tourism.

Giriş. Müasir dünyamızda turizmi XX əsrin ən kütləvi fenomeni, yaşadığımız zamanın ən parlaq hadisələrindən biri kimi, doğurdan da həyatımızın bütün sahələrində rastlaşdığımız, dünyanı və həyata baxış tərzimizi dəyişdirən bir müstəsna hall kimi qəbul edirlir. Turizm ölkə iqtisadiyyatının ən vacib hissələrindən biri sayılır, bu səbəbdən də biz onu təkcə səyahətlər və ya istirahət kimi adlandıra bilmərik. Turizm anlayışı özlüyündə çox geniş bir anlayışdır və turizm bir turisti səyahətdə müddətində müşayiət edən münasibətlərin cəmini, əlaqələrin və hadisələrin vəhdətini ifadə edir.

1960-cı illərdən etibarən kütləvi turizm sənayeləşmiş ölkələrdə və sənayeləşmiş ölkələrdən daha ucuz nəqliyyat xidməti ilə tipik olaraq sahilyanı ərazilərdə yerləşən turizm destinasiyalarına gələn çox sayda turistin daimi axışının mövsimi ifadəsi kimi anlaşılırdı. 1980-ci illərdən etibarən daha uzun tətillər və turizm destinasiyalarının mədəni aspektlərinə artan maraq və tələbat, kütləvi turizmlə bağlı yaranan problemlərin həllinə yönəlmiş alternativ həllər təklif edən "alternativ turizm" – in yaranmasına şərait yaratdı. Macəra, ekoturizm və kəşf turlarının mədəni aspektlərini birləşdirlən yeni səyahət fəlsəfəsi 1990 – cı illərin sonlarında formalaşmağa başladı. Aktiv turizmlə ifadə olunan bu yeni turizm forması istirahəti, təhsili birləşdirmək və turistə, eləcə də ziyarıt edilən əraziyə fayda gətirmək məqsədi daşıyırdı (Qrafik 1.1). Aktiv turizmin ekoturizm və təbiət turizmi ilə bir çox ümumi cəhətləri mövcuddur. Aktiv turizm həmçinin bəzi turizm fəaliyyətləri və macəra, idman, qış, ekstremal turizmin bir hissəsini özündə birləşdirə bilir. Bunlardan əlavə, aktiv turizmə mədəni turların, akademik və elmi ekspedisiyaların bəzi aspektləri də daxil edilir. Bütün bu səyahət formaları arasında bir çox ümumi oxşar faktorlar mövcuddur, lakin ətraflı izahat tələbatı olunduran mühüm fərqliliklər də möcuddur. Aktiv turizm formaları coğrafiya, iqtisadiyyat, ərazi planlaşdırması, hətta tibb kimi müxtəlif sahələrdə çalışan turistlər üçün son dövrlərdə çox populyar turizm məşğuliyyətinə çevrilmişdir [3].



Qrafik 1.1 Mənbə: active-tourism.org

Aktiv turizm anlayışı. Qeyd etdiyimiz kimi aktiv turizm son illərdə böyük inkişaf səviyyəsindədir. Burdan belə bir sual yaranır, bəs aktiv turizm nədir? Elmi ədəbiyyatlarda aktiv turizmə aid dəqiq məlumat verilməmişdir. Hətta bəzi ədəbiyyatlarda aktiv turizm ilə iqtisadi aktiv turizm anlayışları səhv salınmışdır. Lakin, iqtisadi aktiv turizm dedikdə qeyri – rezident turistlərin (xarici turistlərin) ölkə ərazisinə gəlməsi başa düşülür.

Aktiv turizm – səyahət zamanı formalaşan, əvvəlcədən hazırlanmış marşrut üzrə aktiv hərəkət yolu ilə, yəni turistin istirahət və ya idman məqsədləri üçün həyata keçirilən fiziki səylərin xərcləməsi ilə xarakterizə olunan hadisələr və münasibətlər məcmusudur [4].

Aktiv turizm sahəsində son dövrlərdə ortaya çıxan yanaşmalar yəni, XXI əsr cəmiyyətinin tələblərinə uyğunlaşdırılmış yanaşmalar daha ardıcıl təqdiqatların aparılmasına və aşkar nəticələrin əldə edilməsinə şərait yaradır. Dünya miqyasında nəşr olunan çoxsaylı təqdiqatlar var, lakin çox az sayda təqdiqatda bariz və ətraflı formada aktiv turizmi əhatə edir. Aparılan təqdiqatların əksəriyyəti alternativ turizm və ya dayanıqlı turizmlə bağlı araşdırmalarda aktiv turizmin formalarını əhatə edir ki, bu da yanaşma imkanları baxımından daha mürəkkəb anlayışdır. Aktiv turizmin müsbət cəhətləri istər qrup birliyi kimi sosial təsirlərə, istərsə də iqtisadi və ekoloji prespektivə aid olsun, bir çox məqalələrdə vurğulanır. Çox vaxt aktiv turizm kənd əraziləri və həmin ərazilərin davamlı inkişafı ilə əlaqələndirilir, lakin belə əlaqələndirmə olsa da elmi ədəbiyyatlarda bu aktiv turizm kimi adlandırılmır. Bir çox Amerika turizm ədəbiyyatlarında aktiv turizm daha yüngül və yaxud ekstremal formada tətbiq oluna bilən macəra turizminin inteqrasiya olunmuş forması kimi təsvir edilir. Buna baxmayaraq, macəra turizmi daha çox şəxsi risklərin və təhlükələrin olduğu, adrenalin yaranması və sərf edilməsi ilə əlaqəli fəaliyyətləri əhatə edən bir turizm formasıdır. Bundan başqa, Yeni Zelandiya müəllifləri bildirirlər ki, macəra turizmi və aktiv turizm bir – birini tamamlayan turizm formalarını əhatə edir və eyni zamanda insanın kəşf etmək istəyinin davamlı inkişaf etməsinin fərqli mərhələlərini formalaşdırır. Aktiv turizm və macəra turizmi arasındakı əsas fərqə gəldikdə isə, aktiv turizm həyata keçirilən fəaliyyət ilə müəyyən edildiyi halda, macəra turizmi daha çox tək bir destinasiyadakı turizm fəaliyyətidir. Aktiv Turizm Təşkilatı bütün bu anlayış və terminlərin təhlilini təklif edir. Aktiv Turizm Təşkilatı dünya üzrə aktiv turizm üçün turistləri təşviq edir, alimlər, turizm operatorları, qeyri – hökumət təşkilatları, siyasətçilər və ümumilikdə dünya ölkələri arasında bilik, təcrübə və informasiyanın ötürülməsini təşkil edir. Bəzi turizm təqdiqatçıları bu fikirlə razılaşmasa belə Aktiv Turizm Təşkilatı turizm bazarına öz baxışı qrafik 1.2 – dəki kimi göstərir. Aktiv Turizm Təşkilatı oxşar cəhətləri olmasına baxmayaraq aktiv turizmi ekoturizm və macəra turizmindən tam fərqli bir səviyyədə olduğunu söyləyir [3].



Qrafik 1.2 Mənbə: active-tourism.org

Ötən illər müddətində yaponlar, amerikalılar və avropalılar aktiv turizm sənayesində böyük irəliləyişlər əldə edirləb. Bu müddət ərzində Arktika və Antraktikanı da əhatə etməklə bütün qitələrdə 1000 – dən çox marşrut hazırlanıb bazara çıxarılmışdır. Son illərdə turistləri müşayiət edən bələdçilərin hazırlanmasına diqqət ayrılmışdır. Aktiv turist tələblərinə yönəlmiş və istirahətin keyfiyyətini yaxşılaşdıran paltarlar, avadanlıqlar, xüsusi xizəklər və digər aktiv turizm üçün vacib olan malların və ləvazimatları istehsal edən böyük bir sənaye formalaşmışdır. Bütün bunların nəticəsi olaraq aktiv turizmdə iştirak edən turistlərin sayı ildən – ilə artmaqdadır [5].

Bəzi hallarda aktiv turizm və aktiv istirahət anlayışları da səhv salına bilir. Düzdür, həm aktiv istirahətdə, həm də aktiv turizmdə fiziki güc istifadə olunur lakin, bu iki anlayış arasında fərqlər vadır. Aktiv istirahətə misal kimi insanların sadəcə həzz almaq üçün avarçəkmə ilə məşğul olmasını göstərə bilərik. Lakin, aktiv turizm kimi qabaqcadan hazırlanmış xüsusi marşrut üzrə, xüsusi çətinlik səviyyələrində görə turistlərin iştirakı ilə keçirilən turlar başa düşülür [1].

Aktiv turizm ilk növbədə səyahətin xüsusi forması kimi diqqətə alınmalıdır. Səfərinin məqsədindən asılı olmayaraq (buraya müalicə, bərpa, istirahət hətta qazanc əldə etmək (biznes) də daxildir) müəyyən bir əraziyə səfər etmiş turist aktiv turizmin iştirakçısı ola bilər. Məsələn, həkim pasientinə müalicə vasitəsi kimi kiçik bir sağlamlıq yürüşü, uzun gəzintilər tövsiyə edə bilər və ya biznes məqsədləri ilə daimi yaşayış mühitindən digər bir əraziyə səfər etmiş şəxs qısa istirahət olaraq qonaqladığı bölgə üzrə gəzinti turlarında iştirak edə bilər. Aktiv istirahət subyektləri səfərlərin istiqamətindən asılı olmayaraq həm istirahət zonasındakı ziyarətçilər, həm də həmin ərazidə daimi yaşayan yerli sakinlər ola bilərlər çünki, bir çox hallarda yerli sakinlər dağlara, meşələrə və dağətəyi ərazilərə bir neçə günlük səfərlər edə bilər və yaxud bir neçə saatlıq yürüşlərə çıxa bilərlər. Məhz bu səbəbdən da yerli əhalini və istirahət zonalarındakı bəzi ziyarətçiləri turist kimi adlandırmaq üçün əsaslı bir səbəb yoxdur. Buna görə də, turistlərin faktiki sayını və gələnlərin proqnozunu nəzərə almaq, aktiv turizm xidmətləri bazarının seqmentlərini müəyyən etmək üçün xüsusi üsullara ehtiyac duyulur. [2]

Qeyd etdiyimiz nüansları nəzərə alaraq aktiv turizm anlayışını belə qeyd etmək olar. "Aktiv turizm" anlayışı marşurt üzrə aktiv hərəkət yolu ilə xarakterizə olunan turist səyahətlərinin demək olar ki, bütün növlərini əhatə edən turistlərin öz fiziki güclərini xərcləməsi ilə formalaşan turizm növüdür.

Nəticə. Oxşar xüsusiyyətləri olsa belə aktiv turizm və idman turizmini bir – birindən fərqləndirməyi bacarmaq çox vacib məsələdir. İdman turizmində iştirak edənlərin əsas motivasiyası qalib gəlmək arzusudur ki, bunun da nəticəsi olaraq iştirakçılar arasında rəqabətli bir turizm formalaşır. İdman turizmində iştirak edənlərin böyük bir qismi idman klubları, peşəkar orqanizasiyalar kimi rekreasiya məqsədi ilə səyahət etməyən turistlərdən ibarətdir ki, bu da kütləvi aktiv turizmdə olduğu kimi yalnız fərdi idman nəticələri əldə etməyi hədəfləyən turistləri ehtiva edir. Son olaraq idman turizmi haqqında onu deyə bilərik ki, idman turizmi bir çox hallarda yüksək xərclər tələb edən turizm növüdür, xüsusi bir döngüdən sonra daimi olaraq təkrarlanan və iştirakdan sonra dincəlmək və əyləncə tələb edən professional bir fəaliyyətdir.

ƏDƏBİYYAT

1. Мартыновская А. А. Активный туризм: специфика продукта // Научно-методический электронный журнал «Концепт». – 2016. – Т. 45. – С. 86–89
2. Кпаталимова.А.Н, Бузин.А.Н, Культура народов Причерноморья, 2007, №121, С. 40-45

3. A.Munteanu, M.Boghinciuc, A.Coca, B.Ibanesc, Active tourism in Donnelor basin – between possibilities and spatial manifestation
4. https://adrenalinicsilence.kz/
5. https://папарост.рф

TURİZMDƏ İSTİFADƏ EDİLƏN "AKTİV TURİZM" ANLAYIŞININ TƏHLİLİ

Ömərov Ömər

XÜLASƏ

Aktiv turizm ən populyar turizm növüdür. Onun cəlbediciliyi və əsas fərqləndirici xüsusiyyəti yaşından və fiziki inkişafından asılı olmayaraq, demək olar ki, sağlam insan üçün əlçatan və faydalı olmasıdır. Eyni zamanda qeyd etmək lazımdır ki, aktiv turizm turlarında hər kəs iştirak edə bilməz. Bu, şəxsin fiziki və ya psixoloji vəziyyətindən asılı ola bilər ki, bu da onların dinamik, qeyri-standart və bəzən ekstremal səyahətlərdə iştirakına mane olacaq. Belə insanlar üçün turların və ya turist səfərlərinin fiziki fəaliyyət proqramı baxımından daha rahat və daha az gərgin olan passiv turizm var. Onlar təşkil edilən məlumat turları və daha az aktiv və fiziki fəaliyyət tələb etməyən daha çox istirahət turlarıdır. Məqalənin əsas məqsədi aktiv turizm anlayışını öyrənmək və aktiv turizmlə idman, ekstremal və digər turizm növlərini fərqləndirməkdir.

АНАЛИЗ ПОНЯТИЯ «АКТИВНЫЙ ТУРИЗМ», ИСПОЛЬЗУЕМОГО В ТУРИЗМЕ

Омаров Омар

АННОТАЦИЯ

Активный туризм – самый популярный вид туризма. Его привлекательность и главная отличительная черта в том, что он доступен и полезен практически здоровому человеку вне зависимости от возраста и физического развития. В то же время следует отметить, что участвовать в турах активного туризма могут далеко не все. Это может зависеть от физического или психологического состояния человека, что не позволит ему участвовать в динамичных, нестандартных, а иногда и экстремальных путешествиях. Для таких людей существует пассивный туризм, более комфортный и менее напряженный в плане программы физической активности туров или туристических поездок. Им предоставляются познавательные туры, менее активные и не требующие физической нагрузки, и более релаксирующие туры. Основная цель статьи - изучить понятие активного туризма и разграничить активный туризм и спортивный, экстремальный и другие виды туризма.

ANALYSIS OF THE CONCEPT OF "ACTIVE TOURISM" USED IN TOURISM

Omarov Omar

SUMMARY

Active tourism is the most popular type of tourism. Its attractiveness and main distinguishing feature is that it is accessible and useful to almost a healthy person, regardless of age and physical development. At the same time, it should be noted that not everyone can participate in active tourism tours. This may depend on a person's physical or psychological condition, which will prevent him from participating in dynamic, non-standard and sometimes extreme travel. For such people, there is passive tourism, which is more comfortable and less stressful in terms of the program of physical activity of tours or tourist trips. They are provided with informative tours that are less active and do not require physical activity, and more relaxing tours. The main purpose of the article is to study the concept of active tourism and to distinguish between active tourism and sports, extreme and other types of tourism.

AZƏRBAYCAN İQTISADİYYATINA İNVESTİSİYA AXININ MİLLİ İQTİSADİYYATIN İNKİŞAFINDA ROLU

Hüseynov Elçin Tahir oğlu
BDU-nun I magistrantı
htelchin@gmail.com

Açar sözlər: xarici investor, azad iqtisadi zonalar, texnologiya, əmək resursları.
Ключевые слова: иностранный инвестор, свободные экономические зоны, технологии, трудовые ресурсы.
Keywords: foreign investor, free economic zones, technologies, labor resources.

Ölkədə sosial-iqtisadi inkişafı tənzimləməkdən ötrü dövlət iqtisadiyyatda lazımi sahə proporsiyaların formalaşdırılması və investisiya qoyuluşlarından və həmçinin investisiya fəaliyyətindən əldə edilən gəlirlərdən tam və səmərəli istifadəni iqtisadi və hüquqi mexanizmlər vasitəsi ilə tənzimlənməlidir. Sözsüz ki, hər hansı bir sənaye sahəsində və ya sosial sahədə yeni təsərrüfat subyektinin yaradılması, yenidən qurulması, genişləndirilməsi və həmçinin həmin sahələrdə məşğulluğun təmin edilməsi, müəyyən qədər investisiya qoyuluşları olmadan mümkün deyildir. Bu baxımdan həmin təsərrüfat subyektlərinin gəlirlərinin xərclənməsini tənzimləmək və bununla da reinvestisiyaya prosesinə təkan vermək birbaşa dövlətin diqqət mərkəzində olmalıdır.

Xarici investorların digər ölkələrə investisiya yatırmasına müxtəlif motivasiyalar və müxtəlif məqsədlərə nail olmaq perspektivi sövq edir, məsələn: istehlak bazarı əldə etmək; daha ucuz xammal və ixtisaslı işçi qüvvəsi əldə etmək; istehsal xərclərinin azaldılması və yerli güzəştlər hesabına məhsulların reallaşdırılması; təbii ehtiyyatların mövcudluğu; ölkənin strateji mövqeyi [1, s.751]. Beləliklə investisiya fəaliyyətinin dövlət tərəfindən tənzimlənməsi birinci dərəcəli əhəmiyyətə malikdir. Güclü biznes və investisiya mühitini dəstəkləyən siyasi şəraitin yaradılmasında əhəmiyyətli məsələlərdən biri də qanunvericiliyin sabit olmasıdır. Daima dəyişən qanunvericilik investorların öz gəlirlərini planlaşdırmağa mənfi təsir göstərir. Üstəlik mühasibat və audit işi, ətraf mühitə təsir və iş qüvvəsinin idarə edilməsi kimi biznes fəaliyyətlərinə dair qaydaların dəyişməsi investorun xərclərini artırır. Bundan əlavə cari şərait əlverişli olsa belə, qeyri-sabit qanunvericilik mühiti investorlarda əlverişsiz şəraitin yaranacağı riskinin hədsiz böyük olması hissini yarada bilər ki, bu da onları investisiya yatırmaq fikrindən daşındırar.

Xarici investisiya axınlarının tənzimlənməsində dövlət aşağıdakı iqtisadi mexanizmlərdən istifadə etməlidir:

- subyekt və obyektlərdə vergi dərəcələrinin və vergi güzəştlərinin tətbiqi;
- kredit və amortizasiya siyasətinin həyata keçirilməsi, o cümlədən, əsas fondların sürətli amortizasiyası ilə bağlı güzəştlər, ayrı-ayrı istehsal sahələri üzrə dəyişkən və fərqli güzəştlərin müəyyən edilməsi;
- ayrı-ayrı region və istehsal sahələrinin inkişafı üçün subversiya, subsidiya və büdcə borclarının verilməsi;
- dövlət norma və standartlarının müəyyənləşdirilməsi və antiinhisar tədbirlərinin həyata keçirilməsi;
- torpaqdan, sudan və s. təbii ehtiyatlardan istifadə şərtlərinin müəyyənləşdirilməsi;
- qiymətlərin müəyyənləşdirilməsi üzrə tədbirlərin həyata keçirilməsi;
- investisiya layihələrinin ekspertizası və s. tədbirlər nəzərdə tutulur [2, s.32].

Əgər xarici investorlar öz vəsaitlərini ölkədə mövcud və ən qorxulusu ixrac edilən məhsul və xidmətlərin istehsal olunduğu sahələrə yönəltsələr, onda yerli sahibkarlar itkilərlə üzləşərlər. Bu

da ölkə iqtisadiyyatına təbii ki, xeyir yox, əksinə güclü ziyan vurar. Məsələnin bir tərəfi də budur ki, xarici kapital ölkə iqtisadiyyatında rəqabəti güclndirən bir amildir. Lakin, keçid iqtisadiyyatlı ölkələrdə xarici investorlara yaradılan güzəştləri nəzərə alsaq, yerli sahibkarların olduqca çətin vəziyyətə düçar olduğunu anlaya bilərik. Ona görə də xarici investisiyaların və xarici investorların fəaliyyətini tənzimləyərkən dövlət iqtisadiyyatın 4 sahəsini fərqləndirməlidir:

1) Xarici investisiyaların iştirakı qadağan olunmuş sahələr;
2) Xarici investisiyaların qismən iştirak edə biləcəyi sahələr;
3) Xarici investisiyalara açıq sahələr;
4) Xarici investisiyaların cəlb edilməsi üçün xüsusi tədbirlərin görüldüyü sahələr.

Bu kriteriyalarla fəaliyyətini quran dövlətlər, xarici investisiyaların daxili bazara təsirini ölkə iqtisadiyyatı üçün müsbət nəticələr verən axara yönəldə bilrələr. Bu zaman struktur siyasətinin həyata keçirilməsi zərurəti meydana çıxır. Struktur siyasəti ölkənin əsas iqtisadi fəaliyyət istiqaməti ilə müəyyən olunur və onun yeni resursqoruyucu, yüksəktexnologiyalı və ekoloji cəhətdən əlverişli modeldə fəaliyyət göstərməsini təmin edir [3, s.138].

Xarici investisiyaların cəlb edilməsinin mühüm formalarından biri kimi müasir dövrdə azad iqtisadi zonaların formalaşdırılması hesab edilir. Azad iqtisadi zonaların yaradılması məqsədləri bu və ya digər ölkənin iqtisadi, sosial, hətta siyasi mühitlərindən asılı olaraq müxtəlif cür olur. İnkişaf etmiş kapitalist ölkələrində azad iqtisadi zonalar bir qayda olaraq, işsizlikdən əziyyət çəkən və zəif infrastruktura malik geridə qalmış regionlarda yaradılır. Bu cür regionlara zona statusu verən ölkələrin hökumət orqanları bu cür ərazilərə xarici investisiyaların cəlb edilməsindən daha çox mövcud istehsalın inkişafını daha da stimullaşdırmaq və əlavə iş yerlərinin təmin edilməsi kimi məqsədlər güdürlər. Asiyanın Yeni Sənaye ölkələrində zona siyasəti sənayenin əsas elementi kimi çıxış edir və iqtisadi artımın sahəvi anklavlarının yaradılmasına yönəldilir (əsasən ixrac və elmi-texniki zonalar). İnkişaf etməkdə olan ölkələrdə isə əsas məqsəd kimi xarici kapitalın, qabaqcıl texnologiyanın və idarəetmə təcrübəsinin ölkəyə cəlb edilməsi, ixracın stimullaşdırılması, onun strukturunun yaxşılaşdırılması, məşğulluğun artırılması və yüksək ixtisaslı kadrların hazırlanması, torpaq sahələrinin və digər obyektlərin icarəyə verilməsi ilə əlavə mənfəətin əldə edilməsi, kommersiya və s. xidmətlərin göstərilməsi götürülür.

Azad iqtisadi zonaların yaradılması bir qayda olaraq – ayrı-ayrı ərazi və regionların iqtisadi inkişafına, konkret prioritet iqtisadi məsələlərin həllinə, strateji proqram və layihələrin reallaşdırılmasına yönəldilmiş ciddi bir işdir. Belə ki, təcrübə onu göstərir ki, azad iqtisadi zonalarda yaradılmış güzəştlər sistemi bu ərazidə reallaşdırılan proqramlarla birbaşa və sıx əlaqəyə malikdir. Dünya təsərrüfatındakı təcrübəyə əsaslanaraq onu da qeyd edək ki, AİZ-in yaradılması zamanı bəyan edilən ilkin məqsəd və vəzifələr demək olar ki heç vaxt faktiki inkişafın nəticələri ilə üst-üstə gəlmir.

Bunları nəzərə alaraq cəlb edilmiş külli miqdarda xarici investisiya hesabına daxili bazarı tənzimləyərkən xarici investisiyaların ölkə iqtisadiyyatına göstərə biləcəyi təsirləri nəzərə almalıdır. Həmin təsirlər aşağıdakılardır:

Ölkə iqtisadiyyatına yeni texnika və texnologiyaların cəlb edilməsi - Ölkəyə cəlb edilmiş xarici investisiyaların hansı formada olmasından asılı olmayaraq həmin investisiyaları yatıran investorlar özləri ilə birlikdə fəaliyyət göstərdikləri sahələrə yeni texnika və toxnologiyaları cəlb etməyə məcbur olurlar. Çünki, dünya baarına rəqabət qabiliyyətli məhsulun çıxarılması birbaşa olaraq mənimsənilən texnika və texnologiyalardan birbaşa asılıdır. Beynəlxalq elmi-texniki bilik və xidmətlər bazarında əməkdaşlığın aşağıdakı formaları mövcuddur: birgə elmi-tədqiqat işləri; sifarişli elmi-tədqiqat işləri; texniki sənədləşmənin mübadiləsi (satılması və ötürülməsi); nümunələrin və materialların mübadiləsi; elmi-texniki avadanlıqların icarəsi; lisenziyaların alqı-

satqısı; texnoloji proseslərin mübadiləsi; yeni texnika və texnologiyanın istehsalı üzrə birgə müəssisələr. Həmçinin beynəlxalq miqyasda sənaye və digər obyektlərin layihələşdirilməsi və tikilməsi prosesində beynəlxalq injinirinqdən istifadə edirlər. İnjinirinq bir dövlətin digərinə mühəndis hesablama, məsləhət və mühəndis inşaat xidmətlərinin verilməsidir.

Ölkədə mövcud lakin, üzə çıxarılmamış və ya az istifadə olunan potensialın mənimsənilməsi - Xarici investisiyaların cəlb olunması ilə ölkə iqtisadiyyatında başlanan canlanma bir qayda olaraq iqtisadiyyatın digər sahələrinə təzahür etməyə başlayır. Əvvələr nəzər və diqqətdən bu və ya digər səbəbdən kəna rqalan sahələr artıq indi lazımlı və əvəzedilməz olurlar. Bununla da tarixən potensial halında olan iqtisadiyyat sektorları artıq real sektorlara çevrilirlər.

İxracın artması və idxalı əvəz edən sənayenin formalaşması - Xarici investisiyaların ölkə iqtisadiyyatına gətirə biləcəyi yeniliklərdən biri də idxal yönümlü sahələrin canlandırılmasıdır. Yəni xarici investor resipient ölkənin uzun illər boyu idxal etdiyi məhsul və ya xidməti həmin ölkənin özündə istehsal etməyə yön alır. Əvvəla həmin məhsul və xidmətlərə daxili bazarda tələbat olur. İkincisi isə resipient ölkə xarici investor üçün bu sahədə xeyli güzəştlər edir. Olduqca abstrakt olmasın deyə belə bir misal çəkək. Azərbaycan istifadə etdiyi şəkər tozunun bir hissəsini daim idxal edir. Səbəbi Azərbaycanın SSRİ-nin tərkibində olduğu zaman bu məhsulun bol olan ittifaq ölkələrindən idxalı idi ki, o da bu sahənin inkişafını bizim ölkədə buxovlamışdı. Şəkər tozu kimi gündəlik istifadədə əvəzsiz və daim istifadə olunan məhsulun ölkənin daxili potensialı hesabına istehsal edilməsi həm dövlətin strateji məqsədlərinə həm də bu sahəyə investisiya yatırmağa çalışan investorun məqsədlərinə uyğun gələr. Hələ bu zaman şəkər tozu istehsalı ilə yanaşı kənd təsərrüfatının müvafiq sahəsindəki baş verəcək canlanmanı nəzərə almasaq, Azərbaycanda bu sahəyə investisiya yatırımlarının artırılması mühüm əhəmiyyət kəsb edir.

Təbii ehtiyatlarla və əmək resursları ilə zəngin regionların mənimsənilməsi - Daxili bazarı tənzimləyərkən dövlət əvvəla özünün birbaşa funksiyasını yerinə yetirir. Yəni o, əhalinin müvafiq həyat tərzini və həyat səviyyəsini təmin etmək məqsədi ilə iqtisadiyyatın bu və ya digər sahələrinə, iqtisadi proseslərə müdaxilə edir. Əgər xarici investor təbii ehtiyyatlarla və işçi güvvəsi ilə zəngin regionlara vəsait yatırmaq istəyirsə, onda belə güman etmək olar ki, onun istəyi ilə dövlətin məqsədi üst-üstə düşür. Ancaq belə gümanlar adətən düz çıxmır heş də həmişə dövlət xarici investroların bu istəyini bir mənalı qarşılamır. Doğrudur heş bir dövlət bu cür fəaliyyətin qarşısını almağa çalışmaz və investorlar da asanlıqla öz fikirlərindən dönməzlər. Lakin, potensialı gizli olan regionların potensiallarını tam üzə çıxarmaq və xarici investorları həmin regionlara cəlb etmək dövlətin bu sahədə ən ümdə vəzifəsi olmalıdır. Bu cür regionlarda istehsal olunacaq məhsul və xidmətlər həm ölkənin daxili tələbatlarını ödəyə bilər həm də ixrac yönümlü ola bilərlər. Məsələn, dağlıq zonalarda qış xizək sürmə düşərgələrinin salınması. Xarici ölkələrin təcrübəsi burada əvəzsizdir. İllərlə bu sahədə çalışan firmaları ölkəyə cəlb etməklə dövlət turizmi həmin regionda inkişaf etdirmiş olar.

Yeni iş yerlərinin açılması və yeni istehsalat mədəniyyətinin formalaşdırılması - Xarici investisiyaların ölkə iqtisadiyyatında formalaşdırdığı makroiqtisadi dəyişikliklərdən ən mühüm yeni iş yerlərinin açılması və əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsidir. Sözsüz ki, açılmış yeni iş yerlərində xarici investorlar yeni istehsalat mədəniyyətini istehsal prosesinə nüfuz etdirirlər. Yeni texnika və texnologiya ilə davranma ilə yanaşı ən əsası yeni idarəçilik mədəniyyətinin – menecment institutunun bərqərar olması ölkə iqtisadiyyatı üçün mühüm əhəmiyyət kəsb edir.

İnfrastrukturun inkişaf etdirilməsi - Yüksək keyfiyyətli infrastruktur investor və sahibkarların bazara giriş xərclərini azaldır, ixracatın inkişafını asanlaşdırır, əmək və torpaq ilə əlaqədar oxşar

daxili xərcləri təklif edən, lakin az inkişaf etmiş infrastruktura malik digər məkanlara nisbətən rəqabətədavamlı üstünlüyünü təmin edir.

Xarici investor fəaliyyət göstərdiyi sahədə hökmən özünün normal fəaliyyət göstrməsi üçün müvafiq infrastrukturun mövcudluğuna diqqət yetirir. Əgər onun fəaliyyət göstərəcəyi ölkədə lazımi infrastrukturun olmadığını görsə, onda həmin ölkəyə vəsait yatırmaqdan boyun qaçıra bilər. Belə olan təqdirdə həmin ölkədə xarici investorların infrastruktur layihələrində iştirakı stimullaşdırılmalıdır. Doğrudur əgər dövlət müvafiq infrastrukturüzü təmin edə bilərsə, onda bu cür tədbirlərə əl atmaq lazım deyildir. Fəaliyyətlə məşğul olmağa başlayan xarici investor hökmən az və ya çox dərəcədə öz sahəsi ilə əlaqəli infrastrukturu yeniləyir və ya təkmilləşdirir. Bu zaman daxili bazara təsir edə biləcək makroiqtisadi dəyişikliklər baş verməyə başalyır. İlk öncə infrastruktur layihələrində işə cəlb olunanalar işlə təmin olunurlar. Həmin infrastruktur layihələrində işləyən daimi işçilərin və müvəqqəti işçilərin hamısı məşğul hesab olunurlar. Daxili bazarda bazara xidmət edən infrastrukturun qurulması üçün lazımi avadanlıqlar, materiallar və s. alınır. Bir sözlə əgər ümumi ölkə səviyyəsində bu prosesə baxsaq və nəzərə alsaq ki, xarici investisiyalar iqtisadiyyatın müxtəlif sahələrinə cəlb olunub onda, təsəvvür edə bilərik ki, yalnız bu sahələrin infrastrukturunun təmini üçün nə qədər yeni fəaliyyət sahələri formalaşacaq, köhnələri daha artıq güclə fəaliyyətlərini davam etdirəcəklər. Bunu da qeyd etmək lazımdır ki, xarici investisiyaların əsasən emal, tədarük və kənd təsərrüfatı məhsullarının saxlanılması ilə məşğul olan sahələrin infrastrukturunun inişafına yönəltmək mühüm əhəmiyyət kəsb edir [3, s.145].

Daxili bazarın elementlərindən savayı onun strukturu da mövcuddur. Bu struktur olduqca mürəkkəbdir. Xarici investisiyalar daxili bazarın hər hansı sektoruna cəlb eilməsindən asılı olmayaraq digərlərinə təsir edir. Lakin, elə sektorlar və sahələr tapılar ki, həmin sahələrə bu təsir həddən artıq az olur. Bu zaman dövlətin tənzimləyici funksiyası özünü büruzə verməlidir. Dövlət xarici investisiyaların cəlb edilməsinin nəticəsində əldə etdiyi gəlirlərin bir hissəsini inkişafdan geri qalan lakin, ğlkə üçün əhəmiyyətli sahələrə yönəltməlidir. Bununla da daxili bazarın çatışmamazlıqlarını aradan qaldırmağa çalışır. Bu çatışmamazlıqları dövlət zəif inkişaf etmiş sahələrdə xarici investisiya üçün xüsusi investisiya mühiti formalaşdırmaqla da edə bilər. Lakin, elə sahələr var ki, həmin sahələr stratejidir və dövlət daxili bazarın həmin bölməsinin maliyyələşməsini ya birbaşa büdcə vasitəsi ilə ya da digər dövlət fondları vasitəsi ilə təmin etməlidir. Hərbi sənaye buna bariz nümunədir.

Beləliklə bu nəticəyə gələ bilərik ki, xarici investisiyalar daxili bazarın tənzimlənməsində birbaşa və ya dolayı yolla daxili bazarın çatışmamazlıqlarının aradan qaldırılmasında təzahür edir.

Beləliklə, birbaşa xarici investisiyalar və onunla birlikdə texnologiya, idarəetmə vərdişləri və i.a. milli firmaların istehsal metodlarının modifikasiyasına imkan verir. Məhz birbaşa investisiyalar axınının stimullaşdırmadan yeni texnologiyalar əldə oluna bilmir. Texnologiyaların alınması çox bahadır və əksər inkişaf edən və keçid dövrünü yaşayan ölkələr üçün əl çatmazdır. Beləliklə, birbaşa xarici investisiyalar yerli firmalar üçün texnologiyalar paketini artıran vasitədir. Yeni texnologiyaların yerli şəraitdə adaptasiyası mühüm faktdır. Bu halda daha tez adaptasiyası qəbul edən ölkənin iqtisadiyyatına xarici effekt göstərir.

Xarici investisiyaları qəbul edən ölkənin iqtisadiyyatına təsirinin qiymətləndirilməsinin əhəmiyyətli məsələlərindən biri ondan ibarətdir ki, məcmu kapital fondunun həcminin xarici investisiyaların axını hesabına artması, yeni kapital qoyuluşlarını stimullaşdırır. Bu effekt xarici investisiyaların cəlb edilməsi hesabına kapital yığımının artması adlanır. Onun əksi milli investisiyaların xarici investisiyalarla sıxışdırılması effektidir.

Birbaşa xarici investisiyaların bütövlükdə kapital yığımı səviyyəsinə təsiri müxtəlif ölkələrdə milli siyasət, xarici investisiyaların formaları, milli kompaniyaların rəqabətqabiliyyətliliyindən asılı olaraq əhəmiyyətli dərəcədə dəyişir. Kapital qoyuluşunun artırılması effektinə nail olmaq üçün qəbul edən ölkədəki mövcud olan bir sıra şəraiti nəzərə almaq lazımdır.

ƏDƏBİYYAT

1. Национальная экономика: учебник / под ред. П. В. Савченко. — М.: Экономисть, 2005. (813 с.)
2. Allahverdiyev H.B., Məmmədov Z.T. "İnvestisiya proseslərinin tənzimlənməsi", Bakı-2003, (84)
3. Государственное регулирование экономики**:** Учеб. Пособие для вузов / Т.Г. Морозова, Ю.М. Дурдыев, В.Ф. Тихонов и др.; Под ред. проф. Т.Г. Морозовой. — М.: ЮНИТИ-ДАНА, 2002. (255)

AZƏRBAYCAN İQTISADİYYATINA İNVESTİSİYA AXININ MİLLİ İQTİSADİYYATIN İNKİŞAFINDA ROLU

Hüseynov Elçin

XÜLASƏ

İstənilən ölkənin iqtisadi inkişafının sürətlənməsi və müsbət dinamika alması onun müxtəlif sahələrinə investisiyaların cəlb edilməsindən birbaşa asılıdır. Bu amil müasir iqtisadi münasibətlər prosesində daha qabarıq hiss edilir. Çünki bu gün dünya, yaşayışının bütün təzahürləri ilə, o cümlədən iqtisadi reallıqları etibarilə qloballaşmışdır. Belə ki, milli iqtisadiyyatlar arasında əlaqələr intensivləşmiş, demək olar ki, sözün əsl mənasında dünyanın vahid təsərrüfat sistemi formalaşmışdır. Vahidləşmə mütləq anlayış olmasa da müasir prosesləri izah etməyə daha yaxın bir anlayışdır. Belə bir şəraitdə investisiyalara baxışda və onların özlərinin mahiyyətində bir sıra yeniliklər olmuşdur.

РОЛЬ ИНВЕСТИЦИОННЫХ ПОТОКОВ В ЭКОНОМИКУ АЗЕРБАЙДЖАНА В РАЗВИТИИ НАЦИОНАЛЬНОЙ ЭКОНОМИКИ

Гусейнов Эльчин

АННОТАЦИЯ

Ускорение и положительная динамика экономического развития любой страны зависит от привлечения инвестиций в различные ее сферы. Этот фактор более ярко проявляется в процессе современных экономических отношений. Потому что сегодня мир глобализирован во всех его проявлениях, в том числе и в экономических реалиях. Таким образом, активизировались связи между национальными хозяйствами, практически в прямом смысле этого слова сформировалась единая мировая экономическая система. Унификация не является абсолютным понятием, но оно ближе к объяснению современных процессов. В таких обстоятельствах произошел ряд нововведений в том, как рассматриваются инвестиции и в самой их природе.

THE ROLE OF INVESTMENT FLOWS IN THE ECONOMY OF AZERBAIJAN IN THE DEVELOPMENT OF THE NATIONAL ECONOMY

Huseinov Elchin

SUMMARY

The acceleration and positive dynamics of the economic development of any country depends on attracting investment in its various areas. This factor is more clearly manifested in the process of modern economic relations. Because today the world is globalized in all its manifestations, including economic realities. Thus, ties between national economies became more active, practically in the truest sense of the word, a single world economic system was formed. Unification is not an absolute concept, but it is closer to the explanation of modern processes. Under these circumstances, there have been a number of innovations in the way investments are viewed and in their very nature.

PREZİDENTLİK İNSTİTUTUNDA ŞƏXSİYYƏT AMİLİNİN ROLU

Hüseynov Xəzər Elsevər oğlu
BDU-nun II kurs magistrantı
xzr.huseynov@mail.ru

Açar sözlər: xarizmatik lider, uğurlu prezident, xalqın prezidenti
Ключевые слова: харизматичный лидер, успешный президент, президент народа
Key words: charismatic leader, successful president, president of the people

Dünya praktikasında sübut olunmuşdur ki, tarix boyu inkişaf etmiş dövlətlərin, nüfuz qazanmış dövlətlərin uğurunun əsas səbəblərindən biri dövlətin başında dayanan şəxslə bağlıdır. Tarixə qeyd olunmuş çox hadisələr mövcuddur ki, inkişaf etmiş bir dövlətin başına keçən şəxsin bacarıqsızlığı üzündən həmin dövlət məhv və ya böhranla üzləşmişdir. Bunun tam əksinə olaraq süqut etmək astanasında olan bir dövləti yenidən ayağa qaldıran prezidentlər, rəhbərlər də olur. Bu təkcə dövlət səviyyəsində deyil, şirkət, təşkilat səviyyəsində də baş verir.

Prezident bir lider olmalıdır. Bir lider olaraq prezidentin qarşısında hər gün yeni-yeni şərtlər müəyyənləşdirilir. Təbiiki ən mühüm və dəyişilməz olan şərt yaranmış dövlətçilik ənənələrinə sadiqlik, onu qoruyub saxlamaq, qlobal siyasi təsirlərdən müdafiə etməkdir. Prezidentlərin bir şəxsiyyət olaraq öyrənilməsi bir nəzəriyyəyə çevrilib və bu nəzəriyyənin tərəfdarları insanın tarix və siyasətdəki rolunu onun şəxsi keyfiyyətləri ilə əlaqələndirirlər və bu keyfiyyətlərə onun bilik, bacarıq, siyasi istedad, şəxsi nüfuzunu aid edirlər. Bu amilin tərəfdarları siyasətdəki bütün hərəkətləri insan şəxsiyyətinin həll etdiyi qənaətindədirlər. Nəzəriyyəyə görə liderin şəxsi keyfiyyətləri onun siyasi inancından və siyasi mövqeyindən daha əhəmiyyətlidir. Siyasi proseslər sabit deyil, hər an dəyişə bilər və liderin bu proseslərə necə cavab verməsi əsas məsələdir. Bu isə şübhəsiz ki, şəxsiyyət amili ilə bağlıdır. O baxımdandır ki, bugün əksər dövlətlərin prezidentləri xüsusi prezidentlik məktəbi keçərək, liderlik xüsusiyyətlərinə yiyələndirilirlər, hazırlıq keçirlər. Onlarla neçə illərlə xüsusi imicmeykerlər, natiqlər məşğul olur. Bu hətta prezidentlik zamanında da davam edir.

"Prezident və Şəxsiyyət" nəzəriyyəsinin bariz sübutunu ölkəmizin tarixinə nəzər yetirsək aydın görə bilərik. 1990-1995-ci illərdə baş verən hadisələr yaranmış hərc-mərclik, siyasi etirazlar, dövlət çevrilişi cəhdlərinin əsas səbəbləri ölkə rəhbərlərinin iradə zəifliyi, idarəçilik biliklərinin mümkün qədər olmaması idi. Çevrilişə cəhd edənlər, xaricdən təsir etməyə çalışanlar, ermənipərəst qüvvələr hakimiyyətin boşluğundan istifadə edirdilər. Ölkəyə xarizmatik, lider bir şəxsiyyət lazım idi. Sosial qrup kimi Azərbaycan xalqını nəzərdən keçirsək, liderliyə tələbatda bu nəzəriyyə də özünü doğruldur. Azərbaycan xalqı yaranmış ekstremal situsasiyada (1988-1993-cü illər) dövlətin başında dayanan hər bir şəxsdə (Ə.Vəzirov, A.Mütəllibov, Ə.Elçibəy) liderlik keyfiyyətlərini axtardı, bu keyfiyyətləri görmədikdə isə həmin rəhbərləri lider kimi qəbul etmədi. Bu şəxs Heydər Əliyev idi. Onlar Heydər Əliyevin insani keyfiyyətlərini 1969-1987 aralığında görmüşdü. Onun prezidentlikdən əvvəlki fəaliyyəti hakimiyyətə çağırılmasına səbəb oldu. Hamı çıxış yolunu onda görürdü. Belə liderlər tarixdə çox olub, amma onların əksəriyyəti böyük, güclü, hərbi gücə və silaha malik ölkələrin, xalqların nümayəndələri olmuşlar. Amma Heydər Əliyev, sosializm və bazar iqtisadiyyatının kəsişməsində, öz müstəqilliyini elan etmiş, lakin qura bilməmiş hərbi xaosun bürüdüyü Azərbaycan Respublikasını dirçəltməyi bacardı.

Dünya politoloqları tərəfindən Heydər Əliyevin hakimiyyət dövrü çox araşdırılıb və heyrətlə qarşılanıb. Əksər poliqoloqlar tərəfindən "Xarizmatik lider" olaraq adlandırılıb. Anadangəlmə

keyfiyyətlərlə yanaşı, xarizmatik liderin formalaşmasında qazanılmış xüsusiyyətlər - onun xarakteri, həyat təcrübəsi nəticəsində əldə etdiyi digər keyfiyyətlər - təşəbbüskarlıq, özünə inam, məqsədyönlülük, geniş bilik sahəsi, yüksək intellekt, çalışqanlıq çox mühüm rol oynayır. Bu iki keyfiyyət - liderliyin anadangəlmə və qazanılma xüsusiyyətləri birlikdə xarizmatik liderliyin endogen nəzəriyyəsinin əsasını təşkil edir. Ekzogen nəzəriyyəni iddia edənlər isə deyirlər ki, "idarə edən" sosial qrupdur, qrup onun maraqlarını və arzularını həyata keçirə biləcək, gözləntilərini doğruldacaq bir şəxsi lider seçir. Heydər Əliyev hər iki nəzəriyyəyə uyurdu, anadangəlmə keyfiyyətləri və həyat təcrübəsində əldə etdiyi idarəetmə bacarıqlarının cəmi onun xarizmasını tamamlayırdı.

Heydər Əliyev ilk növbədə yerinə yetirdiyi vəzifəsinə uyğun bir şəxsiyyət idi, verdiyi qərarlarda öz gücünə inanırdı, zaman və məkandan asılı olaraq düzgün qərarqəbuletmə bacarığına sahib idi. Əbülfəz Elçibəy vəziyyəti nəzərə almadan hakimiyyətə gələn kimi latın qrafikalı əlifbaya keçidlə bağlı qərar qəbul etdi, doğru qərar olmasına baxmayaraq, zaman baxımından düzgün seçim deyildi, xalq keçidə hazır deyildi. Heydər Əliyev isə daha dərindən düşündü, hakimiyyətə gələndən yalnız 8 il sonra, 2001-ci ildə latın qrafikalı əlifbaya keçid qərarını verdi. Həmin müddət ərzində bu prosesin həm psixoloji, həm də nəzəri - texniki problemləri aradan qaldırıldı. 1994-cü ilin 20 sentyabrında "Əsrin müqaviləsi" adlanan neft sazişlərinin imzalanması da zamanında verilmiş düzgün qərar idi.

O, həm də güclü natiq idi, auditoriya qarşısında hamının diqqətini özünə cəlb etməyi bacarırdı, şəraitdən asılı olaraq nitqini anidən dəyişirdi. Hansı təbəqə insanla necə davranmaq lazım olduğunu bilirdi, böyük siyasətçi olmaqla bərabər ən əsası humanist bir Azərbaycan vətəndaşı idi.

Heydər Əliyev bütün fəaliyyəti ərzində cəsarəti ilə seçilib, istər Dövlət Təhlükəsizlik Komitəsində işləyəndə, istər Sovet dövründə, istərsə də prezidentliyi dövründə. Bu müddət boyunca baş verən hadisələr dünya liderlik tarixində cəsarətliliyə dair ensiklopediyalara düşə biləcək nadir nümunələrdəndir. 1990-cı ilin 21 yanvarında Moskvada Azərbaycanın Daimi Nümayəndəliyinə gedərək M.Qarbaçovu ifşa edəcək çıxış etdi, 1991-ci il 17 iyulda Sov. İKP sıralarından istefa ərizəsi yazaraq çıxdı, 1991-ci ilin mart referendumunun Naxçıvan MR-də keçirilməsinə qəti şəkildə etiraz etdi və qadağa qoydu, 1993-cü ilin iyununda Surət Hüseynovun kriminal dəstələrinə qarşı Gəncəyə şəxsən özü getdi, 4 oktyabr 1994-cü ildə və 16 mart 1995-ci ildə dövlət çevrilişlərinə cəhdlərin qarşısını aldı. 2000-ci ilin 25 noyabrında Bakıda güclü zəlzələ baş versə də, o, öz kabinetində fəaliyyətini davam etdirirdi. 2003-cü ilin 22 aprelində indiki Heydər Əliyev sarayındakı çıxışı zamanı huşunu itirməsinə, həkimlərin də etiraz etməsinə baxmayaraq, yenidən tribunaya dönüb çıxışını bitirməsi əsl əzmkarlıq nümunəsidir.

O, uzaqgörənliyi ilə də seçilirdi və onun uzaqgörənliyi bugün özünü göstərir. Sovet dövründə Azərbaycana rəhbərliyi dövründə gördüyü işlərin demək olar ki, hamısı sonradan öz bəhrəsini verib və verməkdədir. Milli Ordumuzun təşkili, zabit kadrların hazırlanması üçün C.Naxçıvanski adına hərbi məktəbin əsasını qoydu və bu gün generallarımızın əksəriyyəti bu məktəbin müdavimləridir. Azərbaycan gələcəyinin təhsili və elminin inkişafı üçün hər il minlərlə gənci Sovet İttifaqının ali aparıcı ali məktəblərinə, akademiyalarına təhsil və elm dalınca göndərirdi. Onların oxumasına maddi və mənəvi dəstək verdi. Bu gün qüdrətli dövlət olan Azərbaycanın qurulmasında və inkişafında həmin kadrların rolu danılmazdır.

Yüksək təşkil olunma və təşkil etmə. Heydər Əliyevin bir dövlət xadimi kimi müvəffəqiyyətinin əsasında bu keyfiyyət dayanır desək yanılmarıq. O, bütün işləri çox vacib hesab edirdi, adi bir tədbir, çıxış, görüş kimi baxmırdı. Ümummilli lider heç bir tədbirə hazırlıqsız getmirdi, onun geyimi, səliqə - sahmanı, nitqi, davranışı, hətta səsinin tembri də qarşıya qoyulan məqsədə çatmağa xidmət edirdi.

Güclü yaddaş, dərin zəka, intellekt, yüksək səviyyəli savad, əvəzolunmaz natiqlik qabiliyyəti Heydər Əliyevin siyasi portretinin bənzərsiz cəhətləridir. Onun xarici görkəmi belə hamını məftun edirdi: hündürboylu, sərt baxışlı, şux yerişli idi. Dəqiq jestləri, valeh edici nurlu siması diqqət cəlb edirdi. Dünyaca məşhur estrada müğənnisi, SSRİ-nin xalq artisti Alla Puqaçovanın Heydər Əliyev haqqında söylədiyi "Həyatımda ondan gözəl və müdrik kişi tanımırdım" fikri milyonlarla insanın qəlbindən keçənləri ifadə edirdi.

Heydər Əliyev siyasi kursunun davamçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev heç də Heydər Əliyevdən geri qalmır. Həm atası olaraq keçən irsi xüsusiyyətlər, həm də vəzifə sələfi olaraq öyrəndikləri eyni cəhətlərin onda da olmasına gətirib çıxardı. Cənab İlham Əliyev dövlət idarəçiliyinə dair hər hansı mühüm qərar qəbul etməzdən öncə "Heydər Əliyev bu məsələni necə həll edə bilərdi" sualına cavab tapmağa çalışdığını deyir. Özündə dərin mənəvi-psixoloji çalarları ehtiva edən bu məqam Heydər Əliyev siyasi kursunun varisliyinin yüksək səviyyədə təmin olunduğuna dəlalət edir.

2003-cü il oktyabrın 15-də Azərbaycan Respublikasının Prezidenti seçilən Cənab İlham Əliyev 18 illik bu müddət ərzində etdiyi və bugün davamını gətirdiyi düzgün siyasətlə Azərbaycan xalqının dərin sevgisini qazanıb və dünyada nüfuzlu bir siyasətçi kimi tanınır. "Onun ən böyük özəlliyi nədədir" sualını qoysaq heç şübhəsiz ki, ilk növbədə siyasətdə şəxsiyyət amilinin roluna nəzər yetirməliyik. Əldə olunan nəticələr, Azərbaycan xalqının milli maraqlarını düşünərək atılan addımların məntiqi sonluğu ölkə başçımızın bütün insani keyfiyyətlərinin və idarəçilik qabiliyyətinin vəhdət formada bir şəxsdə təşəkkül tapmasından xəbər verir.

Prezident İlham Əliyev şəxsiyyəti modern cəmiyyətdə lider obrazının ən mühüm cəhətlərini özündə birləşdirir. O, xalqın prezidentidir. Və siyasətinin əsasında da xalq dayanır. Məhz bu konsepsiyanı öz siyasətinin əsas sütunu kimi görən ölkə başçımız "Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır" dedi və Azərbaycan xalqının rifah halının hər keçən il daha öncəki ilə nisbətdə daha da yaxşılaşdırması üçün mümkün olan və dünya siyasi tarixində bənzəri olmayan, mümkün olmayan bütün vasitələri mümkün edərək onlardan istifadə etdi. Daim gəncləri, əlilləri, ehtiyaclı şəxsləri dövlət dəstəyi ilə təmin edir. Gənclərin hakimiyyətdə təmsil olunmasına şərait yaradır. Gənc nəsil onun diqqətində ön sıralardadır.

İlham Əliyevin savadı, natiqlik qabiliyyəti onu fərqləndirən xüsusiyyətlərdəndir. Siyasətin nəzəri və empirik məzmunu biliklə, yüksək şəxsi keyfiyyətlər və qabiliyyətlə icra olunan davranış formalarının məcmusundan ibarətdirsə, ölkə başçımız dünyanın nüfuzlu ali təhsil ocağı olan Moskva Beynəlxalq Münasibətlər İnstitutunda təhsil aldığı zaman siyasi elmlərin nəzəriyyəsinə, hər incəliyinə yiyələnərək, daha sonra həmin təhsil ocağında elmi-pedaqoji fəaliyyətlə məşğul olub tələbə ordusu yaradaraq, ardınca isə siyasətin pratikasına dərindən bələd bir lider kimi ictimai və siyasi proseslərin yeniləşməsində və təkmilləşməsində bayraqdar kimi çıxış edərək öz mükəmməl siyasi portretini də məhz özü cızdı. Dövlət rəhbərinin şəxsi keyfiyyətləri, hazırlıq səviyyəsi, istedad və qabiliyyəti dövlətin xarici siyasətinin mahiyyətinə təsir göstərir. Dövlət rəhbərinin beynəlxalq siyasəti dərindən bilmək məharəti olmalıdır. Xarici dillərin əksəriyyətini yüksək səviyyədə bildiyinə görə xarici səfərlərində tərcüməçiyə ehtiyac duymur. Bu isə çox az dünya liderinə xas xüsusiyyətdir. Dövlət rəhbərinin qanunlara və beynəlxalq hüquq normalarına uyğun şəkildə davranışı və siyasəti icra etməsi onun etik davranışlarının əsaslarını təşkil edir. Şəxsiyyətin nitqi də cəmiyyətdə və dövlət siyasətində proqram xarakteri daşıyaraq dövlət siyasətinin istiqamətləndirilməsində mühüm əhəmiyyət kəsb edir.

2020-ci il Münhen Təhlükəsizlik Konfransında Ermənistan Baş naziri İlham Əliyevlə danışığında həm dil qaydalarını düzgün bilmədiyindən, həm də danışığın həyəcanından

"Qarabağ Azərbaycanın bir hissəsi, yox üzr istəyirəm...." demişdi. İlham Əliyevin siyasi arenalarda nitqlərinin əsası Qarabağ münaqişəsi ilə bağlı olurdu. İllər ərzində cənab Prezident İlham Əliyevin atdığı addımların arxasında dayanan məsələ Qarabağ problemi idisə, müharibə dövründə qarşılaşdığı təzyiqlər, bu təzyiqlərə təmkinlə verdiyi cavablar yaranma və yaratma qanunları baxımından isbata ehtiyac duyulmayan aksiomdur. "Mən xalqımdan heç nəyi gizlətmirəm" deyərək xalqa hər müraciətində cəbhədən xəbərləri məhz özü çatdırması, xalqını əmin edərək mesaj verməsi ki, "Nəyi, necə, nə vaxt etmək lazımdır, bunu mən bilirəm" ölkə başçımızın prioritet olaraq xalqın milli maraqlarını görməsindən xəbər verir. "Bəs xalq öz liderinə necə cavab verdi?" sualını qoysaq Azərbaycanda və dünyanın fərqli bucaqlarında məskən salan, lakin qəlbi Vətən eşqi ilə yanan azərbaycanlılar tək bir avazla "Öldü var, döndü yoxdur!" deyərək öz Liderinin ətrafında yumruq oldular, o "Dəmir Yumruğu" Liderə olan güvənləri ilə daha da möhkəm etdilər.

Yuxarıda deyilənlərdən məlum olur ki, İlham Əliyevin bütün qələbələrinin ən böyük səbəbi onun iradəsi, əzmi insani keyfiyyətləridir.

Prezidentlik institutunda şəxsiyyət amilinin rolundan danışarkən təkcə ölkə başçısının xüsusiyyətlərini deyil, onun ətrafında olan şəxslərdən danışmaq lazımdır. Çünki prezidentlik bir institut olaraq təkcə prezidentdən ibarət deyil. Bugün prezidentlərin ətrafında cəmləşən şəxslərin nüfuzu da ölkə nüfuzuna dolayısı ilə təsir edir. İlham Əliyevin özünün belə şəxsiyyət amilinə diqqətinin bariz sübutudur ki, I Vitse Prezident vəzifəsinə təyin etdiyi ölkənin I xanımı Mehriban xanım Əliyevanın humanistliyi, keçirdiyi tədbirləri, idarəçilik qabiliyyəti göz qabağındadır. Həmçinin II Qarabağ Müharibəsi dövründə xalqın sevimlisinə çevrilən Hikmət Hacıyevin cəsarəti və natiqliyi. Və bütün ətrafında olan şəxslər ilk öncə şəxsiyyət olaraq seçilir və fərqlənirlər.

ƏDƏBİYYAT

1. Xalqa, vətənə, dövlətə sədaqət, Bakı, 1997
2. Elmira Axundova, Şəxsiyyət və Zaman, Bakı 2007
3. Ə.Həsənov, Heydər Əliyev şəxsiyyəti: xarizmatik liderin səciyyəvi cəhətləri
4.https://ikisahil.az/post/255737-taleyuklu-qerarlarda-shexsiyyet-amilinin-rolu-prezident-ilham-eliyevin-fealiyyeti
5. https://xalqqazeti.com/mobile/az/news/96316

PREZİDENTLİK İNSTİTUTUNDA ŞƏXSİYYƏT AMİLİNİN ROLU

Hüseynov Xəzər

XÜLASƏ

Məqalənin əsas mövzusu liderlərin, xüsusilə də Azərbaycanda prezidentlərin bir şəxsiyyət olaraq xüsusiyyətləridir. Ümumiyyətlə şəxsiyyət amili prezidentlik institutuna necə təsir edir? sualıdır. Prezident hər şeydən öncə bir insandır və onun bütün uğurlarının arxasında həmin o insan keyfiyyətləri dayanır. Ona görə də hər kəs lider ola bilmir. Heydər Əliyev və İlham Əliyevin şəxsiyyətlərinə dərindən nəzər saldıqda onların tariximizdə ən uğurlu diplomat olduqlarını görürük. Onların həyatı elmdə "Prezident və Şəxsiyyət" mövzusunu yenidən aktuallaşdırdı.

РОЛЬ ЛИЧНОСТНОГО ФАКТОРА В ИНСТИТУТЕ ПРЕЗИДЕНТА

Гусейнов Хазар

АННОТАЦИЯ

Основная тема статьи - характеристика лидеров, особенно президентов в Азербайджане, как личности. Как вообще фактор личности влияет на институт президентства? это вопрос. Президент – это, прежде всего, человек, и за всеми его успехами стоят эти человеческие качества. Поэтому не каждый может быть лидером. Если мы внимательно посмотрим на личности Гейдара Алиева и Ильхама Алиева, то увидим, что они самые успешные дипломаты в нашей истории. Их жизнь возродила в науке тему «Президент и личность».

THE ROLE OF THE PERSONALITY FACTOR IN THE PRESIDENTIAL INSTITUTE

Huseynov Khazar

SUMMARY

The main topic of the article is the characteristics of leaders, especially presidents in Azerbaijan, as a person. In general, how does the personality factor affect the institution of the presidency? is the question. The President is, above all, a man, and behind all his successes are those human qualities. Therefore, not everyone can be a leader. When we look closely at the personalities of Heydar Aliyev and Ilham Alıyev, we see that they are the most successful diplomats in our history. Their lives revived the theme of "President and Personality" in science.

QLOBALLAŞMA VƏ AZƏRBAYCANDA MİLLİ-MƏNƏVİ DƏYƏRLƏR

Əlişova Səma Rövşən qızı
BDU-nun Azərbaycanda siyasi proseslər ixtisası II kurs magistrantı
sema.alisova.95@mail.ru

Açar sözlər: Qloballaşma, qloballaşmanın təsirləri, milli-mənəvi dəyərlər, mədəni müxtəliflik.
Ключевые слова: глобализация, влияние глобализации, национально-моральные ценности, культурная разнообразность.
Keywords: Globalization, the effects of globalization, national and moral values, cultural diversity.

Müasir qloballaşma dövründə elmi-texniki tərəqqinin sürətli inkişafı real həyatda yüksək nailiyyətlərə, mütərəqqi dəyişikliklərə yol açsa da, bu prosesin tarixi-mədəni irsə, əxlaqi-mənəvi dəyərlərə müəyyən təhlükə meylləri də özünü qabarıq göstərir.

Milli-mənəvi dəyərlər əlbəttə çox geniş məvfumdur. Lakin burada birinci novbədə torpaq, dil, ocaq, əcdad, övlad və qadınla bağlı şərəf, ləyaqət və namus ənənələrini nəzərdə tutmaq lazımdır. Müasir Avropada və Amerikada bir sıra xalqların milli faciə, qlobal fəlakət kimi yaşadığı müasir əxlaqi demoqrafik bəlalara (ailə-nikah-nəsil böhranı, alkoqol-narkoman-nihilizm sərxoşluğu ilə bağlı ifratlara) qarşı ən yaxşı sipər təbii-insani, milli tarixi sərvətləri müqəddəs tutub qorumaqdır.

Müstəqil Azərbaycan dovlətinin mədəniyyət siyasətinin həyata kecirilməsində əsas çətinliklərdən biri də qloballaşmadır. Müstəqilliyə qədəm qoymuş gənc bir dövlət üçün qloballaşma adı altında milli-mənəvi dəyərlərinin sıxışdırılması, onun məhvinə gətirib cıxara bilər. Qloballaşma beynəlxalq aləmdə labüd olan bir proses kimi həyatımızdan yan kecə bilməz. Bir şərtlə ki, bu prosesdən ümumi inkişafımız üçün səmərəli istifadə edə biləк [5].

Mütəxəssislərin böyük əksəriyyətinin gəldiyi ümumi qənaət belədir ki, çağdaş dünyamızda, bütövlükdə XXI əsrdə bəşəriyyətin inkişafını ilk növbədə qloballaşma müəyyənləşdirəcəkdir.

Qloballaşma, əslində, yeni hadisə deyil, bəşər tarixində bu prosesin reallaşmasına, daha doğrusu, xalqların, dövlətlərin birləşməsinə, qaynayıb-qarışmasına, indiki anlamda inteqrasiyasına, vahid siyasi, iqtisadi və sosial-mədəni məkana çevrilməsinə dəfələrlə cəhdlər olmuşdur. Qüdrətli cahangirlər, güclü imperiyalar zaman-zaman bu iddiaya düşmüş, silah gücünə böyük ərazilər tutmuş, ayrı-ayrı xalqları, dövlətləri tabe etdirmiş, amma bütün dünyaya yiyələnmək heç kəsə nəsib olmamışdır. Bu missiyanı bir qədər başqa formada öz üzərinə götürən dünyəvi dinlərin də heç biri bütün bəşəriyyətin vahid bayraq altında birliyinə hələ ki, nail olmamışdır.

Bu ideyalar Qərbdə yarandığı üçün harada yerləşməsindən, milli, dini mənsubiyyətindən, adət-ənənələrindən, hansı mənəvi dəyərləri daşımasından asılı olmayaraq, bütün xalqları, millətləri, dövlətləri eyni qəlibə salmağı, eyni cür düşünüb-daşınıb hərəkət etməyi nəzərdə tutur. Başqa sözlə, qloballaşma müstəqil dövlətlər arasındakı sədləri dağıdaraq, özünəməxsusluğu, rəngarəngliyi tədricən aradan qaldıraraq cəmiyyətdəki sosial münasibətləri yeni məcraya yönəldir, milli mentalitetindən asılı olmayaraq bütün xalqları, millətləri, əslində, qərbləşdirir.

Beləliklə, yaşadığımız minilliyin əvvəllərindən çox böyük sürət götürən qloballaşma prosesi qarşısıalınmaz bir cərəyana çevrilir. Bu qədər xoşəgəlməz cəhətlərinə baxmayaraq, qloballaşmanı xalqlar, millətlər, dövlətlər üçün cəlbedici edən nədir? Cavab sadədir: Heç kəs təcrid olunmaq, bəşəriyyətin ümumi inkişafından geri qalmaq istəmir. O cümlədən də Azərbaycan. Dünyaya uğurla inteqrasiya edən və beynəlxalq birliyin ayrılmaz hissəsinə çevrilən

ölkəmiz qloballaşmadan, həmçinin cəmiyyət həyatında gedən modernləşmə prosesindən, bəşəriyyətin magistral inkişaf yolundan kənarda qala bilməz.

Şübhəsiz, bəşəriyyətin sürətli inkişafından geri qalmamaq həyati əhəmiyyətli məsələdir, indiki zamanda bunun alternativi yoxdur. Lakin bu, xalqımızın "öz simasını" əsrlər boyu qoruyub-saxladığı milli-mənəvi dəyərləri itirmək hesabına olmamalıdır. Ümummilli lider Heydər Əliyev "Yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciəti"ndə bu narahatlığı belə ifadə etmişdir: "Dünya inkişafının indiki mərhələsinin başlıca meyilləri mədəni inteqrasiya və qloballaşmadır. Əgər bəşəriyyət XX əsri elmi inkişafın nailliyyətlərinin yaratdığı xoş ümidlərlə qarşılamışdısa, qloballaşma prosesi çox vaxt heç də nikbinlik doğurmur. Bu mürəkkəb və birmənalı qiymətləndirilməyən prosesin perspektivləri, bir çox ölkələr üçün yaratdığı problemlər bizi də düşündürür".

Azərbaycan bəşəriyyətin beşiyi olan nadir ölkələrdən biridir. Burada yaşayış çox erkən yaranmışdır. Azıx mağarasından tapılmış azıxantrop Azərbaycanın ən qədim insan məskənlərindən biri olmasını təsdiqləyir. Qobustan və Gəmiqayadakı daş və qaya üzərindəki təsvirlər, petroqliflər, Kür-Araz və Xocalı mədəniyyətinə aid arxeoloji tapıntılar sübut edir ki, Azərbaycanda ən qədim dövrlərdən bəri mədəniyyət mövcud olmuşdur. Ötən minilliklər ərzində bəşər sivilizasiyasını ayrılmaz hissəsi kimi, azərbaycanlılar dünya mədəniyyəti xəzinəsinə çox sanballı töhfələr vermiş, özünəməxsus zəngin mədəni-mənəvi irs yaratmışlar. Ulu öndər Heydər Əliyevin qeyd etdiyi kimi, "biz nadir bir irsin varisləriyik. Hər bir Azərbaycan vətəndaşı bu irsə layiq olmağa çalışaraq böyük bir tarixi keçmişi, zəngin mədəniyyəti, yüksək mənəviyyatı olan ölkəmizin həm dünəninə, həm bu gününə, həm də gələcəyinə dərin bir məsuliyyət hissi ilə yanaşmalıdır" [7].

Azərbaycançılıq ideyaları ruhunda tərbiyə olunan gənc nəsil xalqımızın gələcək qələbələrinin təminatçısıdır. Əsrlər boyu yad təsirlərə məruz qalmağımıza baxmayaraq, xalqımız mənlik şüuru, əxlaqi dəyərlərə sədaqəti sayəsində dilini, dinini, milli adət-ənənələrini qoruyub saxlaya bildi. Milli dəyərlərimizin xalqımızın formalaşmasında və milli dövlətçiliyimizin möhkəmləndirilməsində xüsusi rolu olduğu üçün onların qorunaraq gələcək nəsillərə çatdırılması bu gün də çox aktualdır. Milli ideologiya, milli tarix, milli dil, dinimiz, milli mədəniyyət və incəsənət, milli ədəbiyyat, milli özünüdərk, ailə, dahi şəxsiyyətlərimiz, milli musiqimiz, muğamlarımız, fərdi yaddaşı, etnos yaddaşını, millətin, xalqın yaddaşını ehtiva edən folklorumuz məhz bu qəbildəndir.

Adət-ənənə ilə əxlaq arasında qırılmaz tellər olduğu kimi, şəxsiyyətlə kollektiv və cəmiyyət arasında da qırılmaz bağlılıq mövcuddur. Hər bir ənənə müəyyən əxlaqi məna daşıyır. Onlara laqeyd qalmaq insanlar arasında münasibətlərin pozulmasına, şəxsiyyətlə kollektiv və cəmiyyət arasında ziddiyyətlərin əmələ gəlməsinə səbəb olur. Çünki milli-mənəvi dəyərlər xalqın milli-estetik ruhunu və duyumunu, sənətkarlıq qüdrətini özündə yaşadır. Hazırda bu mənəvi dəyərlər zəngin mədəni irs olmaqla bərabər, eyni zamanda, milli özünəməxsusluğun ifadə vasitəsidir.

Azərbaycan xalqının milli-mənəvi irsini ehtiva edən ideyanın - azərbaycançılığın təşəkkül və inkişafına müstəsna diqqət yetirmiş Ulu Öndər milli-mənəvi dəyərlərimizin öyrənilməsini, qorunub saxlanmasını və inkişaf etdirilməsini əsas vəzifələrdən biri kimi irəli sürürdü. "Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı - Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq", - deyən Ümummilli Liderimiz azərbaycançılığı milli bir ideologiya kimi irəli sürmüş, mədəniyyətimizi, mənəvi dəyərləri təkcə milli varlığımızın yox, həm də siyasi varlığımızın - dövlət quruculuğu prosesinin mühüm atributu kimi dəyərləndirmişdir. Mənsub olduğu xalqın tarixi keçmişinə, mədəni irsinə və mənəvi dəyərlər sisteminə sönməz məhəbbət duyğularıyla yanaşan görkəmli dövlət xadimi müdrik şəxsiyyət kimi qeyd edirdi ki, aydın və dərk olunmuş

milli ideologiya hər bir xalqın irəliyə doğru inkişafının yol göstərəni və bələdçisidir. Sevindirici haldır ki, "Biz öz milli-mənəvi dəyərlərimizlə, adət-ənənələrimizlə fəxr edirik", - deyən Ümummilli Liderin işıqlı ideyaları bu gün də yaşayır və həyata keçirilir.

Önəmli məqamlardan biri də milli-mənəvi dəyərlərimizin qloballaşma prosesi ilə qarşı-qarşıya qoyulmaması, onların bu prosesin içində əriməsinin qarşısını almaqdır. Qloballaşma heç də milli-mənəvi dəyərlərimizdən imtina etmək deyil, əksinə, həmin dəyərlərin daha geniş arealda təbliği üçün böyük fürsətdir. Bu baxımdan Azərbaycanda milli-mənəvi dəyərlərə qayıdışın qloballaşma ilə "toqquşmaması" sevindirici haldır. Sözün əsl mənasında Azərbaycanın qədim, rəngarəng mənəvi dəyərləri, mədəni irsi hazırda xalqın fəxr mənbəyi və dünya mədəniyyətinə töhfəsi qismində çıxış edir. Bu sahəyə dövlət qayğısının gündən-günə artması və beynəlxalq təcrübənin tətbiqi istiqamətində görülən işlər qeyri-maddi mədəni irsin gələcəyinə nikbin baxmağa ümidləri artırır. Milli-mənəvi dəyərlərimiz xalqımızın simasında zaman-zaman yaşamışdır. Bizi başqa xalqlardan, millətlərdən fərqləndirən də elə bir çox məqamda milli-mənəvi dəyərlərimiz, mədəniyyətimiz, mənəviyyatımızdır. Bu mənada Azərbaycan ailəsi də başqa ailələrdən fərqlənir. Ailələrimizdə böyüyə hörmət, ata-anaya sevgi, ehtiramla davranmaq, kiçiklərə qayğı, diqqət əsas göstəricilərdəndir. Bizim gələcək nəsillərə örnək olan əxlaq, tərbiyə simvolu, məhəbbət etalonu kimi daim hörmətlə anılan nümunəvi ailələrimiz çoxdur. Bu ailələr Azərbaycan xalqına sözün həqiqi mənasında böyük şəxsiyyətlər, dahilər bəxş etmişdir. Ümummilli Liderimiz Heydər Əliyev mənəvi dəyərlərimizi təkcə milli varlığımızın yox, həm də siyasi varlığımızın - dövlət quruculuğu prosesinin mühüm xüsusiyyəti kimi dəyərləndirib. O bildirib ki, "milli-mənəvi dəyərlərini qoruyub saxlayan xalq həmişə müstəqillik yolu ilə getmək və müstəqilliyi qorumaq əzmində olacaqdır". Çünki milli dövlətçilik və milli-mənəvi dəyərlər arasında sıx bir daxili əlaqə vardır. Bu mənada yalnız milli kimliyi bəlli olan və özünü bir millət kimi dərk edən xalqın aydın və perspektivli inkişaf yolu ola bilər. Bir də unutmayaq ki, Azərbaycan xalqı bu günədək məhz milli-mənəvi dəyərlərinə bağlılığı sayəsində özünün mövcudluğunu, milli özünəməxsusluğunu qoruyub saxlaya bilib [6].

Mədəniyyətin qloballaşması dünya mədəni dəyərlərinin sintezini və yeni formada təşəkkülünü ehtiva edir. Müasir dünyamızda xalqlar arasında mədəni əlaqələrin genişləndirilməsi, onların ünsiyyəti və qarşılıqlı şəkildə bir-birini dərk etməsi həmin xalqların yaxınlaşmasını şərtləndirir. Lakin belə yaxınlaşma heç də təsirsiz ötmür. Bu, azsaylı xalqların özünəməxsusluğunun böyük xalqların mədəniyyətinin təsiri altında unudulmasına, mədəni eyniliyin yer almasına şərait yaradır**.** Dünya əlaqələrinin qloballaşması bizim iradəmizdən asılı olmayaraq inkişaf edən bir prosesdir. Buna qarşı etiraz etmək demək olar ki, mümkünsüzdür. Lakin vahid iqtisadi mədəniyyətin formalaşması prosesi öz-özlüyündə bir çox xalqlarda mədəni özünəməxsusluğun qismən və ya tam itirilməsinə real təhlükələr yaradır. Beləliklə, qloballaşma neqativ və pozitiv tərəflərə malikdir. Qloballaşmanın neqativ tərəfi mədəni özünəməxsusluğun qismən və ya tam itirilməsi təhlükəsi ilə bağlıdır. Qloballaşmanın pozitiv tərəfi isə xalqların dünya sisteminə inteqrasiya olunması prosesinin sürətləndirilməsi, başqa xalqlarla mədəni əlaqələrin genişləndirilməsi ilə bağlıdır.

Azərbaycan dünyada multikultiralizm dəyərlərinin nümunəsi kimi, etnik, dini, sosial mənsubiyyətindən asılı olmayaraq bütün vətəndaşların bərabər, həmrəy və qarşılıqlı dostluq şəraitində yaşadığı unikal ölkələrdəndir. Bu bəşəri dəyər olmamışdan əvvəl bizim milli dəyərimiz olub, qədimdən bu ənənə yaşadılıb bu günlərə kimi davam etdirilir. Hazırda isə bu həm dövlət siyasəti, həm də ictimai münasibətlər sistemi kimi inkişaf etdirilir.

Xalqlar arasında milli-mənəvi dəyərləri ilə tanınan Azərbaycan xalqı təbliğ etdiyi ideyaları, adət-ənənləri, milli xüsusiyyətləri ilə dünya sivilizasiyasında özünəməxsus yer tutur. Qloballaşan dünyada milli dəyərlərimizi unutmamalı və bu dəyərlərə sadiq qalmalıyıq. Hər bir ölkə və xalq

üçün onun milli dəyərləri hər şeydən üstün tutulmalı və digər xalqların dəyərləri ilə ziddiyyət təşkil etməməlidir.

Əlbəttə, bu da faktdır ki, heç vaxt iki xalq bir-birinin tam eyni ola bilməz, eyni dəyərləri paylaşa bilməz. Hər xalqın öz qayda-qanunları, öz adət-ənənələri var. Azərbaycan xalqının da tarixi köklərinə, əcdadları tərəfindən yaradılmış milli-mənəvi dəyərlərinə bağlılığı böyük amildir. Biz də bu böyük sərvəti zərərli təsirlərdən göz bəbəyi kimi qorumaqla yanaşı, şübhəsiz, dünyanın mütərəqqi mənəvi dəyərlərindən istifadə edərək, bu sahədə daha da zənginləşməli, gənc nəsli daha sağlam, saf əhval-ruhiyyədə və milli dəyərlər əsasında tərbiyələndirməliyik**.** Xalqımızın mənəvi dünyasını zənginləşdirən, tariximizi və mədəniyyətimizi ucaldan, birliyimizi təmin edən milli-mənəvi dəyələri qoruyub saxlamaq hər birimizin müqəddəs borcudur.

ƏDƏBİYYAT

1. A.N.Abbasbəyli " Müasir beynəlxalq münasibətlər və qloballaşma", Bakı 2017, 165 s.
2. A.Şükürov "Qloballaşmış cəmiyyətlər dünən, bu gün sabah", Bakı 2006, 191 s.
3. N.Sabiroğlu "Qloballaşma və xarici investisiyalar", Bakı 2006, 288 s.
4. R.Aslanova "Qloballaşma və mədəni müxtəliflik" Bakı 2004, 263 s.
5. Elçin Bayramlı. "Milli-mənəvi dəyərlər əsasında tərbiyə qloballaşma kontekstində". 2019, "Beynəlxalq Mətbuat Klubu", Azadinform informasiya agentliyi
6. Q. Piriyev. "Qloballaşma və milli-mənəvi dəyərlər". Xalq qəzeti. 2010. 25 fevral. S. 4.
7. A. Səfərli. "Milli-mənəvi dəyərlərimiz çağdaş qloballaşma şəraitində". "Tələbələrin və gənc tədqiqatçıların "Müasir Azərbaycan mətbuatı və "525-ci qəzet" mövzusunda elmi konfransı", 2019.
8. "Azərbaycan və qloballaşan dünya mədəniyyəti", Hürriyyət.- 2019.- 12-13 sentyabr.- S.12.
9. Уткин А.И. Глобализация: процесс и осмысление. Москва, 2001
10. Бязрова Дж. Б. "Глобализация и проблема нравственных ценностей". Философия и общество. Выпуск №4(37), 2004.

QLOBALLAŞMA VƏ AZƏRBAYCANDA MİLLİ-MƏNƏVİ DƏYƏRLƏR

Əlişova Səma

XÜLASƏ

Müasir dövrdə dünyanın sürətlə qloballaşması fərdlərin və cəmiyyətlərin həyatına böyük təsir göstərir. Fərqli mədəniyyətlər arasında ortaq təmas nöqtələrinin tapılması, dialoqa nail olunması, informasiya və kommunikasiya texnologiyalarının sürətli inkişafı bir tərəfdən müsbət dəyişikliklərə səbəb olsa da, digər tərəfdən milli-mənəvi dəyərlər sistemini təhlükə altına atır.

Mədəniyyətlərin mübadiləsi ilə müşahidə olunan qloballaşma milli identiklik və milli özünəməxsusluğu aradan qaldırır.

Bütün bunların qarşısını almaq məqsədilə dövlətlər elmin, təhsilin inkişafı və özünün sahib olduğu mənəvi dəyərləri qorumaq istiqamətində mühüm addımlar atmalıdır.

Xalqlar arasında milli-mənəvi dəyərləri ilə tanınan Azərbaycan xalqı təbliğ etdiyi ideyaları, adət-ənənləri, milli xüsusiyyətləri ilə dünya sivilizasiyasında özünəməxsus yer tutur. Qloballaşan dünyada milli dəyərlərimizi unutmamalı və bu dəyərlərə sadiq qalmalıyıq.

ГЛОБАЛИЗАЦИЯ И НАЦИОНАЛЬНО-МОРАЛЬНЫЕ ЦЕННОСТИ В АЗЕРБАЙДЖАНЕ

Сяма Алишова

АННОТАЦИЯ

В современный период ускоренная глобализация в мире сильно влияет на жизнь индивидуумов общества. Несмотря на нахождение общих точек соприкасание между различными культурами, достижение диалога, быстрое развитие информационных и коммуникационных технологий с одной стороны приводят к положительным изменениям, с другой стороны подвергает опасности национально-моральные ценности.

Сопровождаемая культурным обменом глобализация устраняет национальную идентичность и национальную своеобразность.

С целью предотвращения всего указанного государства должны предпринять важные шаги в направлении защиты развития науки, образования и принадлежащих им моральных ценностей.

Среди других народов известный своими национально-моральными ценностями Азербайджанский народ пропагандируемыми идеями, обычаями и традициями, национальными особенностями занимает своеобразное место в мировой цивилизации. В глобализирующимся мире мы не должны забывать наши национальные ценности и быть привержены этим ценностям.

GLOBALIZATION AND NATIONAL-MORAL VALUES IN AZERBAIJAN

Sema Alishova

SUMMARY

In the modern period, accelerated globalization in the world strongly affects the life of individuals and society. Despite the finding of common points of contact between different cultures, the achievement of dialogue, the rapid development of information and communication technologies, on the one hand, lead to positive changes, on the other hand, endangers national moral values.

Globalization, accompanied by cultural exchange, eliminate national identity and national uniqueness.

In order to prevent aforementioned governments should take important steps towards protecting the development of science, education and their moral values.

Among other nations, the people of Azerbaijan, known for their national and moral values, with the propagated ideas, customs and traditions, national characteristics, occupy a peculiar place in the world civilization. In a globalizing world, we must not forget our national values and be committed to these values.

BEYNƏLXALQ KAPİTAL İXRACI ƏMƏLİYYATLARI

Mustafazadə Nicat Sadiq oğlu
BDU – nun II kurs magistrantı
nicat.mutafazadeh@gmail.com

Açar sözlər: Kapital ixracı, kapital idxalı, beynəlxalq investisiyalar, beynəlxalq kredit, borc kapitalı bazarı
Ключевые слова: экспорт капитала, импорт капитала, международные инвестиции, международный кредит, рынок заемного капитала.
Keywords: export capital, import capital, international investment, international credit, debt capital market.

Dünya təsərrüfatının inkişafının müasir mərhələsində beynəlxalq iqtisadi münasibətlərin əsas inkişaf amillərindən biri kimi kapital ixracı, onun beynəlxalq hərəkəti çıxış edir. Beynəlxalq iqtisadi münasibətlərin beynəlxalq ticarət, elmi-texniki məhsullarla beynəlxalq mübadilə kimi formaları valyuta-maliyyə aspektləri ilə müşayiət olunur: ixrac-idxal əməliyyatlarının reallaşdırılması zamanı beynəlxalq hesablaşmalar həyata keçirilir və ya beynəlxalq kreditlər tələb edilir. İşçi qüvvəsinin beynəlxalq miqrasiyası zamanı isə əmək haqqı köçürmələri baş verir. Beləliklə, kapitalın beynəlxalq hərəkəti beynəlxalq iqtisadi münasibətlərin həm inkişaf şərti, həm də bu inkişafın nəticəsidir [1].

"Kapitalın beynəlxalq hərəkəti anlayışına bu prosesin təkamül yolundan çıxış etməklə nəzər salaq. Kapitalın beynəlxalq hərəkətinin formalaşması və inkişafı beynəlxalq iqtisadi münasibətləri əmtəələrlə beynəlxalq ticarət, beynəlxalq əmək miqrasiyası kimi formalarından xeyli gec başlamışdır. Kapitalın ixracı imkanının yaranması üçün ilk növbədə kapitalın ölkə daxilində kifayət qədər əhəmiyyətli yığımına malik olmaq lazım idi. Bu cür imkan kapitalın beynəlxalq təkamülünün birinci mərhələsində meydana gəlmişdir. Bu mərhələ kapitalın ilkin yığımı prosesinin bitməsindən və kapital istehsal münasibətlərinin inkişafından sonra, XVII-XVIII əsrlərin astanasında başlamış və XIX əsrin sonlarına qədər davam etmişdir. Bu mərhələni "kapital ixracının yaranması mərhələsi" adlandırırlar. Bu zaman kapital ancaq bir istiqamətdə - metropoliyalardan müstəmləkələrə doğru hərəkət edir və məhdud, təsadüfi xarakter daşıyırdı [2].

Kapitalın beynəlxalq hərəkətinin təkamülünün ikinci mərhələsi öz başlanğıcını XIX əsrin sonlarından götürür və XX əsrin ortalarına qədər davam edir. Bu mərhələdə kapital ixracı həm sənayecə inkişaf etmiş ölkələr arasında, həm də sənayecə inkişaf etmiş ölkələrlə inkişaf etməkdə olan ölkələr arasında baş vermişdir. Kapital ixracı tipik, təkrar olunan və xarakterik hadisəyə çevrilir ki, bu da qeyd olunan mərhələni "kapital ixracı mərhələsi" adlandırmağa imkan verir [3,s.97].

Beləliklə, kapital ixracı kapitalın bir hissəsinin ölkənin milli dövriyyəsindən çıxarılması və daha yüksək mənfəət əldə edilməsi məqsədilə onun əmtəə və ya pul formasında digər ölkənin istehsal prosesinə və dövriyyəsinə daxil edilməsidir. Lakin, dünya təsərrüfatının müasir inkişaf mərhələsində təkcə kapital ixracından danışmaq kifayət deyil. XX əsrin 50-60-cı illərindən etibarən indiyə qədər davam edən kapitalın beynəlxalq hərəkətinin təkamülünün üçüncü mərhələsi başlayır. Bu mərhələdə baş verən prosesləri **"**kapitalın beynəlxalq miqrasiyası" termini daha aydın əks etdirir ki, bunun da bir neçə səbəbi var.

Birincisi, kapital ixracını təkcə sənayecə inkişaf etmiş ölkələr deyil, həm də bir çox inkişaf etməkdə olan ölkələr həyata keçirirlər.

İkincisi, ölkələr eyni zamanda həm kapital ixracatçısı, həm də idxalatçısı kimi çıxış edirlər.

Üçüncüsü, kapital ixracı öz həcminə görə kapitalın əks hərəkətini (kreditə görə faizlər, sahibkar mənfəəti, səhmlərə görə dividendlər formasında) meydana gətirir [4, s.124].

Yuxarıda deyilənlərdən çıxış edərək, kapitalın beynəlxalq hərəkəti dünya təsərrüfatının müxtəlif ölkələri (onların sosial-iqtisadi inkişaf səviyyələrindən asılı olmayaraq) arasında kapital sahiblərinə əlavə gəlir gətirən kapitalın qarşılıqlı hərəkəti prosesidir.

Kapitalın beynəlxalq hərəkətinin obyektiv əsası kimi ölkələrin iqtisadi inkişafında olan qeyri-bərabərlik çıxış edir ki, bu da praktikada özünü aşağıdakılarda göstərir:

- bəzi ölkələrdə kapital yığımında çatışmazlıq olduğu halda, digər ölkələrdə kapital "artıqlığı" mövcud olur;
- dünya təsərrüfatının müxtəlif həlqələrində kapitala olan tələb və təklifin üst-üstə düşməməsi.

Burada "nisbi artıqlıq" termininin işədilməsi təsadüfi deyil. Belə hesab edilir ki, iqtisadi cəhətdən istehsal sonsuz artım tendensiyasına malikdir və deməli, kapitala hər zaman tələb mövcud olmalıdır. Bununla yanaşı, kapital ixracı hətta onun ölkə daxilində çatışmazlığı hiss edilən zaman da həyata keçirilə bilər, çünki bazar iqtisadiyyatı şəraitində kapital qoyuluşu gözlənilən gəlir həcmindən birbaşa asılıdır. Kapitalın beynəlxalq hərəkəti prosesinin inkişafına iki qrup amillər təsir edir. Onlar aşağıdakılardır:

1. İqtisadi xarakterli amillər:

- istehsalın inkişafı və iqtisadi artım templərinin dəstəklənməsi;
- həm dünya iqtisadiyyatında, həm də ayrı-ayrı ölkələrin iqtisadiyyatlarında elmi-texniki inqilabın təsiri və dünya xidmət bazarının inkişafı nəticəsində baş verən köklü struktur dəyişiklikləri;
- beynəlxalq əmək bölgüsünün dərinləşməsi;
- dünya iqtisadiyyatının transmilliləşməsinin artımı;
- istehsalın beynəlmiləlləşməsinin artımı və inteqrasiya proseslərinin inkişafı;
- beynəlxalq iqtisadi münasibətlərin bütün formalarının aktiv inkişafı.

2. Siyasi xarakterli amillər:

-kapital ixracının (idxalının) liberallaşdırılması (xüsusi iqtisadi zonaların, offşor zonalarının yaradılması və s.);

-"üçüncü dünya" ölkələrində sənayeləşdirmə siyasətinin həyata keçirilməsi;

- iqtisadi islahatların həyata keçirilməsi (dövlət müəssisələrinin özəlləşdirilməsi, özəl sektorun, kiçik biznesin dəstəklənməsi);
- məşğulluq səviyyəsinin dəstəklənməsi siyasətinin reallaşdırılması.

Ölkənin kapitalın beynəlxalq hərəkətində iştirakı ümumilikdə bir sıra göstəricilərdə əks olunur. Mütləq göstəricilər kimi kapital ixracının həcmi, kapital idxalının həcmi, kapitalın ixrac-idxal saldosu, ölkədə xarici kapitallı müəssisələrin sayı, onlarda məşğul olanların sayı və s.-ni fərqləndirirlər. Saldodan çıxış edərək dünya ölkələri əsasən kapital ixrac edən ölkələr (Yaponiya, İsveçrə), əsasən kapital idxal edən ölkələr (ABŞ, Böyük Britaniya) və təxmini tarazlığa malik ölkələr (Almaniya, Fransa) kimi fərqləndirilirlər [5,s.234].

Digər göstəricilər nisbi göstəricilər hesab edilir. Onlar kapitalın beynəlxalq hərəkətində qüvvələr düzülüşünü və ölkənin kapital ixracı-idxalından asılılığını daha real əks etdirirlər. Bu göstəricilər sırasına asağıdakıları aid etmək olar:

1. Kapitalın idxalı əmsalı (Kid) – xarici kapitalın (XK) ölkənin ümumi daxili məhsuluna (ÜDM) nisbətini əks etdirir:

$$Kid = XK/ÜDM \times 100\%$$

2. Kapitalın ixracı əmsalı (Kix) – ixrac edilən kapitalın (İK) ÜDM-yə nisbətini əks etdirir:

$$Kix = İK/ÜDM \times 100\%$$

3. Xarici kapitalın ölkədə kapital qoyuluşuna olan daxili ehtiyaclara nisbətini əks etdirən əmsal:

$$Ke = XK/T(K) \times 100\%$$

Burada Ke ehtiyac əmsalı, XK xarici kapital və T(K) ölkədə kapitala olan tələbdir.

4. Digər nisbi göstəricilər: xarici və ya qarışıq müəssisələrin milli istehsalda payı, kapital ixracının (idxalının) əvvəlki dövrə nisbətən artım tempi, adambaşına düşən xarici investisiya. Kapitalın beynəlxalq hərəkəti bir sıra reallaşma formasına malikdir ki, onlar da praktikada bir sıra əlamətlərinə görə təsnifləşdirilir.

Öz mənbəyinə görə dünya bazarında hərəkətdə olan kapital əsasən rəsmi (dövlət) və özəl kapitala bölünür.

Qeyd edim ki, innovasiya fəaliyyətinin inkişafında xarici kapitalın rolunun gücləndirilməsi iqtisadi inkişafın aparıcı amillərdən hesab olunur. Məlumdur ki, kapital ixracı, özünün ölkədəki kapitalın bir hissəsinin dövriyyədən çıxardaraq, xaricə yerləşdirilməsidir. Kapital ixracı beynəlxalq iqtisadi münasibətlərin ən inkişaf etmiş, formalarından biridir. Son 30 ildə kapital ixracı dünyada ÜDM-in artımını xeyli qabaqlamış, innovasiya fəaliyyətinin inkişafında xarici kapitalın rolunun gücləndirilməsi iqtisadi inkişafın aparıcı amillərindən hesab olunur. Kapital ixracı kapital sahibinin özünün ölkədəki kapitalın bir hissəsinin dövriyyədən çıxardaraq, xaricə yerləşdirilməsidir. Kapital ixracının dünyada artımının başlıca səbəbi inkişaf etməkdə olan dövlətlərin öz milli iqtisadiyyatlarının müasir texnologiyalar əsasında inkişafına diqqətin güclənməsi, çoxşaxəli rəqabət qabiliyyətli iqtisadiyyatın yaradılması hesabına dünya bazarında mövqelərinin genişləndirilməsidir. Bu baxımdan Azərbaycan Respublikası da beynəlxalq əmək bölgüsündə yerini yaxşılaşdırmaq, ixrac istehsalını inkişaf etdirmək və innovasiyaya əsaslanan çoxsahəli iqtisadiyyat yaratmaq məqsədilə xarici kapitaldan istifadəyə böyük maraq göstərir. Xüsusilə, işğaldan azad olmuş rayonların iqtisadiyyatını düzəltmək, yaşıl iqtisadiyyat modeli əsasında alternativ ixrac sektoru yaratmaq, Azərbaycan məhsullarını respublikamızın brendi kimi çıxartmaq probleminin həlli xarici kapitaldan istifadə etmədən mümkün deyildir.

Dünyanın rəqabət qabiliyyətli texnologiyalarına əsaslanan iqtisadiyyatın şaxələndirilməsi qloballaşmanın ən xarakterik təzahürlərindən biridir, sərhədlərarası kapital axınlarının güclənməsi iqtisadiyyatın modernləşdirilməsinə, xarici investisiyaların dinamik cəlb olunmasına və rəqabət qabiliyyətli texnologiyaların iqtisadi əlaqələr strukturuna uyğunlaşdırılmasına kömək edir, bununla da bir çox ölkənin iqtisadiyyatında innovasiyaların rolunun artırılmasına xidmət edir. Lakin xarici investisiyalar sənayenin şaxələndirilməsini və intensivləşməni sürətləndirməklə yanaşı, bəzi hallarda beynəlxalq maliyyə təşkilatlarının və TMŞ-lərın investisiya axınlarına təsiri o qədər böyükdür ki, inkişaf etməkdə olan ölkələrin siyasi və iqtisadi suverenliyinin perspektivlərini və miqyasını təhlükə altına alır infilasiyaya şərait yaradır [6,s.87]. Azərbaycan sənayesinin inkişafının innovasiyalı yoluna keçmək proseslərində əsas kapitalın dünyanın rəqabətə davamlı texnologiyaları əsasında yenilənməsi xüsusi əhəmiyyət kəsb edir.Qeyd etdiyimiz məqsədlərin reallaşması məqsədilə ölkəmizə cəlb edilən kapitaldan təyinatına görə səmərəli istifadə olunması, onun sahələr arasında düzgün bölüşdürülməsi, xarici investisiyaların hər vahidinə görə daha çox səmərə əldə edilməsi yeni elmi araşdırılmaların aparılmasını, praktiki əhəmiyyəti olan təkliflərin irəli sürülməsini zəruri edir. Bu baxımdan qeyd etmək lazımdır ki, qeyri-neft sektorunda xarici kapitaldan istifadənin gücləndirilməsi böyük əhəmiyyət kəsb edir. Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair milli prioritetlərdə xarici kapitaldan səmərəli istifadə edilməsi çox mühüm vəzifə kimi qarşıya qoyulmuşdur. Bütün bunlar əsas verir qeyd edək ki, dissertasiyanın mövzusu çox aktualdır və perspektiv əhəmiyyəti baxımından problemin tədqiqi bilavasitə müasir tələblərdən irəli gəlir.

Qeyd edək ki, kapitalın hərəkəti əmtəələrin hərəkətindən əhəmiyyətli dərəcədə fərqlənir. Xarici ticarət, bir qayda olaraq, istifadə dəyərləri olaraq mal mübadiləsinə qayıdır. Kapitalın ixracı isə qeyd etdiyimiz kimi, kapitalın bir hissəsinin ölkədə milli dövriyyədən çıxarılması və əmtəə və ya pul şəklində başqa bir ölkənin istehsal prosesinə və dövriyyəsinə köçürülməsi prosesidir.

Başlanğıcda kapitalın ixracı dünya iqtisadiyyatının periferiyasına kapital ixrac edən az sayda inkişaf etmiş ölkələrə xas idi. Dünya iqtisadiyyatının inkişafı bu prosesin əhatə dairəsini xeyli genişləndirdi. Beləliklə, kapital ixracı istənilən uğurlu, dinamik inkişaf edən iqtisadiyyatın funksiyasına çevrilir. Müasir şəraitdə kapital ixracı prosesi əsasən inkişaf etmiş ölkələr və xüsusilə Çin, Rusiya, Braziliya və Hindistan tərəfindən inkişaf etdirilir.

Kapitalın ixracının əsas səbəbi və şərti müəyyən bir ölkədə kapitalın nisbi həddən artıq olması, onun yığılmasıdır. Sahibkarlıq qazancı və ya faiz əldə etmək üçün xaricə köçürülür. Xaricə kapital qoyuluşu daxili sərmayə üçün kapital çatışmazlığı ilə də həyata keçirilə biləcəyi xarakterikdir

Pul kapitalının ölkələr arasında miqrasiyası əsasən dünya borc kapitalı bazarında yenidən bölgü mexanizmi vasitəsi ilə həyata keçirilir.

Borc kapitalı bazarının yaranması prosesi dünya kapital təsərrüfatının formalaşması ilə eyni vaxtda baş verir. Borc kapitalı bank kreditləri və istiqrazlar, həmçinin emissiyalar buraxılmasından əldə olunan vəsait hesabına yaradılır.

Dünya bazarında özünün iqtisadi mahiyyətindən asılı olaraq borc kapitalı iki əsas sahəyə ayrılır: dünya pul bazarı və dünya kapital bazarı.

Dünya pul bazarı əsasən tədavül sferası və beynəlxalq ticarətə xidmət edir. Beynəlxalq kapital bazarında borc kapitalı pul kimi deyil, dəyərin artmasına yönəldilir. Beynəlxalq aləmdə dünya kapital bazarı iqtisadi artımın təmin edilməsinə xidmət edir. Öz konkret formasından asılı olaraq dünya kapital bazarı iki yerə bölünür: kredit və qiymətli kağızlar bazarı.

Dünya borc kapitalı bazarı xüsusi institusional malikdir. Belə ki, onun əsas iştirakçıları iri transmilli banklardan, maliyyə kompaniyalarından, fond birjalarından və maliyyə-kredit idarələrindən ibarətdir.

Dünya kapital bazarında maliyyə - kredit idarələrinin borc almağa əsas müştərisi kimi transmilli korporasiyalar, dövlət orqanları, beynəlxalq və regional təşkilatlar çıxış edir.

Beynəlxalq mərkəzinin normal fəaliyyəti üçün ölkənin yüksək iqtisadi inkişaf səviyyəsi, ölkənin dünya ticarətində fəal iştirakı; sərbəst valyuta və vergi qanunları, əlverişli coğrafi və siyasi sabitlik lazımdır.

Qeyd etmək lazımdır ki, müvəqqəti sərbəst olan pul kapital kredit vasitəsilə borc kapitalına çevrilir. Kredit əsasən kommersiya krediti, investisiya krediti və bankir krediti formasında verilir.

Verilmə müddətinə görə beynəlxalq kredit: qısa müddətli (1 ilə qədər), orta müddətli (1-5 ilə qədər) və uzun müddətli (5-7 ildən artıq) kreditlərə bölünür.

Beynəlxalq kredit və tədiyələrin ödənilməsində əsas vasitəçilik edən müəssisələr banklardır. Banklar yerinə yetirdikləri funksiya və əməliyyatların xarakterindən asılı olaraq emissiya, kommersiya və ixtisaslaşdırılmış banklara bölünürlər.

Müasir şəraitdə dövlət krediti geniş yayılmışdır. Dövlət krediti dövlətlər tərəfindən istiqraz vərəqələrinin buraxılması yolu ilə alınan kreditə deyilir. Borc verənlər əsasən banklar və sığorta kompaniyalarıdır. Hökumətlər borclara adətən dövlət büdcələrinin kəsirini ödəmək üçün müraciət edirlər ki, bu da müasir şəraitdə geniş şəkil almışdır.

Beynəlxalq kredit müxtəlif ölkələrin dövlətlərinin bir-birinə verdiyi kreditə deyilir. Beynəlxalq kredit kommersiya, bankir və dövlət krediti formasında həyata keçirilir. Müasir

şəraitdə beynlxalq ticarətin həcminin artması və satış bazarları uğrunda mübarizənin kəskinləşməsi xarici idxalçılara əmtəə və xidmətlərin möhlətli tədiyyə ilə kredit satışı çoxalır ki, bu da kommersiya kreditinə olan tələbatın artmasına səbəb olur. Başqa ölkələrin kapitalistlərinə borc pul formasında verildiyi hallarda o, bankir krediti olur, əgər borclu kimi xarici dövlət meydana çıxırsa, onda bu beynəlxalq dövlət krediti olur.

Beynəlxalq və xarici kapital bazarlarında beynəlxalq kredit müxtəlif formalarda, istiqraz, səhm və başqa qiymətli kağızlar emissiyası şəklində həyata keçirilir. Dünya ölkələrinin beynəlxalq borc kapitalı bazarında 80-90-cı illərdə əsaslı dəyişiklik baş vermiş, yeni alınma adlar yaranmışdır. Bunlardan: sindikatlaşdırılmış kredit: faiz dərəcəsi ilə təsbit edilmiş istiqrazlar: dəyişən faiz dərəcəsi ilə istiqrazlar: tam çevrilən istiqrazlar: avrokommersiya kağızları (avroistiqraz, avrovalyuta, avrokredit və s.) və səhmləri göstərmək olar.

ƏDƏBİYYAT

1. Hacıyev, F.O. Kapital ixracı və innovasiya fəaliyyəti arasında əlaqələrin təhlili. Azərbaycan Respublikası Maliyyə Nazirliyi Maliyyə&Uçot Jurnalı 2021 №03,04
2. Hacıyev, F.O. Kapital ixracının innovasiyalı fəaliyyətdə istifadə edilməsinin əsas istiqamətləri. AMEA . İqtisadiyyat İnstitutu Elmi əsərlər 196-201
3. Авдокушин Е.Ф. Международные экономические отношения. – Москва: ИКЦ «Маркетинг», 2001
4. Международные экономические отношения / под редакцией В.Е.Рыбалкина. – Москва: ЮНИТИ, 2003
5. Киреев А. Международная экономика. – Москва: Международные отношения, 1997, Ч. 1
6. Хасбулатов Р.И.. Мировая экономика. – Москва: «Экономика», 2001, Т I.
7. Пузакова Е.П. Международные экономические отношения. – Ростов-на- Дону: ИЦ «МарТ», 2000.

BEYNƏLXALQ KAPİTAL İXRACI ƏMƏLİYYATLARI

Mustafazadə Nicat

XÜLASƏ

Bu məqalədə müasir iqtisadi qloballaşma şəraitində kapitalın beynəlxalq hərəkətinin mahiyyəti və məzmunu açıqlanmışdır. Kapitalın ölkələrarası hərəkəti zamanı onun sosial – iqtisadi təzahürlərinə diqqət yetirilmişdir. Həmçinin ölkələrin iqtisadiyyatının inkişafına kapital ixracının təsirinin müəyyən olunması istiqamətində təkliflər irəli sürülmüşdür.

МЕЖДУНАРОДНЫЕ ОПЕРАЦИИ ПО ЭКСПОРТУ КАПИТАЛА

Мустафазаде Ниджат

АННОТАЦИЯ

В данной статье раскрываются сущность и содержание международного движения капитала в условиях современной экономической глобализации. В ходе международного

движения капитала внимание уделялось его социально-экономическим проявлениям. Также были внесены предложения по определению влияния вывоза капитала на развитие экономики страны.

INTERNATIONAL CAPITAL EXPORT OPERATIONS

MustafazadaNicat

SUMMARY

This article describes the essence and content of the international movement of capital in the context of modern economic globalization. During the international movement of capital, attention was paid to its socio-economic manifestations. Proposals were also made to determine the impact of capital exports on the development of the country's economy.

МЕЖДУНАРОДНЫЕ МОРСКИЕ ПЕРЕВОЗКИ В ОФФШОРНЫХ ЗОНАХ И ПРОГНОЗ ИХ РАЗВИТИЯ

Ягизаров Камиль Шамиль оглы
магистрант II курса БГУ
kyagizarov05@gmail.com

Ключевые слова: оффшор, страна, оффшорные зоны, налог, оффшорный бизнес и др.
Açar söz: ofşor, ölkə, ofşor zonalar, vergi, ofşor biznes və s.
Keywords: offshore, country, offshore zones, tax, offshore business, etc.

Введение. Основной целью использования оффшорных центров является минимизация налоговых обязательств в стране, где компания работает и находится. Это достигается за счет вывоза всех или части законных оборотных активов стран с высокими налоговыми ставками в другую страну.

В последние десятилетия темпы роста товарооборота с введением оффшорной зоны превышают темпы роста всего оборота внешнеэкономической деятельности. В практике международного налогового планирования активно используются налоговые особенности и преимущества 40-50 стран и территорий. Большинство из этих стран расположены в Европе и Карибском бассейне. Европейские страны и морские территории - Андорра, Венгрия, Хернси, Гибралтар, Дания, Джерси, Ирландия, Кипр, Латвия, Лихтенштейн, Люксембург, Мадейра, Мальта, Монако, Мэн, Нидерланды, Великобритания и Северная Ирландия, Великобритания, США. Царство. Особенности налоговых систем Франции, Германии и Российской Федерации могут быть использованы в отдельных схемах международного налогового планирования.

Оффшорные центры могут располагаться на территориях независимых государств, зависимых территориях, территориях внутри государств, территориях, находящихся под местной администрацией любого государства.

Оффшорные страны и зоны можно разделить на два типа: универсальные и специализированные. В современных условиях большинство офшорных стран, зон и территорий относятся к категории универсалов, т.е. предлагает льготные налоговые условия вне зависимости от вида деятельности предприятия.

Международные морские перевозки в оффшорных зонах. Развитие оффшорного бизнеса в сфере международных морских перевозок связано с высоким налогообложением доходов перевозчиков, а также применением действующих ставок налога на имущество. Из-за высокой стоимости основных средств – судов и оборудования в этой сфере уплата налога на имущество является фактором, снижающим конкурентоспособность компаний, зарегистрированных в странах с высоким уровнем налога на имущество.

Валютное регулирование является еще одним важным фактором при регистрации судоходных компаний и отдельных судов в оффшорных зонах. Различные ограничения на конвертацию и перевод валюты, необходимость проведения обязательных процедур часто приводят к своевременной оплате затрат на ремонт в сфере международных перевозок, потере выгодных заказов без доставки различных пошлин и дозаправок: отсутствие антимонопольного законодательства по другим факторам, стимулирующим интерес судовладельцев и пользователей к регистрации предприятий в офшорных зонах; упрощенные правила отчетности (включая обязательные задержки отчетности); доступ к трастовым схемам и методам минимизации налогов; Возможность выпуска

ненумерованных акций, необходимость ведения открытого реестра акционеров и другие преимущества оффшорных центров.

Основным актом, регулирующим морской бизнес, является Закон о компаниях от 26 февраля 1927 года. Традиционная специализация Панамы на регистрации предприятий в сфере международного судоходства была связана с установлением системы регистрации в открытом море (1925 г.). Первый закон о доверии в Панаме был принят в 1925 г. В настоящее время Закон о трастах № 1 вступил в силу 5 января 1984 года.

Прогноз развития и деятельности оффшорных зон. Нетерпимость к офшорному уклонению от уплаты налогов становится частью нового политического консенсуса в развитых странах. Скоро в Европе не будет настоящих офшоров. Европейские политики использовали кипрский кризис, а также масштабные утечки информации о держателях офшорных счетов в качестве предлога для нападения на остальные налоговые убежища ЕС. Цель состоит в том, чтобы полностью лишить граждан ЕС возможности уклоняться от уплаты налогов в других европейских странах. Под давлением Еврокомиссии Австрия и Люксембург договорились пересмотреть правила, регулирующие банковскую тайну для иностранцев.

В целом, по оценкам Tax Justice Network, около трети мировых активов находятся в офшорах. Оффшорные финансовые активы, принадлежащие только физическим лицам, оцениваются в $11,5 трлн. На Каймановых островах с населением 50 000 человек находится 70% всех хедж-фондов мира. По данным McKinsey, общие офшорные финансовые активы могут составить около 32 триллионов долларов, что эквивалентно совокупному ВВП Европейского Союза и США.

В результате мировые бюджеты потеряли не менее 250 миллиардов долларов налогов каждый год. Это в пять раз превышает сумму, требуемую Всемирным банком в 2002 году для утроения бедности в развивающихся странах к 2015 году.

Учитывая стабильность региона и устойчивый экономический рост на протяжении многих лет, неудивительно, что все больше инвесторов и бизнесменов обращаются на Восток. Китай, Сингапур, Гонконг и Объединенные Арабские Эмираты — лишь несколько примеров стран, создавших благоприятные условия для ведения бизнеса.

Если по каким-то причинам инвестора не устраивает регистрация компании в Китае, но он все же хочет получить доступ к этому рынку, Гонконг, несомненно, станет достойной заменой. Гонконг, часть Китая, недавно получил статус особого административного района. Бывшая британская колония оставила свой след в условиях труда. В результате правовая база и коммерческая деятельность сильно отличаются от таковых в материковом Китае. Гонконгским компаниям удобно торговать с другими странами Юго-Восточной Азии особенно на фоне недавних политических и законодательных изменений для некоторых стран СНГ.

Сегодня, наряду с Китаем, Сингапур является очень популярной юрисдикцией в Азиатском регионе. По данным WealthInsight, с 2001 по 2011 год иностранные компании в Сингапуре увеличили свои активы в десять раз.

Результат. Оффшорные зоны привлекают клиентов выгодным валютным и финансовым контролем, высоким уровнем банковской и коммерческой тайны, льготным налогообложением и законодательством о внешнеэкономической деятельности. Благоприятная налоговая среда или безналоговый статус поощряют создание так называемых оффшорных компаний.

Учреждение оффшорных компаний основано на законодательстве страны, которое частично или полностью освобождает компании, которые не работают в стране, где они

учреждены. Оффшорные налоговые льготы доступны только в сфере деятельности за пределами страны учреждения. Межправительственное соглашение с зарегистрированной офшорной страной необходимо для предотвращения двойного налогообложения полноценной оффшорной деятельности в любой стране.

Морские зоны в основном сосредоточены в нескольких частях света: Карибская — Багамские острова, Виргинские острова, Каймановы острова, Барбадос и Гренада; Средиземноморье – Андорра, Гибралтар, Монако, Кипр; Европа – Швейцария, Люксембург, Лихтенштейн, Гернси, Джерси и Мэн, Сан-Марино, Ирландия; Арабские страны – Ливан, ОАЭ, Бахрейн; Африка – Сейшельские острова, Либерия; Азиатско-Тихоокеанский регион — Китай, Гонконг, Сингапур, Малайзия, Филиппины.

ЛИТЕРАТУРА

1. Чашин А.Н. Офшорные зоны: правовое регулирование М: Дело и Сервис. 2010. С. 10.
2. Хейфец Б.А. Офшорные юрисдикции в глобальной и национальной экономике. Монография. М.: ЗАО «Издательство «Экономика», 2008. С. 133-134.
3. Ревенков П.В. Офшорные зоны: законы привлекательности // Международные банковские операции. 2010. № 1.
4. Офшоры в глобальной экономике: мировой опыт и российские реалии. Документ Центра ситуационного анализа РАН (научный руководитель академик Евгений Примаков), 2012.
5. Александр Кокшаров (собственный корреспондент журнала "Эксперт" в Лондоне) «Плохие» и «хорошие» офшоры. — Эксперт, 2013, № 4
6. Veritas Bürosu, “Dəniz gəmiçiliyi və ofşor biznes”, 2012-2013.
7. universum.kiev.ua/2009-09-18-12-57-46/2013-01-31-11-57-35/186-2014-12-17-11-29-58.html

ХАРАКТЕРНЫЕ ЧЕРТЫ ТАМОЖЕННЫХ РЕЖИМОВ В ОФФШОРНЫХ ЗОНАХ

Ягизаров Камиль

АННОТАЦИЯ

Морской рынок продолжает расширяться географически за счет различных секторов, а также бизнес-функций. Географическая диверсификация оффшорного рынка, сосредоточенного в странах, которые изначально находились в упадке, неуклонно увеличивается. Если раньше основная масса офшорных бизнес-процессов в регионах располагалась в относительно низкоквалифицированных контакт-центрах, то сейчас растет количество оффшорных сервисов с более высокой добавленной стоимостью.

OFFŞOR ZONALARDA GÖMRÜK REJİMLƏRİNİN XARAKTERİSTİK XÜSUSİYYƏTLƏRİ

Yaqizarov Kamil

XÜLASƏ

Dəniz bazarı müxtəlif sektorlar, eləcə də biznes funksiyaları vasitəsilə coğrafi olaraq genişlənməyə davam edir. Əvvəlcə tənəzzüldə olan ölkələrdə cəmlənmiş ofşor bazarın coğrafi diversifikasiyası durmadan artır. Əgər əvvəllər regionlarda offşor biznes proseslərinin əsas hissəsi nisbətən aşağı ixtisaslı əlaqə mərkəzlərində yerləşirdisə, indi daha yüksək əlavə dəyərə malik ofşor xidmətlərin sayı artır.

CHARACTERISTIC FEATURES OF CUSTOMS REGIMES IN OFFSHORE ZONES

Yagizarov Kamil

SUMMARY

The maritime market continues to expand geographically through different sectors as well as business functions. The geographical diversification of the offshore market, concentrated in countries that were initially in decline, is steadily increasing. If earlier the bulk of offshore business processes in the regions were located in relatively low-skilled contact centers, now the number of offshore services with a higher added value is growing.

PSİXOLOGİYA

AHIL YAŞ DÖVRÜNDƏ EMOSİONAL SFERANIN SƏCİYYƏSİ VƏ MOTİVASİYA SFERASININ XÜSUSİYYƏTLƏRİ

Şabanova Lamiyə Camal qızı,
BDU-nun Klinik psixologiya magistr məzunu
sabanovalamiye01@gmail.com

Açar sözlər: ahıl, yaş, iş, təqaüd
Key words: old man, age, work, pension
Ключевые слова: пожилой человек, возраст, работай, пенсия

Son illərdə Respublikamızın siyasi, sosial – iqtisadi və mədəni həyatında baş verən dəyişikliklər cəmiyyətimizdə bir sıra problemlərin əmələ gəlməsinə səbəb olmuşdur. Müasir dövrdə öyrənilməsi gərəkli olan məsələlərdən biri də ahıllıqdır. Məlumdur ki, yaş psixologiyası insan həyatını doğulduğu andan ölənə qədər müəyyən yaş dövrlərinə bölmüşdür. Bu yaş dövrlərindən biri də ahıllıq yaş dövrüdür. Ahıl yaş dövrünün də digər yaş dövrləri kimi özünəməxsus dinamika xususiyyətləri vardır.

Yaşlılığın son dövrünü çox zaman herontogenez, yaxud qocalma adlandırırlar. Tətqiqatçıların çoxu elə hesab edir ki, bu dövr 60 yaşından sonra başlanır. Bəzi müəlliflərin fikrincə qadınlarda həmin dövr 55 yaş, kişilərdə isə 60 yaşından başlayır. Bu yaşa çatmış adamlar 3 yarımqrupa ayrılırlar: qoca yaşlı, ahıl yaşlı və uzunömürlü adamlar.

Bu dövrün başlıca xüsusiyyəti qocalma prosesidir. O, genetik şəkildə proqramlaşdırılmış proses olub, orqanizmdə müəyyən yaş dəyişiklikləri ilə müşayət olunur. A.A.Reanın fikrincə, ”Hər şeydən əvvəl, orqanizmin fəaliyyəti tədricən zəifləyir. Bu yaşa çatmış adamlar fiziki cəhətdən o qədər də güclü deyillər, cavanlıq illərindən fərqli olaraq, onların ümumi enerji ehtiyatı xeyli tükənir. İnsanın damar və immun sistemlerinin fəaliyyəti zəifləyir. Orqanizm toxumalarının çevikliyi yox olur ki, bu da onların tərkibində mayenin azalması ilə əlaqədar olub, oynaqların bərkiməsinə gətirib çıxarır.

Cəmiyyətdə qoca adamlar çox zaman stereotiplər prizmasından qavranılırlar. Bir çoxları qocalacaqlarını o qədər qəmli hesab edirlər ki, bu haqda ümumiyyətlə heç bir şey bilməməyi daha üstün tuturlar. Belə stereotiplər qoca adamları differensial şəkildə, aralarında fərqlər mövcud olan şəxslər kimi qavramağa mane olur. Bütün bunlar elə sosial ustanovka və hərəkətlərə səbəb olur ki, qoca adamların kollektiv əməkdə və asüdə vaxtın keçirilməsində fəal iştirak etmək həvəsini söndürürş.

Qocalma və emosional sferanın spesifik dəyişiklikləri yaşlılığın son dövrü üçün səciyyəvidir. Bir qayda olaraq, bu, insanda affektiv reaksiyalara nəzarətsizliyin güclənməsi (güclü sinir oyanıqlığı), bir səbəb olmadan kədərlənməyə, göz yaşları tökməyə meyillilikdir. Reaksiyaya səbəb keçmiş vaxtlar haqqında kinofilm (həmin vaxtlar üçün heyfislənmir, o zamanlarda özünə yazığı gəlir), yaxud sınmış çay fincanı deyil, onunla bərabər hər hansı bir xatirənin canlanması təəssüf doğurur.

Hər bir insan öz həyatının son həddinə etdiyi səhvlərin və peşmançılıqların yükü ilə gəlib çatır. Bununla belə həyatın xeyrinə olan azı iki arqument bir çoxları üçün eyni olur. Birincisi, əgər insan bugünkü günə sevinmir və sabahkı günə inanmırsa, həyat, onun fiziki ölümündən xeyli əvvəl sona yetir. İkincisi, uğur və müvəffəqiyyətlərə üstünlük verib, inciklikləri, səhv əməlləri və taleyin zərbələrini yada salmağa çalışmamaq daha yaxşı olardı. Əgər insan ahıllığa

qədər yaşayıbsa, artıq bunun özü bir uğurdur. Hər bir insanın həyatında onun fəxr etməli olduğu yaxşı hadisələrin sayı qat-qat çoxdur.

Kaliforniya Universiteti alimlərinin qırx illik təcrübələri göstərmişdir ki, 30 yaşında emosional və psixoloji baxımdan davamlılığa və fəallığa malik olan adamlar 70 yaşında da öz həyat enerjisini saxlayırlar. Cavanlıqda depressiyaya,təşvişə, natamamlıq kompleksinə məruz qalmış adamlar isə ömrünün sonuna kimi belə qalırlar. Qeyd etmək lazımdır ki, qocalma kişilərə və qadınlara müxtəlif cür təsir göstərə bilər: kişilər daha passiv olub, qadınlara məxsus xarakter əlamətləri göstərməyə meyilli olurlar, ahıl yaşlı qadınlar isə daha aqressiv, praktik və hökümlü olurlar. Bəzi tədqiqatlarda ahıl adamlarda eqosentrikliyə meyillilik, həssaslığın azalması, özünə qapanma və mürəkkəb situasiyaların öhdəsindən gəlmək bacarığının azalması aşkar olunmuşdur.

Ahıllıq dövründə həyat planlarının çoxu artıq həyata keçirilmiş, yaxud öz əhəmiyyətini itirmişdir. Həyatın ən məhsuldar dövürləri geridə qalmışdır. Məhz buna görə də keçmiş - insan üçün daha böyük dəyər kəsb edir. Skailger yazırdı ki, əgər gənclər hər şeyi ümidlə ölçürlərsə, qocalar keçmişlə ölçürlər. Bu müddəa emosional proseslərin yaş dinamikasının tədqiqi zamanı öz təsdiqini tapır. Qocalıqda affektiv sferanın zəifləməsi yeni təəssüratları rəngarənglikdən və parlaqlıqdan məhrum edir, ahıl adamların keçmişə bağlılığı, xatirələrinin hökmranlığı bununla izah olunur.

Ahıl yaş dövründə motivasiya sferasının xüsusiyyətləri müxtəlif cür dəyişir. Hər bir insanın həyat tərzi təkrarolunmaz və bənzərsizdir. Bu həyat tərzi əhəmiyyətli dərəcədə sosial meyillərlə, cəmiyyətin həyatında öz yerini tapmaq tələbatı ilə motivləşir. Həyat yolunun xeyli hissəsini keçəndən sonra insan böyük məsuliyyət hissi ilə öz sosial nailiyyətlərini və uğurlarını qiymətləndirə bilər, gənclik arzularının həyata keçməsindən fərəhlənər, yaxud puç olmuş ümidlərinə məyus ola bilər, cəmiyyətdə hansı sosial rolu oynadığı və indi də oynamasını dərk edə bilər.

Təqaüdçilərdə motivlərin dəyişməsi necə baş verir? Adətən insan təqaüdə çıxmağa hazırlıq görməyə çalışır. S.Thompson belə hesab edir ki, bu prosesi şərti olaraq üç hissəyə ayırmaq olar, hər bir hissədə insan davranışının müəyyən motivləri həyata keçir:

-vəziyyətlərin azaldılması mərhələsi, insanın işə aid bir sıra vəzifələrindən azad olmaq istəyində və təqaüdə çıxma zamanı fəallığın kəskin azalmasından uzaqlaşmaq üçün məsuliyyət dairəsini məhdudlaşdırmağa çalışmasında ifadə olunur.

-perspektiv planlaşdırma mərhələsində, insan təqaüddə olarkən öz həyatını təsəvvür etməyə, həmin dövrdə məşğul olacağı işlərin və hərəkətlərin hər hansı bir planını tutmağa çalışır.

-təqaüdə çıxmanı gözləyərkən, insanlar işlərini yekunlaşdırmaq və təqaüdü sənədləşdirmək qayğısı ilə məşğul olmağa başlayır. Demək olar ki, həyatlarının qalan hissəsində onları iş görməyə sövq edəcək məqsəd və tələbatlarla yaşayırlar.

Təqaüdə çıxmaqla insanların mövqeyi və rolları dəyişir. Onlar yeni sosial status kəsb edir. İndi şərti olaraq "rəhbərlər nəsli" adlanan qrupdan sosial aktivliyin azalmasını nəzərdə tutan "layiqli istirahətdə olanlar" qrupuna keçirlər. Çoxları üçün ictimai rolun belə dəyişilməsi ahıllıq dövründə baş verən ən əhəmiyyətli hadisələrdən biri olur.

Təqaüdə çıxan hər bir adam bu hadisəni müxtəlif cür yaşayır. Bu faktı dərketmə prosesində hansı münasibətin formalaşması ilə əlaqədar olaraq, onun motivasiya-tələbat sferasında müvafiq dəyişikliklər baş verir. Bəziləri təqaüdə çıxmasını öz faydalılığının sonu, bütün həyatının əsas mənası, yaradıcı motivinin həmişəlik itməsi kimi başa düşür. Ona görə də onlar var güclərilə öz iş yerlərində daha çox qalmağa və qüvvəsi çatana qədər işləməyə çalışırlar. Belə adamlar üçün iş – müəyyən məqsədlərə çatmaq cəhdidir: maddi rifahını qorumaqla vəzifədəki nailiyyətlərini saxlamaq və artırmaq istəyi, eləcə də arzu və tələbatlarını əsaslı dərəcədə müəyyən edən perspektiv planlaşdırma imkanlarıdır.

İşin olmaması insanı cəmiyyətdə öz rolunun azalmasını dərk etməyə, bəzən isə gərəksizliyini və faydasızlığını hiss etməyə gətirib çıxarır. Q. Krayqın sözləri ilə desək, təqaüdçü həyatına keçid insan üçün "hakimiyyəti itirmək, köməksizlik və avtonomiya" siqnalı olur.

İnsan yaşlandıqca, öz iş yerinin əhəmiyyətini daha da yüksək qiymətləndirir. Sosioloji sorğular göstərir ki, təqaüd yaşına çatan insanların əksəriyyəti heç olmasa tam olmayan iş günü işləməkdə davam etməyi üstün tuturlar. Aparılmış tədqiqat zamanı iş yerlərində fəaliyyət göstərən yaşı 46-71 arası olan işçilərin 90%-ində şəraitin işləmək üçün əsas göstərici olmadığı tədqiq edilmişdir.

Öz işini borc və ya məcburi zərurilik kimi başa düşən bəzi insanlar üçün isə təqaüdə çıxma darıxdırıcı, yorucu, alətli işdən, rəhbərliyə tabe olmaqdan və s. azad olmaq deməkdir. İndi onların xeyli asüdə vaxtı var və onun əyləncələrə, yaxud yaxınlarının qayğısına qalmağa, uşaqlarına, digər doğmalarına həsr edə bilər.

Psixoloji tədqiqatların göstərdiyi kimi, qocalıq dövründə insanın öz həyatından razılığı və ona uğurla adaptasiyası bir çox amillərdən asılıdır. Bunlara sağlamlıq, iqtisadi vəziyyət, pozitiv yanaşma, əvvəllər işin verdiyi məmnunluq hissi kimi məsələlər aiddir. Aktiv yaradıcılıqla məşğul olann bir çox adamlar 80 yaşında da özünü qoca hesab etmir. Tanınmış neyrocərrah Harvey Kuşinqdən sitat gətirən Q. Olportun fikrincə: "Həyatı uzatmağın yeganə yolu qarşıda mütləq yerinə yetirməli olan bir məsələnin mövcudluğudur". Başqa sözlə desək, dinamik surətdə inkişaf etməkdə davam edən motivasiya sistemi qocalıqda şəxsiyyətin hərtərəfli fəaliyyət göstərməsi üçün əsas təməllərdən biridir.

ƏDƏBİYYAT

1. Bayramov Ə. S. Psixologiya.Bakı, 2002
2. İsmayılov N. V. Tibbi psixologiya vəpsixoterapiya. Bakı, 2002
3. İsmayılov N. V.Psixiatriya. Bakı, 1992
4. Şəfiyeva E. İ. Klinik psixologiya. Bakı, 2002
5. Şəfiyeva E. İ. Psixofiziologiya.Bakı,1998
6. Бурльер Ф. Старение и старост. Основы и гигиены и терапии. М.:Изд. Иностр. Лит. 1962.
7. Ян Стюарт – Гамилтон. Психология старения. Санкт-Петербург, «Питер», 2002

AHIL YAŞ DÖVRÜNDƏ EMOSİONAL SFERANIN SƏCİYYƏSİ VƏ MOTİVASİYA SFERASININ XÜSUSİYYƏTLƏRİ

Şabanova Lamiyə

XÜLASƏ

İnsan öz inkişafında müxtəlif yaş dövrlərindən keçir və hər bir dövr şəxsiyyətin inkişafına müəyyən təsir göstərir. Bir insanın həyat yolunun zirvəsi, cəmiyyətdəki mövqeyə nail olmaq, təcrübələrini başqaları ilə bölüşmək istəyidir. Yaş psixologiyasına nəzər saldıqda bu dövr ahıllıq dövrünün başlanğıcına təsadüf edir. Ahıl yaş dövürndən əvvəl baş verənlər fizioloji yaşlanmanın başlanğıcı-yeni hədəflər təyin etməsi ya pessimizmə, ya da həyat tərzinin dəyişməsinə gətirib çıxarır.

ХАРАКТЕРИСТИКА ЭМОЦИОНАЛЬНОЙ СФЕРЫ И ХАРАКТЕРИСТИКА МОТИВАЦИОННОЙ СФЕРЫ В СТАРШЕМ ВОЗРАСТЕ

Шабанова Ламия

АННОТАЦИЯ

Человек проходит в своем развитии разные возрасты, и каждый период оказывает определенное влияние на развитие личности. Кульминацией жизни человека является стремление добиться положения в обществе, поделиться своим опытом с окружающими. Если посмотреть на психологию возраста, то этот период совпадает с началом старости. То, что происходит перед старостью, — это начало физиологического старения — постановка новых целей приводит либо к пессимизму, либо к изменению образа жизни.

CHARACTERİSTİCS OF THE EMOTİONAL SPHERE AND FEATURES OF THE MOTİVATİONAL SPHERE İN OLD AGE

Shabanova Lamiya

SUMMARY

Man goes through different ages in his development, and each period has a certain impact on the development of personality. The culmination of a person's life is the desire to achieve a position in society, to share their experiences with others. When you look at the psychology of age, this period coincides with the beginning of old age. What happens before old age is the beginning of physiological aging - setting new goals leads to either pessimism or lifestyle changes.

ОСОБЕННОСТИ ДЕПРЕССИВНЫХ РАССТРОЙСТВ ПРИ НЕВРОЛОГИЧЕСКИХ ЗАБОЛЕВАНИЯХ

Исаева Тунзаля Гамид кызы
магистрант I курса БГУ
tunzaleiva@mail.ru

Ключевые слова: неврологические заболевания, депрессивные расстройства, постинсультная депрессия, болезнь Паркинсона (БП), рассеянный склероз (РС).
Açar sözlər: nevroloji xəstəliklər, depressiv pozuntular, postinsult depressiya, Parkinson xəstəliyi (PX), skleroz xəstəliyi (SX).
Keywords: neurological diseases, depressive disorders, post-stroke depression, Parkinson's disease (PD), multiple sclerosis (MS).

Одним из самых часто встречающихся заболеваний в неврологической практике являются неврологические заболевания с сопутствующими им психическими расстройствами. Эти нервно-психические заболевания наблюдаются в огромном спектре различных по происхождению и патогенезу заболеваниях головного мозга [1, 6].

Психические расстройства в неврологии встречаются чаще, чем это подтверждается при обычном обследовании. Тревога и депрессия являются наиболее распространенными, но галлюцинации, бред, обсессивно-компульсивное расстройство также являются частыми сопутствующими заболеваниями при многих неврологических заболеваниях, таких как инсульт, эпилепсия, рассеянный склероз (РС), болезнь Паркинсона (БП) и др. [3].

Долгое время считалось, что депрессию часто, встречающуюся среди пациентов с неврологическими заболеваниями лечить намного труднее, чем, собственно, саму депрессию без сопутствующих неврологических заболеваний. Коморбидные депрессивные расстройства осложняют течение основного неврологического заболевания. Причиной этому может быть симптоматика самой депрессии или же механизмы, лежащие в основе коморбидной депрессии. Поэтому неврологические заболевания с сопутствующими депрессивными расстройствами протекают намного тяжелее, чем без них [6]. Пациенты с неврологическими заболеваниями, у которых развивается депрессия, могут иметь диагнозы DSM-5 основного депрессивного расстройства, депрессивного расстройства, вызванного другим заболеванием, другого определенного депрессивного расстройства или стойкого депрессивного расстройства [4].

Развитие постинсультной депрессии связано с более серьезными неврологическими нарушениями, физической неполноценностью, беспокойством и предынсультной депрессией. Пациенты, перенесшие инсульт с депрессией в анамнезе, имеют в три раза повышенный риск развития постинсультной депрессии по сравнению с пациентами, перенесшими инсульт, без депрессии в анамнезе [7], но в тоже время в противовес этому утверждается, что постинсультная депрессия не обнаруживает связи с ранее возникавшими депрессивными эпизодами, в отличии от постинсультной тревоги [8]. Интересно, что депрессия сама по себе является фактором риска развития инсульта, причем метаанализы показывают, что депрессия связана с увеличением риска инсульта на 34-45% по сравнению с общей популяцией. Течение постинсультной депрессии у разных пациентов сильно различается, и, конечно, у отдельных пациентов может быть несколько эпизодов постинсультной депрессии. Начальное начало может наступить в течение

нескольких дней или до нескольких лет после инсульта. В целом, постинсультная депрессия, по-видимому, является хроническим и рецидивирующим расстройством. Этиология постинсультной депрессии многофакторна, и имеющиеся данные убедительно свидетельствуют о вкладе как неврологических факторов, связанных с повреждением головного мозга, так и психологических реакций на дефицит, связанный с инсультом. Тот факт, что большие неврологические нарушения после инсульта связаны с развитием постинсультной депрессии, вероятно, отражает двунаправленную взаимосвязь между повреждением головного мозга и реактивной психологической реакцией на функциональные нарушения, вызванные этим повреждением [5].

Наличие депрессии у пациентов с болезнью Паркинсона оказывает значительное негативное влияние на качество жизни. Фактически считается, что депрессия оказывает большее влияние на качество жизни, чем двигательные симптомы болезни Паркинсона [9]. Депрессия при болезни Паркинсона связана с более высоким уровнем снижения когнитивных способностей и ухудшением повседневной деятельности. Депрессия среди пациентов с болезнью Паркинсона также связана с более высокой частотой безнадежности, суицидальности и социальной изоляции. Пациенты с депрессией и болезнью Паркинсона чаще испытывают боль, чем пациенты с болезнью Паркинсона, у которых нет депрессии [5]. Крупное многоцентровое исследование продемонстрировало высокую частоту всех немоторных симптомов болезни Паркинсона (98,6%), причем самой высокой частотой были психические немоторные симптомы (67%). Психические немоторные симптомы оказали значительное влияние на ухудшение качества жизни и ухудшались по мере прогрессирования и тяжести заболевания [5].

Пациенты с болезнью Паркинсона и депрессией испытывают множество симптомов. Хроническое неврологическое заболевание и депрессивное заболевание часто имеют общие симптомы, такие как нарушение сна и ангедония. Пациенты, страдающие депрессией и болезнью Паркинсона, демонстрировали больше ангедонии, размышлений, суицидальных мыслей, безнадежности, негативных когнитивных способностей, нарушения аппетита и снижения либидо по сравнению с пациентами с болезнью Паркинсона без депрессии. В силу общности симптомов неврологического заболевания и депрессивного расстройства возникают трудности при диагностике депрессии. Выделение соматических и несоматических симптомов депрессии помогает различать неврологическое заболевание и депрессивное расстройство [2].

Рассеянный склероз - еще одно распространенное неврологическое расстройство, связанное с депрессией. Подобно болезни Паркинсона, более раннее начало и большая тяжесть заболевания повышают вероятность развития депрессии при рассеянном склерозе [5]. При этом учитывается тот факт, что димиелинизирующие процессы при рассеянном склерозе мало влияют на симптомы депрессии. Симптомы же самой депрессии схожи с симптомами эндоформных депрессий [2]. Депрессия может предшествовать неврологическому диагнозу и, как полагают, в 75% случаев задерживает окончательный диагноз рассеянного склероза. Факторы риска развития депрессии при рассеянном склерозе включают женский пол, возраст старше 35 лет, семейную историю депрессии, текущую тревогу и высокий уровень психосоциального стресса. Наличие психического заболевания увеличивает тяжесть прогрессирующей неврологической симптоматики [5].

Согласно определению ILAE (Международная Лига по Борьбе с Эпилепсией), пациенты с эпилепсией также имеют более высокий риск развития сопутствующих психиатрических заболеваний, которые могут поражать треть пациентов. По сравнению с контрольной группой, пациенты с эпилепсией чаще страдают депрессией, при этом

относительный риск колеблется от 1,43 до 2,7. Предполагаемая распространенность депрессии составляет около 23,1%. В этих исследованиях рассматривались все типы эпилепсии в сочетании (лекарственно-устойчивая и лекарственно-чувствительная эпилепсия), в то время как риск возникновения сопутствующих психиатрических заболеваний в четыре раза выше при лекарственно-устойчивой эпилепсии. И наоборот, у людей с расстройствами настроения риск развития эпилепсии увеличивается в семь раз. Эти данные подчеркивают двунаправленную корреляцию между эпилепсией и расстройством настроения. Психические расстройства при эпилепсии имеют специфические характеристики, которые клиницисты должны учитывать во время оценки. Психиатрические симптомы классифицируются в соответствии с их временной связью с припадками: периктальные (хронологически связанные с припадком) или интериктальные симптомы (без хронологической связи с припадком). Примечательно, что психические расстройства связаны с ухудшением качества жизни и увеличением частоты судорог [10]. Поэтому крайне важно учитывать и оценивать сопутствующие психиатрические заболевания при эпилепсии.

В клинико-психологической практике общеизвестным является факт, что депрессия увеличивает возможность возникновения болезни Альцгеймера. В исследовании, проведенном Захари А. Миллером было зарегистрировано, что если у людей действительно развивается болезнь Альцгеймера, то те из них, у которых есть депрессия, могут намного раньше испытывать симптомы данного неврологического заболевания (примерно на 2 года раньше), чем те у которых нет депрессии. Но это не означает, что те больные, у которых наблюдается депрессия обязательно будет развиваться деменция. Для полного подтверждения этих данных необходимо провести огромное количество исследований, учитывая и другие сопутствующие психические заболевания [12].

Черепно-мозговая травма (ЧМТ) представляет собой серьезную проблему для здоровья, влияющую на нейропсихологическое здоровье. ЧМТ сопровождается серьезными долгосрочными неблагоприятными осложнениями, которые могут повлиять на многие аспекты жизни пострадавших людей. Значительное число исследований показало, что расстройства настроения, особенно депрессия, являются наиболее частыми осложнениями, встречающимися у людей с ЧМТ. Посттравматическая депрессия присутствует примерно у 30% людей с ЧМТ, причем большинство людей испытывают симптомы депрессии в течение первого года после травмы головы. На сегодняшний день механизмы посттравматической депрессии далеки от полного понимания, и эффективные методы лечения, которые полностью останавливают это состояние, все еще отсутствуют [11].

Основная задача неврологов является своевременная диагностика и лечение неврологических заболеваний с сопутствующими им психическими расстройствами. Однако, в силу неясности механизмов, лежащих в основе ассоциации психических расстройств с неврологическими заболеваниями, неврологи могут пренебрегать этими психическими заболеваниями [1, 6].

Выводы. Исходя из вышеизложенного, можно сказать, что депрессивные расстройства при неврологических заболеваниях являются самыми распространенными среди психических расстройств. Их этиология сложна и может быть многофакторной у отдельных пациентов. Тщательный сбор анамнеза (включая историю предъявления жалобы, прошлую психиатрическую историю, личную и социальную историю, предболезненную личность и историю лечения), а также подробное обследование

физического и психического состояния (включая когнитивные функции) обычно выявляют диагноз и формулировку.

ЛИТЕРАТУРА

1. Институт клинической медицины им. Н.В. Склифосовского. Кафедра нервных болезней и нейрохирургии. Нервно-психические расстройства в неврологической практике. 2015
2. Романов Д.В., Петелин Д.С., Волель Б.А. Депрессии в неврологической практике. Медицинский Совет. 2018
3. Sinanović O. Psychiatric disorders in neurology. October 2012
4. **Diagnostic and Statistical Manual of Mental Disorders,** 5th ed. Arlington, VA, American Psychiatric Publishing, 2013
5. Susan K. Conroy, M.D., Ph.D., Katherine B. Brownlowe, M.D., Thomas W. McAllister, M.D., Depression Comorbid With Stroke, Traumatic Brain Injury, Parkinson's Disease, and Multiple Sclerosis: Diagnosis and Treatment, 24 Apr 2020
6. Yi Yang, Chunxue Wang, Yutao Xiang, Jun Lu, Thomas Penzel. Mental Disorders Associated With Neurological Diseases. 24 March 2020
7. Taylor-Rowan M, Momoh O, Ayerbe L, et al.: Prevalence of pre-stroke depression and its association with post-stroke depression: a systematic review and meta-analysis. **Psychol Med** 2019
8. Schöttke H, Giabbiconi CM. Post-stroke depression and post-stroke anxiety: prevalence and predictors. Int Psychogeriatr. 2015
9. Duncan GW, Khoo TK, Yarnall AJ, et al.: Health-related quality of life in early Parkinson's disease: the impact of nonmotor symptoms. **Mov Disord** 2014
10. Forthoffer N, Tarrada A, Brissart H, Maillard L and Hingray C (2021) Anxiety and Depression in Newly Diagnosed Epilepsy: A Matter of Psychological History? Front. Neurol. 12:744377. doi: 10.3389/fneur.2021.74437
11.Marc Fakhoury, Zaynab Shakkour, Firas Kobeissy, Nada Lawand. Depression following traumatic brain injury: a comprehensive overview. Reviews in the Neurosciences.2020
12. https://www.hindustantimes.com/lifestyle/health/depression-anxiety-linked-to-earlier-onset-of-alzheimer-s-disease-study-101614320212964.html

ОСОБЕННОСТИ ДЕПРЕССИВНЫХ РАССТРОЙСТВ ПРИ НЕВРОЛОГИЧЕСКИХ ЗАБОЛЕВАНИЯХ

Исаева Тунзаля

АННОТАЦИЯ

В данной статье нами рассмотрены особенности депрессивных расстройств при неврологических заболеваниях, поскольку именно депрессия является самым распространенными психическим расстройством, сопутствующим таким неврологическим заболеваниям как инсульт, рассеянный склероз, болезнь Паркинсона, болезнь Альцгеймера и другие. Депрессия может предшествовать или сопутствовать неврологическому расстройству, а также может быть фактором риска возникновения основного неврологического заболевания. Это психической расстройство может осложнять протекание основного неврологического заболевания, а также снижать качество жизни больного.

NEVROLOJİ XƏSTƏLİKLƏR ZAMANI DEPRESSİV XƏSTƏLİKLƏRİN XÜSUSİYYƏTLƏRİ

İsayeva Tünzalə

XÜLASƏ

Bu məqalədə biz nevroloji xəstəliklər zamanı depressiv pozuntuların xüsusiyyətlərini nəzərdən keçiririk, çünki məhz depressiya ən geniş yayılmış psixi pozuntudur ki, insult, dağınıq skleroz, Parkinson xəstəliyi, Alzheimer xəstəliyi və s.kimi nevroloji xəstəliklərlə müşayiət olunur. Depressiya nevroloji xəstəlikdən əvvəldə və ya onu müşayiət edə bilər, və həmçinin əsas nevroloji xəstəliyin risk faktoru ola bilər. Bu psixi xəstəlik əsas nevroloji xəstəliyin gedişatını çətinləşdirə bilər, həmçinin xəstənin həyat keyfiyyətini aşağı sala bilər.

FEATURES OF DEPRESSIVE DISORDERS IN NEUROLOGICAL DISEASES

Isaeva Tunzala

SUMMARY

In this article, we have considered the features of depressive disorders in neurological diseases, since depression is the most common mental disorder associated with such neurological diseases as stroke, multiple sclerosis, Parkinson's disease, Alzheimer's disease and others. Depression may precede or accompany a neurological disorder, and may also be a risk factor for the occurrence of an underlying neurological disease. This mental disorder can complicate the course of the underlying neurological disease, as well as reduce the quality of life of the patient.

QISQANCLIQ: AİLƏDAXİLİ MÜNASİBƏTLƏRİN ƏSAS PROBLEMİ KİMİ

Məmmədkərimova Sevinc
Qərbi Kaspi Universitetinin II kurs magistrantı
sevinckerimova13@gmail.com

Açar sözlər: qısqanclıq, ailədaxili münasibətlər, sevgi, xəyanət, şübhə, kişi, qadın ***Ключевая слова:*** ревность, семейные отношения, любовь, измена, сомнения, мужчина, женщина
Keywords: jealousy, family relationships, love, betrayal, doubt, man, woman.

Qısqanclıq ailədaxili münasibətlər sistemində tarixən geniş yayılmış problemlərdən biridir. Ona hətta uşaqlar arasında da rast gəlmək mümkündür. Böyük uşaqlar kiçiklərə qarşı olan nəvazişə, alınmış oyuncaqlara, təzə paltara və s. görə qısqanclıq keçirirlər. Bunun səbəbi onların diqqət və qayğıdan kənarda qalmaları, artıq sevilməmələri ilə bağlı meydana gələn yalnış təsəvvürləri ilə bağlıdır. Qısqanclıq hətta bunun üçün əsaslı səbəb olmadığı halda belə, güclü təzahürə malik ola bilər. Emosional reaksiyalar doğuran qısqanclıq o zaman yaranır ki, insan ona məxsus olan "mülkiyyətinə" başqa birinin sahiblik iddiası ilə üzləşir. Belə hislər real və ya xəyali ola bilər (2, s 396).

Qısqanclıq – sevgidə qarşı tərəfin etibarsızlığına eyham verən şübhələrin təhriki ilə yaranan, natamamlıq komplekslərindən biri olan emosional halətdir. Qısqanclıq emosiyaları astenik – stenik keçid formalı əhvalları yaradır, qarşısı alınmadıqda isə şiddətli formaya keçərək affektlərə də çevrilə bilər. Bu zaman özünəqəsd, qısqanılan şəxsə qarşı qəsd, qısqanılan subyektin qısqanılmasına səbəb olan şəxsə qarşı qəsd hadisəsi baş verə bilər.

Təbiəti müşahidədən bəllidir ki, hər hansı heyvan sürüsünə yad erkək yaxınlaşsa, sürüyə başşılıq edən erkək qəzəblənəcək və bunu öz dağıdıcı davranışı ilə biruzə verəcək. Deməli insan qısqanclığı ilə heyvan qısqanclığı arasında oxşarlıq mövcuddur. Bu isə onu deməyə əsas verir ki, qısqanclıq bioloji (anadangəlmə) instinkdir. Z.Freydin qeyri – şüuri ilə bağlı nəzəriyyəsinə istinad etsək, insan və heyvan qısqanclığı arasındakı fərqi növbəti şəkildə izah etmək olar ki, insan özünün qısqanc hərəkətlərini müxtəlif bəhanələrlə əsaslandırmağa çalışacaq. Bioloji instinkt kimi qısqanclıq - əks tərəfi və ya əks tərəf üzərində nəzərati, nüfuzu, dəyəri, bəyənilmə səbəbini itirmək və ya xəyanətin şahidi olmaq qorxusudur. Qısqanclıq qeyri – şüuri hislər olduğundan onun qarşısının alınması insan təfəkkürünün yüksək səviyyədə inkişafından asılıdır. Qısqanclıq halı yaşandıqda ətrafda baş verən hadisələrə məntiqi deyil, emosional qiymət verilir. Qısqanclığın davranışdakı təzahür formaları: ittihamlı ünsiyyət, kobud və ya küskün rəftar tərzi, şübhəli baxışlar, yeni geyim tərzinə və ya saç düzümünə (bir sözlə, özünəqulluğa) qarşı iradların deyilməsi, telefon danışıqlarının dinlənilməsi, gediş – gəlişə nəzarətin artması (güdmə halları), tərəf müqabilin yaxın çevrəsi ilə ətraflı maraqlanma, tərəf müqabilin ictimai mühitlə əlaqəsinə qarşı çıxma, istirahət gəzintilərinin və ya pəncərə - eyvandan ətrafı seyr etmənin əleyhinə olmaq və s. (3, s 29).

Mütəxəssislər qısqanclıqları yalnız kəmiyyət göstəricisinə görə deyil, eyni zamanda büruzə verdikləri hislərin keyfiyyətinə görə də fərqləndirirlər. Bu zaman ən kəskin formaları "əzazillik qısqanclığı" və "əzab çəkmədən qısqanclıq" kimi variantlar göstərilir. "Əzazillik qısqanclığı" – inadkar, özündən razı, xırdaçı, emosional cəhətdən soyuq və heç kimlə dostluq, yaxınlıq etməyən şəxslərdə olur. Belələri ətrafdakılara icrası çox çətin və ya mümkün olmayan tələblər verirlər. Onlar müxtəlif məsələlərdə özlərinin günahkar olduqlarını heç bir vəchlə qəbul etmir, öz günahlarını başqalarının üzərinə atırlar. Belə subyekt özünə qarşı soyuq münasibət hiss etdikdə

və səbəbini axtardıqda asanlıqla tapır, bunu xəyanət və ya xəyanət şübhəsi ilə əlaqələndirir (2, s 397).

Qısqanclıq münasibət ilə özünü bəlli edən və cəmiyyət tərəfindən sevginin ayrılmaz bir parçası olaraq tanınan bir duyğudur. Qısqanclıq duyğusunun altında, önəm verdiyimiz insanı itirməkdən yaranan qorxu və münasibətin pozulması nəticəsində yaranan qayğı yatır. "Sevən insan qısqanar" ifadəsi isə sadəcə nəsildən nəsilə keçən bir mühakimədən başqa bir şey deyil. İnsanlar yaşadıqları dərin qısqanclıq hissini açıqlamaq üçün bu ifadəni işlədirlər. Lakin araşdırmalar göstərir ki, qısqanclığın sevgi ilə əlaqəsi olduqca aşağıdır. Çünki qısqanclığın tərkibində həm sevgi, həm də nifrət var. Sevginin payının az olduğu bu duyğu, sevginin kölgəsidir (4).

Ər – arvad arasında baş verən konfliktlərdə qısqanclıq amili mühüm amillərdən biridir. Psixoloqlar qısqanclıq hislərinə görə insanları xüsusi testlərlə müxtəlif qruplara bölürlər. Burada qütblərin birində tamamilə qısqanc olmayanlar, o birində isə qısqanclıq hisləri patoloji səviyyəyə çatan insanlar dururlar. Norma hesab edilən bir neçə qruplar aralıq sahədə yerləşirlər. Qısqanclıq da sevgi kimi daimi olaraq eyni səviyyədə qalmayaraq müxtəlif səbəblərin təsiri altında və yaşla əlaqədar dəyişir (1, s 566).

Ailədə ər – arvad qısqanclığı təbii və normal hisdir. Cütlüklərdən birinin üçüncü şəxsə bağlı olan intim münasibətləri onlardan birində təbii qısqanclıq emosionallığının oyanmasına səbəb olur. Qısqanclığın normal və təbii olması ilə yanaşı, onun "pataloji qısqanclıq" adlanan forması artıq psixi xəstəlik hesab olunur (5).

Ailə kişinin iş adamı və ya məşhur olan bir xanımla işgüzar əlaqələri həmin kişinin xanımında qısqanclığa səbəb ola bilər. Eyni hal ailənin xanımının üçüncü şəxs olan bir kişi ilə işgüzar əlaqələri fonunda da meydana gələ bilər. Qısqanclığa ən çox subay və ailəli gənclik dövründə təsadüf olunur. Burada milli adət - ənənələrinin, tarixən formalaşmış stereotiplərin və ictimai rəyin də güclü təsiri vardır (2, s 397).

Qısqanclığı yaradan əsas səbəblər: fizioloji görməkdən narazı olma, tərəf müqabilin görkəminin ətrafdakıların diqqətini çəkməsi, sevgili kimi əks tərəfin tələbatlarını ödəyə bilməmək, qısqananın qısqanclığına əsas verən fərziyyələrinə uyğun həyat tərzinin olması, qısqananın ünsiyyət dairəsində qısqanclığına əsas verən fərziyyələrinə uyğun həyat tərzi keçirən insanların olması, şübhəci xarakterin olması, vaxtilə yaxınlar tərəfindən xəyanət zədəsinin yaşanması. ətrafdan belə görünə bilər ki, kişilər daha qısqancdır. Çünki, kişilər qısqanclıq halı keçirdikdə destruktiv davranış tərzini tez biruzə verir və bunu ətrafdakı insanlara da hiss etdirməkdən (ətrafdakıların bu halları görməyindən) çəkinmirlər. Qadınların əksəriyyəti isə bu halı öz yaxınları ilə bölüşməyə üstünlük verir və ya heç bölüşmürlər. ətrafda aparılan müşahidələr və keçirilən sorğulan onu qeyd etməyə əsas verir ki, Azərbaycan ailələrində qadınlar öz ərlərini daha çox qısqanırlar. Bu onunla izah oluna bilər ki, Azərbaycan ailələrində işgüzar mühitlə əlaqəsi olmayan evdar qadınlar öz ünsiyyət dairələrindən əldə etdikləri müxtəlif informasiyaları faktlarla deyil, fərziyyələrlə uyğunlaşdırırlar. Elə bu səbəbdən də, təfəkkürdə müxtəlif obraz və mücərrəd hadisələr kök salır. Beləliklə, bu hal reallığa qısqanc davranış tərzi ilə daxil olur. Qadın xəyanətkar kişilər haqqında eşitdiklərini və ya hər hansı teleseriallardakı xəyanətkar kişi obrazının davranış tərzini yadda saxlayır və öz yoldaşında buna oxşar hallar axtarmağa başlayır. Səbəb isə onun işgüzar aləmi abstrakt fərziyyələrlə qəbul etməsi, real gerçəkliyi öyrənə bilməməsidir və öz həyat yoldaşında şübhələndiyi davranışı gördükdə artıq qısqanclıq hərəkətləri işıq üzü görür, şübhəli fərziyyələr öz fəsadlarını münasibətlərdə biruzə verir (3, s 30).

Qısqanclığın səbəblərinə aşağıdakıları aid etmək olar:

1.Aşağı özünəinam səviyyəsi

2.İtirmək qorxusu
3.Keçmişdə yaşanılan neqativ təcrübələr
4.Dəyərsizlik və natamamlıq hissi
5.Şəxsiyyət tipinin təsiri

Özgüvəni aşağı olan birisi qarşı tərəfin onu tərk edəcəyindən və ya başqasını ondan üstün görəcəyindən eyni zamanda özünü dəyərsiz və partnyoruna qarşı yetərsiz hiss etdiyi üçün qarşı tərəfi məmnun etmədiyini düşünərək qısqanclıq hislərinə qərq ola bilər. Bəzən bu düşüncələr idarəolunmaz hal alaraq həm şəxsin özünə, həm də sevilən insana qarşı neqativ davranışlara və şəxsiyyətdaxili konfliktlərə yol açа bilir. Bu zaman ünsiyyətin keyfiyyəti və bir – birini anlama aşağı düşərək münasibətdəki güvən və etibar hissini zədələyir (6).

Qısqanclıq həm də patoloji formada (Otello Sindromu) özünü göstərə bilər. Otello sindromu dəyərsizlik, natamamlıq kompleksi, güvənsizlik, bağlanma problemləri, təhsil səviyyəsi, yetişdirilmə şərtləri, sosio-mədəni fərqliliklər və s. səbəblərdən özünü göstərə bilər. Belə ki, bu adi qısqanclıqdan fərqli olaraq daha yüksək səviyyədə, yəni, patoloji səviyyədə özünü göstərir. Evli cütlüklər, evli olmayanlara görə qısqanclıq mövzularında daha çox problemin həllinə yönəlmiş davranışlar sərgiləyirlər. Münasibətlərdə zaman keçdikcə bu kimi problemlər daha az yaşanır. Münasibətin müddəti nə qədər uzundursa qısqanclığa verilən reaksiya və qısqanclıqla bağlı mübahisələr də azalır.

Patoloji qısqanclığın əlamətləri aşağıdakılardır:
1.Xəyalən real olmayan ssenarilər qurub onlara inanmaq
2.Sevdiyi insandan ayrılmağı fobiya halına gətirmək
3.Sadə hadisələrə qeyri – adekvat reaksiya vermək
4.Aqressiv davranış göstərmə və şiddətə meyllilik, zərər yetirmək
5.Sevilən şəxsi həddən çox məhdudlaşdırmaq, onun davranışlarına maksimum nəzarət etmək
6.Qısqanılan şəxsin sosial mühitlərdə iştirakını və sosial şəbəkələrdən istifadəsini məhdudlaşdırmaq
7.Partnyordan ayrılsa belə onun həyatına müdaxilə etməyə davam etmək, izləmək və şəxsin rahatlığını pozmaq

Bəzi insanlar qısqanılmaq istəyirlər. Patoloji qısqanclığı sevgi olaraq anlayan insanlar sevgi və diqqətdən yoxsul qalmış insanlar ola bilərlər. Yəni, sevilməyi qısqanclıqla əlaqələndirirlər. Belə şəxslər ailəsindən, ata – anasından kifayət qədər sevgi, diqqət görməmiş və qeyri – sabit davranış forması ilə böyüdülmüş şəxslərdir. Sevgisizlik, davamlı dəyişən münasibət, ailənin həddən çox şişirdilmiş lakin içi boş olan sevgi ifadələri uşaqların inkişafına neqativ təsir edir. Həqiqi sevgi və sağlam ünsiyyətin nə olduğunu bilməyən, öyrənməyən bir uşaq gələcəkdə başqaları ilə münasibətlər qurarkən doğrunu yanlışdan ayıra bilmir. Məsələn, bir oğlan uşağı atasının anasını çox qısqandığını və onu məhdudlaşdırdığını görürsə, o da sevgini "sahiblənmək"lə əlaqələndirə bilər. Qısqanan şəxslər zaman – zaman öz qısqanclıqlarını məntiqə bürüyür, sevdiyinə çox dəyər verdiyini söyləyərək özlərinə haqq qazandırmağa çalışırlar (9).

Kişilər və qadınlarda qısqanclığın yaranmasına səbəb olan amillər fərqlidir. Həyat yoldaşı xəyanət etmiş kişi özünü alçaldılmış, rüsvay olmuş, gülüş və kinayə obyektinə çevrilmiş, ətrafdakıların nəzərində kişi qüruru və şərəfini itirmiş kimi hiss edir. Ərinin xəyanəti ilə qarşılaşan qadın özünü alçaldılmış və təhqir olunmuş, artıq sevilməyən niri kimi qavrayır. Xəyanət qadınların psixikasına sağalmaz yara vurur. Bununla belə, əksər qadınlar bir dəfə baş verən belə halı bağışlayır və özlərinə "nə olsun, axırda yenə də o mənə qayıtdı" – deyə təsəlli verirlər (2, s 398).

Araşdırmalara görə, qısqanclıqla bağlı məsələlərin həllində qadınlar kişilərə nəzərən daha konstruktiv davranış sərgiləyirlər. Kişilər bununla bağlı adətən eqoist davranarkən, qadınlar isə

ailədaxili sakitliyi qorumağa çalışırlar. Lakin, buna baxmayaraq qadınlarla kişilər arasında qısqanclıq səviyyəsi cəhətdən ciddi bir fərq görünmür (9).

Qısqanclığı aradan qaldırmaq üçün ilk növbədə bu halı yaradan səbəbi aydınlaşdırmaq lazımdır. Bununla yanaşı, faktların doğruluğunu yoxlamaq mütləqdir. Bir çox hallarda qeyri – adekvat düşüncələr olduğu kimi real qəbul edilir və şəxs yaranmış situasiyadan yanlış nəticələr çıxarır. Heç bir əsas olmadan təxəyyüldə canlanan hansısa təsəvvürlərə inanmaq ən pis nəticələrə yol açа bilər. Vəziyyət idarəolunmaz hal alarsa və cütlüklər ciddi problemlər yaşayarsa bununla bağlı psixoterapiya dəstəyi almaqları tövsiyə edilir.

ƏDƏBİYYAT

1. Ə.S.Bayramov, Ə.Ə.Əlizadə. Psixologiya. Bakı, 2006, 613s
2. N.Çələbiyev, Ü.Əfəndiyeva. Ailə və gender psixologiyası. Bakı, 2021, 520s
3. Psixologiya jurnalı. Bakı, 2007, №2
4. https://leydi.az/munasibetler-16/qisqancliq-nedir-niye-qisqaniriq-1355
5. https://news.milli.az/society/561197.html
6. http://pcc.az/blog/?p=2440
7. https://kayzen.az/tag/q%C4%B1sqancl%C4%B1q/
8. https://tibb-dunyasi.com/qisqancliq-n%C9%99dir/
9.https://www.anadolusaglik.org/blog/asiri-kiskanclik-hastaligi-nedir-belirtileri-ve-tedavisi

QISQANCLIQ: AİLƏDAXİLİ MÜNASİBƏTLƏRİN ƏSAS PROBLEMİ KİMİ

Məmmədkərimova Sevinc

XÜLASƏ

Qısqanclıq sevgidə qarşı tərəfin etibarsızlığına eyham vuran, şübhələrin oyanması nəticəsində yaranan natamamlıq komplekslərindən biri olan emosional vəziyyətdir. Qısqanclıq zamanı onun ətrafında baş verən hadisələr məntiqi deyil, emosional olaraq qiymətləndirilir. Özünə hörməti aşağı olan insan, sevdiyi adamın onu tərk edəcəyini və ya partnyorunun onu sevmədiyini düşünərək qısqanc ola bilər. Qısqanclıq özünü patoloji formada da göstərə bilər (Otello sindromu). Heç bir səbəb olmadan hər hansı xəyali fantaziyaya inanmaq ən pis nəticələrə gətirib çıxara bilər. Qısqanclığa qalib gəlmək üçün ilk növbədə səbəbi müəyyən etməliyik.

Qısqanclığa səbəb olan amillər kişi və qadınlarda fərqlidir. Mütəxəssislər qısqanclığı təkcə kəmiyyətinə görə deyil, həm də ifadə etdiyi hisslərin keyfiyyətinə görə fərqləndirirlər.

РЕВНОСТЬ: КАК ОСНОВНАЯ ПРОБЛЕМА В СЕМЕЙНЫХ ОТНОШЕНИЯХ

Мамедкаримова Севиндж

АННОТАЦИЯ

Ревность — эмоциональное состояние, один из комплексов несовершенства, возникающее в результате возбуждения сомнений, намекающих на ненадежность второй стороны в любви. При переживании ревности окружающие ее события оцениваются эмоционально, а не логически. Человек с заниженной самооценкой может стать ревнивым,

думая, что его любимый человек бросит его или что он не нравится своему партнеру. Ревность может проявляться и в патологической форме (синдром Отелло). Вера в любые воображаемые фантазии без каких-либо оснований может привести к самым плохим результатам. Чтобы преодолеть ревность, мы должны сначала определить причину.

Факторы, вызывающие ревность, различаются у мужчин и женщин. Специалисты различают ревность не только по количеству, но и по качеству выражаемых ею чувств.

JEALOUSY: AS THE MAIN PROBLEM IN FAMILY RELATIONSHIPS

Mammadkarimova Sevinj

SUMMARY

Jealousy is an emotional state, one of the complexes of imperfection, resulting from the arousal of doubts, hinting at the unreliability of the other side in love. When experiencing jealousy, the events around her are evaluated emotionally, and not logically.

A person with low self-esteem may become jealous, thinking that his loved one will leave him or that his partner does not like him. Jealousy can also manifest itself in a pathological form (Othello's syndrome). Believing in any imaginary fantasy without any reason can lead to the worst results. To overcome jealousy, we must first identify the cause.

The factors that cause jealousy are different in men and women. Experts distinguish jealousy not only by the quantity, but also by the quality of the feelings expressed by it.

AİLƏ MÜNAQİŞƏLƏRİ SOSİAL-PSİXOLOJİ PROBLEM KİMİ

Quluzadə Ülkər Səməd qızı
ATMU-nun II kurs magistrantı
quluzadeulker@gmail.com

Açar sözlər: ailə, ailə münaqişələri, ər-arvad münaqişələri, valideyn-övlad münaqişələri, övlad-övlad münaqişələri
Ключевые слова: семья, семейные конфликты, конфликты мужа и жены, детско-родительские конфликты, детско-детские конфликты.
Keywords: family, family conflicts, husband-wife conflicts, parent-child conflicts, child-child conflicts.

İnsan özünü dərk etdiyi andan başlayaraq, xoşbəxt ailə sahibi olmaq istəyir. Ailə-cəmiyyət daxilində spesifik qaydaları olan və qapalı həyat tərzi ilə seçilən, doğmalıq münasibətləri üzərində qurulmuş insan qrupuna aid qurumdur [3,s.9]. Ailə mövzusu daim olaraq insanların maraq dairəsində olmuşdur. Bu hal heç də təsadüfi deyildir, çünki hər bir şəxs ilkin olaraq ona məxsus olan ailədə dünyaya göz açır, onun daxilində böyüyür, ilkin tərbiyəsini orada alaraq, "yaxşı" və "pis" anlayışlarını dərk edir. Amma eyni zamanda ailə münaqişələrin yaşana biləcəyi bir məkandır. Münaqişə insanlar arasında olan münasibətdə meyillər və maraqların toqquşması nəticəsində yaranan ixtilaf və kəskin mübahisədir. Ailədə münaqişənin mövcudluğu ailənin böyük üzvlərindən çox uşaqlara daha çox mənfi təsir edir.
Ümumiyyətlə, ailədə yaranan münaqişələri mütəxəssislər dörd səviyyədə qruplaşdırırlar: psixifizoloji səviyyə, psixoloji səviyyə, sosial rollar səviyyəsi və sosiomədəni səviyyə [2,s.29].
Psixofizioloji səviyyədə olan münaqişələrin səbəbi ailənin cinsi həyatında olan problemlərdir. Bu səviyyə əslində kifayət qədər yüksək olsa da, insanlar bu halı mümkün qədər gizlətməyə çalışırlar. Bunun əsas səbəbi də cəmiyyətdə mövcud olan stereotiplər, bu kimi problemlərin ifadə olunmasının da birmənalı qarşılanmamasıdır.
Digər səviyyə olan psixoloji səviyyədə olan münaqişələr bir çox hallarda ətrafdan o qədər də müşahidə olunmur, bu hal əsasən insanda mənəvi narahatlıq yaradır. Psixoloji münaqişələrin əsas səbəbi ailə üzvləri arasında olan uyğunsuzluq, fərqli dəyərlərə malik olmasıdır. Bu səviyyədə olan münaqişənin nəticəsində ailədə olan psixoloji mühit gərginləşir, üzvlər arasında soyuqlaşma, bir-birindən uzaqlaşma, yadlaşma halları mövcud olur.
Ailə münaqişlərinin üçüncü səviyyəsi isə sosial rollar səviyyəsinin əsas səbəbi ailədə olan məişət-təsərrüfat işlərinin düzgün bölüşdürülməməsi, ailə üzvləri arasında olan inamsızlıq, ailədaxili məsuliyyətsizlikdir. Belə münaqişələrin əsas səbəbi isə məişət problemləri, ailədə olan sosial rolların aydın dərk olunmaması, hər kəsin və ya ailənin bir üzvünü üzərinə düşən vəzifəni lazımi səviyyədə yerinə yetirməmisidir, belə halın varlığı artıq ailədə olan nizamın pozması ilə şərtlənəcəkdir.
Sonuncu səviyyə olan sosiomədəni səviyyə özünü ailə üzvlərinin fikirlərinin, düşüncələrinin, ümumi dünyagörnüşlərinin, təhsil səviyyəsinin, böyüdükləri ailələrin iqsadi səviyyəsinin fərqli olması zamanı meydana çıxan münaqişələrdir. Bu səviyyə eyni zamanda özündə digər səviyyələri də birləşdirir məs: ailə üzvləri arasında olan fikirlərin fərqliliyi, maraqların toqquşması, həyati əhəmiyyətə malik olan dəyərlərin fərqli olması, ünsiyyətdə olduğu, fikir mübadiləsi etdikləri zaman bərabər ortaq fikirlərinin yaranmaması ümumilikdə ailədə olan psixoloji iqlimə mənfi təsir göstərər, psixoloji səviyyədə münaqişələrin yaranmasına şərait yaradacaqdır.

Ailədə olan münaqişələri biz ər-arvad, övlad-valideyn, övlad-övlad, və s. təsnif edə bilərik. Ailədə ər-arvad arasında olan münaqişlərə səbəb olacaq faktorlar, təbii olaraq, hər ailəyə uyğun olaraq fərqlidir, lakin onları daha da konkretləşdirmək üçün onları iki qrupda cəmləşdirirlər: ailə qurulunadək mövcud olan səbəblər və ailə qurulduqdan sonra yaranan səbəblər.

Birinci qrupa aid olan məqamları bu formada təsnif edə bilərik: 1) Tərəf müqabillərinin yaş fərqinin olması və təhsil fərqinin olması; 2) gələcək ailənin üzvlərindən birinin narkomaniyaya və spirtli içkilərə qarşı meyilliyi və ya alüdəçi olması; 3) erkən yaşda nigaha girmə halı; 4) ailəyə və nigaha qarşı olan qeyri-ciddi münasibət; 5) ilkin tanışlıq zamanın az olması; 6) evləndikədən sonra, ailə üzvlərinin birinin ailədə uşağın dünyaya gəlməsini istəməməsi; 7) valideynlərin nikahın olmasına razılaşmaması, kəskin etiraz; 8) tərəf müqabillərinin razılığı olmadan, məcburiyyətlə qurulan ailə. Bu məqamlar artıq ailə qurulduğu ilk anlardan başlayaraq, ailədə problem yaratmağa başlayır, bu hal əslində göstərir ki, ailənin gələcək taleyi artıq ailə qurmamışdan qabaq bəlli olur, ona görə də risk amillərinə qarşı olduqca diqqətli yanaşmaq və nigah qurulana qədər onları mümkün qədər aradan qaldırmağa çalışmaq lazımdır.

Ailə qurulduqdan sonra isə münaqişəyə səbəb olacaq amillər fərqlidir, onlar ümumi olaraq 3 qrupda birləşirlər: şəxsi münasibətlər, xarici təsirlər və maddi-məişət. Münaqişələrin ən geniş yayılmış səbəbi şəxsi münasibətlər çərçivəsində yaranan münaqişələrdir. Buraya daxil edə bilərik, qısqanclıq, empatiya səviyyəsinin aşağı olması, qarşılıqlı ünsiyyətin aşağı olması, cinsi problemlər, partnuyorların ümumi sağlamlıq problemi, ailədə sağlamlıq imkanları məhdud uşağın dünyaya gəlməsi və s [5,s.16].

Ailədə münaqişə yaradacaq xarici amillər sırasına daxildir: xəyanət, valideynlərin ailəyə olan müdaxiləsi, texnikanın ailədə olan ünsiyyəti azaltması və ictimai-həyatda baş verən dəyişikliklər (karantin, işsizlik) daxildir. Bu zaman artıq ər-arvad arasındakı olan münasibətə artıq xarici amillərin təsiri ilə bağlı onlar arasında gərginlik yaranmağa başlayır. Bu səbəblərin hökm sürdüyü ailələrdə ər-arvad arasında olan münasibətdə yadlaşma, bir-birlərindən soyuma, qarşılıqlı ünsiyyətin aşağı səviyyədə və ya heç olmaması kimi hallar hökm sürür.

Ər-arvad arasında olan münaqişələrinin digər səbəbi maddi-məişət münaqişələridir. Belə hallara həyat tərzinin çətinləşməsi, maddi təminatının aşağı olması, partnuyorlardan birinin ailə məsuliyyətini dərk etməməsi və üzərinə düşən vəzifələri yerinə yetirməkdən çəkinməsi və s daxildir. Zamanla bu münaqişlər daha da dərinləşir, cütlüklər arasında fikir ayrılığı formalaşır, bu hal bəzən elə kəskin xarakter daşıyır ki, bütünlükdə ailənin məhvinə belə səbəb ola bilir. Məişət münaqişələrinə səbəb olan biləcək digər hal isə yeni ailə qurduqdan sonra qarşı tərəf ilə bir evi paylaşdığı zaman yaranan problemlərdir. Hər iki tərəf fərqli ailədə böyüdükləri üçün yaşayış formaları da fərqli olur, bəzən bir-birlərinin həyat tərzini qəbul etməkdə çətinlik çəkirlər, amma belə münaqişələr, adətən, qısa müddətli olur, cütlüklər zamanla bir-birini qəbul etməyə, ortaq bir forma tapmağa çalışırlar.

Ailədə olan münaqişələrin digər forması valideyn-övlad arasında olan münaqişələrdir. Bu münaqişələr əsasən, yeniyetməlik dövründə başlayır, əsas səbəbi də həmin dövrdə uşaqların özünətəsdiqə olan meylidir. Valideyn-övlad münaqişlərinin ümumi səbəblərinə aid edə bilərik: övlad ata-ana tərəfindən qoyulan qadağalara əməl etmək istəməməsi, valideynlərin öz övladlarından böyük gözləntilərinin olması, müasir dövrün problemi olan texniki vasitələrdən uşaqların alüdəçiliyi, ailədə bir neçə uşağın olması ilə valideynlərin uşaqlar arasında bərabərliyə əməl etməməsi, övladlar ilə valideyn arasında ünsiyyət yetməzliyi və s. Bu tip münaqişələri biz vasitəçi, sərt və mülayim formasında qruplaşdıra bilərik.

Yeniyetməlik dövründə olan münaqişlərin nəticələri daha ağır olur, yeniyetmələr ailədən uzaqlaşaraq ətrafdan özlərinə "dost" tapmağa çalışır, ən ağır hallarda isə onlar intihara belə əl atırlar [4,s.135].

Valideyn-övlad münaqişlərinin növbəti mərhələsi artıq övladın yetkinlik dövründə başlayır. Bu zaman əsas səbəblərə övladın evi tərk etmək istəyi, övladın ailə qurmaq istədiyi zaman valideynlərin onun seçimini dəstəkləməməsi, öz seçimlərinə uyğun ailə qurmasını istəməsi, ailə qurduqdan sonra valideynlərin gənc ailəyə olan müdaxilələri kimi hallar daxildir. Bu tip münaqişələrin böyük əksəriyyəti mülayim xarakter daşıyır, ağır nəticələrə malik olmur

Ailə münaqişlərinin növbəti forması isə övladlar arasında yaranan münaqişlərdir. Valideylərin uşağı dünyaya gətirərəkən, qurduqları xəyal belədir ki, onlar böyüyüb bir-birlərinə arxa-dayaq, dəstək olacaqlar. Amma, heç həmişə gözləntiləri reallaşmır, ailədə birdən çox uşağın olması bəzən onlar arasında münaqişə yarada bilir. Təbii ki, digər münaqişələrdə olduğu kimi bu tip münaqişlərində bir sıra özünəməxsus səbəbləri mövcuddur. Birinci səbəb kimi bunu qeyd edə bilərik ki, valideynlərin övladlara olan sevginin bərabər bölüşdürülməməsi. Bu özünü uşaqlara münasibətdə ayrı-seçkiliyin mövcudluğu, bir uşağı digərlərinə nisbətdən daim yüksək qiymətləndirmə, ona tez-tez diqqət göstərərək, hədiyyələrin alınması formasında göstərir. Təbii olaraq da, bu diqqətsiz qalan uşaqda o biri uşağa qarşı qısqanclıq, aqresiya, hətta nifrət hissi belə yarada bilər, həmçinin özündə də özünüqiymətləndirmə aşağı düşə, ümidsizlik, özünəqapanma halı yarana bilər. Belə tip ailələr də böyüyən uşaqlar adətən ömrünün sonuna kimi sevgi aclığı yaşayaraq, emosional tələbatlarını ödəyə bilmədiklərinə görə onlara səmimi yanaşan hər kəs qarşı bağlılıq problemi yaşayırlar.

Uşaqların bir-biri ilə münaqişəyə meyilli olan ailələrdə, uşaqlar böyüyüb ailəni tərk etdikdən sonra, bir-birlərindən uzaqlaşır, ümumiyyətlə, münasibət qurmaqdan çəkinirlər. Bəzən bu tip ailələrdə valideynlərin dünyadan köçməsi ilə münaqişənin yeni mərhələsi yaranır, belə ki, övladlar artıq mülkiyyət məsələlərinə görə bir-birləri ilə konfliktə girirlər.

Bəzən isə ailədə elə hal olurki, heç bir ayrı seçkilik yoxdur, lakin uşaqlar valideynlər tərəfindən onlara ayri-seçkilik olmasını hiss edirlər. Bu əsasən sağlamlıq imkanları məhdud olan uşaqların böyüdüyü ailələrdə görünür. Sağlam övlad ona yetəri qədər diqqət göstərilməməsini şikayət edir, lakin əsl həqiqət tamam fərqlidir, sağlamlıq imkanı məhdud olan uşaq fiziki olaraq daim valideynə ehtiyac duyur. Bu hal uşaqda bacı-qardaşına qarşı qısqanclıq, aqresiya formalaşdıra bilir, bəzən isə hətta ona zərər verməyi düşünür və tətbiq edir. Övladlar arasında münaqişənin nəticəsində bir-birləri üçün ən doğma olan insanların yadlaşması yaranır.

ƏDƏBİYYAT

1. Ə.Paşayev, F.Rüstəmov. Pedaqogika. Bakı, 2010
2. İ.Mirzəyev. Ailənin sosial psixologiyası. Bakı, 2011.
3. L.M.Qurbanova. Ailənin psixoloji problemləri və həlli yolları. Bakı, 2013.
4. M.N.Cizrelioğulları, R.Kilili. Ebeveyn tutumlarının çoçukların yetenek ve becerilerine etkisi. İstanbul, 2021.
5. Y.Çelik. Türkiyede aileye yönelik sosyal hizmet ve aile danışmanlığı uygulamaları. İstanbul, 2020.

AİLƏ MÜNAQİŞƏLƏRİ SOSİAL-PSİXOLOJİ PROBLEM KİMİ

Quluzadə Ülkər

XÜLASƏ

Sosial-psixoloji problem olan ailə münaqişələri ailənin bütün üzvlərinə təsir edir, amma bu təsirdən ən çox uşaqlar əziyyət çəkir. İnsanların böyüdükləri ailələr bütünlükdə onların gələcək həyatlarının formalarını müəyyən edir. Məqalədə ailə münaqişələrinin səviyyələri, səbəblərindən və təzahür formalarından bəhs olunur. Həmçinin, qısa formada ailə münaqişələrinin nəticələrinə də toxunulmuşdur.

СЕМЕЙНЫЕ КОНФЛИКТЫ КАК СОЦИАЛЬНО-ПСИХОЛОГИЧЕСКАЯ ПРОБЛЕМА

Гулузаде Улкер

АННОТАЦИЯ

Семейные конфликты, являющиеся социально-психологической проблемой, затрагивают всех членов семьи, но больше всего от этого воздействия страдают дети. Семьи, в которых растут люди, определяют формы их дальнейшей жизни. В статье рассматриваются уровни, причины и проявления семейных конфликтов. Также были кратко затронуты последствия семейных конфликтов.

FAMILY CONFLICTS AS A SOCIO-PSYCHOLOGICAL PROBLEM

Guluzade Ulker

SUMMARY

Although family conflicts, which are a socio-psychological problem, affect all family members, most children suffer from this effect. The families in which people grow up determine their future forms of life. The article discusses the levels, causes and manifestations of family conflicts. The consequences of family conflicts were also briefly touched upon.

EMDR TERAPİYASI: İNKİŞAFA VƏ FƏALİYYƏT MEXANIZMLƏRİNƏ ÜMUMİ BAXIŞ

Yükmen Adıyaman
BDU-nun II kurs magistrantı
Yukman.adiyaman@bsu.edu.az

Açar sözlər: psixoterapiya metodu, EMDR, göz hərəkətlərinin desensibilizasiyası və işlənməsi, effektiv psixoterapiya.
Ключевые слова: метод психотерапии, EMDR, денсибилизация и переработка движением глаз, эффективная психотерапия.
Keywords: psychotherapy method, EMDR, eye movement desensitization and processing, effective psychotherapy.

EMDR (Göz hərəkətləriylə laqeydləşdirmə və yenidən emal) 1987-ci ildə Amerikalı psixoloq Fransiz Şapiro tərəfindən kəşf edilən psixoterapiya texnikasıdır. Bu inteqrativ psixoterapevtik yanaşma nöqteyi-nəzərindən disfunksional saxlanılan xatirələr klinik patologiyanın ilkin əsası hesab olunur. Bu xatirələrin işlənməsi və onların daha geniş adaptiv yaddaş şəbəkələrinə inteqrasiyası onların transformasiyasına və sistemin yenidən işləməsinə imkan verir.

Son 25 il ərzində EMDR terapiyası ilə bağlı kifayət qədər klinik tədqiqat aparılıb ki, bu yanaşma travmanın effektiv müalicəsi kimi geniş şəkildə qəbul edilib. Terapiyanın tarixi, klinik tətbiqi və prosedurun elementləri müxtəlif ədəbiyyatlarda təsvir edilmişdir (Avropa EMDR Assosiasiyası: http://www.emdr-europe.org/), burada da iki əsas nəzəriyyəni izah edən tədqiqatları təsvir edir. EMDR terapiyası zamanı istifadə olunan bilateral stimullaşdırmanın (BLS) təsir mexanizmləri.

EMDR inteqrativ psixoterapevtik yanaşmadır, onun prosedur elementləri əksər psixoterapiya növləri ilə yaxşı uyğunlaşır (F. Shapiro, 2001, 2002). Terapiya, beynimizin informasiya emalı sisteminin həm sağlam insan fəaliyyətinin, həm də patologiyanın inkişafında rolunu vurğulayan İAİ(informasiyanın adaptativ işlənməsi) modelinə əsaslanır. İAİ modeli çərçivəsində, narahat və ya travmatik təcrübələrin kifayət qədər işlənməmiş xatirələri üzvi pozğunluqların səbəb olmadığı hər hansı bir psixopatologiyanın əsas mənbəyi hesab olunur. Bu yaddaşların emalı sistemin yenidən qurulması və yaddaş məlumatlarının daha böyük adaptiv yaddaş şəbəkələrinə assimilyasiyası yolu ilə problemin həlli. EMDR 8 fazalı terapiyadır və üç hissədən ibarət protokolu ehtiva edir:

– cari problemlərin arxasındakı xatirələr;

- müştərini sabit psixoloji sağlamlıq vəziyyətinə gətirmək üçün indiki vəziyyətlər və ayrıca həll edilməli olan triggerlər;

– həmçinin gələcəkdə daha adaptiv davranış üçün müsbət yaddaş skriptlərinin inteqrasiyası.

EMDR-nin fərqləndirici xüsusiyyətlərindən biri hədəf yaddaş şəbəkəsinin bütün aspektləri ilə işləmək üçün standart prosedurlar və protokollardan istifadə etməklə bilateral stimullaşdırmanın, xüsusən də yan-yana göz hərəkətlərinin, alternativ diz tıqqıltılarının və ya alternativ eşitmə stimullaşdırılmasının istifadəsidir.

EMDR-nin tarixi 1987-ci ildə F.Şapiro göz hərəkətlərinin narahatedici xatirələrə təsirini kəşf etdikdən sonra başlayıb. Buna əsaslanaraq, o, Göz Hərəkətinin Desensibizasiyası (EMD) adlı bir terapiya protokolu hazırladı. F.Şapiro əvvəlcə davranış baxışlarına sadiq qaldığı üçün əvvəlcə

göz hərəkətlərinin təsirinin sistematik desensibizasiyaya bənzədiyinə qərar verdi və bunun bədənin təbii relaksasiya reaksiyasına əsaslandığına qərar verdi.

O, həmçinin EMD prosesinin REM yuxusu fenomeni və onun insanlara təsiri ilə əlaqəli olduğunu təklif etdi.

F. Şapiro(2,4,6) tərəfindən aparılan ilk tədqiqatlar randomizə edilmiş klinik sınaqlar idi və cinsi zorakılıq qurbanlarının və müharibə veteranlarının müalicəsində perspektivli nəticələr göstərdi (Shapiro, 1989).

Shapiro davranış paradiqmasından kənarda EMD prosedurlarını inkişaf etdirməyə və təkmilləşdirməyə davam etdi və 1991-ci ildə terapiyanın adını EMDR olaraq dəyişdirdi. "Emal" sözünün əlavə edilməsi qərarı desensibizasiyanın terapiyanın nəticələrindən yalnız biri olduğunun, əslində daha dərin təsirə malik olduğunun dərk edilməsi ilə əlaqədar olub ki, bu da informasiyanın emalı nəzəriyyəsindən daha yaxşı başa düşülə bilər.

1990-cı illərin əvvəllərində EMDR sürətli inkişaf dövrünü və eyni zamanda, qızğın müzakirələr dövrünü yaşayır. Sistematik desensibizasiya metodunun müəllifi Cozef Volpun dəstəyi, eləcə də bir neçə tədqiqatın nəticələrinin dərci (Marquis, 1991; Wolpe & Abrams, 1991) EMDR-nin psixoterapiyanın çox perspektivli forması olduğunu təsdiqləməyə səbəb oldu. Digər tərəfdən, EMDR əleyhdarları göz hərəkətlərinin rolunu özləri şübhə altına aldılar (Lohr et al., 1992) və onları məruz qalma terapiyasının bir forması hesab etdiklərinə əlavə etmək üçün heç bir elmi səbəb görmədilər (McNally, 1999). Bu tənqid səhv kimi qəbul edildi (bax: Perkins & Rouanzoin, 2002-ci ildə icmal), lakin opponentlərin olması F. Şapiro və onun həmkarlarına işlərini davam etdirməyə və əlavə tədqiqatlar aparmağa mane olmadı. Empirik məlumatlar toplandıqca, EMDR terapiyası üzrə təlim proqramları ABŞ-da, eləcə də Avropa, Avstraliya, Mərkəzi və Cənubi Amerikada başladı.

Son 20 il ərzində toplanmış böyük empirik tədqiqat materialına görə EMDR terapiyası travmanın effektiv müalicəsi kimi tanınır və bir çox peşəkar təşkilatların klinik təlimatlarına daxil edilir və müxtəlif ölkələrin səhiyyə nazirlikləri tərəfindən tövsiyə olunur. Avropada bunlara Şimali İrlandiya Səhiyyə Departamentinin Klinik Resurs Effektivliyinə Dəstək Komitəsi (CREST, 2003), Hollandiya Milli Komitəsinin Psixi Sağlamlıq Xidmətlərinin Tətbiqi Rəhbərliyi (2003), Fransa Dövlətinin Tədqiqatı daxildir. Tibb və Sağlamlıq İnstitutu (INSERM, 2004), Böyük Britaniya Hökumətinin Psixi Sağlamlıq üzrə Əməkdaşlıq Mərkəzi (NICE, 2005), Texnologiyanın Qiymətləndirilməsi üzrə İsveç Şurası (2001) və Böyük Britaniya Səhiyyə Departamenti. ABŞ-da belə təşkilatlara Amerika Psixiatriya Assosiasiyası (2004), Amerika Psixoloji Assosiasiyası (Chambles et al., 1998), Milli Psixi Sağlamlıq İnstitutu (2007) və Veteranlarla İş Departamenti və Müdafiə Departamenti daxildir. (2004). EMDR həmçinin Beynəlxalq Travmatik Stress Cəmiyyətinin (ISTSS) (Foa, Keane & Friedman, 2009) tövsiyələrinə daxildir.

Klinik tədqiqatlar.

Çoxsaylı təcrübə təlimatları və meta-analizlər (Bisson & Andrew, 2007) göstərir ki, EMDR-in gücü və müddəti baxımından ən geniş şəkildə öyrənilmiş CBT üsullarına bərabər olan terapevtik effekt var. Təxminən 20 nəzarət edilən tədqiqatın nəticələri EMDR terapiyasının effektivliyini təsdiqlədi: TSSB müalicəsi üçün; fobiyalar (de Jongh, Ten Broeke & Renssen, 1999; de Jongh, van den Oord & Ten Broeke, 2002), panik pozğunluqlar (Goldstein et al., 2000; Fernandez & Faretta, 2007), ümumiləşdirilmiş narahatlıq pozğunluqları (Gauvreau & Bouchard, 2008), özünə nəzarət və özünə hörmətlə bağlı problemlər (Soberman, Greenwald & Rule, 2002), mürəkkəb yas halları (Solomon & Rando, 2007), dismorfiya (Brown, McGoldrick) & Buchanan, 1997), qoxu pozğunluğu sindromu (McGoldrick, Begum & Brown, 2008), cinsi disfunksiya (Wernik, 1993), pedofiliya (Ricci et al., 2006), uğursuzluq qorxusu (Barker & Barker, 2007), xroniki ağrı

(Grant & Threlfo, 2002), migren (Marcus, 2008) və amputasiyalarda xəyali ağrı (Schneider və digərləri, 2008; Tinker & Wilson, 2006; de Roos, Veenstra et al., 2010). Əksər tədqiqatlar böyüklərdə EDMR-nin effektivliyini qiymətləndirir, lakin uşaqlarda qeyri-adi müsbət nəticələr göstərən bir neçə tədqiqat var (Greenwald, 1998; Ahmad & SundelinWahlsten, 2008; Chemtob, Nakashima & Carlson, 2002; de Roos & de Jongh, 2008; Jaberghaderi, Greenwald, Rubin, Dolatabadim & Zand, 2004).

Desensibilizasiya və quraşdırma mərhələləri müxtəlif təsir mexanizmləri ilə xarakterizə olunur. Mümkün fəaliyyət mexanizmlərindən biri məlumatlılıqdır. EMDR-nin desensitizasiya mərhələsində müştərilərə "nə olursa olsun, buraxın" və ortaya çıxan hər şeyə "yalnız diqqət yetirin" göstərişi verilir (2, 4) (F. Shapiro, 1989, 1995, 2001). Bu, zehinlilik təcrübəsinin prinsiplərinə tamamilə uyğundur (Siegel, 2007). Bu kimi göstərişlər özlərinə qarşı həddindən artıq tələbləri azaldır və ola bilsin ki, müştərilərə nə hiss etdiklərini və nə düşündüklərini mühakimə etmədən müşahidə etməyə kömək edir. Tədqiqatlar təsdiq edir ki, neqativ fikir və hissləri şəxsiyyətin aspektləri deyil, keçici psixi hadisələr kimi görən paradiqmanın qəbul edilməsi (Teasdale, 1997; Teasdale et al., 2002) faydalı terapevtik təsirlərə malikdir. Bununla belə, meditasiya üsulları əksər hallarda iştirakçılardan ilkin diqqət mərkəzinə qayıtmalarını istəsə də (Tzan-Fu, Ching-Kuan & Nien-Mu, 2004), EMDR terapiyasında müştərilərdən sadəcə olaraq müxtəlif assosiasiyalara "diqqət yetirmələri" xahiş olunur.

Qəbul edilən sənətkarlıq EMDR-ni effektiv terapiya edən digər mühüm prosedur elementi ola bilər. Ekspozisiya üsulları konsentrasiya tələb edir və hadisədən yayınmanın qarşısını almaq üçün diqqəti yayındırmırsa, EMDR terapiyası göz hərəkətləri dəstləri zamanı müştəri daxilində baş verən müxtəlif assosiasiyalara yalnız bir anlıq diqqətdən istifadə edir. Buna görə də, EMDR zamanı müştərilər hadisəni yaşamaq, baş verənlərə diqqət yetirmək və dəyişikliyi terapevtə çatdırmaq arasında keçid edə bilmə duyğusunda artım hiss edə bilər. Müştərinin mübarizə strategiyalarından daha effektiv istifadə etmək bacarığı, təhlükəli vəziyyətlərdə stress, narahatlıq və depressiya ilə mübarizə qabiliyyəti ilə yanaşı inkişaf edə bilər. (Bandura, 2004). API nöqteyi-nəzərindən, bu qabiliyyət və səmərəlilik hissi beyində disfunksiyalı saxlanılan məlumatları ehtiva edən yaddaş şəbəkələri ilə əlaqə yaratmaq üçün uyğunlaşan məlumat kimi kodlanır.

Nəhayət, ifşa terapiyası, yuxarıda qeyd edildiyi kimi, ilkin olaraq diqqəti narahatedici hadisəyə yönəltməklə yüksək səviyyədə narahatlıq saxlayır, halbuki EMDR-də istifadə edilən göz hərəkətləri parasimpatik oyanma səviyyələrini artırır və mənfi materialın intensivliyini və emosionallığını azaldır, eləcə də narahatlığı artırır. diqqət çevikliyi. Mümkündür ki, bu cür effektlər digər yaddaş sistemlərindən alınan məlumatın disfunksiyalı saxlanılan məlumatları ehtiva edən hədəf şəbəkə ilə əlaqə yaratmasına imkan verir (Şapiro, 1995, 2001), yaddaşın transformasiyasına və sonra bərpasına gətirib çıxarır (Cahill & McGaugh, 1998; Suzuki et al. ., 2004). Bu fərziyyələri araşdırmaq və müxtəlif amillərin EMDR performansına spesifik, yan təsirləri və interaktiv təsirlərini daha yaxşı başa düşmək üçün əlavə klinik tədqiqatlar tələb olunur.

Beləliklə, EMDR psixoterapiyanın qabaqcıl sənətlərindən biridir. Bu, ilk növbədə, Boulder Modelinə(6) (Fagan & Warden, 1996) uyğun olaraq sübuta əsaslanan müalicələr üçün tövsiyələrin yaradılmasından sonra onilliklər ərzində psixoterapiyanın klinik və elmi aspektlərini birləşdirən Sübut Əsaslı Terapiya qrupunun bir hissəsidir. EMDR-nin başlanğıcından bəri praktikantlar həmişə klinik tədqiqatların inkişafını dəstəkləmişlər, bunu travma terapiyasının 30-dan çox təsadüfi sınaqları sübut edir. İAI modeli EMDR-nin nəzəri əsasını təşkil edir, lakin EMDR (və digər müalicə üsulları) ilə bağlı sualların cavablarının insan beynində olduğu aydındır. Nəticədə, ondan çox tədqiqat terapiyanın neyrobioloji aspektlərinin öyrənilməsinə həsr edilmişdir və onların nəticələri göstərir ki, psixoterapiya və beyin tədqiqatları tandemdə inkişaf

etməlidir (Bossini, Fagiolini & Castrogiovanni, 2007; Pagani et al., 2007; Richardson və başqaları, 2009).

EMDR müxtəlif yanaşmalarla uyğun gələn elementləri özündə birləşdirən psixoterapiyanın inteqrativ formasıdır. Burada terapiyada mərkəzi yeri bədən tutur, lakin koqnitiv, emosional və davranış aspektləri öz əhəmiyyətini saxlayır. EMDR-nin ən mühüm üstünlüklərindən biri də ondan yüksək fokuslanmış, qısamüddətli psixoterapiya forması kimi istifadə oluna bilməsidir (tək travma hallarında: Shapiro, 1989; Jarero, Artigas & Luber, 2011; Kutz, Resnik & Dekel , 2008) və uzunmüddətli, inteqrativ, daha geniş tətbiq olunan terapiya forması kimi (mürəkkəb travma hallarında, Korn, 2009). Müsbət psixologiya ilə yanaşı, EMDR müştərinin daxili resurslarına və bu resurslardan şəxsi inkişaf üçün istifadə etmək qabiliyyətinə inanan humanist terapiya formasıdır. EMDR-nin iş prinsipi ondan ibarətdir ki, müştəri terapevt tərəfindən lazımi stimullaşdırma ilə özünü sağaldır ki, bu da daxili informasiya emalı sisteminin fəaliyyətinin yaxşılaşmasına səbəb olur (Şapiro, 1995, 2001). Və nəhayət, dünyanın hər yerində, onlarla ölkədə EMDR üzrə müxtəlif mədəniyyətlərə və peşəkar oriyentasiyalara malik terapevtlər uğurla hazırlanır. EMDR-nin müxtəlif mədəniyyətlərdə uğurla istifadə edilməsi faktının özü (Kim və başqaları, 2010; Kavakcı, Kaptanog lu, Kug u & Dog an, 2010; Konuk et al., 2006; Uribe & Ramirez, 2006) EMDR-nin psixoterapiya dünyasının inkişafına və bəşəriyyətin rifahına böyük töhfədir.

Yekun olaraq qeyd etmək istərdim ki, EMDR-də cari problemlər əsasən disfunksional saxlanılan yaddaşlarla bağlı hesab olunur. Adekvat şəkildə işlənməmiş və adaptiv şəbəkələrə inteqrasiya olunmamış keçmiş təcrübə ilə birbaşa iş mövcuddur. EMDR travma müalicəsində effektiv sübuta əsaslanan psixoterapevtik yanaşmadır. Bununla belə, hər cür kliniki diaqnozu olan müştərilərdə disfunksional olaraq saxlanılan yaddaşlar mövcud olduğu üçün EMDR geniş spektrli xəstəliklərin müalicəsində istifadə oluna bilər. (Mol et al., 2005; Obradovicˇı, Bush, Stamperdahl, Adler & Boyce, 2010). EMDR inteqrativ psixoterapevtik yanaşması səkkiz fazalı, üç mərhələli (keçmiş, indi, gələcək) protokoldan istifadə edir, onun məqsədi müştərini mövcud patologiyanın əsasını qoyan təcrübənin təsirindən azad etmək, həmçinin müştərini psixi sağlamlıq vəziyyətinə gətirmək üçün təcrübə və xatirələrin geniş çeşidli elementlərini ümumi sistemə qurmaq.

Bu dəyişikliklərin arxasında duran dəqiq mexanizmlər bizə məlum olmasa da, çoxlu sayda randomizə edilmiş sınaqlar EMDR-də istifadə edilən göz hərəkətlərinin desensitizasiya effekti ilə əlaqəli olduğunu təsdiqləyir. Göz hərəkətlərinin özlüyündə diqqətin çevikliyinin artmasına və yaddaşın bərpasına gətirib çıxardığını göstərən tədqiqatların nəticələrini nəzərə alsaq, oyanma səviyyələrinin azalmasının digər yaddaş şəbəkələrindən gələn adaptiv məlumatın disfunksional şəkildə saxlanılan məlumatları saxlayan şəbəkə ilə əlaqə yaratmasına imkan verdiyini fərz etmək olar. Bu, adaptiv yaddaş axtarışına səbəb ola bilər. Bununla belə, psixoterapiyanın digər formalarında olduğu kimi, terapevtik effektin dəqiq bioloji əsasını müəyyən etmək üçün əlavə beyin tədqiqatlarına ehtiyac var. Göz hərəkətlərinin neyrobioloji əsaslarını və EMDR terapiya prosesinin müxtəlif komponentlərinin interaktiv təsirlərini müəyyən etmək üçün əlavə tədqiqatlara da ehtiyac var. EMDR terapiyasında ev tapşırığından istifadə edilmədiyini nəzərə alsaq, gündəlik terapiya bu tədqiqatların nəticələrini asanlıqla təsdiqləyə bilər və adətən digər terapiya formaları üçün tələb olunan vaxt çərçivəsini azalda bilər.

ƏDƏBİYYAT

1. Бессер-Зигмунд, К. EMDR в коучинге / К. Бессер-Зигмунд, Х Зигмунд; пер. с нем Н. Густ. – СПб.: Издательство Вернера Регена, 2007. – 160 с.

2. Шапиро, Ф. Психотерапия эмоциональных травм с помощью движений глаз: основные принципы, протоколы и процедуры /Ф. Шапиро; пер. с англ. А.С. Ригина – М.: Независимая фирма «Класс» – 1998 – 496 с.
3. Perkins, B.R., & Rouanzoin, C.C. A critical evaluation of current views regarding eye movement desensitization and reprocessing (EMDR): Clarifying points of confusion. Journal of Clinical Psychology, 58 – 2002 – pp. 77–97.
4. Shapiro, F. Eye movement desensitization and reprocessing: Basic principles, protocols and procedures (2nd ed.). New York: Guilford Press – 2001 – 450 p.
5. Shapiro, F. Paradigms, processing, and personality development. In F. Shapiro (Ed.), EMDR as an integrative psychotherapy approach: Experts of diverse orientations explore the paradigm prism. Washington, DC: American Psychological Association Books – 2002 – pp. 3–26
6. Shapiro, F. EMDR, Adaptive Information Processing, and Case Conceptualization / F. Shapiro //Journal of EMDR Practice and Research, Volume 1, Number 2 – 22007 – pp. 68-87

EMDR TERAPİYASI: İNKİŞAFA VƏ FƏALİYYƏT MEXANIZMLƏRİNƏ ÜMUMİ BAXIŞ

Yükmen Adıyaman

XÜLASƏ

Məqalədə EMDR metodunun 1987-ci ildə doktor Frensiz Şapironun ilk kəşfindən indiki nəticələrə qədər tarixi və inkişafı, eləcə də tədqiqat və klinik təcrübə üçün gələcək istiqamətlər təqdim olunur. EMDR, disfunksional olaraq saxlanılan xatirələri psixopatologiyanın inkişafında əsas element hesab edən ayrılmaz psixoterapiyadır.

EMDR-ТЕРАПИЯ: ОБЗОР РАЗВИТИЯ И МЕХАНИЗМЫ ДЕЙСТВИЯ

Юкмен Адияман

АННОТАЦИЯ

В статье представлены история и развитие метода EMDR от оригинального открытия доктора Фрэнсин Шапиро в 1987 к текущим результатам, а также будущие направления для исследования и клинической практики. EMDR – интегральная психотерапия, которая рассматривает дисфункционально сохраненные воспоминания как основной элемент развития психопатологии.

EMDR THERAPY: AN OVERVIEW OF DEVELOPMENT AND MECHANISMS OF ACTION

Yukmen Adiyaman

SUMMARY

The article presents the history and development of the EMDR method from the original discovery of Dr. Francine Shapiro in 1987 to current results, as well as future directions for research and clinical practice. EMDR is an integral psychotherapy that considers dysfunctionally stored memories as a core element in the development of psychopathology.

СТИГМАТИЗАЦИЯ В ОТНОШЕНИИ РОДИТЕЛЕЙ ДЕТЕЙ С АУТИЗМОМ.

Рагимова Алия Джаваншир гызы
магистрант II курса БГУ
aliyarahimova96@gmail.com

Ключевые слова: расстройство аутистического спектра, стигматизация, родители, общество.
Açar sözlər: autizm spektr pozuntusu, stiqmatizasiya, valideyin, cəmiyyət.
Keywords: autism spectrum disorder, stigma, parents, society.

В данной статье раскрываются особенности изменений в эмоциональной сфере родителей детей с расстройством аутистического спектра. Расстройства аутистического спектра- это сложное сочетание различных нарушений, которые включают в себя различные аномалии, нарушения, в сфере поведения, социального взаимодействия, коммуникации. Так как с каждым днем увеличивается количество детей с данной патологией, во всех странах исследуется и очень много публикаций по проблеме РАС, о диагностических методах, медикаментозных лечениях, коррекциях поведения и пр. Но при этом очень часто за бортом остаются проблемы тех людей, кто находятся рядом с человеком, у которого диагностируют расстройство аутистического спектра. Например, очень мало работ и исследований посвящено переживаниям близких ребёнка с аутизмом, которые живут, ежедневно ощущая на себе стрессовое, травмирующее влияние этого расстройства, диагностированного у члена семьи.

Есть разные теории, которые раскрывают причины возникновения стигматизации. Так, например, И. Кац считает, что существенными основаниями для стигматизации являются:

1.видимость

2.угроза

3.воспринимаемая ответственность.

«Видимость» в ситуации РАС – очень размыта. Например, когда мы смотрим на человека, у которого есть явная физическая травма, рожденные физические аномалии, нам его проблема становится «видимой», очевидной, и тогда мы испытываем жалость к его состоянию, к его ограничениям. В данном случае мы даже, не контактируя, пониманием чего лишен и как тяжело этому человеку. Но ребёнок с расстройством аутистического спектра выглядит абсолютно так же, как нормально развивающийся ребёнок, и когда он начинает проявлять серьёзные поведенческие отклонения, – это вызывает недоумение, переходящее в возмущение, гнев и протест. Общество приписывает этому ребёнку избалованность, невоспитанность, «плохой характер», и винят при этом родителей. Угроза – это ещё один важный атрибут стигмы. Доказано, что поведенческие девиации для людей представляют большую «угрозу» в сравнении с физическим недугом, так как непредсказуемое, резкое поведение несёт потенциальную опасность. Степень воспринимаемой ответственности также влияет на выраженность стигмы, так как заключается в неосознанной тенденции приписывать большую вину генетическому фактору, людям, имеющим наследственные нарушения здоровья, нежели тем, кто получил ушиб в результате аварии или травмы. Именно по этой причине часто люди, которые окружают родителей детей с РАС неосознанно приписывают «виновность» в расстройстве ребёнка, связывая аутизм с чрезмерной холодностью родителя, неадекватными методами

воспитания, «неправильным» образом жизни и т. п. Сами родители также могут очень болезненно переживать чувство вины, тем самым оставаться в прошлом, которое ничего не изменит в будущем [1].

Исследование, проведённое в 2000 г. М. Давидовичем, показало, что степень вины матерей, у которых ребёнок в начале жизни нормально развивался, а потом резко начал регрессировать, гораздо выше, чем у матерей, у которых ребёнок с рождения уже с явными отклонениями в развитии. Стигматизация, связанная с аутизмом ребёнка, которую ощущают на себе родители, обязательно затрагивает когнитивную, эмоциональную и поведенческую сферу. По словам Б. Мейджера, в результате стигматизации человек приобретает «хроническое чувство неполноценности». Многие родители ощущают на себе стигматизацию, связанную с огромным количеством стереотипов и мифов об аутизме, сюда относится и ложная информация, которая влияет на эмоциональное состояние.

Термин «Стигматизация» как особое явление давно изучается различными учёными и философами. Проблему стигмы обсуждал в своих работах И. Гоффман, он один из первых, кто описал ситуацию, когда человек по разным причинам вдруг не может подучать от общества социального признания. Социальная стигма наблюдается в каждой культуре, в каждом поколении, в каждом обществе [4]. Одна из функций стигмы для позиции «наблюдателя» (того, кто стигматизирует) – это снятие тревоги, повышение самооценки путём сравнения себя с другим, а также укрепление ощущения контроля над ситуацией. В литературу учёных сравнительно недавно вошли такие термины, как «ассоциированная стигма» или «вторичная стигматизация». Ассоциированная стигма это, когда человек испытывает постоянное негативное влияние из-за своей близости (родства, соседства, дружбы) к стигматизированному человеку. Дэвид Грэй отмечает, что во время вторичной стигматизации страдает психологическое благополучие родителей, особенно матерей. Это связано со стигматизацией ребёнка с РАС, которая заключается в том, что от такого ребёнка ожидают только деструктивного, антисоциального поведения. Очень часто эта угроза накладывается на абсолютно внешне нормальный вид ребёнка с РАС и отсутствие знаний у общества об аутизме.

В 2002 г., Д. Грей в своем исследовании, проведённом в Австралии, проинтервьюировал 53 родителя (матерей и отцов), которые имели детей с диагноз «аутизм». Результаты показали, что участвующие в исследовании родители были стигматизированы. Причём родители отмечали не только проявления враждебности и дискриминации в отношении себя со стороны других людей, но также в рамках вторичной стигматизации обвиняли и упрекали себя, испытывая чувство вины, смущения, стыда, так как считали, что они не могут, неспособны остановить поведенческие нарушения своего ребёнка. Родители отметили, что они испытывают гораздо более выраженную стигму, в обществе, при взаимодействии со школой, в магазинах, на прогулках, в местах большого скопления людей [5]. При исследовании, которое провел Д. Фаррудж В 2009 г., опросив 16 родителей детей с РАС, также выяснилось, что все они испытывают на себе влияние ассоциируемой стигмы. Эти родители в результате опыта взаимодействия с другими людьми, которые правильно направляли их, в итоге «усвоили» стигму, которая каждый раз обнаруживала себя через чувство стыда, а также убеждение, что они очень «плохие родители», «неправильно воспитывают ребенка». Они понимали, что размер стигмы зависит от тяжести проблемы у ребенка, чем в большей мере ребёнок проявлял поведенческие отклонения, тем выше наблюдалась стигма. При этом родители, дети которых получили от специалистов точный диагноз ребёнка и которые понимали, что у их

детей расстройство аутистического спектра, гораздо легче справлялись со стигматизацией. Те родители, которые воспитывали детей с РАС, но при этом не знали точного диагноза или не хотели его признавать, страдали от стигматизации сильнее. Исследование австралийских учёных, в котором анализировались записи в дневнике родителей и интервью матерей, воспитывающих детей с синдромом Аспергера, показало, что матери этих детей часто сталкивались с жестокостью и отсутствием сочувствия со стороны других людей. Им приходилось слушать оскорбления, унижения, что они плохие родители. Стигматизация у этих матерей проявляла себя в чувстве стыда и страха, что их оценят как «плохих родителей». Они чувствовали себя отличающимися от других родителей и боялись, что их будут осуждать и презирать окружающие люди. Большинство этих переживаний и чувств возникало в общественных местах: садика, школах и магазинах. Матери этих детей сказали, что после множества нападок окружающих людей, они просто старались изолировать себя и ребёнка от глаз общественности, как можно редко появляться в социуме, тем самым препятствуя развитию ребенка в социуме. Некоторые исследования показали, что, среди матерей есть те, кто давали обратную реакцию, агрессивно реагируя на осуждения, и даже странные взгляды прохожих. В исследовании также было выявлено, что в семьях с высоким социально-экономическим статусом уровень стигматизации был ниже, что объясняется большей доступностью для обеспеченных семей социальной поддержки, медицинской помощи и информации.

Чаще всего родители детей с РАС стигматизируются путём неодобрительных комментариев, оскорблений и непрошеных советов со стороны окружающих людей. Родители также стигматизируются, когда их знания и убеждения обесцениваются, грубо игнорируются в ситуациях взаимодействия с медицинскими работниками и педагогами. Родителям казалось, что педагоги и врачи как будто обвиняют их в том, что у них в семье появился ребёнок с РАС. Напротив, наличие поддержки со стороны специалистов от медицины и образования снижало уровень стигматизации. Поэтому очень важно быть специалистом своего дела, это не только быть очень грамотным, начитанным, но и строить эмпатию с родителями таких детей. Ещё одним «отягощающим» фактором стигматизации, по субъективному ощущению родителей, явился фактор этнической принадлежности. Если родители не были представителями доминирующего этноса, национальности, стигматизация и дискриминация в отношения их самих и ребёнка с РАС была более ощутимой.

На консультации к врачам и психологам приходят разные семьи с аутичными детьми, отличающиеся и по социальному уровню, и по уровню образования и личностным особенностям ее членов. Некоторые из них только узнав диагноз ребенка, впадает в депрессию, кто-то, впервые пережив психоз сына или дочери, пребывает в растерянности и не до конца понимает значение происходящего, другие уже смогли проделать путь к лучшему и в поиске лучших методов коррекции. При этом острота кризиса которую испытывает родитель не всегда напрямую зависит от того, сколько времени прошло с постановки диагноза. Особенности поведения ребенка, которые вынудили родителей обратиться к психиатру (эмоциональные особенности, негативизм ребенка, стереотипы, трудности в коммуникации, поведенческое нарушение) уже сформировали «особый» тревожный фон. Обвинения и осуждения, окружающих в «плохом воспитании», непонимание особенностей ребенка ведут к резкому снижению самооценки, чувству вины, стыда и беспомощности у родителей.

В заключение хотелось бы отметить, что родителей, воспитывающих детей с РАС, огорчают и фрустрируют обвинения окружающих в том, что ребёнок по их вине имеет

такое расстройство. Упреки со стороны окружающих в родительской несостоятельности, неумении воспитывать детей, попустительстве ухудшает состояние родителей. Каждый родитель, который имеет ребенка с расстройством аутистического спектра ждет поддержку, моральную помощь, которая поможет справиться с данной проблемой. Стигматизация влияет отрицательно не только на отношения родителя с ребенком, но и на общее эмоциональное состояние родителя. Это приводит к проблемам в отношениях всех членов семьи. Так как эта патология увеличивается с каждым днем все должны быть проинформированы чтобы адекватно реагировать при сталкивании с родителями детей с расстройством аутистического спектра.

ЛИТЕРАТУРА

1. Katz I. Stigma: A social psychological analysis. 1981. 152 p.
2. Бовина И.Б., Бовин Б.Г. Стигматизация: социально-психологические аспекты (Часть1). 2013. С. 11–22.
3. Морозов С.А. Детский аутизм и основы его коррекции,2002. 108 с.
4. Goffman I. Stigma: notes on the management of spoiled identity. 1963. 168 p.
5. Dovidio J.F., Major B., Crocker J. Stigma: Introduction and Overview // the Social Psychology of Stigma, 2000. P. 1–28.
6. Major B. New perspectives on stigma and psychological well-being // Stigma and group, 2006. P. 193–210.

СТИГМАТИЗАЦИЯ В ОТНОШЕНИИ РОДИТЕЛЕЙ ДЕТЕЙ С АУТИЗМОМ

Рагимова Алия

АННОТАЦИЯ

Воспитывать ребенка с РАС сложно как в финансовом, так и в моральном плане. Каждый родитель мечтает создать для своего ребенка красивое и здоровое будущее. Однако, несмотря на то что родители во время этого процесса испытывают трудность, обвинения, суждения со стороны окружающих усугубляют ситуацию. В результате родители подвергаются стигматизации. Эмоциональные расстройства и депрессия отрицательно влияют как на лечение ребенка, так и на отношения родителей к окружающим. Человек старается держаться подальше от всех, построить свой мир, в котором будет жить только он и его ребенок, и тем самым приносит вред себе и своему ребенку. Это связано с тем, что общество не проинформировано. Количество детей с РАС увеличивается день ото дня, и способность людей получать достоверную информацию и соответствующим образом реагировать окажет положительное влияние на развитие детей с РАС, а также на психическое состояние родителей.

AUTİZM SPEKTR POZUNTULU UŞAQLARIN VALİDEYİNLƏRİN MÜNASIBƏTİNDƏ STİGMATİZASİYA

Rəhimova Aliyə

XÜLASƏ

Autizm spektr pozuntusu olan uşağı böyütmək həm maddi, həm də mənəvi baxımdan çətindir. Hər bir valideyin övladına gözəl, sağlam gələcək qurmaq istəyir. Lakin bu çətinliyə baxmayaraq ətraf qınaqları, mühakimələr, ittihamlar vəziyyəti daha da ağırlaşdırır. Nəticədə bu valideyinlər stigmaya uğrayır. Emosional pozuntu, depresssiv hallar həm uşağın müalicəsinə, həm valideyinin ətrafdaki insanlara qarşı münasibətində problemlərə səbəb olur. İnsan artıq hamıdan uzaq olmağa çalışır, yalnız o və övladı yaşayacaq dünyanı qurmağa çalışır, və beləliklə özünə də övladına da zərər verir. Bu cəmiyyətin yetərincə məlumatlı olmasından irəli gəlir. Günü gündən autizm spektr pozuntulu uşaqların sayı artır, insanların doğru məlumatların alması və buna uyğun reaksiya göstərmələri həm spektr pozuntusu olan uşaqların inkişafına, həm də valideyinlərin psixi vəziyyətinə müsbət təsir göstərəcək.

STIGMATIZATION OF PARENTS OF CHILDREN WITH AUTISM SPECTRUM DISORDERS

Rahimova Aliya

SUMMARY

Raise a child with autism spectrum disorder is difficult both financially and spiritually. Every parent wants to build a beautiful, healthy future for his or her child. However, despite this difficulty, environmental criticism, judgments and accusations aggravate the situation. As a result, these parents are stigmatized. Emotional disorders and depression can cause problems for both the child's treatment and the parent's attitude toward others. Man is already trying to stay away from everyone, to build a world for him and his child. This is because society is not well informed. The number of children with autism spectrum disorders is increasing day by day, and people's ability to receive reliable information and respond accordingly will have a positive impact on both the development of children with spectrum disorders and the mental, emotional state of their parents.

ÖZÜNÜQİYMƏTLƏNDİRMƏNİN FORMALAŞMASINA TƏSİR GÖSTƏRƏN AMİLLƏR

İsgəndərova Qumral İltifat qızı
BDU-nun II kurs magistrantı
qumral.isgenderova@gmail.com

Açar sözlər: Özünüqiymətləndirmə, özünə hörmət, ailə, cins, sosial mühit, uğur, şəxsiyyət.
Ключевые слова: Самооценка, самоуважение, семья , пол , социальная среда, успех, личность.
Key words: Self-esteem, self-respect, family, gender, social environment, success, identity.

Özünüqiymətləndirmə qısa olaraq insanın özünə verdiyi dəyərdir. Özünüqiymətləndirmə şəxsin özü ilə bağlı nə hiss etdiyidir. Özünüqiymətləndirmə insanın öz dəyərini bilməsi, özünə hörmət, sevgi və dürüst bir şəkildə davranmaq bacarığıdır [2].

Sedikides (1993) təklif edir ki, özünüqiymətləndirmə motivi insanları müəyyən mənlik anlayışından çox, qeyri-müəyyən mənlik anlayışını təsdiqləmək üçün məlumat axtarmağa sövq edir və eyn zamanda insanlar özlərinə olan əminliklərini artırmaq üçün özünüqiymətləndirmədən istifadə edirlər [3,4].

Trope 1986-cı ildə bir məqalədə özünüqiymətləndirmənin gələcəkdə özünə hörmətin artırılmasının bir yolu olduğunu göstərir. Özünüqiymətləndirmə təkcə həyat keyfiyyəti üçün vacib deyil, həm də performansın, hədəflərin qoyulmasının və uğurun göstəricisidir. Özünüqiymətləndirməsi yüksək olan insanlar daha yüksək hədəflər qoyur, şəxsi inkişafa diqqət yetirir və uğursuzluqlar qarşısında inadkar olurlar [8].

Bəs biz bu özünüqiymətləndirməni necə öyrənirik? Məşhur filosof Con Lokkun dediyi kimi, insan ağlı boş lövhə kimi doğulur və insanın keçirdiyi təcrübələr onun həyatında izlər buraxır. Başqa sözlə, özünüqiymətləndirmə təcrübələr yoluyla öyrənilən bir vəziyyətdir. Uşağın özünüqiymətləndirməsinin mənfi və ya müsbət istiqamətdə inkişaf etməsi digər insanların ona qarşı necə davranması, hansı münasibətin olması və ətrafdan aldığı müsbət və mənfi rəylərlə müəyyənləşir. Öyrəndikləri nə qədər fərqliliklərin qəbul edildiyi, sevginin aydın şəkildə göstərildiyi, ünsiyyətin aydın ifadələrlə qurulduğu, qaydaların sərt olmadığı və dəyişiləbilən olduğu, məsuliyyət almanın valideynlər tərəfindən modelləşdirildiyi və təşviq edilən təlimlər olarsa, bu ağ lövhə müsbət istiqamətdə dolacaq və dolduqca da şəxsin özünüqiymətləndirməsi yüksələcəkdir.

Uşaq doğulduğu mühitdə öz məna sistemini yaratmaq üçün səy göstərməyə başlayır. Biz hamımız bu məna sistemimizi ailə mühitində inkişaf etdirməyə başlayırıq. Özünüqiymətləndirmənin təməli ailələrimiz tərəfindən qoyulur. Uşaqların valideynlərindən və ya onlara qayğı göstərən şəxslərdən aldıqları şərhlər və qurduqları münasibətlər özünüqiymətləndirməyə böyük təsir göstərir. Məsələn, amansız mənfi rəylər (sən axmaqsan, faydasızsan, tənbəlsən və s.) onlarsız həyatın daha yaxşı olacağını düşündürmək, uşaqları görməməzlikdən gəlmək və ya onlara aqressiv davranmaq, digər uşaqlarla xoşagəlməz müqayisələr uşağın özdəyər duyğusunu zədələyə bilər [10]. Uşağın böyüdüyü ailə uşağın mənlik şüurunun inkişafına dəstək ola və ya əngəl törədə bilər. Uşaq bu məna qurma sistemini inkişaf etdirərkən o, öz dəyərini də, özünüqiymətləndirməsini də inkişaf etdirməyə başlayır. Özünü yüksək qiymətləndirən insan xoşbəxt yaşamaq hüququna malik olduğuna və buna gücü çatacağına inanır.

Özünüqiymətləndirməmizə təsir edən müxtəlif amillərə aşağıdakıla daxildir [6]:

- Genetika
- Şəxsiyyət (şəxsi keyfiyyətlər)
- Həyatda qazanılmış təcrübələr
- Sosial vəziyyət
- Ətrafdakıların reaksiyaları
- Özünü başqaları ilə müqayisə etmək
- Yaş
- Sağlamlıq
- Düşüncələr

Özünüqiymətləndirmə həyatımızın ilk altı ilində formalaşır. Aldığımız təhsillə bu öyrəndiklərimiz çeşitlənsə də, çox şaxəli olsa da ailədən öyrəndiklərimiz hər zaman həyatımızın mühüm bir hissəsini təşkil etməyə davam edir. Ailə mühti uşağın özünüqiymətləndirməsini təyin edən tək amil deyil, amma ən vacib amildir. Uşaqlıqdan başlayan bu təsir böyük məktəb yaşı dövründə də davam edir. Özünüqiymətləndirməyə mənfi təsir edən amillərin siyahısı aşağıda verilmişdir. Bu siyahı Nathaniel Brandenin yazılarından və kitablarından ilhamlanaraq hazırlanmışdır:

- Uşaq onun üçün vacib olan şeyləri danışarkən onu dinləməyərək "vecimə deyilsən" hissini vermək;
- Uşağın fikir və ya hisslərinin dəyəri və əhəmiyyətinin olmadığını bildirmək;
- Uşağı "qəbuledilməz" hisslərin ifadəsinə görə cəzalandırmaq;
- Başqaları ilə danışarkən ona baxmamaq, onu istisna etmək;
- Davamlı "qaçma yıxılarsan, əl vurma qırarsan" kimi ifadələrdən istifadə edərək uşağa "yetərsizsən" mesajını vermək;
- "Ağlama, qışqırma, gülmə, danışma" kimi sözlərlə onun duyğularını ifadə etməsinə mane olmaq;
- Onu ələ salmaq, onu alçaltmaq;
- Onun düşüncə və hisslərinin gülünc və dəyərsiz olduğu təəsüratını yaratmaq;
- Uşağı utanc və ya təqsir hissi ilə idarə etməyə çalışmaq;
- Uşağın həyatla təmasını həddindən artıq qoruyucu şəkildə kəsmək və nəticədə normal öyrənməyə və özünə inamı artırmağa mane olmaq
- Təməldə, "səndə bir problem var, sən normal deyilsən" duyğusunu vermək;
- Diqqət etmədən, nizam-intizam yaratmadan uşağı tamamilə nəzarətsiz qoymaq;
- Uşağı sistemli olmayan, özbaşına dəyişən qaydalara uyğun yetişdirmək;
- Döyülmək qorxusu ilə onu yazıq, qorxaq biri halına gətirmək;
- Doğuşdan uğursuz, lənətlənmiş, günahkar olduğunu söyləmək;
- Uşağı fiziki zorakılığa məruz qoymaq və ya onu hədələmək;
- Uşağa cinsi obyekt kimi yanaşmaq (ona bir cinsi obyekt kimi baxmaq, danışmaq və istifadə etmək) [10].

Ağlına güvənməyən, qabiliyyətlərinin yetərsiz olduğunu düşünən insan daim təşviş içində olur. Belə təşviş içində keçən ömür onun enerjisini istismar edir və məhv edir. O, öz yaşamında mövcud olmağa cəsarət edə bilmir. Belə insanların çoxluq təşkil etdiyi cəmiyyətdə elm və sənət inkişaf edə bilməz.

Öz yaşamında var olmağa cəsarət edə bilməyən insan içdən-içə əsəbidir. Onun daxilində həm özünə, həm də ətrafa qarşı gizli bir qəzəb var. Bu qəzəb özünü şikayət etmək, bədbin olmaq, sevgisizlik, hər bir hadisənin arxasında pis niyyət axtarmaq şəklində göstərir. Belə insanlar müvəffəqiyyətli və xoşbəxt olmağa layiq olmadıqlarını düşündükləri üçün əldə etdikləri

uğurlarının daimi olacağına inanmazlar və özlərini sabotaj edərək bədbəxt və uğursuz edərlər. Və sonra da "onsuz da bilirdim ki, uğur və xoşbəxtliyim uzun müddət davam etməyəcək" deyərlər [10].

Bu gün belə uşaqlıq təcrübələrində çıxan milyonlarla kişi və qadın yaralarını sağaltmaq üçün yollar axtarır. Onlar anlayırlar ki, onlar yetişkin həyatına bir öhdəçiliklə - özünə hörmət çatışmazlığı ilə qədəm qoyublar. Onlar özlərini adekvat qiymətləndirməyi bacarmırlar. Problemi təsvir etmək üçün hansı sözlərdən istifadə etmələrindən asılı olmayaraq, onlar bilirlər ki, onlar "kifayət qədər" olmamaq kimi inadsız bir duyğudan və ya utanc və təqsirkarlıq hissi, ümumiləşdirilmiş özünə inamsızlıq, yayılan ləyaqətsizlik hissindən əziyyət çəkirlər [1, p. 6-8].

Özünüqiymətləndirməsi yuxarı olan şəxslərdə həssaslıq, dürüstlük, sevgi, şəfqət, yetərlilik asanlıqla seçilir. Öz bacarıqlarının fərqində olan şəxslər qərar vermədə də ən doğru səlahiyyət sahibinin özləri olduqlarını bilirlər. Aldıqları qərarlar və ya etdikləri seçimlər nəticəsində günahkar hiss etmək və ya başqalarını günahlandırmaq əvəzinə, məsuliyyət almaqda çətinlik çəkməzlər. Öz dəyərlərinin fərqində olan insanlar qarşısındakı insanın da dəyərini bilərək ona hörmət göstərməyi bacarırlar. Özünüqiymətləndirməsi aşağı olan insanlar isə çox zaman layiq olduqlarının alçaldılmaq və əzilmək olduğuna inanırlar. Bu inanca sahib insanlar hər zaman ən pis ssenariləri hazırladıqları üçün enerjiləri ilə bir növ neqativ olanı maqnit kimi özlərinə çəkirlər. Hətta bu şəkildə özlərini təsdiqləyirlər. "Ağlıma gələn başıma gəldi" ifadəsini tez-tez eşidə bilərsiniz. Bir müddət sonra özünüqiymətləndirməsi aşağı olan insanlar üçün ümidsizliyə qapılmaq, tənha hiss etmək qaçınılmazdır.

Tədqiqatlar həmçinin cinsi, məktəbdəki performansı, valideynlərin təhsil səviyyəsi və sosial-iqtisadi statusu da daxil olmaqla uşağın özünə inamına təsir edən bir sıra dolayı faktorları müəyyən etmişdir (Nguyen et al., 2019).

Digər bir tədqiqat isə sosial şəbəkələrdən istifadənin özünüqiymətləndirməyə mənfi təsir etdiyini göstərir (Friedlander, 2016). Bu təsiri başa düşmək asandır. İnsan sosial varlıqdır və sağlam, xoşbəxt qalmaq üçün başqaları ilə qarşılıqlı əlaqəyə ehtiyac duyur. Bununla belə işdə, münasibətlərdə və ümumiyyətlə həyatda öz inkişafımızı ölçmək və izləmək üçün ətrafımızdakılardan da müqayisə kimi istifadə edirik. Sosial şəbəkələr bu müqayisəni həmişəkindən asan edir. Facebook, instagram, twitter - də gördüklərimiz real həyatı təmsil etmir. Mümkün olan ən yaxşı təəssürat çox vaxt diqqətlə tərtib edilir və əziyyətlə təqdim olunur.

Biz gündəlik insan həyatını müşayiət edən kədər, uğursuzluq və məyusluğu nadir hallarda görürük. Bunun əvəzinə mükəmməl bir şəkil, yalnız xoş xəbərlərlə dolu bir zaman qrafiki və nailiyyətlər, uğurlar və xoşbəxtlik haqqında qısa sözlər görürük.

Çox vaxt başqalarında yalnız ən yaxşısını gördüyümüz barədə tez-tez xatırlatmalarla tamamlanan orta sosial şəbəkə istifadəsi sosial şəbəkə yazılarından qeyri-sağlam müqayisədən daha çox ilham və motivasiya kimi istifadə etməyə imkan verə bilər. Adekvat özünüqiymətləndirmə hissini qorumaq üçün sosial şəbəkələrdən tamamilə imtina etməyinizə ehtiyac yoxdur. Sadəcə onu ağılla istifadə edin və düzgün perspektivdə saxlayın [6].

Özünüqiymətləndirmə gücləndirir, enerji verir, həvəsləndirir. Bu bizi nailiyyət üçün ruhlandırır və nailiyyətlərdən həzz almağa və fəxr etməyə imkan verir. Məmnunluğu yaşamağa imkan verir. Özünüqiymətləndirmə, onun (nisbi) olmaması bizim fəaliyyət qabiliyyətimizi zəiflətdiyinə görə özünü ehtiyac kimi tanıdır. Buna görə də onun yaşam dəyəri olduğunu deyirik [1, p.11].

Özünüqiymətləndirməmiz sosial mühitdən aldıqlarımızla formalaşdıqdan sonra özümüzü qarşıladığımız şəkildə və səhvlərə qarşı dözümlü olmağımızla bəslənir. Çox vaxt təcrübələrimiz vasitəsilə beynimizdə formalaşdırdıqlarımız mənfi emosiyalar hiss etməyimizə səbəb olur. Bəs biz özümüzə xor baxanda adətən hansı zehni səhvlərə yol veririk [Burns, s. 80]. Adətən belə

vəziyyətlərdə biz özünüqiymətləndirmə səviyyəmizi aşağı salırıq, çünki həyata əsasən qara və ya ağ pəncərələrdən görürük. Kritik vəziyyətlərdə digər rənglərə seçilmə şansı vermirik. Həyatı bu qədər uc nöqtələrdə görmək bizi performansımızın ya çox pis, ya da çox mükəmməl olduğuna inandırır. Özünüqiymətləndirmə "ya hamısı, ya heç nə" prinsipi koqnitiv təhriflərlə dolu məyusluğu, çarəsizliyi, ümidsizliyi və narahatlığı da öz bərabərində gətirir. Çox zaman bu təbiətli bir çox insan alkoqolizm, maddə asılılığı və yalan kimi mənfi mübarizə strategiyalarını seçir. Özlərini dəyərsiz hiss etdikləri üçün çox zaman başqalarına da dəyərsiz olduqlarını hiss etdirirlər.

Böyük məktəb yaşı dövründə özünüqiymətləndirmə sağlamlıq və rifah amilidir və tələbələrin akademik nailiyyətləri üçün proqnozlaşdırıcıdır (Nguyen, Wright, Dedding, Pham & Bunders, 2019). Həqiqətən, yüksək özünüqiymətləndirmə peşə uğuru, daha yaxşı sosial münasibətlər, təkmilləşdirilmiş mübarizə bacarıqları, həmyaşıdları tərəfindən müsbət qəbul və artan rifah hissi ilə müəyyən edilən daha müsbət nəticələrə gətirib çıxarır [7].

Əslində emosional vəziyyətimizi dəyişdirmək bizim əlimizdədir. Ailə həyatımız sabit olmadığı və dəyişkən olduğu kimi, özünüqiymətləndirməmiz də zaman içində dəyişə bilər [Lebow, 2014, s. 44].

Özünüqiymətləndirmənizi ancaq özünüz yüksəldə bilərsiniz:

- Özünüzə dürüst bir baxışla baxın;
- Səhvlərinizi qəbul edin və tolerans göstərməyə çalışın;
- Lazım olduqda "xeyr" deməyi bacarın;
- Sizi xoşbəxt edən alternativlər tapın;
- Özünüzə uyğun, real məqsədlər qoyun;
- Özünüzə dəyərli hiss edə biləcəyiniz şərait yaradın;
- Mükəmmələ deyil, yaxşıya diqqət yetirin;
- Səhvləri və uğursuzluqları yeni təcrübələr olaraq düşünün;
- Hər böhrandan dəyişim üçün lazım olan açar kimi istifadə edin;
- Dəyişdirə biləcəyiniz və dəyişdirə bilməyəcəyiniz şeyləri bir-birindən ayırın;
- Dəyişdirə bilməyəcəyiniz şeyləri qəbul edin və dəyişdirə bildiklərinizüçün bütün gücünüzü sərf edin;
- Unutma ki, sənə verilən həyatı yaşamaq üçün yalnız bir şansın var və bu həyat sənindir.

ƏDƏBİYYAT

1. Nathaniel Branden, The power of self-esteem: An Inspiring Look at Our Most Important Psychological Resource
2. Satir, 1998, p. 24
3. Sedikides, Constantine (August 1993). "Assessment, enhancement, and verification determinants of the self-evaluation process". Journal of Personality and Social Psychology. 65 (2): 317–338. doi:10.1037/0022-3514.65.2.317. ISSN 1939-1315
4. Sedikides, C., & Strube, M.J. (1997)., Self-evaluation: To thine own self be good, to thine own self be sure, to thine own self be true, and to thine own self be better. Advances in Experimental Social Psychology, 29, 209-269.
5. Self-esteem – the puzzle of low self-regard edited by Roy F. Baumeister, Plenum Press, New York, 1993
6. https://positivepsychology.com/self-esteem
7. https://positivepsychology.com/self-esteem-for-children/
8. https://positivepsychology.com/self-esteem-journal-prompts/

9. https://selfpsikoloji.com.tr/kendilik-algisinin-temel-tasi-ozdeger/
10. http://www.dogancuceloglu.net/yazilar/661/ozdeger/

ÖZÜNÜQİYMƏTLƏNDİRMƏNİN FORMALAŞMASINA TƏSİR GÖSTƏRƏN AMİLLƏR

İsgəndərova Qumral

XÜLASƏ

Bu məqalədə fərdin özünüqiymətləndirməsinin formalaşmasına təsir göstərən amillər barəsində danışılır. Özünüqiymətləndirmə dedikdə qısa olaraq insanın özünə verdiyi dəyər nəzərdə tutulur. Özünüqiymətləndirmə şəxsin özü ilə bağlı nə hiss etdiyidir. Özünüqiymətləndirməmizə müxtəlif amillər təsir edir. Bu amillər içərisində genetika, yaş, cins, şəxsi keyfiyyətlər, başqaları ilə münasibət, sağlamlıq, həyatda qazanılmış təcrübələr, sosial şəbəkələr və digərləri qeyd olunur.

ФАКТОРЫ, ВЛИЯЮЩИЕ НА ФОРМИРОВАНИЕ САМООЦЕНКИ

Искандарова Кумрал

АННОТАЦИЯ

В данной статье рассматриваются факторы, влияющие на формирование самооценки личности. Короче говоря, самооценка — это ценность, которую человек придает себе. Самооценка – это то, как человек относится к себе. На нашу самооценку влияют разные факторы. К таким факторам относятся генетика, возраст, пол, личные качества, отношения с окружающими, здоровье, жизненный опыт, социальные сети и так далее отмечается.

FACTORS AFFECTING THE FORMATION OF SELF-ESTEEM

Isgandarova Gumral

SUMMARY

This article discusses the factors that influence the formation of an individual's self-esteem. Self-esteem is, in short, the value of a person places on himself/herself. Self-esteem is how a person feels about himself/herself. Various factors affect our self-esteem. These factors include genetics, age, gender, personal qualities, relationships with others, health, life experiences, social networks, and so on are noted.

CİNAYİ DAVRANIŞ ERKƏN DEZADAPTASİYANIN NƏTİCƏSİ KİMİ

Məmmədova Aynur Qüdrət qızı
Western Caspian University
aynur.mammadovaa@gmail.com

Açar sözlər: Yetkinlik yaşına çatmayanların cinayəti, cinayi davranışa meyl, cinayi davranış, deviant davranış, dezadaptasiya.
Ключевые слова: преступность несовершеннолетних, склонность к преступному поведению, преступное поведение, девиантное поведение, дезадаптация.
Keywords: Juvenile delinquency, criminal tendency, criminal behavior, deviant behavior, dezadaptation.

İnkişaf və sənayeləşməyə paralel olaraq, xüsusilə şəhərlərdə cinayət nisbətləri artır, cinayət törədənlər arasında uşaq və gənclərin sayında da artım müşahidə olunur. Ədəbiyyatlarda qeyd olunur ki, bütün uşaqlar kiçik yaşda müxtəlif kiçik hüquq pozuntuları törədirlər. Hətta, bəzi ekspertlərin fikrincə, hər bir uşaqda cinayi davranışa meyillilik olur. Əslində hüquq pozuntusu kateqoriyasına daxil olan, əhəmiyyətsiz kiçik hüquq pozuntuları törədirlər. Ancaq bu o demək deyil ki, kiçik hüquq pozuntuları törədən uşaqlar gələcəkdə də cinayət törədəcək və cinayətkar olacaqlar. İnkişaf prosesində uşaqların əksəriyyəti sosiallaşma və ətraf mühitə uyğunlaşmada tarazlığa nail olurlar.

Belə ki, uşağın inkişaf mərhələlərinin irsi və bioloji faktorlarla xüsusiyyətlərini bilməməkdən yaranan tərbiyə problemləri yetkinlik yaşına çatmayanların cinayətkarlığının ilkin şərtlərini təşkil edir. Bu amillər sosial və yaxın ətraf mühit şəraiti ilə birləşərək yeniyetməni cinayətkar davranışa sövq edən mühüm stimula çevrilir. İnsan inkişaf prosesində körpəlik, uşaqlıq, yeniyetməlik, gənclik və qocalıq kimi mərhələlərdən keçir. İnkişaf mərhələləri də bir-birinə təsir göstərir. Bu mərhələlərdən birincisi olan körpəlik dövründə valideynlər mühüm rol oynayır.

Araşdırmalar göstərir ki, valideyn itkisi yeniyetmələrdə cinayi davranış meyllərinin yaranmasında əhəmiyyətli rol oynayır. İntihara cəhd edən və müxtəlif depressiv əlamətləri olan yeniyetmələrin əksəriyyətinin uşaqlıq illərində valideynlərini itirdikləri müəyyən edilib. Daxili aləmindəki çətinlikləri bu cür reaksiyalarla ortaya qoyan uşağın sinir sistemində, davranış və şəxsiyyətində dəyişikliklər müşahidə edilir. John Bowlby, xarakterin formalaşdığı ilk beş ildə anadan ayrılmanın uşaqda cinayətkar şəxsiyyət quruluşunun formalaşmasında ən böyük amillərdən biri kimi dəyərləndirir. Mülkiyyətlə bağlı cinayətlər törədən yeniyetmələrin 40%-nin ilk beş ildə valideynlərindən ayrıldığı müəyyən edilib. Məhkum gənclər üzərində aparılan araşdırmada cinayət törədən şəxslərin 46%-nin müxtəlif səbəblərdən valideynlərindən ayrıldığı, 22%-nin isə natamam ailələrdən olduğu müəyyən edilib [11].

Yetkinlik yaşına çatmayanların cinayətində ailə və məktəbin rolu böyükdür. Sosial institut olan ailə həm fizioloji, həm də iqtisadi və sosial istiqamətləri ilə insan mənəvi inkişafın formalaşması və davranışlarını son mərhələyə çatdırır. Ailə, xüsusilə məktəbəqədər dövrdə uşağın tərbiyəsində effektiv sosiallaşma mənbəyidir. Evdə daim diqqət və qayğı görən, demokratik bir ailə mühitində böyüyən uşaqlar gələcəkdə fəal və uğurlu uşaqlara çevrilirlər. Tədqiqatçıların fikrincə, tolerant və demokratik ailələrdə böyüyən uşaqlar daha cəmiyyətdə daha fəal, ünsiyyətcil olur, yaradıcı ideyalarla çıxış etməyi bacarırlar. Digər tərəfdən, daha sərt nəzarət altında olan və ya tərbiyə üsulları dəyişkən ailələrdə böyüyən uşaqlar itaətkar olmayan və aqressiv yollarla qəbul olunmağa meyillidirlər. Valideynlərin emosional problemlərinin olması, evlilik münasibətlərində uğur qazanmaması, ailədə mübahisə və münaqişələrin şahidi olmaq

kimi qənaətbəxş olmayan şərait yeniyetməni qarışıqlığa, daxili münaqişəyə və ya cinayətkar davranışa sövq edə bilər. Həddindən artıq təzyiq və ailədaxili gərginlik yeniyetmələri evdən və məktəbdən qaçmağa, davranış pozuntularına sövq edən amillər arasında sayıla bilər [11].

Valideynlər həddindən artıq sərt və avtoritar təcrübənin yanlış və zərərli olduğunu, həmçinin həddindən artıq müdafiə və dözümlülüyün hökm sürdüyü təhsil və nizam-intizam anlayışını qəbul etməlidir. Emosional, sərt, dözümsüz və təzyiqli nizam-intizam deviant davranışlı uşaqların böyüməsi ilə nəticələnir. Digər tərəfdən, uşağı öz arzu və istəklərinə uyğun olaraq tamamilə sərbəst şəkildə həddindən artıq nəzarətsiz formada aparılan tərbiyə başqalarının hesabına məmnunluq axtaran eqoist davranışlara səbəb olacaqdır. Uşaqların bu mənfi davranışları inkişafın sonrakı mərhələlərində valideyn-övlad münasibətlərini daha da poza bilər. Bu, hətta anti-sosial davranışa və hüquq pozuntusuna çevrilə bilər.

Ədəbiyyatlardan məlum olduğu kimi, uşağın sağlam əqli və sosial inkişafının ilk şərtlərindən biri ailədə davamlı nizam-intizamın həyata keçirilməsi, müəyyən səlahiyyət və nəzarətin olmasıdır. Digər tərəfdən, sərt və həddindən artıq avtoritar ata uşaqda mənfi münasibət yarada bilər və onu deviant davranışlı bir fərd edə bilər. Müxtəlif səbəblərdən ailədə arzuolunmaz və sevilməyən uşağın xarakterik davranışı aqressiyadır. Bu uşaqlar başqalarından hədiyyə gözləyir və xüsusi rəftar, diqqət, qayğı istəyirlər. Onlar döyüşkən, üsyankar və etibarsız olmaları ilə fərqlənir. Onların təkəbbürlü və cinayətə meylli olduqları görünür. Onlara şəfqət göstərildikdə buna laqeyd yanaşırlar. Həmişə yalançı olduğu deyilən, valideynləri tərəfindən bəyənilməyən, tez-tez digər uşaqlarla müqayisə edilən, ələ salınan, döyülərək cəzalandırılan uşaqda qısa və ya uzun müddət emosional gərginlik yaranır. Bu cür mənfi stimullaşdırma davam edərsə, bəzi davranış və uyğunlaşma pozğunluqları yarana bilər [11].

İngiltərədə Lees, Nyuson və ABŞ-da Qluecks ailədəki böyük və kiçik uşaqların cinayət törətmə ehtimalının digərlərinə nisbətən daha az olduğunu irəli sürdülər. Haluk Yavuzer (1993) araşdırmasında cinayətkar subyektlərin 59,9%-nin ortancıl uşaq olduğunu və buna görə də ailə üzvlərindən kifayət qədər diqqət və sevgi görə bilmədiyini bidirmişdir [8].

Müəyyən edilmişdir ki, qızlar oğlanlara nisbətən dağılan ailə sistemindən daha çox təsirlənir və əziyyət çəkirlər. Ayrılıq, ölüm kimi faktorlar ailənin struktur baxımından tam olmadığını, belə ailələrdən olan uşaqların düzgün davranış göstərə bilməməsi səbəbindən qanun pozuntusuna yol verdiyini göstərir. H.Yavuzer, araşdırmasında cinayətkar yeniyetmələrin 22%-nin dağılmış ailələrdən gəldiyini müəyyən edib. Bundan əlavə, subyektlərin 47,6%-nin müxtəlif səbəblərə görə ana və atasından ayrıldığı müşahidə edilib. Bundan başqa, araşdırmada cinayətkarların 54%-nin ailəsi tərəfindən mühakimə olunanlar olduğu aşkar edilmişdir. Digər tərəfdən dost çevrəsindəki pis nümunələr ailə mühiti qədər olmasa da yeniyetməyə təsir edə bilər. Eyni zamanda, H.Yavuzer öz araşdırmalarında görüb ki, cinayət törədən uşaqların ailələrinin problemlərindən biri də savadsızlıqdır [11].

Sosial tədqiqatçılar və pedaqoqlar cinayətin öyrənilmiş proses olduğunu qəbul edir və cinayət meyllərinin deviant davranış problemi olduğunu sübut etməyə çalışırlar. Sutherland'a görə, cinayət öyrənilmiş bir davranışdır. Cinayi davranış digər insanlarla qarşılıqlı ünsiyyət prosesi nəticəsində öyrənilir. Adətən insanlar, icra edilməsi mütləq olan qanunlara riayət etməyən şəxslərlə daha çox, icra edilməsi mütləq olan qanunlara riayət edən şəxslərlə daha az ünsiyyətdə olur. Sutherland'ın fikrincə cinayətkar davranış erkən uşaqlıq dövründə formalaşır və bütün həyat boyu davam edir [10].

Gabriel Tardeyə görə cinayət törətmə prosesini imitasiya prosesinə bənzədir. Cinayət törətmək bir peşə kimi öyrənilir, bunun üçün cinayətkarlara yaxın olmaq, onlardan nümunə götürmək lazımdır. G.Tarde görə cinayət irsi xüsusiyyət və ya diskomfort deyil, başqalarından

öyrənilmiş davranışdır. Qanuni iş ilə cinayət arasındakı yeganə fərq öyrənilmiş davranışın xarakterindədir [8].

Ailənin sosial-iqtisadi şəraiti uşağın şəxsiyyətinə təsir etsə də, daim ac qalan, yoxsulluq ucbatından küçədə qalan uşaqlarda cinayət törətmək qorxusu yaşana bilər. Qanun pozuntusuna yol vermiş uşağın ailəsinin ilkin göstəricisi onların maddi vəziyyətidir. Statistik məlumatlar göstərir ki, yetkinlik yaşına çatmayanlar arasında cinayətkarlıqla yoxsulluq və onun gətirdiyi şərtlər arasında xüsusi mövcuddur. İngiltərədəki araşdırmalarında Burt cinayətkar uşaqların 1/5-nin (19%) çox yoxsul hesab edilən sosial təbəqələrdən olduğunu bildirir. J.Burtun fikrincə, cinayətkarların təxminən yarısı (37%) orta yoxsul təbəqədən, cinayətkar qrupun 42%-i isə sosial-iqtisadi cəhətdən rahat mühitdən gəlir. Beləliklə, müəyyən edilib ki, cinayət törədən uşaqların yarıdan çoxu yoxsul və ya çox kasıb ailələrdəndir [5].

Aşağı sosial-iqtisadi ev təsərrüfatlarında görülən digər ümumi çatışmazlıq evdə uşaq üçün lazımi məşğuliyyət və əyləncə imkanlarının olmamasıdır. Uşağın oynamaq, yeniyetmə və gənclərin isə öz otaqlarında dostları ilə görüşmək hüququ var. Əgər ev şəraiti oynamağa mane olarsa, yeniyetmə böyüdükdən sonra hələ də uşaq davranışı nümayiş etdirəcək və o daha əlverişli mühit axtarmağa çalışacaq. Yeniyetmə belə bir mühit tapan kimi valideynlərinin sərt nəzarətindən uzaqlaşacaq.

İnkişaf prosesində şəxsiyyətə sosial dəyər mühakimələrini təmin edən və ona ilk sosial təcrübə qazandıran ailə mühiti böyük əhəmiyyət kəsb edir. Lakin ailə mühitində emosional və sosial qarşılıqlı əlaqənin olmaması və ya pis modellərin olması bu institutun mənfi stimul mənbəyi olmasına səbəb olur. Ailə institutunun qeyri-kafi və ya natamam olması zamanı halında bu çatışmazlığı aradan qaldıracaq ən güclü və mütəşəkkil sosial institutun məktəb olduğu görülür. 19-cu əsrdə Viktor Hüqo "Bir məktəbin tikilməsi, bir həbsxananın bağlanması deməkdir" sözləri ilə təhsillə cinayət arasında birbaşa əlaqənin olduğunu vurğulamışdır [7].

Məktəbin sosiallaşma vəzifəsini hər hansı səbəbdən yerinə yetirməməsi fərdin uğuruna, şəxsi inkişafına, ətraf mühitə uyğunlaşmasına və psixi sağlamlığına mənfi təsir göstərəcək. Şəxsiyyəti inkişaf etdirən, həyata hazırlayan humanist tərbiyənin səmərəli və əhəmiyyətinə baxmayaraq, natamam, qeyri-kafi və yanlış təhsil bir çox problemlərin mənbəyi ola bilər. Bəzi hallarda məktəb uşaqların inkişaf və uyğunlaşma çətinliklərinin həllinə kömək etmək əvəzinə, istəmədən ağırlaşdırıcı təsir yaradır. Nəticədə məktəbdən yayınma, oğurluq və s. kimi problemlər və cinayət meylləri yaranmağa başlayır [11].

Cinayətkar uşaq və gənclərin cəmiyyətə reinteqrasiyası günün aktual mövzularındandır. Cinayətkar uşaqların yenidən təhsil almasını kriminalistika sahəsində son nailiyyətlər sırasına daxil etmək olar. Bu islah işinin tarixinə nəzər saldıqda görünür ki, bir çox müasir ölkələrdə son zamanlara qədər cinayət törədən uşaqlara yaşından və cinayət növündən asılı olmayaraq ağır cinayətkar kimi yanaşılaraq cəzalandırılıblar. Buna görə də, "təhsil" sözü kriminologiya ədəbiyyatında əsas mərhələ kimi qəbul edilmişdir. "Yenidən tərbiyə" anlayışı vurğulayır ki, yetkinlik yaşına çatmayanlar və ya gənclər arasında cinayətkarlıq sırf hüquqi problem deyil, daha çox psixoloji və sosial problemdir. "Yenidən tərbiyə" anlayışı da cinayət törədən gənclərin normadan kənar davranışlara malik olduqlarını, sosial uyğunsuzluq nümayiş etdirdiklərini və bu uyğunsuzluğun aradan qaldırılması üçün sosial qrupların vacibliyini ortaya qoyur [11].

Yetkinlik yaşına çatmayanların cinayətlərində müalicə prosesi araşdırıldıqda üç fərqli metodu qeyd etmək olar:

- Erkən diaqnoz (profilaktika)
- Yenidən hazırlıq
- Monitorinq tədqiqatları

Erkən diaqnoz (profilaktika): Profilaktika və ya erkən diaqnoz hüquq pozuntusunu müalicə etməyin ən təsirli üsullarından biridir. Bu üsulla uşağa 6-7 yaşında tətbiq edilən sınaqlar nəticəsində cəmiyyətə zidd meyllər müəyyən edilir və bu istiqamətdə tərbiyə və təlim həyata keçirilir.

Erkən diaqnoz qoyulduqdan sonra tətbiq oluna bilən təlim zamanı "Affektiv Davranış Təlimi" verilə bilər. Affektiv davranışlar, bir sözlə, insan duyğularını əhatə edən davranışlardır. Daha müfəssəl təhlildə emosiyalar, üstünlüklər, dəyərlər, əxlaqi qaydalar, istək və motivlər və s. affektiv davranışa daxil edilə bilər. Ümumiyyətlə, affektiv təhsil əxlaq, dəyərlər, xarakter, sülh, demokratiya, cinsi tərbiyə, şəxsiyyətlərarası və ya insan münasibətlər və sosial bacarıqları və nəzərdə tutulur [5].

Yenidən hazırlıq: Qanun pozuntusuna yol vermiş uşaqların reabilitasiyasının ikinci üsulu cinayət törədildikdən sonra gənclərə evdə təlim keçməkdir. "Yenidən təhsil" çoxşaxəli araşdırma tələb edir.

Yenidən tərbiyə işində ilk növbədə psixoloq, cinayət törətmiş uşaq və gənclərin cinayəti, cinayətkarın mühiti və tarixini ətraflı şəkildə müəyyən edib, araşdırır. Psixoloq ilk növbədə deviant davranışı olan bir uşağın şəxsiyyətinin necə inkişaf etdirilə biləcəyini proqnozlaşdırmağa çalışmalıdır. Beləki, anaya nizam-intizam barədə xəbərdarlıq etmək, uşağın sağlamlığı və intellektinə dair məktəbə məlumat vermək, mühafizə orqanına uşağın evinə mütəmadi baş çəkməyi tövsiyə etmək və ya uşaqla şəxsən ciddi danışmaq və s. daxildir. Yetkinlik yaşına çatmayan cinayətkarlarla rəftarda yetkin cinayətkarlarla müqayisədə həm problem, həm də subyektə münasibət baxımından fərq var. Yetkinlik yaşına çatmayan cinayətkarlarla işləmək və onu yaxşı yetişdirmək böyüklərdən daha asandır. Yenidən tərbiyənin məqsədi təkcə şəxsiyyəti antisosial faktorlardan təmizləmək deyil, həm də gənci antisosial davranışa sövq edən mənfi ekoloji şəraiti aradan qaldırmaqla, onun cəmiyyətə adaptasiyasını təmin etməkdir. Bu mərhələdə qrup terapiyası və reabilitasiya üsullarından istifadə oluna bilər [5].

Yekun olaraq, uşaqların şəxsiyyət kimi formalaşmasında valideyn və müəllimlərin üzərinə böyük məsuliyyət düşdüyünü qeyd edə bilərik. Uşaqların gələcəkdə cinayət törətməsinin qarşısının alınması və cəmiyyət tərəfindən hörmət edilən bir üzvünə çevrilməsi onların doğulduğu andan alacağı tərbiyədən asılıdır. Daim insanlar tərəfindən uzaqlaşdırılan, bəyənilməyən, hörmət edilməyən, dəyər verilməyən və məsuliyyət öyrədilməyən uşağın gələcək həyatında mənfi istiqamətdə fərqli hissləri, düşüncələri və davranışları yarana bilər.

ƏDƏBİYYAT

1. Bayramov Ə.S., Əliyev B.H. Hüquq psixologiyası. Bakı: Təhsil, 2012, 656 s.
2. Cabbarov R.V. Yeniyetmələrdə özünüdərketmə prosesinin psixoloji təhlili. Psixol.e.n.diss. avtoref. Bakı, 2004
3. Əlizadə Ə.Ə. Uşaq və yeniyetmələrin cinsi tərbiyəsi. Bakı, 1986
4. Atar, H. Təhsil və Yetkinlik yaşına çatmayanların Cinayəti, Ege University Press, İzmir, 1994.
5. Bacanlı, H. Affective Behavior Education, Nobel Yayın Dağıtım, Ankara, 1999.
6. Çağlar, D. Uyğunsuz Uşaqlar və Onların Təhsili, Ankara Universiteti Təhsil Fakültəsi Nəşrləri, Ankara, 1981.
7. Öğmüş, S. Şəxslərarası Problem Həll etmə Bacarıqları və Təlim, Nobel Yayın Dağıtım, Ankara, 2001.
8. Özen, Y. Surviving Tomorrow for Responsibility Training for Surviving Tomorrow, Nobel Yayın Dağıtım, Ankara, 2001.
9. Səlcuq Universiteti, Təhsil Fakültəsi.

10. Yörükoğlu, Atalay. Gənclik Çağı, Türkiye İş Bankı Kültür Yayınları, Ankara, 1988.
11. Yavuzer, Haluk. Uşaq və Cinayət, Remzi Kitabevi, Ankara, 1993, 280 s. www (kriminoloji.com)
12. Mikro Yayınları, Təhsilə Yeni Baxışlar-2, Ankara, 1-ci nəşr, 2003, s.257

CİNAYİ DAVRANIŞ ERKƏN DEZADAPTASİYANIN NƏTİCƏSİ KİMİ

Məmmədova Aynur

XÜLASƏ

Yetkinlik yaşına çatmayanların cinayətkarlığı mövzusu xüsusi diqqət kəsb edən mövzulardandır. Psixoloji, əqli və fiziki cəhətdən tam inkişaf etməmiş, cəmiyyətdəki rol və vəzifələrini hələ də dərk etməyən yeniyetmələrin cinayətkarlığı cəmiyyət nümayəndələrini cinayət məsələsinə qarşı xüsusi diqqətli olmağa vadar etmişdir. Əsas məqsəd, cinayi davranışa sövq edən amillər arasında yeniyetmə və valideynlərin təhsil səviyyəsi, ailənin sosial-iqtisadi vəziyyəti, valideynlərin bir-birinə və yeniyetməyə qarşı münasibəti, onların inkişaf xüsusiyyətləri, dostları ilə münasibətləri, emosional durumu və bunların nə dərəcədə təsir göstərdiyi qiymətləndirilməlidir.

ПРЕСТУПНОЕ ПОВЕДЕНИЕ КАК РЕЗУЛЬТАТ РАННЕЙ ДЕЗАДАПТАЦИИ

Мамедова Айнур

АННОТАЦИЯ

Тема преступности несовершеннолетних является одним из вопросов, заслуживающих особого внимания. Преступность подростков, не полностью развитых психологически, умственно и физически, еще не осознающих свою роль и обязанности в обществе, заставила представителей общества проявлять особую осторожность в отношении проблемы преступности.. Основной целью является оценка уровня образования подростка и родителей, социально-экономического положения семьи, отношения родителей друг к другу и к подростку, особенностей их развития, взаимоотношений с друзьями, эмоционального состояния и степени их влияния на мотивацию к преступному поведению.

CRIMINAL BEHAVIOR AS A RESULT OF EARLY DESADAPTATION

Mammadova Aynur

SUMMARY

The subject of juvenile delinquency is one of the issues of special attention. The criminality of adolescents, not fully developed psychologically, mentally and physically, not yet realizing their role and responsibilities in society, forced representatives of society to take special care against the issue of crime. The main goal should be to assess the level of education of adolescents and parents, the socio-economic situation of the family, the attitude of parents to each other and the adolescent, their developmental characteristics, relationships with friends, emotional state, and at the same time the extent to which they influence.

FİLOLOGİYA

УЧЁТ ЯЗЫКОВЫХ ЯВЛЕНИЙ В ЖИЗНЕННЫХ СИТУАЦИЯХ

Санани Гюляр, старший преподаватель кафедры русского языка по естественным факультетам, БГУ

Ключевые слова: принеси, подойди, откройте, знакомытесь, втаньте, разрешите.
Açar sözlər: gətir, yaxınlaş, açın, tanış olmaq, qalxın, icazə verin.
Key words: bring, come over, open, get acquainted up, stand up, allow.

Предлагаем такую организацию учебного материала, которая отражала бы специфику функционирования отобранного языкового материала в жизненных ситуациях. Естественная речь осуществляется в конкретной обстановке – ситуации общения. Если, например, у кого-либо болит голова, и нет возможности пойти за лекарством, то, владея языком, можно обратиться к своим близким или знакомым с просьбой: «Принеси лекарство!» или «Сходи в аптеку, купи таблетки!».

Действительно, для того чтобы построить фразу на русском языке, студент должен сориентироваться в ситуации, оценить то, что он хочет сказать.

Характер ситуации (время место, предмет речи и т.п.) оказывает влияние на выбор языковых единиц, на развитие языковой способности, поэтому ситуативно-тематическая организация учебного материала – одно из существенных проявлений принципа коммуникативности. Обучение, исходящее из ситуаций, оказывается успешным при условии устной речи. Но оно эффективно и при обучении письму.

Принцип учета функционирования языковых явлений в жизненных ситуациях был выдвинут французскими методистами из Сен-Клу применительно к отбору и организации лексики. В настоящее время он распространяется на весь учебный материал, в том числе и на грамматический.

Что значит изучить лексику и грамматику в ситуациях? Обратимся для иллюстрации к формам повелительного наклонения глаголов. Изучая эту грамматическую категорию, можно поступить следующим образом: объяснить значение, образование и употребление форм повелительного наклонения, потом предложить студентам самим образовать эти формы от некоторых глаголов, например *дать, принести, купить, пообедать* и т.д., затем составить с этими формами предложения и т.д.

На уроке, посвященном изучению этой грамматической категории, обращаемся к студентам с серией реплик:

- *Дай, пожалуйста, ручку (карандаш, книгу, журнал, тетрадь…).*
- *Возьми учебник (тетрадь, словарь …).*
- *Иди к доске! Открой окно! Закрой дверь!* и т.д.

Потом предлагаем студентам обратиться с теми же репликами друг к другу и подводим их к выводу, что слова *дай, возьми, принеси, иди, открой, закрой* и др. выражают просьбу, желание, приказание, знакомим с правилами образования этих форм:

дать –даю – дай
взять – возьму – возьми
принести – принесу – принеси и т.д.

То, что студентам следует запомнить, преподаватель записывает на доске.

После этого поочередно обращаемся к одному студенту и к группе студентов;

Открой учебник! – Откройте учебники!

Закрой учебник! – Закройте учебники!

Пиши! – Пишите! и т.д.,

подводя их к выводу о закономерностях употребления и образования форм множественного числа:

закрой +те = закройте!

открой + те = откройте!

Пиши + те = пишите!

Грамматическая категория введена и закреплена на коммуникативно ценных фразах, в рамках одной темы – аудиторного обихода. Необходимые правила речи введены «скрытно», через подходящие внеязыковые ситуации.

Другой пример – изучение форм родительного падежа имен существительных в отрицательных конструкциях. *У меня нет (не было) линейки, журнала, карандаша, времени* и т.д. В абсолютном большинстве учебников русского языка эта грамматическая конструкция закрепляется в вопросо - ответных репликах:

- *У тебя есть карандаш (газета ...)?*

- *Нет, у меня нет карандаша (газеты).*

Ситуация несогласия – возможная и реальная для функционирования данной грамматической конструкции, но единственная ли и самая ли типичная? Отказ на просьбу:

- *Дай мне, пожалуйста, газету!*

- *А у меня нет газеты!*

Объяснение причины невыполненного действия:

- *Почему ты не был в библиотеке?*

-*У меня не было времени.*

В этих случаях данные отрицательные конструкции неизбежны. Следовательно, и изучать их целесообразно именно в таких или подобных ситуациях.

Различные лексико – грамматические темы и конструкции достаточно легко совмещаются с определенными лексико- разговорными темами и конструкциями, например вопросительные конструкции типа: *Это Андрей? Кто это? Что это?* и утвердительные и отрицательные ответы на них:

- *Да, это Андрей.*

- *Нет, это не Андрей.*

- *Нет, это не Андрей, а Володя.*

- *Это Володя.*

Введение вопросов со словами *кто* и *что* обеспечивает различение одушевленных и неодушевленных имен существительных, а подключение в ответную конструкцию женских имен (*Это Наташа? – Нет, это не Наташа. Это Саида*) – избирательно знакомство с категорией рода. Эта же ситуация позволяет распространить изучаемую конструкцию притяжательными местоимениями: *Знакомьтесь, это* ***мой*** *брат (****моя*** *сестра.* В свою очередь, накопленный лексико – грамматический материал дает возможность изучения более широкой темы «Семья».

Если притяжательные местоимения легко увязываются с темами «Знакомство» и «Семья», то глаголы движения, виды и времена глагола – с темами «Мой рабочий (выходной) день» «Как я провел воскресенье», «Отдых», «Кто как проводит время» и др.

Одни лексико – грамматические явления «жестко» прикреплены к речевой ситуации, обусловлены ею, как, например, формулы речевого этикета, команды и т. д., где употребление вполне определенных конструкции стало практически всеобщим для

языковой группы: *Здравствуйте! Добрый день! Разрешите представить …!; Встаньте! Садитесь! Откройте книги!* и т. п. Другие имеют универсальный характер и обнаруживают свое содержание в более широком ситуативном контексте, например: *Сколько стоит…?; Дайте, пожалуйста, …; Разрешите посмотреть …!* Эти структуры употребительны в ситуации общения в магазине (книжном, продовольственном, промтоварном), в киоске, в кафе и т.п.

Некоторые фразы, обслуживающие ту или иную тему и ситуацию, предлагаются студентам для запоминания как новые слова, без объяснения их грамматического состава, или, как говорят вводятся лексически. Например, в теме «Знакомство» это фразы: *Познакомьтесь, пожалуйста! Разрешите представить …! Очень рад! Очень приятно!;* в ситуации «Приветствие»: *Здравствуйте! Добрый день (вечер, утро)!*

Научив студентов минимуму языковых структур, мы формируем стремление к самообучению: студент сможет переносить твёрдо усвоенные навыки русской речевой деятельности на новые жизненные ситуации, с которыми он встретится.

Из-за исключительной важности ситуативности обучения перед преподавателем постоянно стоит задача создания на уроках атмосферы общения, имитирующей реальную коммуникацию.

Часть таких ситуации подготавливается без особых затруднений, например общение преподавателя со студентами на уроке в рамках темы аудиторного обихода: просьбы подойти к доске, написать что-либо, стереть с доски, открыть или закрыть учебники тетради, прочитать текст, рассказать что-либо, ответить на вопрос о том, кто отсутствует и почему и т.д.

Создание других ситуации невозможно без привлечения средств естественной наглядности, а также рисунков, картин и т.д.

Можно предложить студентам принести семейные фотографии и рассказать о членах семьи. По ходу рассказа студенты могут задавать рассказчику вопросы об отце, матери, брате, сестре, дедушке, бабушке. В такой ситуации легко и естественно разыгрывается диалог:

- Кто это?
- Это моя мама.
- Она работает?
- Да (нет).
- А где она работает?
- Она работает в больнице.
- А кто она (А кем она работает)?
- Она – врач

При определенном уровне владения языком, когда достаточен запас слов и грамматических конструкции, атмосферу общения можно воссоздать через описание ситуаций, в которых студенты могут оказаться и для общения в которых они должны владеть необходимыми языковыми средствами, например: «Представьте, что вам надо узнать: как пройти (проехать) к …»; «Где находится …». В таком случае задание должно быть следующим: «Представьте, что вы ведете экскурсию по городу (заводу, фабрике). Расскажите, что где находится…».

В условиях, имитирующих реальное общение, студенты составляют диалогу, разыгрывают микросценки, т.е. общаются. Подобная псевдокоммуникация формирует навыки переноса конструкций и слов, выученных на уроке, в реальное общение.

Воссоздаваемые таким образом ситуации, оставаясь, правда, учебными макетами, псевдокоммуникацией, способствуют эффективности обучения, достижению лучших результатов.

Успешное обучение русскому языку зависит, таким образом, не только и не столько от того, каким языковым материалом овладевают студенты, но и от того, как он изучается.

ЛИТЕРАТУРА

1. Данилов Г. и др. Русский язык для нерусских. М., 1960 г.
2. Волкова З.П. Речевые ситуации. М., 1963, вып. IV.
3. Абрамова Е.Д. Ситуативные упражнения на начальном этапе обучения. – Тезисы докладов. М., 1975.
4. Щерба Л.В. Избранные работы по русскому языку. М., 1982.
5. Соловьева А.К. О некоторых общих вопросах диалога. «Вопросы языкознания», 1962, №5.
6. Володин Н.В. Учебный диалог – «Иностранные языки в школе», 1978, №2.

УЧЁТ ЯЗЫКОВЫХ ЯВЛЕНИЙ В ЖИЗНЕННЫХ СИТУАЦИЯХ

Санани Гюляр

АННОТАЦИЯ

Естественная речь осуществляется в конкретной обстановке – ситуация общения. Действительно, для того, чтобы построить фразу на русском языке, студент должен сориентироваться в ситуации. Грамматическая категория введена и закреплена на коммуникативно ценных фразах, в рамках одной темы – аудиторного оби хода. Одни лексико – грамматические явления прикреплены к речевой ситуация, как например, формулы речевого этикета, команды т.д. Другие, обслуживающие ту или иную тему и ситуацию, предлагаются студентам для запоминания, как новые слова. Научив студентов минимуму языковых структур, мы формируем стремление к самообучению.

HƏYAT ŞƏRAİTİNDƏ DİL MƏNSUBİYYƏTİNİN NƏZƏRƏ ALINMASI

Sənani Gülər

XÜLASƏ

Təbii nitq konkret şəraitdə həyata keçirilir - əlaqə situasiyada. Həqiqətən, rus dilində cümlə qurmaq üçün, tələbə olan şəraiti müəyyən etməyi bacarmalıdır. Qrammatik kateqoriya əsas ifadələrə təhkim edilir – bir mövzu çərçivəsində - auditoriyada ünsiyyət üçün istifadə olunan sözlərə. Bəzi qrammatik hallar nitqə təhkim olunub, digəri isə tələbəyə yeni sözlər kimi yadda saxlamaq üçün verilir. Tələbələrə dil quruluşun minimumunu öyrədib, onları dili sərbəst mənimsəmək üçün istiqamətləndirirlər.

ACCOUNTING FOR LINGUISTIC PHENOMENA IN LIFE SITUATIONS

Sanani Gular

SUMMARY

Natural speech is carried out in a specific setting – the situation of communication. Indeed, in order to construct a phrase in Russian, the student must orient himself in the situation. The grammatical category was introduced and fixed on communicatively valuable phrases, within the framework of one topic – classroom use. Some lexico-grammatical phenomena are attached to the speech situation, such as speech etiquette formulas, commands, etc. Others, serving a particular topic and situation, are offered to students for memorization, like new words. Having taught students a minimum of language structures, we form the desire for self-learning.

О ФОРМИРОВАНИИ И РЕАЛИЗАЦИИ МЕТАФОРИЧЕСКИХ ОТНОШЕНИЙ В ЛЕКСИКЕ

Микаил Джафаров, проф., зав. кафедрой
русского языка естественных факультетов БГУ
Азиза Фейзиева, ст. лаб. БГУ
mikayilceferov@mail.ru

***Ключевые слова*:** метафора, перенос названий, сходство объектов, образность, лаконичность метафор.
***Açar sözlər*:** metafora, adların köçürülməsi, obyektlərin oxşarlığı, obrazlılıq, metaforların lakonikliyi.
***Keywords*:** metaphor, transfer of names, similarity of objects, imagery, conciseness of metaphors.

Изучение метафоры, как особого языкового явления, обладающего признаками поэтической речи, имеет глубокие исторические корни. О природе и эстетической ценности метафоры писали ещё Аристотель и его последователи. По мнению Аристотеля, «важнее всего – быть искусным в метафорах…Только этого нельзя перенять от другого; это – признак таланта, потому что слагать хорошие метафоры – значит подмечать сходство» (1, 1495). О природе метафоры гениальный учёный писал, что метафора представляет собою «перенесение» (epiphora) имени с объекта, обозначенного этим именем, на некоторый другой объект. Иными словами, «Метафора есть перенесение необычного имени или с рода на вид, или с вида на род, или с вида на вид, или по аналогии»». (1, т.4). Внимание исследователей привлекало и то, что метафоры встречались в различных видах текстов, начиная с поэтической речи и публицистики и кончая языками разных отраслей научного знания. Такая широкая распространённость метафорической лексики в языке обусловила рост теоретического интереса к ней.

Несмотря на то, что на протяжении многих столетий метафора как средство характеризации объекта в общенародном языке является объектом многочисленных исследований, до сих пор можно встретить противоречивые явления о природе данного языкового явления. Это обусловлено, на наш взгляд, тем, что метафора традиционно изучалась в трёх аспектах: литературоведческом, лингвистическом и психолингвистическом, хотя ею интересовались и представители других областей знания – философии, логики, семантики и др.

Интенсивное изучение метафоры со стороны различных учёных обусловило подготовку в 1990 году специального выпуска книги «Теория метафоры», куда были включены статьи и главы из книг крупнейших филологов, философов и логиков (Р.Якобсон, А. Ричардс, М.Блэк, Дж. Миллер, А. Вежбицкая и др.), труды которых были переведены с английского, французского, немецкого, испанского и польского языков на русский.

В настоящее время стал активно обсуждаться вопрос о том, каким образом можно адекватно описать и истолковать метафорические наименования. Говоря о функционировании метафор в языке, исследователи подчёркивают, что «рассматриваемые изнутри, метафоры функционируют как когнитивные процессы, с помощью которых мы углубляем наши представления о мире и создаём новые гипотезы. Рассматриваемые извне, они функционируют в качестве посредников между человеческим разумом и

культурой. Новые метафоры изменяют повседневный язык, которым мы пользуемся, и одновременно меняют способы нашего восприятия и постижения мира» (5, с.360).

Рассуждая о возникновении метафор, исследователи пытаются описать процесс поиска и нахождения образных выражений для обозначения сущности называемого явления. Так, например, Эрл Мак Кормак в своей работе «Когнитивная теория метафоры» пишет, что «поэты, сознательно или не сознательно постигающие ту или иную особенность жизни или мира, ищут наиболее осмысленные, живые и свежие способы передачи результатов своих прозрений. Они выбирают слова и сочетают их таким образом, чтобы создаваемые при этом метафоры одновременно выражали их интуицию и вызывали к жизни новые возможные смыслы» (5, с. 382). В связи с этим автор отмечает, что политик, который хочет создать новый образ, изобретает такую метафору, «война с бедностью», - метафору, воспринимаемую поначалу как идеальный образ, апеллирующий к воображению…Такого рода метафоры эксплуатируются как языковое средство для передачи семантических сдвигов в концептуализации, преследующих разнообразные цели (4, с.383- 384).

В силу того, что значение каждой языковой единицы представляет собой диалектическое единство формы и содержания, необходимость анализа слов и с точки зрения частеречной принадлежности становится очевидной. К примеру, изучение именных и глагольных метафор показывает, что для каждого разряда слов необходимый и достаточный контекст имеет определённую специфику.

Анализируя многочисленные образцы метафорических переносов, можно определить потенциальные возможности той или иной лексической группы в сфере метафоризации. Так, например, не вызывает сомнения активное участие в этом процессе адъективной лексики.

В этой связи следует отметить, что «существуют достаточно общие принципы, в соответствии с которыми сознание человека… организует непредметную действительность по аналогии с пространством и временем мира, данного в непосредственных ощущениях. Так, пространственные координаты осмысляются как высокое или низкое в человеке, то, что впереди осознаётся как будущее, а оставшееся позади – как прошлое; проявление благородного начала обозначается посредством прилагательного **высокий** (**высокие чувства, стремления, помыслы**), недобрые замыслы обозначаются как **низкие и низменные** (**низменные чувства, низкие побуждения, мысли**); ориентация вправо мыслится как «истинный» путь- **праведный** и **правильный**, как правда; верх воспринимается как кульминация некоторого (обычно приятного) состояния (**быть на верху блаженства, на седьмом небе, в зените славы**), а низ – как символическое пространство «грехопадения» (**сквозь землю, опускаться на дно жизни** и т.п.)» (9 с. 173).

В целях определения функциональных возможностей того или иного слова в акте метафоризации целесообразно рассмотреть диапазон его сочетаемости на основе переносных значений. Ярким примером тому может служить метафорическое употребление слова **солнце** гениальным русским поэтом А.С. Пушкиным: И **солнце** брака затмевает Звезду стыдливую любви. (Пушкин. с. 2 266. 33); **Солнце** ума, правды… Пред **солнцем** бессмертным ума, Да здравствует солнце, да скроется тьма (Пушкин. с.2.275.15); Ты тихо ждёшь – да пройдёт заблужденье: Оно пройдёт и солнце правды вечной Всех озарит (Пушкин. Борис Годунов XV, 44); Постараемся сравнить между собою сии два блистательные **солнца** нашей словесности (Пушкин Ж, 206, 33); Будь же счастлива , Мери, **Солнце** жизни моей. (Пушкин с.3. 185. 12).

Как видно из приведённых примеров, слово **солнце** в качестве метафоры выступает в лексическом окружении отвлечённых слов типа **ум, правда, брак, словесность, жизнь**, и др. В целом же данное слово в качестве многозначной лексической единицы обладает сложной семантической структурой, что и зафиксировано в толковых словарях. Ср. данные «Словаря русского языка» С.И. Ожегова (с. 648):

Солнце 1. Небесное светило, раскалённое небесное тело шарообразной формы, вокруг которого вращается Земля и др. планеты нашей Галактики (Земля – одна из ближайших к Солнцу планет). 2. Свет, тепло, излучаемое этим светилом (Не сиди на солнце). 3. Переносное. То, что является источником, средоточием чего-н. ценного, высокого. Жизненно необходимого (высок.) – (Солнце правды).

Ещё большую активность в процессе метафоризации проявляет название другого небесного светила – **звезды**: Они поют. Но где Зарема, **Звезда** любви, краса гарема? (Пушкин. Б Ф, 136) ; Друг… Когда же твой ум он поражает Своею чудною **звездой**? (Пушкин. С.3 180.19); **Звезда** губителя потухла в вечной мгле (Пушкин, С.2 . 45.11); Несмотря на доверчивость счастливой **звезде** завоевателя Арно не окончил путешествие (Пушкин. Ж. 2.57.44); Товарищ, верь взойдёт она, **Звезда** пленительного счастья(Пушкин С 2.44.18); Что дружбы наконец отрадная **звезда** Страдальца довела до пристани надёжной (Пушкин. С.1. 72.3); …весёлый Мелькает вьётся первый снег, Звездами падая на брег (Пушкин. Е.О.IV, 42.14); Ядро запрыгало - и гладкая гора, Звеня, растрескалось колючими **звездами** (Пушкин. С.3. 196.32); Старик… Ах, быстро молодость моя **звездой** падучею мелькнула (Пушкин. С 388); Мы рождены, мой брат названый. Под одинаковой звездой (Пушкин. С. 3. 178.2). Приведённые примеры, показывают, что метафорическое значение слова **звезда** легко приспосабливается к выражению разнообразных смысловых оттенков образно – экспрессивного содержания обозначаемого понятия. Очевидно также, что функциональные параметры метафор определяются в пределах высказываний, в образовании которых «действуют разнообразные факторы: ментальные категории и знания о мире, ценностные системы, «житейская логика», целеполагание высказывания и иные его прагматические аспекты» (7, с.13).

Наблюдения свидетельствуют о том, что в русском языке метафоризацией охвачены почти все лексико-грамматические разряды знаменательных слов, которые потенциально могут различаться в функциональном отношении. В связи с типологией метафор ученые предлагают выделить среди них три группы.

1**.Идентифицирующие метафоры** отражают внешнее сходство предметов и явлений. Ср.: **нос** корабля – **нос** человека, антоновское **яблоко** – глазное **яблоко, ножка** ребёнка – **ножка** стола, **козырёк** кепки- **козырёк** крыши.

2. **Когнитивные метафоры** в отличие от других типов метафор охватывают в основном интеллектуальную сферу уподобления отдельных участков внеязыковой действительности. Так, например, можно предположить, что характер семантического содержания основного значения слова **ядро** – «внутренняя часть плода, семя, заключённое в твёрдую оболочку» (**Ядро ореха**), а также «внутренняя часть чего-нибудь (**Ядро земли, Ядро атома**) обусловил перенос данного названия и на значение – «глубинная, существенная часть чего-нибудь, основа, суть (**Ядро теории, учения**)».

Аналогичным образом можно пояснить внутрисловное соотношение лексико-семантических вариантов, обусловивших метафорический перенос наименований. Метафорические мотивированные слова в книжной речи являются лишь средством образования свойственного этому стилю номинаций , изначальная образность которых, не

поддерживаемая и не оживляемая контекстом, быстро стирается (Ср. использование естественно-научных терминов типа **рукокрылые, иглокожие, листоногие** (3, с.14).

3.**Оценочные метафоры** тесно связаны с обозначением эмоционально-экспрессивного отношения к именуемым предметам и явлениям. Ср.: **железная** логика, **глухой** лес, **острое** зрение, **адская** боль, **горькие** мысли, **тоскующие звёзды**; поезд **ползёт**, цены **кусаются**, глаза г**оворят** (о другом), время **летит**, жизнь **сломалась**, солнце **просыпается** и т. п.

Как явствует из всего изложенного выше, метафора как средство образно- эстетической характеристики предметов и явлений реальной действительности получила широкое распространение в языке. Условием её возникновения является сходство объектов. В качестве орудия мышления метафора играет важную роль в процессе наименования новых понятий. Поток метафор в языке не прекращается, что обусловливает включение данной темы в разряд объектов, требующих постоянного исследовательского осмысления.

ЛИТЕРАТУРА

1. Аристотель. Об искусстве поэзии. М.: 1957
2. Вайнрих Х. Лингвистика лжи/ Язык и моделирование социального взаимодействия. М.: Прогресс, 1987.
3. Виноградова В.Н. Стилистическое «распределение» мотивированных слов /Русская словообразовательная синтагматика и парадигматика. Сб. науч. трудов. Калининград: 1991, с, 14.
4. Гамидов И. Философия грамматики афоризмов и пословиц. Баку: Сабах, 2001, 272 с.
5. Лакофф Дж. и Джонсон М. Метафоры, которыми мы живём / Язык и моделирование социального взаимодействия. М., 1987, с. 387-415.
6. Мак Кармак Э. Когнитивная теория метафоры. / Теория метафоры. М.: Прогресс, 1990, с.387 – 415.
7. Молдован А.М. Теоретические исследования русского языка на современном этапе // Рус.яз. за рубежом, № 6, 2017, с. 13 – 17.
8. Ортега- и- Гассет Х. Две великие метафоры / Теория метафоры. М.: Прогресс, 1990, с.68 – 81.
9. Телия В.Н. Метафоризация и её роль в создании языковой картины мира / Роль человеческого фактора в языке. Язык и картина мира. М.: Наука, 1988, с. 194, 202.
10. Якобсон Р. Два аспекта языка и два типа афатических нарушений, Теория метафоры. М.: Прогресс, 1990, с.110 -132.

О ФОРМИРОВАНИИ И РЕАЛИЗАЦИИ МЕТАФОРИЧЕСКИХ ОТНОШЕНИЙ В ЛЕКСИКЕ

Микаил Джафаров, Азиза Фейзиева

АННОТАЦИЯ

Метафора возникает в результате переноса названия с одного предмета на другой по сходству. Как средство характеристики объекта метафора обладает признаками поэтической речи. Формирование метафорического значения происходит в процессе

выбора кратчайшего пути к сущности объекта. В метафоре происходит слияние образа и смысла. Будучи лаконичными наименованиями метафоры подразделяются на идентифицирующие, когнитивные и оценочные.

LEKSİKADA METAFORİK MÜNASİBƏTLƏRİN FORMALAŞMASI VƏ REALLAŞMASI HAQQINDA

Mikayıl Cəfərov, Əzizə Feyziyeva

XÜLASƏ

Metafora adların bir əşyadan digərlərinə oxşarlıq əsasında köçürülməsi nəticəsində yaranır. Obyektin xarakterik cəhətlərinin ifadəsi kimi metafora poetik nitqin əlamətlərinə malikdir. Metaforik mənanın formalaşması obyektin mahiyyətinə doğru yönəldilmiş ən qısa yolun seçilməsi prosesində əmələ gəlir. Metaforada obraz və mənanın qovuşması baş verir. Lakonik bir adlar kimi metaforalar eyniləşdirici, koqnitiv və dəyərləndirici növlərə bölünürlər.

ON THE FORMATION AND REALIZATION OF METAPHORICAL RELATIONS IN THE LEXIS

Mikayil Jafarov, Aziza Feyziyeva

SUMMARY

Metaphor arises from the transfer of names from one object to another based on similarity. It has the features of poetic speech as an expression of the characteristics of the object. The formation of metaphorical meaning occurs in the process of choosing the shortest path to the essence of the object. In metaphor, image and meaning merge. As laconic names, metaphors are divided into identifying, cognitive, and evaluative types.

MÜNDƏRİCAT

FƏLSƏFƏ

Agabəyova Ülviyyə. Cübran Xəlil Cübranın dünyagörüşünün əsas mahiyyəti.....3
Əhmədov Əhməd. Minor ədəbiyyat nədir?.....8
Hüseynova Sevinc. Modelləşdirmə metodunun təşəkkülü və idrak prosesində rolu.....13
İbadov Orxanpaşa. Hüquqi dövlətin formalaşmasının başlıca istiqamətləri.....20
Əliyev Rəvan.İInsan və təbiət münasibətlərinin tənzimlənməsi.....25
Qasımova Lamiyə. Sokrat və Platonun mənəvi-əxlaqi baxışları.....32

SOSİAL İŞ

Məmmədli Elvin. Sosial siyasətin beynəlxalq iştirakçısı kimi beynəlxalq əmək təşkilati və qloballaşma.....36
Ayişə Mirzəyeva. Ailə sosial institut kimi.....44
Hacıyev Elxan. Sosial siyasətdə iqtisadi göstəricilərin vacibliyi haqqında.....48
Həsənzadə Aytac. Sosial iş texnologiyalarının əsas məzmunu.....51
İsmayılova Ayşən. Ailə-məktəb əlaqələri: sosial iş sferasında.....55
Məmmədova Lamiyə. Sosial tədqiqatlarda nəsil konsepsiyası.....60
Məsimov Nicat. Aztəminatlı ailələrlə aparılan sosial iş.....67
Əsgərzadə Mədinə. Ailə cəmiyyətin əsasıdır.....71
Qarayeva Pərvin. Ailədaxili zorakılığa məruz qalmış qadınların zorakı şəxslə münasibətə davam etmə səbəbləri.....74
Qasımov Babək. Ailə mahiyyəti və struktur elementləri.....80
Велиева Дениз. Организация социальной работы с молодьежью в Азербайджане.....84

SOSİOLOGİYA

Rza Xaqan. Kütləvi informasiya vasitələrinin ictimai şüurun formalaşmasında rolu.....89
Abbaszadə Nərmin. Müasir şəhər yaşayış evlərində interyer tərtibati: ənənəvilik və müasirliyin vəhdəti.....97
Bayraməli Şaxanım. Qlobal problem kimi urbanizasiyanın Azərbaycanda təzahürləri və sosio-mədəni adaptasiyaya təsirləri.....105
İsgəndərov Yadigar. Sosial dövlət nəzəriyyələri.....113
Муталлимова Лейла. Глобальные риски современности…….....118
Qunizadə Zabirə. Məzhəbçilik problemi dini ekstremizmin tərkib hissəsi kimi.....121

PEDAQOGİKA

Məcid İsmixanov, Nəzakət İmamverdiyeva, Gülarə Kərimova. Təlim məqsədləri və onların taksonomiyası.....125
Abdullazadə Günel. Xüsusi təhsil müəssisələrində eşitmə pozulması olan uşaqlar üçün əmək və peşə təliminin məzmunu.....130
Санг Жике. Современные подходы к обучению и воспитанию в школе.....134
Rəşidli Aygül. XX əsrin əvvəllərində Azərbaycanda milli maarifçilik hərəkatında qadın təhsili.....139

İmanova Sevil. Azərbaycanda zəif eşidən uşaqların inklüziv təhsil problemi.....143
Quluzadə Nigar. Təlim prosesində şagirdlərin vətənpərvərlik ruhunda tərbiyəsinin imkanları...148

İQTİSADİYYAT, İDARƏETMƏ VƏ POLİTOLOGİYA

İsmayıl Eyyubov. Heydər Əliyevin ictimai – siyasi görüşləri. (1923 – 2003) (I məqalə).....152
Atakişiyeva Aytən. Davamlı inkişaf və makroiqtisadi tarazlıq.....159
Mustafayeva Ayşən. Yerli özünüidarəetmələrin inkişafı prosesində innovasiyanın yeri və rolu.....164
Yusifli Cavad. Təkpartiyalı siyasi sistemlər və modelləri.....168
Hüseynova Lamiyə. Beynəlxalq turizmin qiymət əmələgəlmə prosesinə təsiri.....172
Səbzəliyev Elsevər. Enerji təhlükəsizliyi anlayışı.....176
Алиева Фарида. Роль права в таможенном регулировании национальной экономической безопасности.....180
Məmmədova Könül. Qlobal inteqrasiya prosesinin inkişaf dinamikasina dair baxışlar.....185
Sevdimalıyeva Lalə. Qarabağın ekoloji vəziyyəti.....192
Ömərov Ömər. Turizmdə istifadə edilən "aktiv turizm" anlayışının təhlili.....197
Hüseynov Elçin. Azərbaycan iqtisadiyyatina investisiya axınının milli iqtisadiyyatın inkişafinda rolu 202
Hüseynov Xəzər. Prezidentlik institutunda şəxsiyyət amilinin rolu.....208
Əlişova Səma. Qloballaşma və Azərbaycanda milli-mənəvi dəyərlər.....213
Mustafazadə Nicat. Beynəlxalq kapital ixraci əməliyyatları.....218
Ягизаров Камиль. Международные морские перевозки в оффшорных зонах и прогноз их развития.....224

PSİXOLOGİYA

Şabanova Lamiyə. Ahil yaş dövründə emosional sferanın səciyyəsi və motivasiya sferasının xüsusiyyətləri.....228
Исаева Тунзаля. Особенности депрессивных расстройств при неврологических заболеваниях.....232
Məmmədkərimova Sevinc. Qısqanclıq: ailədaxili münasibətlərin əsas problemi kimi.....237
Quluzadə Ülkər. Ailə münaqişələri sosial-psixoloji problem kimi.....242
Yükmen Adıyaman. EMDR terapiyası: inkişafa və fəaliyyət mexanizmlərinə ümumi baxış....246
Рагимова Алия. Стигматизация в отношении родителей детей с аутизмом.....251
İsgəndərova Qumral. Özünüqiymətləndirmənin formalaşmasına təsir göstərən amillər.....256
Məmmədova Aynur. Cinayi davranış erkən dezadaptasiyanın nəticəsi kimi.....261

FİLOLOGİYA

Санани Гюляр. Учёт языковых явлений в жизненных ситуациях.....266
Микаил Джафаров, Азиза Фейзиева. О формировании и реализации метафорических отношений в лексике.....270

Müəlliflərin nəzərinə!

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası Rəyasət Heyətinin 30 aprel 2010-cu il tarixli iclasında (protokol №10-R) «**Azərbaycan Respublikasında dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlər qarşısında qoyulan tələblər**» təsdiq edilmiş və bu məsələ ilə bağlı dövri elmi nəşrlərin baş redaktorlarının iştirakı ilə keçirilmiş elmi-praktik seminarda qeyd olunan faydalı tövsiyələr nəzərə alınmışdır.

Onlardan bəzilərini nəzərinizə çatdırırıq:

1. Məqalələr dövri elmi nəşrin təsis sənədlərində qeyd edilmiş dildə və ya dillərdə (məsələn, Azərbaycan, ingilis və rus dillərində) dərc oluna bilər. Xarici dildə məqalələr dərc edən dövri elmi nəşrin redaksiya heyəti üzvlərinin sırasında dərc olunan məqalənin aid olduğu elm sahəsi üzrə xarici dili bilən tanınmış mütəxəssis olmalıdır.
2. Dövri elmi nəşr hansı dillərdə məqalə dərc edirsə, həmin dillərin hər birində məqalə müəllifləri üçün qaydalar verilməlidir.
3. Dövri elmi nəşrdə baxılan elm və ya texnologiya sahəsində qabaqçıl olan dünya ölkələrindən daxil olan məqalələrin çapına yer verilməlidir.
4. Məqalələrin mətnləri Times New Roman-12 şrifti ilə (məsələn, Azərbaycan dilində latın əlifbası, rus dilində kiril əlifbası, ingilis dilində ingilis əli fbası ilə) 1 intervalla çap olunmalıdır.
5. Hər bir məqalə yeni səhifədə verilməli və səhifənin yuxarısında dövri elmi nəşrin adını, ilini, cildini, sayını, məqalənin başlanğıc və son səhifələrini bildirən başlıq (zastavka) olmalıdır.
6. Məqalədə müəllif(lər)in işlədiyi müəssisə(lər) və həmin müəssisənin

(müəssisələrin) ünvan(lar)ı, müəllif(lər)in elektron poçt ünvan(lar)ı göstərilməlidir.

7. Elmi məqalənin sonunda elm sahəsinin və məqalənin xarakterinə uyğun olaraq, müəllif(lər)in gəldiyi elmi nəticə, işin elmi yeniliyi, tətbiqi əhəmiyyəti, iqtisadi səmərəsi və s. aydın şəkildə verilməlidir.
8. Məqalənin mövzusu ilə bağlı elmi mənbələrə istinadlar olmalıdır.

Məqalənin sonunda verilən ədəbiyyat siyahısı ya istinad olunan ədəbiyyatların mətndə rast gəlindiyi ardıcıllıqla (məsələn, [1] və ya [1, s.119] kimi işarə olunmalı) ya da əlifba ardıcıllığı ilə nömrələnməlidir. Eyni ədəbiyyata mətndə başqa bir yerdə təkrar istinad olunarsa, onda istinad olunan həmin ədəbiyyat əvvəlki nömrə ilə göstərilməlidir.

9. Ədəbiyyat siyahısında verilən hər bir istinad haqqında məlumat tam

və dəqiq olmalıdır. İstinad olunan mənbənin biblioqrafik təsviri onun növündən (monoqrafiya, dərslik, elmi məqalə və s.) asılı olaraq verilməlidir. Elmi məqalələrə, simpozium, konfrans və digər nüfuzlu elmi tədbirlərin materiallarına və ya tezislərinə istinad edərkən məqalənin, məruzənin və ya tezisin adı göstərilməlidir. İstinad olunan mənbənin biblioqrafik təsviri verilərkən Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının «Dissertasiyaların tərtibi qaydaları» barədə qüvvədə olan təlimatının «İstifadə edilmiş ədəbiyyat» bölməsinin 10.2-10.4.6 tələbləri əsas götürülməlidir.

10. Məqalənin sonundakı ədəbiyyat siyahısında son 5-10 ilin elmi məqalələrinə, monoqrafiyalarına və digər etibarlı mənbələrinə üstünlük verilməlidir.
11. Dərc olunduğu dildən əlavə başqa iki dildə məqalənin xülasəsi verilməlidir. Məqalələnin müxtəlif dillərdə olan xülasələri bir-birinin eyni

olmalı və məqalənin məzmununa uyğun olmalıdır. Məqalədə müəllifin və ya müəlliflərin gəldiyi elmi nəticə, işin elmi yeniliyi, tətbiqi əhəmiyyəti və s.

xülasədə yıgcam şəkildə öz əksini tapmalıdır. Xülasələr elmi və qramatik

baxımdan ciddi redaktə olunmalıdır. Hər bir xülasədə məqalənin adı, müəllifin

və ya müəlliflərin tam adı göstərilməlidir.

12. Hər bir məqalədə UOT indekslər və ya PAJS tipli kodlar və açar sözlər göstərilməlidir. Açar sözlər üç dildə (məqalənin və xülasələrin yazıldığı dillərdə) verilməlidir.

13. Məqalənin redaksiyaya daxil olma, təkrar işlənməyə göndərilmə və çapa qəbul olunma tarixləri sonda göstərilməlidir.

14. Dövri elmi nəşrin redaksiyası məqalənin dərc olunması ilə əlaqədar olaraq müəllif və ya müəlliflərin razılığını, göndərilən məqalənin əvvəllər dərc olunmadığını (məqalənin tezis şəklində dərc olunmuş variantı istisna olmaqla), məqalənin hər hansı bir dildəki variantının eyni zamanda digər dövri elmi nəşrlərə göndərilmədiyini və məqalə ilə bağlı elmi-tədqiqat işinin hansı müəssisədə yerinə yetirildiyini əks etdirən anket hazırlamalıdır. Bu anketi müəllif(lər) imzalayıb redaksiyaya göndərməli və ya dövri elmi nəşrin saytına daxil olub anketin elektron variantını doldurmalı və onu elektron təsdiqləməlidir(lər).

15. Elmi curnallarda «əvvəli ötən saylarımızda», «ardı növbəti nömrədə» adı altında seriya məqalələrin dərc olunmasına icazə verilmir.

16. Dövri elmi nəşrin əvvəlki nömrələrində dərc olunmuş məqalələrdə rast gəlinən ciddi səhvlər və ya texniki qüsurlara dair düzəliş və qeydlər elmi nəşrin növbəti nömrələrindən birində müəllif(lər) tərəfindən yenidən verilə bilər. Bu halda əvvəlki məqalə ilə «DÜZƏLİŞ» bölməsində verilən məqalənin adı eyni olmalıdır.

Həm də xatırlatmaq istəyirik ki, Azərbaycan Respublikasında elmi əsərlərin tərtibinə tələblərinə uyğun olaraq, məqalənin mətni aşağıdakı əsas elementləri özündə ehtiva etməlidir:

- *Ümumi problem və mühüm elmi və ya praktiki vəzifələri ilə bağlı problemin qoyuluşu;*
- *Bu problemin həllində müəllif üçün təməl rolunu oynayan son tədqiqatlar və nəşrlərin qısa təhlili;*
- *Bu məqalədə həlli nəzərdə tutulmuş məsələyə aid daha ümumi problemin hələ də həllini tapmayan tərəflərin aşkar edilməsi;*
- *Məqalənin məqsədlərinin göstərilməsi;*
- *Elmi nəticələrin tam əsaslandırılması ilə əsas tədqiqat materialın təqdimatı;*
- *Tədqiqatın nəticələri və bu istiqamətdə işin daha da inkişaf etdirilməsi perspektivləri.*

SOSİAL VƏ HUMANİTAR ELMLƏRİN MÜASİR PROBLEMLƏRİ

ELMİ ƏSƏRLƏR TOPLUSU

BURAXILIŞ № 29
(I HİSSƏ)

Təsisçi: fəlsəfə üzrə elmlər doktoru, prof. **Qızılgül Yasin qızı Abbasova**
Kompüter dizaynı – **Vüsalə Kərəm qızı Musayeva**

Yığılmağa verilmişdir: 25.04.2022

Çapa imzalanmışdır: 25.04.2022
Format: 60 ×84 1/8
Şərti çap vərəqi – 38
Sifariş № 45
Tiraj – 100 nüsxə